
GÜVƏN NƏŞRLƏRİ

3-CÜ QRUP

SINAQLAR TOPLUSU

15 SINAQ



2026

I NƏŞR

Azərbaycan dili, Tarix, Ədəbiyyat

GÜVƏN NƏŞRLƏRİ
2026

Yalçın Qəhrəmanov
Elnur Manafov
Səbuhi Hüseynov
Elvin Abasov
Vüqar Adilov

3-cü qrup

SINAQLAR TOPLUSU

MÜNDƏRİCAT

Sınaq 1 4
Sınaq 2 16
Sınaq 3 30
Sınaq 4 43
Sınaq 5 57
Sınaq 6 70
Sınaq 7 84
Sınaq 8 97
Sınaq 9 110
Sınaq 10 124
Sınaq 11 138
Sınaq 12 152
Sınaq 13 165
Sınaq 14 179
Sınaq 15 191

SINAQ 1

AZƏRBAYCAN DİLİ

Mövzular üçün | Video həllər üçün | Cavablar üçün

1. Bəndlərdən birində frazeoloji omonim ***işlənməmişdir***:
A) Lakin sevinmədi bizim babalar,
Qəfəsdə can verdi ellər, obalar. (S.Vurğun)
B) Sarıl günəş rəngli bir al bayrağa,
Səsinlə elləri qaldır ayağa. (S.Vurğun)
C) Bir neçə gündür ki, özümü yaxşı hiss edirəm, cana gəlirəm.
D) Ah, mən gündən-günə bu gözəlləşən
İşıqlı dünyadan necə əl çəkim? (M.Müşfiq)
E) Bu gün elmi işimi tamamlayıb başa vurdum.

2. Nümunəyə və cədvələ əsasən doğru fikirləri müəyyən edin.
O öz zindanını uçurtmuş bir məhbus, ölkəsini xilas etmək üçün ölümə gedən bir əsgər kimi qürurlu idi. (M.İbrahimov)

Doğrudur	Yanlışdır
1. Frazeoloji birləşmə işlənmişdir. 2. Yalnız qrammatik mənaya malik olan söz işlənməmişdir.	3. *Vüqar, əzəmət* sözlərinin sinonimi işlənmişdir. 4. Yalnız bir sözün səs və hərf tərkibi fərqlənir. 5. Omonim sözlər işlənmişdir.

A) 1, 3, 5 B) 1, 3, 4 C) 2, 3, 5
D) 1, 2, 4 E) 2, 4, 5

3. Hansı bənddə nöqtələrin yerinə uyğun saitlər yazılmalıdır?

	u	ü	i
A)	m...hazirə	m...naqişə	müh...m
B)	t...ğyan	paraş...t	pas...yent
C)	ill...ziya	k...barlıq	müd...r
D)	s...jet	hök...mət	r...sum
E)	füs...nkar	c...mhuriyyət	boş-b...kar

4. Cədvələ və nümunələrə əsasən uyğun fikirləri müəyyən edin.
1. *Oxu bu nəməni, əzizim Eldar!*
Qoy mənim dərdimi dinləsin dağlar. (S.Vurğun)
2. *Gəl, ana yurdumun qızı, gəlini,*
İndi hünər vaxtı, qeyrət dəmidir. (S.Vurğun)

1-ci nümunəyə aid yanlış fikirdir:	2-ci nümunəyə aid doğru fikirdir:
1. *Qulaq asmaq* frazeoloji birləşməsinin sinonimi işlənmişdir. 2. Yalnız qrammatik mənaya malik olan söz də işlənmişdir.	3. Bir-biri ilə münasibətdə sinonim olan sözlər işlənmişdir. 4. Omonim söz işlənməmişdir.

A) 1, 4 B) 2, 4 C) 1, 3 D) 2, 3 E) 1, 2

5. Cümlələrdən birində iki sözün tələffüzündə iki, iki sözün tələffüzündə isə bir fərqli məqam var:
A) Atam dəfələrlə mənə acıqlanmışdı ki, böyüklərin sözünə qarışmayım.
B) Torpaqdan nə qədər borc alsa rüzgar,
Aldığı torpaqla çuxur doldurar.
C) Sən kənddən çoxdan çıxıbsan, çox şeydən xəbərin yoxdur.
D) Eyvazın səsi get-gedə yaxınlaşır, Gülşən onun dediklərini aydın eşidirdi.
E) Yeni hökumət sərhədləri bağlayıb, daha İrandan qaçaqmal gətirmək mümkün deyil.

6. Hansı sözün yazılışı ilə deyilişi ***fərqlənmir***?
A) marketinq B) maqnitofon C) memarlıq
D) məxluq E) mübarək

7. Sözlərdən birində *[g]* samitinin kar qarşılığı ***işlənməmişdir***:
A) təşəkkür B) sənətkar C) kəklikotu
D) döşəküzü E) tədarük

8. Hansı sözdə nöqtələrin yerinə (ayrı-ayrılıqda) həm qalın, həm də incə sait yazmaqla yeni sözlər yaratmaq mümkündür?
A) t...başir B) b...yaz C) ş...hzadə
D) təl...fat E) müntəx...bat

9. Sözlərin yazılışı ilə deyilişi arasındakı fərq baxımından çoxdan aza doğru ardıcıllığı müəyyən edin.
1. itaətkarlıq 2. ionlaşdırmaq
3. xaincəsinə 4. xoşluqla
A) 1, 2, 3, 4 B) 4, 3, 2, 1 C) 4, 2, 1, 3
D) 4, 1, 2, 3 E) 3, 1, 2, 4

10. *Neyrocərrahiyyə* sözünün fonetik xüsusiyyətləri ilə bağlı düzgün fikirləri müəyyən edin.
1. Altıhecalıdır, saitlərdən biri uzun tələffüz olunur.
2. Səs və hərf tərkibi arasında iki fərqli məqam var.
3. Qarşılığı olmayan samitlərin sayı dodaqlanmayan saitlərin sayına bərabərdir.
4. Ahəng qanununa tabedir.
5. Sözdə kar/cingiltili samit cütlüyü işlənmişdir.

A) 1, 3, 5 B) 1, 3, 4 C) 2, 3, 5
D) 1, 2, 4 E) 2, 4, 5

11. Hansı bənddə sinonim cütlük ***pozulmuşdur***?
A) etiqadlı – əqidəli, ehtiyac – tələbat
B) vəzifə – mənsəb, dəyanətli – mətanətli
C) tədris – məktəb, baxmaq – görmək
D) beşik – nənni, məzəmmət – tənbeh
E) dəlil – isbat, dəbdəbə – ehtişam

12. Hansı sözün yazılışı doğrudur?
A) dekarasiya B) diplomant C) ehdimal
D) fakultə E) mulahizə

13. Bəndlərdən birində *açmaq* sözünün mənası ilə cümlədə işlənməsi arasında ***uyğunsuzluq*** var:

	Sözün mənası	Nümunə
A)	Əsasını qoymaq, təsis etmək	Süngülər açmayan yolu açdın; Qələmindən cavahirat saçdın. (A.Səhhət)
B)	Həqiqəti açmaq, öz qəlbini açmaq	Yox… sənin səsində bir titrəyiş var; Gəl məndən gizlətmə, aç, söylə aşkar. (S.Vurğun)
C)	Faş etmək, demək, açıb söyləmək	Sirri-dəhəni-yarı könül, axtar özün tap; Söz yox ki, açıb şəxsə müəmmanı deməzlər. (S.Ə.Şirvani)
D)	Xoşuna gəlmək, ürəyinə yatmaq	Nə də ki, o durna gözlərin sənin; Artıq güldürməyir, açmayır məni. (S.Vurğun)
E)	Həll etmək, yoluna salmaq	Vidadi! Darıxma, bizdə məsəl var; Bir yandan bağlayan, bir yandan açar. (S.Vurğun)

14. Hansı sözün leksik mənası ***verilməmişdir***?
1. Başqasının naminə, təmənnasız olaraq, öz mənafeyini qurban verməkdən ibarət əxlaqi prinsip
2. Ancaq özünü, öz mənafeyini düşünən adam
3. Hər kəslə mehriban olan; ünsiyyətli
4. Ümumi bir iş yolunda, məslək uğrunda təhlükəli işlərə qoşulub canından keçməyə hazır olan şəxs

A) munis B) eqoist C) fədai
D) altruizm E) cəsur

15. Nümunədəki sözlərin leksik xüsusiyyətləri ilə bağlı doğru fikirləri müəyyən edin.

Bu dünya bir qızıl kuzəyə bənzər,
Suyu gah şirindir, gah da ki zəhər
Çox da öyünmə ki, uzundur ömrün,
Əcəl köhlənində hazırdır yəhər.

(Məhsəti Gəncəvi)

1. İkinci misrada bir-biri ilə münasibətdə antonim olan sözlər işlənmişdir.
2. Dördüncü misrada məcazi mənalı söz işlənmişdir.
3. *Döşünə döymək* frazeoloji birləşməsinin və *oxşar* sözünün sinonimi işlənmişdir.
4. Yalnız qrammatik mənaya malik olan sözlər də işlənmişdir.
5. Nümunədəki sözlərdən heç birini tərkib hissələrinə ayırmaqla leksik mənasını izah etmək olmaz.

A) 1, 3, 5 B) yalnız 2, 4 C) 2, 3, 4
D) 1, 4, 5 E) yalnız 1, 3

16. Verilmiş sözlərin orfoqrafiyasını nəzərə alıb məntiqi ardıcıllığı tamamlayın.
1. səhmdar *2. seyrəngah* *3. .....*
A) səbr B) sehirli C) sayğısızlıq
D) səlahiyət E) sərişdə

17. Hansı bənddə verilmiş sözlərdən yalnız biri leksik mənaya malikdir?
A) hərəkat, hərəkət B) kompaniya, kampaniya
C) bəyaz, bayaz D) nigah, nikah
E) əhvəlat, əhvalat

18. Cədvəli tamamlayan fikirləri müəyyən edin.

1.	Məna tayları müxtəlif nitq hissəsinə aid olan omonimdir.
	Antonimi var.
	2. .....
	3. .....

A) 1. Mürəkkəb; 2. Sinonimi var; 3. Yazılışı ilə deyilişi fərqlənmir.
B) 1. Say; 2. Həm leksik, həm də qrammatik mənaya malikdir; 3. Məcazi mənada işlənə bilmir.
C) 1. İnci; 2. Termin kimi işlənə bilir; 3. Sinonimi yoxdur.
D) 1. Keçinmək; 2. Səs və hərf tərkibi fərqlənir; 3. Ahəng qanununa tabedir.
E) 1. Quru; 2. Sinonimi var; 3. Məcazi mənada işlənə bilir.

19. Tərkibindəki hər iki sözün fərqli tələffüz olunduğu bir-ləşməni müəyyən edin.
A) sünbül dəstəsi
B) qonaq otağı
C) bulud topası
D) çörək zavodu
E) ərik ağacı

20. *"Düz"* sözü müxtəlif qrammatik mənalara malikdir. Əgər *"düz"* feilinin antonimini müəyyən etmək istəyiriksə, həmin antonim hansı nitq hissəsi olmalıdır?
A) yalnız sifət
B) yalnız zərf
C) yalnız feil
D) əsas nitq hissələrinin bir neçəsi
E) həm əsas, həm də köməkçi nitq hissəsi

21. Bəndlərdən birində fərqləndirilmiş frazeoloji birləşmənin
həm sinonimi, həm də antonimi verilmişdir:
A) *özündən çıxmaq*; cin atına minmək, sakitləşmək
B) *zəhləsi getmək*; acığı gəlmək, bəyənmək
C) *incik salmaq*; qəlbinə dəymək, könlünü almaq
D) *ağzına su almaq*; dil-dil ötmək, dil boğaza qoymamaq
E) *əli soyumaq*; hirsi yatmaq, canını oda yaxmaq


22. *"Baxıram, siz çox yaxşı adama oxşayırsınız"* cümləsindəki *oxşamaq* sözü ilə *"Xaçın çayı aşağı əsən sərin külək Nəcəfalı kişini oxşadı"* cümləsindəki *oxşamaq* sözü hansı məna qrupuna aiddir?
A) omonimlərə
B) sinonimlərə
C) antonimlərə
D) çoxmənalı sözlərə
E) təkmənalı sözlərə

23. Verilmiş nümunə ilə bağlı doğru fikirləri müəyyən edin.

Ah, mən gündən-günə bu gözəlləşən,
İşıqlı dünyadan necə əl çəkim?
Bu yerlə çarpışan, göylə əlləşən
Dostdan, aşinadan necə əl çəkim?
(M.Müşfiq)

1. Üçüncü misrada bir-biri ilə antonimlik təşkil edən sözlərin hər ikisi omonim sözdür.
2. Dördüncü misrada bir-biri ilə münasibətdə sinonim olan sözlər işlənmişdir.
3. *Vaz keçmək* frazeoloji birləşməsinin sinonimi işlənmişdir.
4. Üçüncü misrada çoxmənalı söz işlənmişdir.
5. Yalnız qrammatik mənaya malik olan söz işlənməmişdir.

24. Eyler-Venn diaqramına və nümunələrə əsasən doğru fikirləri müəyyən edin.
a. *Hətta bütün şimal əyalətlərini qəsb etmək istədikləri qəzetlərdə faş olunmalıdır.*
(M.İbrahimov)
b. *Ayazlı, şaxtalı bir qış axşamı*
Yeddi yoldaş olub, yola düzəldik. (S.Vurğun)



1. Məcazi mənalı söz işlənmişdir.
2. Ahəng qanununa tabe olmayan söz işlənmişdir.
3. Frazeoloji birləşmə işlənmişdir.
4. Yalnız qrammatik mənaya malik olan söz də işlənmişdir.
5. *Qasırğa, sazaq* sözləri ilə yaxınmənalı söz işlənmişdir.
6. Bir-biri ilə münasibətdə sinonim sözlər işlənmişdir.

25. Frazeoloji birləşmənin ***işlənmədiyi*** nümunələri müəyyən edin.
1. Sonsuz boşluqlara qədər baş alıb gedən meşəyə baxdıqca qoca palıdın ürəyi dağa dönürdü. (İ. Şıxlı)
2. Bir yerə yığışanda da bu cansıxıcı söhbətlərdən əl çəkmirdik.
3. Mən onun baxışlarındakı bu dərin mənanı oxuya bilmirdim.
4. Müğənninin xoş avazını dinlədikcə ruhumuz təzələnirdi.
5. Oxumaq üçün xaricə üz tutan tələbələr təhsillərini uğurla başa vurdular.

26. *Yol* sözünün məcazi mənada işləndiyi cümlələri müəyyən edin.
1. Bağlar arası ilə uzanan bir yolla gedirdim.
2. Buzqıran gəminin açdığı yoldan qayıqlar keçdi.
3. İndi hər bir savadlı adam qarşısında geniş yollar açılmışdır.
4. Mənim başım plov bişirməyə qarışacaqdır, sən çalış, onu yola gətir. (S.S.Axundov)
5. Mənim konsulxanada verilən ziyafətə yol tapa biləcəyimə imkan yaradacaqdı.

27. Sözlərin yazılışı ilə deyilişi arasındakı fərqli məqamların sayına əsasən uyğunluğu müəyyən edin.

1. itaətkarlıq	2. xoşluqla	3. günlərlə
a. paslanmaq	b. səbirlə	c. sərbəstləşmə
d. arxayınlıqla	e. gicitkənlik	

Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları Cavab vərəqində yerinə yetirin.

Turinq testi

Kompüter elminin atası sayılan, riyaziyyatçı, kriptoqraf, informatika elminin yaradılmasında böyük rol oynayan ingilis alim Alan Turinq süni intellekt haqqında ilk fikirlərini 1950-ci ildə "Mind" jurnalında çap edilmiş "Hesablama maşınları və şüur" məqaləsində bildirib. O həmin məqalədə insanla kompüter arasında gedən testdən bəhs edirdi. Belə ki, bu test bir insan, bir kompüter və bir münsiflə aparılır. Münsif nə kompüteri, nə də insanı görə bilir, sadəcə onlarla dialoq aparır, sual-cavab edir. Münsifin sualları və təcrübədə iştirak edən kompüter ilə insanın verdiyi cavablar bir ekranda yazılı olaraq görünür. Məqsəd münsifin verilən cavablar əsasında hansının insan, hansının kompüter olduğunu **tapmasıdır**. Turinq deyir ki, kompüter o zaman süni intellektə sahib ola bilər ki, o, münsifi çaşdırsın və münsif onunla insanın, yoxsa kompüterin danışdığını başa düşə bilməsin. Test zamanı münsif bu fərqi aydınlaşdıra bilmirsə, deməli, həmin kompüter mükəmməl süni intellektdir.

Turinqin bu **ideyası** hazırda "Turinq testi" adlandırılır və süni intellektin yaradılmasında gedən araşdırmalarda ondan hələ də istifadə edilir. Test kompüterin və ya başqa bir sistemin insanlarla eyni zehni bacarığa sahib olub-olmadığını müəyyən etmək məqsədi daşıyır. Ümumi mənada bu test bir mütəxəssisin maşının performansı ilə bir insanınkını ayırd edib-etməyəcəyini ölçür. Əgər ayırd edə bilməzsə, deməli, maşın insanlar qədər zehni bacarığa sahibdir. Hələ ki Turinq testini keçən kompüter, maşın olmayıb. Lakin belə düşünülür ki, ideal virtual söhbət proqramı Turinq testini keçə biləcək...

Turinqin bu yanaşması süni intellekt araşdırmalarının ən **ibtidai** forması idi. Aradan keçən illərdə bu sahədə daha ciddi kəşflər edildi və süni intellektin həyatımızda nüfuzunu hiss etməyə başladıq; Şahmat oyununda kompüterə uduzmaq heyrətləndirici hadisə deyil və ya SİRİ kimi proqramlar vasitəsilə kompüterlə ünsiyyət qurub ondan cavablar almaq artıq .....

28. Tünd hərflərlə verilmiş sözlərin kontekstə uyğun qarşılığını müəyyən edib yazın.
1. **tapmaq** .....
2. **ideya** .....
3. **ibtidai** .....

29. Mətnə əsasən doğru fikri və ya fikirləri müəyyən edib seçiminizi əsaslandırın.
1. Elm, texnika inkişaf etdikcə əvvəllər əlçatmaz, qəribə görünən hadisələr zamanla insanlar üçün adiləşir.
Əsaslandırma: .....

2. "Turinq testi"nin əsas mahiyyəti kompüterin, maşının, süni intellektin heç vaxt insanlar qədər zehni bacarığa sahib ola bilməyəcəyini sübut etməkdən ibarətdir.
Əsaslandırma: .....

3. "Türinq testi"nə görə, kompüterin mükəmməl süni intellekt hesab edilməsinin əsas şərti münsifin danışıq zamanı üstünlüyü kompüterə verməsindən ibarətdir.
Əsaslandırma: .....


30. Mətnin məzmununa əsasən nöqtələrin yerinə uyğun fikir yazmaqla cümləni tamamlayın.

TARİX

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

31. Qay Yuli Sezarın öldürülməsinə səbəb oldu:
A) İmperiyanı iki oğlu arasında bölüşdürməsi
B) Karfagenlə müharibədə məğlubiyyətə uğraması
C) Plebeylərə xalq tribunlarını seçmək hüququnu verməsi
D) Respublikanı monarxiya ilə əvəz etməyə çalışması
E) Qladiator döyüşlərinin keçirilməsini dayandırması

32. Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin.



a. Xəzərlərin hücumunun dayandırılması
b. Ərəblərin Albaniyaya yolunun açılması
c. Babəkin qoşunlarının ilk dəfə məğlubiyyətə uğraması
d. VIII əsrin 30-cu illərində baş verməsi
e. Ərəb qoşunlarının qələbə qazanması
A) 1-a; 2-d, e; 3-c; 4-b B) 1-c; 2-b, d; 3-e; 4-a
C) 1-e; 2-b, d; 3-a; 4-c D) 1-e; 2-c, d; 3-a; 4-b
E) 1-b; 2-a, d; 3-c; 4-e

33. Uyğunluq gözlənilmişdir:
1. Bərdə şəhərinin paytaxta çevrilməsi qərara alındı – Aquen kilsə məclisində
2. Albaniyada xristianlığı dövlət dini elan etmişdi – Urnayr
3. Haylandur hunlarının Albaniyaya hücumuna səbəb oldu – "Məzdəkilər hərəkatı"
4. Roma ilə Sasanilər arasında baş vermişdi – Dzirav döyüşü
A) 1, 3 B) 2, 3 C) 3, 4 D) 1, 2 E) 2, 4


34. E.ə. XIII əsrin əvvəllərində Qədim Misir tarixi üçün xarakterikdir:
A) Misirin Roma qoşunlarının işğalına məruz qalması
B) Vahid Misir dövlətinin əsasının qoyulması
C) II Ramzesin hetlərlə sülh müqaviləsi imzalaması
D) Makedoniyalı İsgəndərin Misiri ələ keçirməsi
E) Ölkənin şimal sərhədlərinin ilk dəfə Fərat çayına çatması

35. Erkən Tunc dövründən ***fərqli*** olaraq, Orta Tunc dövründə:
A) Toxa əkinçiliyi xış əkinçiliyi ilə əvəz olundu
B) Sənətkarların içərisindən tacirlər qrupu ayrıldı
C) Bəzi qəbirlərin üzərində kurqanlar quruldu
D) İlkin şəhər mərkəzləri meydana gəldi
E) Şumlama zamanı qoşqu heyvanlarından istifadə olunurdu

36. Məntiqi ardıcıllığı tamamlayın.
1. İşğal olunmuş ərazilərdə üsyanların baş verməsi
2. İmperator Trayanın geri qayıtmağa məcbur olması
3. .....
A) Siciliya adasının Romanın nəzarətindən çıxması
B) Spartakın başçılıq etdiyi üsyanın yatırılması
C) Parfiyanın fəthinin yarımçıq qalması
D) Hunların Roma ərazisində basqınlarının artması
E) Patrisilər və plebeylər arasındakı mübarizənin kəskinləşməsi

37. İlk xəlifələr dövründə xilafətin Azərbaycanda yeritdiyi vergi siyasəti üçün səciyyəvidir:
A) Vergilərin miqdarı daha da artırıldı
B) Xərac torpağın sahəsinə görə toplanmağa başlandı
C) Xristianlar və yəhudilər can vergisindən azad olundu
D) Yerli əyanların idarəçilikdə iştirakına icazə verildi
E) Əkilməyən torpaqdan xərac alınması dayandırıldı

38. Xəritədə paytaxtları rəqəmlərlə verilmiş dövlətlərin e.ə. I əsrə aid oxşar xüsusiyyətini müəyyən edin.



A) Selevki dövlətindən asılılığın qəbul edilməsi
B) Alan tayfalarının basqınlarına məruz qalmaları
C) Makedoniyalıların özbaşınalığına qarşı üsyanların baş verməsi
D) Romalıların hücumlarına qarşı mübarizə aparılması
E) Parfiya tərəfindən süquta uğradılmaları

39. Periklin strateq seçilməsindən sonra və Xeroneya döyüşündən əvvəl baş vermişdir:
A) Afina-Sparta müharibəsinin başa çatması
B) İlk Olimpiya oyunlarının keçirilməsi
C) Marafon düzündə yunanların qələbə qazanması
D) Makedoniyalı İsgəndərin imperiyasının parçalanması
E) Yunanıstanın Romanın əyalətinə çevrilməsi

40. Hadisə-nəticə əlaqəsinin doğru verildiyi bəndləri müəyyən edin.

	Hadisə	Nəticə
1.	Çar I Nikolayın inzibati-məhkəmə islahatı haqqında qanun verməsi	Andlı iclasçılar məhkəməsinin yaradılması
2.	Kəndlilərin üzərinə hərbi vergi adlanan əlavə mükəlləfiyyətin qoyulması	Hacı Məhəmmədin başçılığı ilə Quba üsyanının baş verməsi
3.	Güzəştli ticarət tarifinin tətbiq edilməsi	Cənubi Qafqaza gətirilən əcnəbi mallarının yalnız 50%-dən gömrük haqqı alınması
4.	"Şəhər özünüidarəsi haqqında" əsasnamənin qəbul edilməsi	İrəvan quberniyasının formalaşdırılması
5.	İltizam sisteminin ləğv olunması	Neft sənayesinə kapital qoyuluşunun artması

A) 1, 2 B) 2, 3 C) 3, 5 D) 1, 3 E) 4, 5

41. Verilənlər arasında hansı dövrə aid məlumat ***yoxdur?***
– Ulu icmanın qəbilə icması ilə əvəz olunması
– Əhalinin oturaq həyata keçməsi
– Süni suvarma sisteminin yaranması
– Müharibə və hərbi işin əsas məşğuliyyətə çevrilməsi
A) Neolit dövrünə B) Erkən Tunc dövrünə
C) Eneolit dövrünə D) Üst Paleolit dövrünə
E) Son Tunc-İlk Dəmir dövrünə

42. Qədim Yunanıstanda:
1. Aristokratlarla demos arasında gərginlik zəifləndi
2. Əmlakından asılı olmayaraq bütün vətəndaşlar xalq yığıncağında iştirak edə bilərdilər
A) "Drakon qanunları"nın qəbul olunması nəticəsində
B) Spartak üsyanının qələbə qazanması ilə
C) Qrakx qardaşlarının demosun mənafeyinə uyğun tədbirləri nəticəsində
D) Yunan-Əhəməni müharibəsində yoxsulların orduda fəal iştirakı ilə
E) Solon islahatları nəticəsində

43. Qaumata hərəkatının məqsədi:
A) Midiyanı Assuriya əsarətindən həmişəlik azad etmək
B) Massagetlərdən II Kirin qisasını almaq
C) Fars sülaləsinin zülmünə son qoymaq
D) Urartunun Azərbaycana hücumlarının qarşısını almaq
E) Midiyada İskitlərin hakimiyyətini ləğv etmək

44. Uyğunluğu müəyyən edin.



a. Parfenon məbədinin inşa edilməsi
b. İnsanların xarakterini göstərən heykəllərin hazırlanması
c. Kolizey amfiteatrın mövcud olması
d. İlk kompasın ixtira edilməsi
e. "İliada" və "Odisseya" poemalarının yaradılması

A) 1-b, c; 2-a, e
B) 1-a, b; 2-c, d
C) 1-b; 2-c, e
D) 1-a, e; 2-c
E) 1-d, e; 2-b, c

45. Daha əvvəl baş vermişdir:
A) Bakı-Tiflis dəmir yolunun istifadəyə verilməsi
B) Sahibkar kəndlilərinin "müvəqqəti mükəlləfiyyətli" vəziyyətindən azad olmaları
C) Bakıda ilk toxuculuq fabrikinin açılması
D) Alban katolikosluğunun ləğv edilməsi
E) Qafqaz canişinliyinin təsis olunması

46. Lukull və Pompeyin Şərqə hərbi yürüşləri nəticəsində Atropatena dövləti:
A) Romalı canişinlər tərəfindən idarə edilməyə başlandı
B) Roma imperatoruna təzminat ödəməyə razılıq verdi
C) Romaya qarşı Selevkilərlə müttəfiq oldu
D) Karra döyüşündə romalılar üzərində qələbə qazandı
E) Roma dövlətindən asılı vəziyyətə düşdü

47. Xürrəmilər hərəkatına aid ***deyil:***
A) Sosial bərabərliyin yaradılması uğrunda mübarizə aparırdılar
B) Hərəkata bir sıra yerli feodallar da qoşulmuşdu
C) Babəkin başçılığı ilə başlamışdı
D) Abbasilərin Azərbaycanda yeritdiyi ağır vergi siyasətinə qarşı yönəlmişdi
E) Məzdəkilər hərəkatının ideya davamçıları idilər

48. E.ə. III əsrə aid buraxılmış ifadəni müəyyən edin.

Qədim Hindistan	Qədim Çin	Qədim Roma
Mauriya sülaləsinin hökmranlıq etməsi	Bütün ölkənin vahid dövlətdə birləşdirilməsi	?

A) Roma imperiyasının iki hissəyə parçalanması
B) Qladiator döyüşlərinin keçirilməyə başlanması
C) Qrakx qardaşlarının torpaq islahatı uğrunda mübarizə aparması
D) Pun müharibələrinin başa çatması
E) Spartakın başçılığı ilə qulların qiyam qaldırması

49. Orta Paleolit dövründə ibtidai insanların həyatında baş vermiş dəyişikliklər:
1. Süni yolla odun əldə edilməsi
2. Ox və kamanın ixtira olunması
3. Axirət dünyasına inamın yaranmağa başlanması
4. Torpağın toxa ilə şumlanması
A) 1, 2 B) 2, 3 C) 3, 4 D) 1, 3 E) 2, 4

50. I Rusa hücuma keçib Mannanın şimal, şimal-qərb vilayətlərini qarət edərək iyirmi iki Manna qalasını ələ keçirdi. Hakimiyyətə gəlmiş Azanın qardaşı Ullusunu çıxılmaz vəziyyətdə qalıb Urartu meyilli qüvvələrin tərəfinə keçdi və I Rusa onu Manna hökmdarı kimi tanıdı. Əvəzində Ullusunu I Rusanın işğal etdiyi ərazilərin Urartuya verilməsi ilə razılaşmalı oldu.
Ullusununun bu siyasəti səbəb oldu:
A) Urartunun Mannanın daxili müstəqilliyinə son qoymasına
B) II Sarqonun Mannaya yürüş etməsinə
C) Şuandahul və Durdukka şəhərlərində üsyanların baş verməsinə
D) Kimmer-iskit-sak tayfalarının Manna torpaqlarına köçməsinə
E) Uauş dağında Ullusununun assurlar tərəfindən öldürülməsinə


51. E.ə. VII əsrdə Afina və e.ə. II əsrdə Roma dövlətləri arasında ümumi cəhət:
A) Qladiator döyüşlərinin keçirilməsi
B) Yoxsullara torpaq verilməsi uğrunda mübarizənin baş verməsi
C) Aralıq dənizi hövzəsində hakim qüvvəyə çevrilmələri
D) Qulların öldürülməsinin qadağan olunması
E) Yoxsullara dövlət vəzifələrində çalışa bilmələri üçün əmək haqqı verilməsi

52. Albaniyaya qayıtdıqdan sonra Cavanşirin həyata keçirdiyi ilk tədbir:
A) Sasani feodallarına qarşı uğurlu mübarizə aparılması
B) Xilafətlə münasibətlərin diplomatik yolla nizama salınması
C) Paytaxtın Qəbələdən Bərdə şəhərinə köçürülməsi
D) Xəzər xaqanı ilə qohumluq əlaqələrinin yaradılması
E) Arşaki sülaləsinin hakimiyyətinə son qoyması

53. Xan sülaləsinin xarici siyasətinə aiddir:
1. Yunan-Makedoniya işğalına qarşı mübarizə aparılması
2. Koreyanın işğal olunması
3. Pinçen sazişinin imzalanması
4. Qərbi Hun dövlətinin süquta uğradılması
5. "Sarısarıqlılar" üsyanının yatırılması

54. Makedoniyalı İsgəndərin Hindistanın fəthini yarımçıq qoymasının səbəbləri:
1. Roma qoşunlarının Makedoniya ərazisinə hücuma keçməsi
2. Makedoniyalıların özbaşınalığına qarşı Bariaksın üsyan qaldırması
3. Əhalinin ciddi müqavimət göstərməsi
4. Yorulmuş ordunun yürüşü davam etdirməkdən imtina etməsi

55. Xəritədə işarələnmiş ərazi ilə bağlı doğru fikirləri müəyyən edin.



1. Azərbaycanda ilk pambıqtəmizləmə zavodunun işə salınması
2. XIX əsrin 40-cı illərində quberniyaya çevrilməsi
3. Hərbi Dairə Rəisliyinin fəaliyyət göstərməsi
4. Xəzər vilayətinin mərkəzi hesab olunması

56. Xronoloji ardıcıllığı müəyyən edin.
1. Misirin Romanın əyalətinə çevrilməsi
2. Periklin strateq seçilməsi
3. Xan sülaləsinin hakimiyyətə gəlməsi
4. İmperator Konstantinin paytaxtı Vizantiyə köçürməsi

57. Uyğunluğu müəyyən edin.
1. 1846-cı il reskripti
2. 1866-cı il məhkəmə islahatı
3. 1870-ci il kəndli islahatı
a. Tiflis, Kutaisi, Şamaxı və Dərbənd quberniyaları yaradıldı
b. Hakimlər Qafqaz canişini tərəfindən təyin edilirdi
c. Azərbaycanın sahibkar kəndliləri şəxsən azad olundu
d. Əyalət və şəhər məhkəmələri yaradıldı
e. Müxtəlif kəndli qrupları vahid adla "mülkədar tabelisi" adlandı

Sizə təqdim olunmuş mənbəni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları cavab kağızında yerinə yetirin.

Heç bir başqa gəliri olmayıb öz əməyi hesabına yaşayan yoxsulların dövlət idarələrində işləyə bilməsi üçün Afinada yeni bir islahat keçirildi. Bu islahata görə hər bir dövlət vəzifəsində çalışan şəxsə təqaüd, daha doğrusu, maaş verilirdi. .... Ali hakimiyyət həddi-buluğa (20 yaşa) çatmış azad vətəndaşların yığıncağının əlində idi. .... Yoxsulların müəyyən hissəsi, xüsusilə əlillər və vətən yolunda həlak olmuş qəhrəmanların ailələri və s. dövlət hesabına saxlanılırdı. .... Afina mövqeyinin Qara dəniz sahillərində möhkəmlənməsi və Aralıq dənizinin qərbində öz təsirini qüvvətləndirmək cəhdləri onu Peloponnes müharibəsi (Afina-Sparta müharibəsi) adlanan böyük müharibəyə gətirib çıxartdı.

58. Mənbədə bəhs olunan islahatlar kimin dövrünə aiddir?

59. Mənbə əsasında Afinadan ***fərqli*** olaraq, Qədim Romada yoxsulların vəzifə tutmaq ***istəməməsinin*** səbəbini yazın.

60. Mənbənin sonunda bəhs olunan müharibənin Qədim Yunanıstanın sonrakı siyasi tarixinə təsirlərindən ikisini qeyd edin.

ƏDƏBİYYAT

Mövzular üçün | Video həllər üçün | Cavablar üçün

61. Doğru fikri müəyyənləşdirin.
A) Əsərin həcmindən asılı olaraq süjetin mərhələlərinin həcmi fərqlənə bilər.
B) Kompozisiyanın ünsürlərinə yer verilən bir əsərdə süjetin mərhələlərinə rast gəlinmir.
C) Hər üç ədəbi növdə olan əsərlərdə süjetin mərhələlərinə rast gəlmək mümkündür.
D) Süjet bədii əsərdə həyat hadisələrinin bir-biri ilə əlaqələndirilməsidir.
E) Süjet və kompozisiya müəyyən məqamlarda fərqlilik göstərsə də, əsasən, eyni anlayışlardır.

62. (✓) işarəsi doğru, (✗) işarəsi isə yanlış fikirləri bildirir. Bu məlumatı nəzərə alaraq cədvəldəki hansı cərgələrdə ***səhv*** yol verildiyini müəyyənləşdirin.

	Fikir	*Lirik növ*	*Epik növ*	*Dramatik növ*
1	Nəzmlə yazılan nümunələri var.	✓	✓	✓
2	Nəsrlə yazılan nümunələri var.	✗	✓	✓
3	Təbiət təsvirlərinə geniş yer verilə bilər.	✓	✓	✓
4	Bədii təsvir və ifadə vasitələrindən istifadə oluna bilər.	✓	✓	✗

A) 1, 2 B) yalnız 4 C) 3, 4
D) 2, 3 E) yalnız 1

63. Misradaxili bölgüsünə görə digərlərindən fərqlənən bəndi müəyyənləşdirin.
A) Şairtək narahat bir səma hanı?
O, dolan buluddur, gərək yağa o.
(S.Sərxanlı)
B) Dağa qalxa-qalxa baş əyir yollar,
Yollar diz qatlayıb ikiqat olur. (S.Tahir)
C) Haçan nurlu axşam yerlərə düşür,
Ayın saf nurunda alışır Xəzər. (N.Xəzri)
D) İnsan var, yaşayır yüz il, yüz beş il,
Həyata çağırır hər yeni fəsil. (N.Həsənzadə)
E) Mən torpağın qüdrətinə heyranam,
Yüz ziynəti, yüz rəngi var hər ildə. (R.Rza)

64. Nümunədə işlənmiş bədii təsvir və ifadə vasitələri haqqında fikirlərdən hansı ***səhvdir?***
Nə adla minmişdik bu qayığa biz?
Niyə düşünmədik bir azca qabaq?
Yenə dəli olub bu dəli dəniz,
O tay da uzaqdı, bu tay da uzaq.
(Ş.Rüstəm)
A) Bir məqamda epitetdən istifadə olunmuşdur.
B) İki misrada bədii sual işlənmişdir.
C) Söz sırasının pozulmasına rast gəlinir.
D) Əks anlayışlardan istifadə ilə bədii təzad yaradılmışdır.
E) Köçürmə işlənmişdir.

65. Vəznlərin müqayisəsi ilə bağlı cədvəldəki ***səhv*** fikirləri müəyyənləşdirin.

Heca vəzni	Əruz vəzni
1. Lirik və epik əsərlər bu vəzndə yazıla bilər. 2. Əsas tələblərindən biri misralardakı hecaların sayının bərabər olmasıdır.	3. Yarandıqdan bir müddət sonra sistemləşdirilmişdir. 4. Ədəbiyyatımızda işlənən ən qədim vəzndir.
5. Sözün bütövlüyünün qorunması vəznin əsas prinsiplərindən biridir. 6. Ahəngdarlığın gözlənilməsi vacibdir.	

A) 2, 4, 6 B) 3, 4, 6 C) 2, 3, 5
D) 1, 4, 5 E) 1, 3, 5

66. Dram janrı haqqında fikirlərdən hansı doğrudur?
A) İnsanları dərindən düşündürmək, dərin kədər yaratmaq məqsədilə yazılır.
B) Kulminasiya, razvyazka və s. mərhələlər müşahidə olunur.
C) Nəzmlə yazılan nümunələrinə rast gəlinmir.
D) Müəllif tərəfindən əsər boyu surətlərin xarakteri haqqında dolğun məlumat diqqətə çatdırılır.
E) Baş qəhrəmanın məğlubiyyəti mənəvi qələbə kimi mənalandırılır.

67. Nümunədə işlənmiş bədii təsvir və ifadə vasitələri ilə bağlı ardıcıllığı müəyyənləşdirin.
Çırpıb qanadını uçdu günlərim,
Əllərimdə mənim bir ələk qalıb.
Mən çıxıb gedirəm, özünü qoru,
Apara bilmədim, kor fələk qalıb.
1. Yalnız inversiya işlənmişdir.
2. Heç bir bədii təsvir və ifadə vasitəsi işlənməmişdir.
3. Metafor işlənmişdir.
4. Epitet işlənmişdir.
A) 3, 1, 4, 2 B) 3, 2, 4, 1 C) 3, 1, 2, 4
D) 1, 3, 4, 2 E) 2, 3, 4, 1

GÜVƏN NƏŞRİYYATI

68. Hansı cümlələrdə nöqtələrin yerinə *"qəzəl"* sözü yazılsa, fikir doğru olar?
1. .....dən fərqli olaraq, qitədə misraları qafiyələnən beyt olmur.
2. .....də müxtəlif misralardan ibarət olan şeir vahidlərindən istifadə oluna bilər.
3. Müxtəlif hadisələrin qarşılaşdırılması .....də çox istifadə olunan üsullardandır.
4. Daxili qafiyə, bölgü və s. anlayışlara .....də rast gəlinmir.
5. ..... klassik şeir üslubunda yazılan janrlardan biridir.

A) 3, 4 B) 1, 5 C) 2, 5 D) 2, 4 E) 1, 3

69. Süjetin zavyazka mərhələsinə aiddir:
A) Bu mərhələdə hadisələr ən yüksək inkişaf mərhələsinə çatır.
B) İlk dəfə olaraq bu mərhələdə hadisələrin sonrakı mərhələsi üçün hazırlıq görülür.
C) Ziddiyyətlərin zəifləməyə başladığı mərhələdir.
D) Hadisələrin ardıcıllığında son mərhələdir.
E) Hadisələrin get-gedə mürəkkəbləşməyə başladığı mərhələdir.

70. Nümunədə işlənmiş bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirin.

Can nədir ki?
Can da paydır, ruzidir.
Urvalıqdır, bir ovucdan az undur.
Ötüb keçən dövran ki var,
mövzudur.
(V.Bəhmənli)

A) yalnız təşbeh, anafora
B) bədii sual, bədii təzad
C) təşbeh, inversiya, anafora
D) təşbeh, bədii sual
E) bədii sual, inversiya, anafora

71. Satira və yumorun səciyyəvi xüsusiyyətlərini nəzərə alaraq verilənlərdən hansının satirik tənqid hədəfi hesab edilə ***bilməyəcəyini*** müəyyənləşdirin.
A) təhsilə qarşı çıxan, məktəblərin çoxalmasından narahat olan şəxs
B) başqalarının əməyini mənimsəyərək özününkü kimi qələmə verən şəxs
C) insanlara əziyyət verməkdən çəkinməyən şəxs
D) mövqeyindən başqalarını istismar etmək üçün istifadə edən şəxs
E) səbirsiz olduğuna görə tələsib işlərini daha da çətinləşdirən şəxs

72. Uyğunluğu müəyyənləşdirin.
1. Yalnız bir janrda müşahidə olunan xüsusiyyətdir.
2. Birdən çox janrda müşahidə olunan xüsusiyyətdir.


a. Bütün nümunələri beytlərdən ibarətdir.
b. Bütün nümunələri həcmcə yığcamdır.
c. Bütün nümunələri baş qəhrəmanlardan ən az birinin ölümü ilə nəticələnir.
d. Bütün nümunələri həzəc bəhrində yazılır.
e. Bütün nümunələri tamaşaya qoyulmaq üçün yazılır.

A) 1-c, d; 2-a, b, e B) 1-a, c, d; 2-b, e
C) 1-c, e; 2-a, b, d D) 1-b, d; 2-a, c, e
E) 1-a, b; 2-c, d, e

73. Hansı nümunələrdə bədii sual ***işlənməmişdir?***
1. Əgər heçdi bu heç kimlər,
Palıd, səni kim yıxdı? (M.Araz)
2. İnsan nədir axı? – Ruha qəfəsdir!
Ah-nalə, vay-şivən qupquru səsdi. (F.Qoca)
3. Hər yol qərq olubdur qaranlıqlara,
Hər yol ayrıcında, bəlkə, işıq var? (Ə.Kərim)
4. O tənha yuvalar necə dözəcək?
Bu payızın dərdi götürüb məni. (M.Yaqub)
5. Soruşdun, nə zaman qayıdacaqsan?
Dedim gələcəyəm ilk baharda mən.
(M.Gülgün)

A) 1, 4 B) 3, 5 C) 2, 5 D) 1, 3 E) 2, 4

74. Eyler-Venn diaqramının digər xanalarına hansı fikrin yazılmasından asılı olmayaraq, nöqtələrin yerinə hansı janrların adları yazılsa, müqayisə doğru olar?




A) 1 – təmsil; 2 – hekayə
B) 1 – rübai; 2 – qəsidə
C) 1 – komediya; 2 – təmsil
D) 1 – müxəmməs; 2 – roman
E) 1 – povest; 2 – qitə

75. Hər üç ədəbi növdə əsərlər yazan bir müəllif düşünün. Onun yaradıcılığına aid edilmiş hansı fikirlərin doğru olduğunu əminliklə söyləmək mümkündür?
1. Nəzmlə yazılmış əsəri var.
2. Nəsrlə yazılmış əsəri var.
3. Proloq, epiloq kimi anlayışlardan mütləq istifadə etmişdir.
4. Ədəbiyyatımızda mövcud olan vəznlərdən ən az birini mütləq işlətmişdir.
5. Böyükhəcmli əsər müəllifidir.
A) 1, 4 B) 2, 5 C) 1, 2 D) 3, 4 E) 3, 5

76. Nümunədə işlənmiş bədii təsvir və ifadə vasitələri haqqında fikirlərdən hansı doğrudur?
Nə vaxt gəncliyimiz tərk edər bizi?
Bəlkə, saçlarımız ağaranda? Yox...
Bəlkə də, ağlımız ürəyimizi
Dəli sevdalardan çağıranda? Yox...
(Z.Pərviz)
A) İki fərqli misrada bədii sual işlənmişdir.
B) Epitetdən istifadə olunmuşdur.
C) Həm anafora, həm də epiforanın işlənməsinə rast gəlinir.
D) Həm köçürmədən, həm də addəyişmədən istifadə olunmuşdur.
E) Fikrin şişirdilərək təqdim olunmasına rast gəlinir.

77. Sual işarəsinin yerinə hansı janrın adı yazıla ***bilməz?***



A) roman B) komediya C) povest
D) müxəmməs E) faciə

78. Hansı nümunədə surətin daxili aləminin, yaşadığı hiss və həyəcanların təsvirinə yer verilmişdir?
A) Buğdayı sifətində təmkinlik, gözlərində qürur, alnında əzəmət, duruşunda igidlik sezilirdi.
B) Yollara, həyətlərə, dağların ətəyinə qədər gedən təpəliklərə baxdı.
C) Özünə nə qədər təskinlik verməyə çalışsa da, qəlbinə hakim olan narahatlığı qova bilmirdi.
D) Bu fikir, əqidə onun qəlbində elə möhkəm kök salmışdı ki, onu oradan heç nə çıxara bilməzdi.
E) Onun belində sallamalı gümüş kəmər və çiynində saz var idi.

79. Nümunədə işlənən bədii təsvir və ifadə vasitələri haqqında fikirlərdən hansılar doğrudur?
Əcəl də əzəldən bərədə ovçu,
Min şübhə oyadar bir can ovuna.
Hələ də nağıllar uydururuq biz.
Quru təsəlliyə kimdir inanan?
(İ.İsaq)
1. Həm epitet, həm də təşbeh işlənmişdir.
2. Bütün misralarda inversiyaya yer verilmişdir.
3. Sonuncu misrada bədii sual işlənmişdir.
4. Misralardan birində fikrin ifadə tərzi onun daxili məzmununa qarşı qoyulmuşdur.
5. Fikrin daha təsirli ifadə olunması üçün sözlərdən biri başqa bir sözlə əvəz olunmuşdur.
A) 2, 5 B) 1, 4 C) 2, 3 D) 4, 5 E) 1, 3

80. *Lirik ricət* anlayışı ilə bağlı fikirlərdən hansı doğrudur?
A) Adətən, süjet xətti olan epik əsərlərdə rast gəlinir.
B) Lirik növdə olan əsərlərin ayrılmaz tərkib hissəsidir.
C) *Tərənnüm* termini ilə eyniləşdirilə bilər.
D) Dramatik növdə əsərlərin səhnədə oxunmayan hissəsinə verilən addır.
E) Əsərin yumoristik tənqid hədəfi ilə bağlı işlədilən anlayışdır.

81. Nəzmlə, faciə janrında yazılan bir əsərdə rast gəlmək ***olmaz:***
1. tələffüzcə, səs tərkibi etibarilə bir-birinə yaxın olan sözlərə
2. rejissora kömək məqsədilə verilən, nəzmlə yazılan hissəyə
3. razvyazka mərhələsində baş qəhrəmanın ona əks qüvvələrə qalib gəlməsinə
4. cismani məğlubiyyətin mənəvi qələbə kimi təqdim olunmasına
5. monoloq və dialoqlara
A) 1, 5 B) 3, 5 C) 1, 4 D) 2, 3 E) 2, 4

82. Misradaxili bölgü zamanı sözün birinci hecası bir tərəfə, ikinci hecası isə digər tərəfə düşür. Bu sözün işləndiyi şeir haqqında fikirlərdən hansılar doğrudur?
1. Əruz vəznindədir.
2. Sərbəst şeir formasındadır.
3. Şeirin bütün misralarında hecaların sayı eynidir.
4. Qəzəl janrında olduğu ehtimal oluna bilər.
A) 2, 4 B) 1, 4 C) 2, 3 D) 1, 2 E) 1, 3

83. Nümunədə işlənmiş bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirin.

Ürəyim bir dünyadı,
dörd qütbü var.
Səni şimalında yaşadıram.
Üşüyür sənli nə var.
Cənubunda fidan ümidlər
ulduz-ulduz çiçəkləyir gecələr.

(N.Gültac)

1. epitet
2. metafor
3. metonimiya
4. bədii təzad
5. təşbeh
6. litota

84. Hekayə janrına aid sxemdəki hansı fikirlərin yeri ***səhv*** göstərilmişdir?

Hekayənin janr xüsusiyyətidir	***Hekayə janrında yer verilə bilər***
1. Təhkiyə əsasında yazılır. 2. Müsbət surət ona qarşı çıxan qüvvələrə qalib gəlir. 3. Hadisələr yüksələn və enən xətt üzrə təqdim olunur.	4. Hadisələrin baş verdiyi məkan təsvir olunur. 5. Hadisələrin geniş təsvirinə yer verilmir. 6. Məzmununu bir hadisə təşkil edir, hadisə inkişaf etdirilir.

85. Nümunədə işlənmiş bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirin.

Birdən-birə qaranlığa hayqırmaq
keçir könlümdən:
– Hey, hey, məmləkətim!
Bir səs deyir: Olmaz gecənin bu saatında,
Şəhər şirin yuxuda...

(F.Əsəd)

1. epitet
2. metafor
3. metonimiya
4. təşbeh
5. mübaliğə
6. inversiya

86. Nümunə haqqında fikirlərdən hansılar doğrudur?

Göylərində at oynadır şimşəklər,
Bir an olur gur yağışı, dolusu.
Əlvan çiçək xalıları yamacda
Baş qaldırır nərgiz, gözü dolu su.

(R.Rza)

1. Rədifdən istifadə olunmuşdur.
2. Misraların ölçüsünə əsasən, nümunənin heca vəznində olduğunu demək mümkündür.
3. Misraların hər birinin daxili bölgüsü 4-4-3 şəklindədir.
4. Eyni ölçülü səslərin bir-birini izləməsi müşahidə olunur.
5. *abcb* qafiyə quruluşuna uyğun nümunədir.

87. Misralarda işlənmiş bədii təsvir və ifadə vasitələrinə əsasən uyğunluğu müəyyənləşdirin.

Dənizdə dalğalar yolunu çaşır,
Əsdikcə, əsdikcə dəli dalğalar,
Bakının qayğısı başından daşır.

(R.Kənan)

1. Birinci misrada işlənmişdir.
2. İkinci misrada işlənmişdir.
3. Üçüncü misrada işlənmişdir.

a. epitet
b. epifora
c. metonimiya
d. metafor
e. anafora

88-90-cı sualları mətnə əsasən cavablandırın.

Düşmən əlində

Şöklü Məlik: Nə qədər çinar var bu torpaq üstə,
Mən dar ağacına çevirəcəyəm.
Ulus: Bizə biri bəsdir asmağa səni.
Şöklü Məlik: Dara çəkəcəyəm bütün ölkəni
Çalın, qoy gurlasın yenə qavaldaş.
Tarixdən bu millət silinsin gərək!
Hər vaxt toy-bayramda dinən qavaldaş
Ölüm təbilinə çevrilsin gərək!
Burla xatun *(çinara üz tutaraq)*
Kölgəsində göz açdığım,
A doğma çinar ağacı!
Kimlər etdi söylə səni dar ağacı?
Çiçək Sən ey ulu ömürlərin mənası ağac,
Ağac, ağac, bu ellərin anası ağac!
İxtiyar Bu necə haraydı, bu necə səsdi?
Gözlərim qaraldı, ürəyim əsdi.
Bir qulaq as! Elə bil ki qurd ulayır...
Gör bir necə nalə çəkir...
De, haray çəkənə hay verən hanı?
Axı haray tutub düzü, dünyanı...
Belədə hayqırıb göynər, oğul, daş
Ağrıdan qovrular, ağlar qavaldaş.
Burla xatun Parçalan, ey ürək, dağıl, ey aləm,
Mən daha, mən daha dözə bilmirəm.

Qəfildən göy gurultusu eşidilir, çaxan şimşəyin şüası Burla xatunun başı üzərində donub qalır, getdikcə artır və onu işıq selinə bürüyür.

88. Doğru fikirlərin qarşısına D, səhv fikirlərin qarşısına S hərfi yazın və seçiminizi əsaslandırın.

	Fikir	Doğru / Səhv	Əsaslandırma
1	Tamaşaya qoyulmaq üçün yazılan bu əsər səhnələşdirilərkən verilmiş hissələrin hamısı tamaşaçılar üçün səsləndirilir.		
2	Qafiyə, ahəngdarlıq və s. anlayışlardan istifadə olunduğuna görə nümunədə tərənnümdən istifadə olunduğunu demək mümkündür.		
3	Şöklü Məliyin təhdidindən sonra Burla xatunun yaşadığı nigaranlıq və qorxu hissi müəllifin sözləri ilə diqqətə çatdırıla bilməz.		

89. Verilmiş bədii təsvir və ifadə vasitələrinə mətndən nümunələr seçməklə cədvəli tamamlayın.

Metafor işlənmişdir.	
Mübaliğə işlənmişdir.	
Bədii təzad işlənmişdir.	
Bədii sual işlənmişdir.	

90. Mətnə əsasən surətlərin ona fərqli yanaşması müşahidə olunan bir obyekt (əşya, surət və s.) müəyyənləşdirin. Surətləri müəyyən edin, əsaslandırın.

Fərqli yanaşma bəslənilən surət	Münasibəti fərqlənən surətlər	Əsaslandırma

SINAQ 2

AZƏRBAYCAN DİLİ

Mövzular üçün | Video həllər üçün | Cavablar üçün

1. Bəndlərdən birində tələffüz şəklində verilmiş sözdə aşağıdakı qayda əksini ***tapmamışdır***:
Söz ortasında b, m samitlərindən əvvəl gələn n hərfi [m] kimi tələffüz olunur.
A) Süsəndən, [sümbüldən], lalə, nərgizdən, Siyah tellərinə düz, qadan alım! (Aşıq Ələsgər)
B) Yolçu kanalın yaxınlığında [zəmbilini] yerə buraxıb bir daş üstündə oturmuşdu.
C) İnam və ümid insan qəlbində [sömməz] bir işıq kimi yanmalıdır.
D) Bağçada açan [zambax] çiçəkləri ətrafa təravət və gözəllik saçırdı.
E) O, uşaqlıqda atasına kömək üçün bir neçə il [hamballığ] edib çörək pulu qazanmışdı.

2. Hansı sözə aid xüsusiyyət ***verilməmişdir***?
1. Tərkibində bir-biri ilə qarşılıq təşkil edən samitlər işlənmişdir.
2. Yazılışı səhvdir.
3. Tərkibində uzun tələffüz olunan sait işlənən bu sözdə səsartımı baş vermişdir.
4. Kar və cingilitili samitləri sayca bərabər olan bu sözün səs və hərf tərkibi arasında üç fərqli məqam var.

A) sinfoniya B) açıqrəngli C) kilidlənmək
D) təskinlik E) yarımmüdafiə

3. Hansı cümlədəki sözlərdən heç birinin səs və hərf tərkibi ***fərqlənmir***?
A) Azadlığı və həqiqəti sevməyən adam güclü ola bilər, amma heç vaxt böyük adam ola bilməz.
B) Dünyada təsadüf yoxdur, bu dünyada hər şey ya sınaqdır, ya da cəzadır.
C) Ədalətsiz qaydaların tətbiqi xalqa edilən ən böyük zülmdür.
D) Həqiqi aşiqləri nəinki məsafələr, heç ölüm də ayıra bilməz.
E) İnsan zəka qarşısında əyilir, amma şəfqət qarşısında diz çökür.

4. Verilmiş nümunədə hansı sözün sinonimi ***işlənməmişdir***?

Qarşımda dalğalı dərin bir ümman,
Ümmanı sarsıdır bir acı tufan,
Bəyaz köpükləri bir çiçək yapan
Şeirdən, xülyadan necə əl çəkim?

(M.Müşfiq)

A) dəniz B) məşəqqətli C) xəyal
D) titrətmək E) sazaq


5. Hansı sözdə nöqtələrin yerinə (ayrı-ayrılıqda) həm dodaqlanan, həm də dodaqlanmayan sait yazmaqla yeni sözlər yaratmaq mümkündür?

A) k...mpaniya B) l...komotiv C) ş...hzadə
D) maqnit...fon E) b...yaz

6. Eyler-Venn diaqramına və nümunələrə əsasən doğru fikirləri müəyyən edin.

a. Öyündürməsin səni yüksəklərdə uçuşun,
Palçıq da göyə çıxar qanadında bir quşun.

b. Başqalarına qarşı zəfər qazanan qüvvətlidir, öz nəfsinə qarşı zəfər qazanan isə qüdrətlidir.



1. Məcazi mənalı ifadə işlənmişdir.
2. *Səma* sözünün sinonimi işlənmişdir.
3. Səs və hərf tərkibi fərqlənən söz işlənmişdir.
4. Məna tayları müxtəlif nitq hissələrinə aid olan omonim söz işlənmişdir.
5. *Zərif, incə* sözlərinin sinonimi işlənmişdir.
6. Bir-biri ilə münasibətdə antonim olan sözlər işlənmişdir.

A) 2, 3, 4, 5 B) yalnız 2, 3, 4 C) 1, 2, 5, 6
D) 1, 3, 4, 6 E) yalnız 1, 5, 6

7. Bəndlərdən birində fərqləndirilmiş sözlər bir-biri ilə münasibətdə antonim ***deyil***:

A) <u>Acgöz</u> mədənçilər quyu qazıldıqca yanlarını bərkitmə-diklərindən çox zaman quyu uçur.
<u>Gözütox</u> adamlar heç kəsin malına göz dikməzlər.

B) Usta ona müstəqil iş tapşırır, <u>addımbaşı</u> yoxlayırdı.
Əntiqə <u>hərdən</u> özünə cürət verib ağasından soruşurdu.

C) Kiminin üzündə şadlıq və cürət, kimisində <u>qorxu</u> və heyrət görünürdü.
Mən səni görmüşəm söz sərkərdəsi,
Alovlu, qüdrətli, <u>cürətli</u>, mətin.

D) İlk baxışdan o, <u>altruist</u> bir şəxs kimi hamının diqqətini cəlb etmişdi.
İndi uşaqlar mənə gülmək, sataşmaq istəyəndə <u>eqoist</u> insan kimi qələmə verirlər.

E) Rica edirəm, sözlərinizə diqqət edin, yüksək cəmiyyətdə belə rəftar <u>barbarlıqdır</u>.
<u>Mədənilik</u> cəhalətin düşmənidir.

8. Bəndlərdən birində nümunədəki sözlərdən heç birinə aid ***olmayan*** izah (leksik məna) verilmişdir:

Cərgə pambığından alaq vurulsun,
Misir mahlıcından qalaq vurulsun. (R.Rza)

A) Qozalarının içindəki liflərindən iplik hazırlanan kolşəkilli birillik cənub bitkisi
B) Tarlada, bostanda və s. bitən və becərilən bitkilərin inkişafına mane olan yabanı bitki
C) Çiyidi təmizlənmiş, çiyidsiz pambıq
D) Üz tərəfi keçə kimi basıq yun və ya yarımyun parça
E) Sıra; ard-arda və ya yanaşı düzülmə

9. Verilmiş sözlərin orfoqrafiyasını nəzərə alıb məntiqi ardıcıllığı tamamlayın.

1. nakaut 2. təxrisolunma 3. .....

A) tomoqrafiya B) triqonometriya
C) totalitar D) siferblat
E) seperatizm

10. Verilmiş nümunədə ***işlənməmişdir***:

Gözəl bir süfrə açmışdır çəməndə ilk bahar, bülbül!
Nədəndir qüssədən, qəmdən vurursan dəm, nə var, bülbül?

(S.Rüstəm)

A) Frazeoloji birləşmə
B) Bir-biri ilə münasibətdə sinonim olan sözlər
C) Səs və hərf tərkibi fərqlənən söz
D) Həm omonim, həm də çoxmənalı olan söz
E) Leksik mənası *yemək stolunun üstünə, yaxud yerə salınan xüsusi parçadan tikilmiş örtük* olan söz

11. Bəndlərdən birində *"tutmaq"* sözünün mənası ilə cümlədə işlənməsi arasında ***uyğunsuzluq*** var:

	Sözün mənası	Nümunə
A)	Göyərmək, bitmək	Calaqların çox hissəsi yaxşı tutdu.
B)	Yaxşı göstərmək, uyğun gəlmək, yaraşmaq	Bu paltar onu yaxşı tutur.
C)	Müəyyən şərtlərlə bir işə qəbul etmək, götürmək	Birini qovub, ayrısını tutursan, o, əvvəlkindən pis çıxır.
D)	Bir iş görmək istəyənə mane olmaq, əl-qol açmağa qoymamaq	Ay camaat, məni tutmayın, bu kişini öldürəcəyəm.
E)	Toxunmaq, bərk təsir etmək	Uşaq ikiəlli gözlərini tutub, hönkür-hönkür ağlayırdı.

12. *"Sözümün <u>canı</u> budur ki, gənclər yenilikçi olmalıdırlar"* cümləsindəki fərqləndirilmiş sözün kontekstə uyğun mənasını müəyyən edin.
A) Ölümlə vücuddan ayrılan qeyri-maddi varlıq; ruh
B) Həyat, varlıq
C) Tab, taqət, hey
D) Bir şeyin əsası, mahiyyəti, məğzi
E) Adam, insan, fərd

13. *"Sadə"* sözünün məcazi mənada işləndiyi nümunələrdən birində *çəkinmək, ehtiyat etmək* sözlərinin sinonimi işlənmişdir:
A) Bət-bənizin solmuş, çöhrən dəyişmiş,
Qolay sanma, deyil bu sadə bir iş. (H.Cavid)
B) Bəzən əmisinin oxuduğunu arvadlar başa düşmədikdə Qadir sadə dillə bunu onlara izah edərdi. (Ə.Əbülhəsən)
C) Əğyarə inanma, gözəlim, qorxuram ondan,
Çox sadəsən, hər söz ki deyirlər, inanansan. (Ə.Vahid)
D) Beş il əvvəl Xədicəni zəngin bir əlbisədə görmüşdüm, indi isə sadə bir libas geyinmişdi. (S.Hüseyn)
E) Biz, bu Vətənin sadə adamları, müharibədən deyil, sülhdən yanayıq.

14. Omonim kimi işlənə bilən terminlərin cərgəsini müəyyən edin.
A) efir, forma, qitə
B) qoşma, epos, təsnif
C) divan, tala, qəzəl
D) hava, atlas, kürü
E) quru, çay, divan

15. Cədvəldəki uyğunluğun bərpa edilməsi üçün hansı rəqəmlərin yeri dəyişməlidir?

həvəskar – həmsədrlik – hamılıqla

Hər üç sözə aid xüsusiyyət	Yalnız iki sözə aid xüsusiyyət	Heç bir sözə aid olmayan xüsusiyyət
1. Bir-biri ilə qarşılıq təşkil edən samitlər işlənmişdir.	3. Dodaqlanan sait işlənməmişdir.	5. Uzun tələffüz olunan sait işlənmişdir.
2. Ahəng qanununa tabedir.	4. Səs və hərf tərkibi fərqlənir.	6. Həm kar qarşılığı olmayan cingiltili, həm də cingiltili qarşılığı olmayan kar samit işlənmişdir.

A) 1 ↔ 5;,2 ↔ 3
B) 1 ↔ 5; 2 ↔ 4
C) 1 ↔ 6; 2 ↔ 3
D) 2 ↔ 5; 3 ↔ 6
E) 2 ↔ 4; 1 ↔ 6

16. Hansı bənddə nöqtələrin yerinə uyğun saitlər yazılmalıdır?

	ö	a	o
A)	c...mərd	sam...var	t...lerant
B)	r...vnəq	q...tran	lim...nad
C)	n...qsan	rasi...nal	n...vbahar
D)	şər-b...htan	v...leybol	bl...kada
E)	f...vqələdə	nəb...tat	form...tiv

17. "Rəşadətli" sözünün leksik təhlili ilə bağlı ***yanlış*** fikri müəyyən edin.
A) Həm leksik, həm də qrammatik mənaya malikdir.
B) *Hünərli, igid* kimi sözlərlə sinonimdir.
C) *Qorxaq* sözü ilə antonimdir.
D) Hərb elminə aid termindir.
E) Omonim kimi işlənə bilmir.


18. Hansı sözün leksik mənası ***verilməmişdir***?
* Yaxşı düşünülmüş fikir, rəy, nöqteyi-nəzər
* Öz əzəməti, böyüklüyü ilə insanı valeh edən; əzəmətli
* Hörmətli, əziz, ehtirama layiq
* İşləyən adama istirahət, müalicə və s. üçün verilən müəyyən vaxt

A) ezamiyyət B) möhtəşəm C) mülahizə
D) möhtərəm E) məzuniyyət

19. Hansı cümlədəki fərqləndirilmiş söz həm omonim, həm də çoxmənalı söz kimi işlənə bilir?
A) Kərim baba iki barmaq qalınlığında *yaş* çubuğu yonurdu.
B) Evlərin ürəyi qopur yerindən,
Sarsılır varlığı *top* səslərindən. (M.Rahim)
C) Susuram önündə o şeiriyyətin
Ürəyim dolsa da, ağ qalır *kağız*. (M.Araz)
D) Yanır qəribanə kənd axşamları,
Titrək işıqlarla məscid *şamları*. (S.Vurğun)
E) Basma *ayağını* bizim torpağa,
İlandan, əqrəbdən yar ola bilməz. (S.Vurğun)

20. Hansı sözün səs və hərf tərkibi arasında daha çox fərqli məqam var?
A) əziyyətli B) əzmkarlıq
C) fədakarlıqla D) səkkizbucaqlı
E) tündxasiyyət

21. Eyler-Venn diaqramına və nümunələrə əsasən doğru fikirləri müəyyən edin.
a. M.Ə.Sabir *uşaq* ədəbiyyatının ən görkəmli nümayəndələrindən biridir.
b. Mənimlə eyni partada oturan *uşaq* ədəbiyyatı çox sevir.



1. Həm müəyyən, həm də qeyri-müəyyən yiyəlik halda olan isim işlənmişdir.
2. Çıxışlıq halda olan isim mücərrəd isimdir.
3. Fərqləndirilmiş sözlər ismin eyni halındadır.
4. Səs və hərf tərkibi fərqlənən isim işlənmişdir.
5. Həm sadə, həm də düzəltmə isim işlənmişdir.
6. Təsirlik halda olan isim işlənmişdir.

A) 1, 3, 4, 6 B) yalnız 1, 4, 6 C) 2, 4, 5, 6
D) 1, 3, 4, 5 E) yalnız 2, 4, 5

22. İfadələrdən biri *pis vəziyyətdə qalmaq, vəziyyətin daha da pisləşməsi* mənasında işlənir:
A) Dəyirmanın boğazına ölü salsan, diri çıxar
B) Könülləri fəth etmək
C) Ölünü qoyub dirini ağlamaq
D) Özünə umac ova bilməyib, özgəyə ərişdə kəsir
E) Ağzına çullu dovşan sığmamaq

23. Cümlələrdə fərqləndirilmiş sözlərlə bağlı cədvəldəki uyğun fikirləri müəyyən edin.
1. *Fərman yoldaşları ilə meşəyə **çiyələk** yığmağa getmişdi.*
2. *Qızının **itaətsizlik** etməsi İmamverdiyə təsir etmişdi.*

Ortaq fikirlərdir:	*Ortaq fikirlər deyil:*
1. Sözdə bir-biri ilə qarşılıq təşkil edən samitlər işlənmişdir. 2. Səs və hərf tərkibi ara-sında iki fərqli məqam var. 3. Kar və cingiltili samitlərin sayı bərabərdir.	4. Qalın və ya incə saitlərin bir-birini izləməsi qaydası gözlənilmişdir. 5. Səsartımı və ya səsdüşümü baş verməmişdir. 6. Uzun tələffüz olunan sait işlənmişdir.

24. Cümlələrdəki frazeoloji birləşmələrin sinonimlərinin ardıcıllığını müəyyən edin.
* Rəhbərlə münasibətləri yaxşı idi, özü-özünə bəhanə tapıb qaşınmayan yerdən qan çıxardı.
* Mübahisə o qədər uzandı ki, artıq söhbət əndazədən çıxmışdı.
* Qocalar evində tənha oturan qadının baxışlarında ürəyi dağlanmış bir insanın kədəri vardı.
* Onun dediyi sözlər ruhumu oxşadı, sanki bütün dərdimi unutdum.

1. ciyəri qana dönmək
2. ürəyinə yatmaq
3. qurdalayıb qurdunu çıxarmaq
4. ifrata varmaq

25. Ardıcıllığı müəyyən edin.
* "Nifaq alması" ifadəsi ədəbi dildə *daxili birliyin pozulması, qarşıdurmaya səbəb olan amil* kimi işlənir.
* Şagirdlər həftə sonu oyuncaq mağazasına gedərək yeni lego bloklar aldılar.
* Üfüq xətti müşahidəçinin göz səviyyəsində baxdığı zaman yer səthi ilə səmanın sanki birləşdiyi təsviri sərhəd xəttidir.
* Yanacaq – enerji istehsalı, avtomobillərin hərəkəti və sənaye prosesləri üçün istifadə olunan yanan maddələrdir.

1. "q" samitinin [k`] kimi tələffüz olunduğu söz işlənmişdir.
2. "q" samitinin [ğ] kimi tələffüz olunduğu söz işlənmişdir.
3. "q" samitinin [q] kimi tələffüz olunduğu söz işlənmişdir.
4. "q" samitinin [x] kimi tələffüz olunduğu söz işlənmişdir.

26. Hansı nümunələrdə elmi üslubun xüsusiyyəti özünü ***göstərmir***?
1. Varlığın bir hissəsini və ya əlamətini bildirən sözün həmin varlığın adını əvəz etməsi sinekdoxa adlanır.
2. Sona hərdən onun bəndini açıb həyətə buraxırdı.
3. Biosfer atmosferin aşağı hissəsini, bütün hidrosferi və quru səthinin 2-3 km-ə qədər dərinliyini əhatə edir.
4. İşin şirin yerində soyuq bir şey Eyvaz kişinin sol qoluna dolandı.
5. Bayram günü havanın günəşli olması hamını sevindirdi.

27. *Uyğunluğu müəyyən edin.*
1. Səs və hərf tərkibi fərqlənmir, ahəng qanununa tabedir.
2. Səs və hərf tərkibi fərqlənir, ahəng qanununa tabe deyil.
3. Səs və hərf tərkibi fərqlənir, ahəng qanununa tabedir.

a. məxaric b. mətanətli c. monastır
d. mötərizə e. müflis

Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları Cavab vərəqində yerinə yetirin.

Bastiliya

Bastiliya qalası 1370-1381-ci illərdə Parisdə tikilmiş- dir. Qala bir vaxtlar dövlət xainlərinin saxlanıldığı həbsxana kimi fəaliyyət göstərib.

Fransız kralları bu qalanı paytaxtın girişini qorumaq üçün inşa etsələr də, sonradan orada kral hakimiyyətinə qarşı çıxanlar və ya dövlət işlərinə narazılıq bildirən məhbuslar saxlanılmışdır. Bastiliyaya düşən insanlar dəmir qapılı dar daş hücrələrdə illərlə vaxt keçirir, aclıq, soyuq, qaranlıq və işgəncələr içində birdəfəlik ***yoxa çıxırdılar***[1].

XIV əsrdə əhali arasında kral despotizminə, ölkəni müf-lis edərək zəngin həyat sürən saray əyanlarına nifrət getdikcə artırdı. Bir vaxt nifrət üsyanla əvəz olundu. Versala (Paris yaxınlığı) toplanan xalq deputatları yeni dövlət quruluşu yaratmaq, kral hakimiyyətini məhdudlaşdırmaq qərarına gəldilər. Buna cavab olaraq kral XVI Lüdovik (1754-1793) onları həbs etmək üçün Versala muzdlu qoşun göndərdi. Kral sarayının qərarı barədə xəbər tutan Paris əhalisi Bastiliyaya doğru yürüşə başladı.

Böyük Fransa İnqilabının əvvəlində – 1789-cu il iyulun 14-də Bastiliya inqilabçı əhali tərəfindən ələ keçirildi. Minlərlə şəhər sakininin qalaya daxil olduğunu görən qarnizon müqavimətin mənasız olduğunu görərək geri ***çəkildi***[2]. Məhbuslar azad edildilər. Bu hadisə xalqın səsini dünyaya çatdırması və azadlıq uğrunda mübarizənin simvolu oldu. Bir müddət sonra Bastiliya dağıdıldı, onun yerində isə "Burada rəqs edilir və hər şey yaxşı olacaq" yazılmış lövhə quraşdırıldı.

Hadisənin baş verdiyi 14 iyul tarixi Fransanın milli bayramına çevrilmişdir. Hazırda dağıdılmış qalanın yerində onlarla küçə və bulvarın kəsişdiyi, üç xətdən ibarət paytaxt metrosunun yeraltı qovşağı və yeni Paris operasının ..... Bastiliya meydanı yerləşir.

28. Mətnin məzmununa uyğun olan və ***olmayan*** fikirləri müəyyən edin və seçiminizi əsaslandırın.

1. Bastiliya XV Lüdovikin dövründə xalqın azadlıq simvolu kimi xarakterizə edilirdi. Uyğundur. ☐ Uyğun deyil. ☐
Əsaslandırma:
2. Kral XVI Lüdovikin deputatları həbs etmək üçün Versala muzdlu qoşun göndərməsi xalqın haqsız narazılığından doğan zərurət idi. Uyğundur. ☐ Uyğun deyil. ☐
Əsaslandırma:
3. Bastiliya qalası hal-hazırda turistlərin diqqətini cəlb edən əsas tarixi abidələrdən biridir. Uyğundur. ☐ Uyğun deyil. ☐
Əsaslandırma:

29. Mətnin məzmununa əsasən nöqtələrin yerinə uyğun ifadə yazmaqla cümləni tamamlayın.

30. Üzərində rəqəm yazılmış sözlərə əsasən cədvəli doldurun.

Birinci ifadənin kontekstə uyğun qarşılığı	İkinci ifadənin mətndəkindən fərqli mənada cümlədə işlədilməsi


TARİX

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

31. Neolit və Tunc dövrlərinin oxşar cəhətləri:
1. Yeni təsərrüfat sahələrinin meydana gəlməsi
2. Süni suvarma sisteminin mövcud olması
3. Dulusçuların saxsı qablar hazırlaması
4. Qəbilənin həyatında qadının mühüm rol oynaması
5. Şumlama zamanı qoşqu heyvanlarından istifadə edilməsi

A) 2, 4, 5 B) 3, 4 C) 2, 3
D) 1, 3 E) 1, 3, 5

32. Xəritədə rəqəmlərlə işarələnmiş ərazilərdən hansılara aid xüsusiyyət ***verilməmişdir?***
– Ərəb əmirliyinin mərkəzi burada yerləşirdi.
– IX əsrdə yeni dövlətin əsası qoyulmuşdu.



A) 2, 5 B) 1, 4 C) 3, 4 D) 1, 2 E) 2, 3

33. Qədim Roma mədəniyyəti üçün səciyyəvidir:
1. İlk Olimpiya oyunlarının keçirilməsi
2. Forum adlanan mərkəzi meydanın inşa edilməsi
3. Parfenon məbədinin fəaliyyət göstərməsi
4. İnsan xarakterini açıb göstərən heykəllərin hazırlanması

A) 2, 4 B) 1, 3 C) 2, 3 D) 1, 2 E) 3, 4

34. Alan tayfalarının Albaniyaya yürüş etdiyi əsrdə Atropatena:
A) Pompeyin işğalçı yürüşünə məruz qaldı
B) Fraaspa döyüşündə Roma qoşunlarına məğlub oldu
C) Selevkilər dövlətindən asılılığı qəbul etdi
D) Parfiya Arşakilər sülaləsinin hakimiyyəti altına düşdü
E) Makedoniyalıların zülmünə qarşı mübarizəyə başladı

35. Uyğunluğu müəyyən edin.

1. Ulu icma	*2. Qəbilə icması*	*3. Tayfa*
?	?	?

a. Təsərrüfatda kişi əməyinin ön plana keçməsi
b. Toxa əkinçiliyinin meydana gəlməsi
c. İnsanların süni yolla od əldə etməyi öyrənməsi
d. Boyalı qablar mədəniyyətinin formalaşması
e. Əhalinin oturaq həyata keçməsi
A) 1-a, b; 2-d, e; 3-c B) 1-c; 2-b, e; 3-a, d
C) 1-e; 2-c, d; 3-a, b D) 1-b; 2-a, d; 3-c
E) 1-c; 2-b; 3-a, e

36. Perikldən ***fərqli*** olaraq, Qay Qrakx:
A) Yoxsullara taxıl ilə yardım göstərmişdi
B) Torpağın satılıb-alınmasını qadağan edən qanunu ləğv etmişdi
C) Plebeylərin hüquq müdafiəçisi idi
D) Yoxsullara vəzifəyə görə əmək haqqı vermişdi
E) Qulların öldürülməsini qadağan etmişdi

37. 1840-ci ildə həyata keçirilmiş məhkəmə islahatına əsasən:
1. Mülki işlərə hərbi məhkəmələrdə baxılması qaydası ləğv edildi
2. Məhkəmə işlərinə nəzarət komendantlara tapşırıldı
3. Ümumimperiya qanunlarına əsaslanan məhkəmələr yaradıldı
4. Şəriət məhkəmələrinin səlahiyyətləri artırıldı
A) 1, 2 B) 2, 3 C) 3, 4 D) 1, 3 E) 2, 4

38. Verilənlər arasında hansı dövrə aid məlumat ***yoxdur?***
– Ox və kaman ixtira olundu.
– İstehsal təsərrüfatı meydana gəldi.
– Ölülərin yaşayış məskənlərindən kənarda dəfn edilməsinə başlandı.
– İri tayfa birlikləri yarandı.
A) Erkən Tunc B) Mezolit C) Neolit
D) Orta Tunc E) Eneolit

39. Tarixi proseslərin məntiqi ardıcıllığını tamamlayın.
1. Kiçik Asiyanın qərbindəki yunan-şəhər dövlətlərinin üsyan qaldırması
2. .....
3. Əhəməni hökmdarı I Daranın Yunanıstana hücum etməsi
4. .....
a. Afina dəniz ittifaqına son qoyulması
b. Marafon döyüşünün baş verməsi
c. Əhəmənilərin Aralıq dənizi hövzəsində hakim qüvvəyə çevrilməsi
d. Üsyançıların Afina tərəfindən himayə olunması
e. Orta Yunanıstanın I Daranın qoşunlarına tabe olması
A) 2-d; 4-b B) 2 -a; 4-e C) 2-c; 4-b
D) 2-e; 4-a E) 2-b; 4-c

40. Uyğunluğu müəyyən edin.

Midiya hökmdarı Kiaksar	
1. Daxili siyasəti	*2. Xarici siyasəti*
a. Midiya satraplığının iki hissəyə bölünməsi b. Kiçik vilayət hakimliklərinin tamamilə ləğv edilməsi c. Şuandahul və Durdukka şəhərlərində üsyanların yatırılması d. İskitlərin döyüş taktikasına əsaslanan süvari-atıcı hissələrin yaradılması	a. Babil dövləti ilə ittifaqın yaradılması b. Sirdakka şəhərində müqavilə imzalanması c. II Kirə qarşı mübarizədə məğlubiyyətə uğraması d. Manna və Urartu dövlətlərinin tamamilə ləğv edilməsi

A) 1-a,d; 2-b,c B) 1-d; 2-b,d C) 1-b,c; 2-c
D) 1-d; 2-a,c E) 1-b,d; 2-a,d

41. 1870-ci il kəndli islahatı xırda kəndli torpaq sahibliyini yaratmaq əvəzinə, kəndlilərin torpaqdan istifadəsini qanuniləşdirdi. Azərbaycanın sahibkar kəndində çoxlu miqdarda xırda kəndli torpaq sahibliyinin yaradılması iri torpaq sahiblərinin mənafeyinə zidd idi. Mərkəzi hökumət tərəfindən uzun müddət torpaqların satınalma qiymətlərinin dəqiq müəyyən edilməməsi və bu işə dövlət yardımının göstərilməməsinin səbəbi bununla aydın olur.
Mətndə verilmiş hansı xüsusiyyətlər 1870-ci il islahatını 1912-ci il qanunundan fərqləndirir:
1. Azərbaycan kəndində əsaslı dəyişikliklərin baş verməsi
2. Kəndlilərin əksəriyyətinin öz pay torpaqlarının mülkiyyətçisi ola bilməmələri
3. İslahatın yalnız sahibkar kəndlilərinə şamil olunması
4. Kəndlilərin öz torpaqlarını satın almasına hökumətin yardım göstərməməsi
A) 1, 3 B) 2, 4 C) 3, 4 D) 1, 2 E) 2, 3

Solon islahatları nəticəsində qadağan edilmişdi:
1. Taxıl və digər zəruri ərzaq məhsullarının ixracı
2. Kiçik səhvə görə insanlara ağır cəza verilməsi
3. Fəlsəfə, ədəbiyyat və incəsənətin öyrənilməsi
4. Əhalinin gələcəkdə borca görə qul edilməsi


A) 3, 4 B) 2, 3 C) 1, 4 D) 1, 2 E) 2, 4

. Daha əvvəl baş vermişdir:
A) İstehsal təsərrüfatına keçidin əsasının qoyulması
B) Kür-Araz mədəniyyətinin formalaşması
C) İnsanların daş alətlərini cilalamağı və deşməyi öyrənmələri
D) Sənətkarlığın müstəqil sahəyə çevrilməsi
E) Qəbilə icmasının ulu icmanı əvəz etməsi

4. E.ə. I əsrin birinci yarısında Atropatena və Albaniya dövlətlərinə aid ortaq xüsusiyyətləri müəyyən edin:
1. Qul əməyindən geniş istifadə edilməsi
2. Romalıların hücumlarına qarşı mübarizə aparılması
3. Quldar monarxiya dövləti olması
4. Roma imperiyası ilə diplomatik əlaqələrin saxlanılması

A) 1, 3 B) 2, 3 C) 3, 4 D) 1, 2 E) 2, 4

45. Xəritədə işarələnmiş dövlətin Böyük Hun dövləti ilə bağlı siyasətini müəyyən edin.



1. E.ə. III yüzillikdə	*2. E.ə. I yüzillikdə*
a. Çiçi tanhunun məğlubiyyətə uğradılması	a. "Sarısarıqılar" üsyanının yatırılması
b. Vyetnam və Koreyanın tabe edilməsi	b. Pinçen sazişinin imzalanması
c. Böyük Çin səddinin əsasının qoyulması	c. Nikah diplomatiyasından istifadə olunması

A) 1-c; 2-c
B) 1-a, c; 2-b
C) 1-b, c; 2-a
D) 1-c; 2-a, b
E) 1-c; 2-b, c

46. Göstərilənlər nəticəsidir:
– *Azərbaycanın şimal-şərq torpaqlarında qədim dövlətçilik ənənələri bərpa oldu*
– *Şimaldan Azərbaycan ərazisinə basqın edən yadelli hücumlarının qarşısı alındı*

A) Albaniya hökmdarının xəzərlərlə imzaladığı sülh müqaviləsinin
B) Azərbaycan torpaqlarının vahid halda birləşdirilməsinin
C) Dərbənd hakimi Şəhriyarın həyata keçirdiyi islahatların
D) Şirvanşahlar dövlətinin yaranmasının
E) Dərbəndin Haşimilər sülaləsi tərəfindən idarə edilməsinin

47. 629-cu ildə Bizansla bağlanmış sülhə görə Albaniya Sasani təsir dairəsində qaldı. 629-630-cu illərdə xəzərlər Albaniyanı işğal etdilər. Lakin az sonra siyasi səbəblərdən xəzərlər Albaniyadan çəkildilər.
Mətndə verilən proseslərin nəticəsində:
1. Albaniya müstəqil dövlətə çevrildi
2. Arşakilər sülaləsinin hakimiyyəti bərpa oldu
3. Alban taxt-tacı Varaz Qriqorun əlinə keçdi
4. Albaniya yenə Sasani mərzbanları tərəfindən idarə olundu


A) 2, 3 B) 3, 4 C) 1, 3 D) 2, 4 E) 1, 2

48. Müqayisə cədvəlində türk dövlətlərinə aid doğru fikirləri müəyyən edin.

Avropa Hun dövləti	*Birinci Göytürk xaqanlığı*
1. Burqundiyanın işğal edilməsi 2. Roma şəhərinin dağıdılması	3. Uyğurlar tərəfindən süqutauğradılması 4. Avarlara qarşı mübarizə aparılması
5. Bizans üzərinə uğurlu hücum təşkil edilməsi 6. Sasanilərə qarşı müharibə aparılması	

A) 2, 4 B) 2, 3, 6 C) 2, 4, 5
D) 1, 4, 5 E) 1, 3


49. Uyğunluğu müəyyən edin.
XIX əsrdə Azərbaycan şəhərləri:



a. İlk mərkəzləşdirilmiş telefon stansiyasının işə salınması
b. Hərbi Dairə Rəisliyinə tabe olması
c. Alman kapitalına məxsus misəritmə zavodunun fəaliyyətə başlaması
d. XIX əsrin 30-cu illərində müstəmləkəçilik əleyhinə üsyanın baş verməsi
e. İlk pambıqtəmizləmə zavodunun yaradılması

A) 1-b, c; 2-a; 3-e
B) 1-d; 2-b; 3-a
C) 1-c; 2-a, b; 3-d
D) 1-c; 2-b; 3-d, e
E) 1-a; 2-c, d; 3-b, e

50. Eyler-Venn diaqramına əsasən, uyğun bəndləri müəyyən edin.



a. Xəzər dənizində Azərbaycanın ticarət gəmilərinin üzməyə başlaması
b. Slavyanların talanlarına məruz qalması
c. Dərbəndin ələ keçirilməsi
d. Səlcuq dövlətindən asılı hala düşməsi
e. Əsasının türk mənşəli sülalə tərəfindən qoyulması

A) 1-c, d; 2-a; 3-b, e
B) 1-a; 2-c, d; 3-b
C) 1-b; 2-e; 3-c, d
D) 1-c; 2-a, b; 3-e
E) 1-d; 2-a, e; 3-b, c

51. E.ə. I minilliyin əvvəllərində Qədim Misir dövlətinin zəifləməsinə səbəb oldu:
A) Misirin Romanın əyalətinə çevrilməsi
B) Hakimiyyət uğrunda müharibələrin baş verməsi
C) Firon III Tutmosun vəfat etməsi
D) Makedoniyalı İsgəndərin Misirə hücum etməsi
E) Het dövləti ilə aparılan uzunmüddətli müharibələr

52. Manna hökmdarı Ahşerinin fəaliyyəti üçün xarakterik ***deyil:***
1. İyirmi iki Manna qalasını Urartuya verməsi
2. Midiyada Assuriya əleyhinə qalxan üsyançılara kömək göndərməsi
3. Ölkədə mərkəzləşdirilmiş dövlət və canişinlik sisteminin əsasını qoyması
4. İskit hökmdarının müttəfiqinə çevrilməsi
5. Assuriya üzərinə hücum təşkil etməsi

A) 2, 3, 4
B) yalnız 1, 3
C) 4, 5
D) yalnız 2, 3
E) 1, 3, 5

53. Qədim Hindistan və qədim Yunanıstanın tarixi üçün ümumi cəhətlər:
1. Roma tərəfindən asılı vəziyyətə salınması
2. Əhəmənilərə qarşı mübarizə aparılması
3. Ərazisi hunlar tərəfindən talan olunması
4. Makedoniya işğalına məruz qalması

54. Albaniyanın Sacilər dövləti ilə oxşar, Rəvvadilər dövləti ilə ***fərqli*** xüsusiyyətləri:
1. Azərbaycanın cənubunda meydana gəlməsi
2. Abbasi xilafətinin xəzinəsinə xərac göndərməsi
3. Türk mənşəli sülalə tərəfindən idarə edilməsi
4. Ərəb xilafətinə qarşı mübarizə aparılması

55. Xronoloji ardıcıllığı müəyyən edin.
1. Solon islahatlarının həyata keçirlməsi
2. Roma imperiyasının Qərb və Şərq hissələrinə bölünməsi
3. Marafon döyüşünün baş verməsi
4. Çində Xan sülaləsinin hakimiyyətə gəlməsi

56. Səbəb-nəticə əlaqələrinin doğru verildiyi bəndi müəyyən edin.

	Səbəb	Nəticə
1.	Sasani şahı I Xosrovun islahatlar keçirməsi	Azərbaycanda feodal münasibətlərin inkişaf etməsi
2.	Abbasilərin Azərbaycanda ağır vergi siyasəti yürütməsi	Müsafirin başçılığı ilə əhalinin üsyana qalxması
3.	Səlcuq sultanı I Toğrulun Təbrizi ələ keçirməsi	Rəvvadilər dövlətinin varlığına son qoyulması
4.	Cavanşirin Xilafətlə diplomatik münasibətlər yaratması	Bizanspərəst qüvvələrin alban hökmdarına sui-qəsd təşkil etməsi
5.	Slavyanların Bərdə şəhərini qarət etməsi	Məzyədilərin öz iqamətgahını Gəncəyə köçürməyə məcbur qalması

GÜVƏN NƏŞRLƏRİ

57. Uyğunluğu müəyyən edin.

1. Neft sənayesi
2. Metallurgiya sənayesi
3. Yüngül sənaye

XIX yüzilliyin ikinci yarısı

a. Xanabad manufakturasının fəaliyyətə başlaması
b. Misi saflaşdıran ilk müəssisənin yaradılması
c. Neft quyularına təhkim edilmiş kəndlilərin məcburi əməyinin ləğv edilməsi
d. Rus kapitalistləri tərəfindən Şəkidə ipək fabrikinin təşkil olunması
e. İlk dəfə olaraq Bibiheybətdə buruq üsulu ilə neft quyusunun qazılması

Sizə təqdim olunmuş mənbəni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları cavab kağızında yerinə yetirin.

Roma işğalçılarının əsas qüvvəsi ordu idi. Roma ordusunda əsasən plebeylər xidmət edirdilər. Onlar öz xərcləri ilə silahlanırdılar. Roma ordusunun qələbələri eyni zamanda plebeylərin siyasi nüfuzunu möhkəmləndirdi. Buna görə də patrisilər daha tez-tez güzəştə getməyə məcbur olurdular.

Plebeylər əvvəlcə onların hüquqlarını qoruyan xalq tribunu seçmək hüququ qazandı. Uzun mübarizə nəticəsində plebeylər və patrisilər Roma Respublikasının azad vətəndaşları kimi hakim sinfə çevrildilər. Dövlət idarə işləri patrisilər və varlı plebeylərin əlində toplanmışdı.

58. Hansı əsas amil patrisiləri pelebeylər üçün güzəştə getməyə məcbur etdi?

59. Mənbəyə əsasən, Roma Respublikasının demokratik dövlətə çevrilə ***bilməməsinin*** səbəbini yazın.

60. Patrisi və pelebeylər arasındakı mübarizənin iki nəticəsini qeyd edin.

ƏDƏBİYYAT

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

61. Verilmiş bədii təsvir və ifadə vasitələrindən hansına və ya hansılara nümunənin bütün misralarında yer verilmişdir?

Qala idim, möhrə-möhrə söküldüm,
Xəzəl olub yollarına töküldüm.
Bir vulkandım, yer təkinə çəkildim,
Qoru sönmüş kül olmuşam indisə...

(A.Məmməd)

A) yalnız inversiya
B) metafor, mübaliğə
C) təşbeh, inversiya
D) təşbeh, metafor
E) yalnız təşbeh

62. ***Səhv*** fikirləri seçin.

1. Müxəmməsin orta bəndlərinin qafiyə quruluşu rübai ilə eynilik təşkil edir.
2. Dram janrında olan əsərlərdə gülüşə səbəb olan məqamlara rast gəlmək mümkündür.
3. Şəkli xüsusiyyətlərinə görə qitəni qəzəldən fərqləndirmək mümkündür.
4. Nəsr hissəsi çox olan poemalar epik-lirik poemalar adlandırılır.
5. Remarkanın nəzmlə yazıldığı əsərlərdə dialoqlar da nəzmlə yazılır.

A) 2, 3, 4
B) 1, 3, 5
C) 2, 4, 5
D) 1, 4, 5
E) 1, 2, 3

63. Müxtəlif məzmunlu şeirlər haqqında ümumi məlumat verilmişdir. Hansı şeirlərdə tərənnümün ***olmadığını*** demək mümkündür?

1. Müəllif şeirdə yağışın yağmasını, təbiətin yağışdan sonra cana gəlməsini inandırıcı şəkildə göstərmişdir.
2. Şeirdə Cıdır düzünün, Daşaltı çayının müəllifdə səbəb olduğu heyranlığa yer verilmişdir.
3. İnsanların biganəliyini diqqətə çatdıran müəllif təklikdən, ünsiyyətsizlikdən gileylənmişdir.
4. Müəllif vətəndən uzaqda olduğunu qeyd etmiş, onu didərgin salanları sərt şəkildə tənqid etmişdir.
5. Şeirdə sözün sehrindən, yan-yana düzülmüş sözlərin böyük məna ifadə etməsindən bəhs olunmuşdur.

A) 2, 5
B) 1, 4
C) 2, 3
D) 3, 4
E) 1, 5

64. Ədəbi növlərlə bağlı fikirlərin verildiyi cədvəldəki uyğunluğu müəyyənləşdirin.

	Fikir	Doğru / Yanlış
1	Yalnız epik növdə süjetin mərhələlərini görmək mümkündür.	Yanlış
2	Hər üç ədəbi növün nəzmlə və nəsrlə yazıla bilən nümunələri mövcuddur.	Doğru
3	Həcmcə yığcamlıq lirik növün əsas şərtlərindən biridir.	Yanlış
4	Epik növdə olan əsərlərdə həyatı əksetdirmə üsulu kimi təhkiyədən istifadə olunur.	Doğru
5	Təbiət təsvirlərinə geniş yer vermək hər üç ədəbi növü birləşdirən cəhətdir.	Yanlış

A) 2, 3, 4 B) 1, 4, 5 C) 1, 2, 4
D) 2, 3, 5 E) 1, 3, 5

65. Bədii əsərdə bəhs olunan hadisələrin mərkəzində duran əsas surət əsərdə ilk çətinliklə qarşılaşır, planı pozulur. Həmin epizodla süjetin hansı mərhələsinə keçid baş verir?
A) zavyazka B) ekspozisiya C) razvyazka
D) final E) kulminasiya

66. "Ağıllı uşaq" nağılı ilə bağlı fikirlərdən hansılar doğrudur?
1. Kənddəki qoca xanın sevdiyi heyvanı təxmin edə bilmədiyinə görə özünü qınayır.
2. Xanın hər üç sualını cavablamaq üçün şəhərə getmək lazım olur.
3. Xanın öz səhvini etiraf etməsi yaxşıların mənfilər üzərində qələbəsini göstərir.
4. Nağıldakı çoban surəti hadisələrin inkişafında ciddi rol oynayan surətlərdən deyil.
5. Kənddəki qocaları uzaqlaşdırmaq fikri xanın baş məsləhətçisinin ağlına gəlir.
A) 2, 4 B) 1, 3 C) 3, 5 D) 1, 2 E) 4, 5

67. Doğru fikri tamamlayın.
"Əruz vəznindən fərqli olaraq, heca vəznində..." cümləsində nöqtələrin yerinə...
A) *"sözün bütövlüyü qorunur"* yazılsa, fikir səhv olar.
B) *"uzun və qısa hecaların bir-birini izləməsi müşahidə olunur"* yazılsa, fikir doğru olar.
C) *"ölçüyə əməl olunur, misraların həcmi bərabər tutulur"* yazılsa, fikir səhv olar.
D) *"sərbəst şeirin təsiri müşahidə olunur"* yazılsa, fikir doğru olar.
E) *"ahəngdarlıq müşahidə olunur"* yazılsa, fikir doğru olar.

68. Şifahi xalq ədəbiyyatına aid edilmiş fikirlərdən hansılar ***səhvdir?***
1. Yazılı ədəbiyyatdan fərqli olaraq şifahi xalq ədəbiyyatında dramatik növ digər iki növdən gec yaranmışdır.
2. Lirik növdə sabit qafiyə quruluşu olan janr var.
3. Dramatik növün janrlarından birində mövzu müxtəlifliyinə rast gəlinmir.
4. Dastanlar aşıq yaradıcılığının məhsuludur.
5. Müxtəlif canlıların münasibətindən bəhs etdiyi üçün "Səməndər quşu" zoonimik əfsanədir.
A) 2, 4 B) 3, 5 C) 1, 5 D) 1, 4 E) 2, 3

69. Nümunədə hansı bədii təsvir və ifadə vasitələri işlənmişdir?
Bacanın tüstüsü boz yuxu kimi,
Axşamdan adlayıb təzə gün gəlir.
Evlər ağ ümmanda bir neçə gəmi...
Bu qış gecəsində bir kənd dincəlir.
(R.Nəsiboğlu)
1. təşbeh 2. kinayə 3. metonimiya
4. simvol 5. bədii təzad
A) 4, 5 B) 2, 4 C) 1, 5 D) 1, 3 E) 2, 3

70. Satirik gülüşdən istifadə olunmuş əsər haqqında fikirlərdən hansının doğru olduğunu əminliklə söyləmək mümkündür?
A) Əsər dramatik növdə yazılmışdır.
B) Müəllifin barışmaz mövqedə durduğu tənqid hədəfinə yer verilmişdir.
C) Əsər nəzmin əsas xüsusiyyətlərinə əməl olunaraq yazılmışdır.
D) Əsərdə lirik qəhrəmanın hiss və düşüncələrinə yer verilmişdir.
E) Yumşaq, islahedici gülüş növü işlənmişdir.

71. Nümunə ilə bağlı fikirlərdən hansı ***səhvdir?***
Yoldumu izimi çəkib aparan,
Mənəmmi bu yolun inadın qıran?
Kimiydi yanımdan ötdü çaparaq,
Kimiydi uzaqdan əl edib duran?
(S.Qərib)
A) Şeirdə heca vəzninin əlamətlərini müşahidə etmək mümkündür.
B) Misraların hər birinin bölgüsü 6+5 şəklindədir.
C) Bənddə çarpaz qafiyədən istifadə olunmuşdur.
D) Rədifdən istifadə olunmamışdır.
E) Eyni ölçülü səslərin bir-birini izləməsi müşahidə olunur.

72. Şifahi xalq ədəbiyyatı janrlarının müqayisəsi ilə bağlı cədvəldəki ***səhv*** fikirləri seçin.

	Janr-1	Janr-2	Ortaq fikir
1	nəğmə	əfsanə	Bir çox nümunələri ailə-məişət mövzusunda olur.
2	atalar sözü	bayatı	Bir sıra nümunələri dərin mənalı fikirlər ifadə edir.
3	nağıl	tamaşa	Həcmcə kiçik janrlar hesab olunur.
4	oyun	yanıltmac	Uşaqların hərəkətə olan ehtiyacının nəticəsində yaranır.
5	lətifə	rəvayət	Bütün nümunələri nəsrlə olur.

A) 2, 4, 5 B) 1, 3, 4 C) 1, 2, 3
D) 3, 4, 5 E) 1, 2, 5

73. Nümunədə hansı bədii təsvir və ifadə vasitələri işlənmişdir?

Bu zərif sevdaya gücün çatarmı?
Oyaqdı içimdə qorxular, oyaq...
Di gəl ki, baxışın üfüq boyunca,
Çərpələng uçuran uşaqdı, uşaq.
(İ.İsaq)

1. bədii sual 2. bədii təzad 3. metafor
4. mübaliğə 5. təşbeh 6. təkrir

A) 2, 4, 6 B) 1, 3, 4, 5 C) 2, 3, 6
D) 1, 3, 5, 6 E) 1, 2, 4, 5

74. Doğru fikirləri müəyyənləşdirin.

Roman üçün doğru fikirdir	Komediya üçün səhv fikirdir
1. Əsas süjet xəttti ilə yanaşı, əlavə xətlər də yer ala bilər. 2. Povest kimi, yalnız nəsrlə yazılır. 3. Həcm baxımından böyük olur, məzmununa görə müxtəlif növləri var.	4. Kədərə səbəb olan məqamlara da geniş şəkildə yer verilə bilər. 5. Müəllif haşiyə çıxa, əsərdə gülüş doğuran hadisələrin səbəbi haqqında məlumat verə bilməz. 6. Komediya üçün ictimai-əxlaqi məna daşıyan gülüş səciyyəvidir.

A) 1, 3, 4 B) 1, 3, 5, 6 C) 2, 4, 6
D) 1, 2, 3, 5 E) 2, 4, 5

75. Nümunədə ***işlənməmişdir?***

Düşüb söz selinə dəli bir həvəs,
Bu iti şəhərin, bu ləng şəhərin.
Yonduğun daşların tozuna dəyməz
Yonqar adamları nəhəng şəhərin.
(R.Qusarçaylı)

A) litota B) bədii təzad C) mübaliğə
D) epitet E) təkrir

76. Nümunə haqqında fikirlərdən hansı doğrudur?

İxtiyar dağların döşündə meşə,
Qayalar yüksəkdən baxır keçmişə.
Ağaclar baş-başa çatılmış burda,
Günəş salam verir bu doğma yurda.
(S.Vurğun)

A) Təhkiyə əsasında yazılmış əsərlərə nümunə göstərilə bilər.
B) Peyzaj lirikasına nümunə göstərilə bilər.
C) İctimai lirika nümunəsidir.
D) Bayatı olduğunu düşünmək mümkündür.
E) Qafiyədən, bölgüdən istifadə olunmamışdır.

77. *Tip* və *xarakter* haqqında fikirlərdən hansı doğrudur?

A) Tip mənfi, xarakter isə müsbət surət anlayışı ilə bağlı yaranmışdır.
B) Tip terminindən əsərdəki əsas surətlər, xarakterdən isə epizodik surətər üçün istifadə olunur.
C) Tip lirik qəhrəman, xarakter isə bədii əsərin qəhrəmanı adı ilə əvəzlənə bilər.
D) Tip nəzmlə, xarakter nəsrlə yazılmış əsərlərdə müşahidə olunur.
E) Tip ümumiləşdirmə, xarakter isə fərdiləşdirmə yolu ilə yaranır.

78. Hansı nümunələrdə mübaliğə işlənmişdir?

1. Bir ovuc torpağa dönüb yerində,
Üstünə düşəni göyərdir ürək. (R.Qusarçaylı)
2. Ah çəksəm, ahıma dinər ulduzlar,
Göylərdən yerlərə enər ulduzlar. (G.Murad)
3. Torpağın alnında puçur-puçur tər,
Dumana bürünüb yatıbdı çöllər. (F.Qoca)
4. Ağladın, sızladın bir əsr tamam,
Gözünün yaşından göl də yarandı. (V.Babanlı)
5. Heydərbaba, bir ah çəkim, əri sən,
Nə çəkirsən əsrlərdən bəri sən? (Ə.Əhməd)

A) 2, 4, 5 B) 1, 2, 4 C) 1, 3, 5
D) 2, 3, 5 E) 1, 3, 4

79. Hansı fikirlər tapmacalara aid edilə bilər?
1. Aid olduğu ədəbi növə görə lətifələrdən fərqlənir.
2. Nəzmlə və nəsrlə nümunələri olan janrlardandır.
3. Oxşar səslənən sözlərin, söz birləşmələrinin əvəzlənməsi prinsipinə əsaslanır.
4. Bu janrda hadisə və ya əşya haqqında danışarkən məcazi təsvir əsas götürülür.
5. Obrazlı təfəkkür, məntiqi düşüncə tələb edən janrdır.

A) 1, 2, 4 B) 2, 3, 5 C) 1, 3, 5
D) 1, 3, 4 E) 2, 4, 5

80. Qəsidə janrı ilə bağlı doğru fikri müəyyənləşdirin.
A) Şifahi xalq ədəbiyyatına ciddi təsiri olan janrdır.
B) Müəllifin adına yer verilməsi onu qitədən fərqləndirir.
C) Bütün nümunələri zəmanədən şikayət motivli olur.
D) Təhkiyə əsasında yazılan janrlardandır.
E) Son beytinin qafiyə quruluşu digər beytlərdən fərqlənir.

81. Nağılın növlərinə aid xüsusiyyətlər verilmişdir. Ardıcıllığı müəyyən edin.
– *Qeyri-adi qüvvələrə yer verilmişdir.*
– *Haqsızlıq və ədalətsizliyə qarşı mübarizəyə geniş yer verilmişdir.*
– *Sadəliyi, xeyirxahlığı, təvazökarlığı ilə seçilən qəhrəmanlara rast gəlinir.*

A) sehrli nağıllar, məişət nağılları, heyvanlar haqqında nağıllar
B) heyvanlar haqqında nağıllar, sehrli nağıllar, məişət nağılları
C) sehrli nağıllar, heyvanlar haqqında nağıllar, məişət nağılları
D) məişət nağılları, sehrli nağıllar, heyvanlar haqqında nağıllar
E) heyvanlar haqqında nağıllar, məişət nağılları, sehrli nağıllar

82. Nümunənin daxili bölgüsü ilə bağlı fikirlərdən hansı doğrudur?

Yerlərin, göylərin daldım seyrinə,
Fikirlər, duyğular məni atmadı.
Könüldən keçənin yüzdə birinə
Ömür, bəlkə, çatdı, bəlkə, çatmadı.
(H.Arif)

A) Bütün misraların daxili bölgüsü eynidir.
B) Birinci misranın daxili bölgüsü digərlərindən fərqlənir.
C) İkinci misranın daxili bölgüsü digərlərindən fərqlənir.
D) Üçüncü misranın daxili bölgüsü digərlərindən fərqlənir.
E) Sonuncu misranın daxili bölgüsü digərlərindən fərqlənir.

83. Nümunə ilə bağlı fikirlərdən hansılar doğrudur?

Xəyallar gözümü yorur eləcə,
Yuxuma daş atıb qaçır xəyallar.
Gecə öz taxtında dincələ bilmir,
Qapısın bağlayır, açır xəyallar.
(T.Dəmir)

1. Nümunənin bütün misralarında metafor işlənmişdir.
2. İkinci və dördüncü misralarda işlənən *xəyallar* sözünü rədif kimi düşünmək mümkündür.
3. Bütün misralarda inversiyadan istifadə olunmuşdur.
4. Misraların hər birinin daxili bölgüsü 6-5 şəklindədir.
5. *Gecə* və *xəyal* sözlərinin işlənməsi bədii təzad yaratmışdır.

84. Alt-alta gələn və qafiyələnən iki misraya rast gəlmək mümkündür:
1. qitənin ilk beytində
2. qəzəlin ilk beytində
3. rübainin ilk iki misrasında
4. rübainin son iki misrasında
5. müxəmməsin ilk bəndinin 3 və 4-cü misralarında

85. "Çahargah əfsanəsi"ndən seçilmiş hadisələrin məzmun üzrə ardıcıllığını müəyyənləşdirin.
1. Xalq alimin evə getməyinə mane olur.
2. Alimə üç gün möhlət verilir.
3. Vəzirə qırx gün möhlət verilir.
4. Alim zınqırovların yerini dəyişmək istəyinin səbəbini izah edir.

86. Nümunədə işlənmiş bədii ifadə vasitələrini müəyyənləşdirin.

Təbriz yolu həsrətindən bil, yanar,
Ayaq bassan, ayaq yanar, yol yanar.
El demişkən: "Kür quruyar, sal yanar",
Qurumazmı gözlərində yaş sənin?
(Ə.Hacızadə)

1. təkrir 2. bədii sual 3. mübaliğə
4. kinayə 5. litota 6. inversiya

87. "Dərzi şagirdi Əhməd" nağılında iştirak edən surətlərlə bağlı uyğunluğu müəyyənləşdirin.
1. Şah Abbas
2. Vəzir Allahverdi xan
3. Pəri Soltan

a. Əhmədin ona olan qəzəbi sona kimi dəyişməz olaraq qalır.

b. Əhmədin zindana salınmasının səbəbini onun özündən öyrənir.
c. Onun təklifi Əhmədin öldürülməsinin qarşısını alır, Əhməd zindana atılır.
d. Onun əmri ilə Firəng padşahının sualına cavab tapmaq üçün Əhmədi zindandan gətirirlər.
e. Əhmədin gördüyü yuxuda onunla bağlı heç bir məqam olmur.

88-90-cı sualları mətnə əsasən cavablandırın.

Xavərnəq qəsrinin tikilməsi
(ixtisarla)

...O gün ki Nemanın yanına gəldi,
Simnar nə istədi, dərhal düzəldi.
O qızıl barmaqlı usta, nəhayət,
Tikdi daşla gəcdən gümüş imarət...
I Bayırı bəzəkli bir göy aləmi,
İçərisi rahat bir behişt kimi.
Simnar nə zaman ki, ruh verib daşa,
Gözəl imarəti yetirdi başa,
Calalı, şöhrəti aşdı göyləri,
Gün ondan nur içdi o gündən bəri.
Günəş baş verəndə üfüqdən yenə,
II **Saray da dönərdi günəş rənginə.**
Simnar xələt aldı, deyim əslini,
Gözlədiyi haqqın iki mislini.
Çuvalı mirvari, müşk ilə dolu,
Tutdu qızıl yüklü dəvələr yolu.
Bu mehribanlığı görüncə Simnar,
Duyub səxavəti, dedi: «Xəbərdar
Olsaydım verilən bu nemətlərdən,
Bilsəydim əvvəlcə, inanın ki, mən
Bu yolda bəsləyib özgə bir əməl,
Bir bina tikərdim gözəldən gözəl».
III Neman dedi: «Çoxlu pul versəm, de, sən
Daha yaxşısını tikə bilərsən?»
Simnar dedi: "Bəli, istəsən əgər,
Bir saray tikərəm, bu heçə dönər».
Bu söz alışdırdı, yaxdı Nemanı.
Yandı mehribanlıq, mərdlik xırmanı.
Neman dedi: «Onu buraxsam, əlbət,
Tikər özgəsinə gözəl imarət».
Dərhal əmr eylədi yaxın kəslərə:
«Simnarı tullayın qaladan yerə!»
Bir saray qaldırdı uzun zamanda,
Yıxıldı torpağa ondan bir anda.

(N,Gəncəvinin "Yeddi gözəl" poemasından bir hissə əsasında hazırlanmışdır)

88. "Xavərnəq qəsrinin tikilməsi" əsərində və "Xan sarayı" əfsanəsində iştirak edən usta surətləri haqqında cədvəli doldurun.

Ortaq cəhətdir	Fərqli cəhətdir
1. 2.	3.

89. "Xavərnəq qəsrinin tikilməsi" əsərinin və "Ağıllı uşaq" nağılının müqayisə ilə bağlı cədvəldəki doğru fikirləri seçərək əsaslandırın.

□ Hər iki əsər şifahi ədəbiyyat nümunəsi hesab oluna bilər. □ Hər iki əsər yazılı ədəbiyyat nümunəsi hesab oluna bilər. □ Biri şifahi, digəri isə yazılı ədəbiyyat nümunəsidir.	□ Hər ikisinin eyni ədəbi növə aid edilə bilməsi mümkündür. □ Hər ikisinin eyni ədəbi növə aid edilə bilməsi mümkün deyil.
Əsaslandırma:	Əsaslandırma:

90. Nömrələnmiş hissələrlə bağlı cədvəldəki fikirlərin doğru və ya yanlış olduğunu müəyyənləşdirin.

Hissə	Fikir	Doğru / Yanlış
I	Həm bədii təsvir, həm də ifadə vasitəsi işlənmişdir.	
II	Altından xətt çəkilmiş hissə metonimiya hesab oluna bilər.	
III	Nemanın sualı bədii sual hesab oluna bilər.	

SINAQ 3

AZƏRBAYCAN DİLİ

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

1. Nümunəyə və cədvələ əsasən doğru fikirləri müəyyən edin.

Düz sözə yalan qatmaq qızıla başqa metal qatmağa bənzəyir; möhkəmliyi artsa da, qiymətdən düşür. (Frensis Bekon)

Doğrudur	Yanlışdır
1. Mənsubiyyət şəkilçisi qəbul etmiş düzəltmə isim işlənmişdir. 2. Feillərdən birində iş görən işi öz üzərində icra edir.	3. Yönlük halda olan sözlərdən biri ümumi qrammatik mənasına görə əlamət bildirir. 4. Frazeoloji birləşmə işlənmişdir.

A) 1, 3 B) 2, 4 C) 1, 4 D) 2, 3 E) 1, 2

2. Biri *yüksəktəzyiqli* və *yekdilliklə* sözlərindən heç birinin fonetik təhlilinə aid ***deyil***:
A) Ahəng qanununa tabe olan sözdür.
B) Bir-biri ilə qarşılıq təşkil edən samitlər işlənmişdir.
C) Səs və hərf tərkibi arasında iki fərqli məqam var.
D) Cingiltili samitlərin sayı kar samitlərin sayından çoxdur.
E) Həm qarşılığı olmayan cingiltili, həm də qarşılığı olmayan kar samit işlənmişdir.

3. Hansı cümlə verilmiş xüsusiyyətlərdən heç birinə uyğun ***gəlmir***?
1. Yalnız şəxssiz növdə olan feil işlənmişdir.
2. Həm məchul, həm də şəxssiz növdə olan feillər işlənmişdir.
3. Həm məlum, həm də məchul növdə olan feillər işlənmişdir.
A) Bir günəşə, bir də ölümə dimdik baxılmaz. (Fransua de Laroşfuko)
B) Bir adamın dəyəri, böyük qabiliyyətləri ilə deyil, onları necə istifadə etdiyinə baxılaraq ölçülməlidir. (Fransua de Laroşfuko)
C) Böyük adamların şöhrəti, bu şöhrətə yetməyin üsulları əsasında qiymətləndirilməlidir. (Fransua de Laroşfuko)
D) Kinimiz böyüdükcə, kin saxladığımız kimsədən daha da kiçilərik. (Fransua de Laroşfuko)
E) Əsl dostluğa əsl məhəbbətdən də az rast gəlinir. (Fransua de Laroşfuko)

4. Cümlələrdən birində sifətin kökü omonimlik xüsusiyyəti daşıyaraq isim və feil kimi işlənə bilir:
A) Atın məni tank altına,
Qundaqdakı bir körpəni xilas edim. (M.Araz)
B) Dağınıq düşüncələr böyük işləri görməyə mane olur.
C) Azğın düşmən öz çirkin əməllərindən əl çəkmək istəmir.
D) Dəhanın sədəfdir, dişlərin inci,
Sən məni eylədin ellər gülüncü. (M.P.Vaqif)
E) Axmaq fikirlərə uyaraq insan
Axtarır umulmaz yerdə səadət. (S.Vurğun)

5. Verilmiş nümunələrlə bağlı ***uyğunsuzluğu*** müəyyən edin.
A) *Al-yaşıl geyinmiş uca dağların*
Qartallı qoynundan uzaqlaşmışam. (S.Vurğun) – feillərdən biri qayıdış, digəri məlum növdədir.
B) *Nə Şamxal atasının üzünə ağ olmuş, nə də atası ona güldən ağır söz demişdi.* (İ.Şıxlı) – *üzünü bozarmaq* frazeoloji birləşməsinin sinonimi işlənmişdir.
C) *Dilbərgilin həyətlərindəki yasəmən, ərik, alçı albalı ağaclarının çiçəkləri ətrafa məstedici bir qoxu saçırdı.* (Ə.Sadıq) – düzəltmə sifət və düzəltmə isim işlənmişdir.
D) *Dağıtmış yuxumu yenə gözümdən*
Əzəldən nəğmələr aşiqiyəm mən. (S.Vurğun) – ismin dörd müxtəlif halında olan isim işlənmişdir.
E) *Elə mən də böyük sənətkarlardan, şeirdə böyük hünərdən, coşqun bir ilhamdan danışıram* (S.Rəhimov) – əvəzlik və say işlənmişdir.

6. Hansı cümlədə əvəzlikdən sonra vergülün qoyulması ***yanlışdır***?
A) O, kənddə yaşayır.
B) O, maşının yanında dayanıb səni gözləyirdi.
C) O, küçədə dayımgil yaşayır.
D) O, əsasən, bizim əleyhimizə danışmaqla məşğul olur.
E) O, beş qələm aldı.

7. *Müvəqqəti rahatlığı üçün azadlığın fəda edənlər nə azadlığı, nə də rahatlığı qazanar.* (B.Franklin) cümləsindəki isimlərlə bağlı doğru fikirləri müəyyən edin.
1. Təsirlik halda olan isimlər işlənmişdir.
2. Düzəltmə isimlər sifətdən düzəlmişdir.
3. İsimlərdən yalnız biri mənsubiyyət şəkilçisi qəbul etmişdir.
4. İsimlərin hamısında hal şəkilçisinə görə *q-ğ* əvəzlənməsi baş vermişdir.
5. Həm konkret, həm də mücərrəd isimlər işlənmişdir.

A) 1, 2, 3 B) yalnız 2, 3 C) 3, 4, 5
D) 1, 4, 5 E) yalnız 1, 2

8. Müqayisə cədvəlinə əsasən ***yanlış*** fikirləri müəyyən edin.

Bilin ki, bu şəhərin hər daşına bir iyidin qanı tökülüb.	*Aşıq Qərib sözün deyər avazla, Dindirəndə canım alar o, nazla.*
1. Məchul növdə olan feil işlənmişdir. 2. Yazılışı səhv olan söz işlənməmişdir.	3. Təsirlik halda olan isimlərdən biri bitişdirici samitlə bitir. 4. Əvəzlikdən sonra vergülün qoyulması yanlışdır.
5. Yiyəlik halda olan sözlər işlənmişdir. 6. Düzəltmə feil işlənmişdir.	

A) 1, 3, 6 B) 2, 4, 5 C) 1, 4, 5
D) 2, 3, 6 E) 1, 3, 5

9. *Kitab müxtəlif insanların düşüncələrini vəhdət halında birləşdirən və onların arasında sıx ünsiyyət yaradan mənəvi körpüdür* (S.Smayls) cümləsində ***işlənməmişdir***:
A) Saydan düzəlmiş məlum növdə olan feil
B) Feildən düzəlmiş mücərrəd isim
C) Yiyəlik halda olan şəxs əvəzliyi
D) Feillə omonimliyi olan sadə sifət
E) Səs və hərf tərkibi fərqlənən cəm şəkliçili isim

10. Bəndlərdən birində ellipsis ***işlənməmişdir***:
A) Boyun sürahidir, bədənin büllur
Gərdənin çəkilmiş, minadan, Pəri. (M.P.Vaqif)
B) Söyüddən bağ saldım, peyvəst eylədim
Almasın, heyvasın, narın görmədim.
(Aşıq Ələsgər)
C) Düşmən səni daşla, sən düşməni aşla.
(Atalar sözü)
D) Yaxşı at yemini artırar, yaman at qamçısını.
E) Azərbaycan övladı! Sənindir bu məmləkət,
Dayağıdır həqiqət, bayrağıdır məhəbbət!
(Z.Yaqub)

11. *Hamı öz yaddaşınnan gileylənir, ancax heç kəs ağılından şikayətləmmir* (Fransua de Laroşfuko) cümləsində hansı sözün yazılışı düzgündür?
A) yaddaşınnan B) gileylənir
C) ancax D) ağılından
E) şikayətləmmir

12. Cədvələ və nümunələrə əsasən uyğun fikirləri müəyyən edin.
1. *Ümidsizlik və lənglik məğlubiyyətə gətirib çıxaran qorxaqlıqdır.* (Henri Devid Toro)
2. *Gücsüzlüyünü dilə gətirmək ürəyi güclü insanların işidir.* (Horald Laski)

Birinci cümləyə aid yanlış fikirdir.	**İkinci cümləyə aid doğru fikirdir.**
1. Düzəltmə isimlərin hamısı sifətdən düzəlmişdir. 2. Konkret isim işlənmişdir. 3. Sifət işlənməmişdir.	4. Mənsubiyyət şəkilçili sözlərin hamısı adlıq haldadır. 5. Cəm şəkilçisi qəbul etmiş sözün səs və hərf tərkibi fərqlənir.

A) 3, 5 B) 2, 5 C) 1, 5 D) 1, 4 E) 2, 4

13. Hansı cümlədə nöqtələrin yerinə cəm isim yazıla ***bilməz***?
A) İclasda bir neçə ..... müzakirəsi nəzərdə tutulmuşdur.
B) Bir sıra ..... həqiqəti dərk etmək istəmir.
C) Molla Nəsrəddin bir çox ..... qəhrəmanıdır.
D) Meydana yığışmış minlərlə ..... atəşfəşanlığa baxırdı.
E) Bu tarixi qələbədən yüz ..... keçməsinə baxmayaraq, yenə də unudulmayıb.

14. Verilmiş xüsusiyyətlər hansı üsluba aiddir?
1. Təbiətdə və cəmiyyətdə baş verən hadisələrin mahiyyəti, qanunauyğunluqları sübut edilir.
2. Hiss və həyəcan duyğularını yaradan söz və ifadələr, nida cümlələri və dialoqun işlədilməsi xarakterik deyil.
3. *Şərh etmək, izah etmək, nəticə çıxarmaq, müəyyən bir məsələ haqqında fikir söyləmək* xarakterik xüsusiyyətidir.
A) bədii üslub B) elmi üslub
C) publisistik üslub D) məişət üslubu
E) rəsmi-işgüzar üslub

15. Müqayisə cədvəlinə əsasən doğru fikirləri müəyyən edin.

Oğul sözü yalnız I şəxsin təkinin mənsubiyyət şəkilçisini qəbul edibsə, ...	*Oğul* sözü yalnız saitlə başlanan hal şəkilçisi qəbul edibsə, ...
1. ikihecalı sözdür.	3. hal şəkilçisindən sonra cəm şəkilçisi də qəbul edə bilər.
2. həm leksik, həm də qrammatik mənaya malikdir.	4. üçhecalı sözdür.
5. ismin hansı halında olduğunu əminliklə demək mümkündür.	

A) 1, 3, 5 B) 2, 4, 5 C) 1, 4, 5
D) 2, 3, 4 E) 1, 2, 3

16. Cümlələrdən birində nöqtələrin yerinə yiyəlik hal şəkilçisi yazıla ***bilməz***:

A) Mən bu yanan kəndin ağsaqqalıyam.
Ellər... dərdindən bir az halıyam. (S.Vurğun)

B) Bu dağlar... qoynunda aslan yatmışdır.
Burda Koroğlular at oynatmışdır. (S.Vurğun)

C) Aparın, aparın onu zindana,
Göz... dağı çəkdirin Azərbaycana! (S.Vurğun)

D) Aha, uzanmışdır bizim şiri-nər,
İran... torpağını ləkələyənlər. (S.Vurğun)

E) Dağların döşündən yollar çəkilsin,
Yollar... kənarında güllər əkilsin. (S.Vurğun)

17. Saylara aid cədvəli tamamlayın.

Omonimdir	**Yazılışı ilə deyilişi fərqlənir**	**Numerativ sözlərlə işlənə bilmir**
az	səkkiz	bir az
1	doqquz	bir sıra
qırx	2	3 .....

A) 1 – çox, 2 – iyirmi, 3 – beş-altı
B) 1 – bir, 2 – əlli altı, 3 – doxsan
C) 1 – min, 2 – altıncı, 3 – bir çox
D) 1 – beş, 2 – dörd, 3 – bir-iki
E) 1 – səksən, 2 – onlarla, 3 – yüzlərlə

18. Hansı bənddə sinonim cütlük ***verilməmişdir***?

A) ərazi - bölgə B) müəllim - pedaqoq
C) müğənni - aktrisa D) laqeyd - sayğısız
E) hikkəli - lovğa

19. Cədvəli tamamlayan fikirləri müəyyən edin.

1.	Yalnız qrammatik mənaya malik olan söz də işlənmişdir.
	Düzəltmə sifət və düzəltmə isim işlənmişdir.
	2. .....

A) 1. Elm sahilsiz bir dəryadır, alim də sahilsiz dəryaya atılmış bir dalğıcdır.
2. Mücərrəd isim işlənməmişdir.

B) 1. Nə qədər çalışsan da, keçmişi dəyişə bilməzsən, ancaq gələcək öz əlindədir.
2. Düzəltmə ismin yazılışı ilə deyilişi fərqlənmir.

C) 1. Ən böyük arzum Qarabağı qarış-qarış gəzmək, çoxillik həsrətə son qoymaqdır.
2. Xüsusi isim işlənmişdir.

D) 1. Ana həsrətli və mehriban baxışlarını oğlunun üzündən ayırmırdı.
2. Təsdiq feil işlənmişdir.

E) 1. İşçilər xüsusi mülklərin də zəhmətkeşlərə verilməsini tələb edirlər.
2. Hal və cəm şəkilçisi qəbul etmiş sifət işlənmişdir.

20. Sözlərin yazılışı ilə deyilişi arasındakı fərqli məqamların sayına görə uyğunluğu müəyyən edin.

1. üçkünc 2. ürəkaçıqlığı 3. uzaqgörənlik
a. tolerantlıq b. toplanmaq c. tozlanmaq
d. şişkin e. sənətkar

A) 1-d; 2-b; 3-a,c B) 1-a,b; 2-c,d; 3-e
C) 1-d,e; 2-b; 3-a,c D) 1-e; 2-a,b; 3-d
E) 1-e; 2- b; 3-a,c


21. Sxemə əsasən ***yanlış*** bəndi müəyyən edin.

	Söz	**Deyilişi**	**Leksik mənası**	**Qrammatik mənası**
A)	cəsur	[cəsur]	cəsarətli, igid	sifət
B)	bəyanat	[bəyanat]	bir məsələ haqqında hökumətin rəsmi məlumatı	isim
C)	etimad	[e:timat]	etibar, inam	isim
D)	təkəbbür	[təkəbbür]	lovğalıq, özünü çəkmə	isim
E)	cəhalət	[cəha:lət]	mədəni geriliк, avamlıq	isim

22. ***Yanlış*** fikri müəyyən edin.
A) *Elə, belə* əvəzlikləri mənsubiyyətə görə dəyişmədən ismi əvəz edə bilmir.
B) *Hərə* əvəzliyi ilə *hər* əvəzliyi həm quruluşuna görə, həm də məna növlərinə görə bir-birindən fərqlənir.
C) Sual əvəzliyi bütün nitq hissələrini əvəz edə bilir.
D) *Bəzi* əvəzliyi qeyri-müəyyən əvəzlik olsa da, sifəti əvəz edə bilir.
E) *Kimsə* əvəzliyi yerinə görə həm *heç kim*, həm də *biri* mənalarında işlənə bilir.


23. Hansı cümlələrdə *rəng* sözü məcazi mənada işlənmişdir?
1. Qorxudan Anarın rəngi qaçmışdı.
2. Günəşin təsirindən Kosanın papağının rəngi qaçmışdı.
3. Dünən yağan şiddətli yağışdan sonra İncəli dərəsinin hər iki yanı rəng verib rəng alırdı.
4. Mənə aynabəndin rəngi getmiş qapısını açmaq kifayət idi ki, onu görüm.
5. Həyat öz rəngini və ahəngini dəyişməkdədir.

24. Eyler-Venn diaqramına əsasən doğru fikirləri müəyyən edin.
a. *Şeirim, bu hikməti aləmə bildir,*
Xəyal ölənləri bəzən dirildir. (M.Rahim)
b. *Yenə axar çaylar üzrə dəmir körpü qurulacaq,*
Yenə sahil lampaları alışacaq çıraq-çıraq.
(S.Vurğun)



1. Feildən düzələn iki feil işlənmişdir.
2. Yazılışı ilə deyilişi fərqlənən söz işlənmişdir.
3. Mənsubiyyət şəkilçili isim cəm şəkilçisi qəbul etmişdir.
4. Düzəltmə sifət işlənmişdir.
5. Təsirlik halda olan söz işlənmişdir.
6. Sifətin sualına cavab verən isim işlənmişdir.


25. Eyler-Venn diaqramına əsasən "?" işarəsinin yerinə yazıla biləcək fikirləri müəyyən edin.



1. Qeyri-müəyyən miqdar sayıdır.
2. Quruluşca mürəkkəbdir.
3. Özündən sonra gələn isimlər həm təkdə, həm də cəmdə işlənə bilir.
4. Numerativ sözlərlə işlənə bilir.
5. Əşyanın sırasını bildirir.

26. Adi dərəcədə olan sifətin işləndiyi nümunələri müəyyən edin.
1. Çünki Çərkəz həddindən artıq zarafatcıl, aşıq isə tündməzac idi.
2. Mən qarşımda yamyaşıl çöllər görürəm,
Qeyrətli, bacarıqlı ellər görürəm. (M.Müşfiq)
3. Mən kəmsavad adamam, nə danışım a bala, heç özüm də bilmirəm.
4. Sapsarıdır ağacların
Xəzəl olmuş yarpaqları. (S.Vurğun)
5. Elman molla Xəlil ilə mübahisəyə girişmək istəmirdi, çünki onu olduqca xudbin bir adam kimi tanıyırdı.

27. Eyler-Venn diaqramına əsasən nümunələrdəki feillərlə bağlı uyğunluğu müəyyən edin.



a. Subyekt hərəkəti icra etməyə başqasını məcbur edir.
b. Quruluşca düzəltmədir.
c. Subyekt hərəkəti öz üzərində icra edir.
d. Məlum növdədir.
e. Məchul növdədir.

Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları Cavab vərəqində yerinə yetirin.

Qara Qarayev

"Tənqidçi gərək qızıl axtaran olsun, qum yığınında əsl istedadın nadir zərrəciklərini tapmağa çalışsın. Gənc istedadları açmaq, kəşf etmək və müdafiə etmək bacarığı sənət haqqında yazan qələm sahiblərinin önəmli xüsusiyyətlərindən biri olmalıdır". Bu sözlərin müəllifi böyük bəstəkar Qara Qarayev özü həmin xüsusiyyətlərə malik sənətkar idi. O, neçə-neçə gənc istedadlı bəstəkarın, müsiqişünasın yetişməsində misilsiz rol oynamışdır, həm konservatoriyadakı pedaqoji fəaliyyəti zamanı, həm Azərbaycan Milli Elmlər Akademiyasının akademiki olarkən, həm də Bəstəkarlar İttifaqının sədri vəzifəsində çalışarkən. Q.Qarayev əsl **dəyərli** əsərləri, təsadüfi, keçici əsərlərdən ayırmaq bacarığını da tənqidçilərin vacib xüsusiyyətlərindən hesab edirdi. 1. Qarayevin fikrincə, sənətkar üçün öldükdən sonra qiymətləndirilməsindən sevindirici bir şey yoxdur. O, bəstəkarlar, yazıçılar, rəssamlar bugünkü gün naminə yaradırlar, – deyirdi. 2. Gerçəkliyi əks etdirmək, öz dövrünün qabaqcıl ideyalarını tənqid etmək mühüm amildir. Əgər bu mümkün olarsa, onda onların əsərləri keçilməz dəyərə malik olub, həm müasirləri, həm də gələcək nəsillər üçün maraqlı olacaq.

28. *Kursivlə verilmiş cümlədə ifadə olunmuş fikri öz sözlərinizlə ifadə edin.*

29. *Qarşısında rəqəm yazılmış cümlələrə əsasən cədvəli doldurun.*

Üslubi baxımdan səhv söz	Həmin sözün işləndiyi cümlənin düzəliş edilmiş yeni forması

30. *Tünd hərflərlə verilmiş sözün üslubi funksiyası əsasında sxemi tamamlayın.*


İfadə	İfadənin mətndəki funksiyası (informativ və ya poetik)	İfadənin mətndəkindən fərqli funksiyada cümlədə işlədilməsi
dəyərli		

TARİX

Mövzular üçün | Video həllər üçün | Cavablar üçün

31. Cəlairilərdən ***fərqli*** olaraq, Qaraqoyunlu dövləti:
A) Şirvanşahlar dövlətini asılı hala salmışdı
B) Azərbaycanda Teymurilərin hakimiyyətinə son qoymuşdu
C) İldırım Bəyazidlə dostluq münasibəti saxlamışdı
D) Təbriz şəhərini paytaxt elan etmişdi
E) Alaşkert döyüşündə məğlubiyyətə uğradılmışdı

32. Eyler-Venn diaqramına əsasən, uyğunluğu müəyyən edin.




a. Qaraqoyunlu dövlətinin asılı hala salınması
b. Mərkəzi Asiyaya hərbi yürüş təşkil olunması
c. Çinin şimal ərazilərinin fəth edilməsi
d. Moskvanın ələ keçirilib yandırılması
e. Dehli sultanlığının tabe edilməsi

A) 1-b; 2-e; 3-d; 4-a B) 1-c; 2-a, e; 3-d; 4-b
C) 1-a; 2-d; 3-b, e; 4-c D) 1-e; 2-c; 3-a; 4-d
E) 1-c; 2-e; 3-d; 4-b

33. Daha ***gec*** baş vermişdir:
A) Qızıl Ordu xanı Əhməd xanın Moskva knyazlığına yürüş etməsi
B) Dehli sultanlığında Xələclər sülaləsinin hakimiyyətə gəlməsi
C) Teymuri dövlətinin varlığına son qoyulması
D) Kalka döyüşündə rus-qıpçaq qoşunlarının məğlubiyyətə uğradılması
E) İspaniya krallığının Qranadanı işğal etməsi

34. Qacarlar dövlətində ilk antiimperialist hərəkat nəticəsində:
A) Xalisə torpaqlarının satılması haqqında fərman verildi
B) Təbriz şəhərində seçkili orqanlar – əncümənlər yaradıldı
C) Talbotla bağlanmış müqaviłə ləğv olundu
D) Səttarxanın başçılığı ilə Hərbi Şura yaradıldı
E) Qacarlar sülaləsinin hakimiyyətinə son qoyuldu

35. Xəritə və cədvələ əsasən düzgün bəndləri müəyyən edin.



	Şəhərlər	Oxşarlıqlar
I	1, 2, 3	XII əsrdə zəlzələ nəticəsində dağılmışdı
II	1, 4	Sacilər və Hülakülər dövlətlərinin paytaxtlarına çevrilmişdi
III	2, 4, 5	Xarəzmşah Cəlaləddinə qarşı üsyanlar baş vermişdi
IV	2, 4	Monqolların ilk yürüşündə xərac ödəyərək dağıntılardan xilas olmuşdu

A) I, II B) III, IV C) yalnız II
D) II, III E) I, III

36. Sparta cəmiyyətində qoyulan məhdudiyyətlər üçün səciyyəvidir:
1. Fəlsəfə, ədəbiyyat və incəsənətin öyrənilməsi qadağan olunmuşdu
2. Taxıl və digər ərzaq məhsullarının ixracı dayandırılmışdı
3. Əhalinin xaricə getməsinə icazə verilmirdi
4. Yoxsul afinalılar siyasi vəzifəyə seçilə bilməzdilər
A) 1, 3 B) 2, 4 C) 3, 4 D) 1, 2 E) 2, 3

37. İraq Səlcuq hökmdarı Sultan Mahmudun Şirvana yürüş etməsi ilə nəticələndi:
A) I Axsitanın gürcü çarı III Georgi ilə yaxınlaşması
B) Paytaxt Şamaxının zəlzələ nəticəsində dağılması
C) Məzyədilər sülaləsinin Səlcuq asılılığına son qoyması
D) Şirvanşahlar dövlətinin Eldənizlərin müttəfiqinə çevrilməsi
E) Şirvan hökmdarının Səlcuqlara illik bac ödəməkdən imtina etməsi

38. Uyğunluğu müəyyən edin.

	Siyasi partiya və ya təşkilatın adı	*Yaradıldığı il*	*Siyasi partiya və ya təşkilatın yaradılmasına rəhbərlik etmiş şəxs*
1.	"Müsavat"	1903	İbrahim ağa Vəkilov
2.	"Qeyrət"	1905	Ələkbər bəy Rəfibəyli
3.	"Difai"	1906	Əhməd bəy Ağayev
4.	"Hümmət"	1911	Əli bəy Hüseynzadə

A) 1, 2 B) 2, 3 C) 3, 4 D) 1, 3 E) 2, 4


39. E.ə. I minilliyin əvvəllərində Qədim Misirin tarixi üçün səciyyəvidir:
1. Roma dövlətinin əyalətinə çevrilməsi
2. Hakimiyyət uğrunda mübarizə nəticəsində zəifləməsi
3. Makedoniyalı İsgəndərin hücumuna məruz qalması
4. Ərazilərinin bir qismini itirməsi
A) 1, 3 B) 2, 3 C) 1, 2 D) 3, 4 E) 2, 4

40. Məntiqi ardıcıllığı tamamlayın.
1. Çağrı bəyin kəşfiyyat yürüşünə çıxması
2. Bizans qoşunlarının məğlubiyyətə uğradılması
3. .....
A) Azərbaycan ərazisində Səlcuq dövlətinin əsasının qoyulması
B) Bizansın Şərqi Anadolunu həmişəlik türk torpağı kimi qəbul etməsi
C) Çağrı bəyin sultan elan edilməsi
D) Naxçıvan və ətrafındakı ərazilərin Səlcuqların nəzarətinə keçməsi
E) Azərbaycanın bütövlükdə Səlcuq imperiyasının tərkibinə qatılması

41. "Cənubi Qafqazda dövlət kəndlilərinin torpaq quruluşu haqqında" qanuna əsasən:
A) Biyar günlərinin və müxtəlif peşkəşlərin əvəzinə pul mükəlləfiyyəti tətbiq olundu
B) Dövlət kəndliləri icma torpaqlarından nəsli istifadə hüququ aldılar
C) Kəndlilər "müvəqqəti mükəlləfiyyətli" vəziyyətdən azad oldular
D) Dövlət kəndlilərinin köçmək hüququ ləğv edildi
E) Seçkili orqan olan vahid Kənd İdarəsi yaradıldı

42. Toxtamış xanın Moskvanı ələ keçirdiyi ildə Şirvanşahlar dövləti:
A) Kür çayı sahilində Teymuri Ömərin qoşunları üzərində qələbə qazandı
B) Təbrizi tabe edərək Azərbaycanı vahid halda birləşdirdi
C) Dərbəndilər sülaləsi tərəfindən idarə olunmağa başlandı
D) Qaraqoyunlu dövlətindən asılılığı qəbul etdi
E) Elxani dövlətinin tənəzzülündən istifadə edib müstəqil siyasət yeritdi

43. Uyğunluğu müəyyən edin.



a. Rekonkista hərəkatı baş vermişdi
b. Kapetinqlər sülaləsi hökmranlıq etmişdi
c. Latın imperiyasının əsası qoyulmuşdu
d. İmperator Yustinian dövründə Müqəddəs Sofiya məbədi inşa edilmişdi
e. Əməvilər tərəfindən Kordova xilafəti yaradılmışdı

A) 1-b, d; 2-a, c; 3-e
B) 1-c, d; 2-b, e; 3-a
C) 1-a, b; 2-d, e; 3-c
D) 1-a, e; 2-c, d; 3-b
E) 1-c, e; 2-a, d; 3-b

44. Albaniyanın paytaxtının Bərdə şəhərinə köçürülməsinə təsir göstərmişdi:
A) Sasanilərin Albaniya ərazisinə işğalçı yürüşə hazırlaşması
B) Albanların Dzirav döyüşündə bir sıra vilayətlərini itirməsi
C) I Xosrov Ənuşirəvanın inzibati islahatlar həyata keçirməsi
D) Alban kilsəsinin Bərdə şəhərində yerləşməsi
E) Şimaldan qonşu tayfaların hücumlarının baş verməsi

45. E.ə. VIII əsrin 30-cu illərində Manna dövləti:
A) Sirdakka şəhərində Assuriya dövləti ilə müqavilə bağlamışdı
B) Midiyada Assuriya əleyhinə qalxan üsyançılara yardım göndərmişdi
C) Urartu dövlətinin müttəfiqinə çevrilmişdi
D) Assuriyanın Urartu üzərində qələbəsində həlledici rol oynamışdı
E) Uauş döyüşündə Urartu qoşunlarına məğlub olmuşdu

46. *Qızıl Ordu dövlətinin başında böyük xan adlandırılan hökmdar dururdu. Onun yanında məşvərət orqanı kimi ali məclis fəaliyyət göstərirdi. Vergiləri baskak adlı məmurlar toplayırdı. Feodallar içərisində bəzi imtiyazlı şəxslər – tar-xanlar vergidən azad olunmaları haqqında yarlıq (fərman) alırdılar.*
Verilənlərə əsasən, Qızıl Ordu dövlətinin idarəçilik sistemi üçün xarakterik ola ***bilməz:***
A) Dövlətin başında qeyri-məhdud hakimiyyətə malik hökmdar dururdu
B) Bir sıra əyanla · xana xidmət müqabilində l ə zi imtiyazlara ma lik idilər
C) İdarəçilik sistemi "Böyük Yasa"ya əsaslanırdı
D) Xanın yanında ali qanunverici orqan fəaliyyət göstərirdi
E) Qızıl Ordu dövlətində feodal münasibətlər mövcud idi

47. Uyğunluq ***pozulmuşdur:***
A) Azərbaycanda ilk pambıqtəmizləmə zavodu Naxçıvanda işə salınmışdı
B) "Açıq söz" qəzetini "Müsavat" partiyası dərc etdirmişdi
C) Dördüncü Dövlət Dumasına Şimali Azərbaycandan Xəlil bəy Xasməmmədov seçilmişdi
D) Paris sülh konfransında İtaliyaya AXC üzərində himayəçilik təklif olunmuşdu
E) Sarıqamış döyüşündə türk ordusu məğlubiyyətə uğradılmışdı

48. Səbəb-nəticə əlaqələrinin doğru verildiyi bəndi müəyyən edin.

	Səbəb	Nəticə
1.	Səlcuqların Mərv şəhərində qurultay çağırması	Paytaxtın Reydən İsfahana köçürülməsi
2.	Şəmsəddin Eltutmuş-şun Xarəzmşah Cəla-ləddinə öz ərazisində sığınacaq verməsi	Əmir Teymurun Dehli sultanlığına hücum etməsi
3.	Mosul hakiminin Edessanı ələ keçirməsi	II Xaçlı yürüşünün baş verməsi
4.	Cuci nəslindən olan xanların hakimiyyətinin başa çatması	Monqol dövlətinin dörd ulusa parçalanması
5.	Ankara döyüşündə teymurilərin qələbə qazanması	Konstantinopolun osmanlılar tərəfindən fəthinin gecikməsi

A) 1, 2 B) 2, 3 C) 4, 5 D) 1, 3 E) 3, 5

49. Azərbaycanda tayfaların mövcud olduğu dövrə aid ***deyil:***
A) Bəzi qəbirlərin üzərində kurqanların qurulması
B) İnsanların saxsı qablar hazırlamağa başlaması
C) İlkin şəhər mərkəzlərinin meydana gəlməsi
D) Xış ilə geniş sahələrin şumlanması
E) Siklopik tikililərin inşa edilməsi

50. Müqayisə cədvəlində Səlcuq sultanlarına aid doğru fikirləri müəyyən edin.

Alp Arslan	***I Məlikşah***
1. Anadolunun həmişəlik türk torpağına çevrilməsi 2. Abbasilər xilafətinin asılı hala salınması	3. Monqol əsilli qarakitaylara məğlub olması 4. Tacirlərin bəzi rüsumlardan azad edilməsi
5. Qaraxanlı torpaqlarına hərbi yürüş təşkil olunması 6. Xaçlıların hücumlarına qarşı mübarizə aparılması	

A) 1, 2 B) 2, 4, 5 C) 1, 4, 5
D) 3, 5 E) 2, 3, 6

51. VII əsrin 40-cı illərində Xəlifə Osmanın Azərbaycanın cənubuna qoşun göndərməsinə səbəb oldu:
A) Cərmidan döyüşündə ərəb qoşunlarının məğlub olması
B) Əhalinin ərəblərə qarşı üsyana qalxması
C) Cavanşirin Bizans imperatoru ilə danışıqlar aparması
D) Yusif ibn Əbu Sacın müstəqil siyasət yürütməsi
E) Dərbənd əhalisinin cizyə vergisi ödəməkdən imtina etməsi

52. Xəritədə işarələnmiş ərazi ilə bağlı doğru fikirləri müəyyən edin.



1. Bolşeviklər tərəfindən sovet hakimiyyəti qurulmuşdu
2. AXC-nin elan olunmasından sonra ilk siyasi böhran baş vermişdi
3. Araz-Türk Respublikası fəaliyyət göstərmişdi
4. Azərbaycan ordusu Həbib bəy Səlimovun rəhbərliyi ilə qiyamçıları məğlub etmişdi

A) 2, 3 B) 1, 4 C) 3, 4 D) 1, 2 E) 2, 4

53. XIII-XIV əsrlər Azərbaycan mədəniyyəti üçün xarakterikdir:
1. Marağa rəsədxanasının fəaliyyətə başlaması
2. Şamaxıda Gülüstan qalasının ucaldılması
3. Fəzlullah Rəşidəddinin "Came ət-təvarix" əsərini yazması
4. Təbrizdə "Həşt-behişt" sarayının inşa edilməsi
5. Mahmudabad şəhərinin salınması

54. Fəzl ibn Məhəmməd və Şəmsəddin Eldənizin fəaliyyəti üçün ümumi cəhətlər:
1. Azərbaycanın şimalında yeni dövlətin əsasının qoyulması
2. Dəbil uğrunda mübarizə aparılması
3. Şirvanşahlar dövləti ilə dostluq münasibətinin saxlanılması
4. Səlcuq qoşunlarının məğlubiyyətə uğradılması

55. Qədim Roma dövlətində orduda baş vermiş dəyişikliklər:
1. Plebeylərin orduda xidmət etməsinə imkan verilmədi
2. Kəndlilərdən ibarət olan ordu muzdlularla əvəz olundu
3. Yeni üsulla toplanan orduya strateqlər başçılıq etdi
4. Orduda sərkərdələrə sədaqət andı içilirdi

56. Azərbaycanda baş vermiş hadisələrin xronoloji ardıcıllığını müəyyən edin.
1. Bakı Ağ Neft Zavod Sahibləri İttifaqının yaradılması
2. Ağa və bəylərin "ali müsəlman silki" adlandırılmağa başlanması
3. "Mazut konstitusiyası" adlanan müqavilənin imzalanması
4. Dövlət kəndlilərinin köçmək hüququnun ləğv edilməsi

57. Uyğunluğu müəyyən edin.
1. Avropa Hun dövləti
2. I Göytürk xaqanlığı
3. Xəzər xaqanlığı
a. Ağ Hun dövlətinin bölüşdürülməsində iştirak etmişdi
b. Dövlətdə ikinci nüfuzlu şəxs xaqanbəyi hesab olunurdu
c. Uyğurlar tərəfindən varlığına son qoyulmuşdu
d. Ərəblərin Şərqi Avropaya yürüşlərinin qarşısını almışdı
e. Qərbi Roma imperiyasına hərbi yürüş təşkil etmişdi

Sizə təqdim olunmuş mənbəni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları cavab kağızında yerinə yetirin.

Azərbaycanın yerli əyanlarına və oturaq əhalisinə arxalanan Canı bəy Şirvan ərazisini maneəsiz keçərək Arrana daxil oldu. O, Azərbaycan əhalisi tərəfindən səmimiyyətlə və rəğbətlə qarşılandı. Canı bəyin Təbrizə yaxınlaşmasını xəbər alan Məlik Əşrəf xəzinələrini götürüb qaçmışdı. Lakin, o, çox keçmədən tutuldu, Canı bəyə təhvil verildi. Canı bəy Məlik Əşrəfi öldürmək fikrində deyildi. Lakin, şirvanşah Kavus və başqa yerli feodallar bildirirlər ki, Əşrəf öldürülməsə əhali mübarizədən əl çəkməz və iğtişaş baş verər. Canı bəy fikrindən dönür və Əşrəfi onların sərəncamına verir. Məlik Əşrəf Təbrizdə edam edildi. Əşrəfin edam mərasimi təbrizlilərin şadlıq bayramına çevrilmişdi.

58. Azərbaycan əhalisinin Qızıl Ordu xanı Canı bəyi rəğbətlə qarşılamasının səbəbini yazın.

59. Mənbədə bəhs olunan dövrdə Məlik Əşrəf faktiki olaraq hansı dövlətdə hakimiyyəti ələ almışdı?

60. Mənbədə bəhs olunan tarixi hadisənin iki nəticəsini qeyd edin.

ƏDƏBİYYAT

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

61. Doğru fikirləri müəyyənləşdirin.
İ.Nəsiminin "Sığmazam" qəzəlinin lirik qəhrəmanı...
1. özünü günəşlə, ayla müqayisə edir, onlardan üstün olduğunu iddia edir.
2. onu şərh etməyə çalışanları susmağa çağırır.
3. bildirir ki, varlıq və yer onun əlamətləri hesab oluna bilməz.
4. özünü məkansız gövhər adlandırır, varlığa və məkana sığmadığını deyir.
5. qəzəl boyu özünə müxtəlif adlarla müraciət edir, fərqli xüsusiyyətlərini sadalayır.

A) 2, 5 B) 1, 3 C) 2, 3 D) 1, 4 E) 2, 4

62. Verilənlərdən hansı İskəndər (N.Gəncəvi. "İskəndərnamə") və Qazan xan ("Kitabi-Dədə Qorqud" eposu) üçün ortaq cəhət kimi götürülə bilər?
A) Səfərə çıxarkən oğlunu öz yurdunda qoyub gedir.
B) Əzilənlərin, məzlumların köməyinə çatmaq üçün səfərə çıxır.
C) Dara düşəndə yoldaşları köməyinə gəlirlər.
D) Ailəsini xilas etmək üçün döyüşməli olur.
E) Anasına məktub yazıb vəziyyəti izah etməli olur.


63. M.P.Vaqifin "Pəri" şeirinin məzmun xüsusiyyətləri ilə bağlı doğru fikirləri müəyyənləşdirin.
1. Dördlüklər şəklində yazılmış şeirdir.
2. Pərinin laqeydliyi lirik qəhrəmanın ondan uzaqlaşmasına səbəb olmuşdur.
3. Lirik qəhrəman sevdiyini unuda bilməyəcəyini deyir.
4. Şeirdə rədif işlənmişdir.
5. Pəri günəşə bənzədilir.

A) 1, 3 B) 2, 4 C) 3, 5 D) 1, 4 E) 2, 5

64. Şifahi xalq ədəbiyyatına aid nümunədə simurq quşu baş qəhrəmanın köməyinə gəlir. Hansı fikirlər həmin nümunənin janrına aid edilsə, bütün hallarda doğru olar?
1. Hadisələr təhkiyə yolu ilə çatdırılır.
2. Nəzmlə nəsrin növbələşməsi müşahidə olunur.
3. Satira və yumordan geniş istifadə olunur.
4. Hadisələr nikbin sonluqla tamamlanır.
5. Olduqca yığcam olur.

A) 1, 5 B) 2, 3 C) 2, 5 D) 1, 4 E) 3, 4

65. Sual işarəsinin yerinə janrlar üçün ortaq olan hansı xüsusiyyət yazıla bilər?




A) Hadisələrin böyük hissəsi müəllif təhkiyəsi ilə diqqətə çatdırılır.
B) Həm gülüşə səbəb olan, həm də kədərləndirən epizodlara rast gəlmək mümkündür.
C) Remarka əsərin tərkib hissələrindən biridir.
D) Bütün nümunələrində məzmun baxımından faciə ilə oxşarlıq müşahidə olunur.
E) Nümunələrində nəzmlə nəsrin növbələşməsi müşahidə olunur.

66. "Dərzi şagirdi Əhməd" nağılının iştirakçılarından olan vəzir Allahverdi xan surəti ilə bağlı cədvəldəki doğru fikirləri müəyyənləşdirin.

	Fikir	Doğru / Yanlış
1	Əhmədin bacarığını qiymətləndirib onu tərifləyir.	Yanlış
2	Pəri Soltanı döyüşmədən firəng padşahına verməyi namussuzluq hesab edir.	Doğru
3	İlk sualın cavabını soruşmaq üçün Əhmədi zindandan çağırtdırır.	Doğru
4	Əhmədin yuxunu danışmaq istəməməyini anlayışla qarşılayır.	Yanlış
5	Əhmədin zindandan ayrı otağa aparılmasını təşkil edir.	Doğru

A) 1, 3 B) 2, 5 C) 3, 4 D) 2, 4 E) 1, 5

67. "Koroğlu" dastanından seçilmiş surətlərlə bağlı diaqramdakı doğru fikirləri müəyyənləşdirin.



1. Epizodlardan birində Çənlibelə öz xoşu ilə aparılmır.
2. Koroğlunun tapşırığını yerinə yetirdiyi üçün onun tərəfindən mükafatlandırılır.
3. Bir müddət Koroğluya mehtərlik etdikdən sonra başqa yerə gedir.
4. Eyvaz surəti ilə sıx ünsiyyətdə təqdim olunmuşdur.
5. Koroğlu onun dediklərinin doğru olduğunu öyrənənə qədər nəzarət altında saxlanılır.

A) 2, 3 B) 1, 4 C) 3, 5 D) 2, 4 E) 1, 5

68. M.Füzulinin yaradıcılığından seçilmiş əsərlərin dili ilə bağlı cədvəldəki doğru bəndi müəyyənləşdirin.

	I əsər	II əsər	Yazıldığı dil
A)	"Səhhət və Mərəz"	"Söhbətül-əsmar"	ana dilində
B)	"Rindü Zahid"	"Şikayətnamə"	fars dilində
C)	"Hədiqətüs-süəda"	"Bəngü Badə"	ana dilində
D)	"Söhbətül-əsmar"	"Həft cam"	fars dilində
E)	"Mətləül-etiqad"	"Hədiqətüs-süəda"	ərəb dilində

69. Nümunədə hansı bədii təsvir və ifadə vasitələri işlənmişdir?

Ürəyim kəpənək qanadı burda,
Qonur o budağa, qonur bu gülə.
Bəzəkli, həvəsli ağaclar ilə
Rəqs edib rəng verir hər əsən yelə.
(X.Fərəcli)

A) epitet, təşbeh, metafor, inversiya
B) metafor, metonimiya, mübaliğə, bədii təzad
C) epitet, təşbeh, bədii təzad, kinayə
D) təşbeh, bədii təzad, mübaliğə, inversiya
E) epitet, metafor, metonimiya, inversiya

70. Ş.İ.Xətayinin "Bahariyyə" əsəri ilə bağlı fikirlərdən hansı doğrudur?

A) Ağacların müxtəlif fəsillərdə vəziyyəti göstərilmişdir.
B) Budaqda oturmuş bülbül minbərdə danışan xətibə bənzədilir.
C) Bitkilərdən bəhs olunsa da, heyvanlarla, quşlarla bağlı mövzulara toxunulmamışdır.
D) Yaz yağışı təbiətin gözəlliyini pozan təbiət hadisəsi kimi mənalandırılmışdır.
E) Bülbülün oxuduğu şən mahnılar baharın rəmzi kimi qələmə verilmişdir.

71. Müəllif nəzərdə tutduğu fikri ikimisralı şeir vahidinə sığdıra bilməyəciyini görür. Onun yazacağı şeir hansı janrda olmalıdır?

A) qəzəl B) məsnəvi C) müxəmməs
D) qitə E) qəsidə

72. Bəndlərdən birində verilən epizodda adı çəkilən surət qarşısındakına şübhə ilə yanaşır, onun yalan danışdığını düşünür və etirazını bildirir:

A) Koroğlu – Toqatdakı qarı Qıratın Hasan paşanın tövləsində saxlanıldığını dedikdə ("Həmzənin Qıratı qaçırması" qolu)
B) Leyli – səhrada qarşılaşdığı şəxs özünü Məcnun adlandırdıqda (M.Füzuli. "Leyli və Məcnun")
C) Burla xatun – Qazan xan ovdan tək qayıdarkən Uruzun hələ ovda olduğunu deyəndə ("Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy")
D) İskəndər –Daranın adamları onun yanına gəlib başçılarını öldürməyə hazır olduqlarını deyərkən (N.Gəncəvi. "İskəndərnamə")
E) Çoban – Əhməd bu şəhərdə böyüsə də, küçəyə çıxmadığını deyəndə ("Ağıllı uşaq" nağılı)

73. Həyatı əksetdirmə üsuluna görə digərlərindən fərqlənən əsəri seçin.

A) "Söz" (M.Füzuli)
B) "Mehr və Müştəri" (Ə.Təbrizi)
C) "Dəhnamə" (Ş.İ.Xətayi)
D) "Vərqa və Gülşa" (Məsihi)
E) "Töhfətül-İraqeyn" (Ə.Xaqani)

74. N.Gəncəvinin əsərləri ilə bağlı uyğunluğu müəyyənləşdirin.

1. "Sultan Səncər və qarı"
2. "Yaralı bir uşağın dastanı"

a. Haqlı ittihamlar irəli sürən əsas surətə yer verilmişdir.
b. Surətlərdən biri yaxşılığa yaxşılıqla cavab verərək müəllifin alqışını qazanır.
c. "Yeni dost tapmaq üçün köhnə dostları itirənlər dostsuz qalacaqlar" fikri əsərin ideyası ola bilər.
d. Soyuqqanlı davranıb doğru qərar vermək təbliğ olunur.
e. Tövsiyələrlə ədalətli olmağa çağırış edilmişdir.

A) 1-a; 2-c B) 1-c; 2-a,b C) 1-a; 2-d,e
D) 1-a,e; 2-d E) 1-d,e; 2-b,c

75. M.Füzulinin "Leyli və Məcnun" poemasından seçilmiş hissə ilə bağlı fikirlərdən hansı ***səhvdir?***

Məndəndir onun cünuni əfzun,
Qeys ikən olubdur adı Məcnun.
Daim keçirər qəmimdə əyyam,
Bir gün ona hasil olmayıb kam.
Risvayi-zəmanə oldu məndən,
Afaqə fəsanə oldu məndən.

A) Leylinin anasına müraciətlə dediyi hissədəndir.
B) Misraları deyənin Məcnunun halına yanması müşahidə olunur.

C) Qeysin başına gələnlərə görə sonradan Məcnun adlandırıldığı diqqətə çatdırılır.
D) Məcnunun bir gün kam alacağına ümid ifadə olunur.
E) Məcnunun eşqi ucbatından əfsanəyə çevrildiyi deyilir.

76. Ş.İ.Xətayinin "Dəhnamə" əsərinə aid cədvəlin doğru olması üçün boşluqların yerinə hansı bəndlərdə verilənlər artırılmalıdır?

SURƏT	Əməli	Xarakteri	Nitqi
Aşiq	1	Dözümlüdür	Ol fitnəli yar sağ, əsənmi?
Pəri	Məktubu cırır	2	Vargil, degil ol rəsulə gəlsün
Səba	Qəmli halda Aşiqin yanına qayıdır	Yardımsevərdir	3

A) 1 – Məktub aparır; 2 – Təvazökardır; 3 – Sordu ana kim, Səbamısan sən?
B) 1 – Səbadan inciyir; 2 – Hiddətlidir; 3 – Zülmətdə mana qəmər görünməz...
C) 1 – Bağı gəzməyə çıxır; 2 – Mülayimdir; 3 – Bir qasidi-xəstə hali gördüm.
D) 1 – Kömək üçün bağbana müraciət edir; 2 – Rəhmlidir; 3 – Sən bilməmisən ki, mən nə şuxəm...
E) 1 – Səbanı məktubla göndərir; 2 – Qürurludur; 3 – Qıldı məni-xəstəni məlamət...

77. N.Gəncəvinin "İskəndərnamə" əsərində İskəndərin Dara ilə döyüş barədə fikirlərini doğru əks etdirən bəndi müəyyənləşdirin.
A) Gündən-günə gücləndiyi bir mərhələdə Daranı özünə rəqib bilirək müharibəyə hazırlaşır.
B) Feyləqusun vəsiyyətinə əməl edərək Dara ilə döyüşməyə qərar verir.
C) Dara ilə döyüşə hazırlaşsa da, Kəyanlara yamanlıq etməməyi düşünür.
D) Hansı yolla olur-olsun, Daradan üstün olmaq istəyir.
E) Dara, Nüşabə ilə müharibəyə hazırlaşdığı üçün İskəndər onun üstünə qoşun çəkir.

78. M.P.Vaqifin yaradıcılığı ilə bağlı fikirlərdən hansılar ***səhvdir?***
1. İki ədəbi növdə, iki vəzndə əsərlər yazmışdır.
2. Yaradıcılığında qoşma janrı üstünlük təşkil edir.
3. Məhəbbətə dair şeirlərində M.Füzuli ənənələrini davam etdirmişdir.
4. Nikbin ruhu ilə seçilən şeirlər qələmə almışdır.
5. "Görmədim" adlı şeiri əruz vəznindədir, ictimai lirika nümunəsidir.

A) 1, 3 B) 4, 5 C) 1, 2 D) 2, 4 E) 3, 5

79. "Durna teli" qolu ("Koroğlu" dastanı) ilə bağlı səbəb-nəticə cədvəlindəki ***səhvi*** müəyyənləşdirin.

	SƏBƏB	NƏTİCƏ
A)	Xoca Əziz gecikməyin çox pis nəticələnəcəyini bilirdi.	Qıratı ələ keçirmək qərarına gəlir.
B)	Giziroğlu Mustafa bəyin atası xotkar tərəfindən cəzalandırılmışdı.	Mustafa bəy dağlara çəkilərək qaçaqlıq edir.
C)	Xanımlar durna telini bəyənmişdilər.	Dəlilərdən üçü durna teli tapmaq məqsədilə yola çıxır.
D)	Qoruqçunun Koroğlu ilə ədavət vardı.	Dəlilləri görəndə qaçıb Aslan paşaya xəbər verdi.
E)	Qıratın axsaması Aslan paşanın xoşuna gəlmir.	Onu ilxısına qatmır.

80. *"Şifahi xalq ədəbiyyatının epik növünə aid bu janrın nəzmlə və nəsrlə nümunələri mövcuddur"* cümləsi hansı janra aid edilə bilər?
A) əfsanə B) lətifə C) nəğmə
D) tamaşa E) tapmaca

81. N.Gəncəvinin "İskəndərnamə" əsərinə aid cədvəlin doğru olması üçün hansı fikirlərin yeri dəyişilməlidir?

"Şərəfnamə"yə aid hadisədir.	"İqbalnamə"yə aid hadisədir.
1. İskəndər elmlə məşğul olanın onun üçün ən əziz insan olduğunu deyir. 2. İskəndər vəzirin məsləhəti ilə döyüşə yollanır. 3. İskəndər düşmən üzərinə qəfil hücum təklifini qəbul etmir.	4. İskəndər Beytülmüqəddəsdə döyüşərək insanları incidən zalımı öldürür. 5. İskəndərin əmri ilə poladdan sədd ucaldılır. 6. İskəndərin qarşısına yemək əvəzinə daşqaş qoyulur.

A) 1 – 4 B) 3 – 5 C) 1 – 6
D) 2 – 4 E) 3 – 6

82. "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy"la bağlı ***səhv*** fikirləri müəyyənləşdirin.

Qazan bəyin əmri, istəyi ilə...

1. məclis qurulur.
2. Uruz düşmənlə vuruşmadan yoldaşları ilə təpəyə qalxır.
3. Burla xatun ovdan qayıdanlar üçün hazırlıq görür.
4. Dədə Qorqud gəlib xeyir-dua verir.
5. qəhrəmanlar mükafatlandırılır, qullar azad olunur.

A) 1, 5 B) 3, 4 C) 2, 5 D) 1, 3 E) 2, 4

83. Hansı cümlələr seçilsə, M.Füzulinin "Leyli və Məcnun" poemasındakı hadisələrin ardıcıllığı ***pozulmaz?***

Leylinin atası Qeysi Məcnun adlandırıb Leylini ona layiq bilmir.
.....
Dəvə Leylini səhrada Məcnunun olduğu yerə aparır.

1. Novfəl səhrada Məcnunu tapır.
2. Leyli Məcnunu sevdiyini anasına etiraf edir.
3. Zeyd sonuncu dəfə Məcnunun yanına yollanır.
4. Məcnun Leylinin İbn Səlama verilməsindən xəbər tutur.
5. Atası səhrada Məcnunu tapır, amma onun eşqindən dönməyəcəyini başa düşür.

84. Nümunədə hansı bədii təsvir və ifadə vasitələri işlənmişdir?

Bu torpaq, bu yarpaq bir də göyərməz.
Bu torpağın, bu yarpağın nəydi günahı?
Dəli rüzgara deyən gərək axı:
Bu dünya bir yaşıl yarpağa dəyməz.
(A.Abdulla)

1. metonimiya 2. anafora 3. bədii sual
4. litota 5. epitet 6. təşbeh

85. Şifahi xalq ədəbiyyatına aid nümunələr üçün ortaq fikirlər verilmişdir. Hansı cərgələrdə doğru müqayisə verilmişdir?

	I əsər	Ortaq fikir	II əsər
1	"Ağıllı uşaq"	Bacarığın insanı üstün etdiyi göstərilmişdir.	"Çahargah"
2	"Xan sarayı"	Yaxın adamları ilə məsləhətləşən rəhbər surəti var.	"Dərzi şagirdi Əhməd"
3	"Dərzi şagirdi Əhməd"	*"Məsləhətli don gen olar"* ideyası əsərin müəyyən məqamlarına uyğun gəlir.	"Ağıllı uşaq"
4	"Çahargah"	Xalqa arxalananın ucaldığı göstərilmişdir.	"Dərzi şagirdi Əhməd"
5	"Xan sarayı"	*"Sənətkar və sənətinin ardıcılları"* motivinə yer verilmişdir.	"Çahargah"

86. Qədim dövr Azərbaycan ədəbiyyatı haqqında fikirlərdən doğru olanları seçin.

1. Yazılı ədəbiyyat nümunələri, əsasən, fars dilində qələmə alınırdı.
2. Vətənpərvərlik, doğma yurda məhəbbət mövzularının tərənnüm olunduğu əsərlər yazılmışdır.
3. Müxtəlif şeir janrlarında təşkil olunmuş toplular, habelə ilk "Divan" tərtib olunmuşdur.
4. Qədim dövrə aid ümumtürk ədəbiyyatının əsasını epos yaradıcılığı təşkil etmişdir.
5. Ədəbiyyat yalnız yazılı şəkildə yaranmışdır.

87. "Koroğlu" dastanına əsasən uyğunluğu müəyyənləşdirin.

1. Koroğlunu xəbərdar etmək üçün yola çıxır.
2. Koroğlunun yerini müəyyən etmək üçün yola çıxır.
3. Koroğluya zərər vermək üçün yola çıxır.

a. İsabalı b. Aşıq Cünun
c. Giziroğlu Mustafa bəy d. Həmzə
e. Xoca Əziz

88-90-cı sualları mətnə əsasən cavablandırın.

Pompeyin elçisi

Çapar. *(daxil olur)*
Bir elçi gəlibdir, xoşdur niyyəti,
Elçidə Pompeyin səlahiyyəti.
Çar Uruz. Qoy gəlsin.
(elçi daxil olur, təzim edir)
Elçiyə hörmət, ehriram.
Feofan. Sülhdür məramımız.
Çar Uruz. Qulaq asıram.
Feofan. Çar, böyük Pompeydən məktub var sənə,
hörmətdi bu çarlıq şərəfətinə.
(məktubu verir)
...İcazə istəyir Pompey, çar Uruz,
Alban torpağından keçsin ordumuz.
Basılmaz qüvvədir bizim qoşunlar,
Yəqin sarayda da rəy müsbət olar.
Təəssüf eləsə Pompey bir qədər,
Nə sənə, nə bizə xeyiri dəyər.

GÜVƏN NƏŞRLƏRİ

Məlikə Aydan. *(kənara)*
Ağırlıq eləməz bir baş heç kəsə,
Bir baş ikibaşlı söz işlətməsə...
(ucadan)
İcazə istəyir Pompey, əmr edir?
Feofan. Qalib sərkərdənin dili belədir.
Məlikə Aydan. Quşu dimdiyindən tanıyırıq biz,
uşağı bələkdən... çoxdu səbrimiz.
Elçilər görmüşük bir qonaq kimi,
Gərək danışmasın elçi şah kimi.
Qürurla açılmaz bağlı qapılar,
Səbirlə axtarsan, itən tapılar...
(N.Həsənzadənin "Pompeyin Qafqaza yürüşü" əsəri əsasında hazırlanmışdır)

88. Nümunənin və N.Gəncəvinin "İskəndərnamə" əsərinin müqayisəsi əsasında hazırlanmış cədvəli doldurun.

MƏZMUN		FORMA	
Əsərlər üçün ortaq cəhətdir	Əsərləri fərqləndirən cəhətdir	Əsərlər üçün ortaq cəhətdir	Əsərləri fərqləndirən cəhətdir

89. Nümunədə tünd hərflərlə verilmiş misralara əsasən doğru hesab etdiyiniz fikri seçin və nümunə gətirməklə fikrinizi əsaslandırın.
□ Misralarda (birində və ya bir neçəsində) bədii ifadə vasitələrindən yalnız inversiya işlənmişdir.
□ Misralarda (birində və ya bir neçəsində) inversiya ilə yanaşı, digər bədii ifadə vasitəsi də işlənmişdir.

_____

90. Elçi Feofana aid cümlələrdən biri mətnin gedişində öz təsdiqini tapmır və həmin cümlənin ürəkdən deyilmədiyi məlum olur. Cümləni seçin və seçiminizi əsaslandırın.
Cümlə: _____
Əsaslandırma: _____

SINAQ 4

AZƏRBAYCAN DİLİ

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

1. Cədvələ və nümunələrə əsasən uyğun fikirləri müəyyən edin.
1. *Müzəffər ordumuz hər gün dənizlər, dağlar aşdıqca*
Yerin qəlbində tufanlar, tələtümlər qopub çağlar.
(S.Vurğun)
2. *Uca, qorxunc qayalardan ilham alıb yazardım,*
Qaranlıqlar çökən zaman düz yolumu azardım.
(S.Vurğun)

1-ci nümunəyə aid yanlış fikirdir.	2-ci nümunəyə aid doğru fikirdir.
1. Toplu isim işlənmişdir. 2. Cəm şəkilçisi qəbul etmiş isimlərin hamısının səs və hərf tərkibi dəyişir.	3. Həm sadə, həm də mürəkkəb isim işlənmişdir. 4. Xüsusi isim işlənməmişdir.

A) 1, 3 B) 2, 4 C) 1, 4 D) 2, 3 E) 1, 2

2. Uyğunluğu müəyyən edin. (tam cavabı müəyyən edin)
1. Cəm şəkilçisi qəbul etmiş toplu isim işlənmişdir.
2. Cəm şəkilçisi qəbul etmiş xüsusi isim işlənmişdir.
a. Ayağı çarıqlı kiçik bir ölkə
Böyük Firdovsilər yaratdı, bəlkə? (S.Vurğun)
b. Səhər tezdən kəşfiyyatçı dəstələri dağın ətəyində müşahidə aparmağa başladılar.
c. Nəbi yal-yamacı bürüyən sürülərə, ilxılara tamaşa edirdi.
d. Sizin güldüyünüz çoban torpağı
Nizamilər, Füzulilər yetirmiş. (S.Vurğun)
A) 1-a, b; 2-c, d B) 1-d; 2-b, c C) 1-b; 2-a, d
D) 1-b, c; 2-a E) 1-b, c; 2-a, d

3. Bəndlərdən birində qeyri-müəyyən təsirlik halda olan söz ***işlənməmişdir***:

A) Hər ürəyin öz dünyası bir səadət arzular,
Qanlar ilə yazılmışdır hər azadlıq dastanı.
(S.Vurğun)

B) Arazın mehi kənddən köyşənə xoş bir rayihə,
gözəl bir qoxu gətirirdi.

C) Yoluma gül səpən tərif yanından
Saymazca keçməyi bacarmalıyam. (M.Araz)

D) Adam var ki, çörək tapmaz dünyada,
Adam var, yağ yeyər, balı bəyənməz.
(A.Tufarqanlı)

E) Adam var, mərfətdən yoxdur xəbəri,
Adam var, sultanı, xanı bəyənməz.
(A.Tufarqanlı)

4. Verilmiş bəndlərdən birində fikrin qüvvətləndirilməsinə xidmət edən üslubi vasitələrdən olan metonimiya ***işlənməmişdir***:

A) Azərbaycan tanımışdır vaxtsız qapı döyənləri,
Qara günlər gətirərkən qan qırmızı geyənləri.
(X.Rza)

B) Yeriyir irəli şəhər də, kənd də
Bir ananın qoşa balalarıtək. (B.Vahabzadə)

C) Hirsindən partlayıb meşədə cır nar,
Yovşan yetim kimi görünür mənə. (F.Qoca)

D) Yalvarma, yalvarma o cəllada sən!
Hələ baş əyməmiş bu böyük Vətən.
(S.Vurğun)

E) Yetimtək boynunu burma, Təbrizim!
Məlul-məlul baxıb durma, Təbrizim!
(S.Rüstəm)


5. Hansı sözün tələffüz şəkli ***yanlış*** verilmişdir?

A) [halavar] B) [hüsünxət] C) [höku:mət]
D) [xeyriyəçilix`] E) [irk`çilix`]

6. *Eyler-Venn diaqramına və nümunələrə əsasən doğru fikirləri müəyyən edin.*

a. Yetişməmiş bir meyvəni dərməkdən mənfəət əvəzinə, zərər və bəlkə də, xəta yaranar.

b. Siz məni el tənəsindən, dost-aşna töhmətindən, ana bədgümanlığından xilas etdiniz.



1. Bir-biri ilə münasibətdə antonim olan sözlər işlənmişdir.

2. Əmələ gəlmək frazeoloji birləşməsinin sinonimi işlənmişdir.

3. Həm omonim, həm də çoxmənalı olan söz işlənmişdir.

4. Termin işlənmişdir.

5. Danlaq, məzəmmət sözlərinin sinonimi işlənmişdir.

6. Bütün sözlər həm leksik, həm də qrammatik mənaya malikdir.

A) 2, 3, 4, 6 B) yalnız 2, 3, 4 C) 1, 2, 5, 6
D) 1, 3, 5, 6 E) yalnız 1, 5, 6

7. Nümunəyə və cədvələ əsasən müəyyən edin.

O, görünür, hiyləgər və məkrli düşmənindən intiqam almaq üçün sənətin ecazkar qüdrətini sınaqdan keçirmək istəyirdi.

Doğrudur:	Yanlışdır:
1. Leksik mənası *bir şeyi, faktı təsdiq, bir şeyə olan hüququ sübut edən rəsmi kağız* olan söz işlənmişdir. 2. Bir-biri ilə münasibətdə sinonim olan sözlər işlənmişdir. 3. Həm omonim, həm də çoxmənalı söz işlənmişdir.	4. *Güzəştə getmək* frazeoloji birləşməsinin sinonimi işlənmişdir. 5. Məcazi mənalı sözlər də işlənmişdir. 6. Bütün sözlər leksik mənaya malikdir.

A) 1, 3, 6 B) 2, 4, 6 C) 1, 3, 5
D) 2, 4, 5 E) 1, 4, 5

8. Sözlər əsasında uyğunluğu müəyyən edin.

dominant, dönməzlik, dördfaizli

1. Sözlərin hamısına aiddir.
2. Sözlərdən hər hansı ikisinə aiddir.

a. Səs və hərf tərkibi arasında üç fərqli məqam var.

b. Sözdə bir-biri ilə qarşılı təşkil edən samitlər işlənmişdir.

c. Ahəng qanununa tabe deyil.

d. Kar qarşılığı olmayan cingiltili samit işlənmişdir.

e. İncə, qapalı, dodaqlanmayan sait işlənmişdir.

A) 1-a,b; 2-c,d,e B) 1-b,e; 2-a,c,d
C) 1-a,c,d; 2-b,e D) 1-a,b,e; 2-c,d
E) 1-d,e; 2-a,b,c

9. Sözlərin leksik mənası ilə bağlı uyğunluğu müəyyən edin.

1. bədxah 2. bədnam 3. bədbin

a. Pislikdə adı çıxmış, adı ləkəli, pis ad qazanmış

b. Başqasının pisliyini istəyən, heç kəsin yaxşılığını istəməyən

c. Həyatda hər şeyi pis görən, hər şeyə ümidsiz baxan

A) 1-a, 2-b, 3-c B) 1-b, 2-a, 3-c
C) 1-c, 2-b, 3-a D) 1-b, 2-c, 3-a
E) 1-a, 2-c, 3-b

10. Hansı cərgədəki isimlərin tərkibində iki leksik şəkilçi işlənmişdir?
A) sarsıntı, döyüntü, göyərti
B) dağıntı, yaşantı, bağlantı
C) sızıntı, hənirti, çökəklik
D) görüntü, boyaqçı, soyuducu
E) sıxıntı, asılqan, döşəkçə

11. Hansı sözə aid xüsusiyyət ***verilməmişdir***?
1. Yerinə görə termin kimi işlənən bu söz həm omonim, həm də çoxmənalıdır.
2. Həm antonimi, həm də sinonimi olan bu sözün omonimliyi yoxdur.
3. Yalnız termin kimi işlənən bu sözün omonimliyi yoxdur.
4. *Fikir, dərd, qəm, qüssə* sözləri ilə sinonim olan bu sözün omonimliyi yoxdur.

A) forma B) tangens C) kök
D) xiffət E) arıq

12. Tələffüz şəklində verilmiş sözlərdən birində verilmiş qaydalardan birinin işləndiyini əminliklə deyə ***bilmərik***:
1. *-laş²* şəkilçisi qoşulduğu sözün son samitindən asılı olaraq *[-daş²], [-raş²], [-naş²]* kimi tələffüz olunur.
2. *-laq* şəkilçisi qoşulduğu sözün son samitindən asılı olaraq *[-dax]* kimi tələffüz olunur.
3. *-lan²* şəkilçisi qoşulduğu sözün son samitindən asılı olaraq *[-dan²], [-nan²], [-ran²]* kimi tələffüz olunur.
4. *-dan²* çıxışlıq hal şəkilçisi *m, n* hərfləri ilə bitən sözlərə qoşulduqda *[-nan²]* kimi tələffüz olunur.
5. *-lar²* şəkilçisi qoşulduğu sözün son samitindən asılı olaraq *[-dar²], [-rar²], [-nar²]* kimi tələffüz olunur.

A) [qışdax] B) [dərtdəşməx`]
C) [dənizdər] D) [cəsa:rətdəmməx`]
E) [dayımnan]

13. Cədvələ əsasən uyğun bəndi müəyyən edin.

A)	*Əhali* sözünün məzmununda cəmlik anlayışı olduğu üçün cəm isim hesab olunur.	doğru
B)	*Boyaqçılıq* ismi mücərrəd isimdir, cəm şəkilçisi qəbul edə bilir.	doğru
C)	Təsirlik halda olan isim xəbərlik şəkilçisini qəbul edə bilər.	doğru
D)	*İncəsənət xadimi* birləşməsindəki qeyri-müəyyən yiyəlik halda olan ismi müəyyən yiyəlik hala çevirmək mümkündür.	yanlış
E)	Tələffüz şəklində verilmiş *[xalıya]* sözünün yazılışını iki cür düşünmək mümkündür.	yanlış

14. Yazılışı düzgün olan sözün fonetik təhlili ilə bağlı doğru fikirləri müəyyən edin.
nastalji, neftçıxarma, nərmə-nazik
1. Səs və hərf tərkibi arasında bir fərqli məqam var.
2. Ahəng qanununa tabe deyil.
3. Kar samitlərin sayı cingiltili samitlərin sayından çoxdur.
4. Saitlərdən biri incə və açıqdır.
5. Yalnız iki samitin qarşılığı yoxdur.

A) 1, 3, 5 B) 2, 4, 5 C) 1, 2, 4
D) 2, 3, 4 E) 1, 3, 4

15. Sxemdəki dodaqlanan saitləri və kar samitləri silərək alınan sözün leksik mənasını müəyyən edin.

k	ü	m	o	i	ş	n	u	a	t	r	ö	ə

A) Məscidlərdə vaizin, xətibin çıxıb vəz, xütbə oxuduğu pilləli kürsü
B) Azan vermək üçün məscidlərin yanında və ya üstündə ucalan qüllə
C) Yarımkürə şəklində bina damı; qübbə
D) Yağış, qar suyunun axması üçün damların kənarına qoyulan boru
E) Qəbirlərin üzərində xüsusi tikili

16. Hansı bənddə nöqtələrin yerinə uyğun saitlər yazılmalıdır?

	ə	a	o
A)	n...batat	m...nometr	mavz...ley
B)	t...başir	mem...rial	m...zaika
C)	bəy...nat	met...nimiya	mikr...skop
D)	peş...kar	nevr...loji	m...delyer
E)	bəy...nat	m...nitorinq	par...xod

17. Uyğunluğu müəyyən edin.
1. Tələffüz zamanı açıq sait qapalı saitə çevrilir.
2. Sözdəki qoşa saitlərdən biri tələffüz zamanı düşür.
3. Tələffüz zamanı səsartımı baş verir.

a. itaətkarlıq b. kooperativ c. gözoxşayan
d. ədavət e. diaqonal

A) 1-c; 2-b; 3-a,e B) 1-c,d; 2-a,b; 3-e
C) 1-a,c; 2-b,d; 3-e D) 1-c; 2-b; 3-e
E) 1-a,b; 2-c,d; 3-e

18. Hansı cümlədə *"günahkar"* sözünün sinonimi işlənmişdir?
A) Arazla bir gündə həbsxanadan 80-ə yaxın inqilabçı fəhlə azad edilmişdi.
B) Bizim kinli prokuror nə qədər istəmiş ki,
Hakim onun önündə dursun müqəssir kimi.
(B.Vahabzadə)
C) De ki, yağılardan öc almayınca
Qisas qılıncımız qınına girməz. (Ə.Cəmil)
D) Atası bir az mühafizəkar və pulpərəst insandır.
E) Sən bu ittihamı öz üzərindən nə kimi bir sübutla götürə biləcəksən?

19. *"Yaşamaq"* sözünün *bir şeydən ilham almaq, bir şeyi öz həyatı üçün əsas hesab etmək* mənasında işləndiyi nümunəni müəyyən edin.
A) Piri kişi Qaraca qızın kim olduğunu, bu vaxta qədər necə yaşadığını ona ətraflı nağıl edirdi. (S.S.Axundov)
B) Sizinlə yaşayır qəlbim indidən,
Bizim də başqa bir baharımız var. (S.Vurğun)
C) Yaşar dağlar başında qartal kimi,
Qoşar səhralarda bir maral kimi. (H.Cavid)
D) Biz kəndlilər və fəhlələr əkməsək, biçməsək, onlar da işləməsə, heç bir hökumət yaşaya bilməz.
E) Yaşasın bütün dünyada sülh! Yaşasın Vətənimiz!

20. *"Qürbətdə olan oğlunun fikrini çəkən ana rahatlığın nə olduğunu bilmirdi"* cümləsindəki frazeoloji birləşmənin sinonimlərinin işləndiyi cümləni müəyyən edin.
A) Bir fikrə gəlmək – ilk və ən çətin addımlardan biridir.
B) Xalqının hayına qalan rəhbərlər tarixdə həmişə iz qoyur.
C) Bu çətinliyi necə həll edəcəyimi bilmirdim, birdən gözəl bir həll yolu fikrimə gəldi.
D) İnsanların ağıllarına çatmırdı ki, şah Abbas qəflətən bir Abbas Məhəmməd oğlu ola.
E) Axşamdır, gün batmış, şəfəq saralmış,
Çölə zülmət çökmüş, hava qaralmış. (A.Səhhət)

21. Biri publisistik üsluba aid edilə ***bilməz***:
A) Əsas əlaməti kütləvi anlaşıqlılıq, aydınlıq və təsirlilikdir.
B) Mücərrəd obrazlılıqdan istifadə edilmir.
C) Xalq dilinə çox yaxındır.
D) Ədəbi dilin normalarına riayət olunması tələb olunur.
E) Tarixi təkamül prosesində formalaşmış standart formalardan kənara çıxmır.

22. Hansı isim konkret isimdən düzəlmiş mücərrəd isimdir?
A) yaxşılıq B) tarixşünaslıq C) ümidsizlik
D) tarixçi E) düşüncə

23. Verilmiş nümunədə ***işlənməmişdir***:
Qərəzsiz yanaşma cəmiyyətdə ədalətə olan inamı artırdığı halda, işində də, rəftarında da ədavətli insanlar bu inamı sarsıdır.
1. Frazeoloji birləşmə
2. Feildən düzəlmiş isim
3. Məcazi mənalı ifadə
4. Səsartımı baş vermiş söz
5. Səs və hərf tərkibi fərqlənən söz

24. Verilmiş frazeoloji birləşmələrin mənasına əsasən ardıcıllığı müəyyən edin.
* Əzələ nümayiş etdirmək
* Əndazədən çıxmaq
* Əli quru yerdə qalmaq
* Ətdən çəpər çəkmək
* Ətəkdə daş saxlamaq
1. Həddini aşmaq, ifrata varmaq
2. Yan-yana düzülərək yolu kəsmək, sədd yaratmaq
3. Qorxutmaq üçün öz gücünü göstərmək
4. Davaya, döyüşə hazır olmaq, tədbirli olmaq
5. Heç bir şey əldə etməmək

25. Hansı sözlərdə fərqləndirilmiş saiti başqa saitlə əvəz etməklə yeni leksik mənalı söz düzəltmək mümkündür?
1. hərək*ə*t 2. əhv*a*lat 3. heykəlt*a*raş
4. b*ə*yaz 5. əjd*a*ha 6. k*o*mpaniya

26. Verilmiş nümunədə ismin hansı halında olan söz rast ***gəlinmir***?
Sözüm yoxdur, fələk gər baxmasa gözdən axan yaşa,
Budur qorxum kim, ol seyli-bəla bu körpüdən aşa.
(Qövsi Təbrizi)
1. adlıq hal 2. çıxışlıq hal 3. yönlük hal
4. yerlik hal 5. təsirlik hal 6. yiyəlik hal

27. Uyğunluğu müəyyən edin.
1. Bədii üslub
2. Rəsmi-işgüzar üslub
3. Elmi üslub

a. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:
2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilsin.

b. Maddə 22. Paytaxt
Azərbaycan Respublikasının paytaxtı Bakı şəhəridir.

c. Axşamdır, gün batmış, şəfəq saralmış,
Çölə zülmət çökmüş, hava qaralmış.
(A.Səhhət)

d. Duzun turşu ilə birləşməsi nəticəsində əmələ gələn, suda əriyən kimyəvi maddə qələvi adlanır.

e. Günəş ətəklərini yavaş-yavaş qüruba doğru çəkməyə başlamışdı.

Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları Cavab vərəqində yerinə yetirin.

Mikroblar

Bir vaxtlar alimlər belə hesab edirdilər ki, dünyada ən kiçik **canlı** varlıqlar birələrdir. Heç kimin ağlına gəlmirdi ki, bizimlə yanaşı, daxildə və bizim ətrafımızda "gözəgörünməz" çox böyük aləm mövcuddur. Alimlər bu qəribə aləmi mikroskopun köməyi ilə öyrəndilər. Onlar əvvəlcə müşahidələrinə inanmadılar. Sonralar inanmağa başladılar və bu aləmin nümayəndələrini mikrob, yaxud mikroorqanizmlər adlandırdılar.

Mikroskop mikrobların hər birini ayrı-ayrılıqda görməyə imkan verirdi. Buradan aydın oldu ki, bütün bu canlı varlıqlar, adətən, tək bir canlı hüceyrədən ibarət olsalar da, onlar formasına, xüsusiyyətlərinə, həyat tərzinə və ətraf mühitə təsirinə görə saysız-hesabsızdır. Mikrobların içərisində birhüceyrəli bitki orqanizmləri sayılan bakteriyalar əsas yer tutur. Bəzi bakteriyalar olduqca zərifdir və çox tez məhv olur. Başqaları isə **qaynar** və donmuş suda belə sağ qalır, müxtəlif turşuların, qələvilərin və zəhərlərin təsirinə dözür.

Adi gözlə görə bilmədiyimiz bakteriyalar həyatımıza çox güclü təsir göstərir. İnsan, yaxud heyvan orqanizminə keçərək bakteriyalar qorxulu xəstəliklər: vərəm, vəba, qarayara, yatalaq, angina, taun, ağciyər iltihabı, müxtəlif irinli yaralar, yoluxucu qan xəstəlikləri və s. əmələ gətirir.

Faydalı bakteriyalar da var. Bunlarsız həyat çox çətin olardı. Faydalı bakteriyalar südü qatığa, kefirə, üzüm şirəsini isə spirtə, sirkəyə çevirir. Lakin bu bakteriyaların ən əsas faydası başqadır. Axı adi südü də içmək olar, şərabsız da, hətta sirkəsiz də keçinmək mümkündür. Sən demə, faydalı bakteriyalar olmasaydı, süd də, çörək də, ət də dəfələrlə az olardı! İş burasındadır ki, heyvanların həyatı bitkilərdən asılıdır, bitkilər azot çox olan torpaqda daha yaxşı inkişaf edir. Azotu isə torpağa orada yaşayan azotsevər bakteriyalar gətirir.

Əgər çürüdücü bakteriyalar olmasaydı, planetimiz tədricən məhv olmuş bitki və heyvanların çürüməmiş qalıqları ilə örtülərdi. Çürüdücü bakteriyalar sayəsində həmin qalıqlar nəinki məhv olur, həm də məhv olmuş bitki və heyvanların bədənindəki bütün maddələr fasiləsiz surətdə torpağa qaytarılır. Həmin maddələr torpağa qayıdıb, bitki və heyvanların yeni nəslinin inkişafına kömək edir.

28. Kursivlə verilmiş abzasdan leksik mənası verilmiş sözləri müəyyən edərək ardıcıllıqla yazın.
1. Xeyir verən, xeyirli, yaxşı nəticə verən .....
2. Dolanmaq, yaşamaq, güzəran etmək .....
3. Bir şeyi başqa bir vəziyyətə salmaq .....

29. Tünd hərflərlə verilmiş sözlərə əsasən cədvəli doldurun.

Tünd hərflərlə verilmiş sözlər	Tünd hərflərlə verilmiş sözlərin kontekstə uyğun mənası (həqiqi və ya məcazi)	Tünd hərflərlə verilmiş sözlərin kontekstdəkindən fərqli mənada cümlədə işlədilməsi

30. Mətnə əsasən cədvəli doldurun.

Müddəa	Fakt
	1. Bakteriyalar insan, yaxud heyvan orqanizminə keçərək qorxulu xəstəliklər əmələ gətirir.
	2. Bakteriyalar südü qatığa, kefirə, üzüm şirəsini isə spirtə, sirkəyə çevirir.


TARİX

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

31. Cərmidan döyüşü nəticəsində:
A) Azərbaycan mərzbanı İsfəndiyarın qüvvələri qələbə qazandı
B) Beyləqanlı Müsafirin başçılıq etdiyi xalq hərəkatı yatırıldı
C) Ərəblərin şimala – Albaniyaya yolu açıldı
D) Xəzərlərin Azərbaycana arası kəsilməyən yürüşlərinə son qoyuldu
E) İraq və Şam əraziləri ərəblərin nəzarətinə keçdi

32. "Bəy hüquqları" haqqında reskriptdən ***fərqli*** olaraq, "Kənd cəmiyyətlərinin ictimai idarəsi haqqında" Əsasnamə ilə:
A) Kəndlilər üzərinə hərbi vergi adlanan əlavə mükəlləfiyyət qoyuldu
B) Xəzər vilayətinin bəylərinin torpaqları müsadirə olundu
C) Tiflisdə bəylərin şəxsi hüquqları ilə bağlı komitə fəaliyyətə başladı
D) Mülkədarların kəndlilər üzərində polis və məhkəmə hakimiyyəti hüququ ləğv edildi
E) Müxtəlif kəndli qrupları vahid adla mülkədar tabelisi adlandırıldı

33. Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin.




Xəzər xaqanlığı

a. Vandal krallığının işğal edilməsi
b. İstəmi xanın hücumuna məruz qalması
c. Aşina sülaləsinə mənsub olması
d. Ərəblərə qarşı mübarizə aparılması
e. Hlodviq tərəfindən əsasının qoyulması
A) 1-e; 2-a, b; 3-c; 4-d
B) 1-a; 2-d; 3-b; 4-c
C) 1-b; 2-c; 3-d; 4-a, e
D) 1-e; 2-a; 3-b; 4-d
E) 1-e; 2-a; 3-b, c; 4-d

34. Son Tunc-İlk Dəmir dövründə saxsı qab istehsalının inkişafına təsir göstərmişdir:
A) Əhalinin oturaq həyata keçməsi
B) Sənətkarlığın müstəqil sahəyə çevrilməsi
C) Ayaqla hərəkətə gətirilən dulus çarxından istifadə
D) Boyalı qablar mədəniyyətinin formalaşması
E) Təsərrüftada kişi əməyinin ön plana çıxması

35. 1830-cu ildə çar fərmanı ilə Azərbaycanda ilk rus məskənlərinin yaradıldığı bölgələri müəyyən edin.



A) 1, 2, 3
B) 3, 4, 5
C) 2, 3, 4
D) 2, 4, 5
E) 1, 3, 4

36. E.ə. VI yüzilliyin sonlarında üsyana qalxmış afinalıların məqsədi:
A) "Drakon qanunları"nı ləğv etmək
B) Tiranlığa son qoymaq
C) Xalq tribunlarını seçmək
D) Qladiator döyüşlərini dayandırmaq
E) Əhəmənilərin zülmünə son qoymaq

37. Azərbaycana Səlcuq yürüşlərinin nəticələri ilə bağlı uyğun fikirləri müəyyən edin.

Doğrudur	***Yanlışdır***
1. Azərbaycana türk tayfalarının ikinci böyük axını baş verdi	4. Xəzər dənizində Azərbaycanın ticarət gəmiləri üzməyə başladı

2. Bizansın Cənubi Qafqazda möhkəmlənmək siyasəti puça çıxdı	5. Türk və islam amili Azərbaycanda qəti olaraq möhkəmləndi
3. Məzyədilər sülaləsi asılı hala salındı	6. Azərbaycanda qədim dövlətçilik ənənələri bərpa oldu

A) 1, 6 B) yalnız 2, 5 C) 2, 3, 5
D) 3, 4 E) 2, 4, 6

38. Eneolit dövrü əhalisinin dəfn adətlərinə aiddir:
1. Ölülərin yaşayış məskənində basdırılması
2. Bəzi qəbirlərin üzərində kurqanların qurulması
3. Cəsədin üstünə qırmızı boya səpilməsi
4. Ölüyandırma və kollektiv dəfnetmə adətlərinin yaranması
A) 1, 3 B) 2, 4 D) 3, 4 D) 2, 3 E) 1, 2

39. Səbəb-nəticə əlaqələrinin doğru verildiyi bəndi müəyyən edin.

	Səbəb	Nəticə
1.	Səlcuqların Malazgird döyüşündə qələbə qazanması	Bizansın Kiçik Asiyadakı mülklərini itirməsi
2.	Mərkəzi Asiyada Əbu Müslümün üsyana qalxması	Qaraxanlı dövlətinin iki hissəyə parçalanması
3.	Verden müqaviləsinin imzalanması	Böyük Karlın imperator titulu əldə etməsi
4.	Kiyev knyazı Svyatoslavın qarətçi yürüşü	Xəzər xaqanlığının süquta uğraması
5.	Puatye döyüşündə ərəb qoşunlarının məğlub olması	Ərəblərin Şərqi Avropaya yürüşlərinin qarşısının alınması

A) 3, 5 B) 1, 4 C) 4, 5 D) 1, 2 E) 2, 3

40. XIX yüzilliyin sonunda Təbrizdə və XX yüzilliyin ikinci onilliyində Bakıda qadınların güclü etirazı ilə nəticələndi:
A) Əhalinin üzərinə "Müharibə xərci" adlanan vergi qoyulması
B) Dövlət kəndlilərinin köçmək hüququnun ləğv edilməsi
C) Möhtəkirlərin süni şəkildə ərzaq məhsullarını bahalaşdırmaları
D) Kəndlilərin ağır şərtlərlə torpaqları icarəyə götürmələri
E) Yaralı olmayan torpaqların pay torpaqlarına əlavə edilməsi ilə verginin artırılması


41. E.ə. VIII əsrin birinci yarısında Manna dövlətinin güclənməsinə səbəb oldu:
A) Urartuya qarşı aparılan müharibələr
B) İranzunun mərkəzləşdirmə siyasəti
C) Türk tayfalarının ölkə ərazisində məskunlaşması
D) Mannanın Midiya tərəfindən himayə olunması
E) Uauş döyüşündə Manna qoşunlarının qələbə qazanması

42. Daha sonra baş vermişdir:
A) Əməvilər sülaləsinin hakimiyyətə gəlməsi
B) Verden müqaviləsinin imzalanması
C) Qəznəli dövlətinin əsasının qoyulması
D) İmperator Yustinianın Sasani şahı ilə sülh müqaviləsi imzalaması
E) Kür Şadın başçılığı altında üsyanın baş verməsi

43. E.ə. I əsrin birinci yarısında Roma-Atropatena münasibətləri üçün xarakterikdir:
A) Atropatenanın Romadan asılı hala düşməsi
B) Fraaspa döyüşündə Roma qoşunlarının məğlub edilməsi
C) Romanın köməyi ilə Atropatenada Selevki hökmranlığına son qoyulması
D) Pompey ilə Oroys arasında sülh sazişinin imzalanması
E) Atropatenanın Roma ilə dostluq münasibətləri saxlaması

44. Tarixi proseslərin məntiqi ardıcıllığını tamamlayın.
1. Cavanşirin Ərəb xilafəti ilə diplomatik danışıqlar aparması
2. .....
3. Albaniyanın yenidən Ərəb xilafəti, Xəzər xaqanlığı və Bizans arasında müharibə meydanına çevrilməsi
4. .....
a. Arşakilər sülaləsinin hakimiyyətinin bərpa olunması
b. Ərəblərin Azərbaycana ilk hücumlarının dayandırılması
c. Bizanspərəst qüvvələrin Cavanşirə sui-qəsd təşkil etməsi
d. Albaniyanın Abbasi xilafətinin vassalına çevrilməsi
e. Ərəb xilafətinin qələbə qazanması
A) 2-d; 4-b B) 2 -a; 4-e C) 2-c; 4-e
D) 2-b; 4-c E) 2-e; 4-a

45. Paytaxtları rəqəmlərlə verilmiş feodal dövlətlərin X əsr tarixinə aid ümumi cəhətləri müəyyən edin.



	Feodal dövlətlər	Ümumi cəhətlər
I	2, 4	Səlcuqlar tərəfindən süquta uğradılması
II	4, 5	Muğan hakimliyinin asılı hala salınması
III	3, 4	Ərəb mənşəli sülalənin hökmranlıq etməsi
IV	1, 3	Dərbəndin ələ keçirilməsi

A) I, II B) III, IV C) yalnız II
D) II, III E) I, III

46. Romada e.ə. I yüzillikdə vətəndaş müharibələrinə gətirib çıxaran amillər:
1. Ordunun muzdlulardan təşkil edilməsi
2. Plebeylərin öz hüquqları uğrunda patrisilərlə mübarizə aparması
3. Sərkərdələrin nüfuzunun daha da artması
4. Orduya başçılıq edən strateqlərin özbaşınalıqları
5. Sərkərdələr arasında hakimiyyət uğrunda mübarizə

A) 1, 2 B) 2, 4, 5 C) 3, 4
D) 1, 3, 5 E) 2, 3

47. Qədim və Yeni Daş dövrlərinə aid ümumi cəhətlər:
1. Torpağın toxa ilə şumlanması
2. Süni yolla əldə edilmiş oddan istifadə
3. Qəbilə icmasının mövcud olması
4. Saxsı qabların hazırlanması

A) 1, 2 B) 2, 4 D) 3, 4 D) 2, 3 E) 1, 3

48. Frank dövlətinin sxemdə verilən dövlətlərlə ümumi cəhətlərini müəyyən edin.

1. Birinci Göytürk xaqanlığı	2. Albaniya dövləti	3. Xəzər xaqanlığı
a. Avarlara qarşı mübarizə aparılması	a. Sasanilərlə müttəfiqlik münasibətinin qurulması	a. Peçeneqlərin basqınlarına məruz qalması
b. Saks tayfalarının asılı hala salınması	b. Ərəb xilafəti ilə diplomatik əlaqələr saxlanılması	b. Roma şəhərinin tabe edilməsi
c. Bizans imperiyası ilə diplomatik əlaqələr saxlanılması	c. Əsasının Erkən feodalizm dövründə qoyulması	c. Ərəblərin Avropada irəliləməsinin qarşısının alınması

A) 1-a, c; 2-a, b; 3-c B) 1-a; 2-b; 3-a, b
C) 1-b; 2-b, c; 3-b, c D) 1-a, b; 2-b, c; 3-a
E) 1-a, c; 2-b; 3-c


49. XII əsrin 20-ci illərində Şirvan-Gürcüstan münasibətlərinin yaxınlaşmasına Şirvanşah III Mənuçöhrün həyat yoldaşı Tamar ilə yanaşı, Səlcuq türklərinin zəifləməsi də təsir göstərmişdi. Gürcülərlə həm qohumluq, həm də ittifaqa arxalanan III Mənuçöhr 1066-cı ildən etibarən mövcud olan Səlcuq asılılığına son qoyaraq onlara illik bac ödəməkdən imtina etmişdi.

Mətndə bəhs edilən III Mənuçöhrün xarici siyasətindəki dəyişiklik şərait yaratmışdır:

1. Şirvanda Məzyədilər sülaləsinin nüfuzunun zəifləməsinə
2. Tamarın Şirvanı Gürcüstana birləşdirməsinə nail olmasına
3. İraq Səlcuq sultanı Mahmudun Şirvana yürüş etməsinə
4. Gürcü çarı IV David tərəfindən Azərbaycan torpaqlarının istilasına

A) 1, 3 B) 3, 4 D) 2, 4 D) 1, 2 E) 2, 3

50. Xəritədə işarələnmiş dövlətin XII yüzilliyin ikinci yarısına aid hadisələri müəyyən edin.



1. Qurlu tayfalarına qarşı mübarizə aparılması
2. Dəndənəkan döyüşündə səlcuqlara məğlub olması
3. Paytaxtın Lahora köçürülməsi
4. Xarəzmşahlar tərəfindən süquta uğraması

A) 2, 3 B) 3, 4 C) 1, 2 D) 2, 4 E) 1, 3

51. Aquen məclisinin qərarlarına əsasən Albaniyada:
A) Zərdüştilik dini dövlət dini elan olundu
B) Ay məbədinin kahini padşahdan sonra ən hörmətli şəxs elan edildi
C) Arşaki sülaləsinin hakimiyyəti başa çatdı
D) Xrsitianlığı təbliğ edən məktəblər açıldı
E) Makedoniyalı İsgəndərin pullarına oxşar yerli pullar kəsildi

52. Göstərilənlər nəticəsidir:
– *Fələstin və Suriya işğal olundu*
– *Misirin şimal sərhədləri ilk dəfə Fərat çayına çatdı*
– *Nı biya tabe edildi*
A) Firon II Ramzesin hərbi uğurlarının
B) Misir və Het dövlətləri arasında müharibənin
C) Misirin Makedoniya dövləti ilə müttəfiq olmasının
D) Misirdə vahid dövlətin əsasının qoyulmasının
E) Firon I Tutmosun hərbi yürüşünün

53. Yusif ibn Əbu Sac, Fəzl ibn Məhəmməd və Şəmsəddin Eldənizin fəaliyyətlərinə aid oxşar cəhətlər:
1. Dəbil şəhərinin ələ keçirilməsi
2. Slavyan basqınlarının qarşısının alınması
3. Gürcülərə qarşı uğurlu müharibələrin aparılması
4. Yeni dövlətin əsasının qoyulması

54. Çindəki Tan sülaləsini himayə edən uyğur xaqanları onları qiyamçıların çıxışlarından və qonşuluqdakı tibetlilərin hücumlarından qoruyurdular. Bunun qarşılığında onlar Çin imperatorundan ipəklə xərac alırdılar. Çinin ticarət yolları da uyğurların nəzarəti altına keçmişdi.
Mətnə əsasən, Uyğur xaqanlığının Böyük Hun dövləti ilə ortaq xüsusiyyətlərini müəyyən edin.
1. Tan sülaləsinin imperatorunu hər il xərac ödəməyə məcbur salınması
2. Çinin ticarət yollarının nəzarət altına alınması
3. Tibet tayfalarına qarşı mübarizə aparılması
4. Çin imperatorunu baş vermiş qiyamlardan qoruması

55. Xronoloji ardıcıllığı müəyyən edin.
1. Səlcuqların Azərbaycanın fəthini başa çatdırmaları
2. Qızıl Arslanın özünü sultan elan etməsi
3. Dərbənd əmirliyinin Şirvanşahlar dövlətindən asılı hala düşməsi
4. Tiflis müsəlman əmirliyinin ləğv olması

56. XIX yüzilliyin 60-cı illərində Azərbaycan təhsili üçün xarakterikdir:
1. Bakıda orta təhsil verən rusdilli ilk gimnaziyanın açılması
2. İrəvan Müəllimlər seminariyasının təsis edilməsi
3. Şamaxıda "üsuli-cədid" məktəbinin fəaliyyətə başlaması
4. Avropa tipli dünyəvi məktəbinin əsasının qoyulması

57. Uyğunluğu müəyyən edin.
Romada:
1. Respublika dövrü
2. İmperiya dövrü
a. Qladiator döyüşlərinin keçirilməyə başlanması
b. Qulların öldürülməsinin qadağan olunması
c. Borca görə qula çevrilmiş insanların hilotlar adlanması
d. "Daxmalı qullar"ın meydana gəlməsi
e. Spartakın başçılığı ilə qulların üsyan qaldırması

Sizə təqdim olunmuş mənbəni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları cavab kağızında yerinə yetirin.

Əfzələddin Xaqani xəbər verir ki, Şirvanşahın Şəkidən Abxaza (Gürcüstana) doğru hərəkət etdiyini eşitmişdir. Şirvanşah oraya gürcü hökmdarı III Georginin hakimiyyətindən narazı olan və onu taxtdan salmaq istəyən feodal və əyanları sakitləşdirmək üçün getmişdir. Onun cəsur döyüşçüləri güclü zərbə ilə qiyamçıları məğlubiyyətə uğratmışdı. Şirvanşahın məqsədi Gürcüstanı işğal etmək deyil, bir müttəfiq kimi, qohumu hökmdar III Georgiyə taxt-tacını saxlamaqda kömək göstərmək idi. O, qonşuları ilə münasibətdə çox ağıllı və ehtiyyatlı siyasət yeridirdi.

58. Mənbədə hansı Şirvanşah hökmdarının fəaliyyətindən bəhs olunur?

59. Mənbədə verilmiş hansı xüsusiyyət Şirvanşah hökmdarını Şəmsəddin Eldənizdən fərqləndirir?

60. Bəhs olunan dövrdə Şirvanşah hökmdarının diplomatik fəaliyyəti ilə bağlı mənbədə ***verilməyən*** iki hadisəni yazın.

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

61. "Dərzi şagirdi Əhməd" nağılı ilə bağlı cədvəldəki doğru fikirləri seçin.

Şah Abbas dərviş paltarı geyib vəzirlə şəhərə çıxır.	
Hadisənin səbəbi	Hadisənin nəticəsi
1. Vəzirin təklifi onun ürəyincə olmuşdu. 2. Şəhərdə nələr baş verdiyini öyrənmək istəyirdi. 3. Şöhrəti yayılmış dərzi şagirdini şəxsən görmək istəyirdi.	4. Təsadüfən Əhmədin yuxu gördüyünü öyrənir. 5. Dərzinin qonağı olur. 6. Vəzirlə onun arasında dərin fikir ayrılığı yaranır.

A) 2, 5, 6 B) 1, 4, 6 C) 2, 3, 4
D) 1, 3, 6 E) 2, 4, 5

62. Qazan xan surəti ("Kitabi-Dədə Qorqud" eposu) ilə bağlı fikirlərdən hansılar ***səhvdir?***
1. Övladına diqqətsizlik etdiyinə görə Burla xatun tərəfindən ona irad tutulur.
2. Evini qorumağı kimə tapşırmaq barədə dayısı Aruzla məsləhətləşir.
3. Evinin talan olunması xəbərini eşidib ovdan geri dönür.
4. Təpəgözlə vuruşda uğura nail ola bilmir.
5. Oğlunun düşmənə əsir düşdüyünə döyüş meydanına qayıtdıqdan sonra əmin olur.

A) 2, 4, 5 B) 1, 2, 3 C) 2, 3, 5
D) 1, 3, 4 E) 1, 4, 5

63. Şifahi xalq ədəbiyyatı ilə bağlı uyğunluğu müəyyənləşdirin.
1. Bütün nümunələri nəzmlədir.
2. Bütün nümunələri nəsrlədir.
3. Həm nəzmlə, həm də nəsrlə olan nümunələrinə rast gəlinir.

a. nağıl b. rəvayət c. tapmaca
d. bayatı e. yanıltmac

A) 1-e; 2-a, d; 3-c B) 1-d; 2-a, b; 3-c, e
C) 1-e; 2-b, d; 3-a D) 1-d; 2-b; 3-c, e
E) 1-a, d; 2-c; 3-b, e

64. Əsərdə süjet xəttinin mərhələlərinə rast ***gəlinmir***. Bu əsərin hansı janrda olduğunu düşünmək mümkündür?

A) təmsil B) komediya C) povest
D) novella E) qəsidə

65. Nümunə ilə bağlı fikirlərdən hansılar doğrudur?

Dərdim ayaq üstə kölgədir daha,
Ümidib dirilib, yol gedir daha.
Xəyalım bir uzaq ölkədir daha
Orda axtarıram, düzü, mən səni.
(F.Məmmədli)

1. Son misrada həm bədii təsvir, həm də ifadə vasitəsi işlənmişdir.
2. Həm təşbeh, həm də metafora yer verilmişdir.
3. Birinci və üçüncü misralarda eyni bədii təsvir vasitəsi işlənmişdir.
4. Bütün misralarda inversiyaya rast gəlinir.
5. İlk iki misrada fikirlər qarşı-qarşıya qoyularaq təzad yaradılmışdır.

A) 2, 3, 4 B) 1, 3, 5 C) 2, 4, 5
D) 1, 2, 5 E) 1, 3, 4

66. Verilənlərdən hansı N.Gəncəvinin "Yaralı bir uşağın dastanı" əsərində toxunulan problem hesab oluna bilər?

A) insanların təhlükəsizliyi üçün zəruri işlərin görülməməsi
B) düşmənçilik hissinin insanın vicdanla qərar verməyinə mane olması
C) dostluq münasibətlərinin möhkəm təməllər üzərində qurulmaması
D) uşaqların oynaması üçün xüsusi yerlərin az olması
E) sirr saxlamaq məsələsində hamının eyni diqqəti göstərməməyi

67. "Basatın Təpəgözü öldürdüyü boy"dan ("Kitabi-Dədə Qorqud" eposu) seçilmiş hadisələrin məzmun ardıcıllığını müəyyənləşdirin.

1. Basat Təpəgözün qılıncını götürür.
2. Dədə Qorqud Təpəgözlə görüşməli olur.
3. Basat qardaşının öldürüldüyünü öyrənir.
4. Bunlu qoca və Yapaqlı qoca Salaxanadan xilas olurlar.

A) 2, 3, 4, 1 B) 3, 4, 1, 2 C) 1, 3, 2, 4
D) 2, 3, 1, 4 E) 3, 1, 4, 2

68. Əmək nəğmələri ilə bağlı fikirlərdən hansı doğrudur?

A) Bütün nümunələrinin forma xüsusiyyəti mahnı ilə eynilik təşkil edir.
B) İnsan həyatının müxtəlif fəaliyyətləri ilə bağlı nümunələri var.
C) Bu nümunələrdə kəl, öküz, cüt kimi sözlərə rast gəlmək mümkündür.
D) Mahnılardan sonrakı dövrdə yarandığını düşünmək mümkündür.
E) Eyni səslərin, oxşar səslənən sözlərin işlənməsi yolu ilə yaranır.

69. Məzmun və forma ilə bağlı fikirlərdən hansı doğrudur?

A) Forma dəyişə bilər, məzmun isə dəyişmir.
B) Məzmun və forma süjetin mərhələlərinə daxildir.
C) Forma insan, məzmun əşya surəti ilə bağlıdır.
D) Məzmun formanı müəyyən edir.
E) Məzmun və forma yalnız lirik əsərlərdə olur.

70. Nümunədə ***işlənməmişdir:***

Hara gedir baş alıb bu buludlar?
Göz dikmişəm qarasına, ağına.
Qəlbim kimi boşalıbdı buludlar,
Yer həsrətdir, heç oxşamır yağana.
(R.Yusifoğlu)

A) metafor B) inversiya C) təşbeh
D) bədii sual E) metonimiya

71. Aşıq yaradıcılığı ilə bağlı fikirlərdən hansı ***səhvdir?***

A) Aşıq yaradıcılığını şifahi xalq ədəbiyyatından fərqləndirən cəhətlər mövcuddur.
B) Şifahi xalq ədəbiyyatının aşıq yaradıcılığı ilə bağlı olan janrı var.
C) Aşıq yaradıcılığının nümayəndələri fəaliyyətinə görə iki qrupa bölünürlər.
D) Qoşma, gəraylı, bayatı aşıq yaradıcılığında çox istifadə olunan janrlardır.
E) Aşıq yaradıcılığı şifahi xalq ədəbiyyatından təsirsiz fəaliyyət göstərən sahədir.

72. N.Gəncəvinin yaradıcılığı ilə bağlı fikirlərdən hansılar doğrudur?
1. Dövrümüzə gəlib çatan şeirlərinin çoxu qəsidə janrındadır.
2. "Xəmsə"sinə daxil olan hər bir poeması özünəməxsus xüsusiyyətləri ilə seçilir.
3. Əsərlərini yalnız əruz vəznində, lirik və epik növlərdə yazmışdır.
4. Poemalarından fərqli olaraq, şeirlərində ictimai ədalət, dostluq kimi mövzulara toxunmuşdur.
5. Poemalarında müxtəlif millətləri təmsil edən hökmdar surətlərinə rast gəlinir.

A) 1, 2, 4 B) 1, 3, 5 C) 2, 3, 5
D) 2, 3, 4 E) 1, 4, 5

73. Ə.Xaqaninin "Gənclərə nəsihət" şeiri haqqında fikirlərdən hansılar ***səhvdir?***
1. Vəfasızlığın artdığı, artıq heç kimdə vəfa qalmadığı qeyd olunur.
2. Pis adamların əqrəbtək kor, ilantək lal, kar olduğu deyilir.
3. Boyun yox, hümmət və ürəyin böyük olduğu qeyd olunur.
4. Yalnız nadanların tərifdən qaçdığı vurğulanır.
5. Ağıl ən güclü ustad kimi təqdim olunur.

A) 1, 4 B) 2, 3 C) 1, 5 D) 2, 4 E) 3, 5

74. "Kitabi-Dədə Qorqud" eposu haqqında fikirlərdən hansı ***səhvdir?***
A) Epos şifahi olaraq yaranmış, sonradan yazıya köçürülmüşdür.
B) Epos vahid süjet xəttinə malikdir, boylar bir-birini tamamlayır.
C) Bayandır xan oğuzların başçısıdır, bir çox epizodlarda iştirak etmir.
D) Düşmən surətləri qəhrəmanlıq, döyüşkənlik səviyyəsinə görə oğuz igidlərindən fərqləndirilmişdir.
E) Dastanda bol-bol orijinal bədii təsvir və ifadə vasitələri işlənmişdir.

75. N.Gəncəvinin "İskəndərnamə" əsərinə aid edilmiş cədvəldəki doğru fikirləri seçin.

1	İskəndər səfərə çıxarkən oğlunu da özü ilə aparır.	Yanlışdır
2	İskəndər Dara ilə döyüşdən əvvəl adamlarını başına toplayaraq məsləhətləşir.	Yanlışdır
3	İskəndərin onun sarayına gələcəyini bilən Nüşabə görüşə hazırlaşır.	Doğrudur
4	Gümüşlə dolu ərazidən keçən zaman İskəndər əvvəlcə gümüş götürmək istəməsə də, sonra bir qədər götürür.	Doğrudur
5	İskəndərin anası oğlunun öldüyünü Ərəstunun yazdığı məktubdan öyrənir.	Yanlışdır

A) 2, 3, 4 B) 1, 3, 5 C) 1, 2, 5
D) 1, 4, 5 E) 2, 3, 5

76. Nümunədə işlənmiş bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirin.

Üzü qaranlığa qəribsəyərsən,
Adamı çoxalıb, sıxılır şəhər.
Bu qatar haracan gedir görəsən,
Yolu tanıyırmı içindəkilər?!
(R.Nəsiboğlu)

1. metafor 2. metonimiya 3. bədii təzad
4. inversiya 5. bədii sual 6. təşbeh

A) 1, 2, 3 B) 3, 4, 5 C) 1, 2, 5
D) 2, 4, 5 E) 1, 3, 4

77. ***Səhv*** fikri müəyyənləşdirin.
A) rədif – Nəzmin əsas əlamətlərindən biridir.
B) kulminasiya – Hadisələrin ən yüksək inkişaf mərhələsidir.
C) yumor – Bədii gülüşün öldürücü mahiyyət daşıyan növüdür.
D) simvol – Bədii təsvir vasitələrinin bir növüdür.
E) təhkiyə – Epik növdə əsərlərdə istifadə olunan əksetdirmə üsuludur.


78. N.Gəncəvinin "İskəndərnamə" əsərindən seçilmiş hissə ilə bağlı fikirlərdən hansılar doğrudur?

Bütün tacirlərdən o, bac almadı,
Ölkədə kimsədən xərac almadı.
Dehqan vergisinə çəkərək qələm,
Sərmayəsizlərdən almadı dirhəm.

1. İskəndərin taxta çıxdıqdan sonra gördüyü işlərdən bəhs edən hissədəndir.
2. İskəndərin ədalətli davrandığından bəhs olunur.
3. Tacirlərin həyatının çətinləşməsindən bəhs olunur.
4. Vergilərin artırılmasından bəhs olunur.
5. Səfərlərə çıxan İskəndərin ölkəsi ilə maraqlanmadığı vurğulanır.

A) 3, 5 B) 2, 4 C) 1, 2 D) 1, 3 E) 4, 5

79. Hansı fikir "Ağıllı uşaq" nağılında xan surətinə aid cədvəlin heç bir xanasına yazıla ***bilməz?***



A) Sevimli heyvanının hansı olduğunun tapılması üçün şərait yaradır.
B) Kənddəki dünyagörmüş qocaları zindana saldırır.

C) Axı sən dəvədən düşsən, mənim dizimdən də aşağıda dayanarsan.
D) Tamahkardır.
E) Sən ki belə tərslik eləyirsən, almaların sirrini düz deyə bilməsən, boynunu vurduracağam.

80. "Salur Qazanın evinin yağmalandığı boy"la bağlı cədvəlin doğru olması üçün hansı fikirlərin yeri dəyişilməlidir?

Doğrudur	Yanlışdır
1. Qaragünənin yuxu haqqında dedikləri hadisələrin gedişində əksini tapmır. 2. Uruz düşmənin planlaşdırdığı alçaq niyyəti Burla xatundan öyrənir və anasına məsləhət verir. 3. Qaraca Çobandan fərqli olaraq, Qazan xan düşmənlə bir məkanda döyüşür.	4. Sarı Qalmaş hadisələrdə sona kimi iştirak edir. 5. Hücum edən Şöklü Məliyin əsas məqsədi Qazan xanın yurdunu talamaq və Dərbənddəki qoyunları aparmaq idi. 6. Qazan xanın soraqlaşdığı obyektlərin ardıcıllığı belədir: yurd, su, qurd, köpək

A) 2 – 3 B) 1 – 6 C) 2 – 4
D) 3 – 5 E) 2 – 6

81. Hansı nümunədə metonimiya işlənmişdir?
A) Nə genişdir üfüqləri
dağüstü Bakının! (R.Rza)
B) Kaş Bakı bir süfrə ola,
Kənarı ipək saçaqlı. (X.Aydın)
C) Gedirəm Gəncədən dağlara sarı,
Laləli düzlərə, bağlara sarı. (Ş.Şeyda)
D) Şairə bir ovuc torpaq çatdı,
Bir dünya bildiyi ölkədən. (M.Araz)
E) Şəhər yuxu görər sökülüncə dan,
Qıvrıla-qıvrıla yatar küçələr. (R.Yusifoğlu)

82. "Yaradılış" dastanı haqqında fikirlərdən hansılar doğrudur?
1. Qədim türklərin ortaq ədəbiyyatının məhsulu olan əsərlərdəndir.
2. Əsərdə hadisələrin mərkəzində duran surət yoxdur.
3. Bədxahlığın artması, mənfilərin qalib gəlməsi təəssüf hissi ilə vurğulanmışdır.
4. Dünyanın göyün yeddinci qatından idarə olunması motivi var.
A) 1, 4 B) 2, 3 C) 1, 3 D) 3, 4 E) 2, 4

83. Hansı fikirləri seçməklə cümləni doğru tamamlamaq mümkündür?
Romandan fərqli olaraq, poema...
1. lirik növün janrıdır.
2. əsas surətin həyatı haqqında geniş məlumat verə bilir.
3. həm nəzm, həm nəsrlə yazıla bilməz.
4. vahid süjet xəttinə malik olmaya da bilər.
5. müsbət sonluqla tamamlana bilər.

84. N.Gəncəvinin "İskəndərnamə" əsərinə əsasən cədvəldəki doğru fikirləri müəyyənləşdirin.

Hadisə	Onun nəticəsi
Peyğəmbərlik verildikdən sonra İskəndər səfərə çıxır	1. Bəzən ədaləti bərpa etmək üçün qan tökür.
	2. Səhralardan keçir, yeni yerlər görür.
	3. Dara kimi rəqiblə qarşılaşmalı olur.
	4. Nüşabə onunla qarşılaşır, müqavilə bağlayaraq ölkəsini qoruya bilir.
	5. Yəcuclardan qorunmaq üçün çarə axtaran insanlarla qarşılaşır.

85. Nümunədə işlənmiş bədii ifadə vasitələrini müəyyənləşdirin.
Mən hardan biləydim, payız əllərim
Yayda qara dönüb üşüyə bilər.
Mən hardan biləydim, Kürü, Xəzəri
Sərçə dimdiyində apara bilər.
(A.Aslanova)
1. təkrir 2. mübaliğə 3. kinayə
4. bədii təzad 5. litota

86. Hansılar "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy"dakı hadisələrin ardıcıllığına aid cədvəldəki boşluqların heç birinə artırıla ***bilməz?***

Uruzun *"Hünəri oğul atadanmı görər, öyrənər, Yoxsa atalar oğuldanmı öyrənir?"* fikri Qazan xanın xoşuna gəlir.
.....
Uruz dağ başına çıxıb döyüşü seyr edir.
.....
Qazan xan Dərbənddə Uruzla danışır.

1. Burla xatun hazırlıq görür, oğuz bəylərini qonaq etməyi düşünür.
2. Qazan xanın yanındakılar düşünürlər ki, Uruz döyüş meydanından qaçmışdır.
3. Qazan xan gözünə qan dolduğu üçün Burla xatunu tanımır.

4. Uruz atasından niyə sağa, sola baxıb güldüyünü, ona baxıb ağladığını soruşur.
5. Casus Qazan xanın ova çıxdığını təkura xəbər verir.

87. İntibah dövrü sənətkarları ilə bağlı uyğunluğu müəyyənləşdirin.
1. M.Gəncəvi
2. Ə.Xaqani
3. Q.Təbrizi
a. Bədii yaradıcılıqla yanaşı, lüğət də hazırlamışdır.
b. Poema müəllifi olmuşdur.
c. Daha çox rübailəri ilə tanınmışdır.
d. Zəlzələ haqqında iki mənzumə yazmışdır.
e. Əsərlərinin bir hissəsini ana dilində yazmışdır.

88-90-cı sualları mətnə əsasən cavablandırın.

Qaraca Çoban

Qaraca Çoban qayanın üstündə oturmuşdu. O, qəflətən uzaqlarda qalxan tozu gördü. Toz artdı, dünyanı tutdu, yaxınlaşdıqca yaxınlaşdı. Qaraca Çoban atası Bəkilin yanına gəldi.

Qaraca Çoban:

– Ata, – dedi, – ora bax, o dəniz kimi qaralıb gələn nədir? Od kimi işıldayıb, ulduz kimi parlayan nədir?

Bəkil yatağında dirsəklənib uzaqlara baxdı, bildi ki, gələn yağıdır.

– Bəri gəl, aslanım oğul! – dedi, – dəniz kimi yayxanıb gələn yağıdır, oğul!

– Yağı nəyə deyirlər, ata?

– Oğul, oğul, ay oğul. Yağı Qıpçaq Məlikdir. Onun oxçusu var, üç ox atar, biri yayınmaz. Onun hay demədən başlar kəsən cəlladı var. Adam ətindən qovurma bişirən aşpazı var. Yağı bizi yaman yerdə haqladı. Oğul, dur dağımızın başında iki tonqal qala, oğuz igidləri bilib agah olsun. Özün də tez Qazan xanın yanına get, əlini öp, de ki, atam haldan düşüb. De ki, Qazan xan igidləri başına yığsın, mənə yetişsin. Gəlməz olsa, yağı yurdumuzu çapıb-talayacaq. Məmləkətimiz pozulub xarab olacaq.

Qaraca Çoban dedi:

– Ata, nə söylərsən, nə deyərsən? Tonqal qalayıb imdad dilədiyim yox. Qazan kimdir? Onun əlini öpməyim yox. Özümə nə gəlib ki... Gücümü, qüvvəmi saxlamışdım bu gün üçün, günü gəldi. Qolumu, biləyimi saxlamışdım bu gün üçün, günü gəldi.

Qaraca Çoban qoyunların yerləşdiyi ağılların qapısını bərkitdi, üç yerdə təpə kimi daş yığdı, ala qollu sapandını əlinə aldı...

(Anarın "Dədə Qorqud" ssenarisindən götürülmüş bir hissə əsasında hazırlanmışdır)

88. Mətnin və "Kitabi-Dədə Qorqud" eposunun boylarının məzmununu nəzərə alaraq cədvəli doldurun.

Eposda da Qaraca Çobana aiddir	Eposda Qaraca Çobana aid olmasa da, mətndə ona aid edilmişdir

89. "Qaraca Çoban" mətninin və "Sultan Səncər və qarı" əsərinin janr, forma və ədəbi növ baxımından müqayisəsi əsasında hazırlanmış cədvəli doldurun.

"Qaraca Çoban" mətninə aiddir	"Sultan Səncər və qarı" əsərinə aiddir
Hər ikisinə aiddir	

90. Verilmiş bədii təsvir və ifadə vasitələrindən yalnız ikisi mətndə işlənmişdir. Onları seçin və mətndəki nümunəsini qarşısına yazın.

Bədii təsvir və ifadə vasitəsi	+ / -	Mətndə işləndiyi cümlə
təşbeh		
metonimiya		
mübaliğə		

SINAQ 5

AZƏRBAYCAN DİLİ

Mövzular üçün 

Video həllər üçün 

Cavablar üçün 

1. Cədvəlin hansı bəndində altından xətt çəkilmiş sözü cədvəlin digər sütununda verilmiş sözlə əvəz etmək mümkündür?

A)	Saflıq edib kəbin pulunu beş min yazdırmışam.	nigah
B)	Onlara əl tutmaq üçün gəmiçilik şirkətinin əsasını qoydu.	kampaniya
C)	Özü də "Molla Nəsrəddin" jurnalında mühərrir kimi fəaliyyət göstərir.	redaktor
D)	Nəfis naxışları olan süfrə otağı bəzəyirdi.	zəif
E)	Mühasib əlindəki haqq-hesabı başa çatdırmağa çalışırdı.	həmsöhbət

2. Nümunələrlə bağlı uyğun fikirləri müəyyən edin.
   1. "Sən də mi bu işin içindəsən, Arif?" cümləsində iki müxtəlif köməkçi nitq hissəsi işlənmişdir – doğru
   2. "Sözlər aydın, fikir dərin,
      Məna böyük, məktub qısa" (R.Rza) nümunəsində işlənmiş sifətlərin hamısı əlamət bildirir – doğru
   3. "Sən heç kəsə qulaq asma, get, oxu, böyük adam ol" (S.S.Axundov) cümləsində həm əmr ədatı, həm də feilin əmr şəklində olan sözlər işlənmişdir – doğru
   4. "Baxdı ki, burada o qədər qızıl, gümüş var, elə bil yeddi padşahın xəzinəsi burdadır" cümləsində müəyyən və qeyri-müəyyən miqdar sayı işlənməmişdir – doğru
   5. "Niyə mən istəyən olmasın? Niyə?
      Mənim beşilliyim dolmasın, niyə?" (M.Müşfiq) nümunəsində ismin xüsusiyyətini qəbul etmiş həm sifət, həm də feili sifət işlənmişdir – doğru

A) yalnız 1, 5 B) 1, 3, 5 C) 2, 3, 4
D) yalnız 2, 4 E) 1, 4, 5

3. Nümunələrdə işlənmiş "*ancaq*" sözü morfoloji baxımdan nədir? (tam cavabı müəyyən edin).
   1. Uşaq dartınıb düşmək istəyir, ancaq anası buraxmırdı.
   2. Ancaq bu iş baş tutmadı.
   3. Ancaq sən yox idin, əzizim!

A) Birinci cümlədə bağlayıcı, ikinci cümlədə ədat, üçüncü cümlədə isə bağlayıcıdır.
B) Birinci və ikinci cümlələrdə bağlayıcı, üçüncü cümlədə isə ədatdır.
C) Birinci və üçüncü cümlələrdə ədat, ikinci cümlədə isə bağlayıcıdır.
D) Birinci cümlədə bağlayıcı, ikinci cümlədə ədat, üçüncü cümlədə isə həm ədat, həm də bağlayıcı kimi düşünülməsi mümkündür.
E) Birinci cümlədə bağlayıcı, ikinci və üçüncü cümlələrdə isə həm bağlayıcı, həm də ədat kimi düşünülməsi mümkündür.

4. Hansı bənddə verilən sözlərdən biri bütün tələbləri ödəsə də, digəri heç bir tələbi ***ödəmir***?
   1. Kökü həm omonim, həm də çoxmənalı sözdür.
   2. Həm məchul, həm də qayıdış növdə düşünülə bilər.
   3. Kökü feil olan düzəltmə sözlə eyniköklü ola bilər.
   4. Başlanğıc formada deyil.

A) tutulmuşdu, kitabdakı
B) çəkildi, ayaqlaşdı
C) düzüldü, yollansa
D) alınmış, boyaqçılığın
E) sayılmalıdır, məktəbli

5. Uyğunluğu müəyyən edin. (tam cavabı müəyyən edin)
   1. Bir nitq hissəsi kimi düşünülə bilər.
   2. Ən azı iki müxtəlif nitq hissəsi kimi düşünülə bilər.

a. [yazdıx] b. [gələndə]
c. [boyadı] d. [uçurdu]

A) 1-a,b; 2-c,d B) 1-b,d; 2-a,c C) 1-b,d; 2-a
D) 1-d; 2-a,c E) 1-a,c; 2-b,d

6. Eyniköklü sözlərdən ibarət cərgəni müəyyən edin.
A) dağlıq, dağdakı, dağıntı, dağılmaq
B) yağlı, yağış, yağıntı, yağmur
C) yarılmaq, yarğan, yaramaq, yaralı
D) sıxıntı, sıxılmaq, sıxdırdı, sıxışmaq
E) bağban, bağlamaq, bağsız, bağça

7. Müqayisə cədvəlinə əsasən hansı rəqəmlərin yeri dəyişilsə, uyğunluq bərpa olunar?

Elmi üslub	Bədii üslub
1. Ədəbi dilin normalarına riayət olunması tələb olunur. 2. Sözlərin həqiqi mənada işlənməsi vacib şərtlərdən biridir.	3. Obrazlı nitq forması olub nəsr və nəzm şəklində təzahür edir. 4. Funksional üslublar sisteminə daxildir.
5. Şərh etmək, izah etmək, nəticə çıxarmaq bu üslubun əsas xüsusiyyətləridir. 6. Ədəbi dil tarixində həmişə aparıcı üslub olmuşdur.	

A) 2-5; 4-6 B) 1-3; 2-5 C) 1-5; 4-6
D) 2-4; 1-5 E) 1-5; 2-3

8. *"Qonaqsevərlik"* sözünün fonetik xüsusiyyətləri ilə bağlı ***yanlış*** fikirləri müəyyən edin.
1. Yazılışı ilə deyilişi arasında üç fərqli məqam var.
2. Samitlərdən ikisi kardır.
3. Ahəng qanununa tabe deyil.
4. Qarşılığı olmayan samitlərin sayı incə saitlərin sayından çoxdur.
5. Cingiltili *[y]* samitinin kar qarşılığı işlənmişdir.

A) yalnız 2, 4 B) 2, 4, 5 C) 1, 3, 5
D) yalnız 1, 5 E) 2, 3, 4

9. *Hamıdan doğru danışmaq tələb olunur* cümləsindəki sözlərlə bağlı ***yanlış*** fikri müəyyən edin.
A) Əvəzlik çıxışlıq haldadır.
B) Həm feilin, həm də ismin xüsusiyyətini daşıyan söz işlənmişdir.
C) Yalnız qrammatik mənaya malik olan söz işlənməmişdir.
D) Şəxssiz növdə olan feil işlənmişdir.
E) Quruluşca düzəltmə olan söz işlənməmişdir.

10. Biri verilmiş nümunədəki yazılışı ilə deyilişi ***fərqlənməyən*** isimlərin hamısı üçün ortaq xüsusiyyətdir:
Cəhalət ilə mübarizə ziyalılardan böyük iradə, cəsarət və mətanət tələb edirdi. (A.Şaiq)
A) quruluşca düzəltmə olması
B) tərkibində uzun tələffüz olunan saitin işlənməsi
C) vurğunun ikinci hecada olması
D) tərkibində qarşılığı olmayan kar samitin işlənməsi
E) konkret isim olması

11. Hansı nümunə(lər)də altından xətt çəkilmiş söz həm leksik, həm də qrammatik mənaya malikdir? (vergül işarələri buraxılmışdır)
1. Doğrusu budur ki bizlər qədimdən
Bu dağı bu çölü etmişik məskən. (N.Gəncəvi)
2. Şairdir görünür düz ilqarı var
Nə gözəl nə şirin kəlamları var. (S.Vurğun)
3. Doğrusu yorulub bezikmədin sən
Elə durub-durub ellər deməkdən. (S.Vurğun)
4. Bəlkə bu yerlərə bir də gəlmədim
Duman salamat qal dağ salamat qal. (M.Araz)
5. Deyəsən şöhrəti çox sevir qadın
Ah mənsəb!.. Ah şöhrət!.. Yaranmasaydın! (S.Vurğun)

A) yalnız 1 B) yalnız 5 C) 1, 5
D) 2, 3, 4 E) 3, 4, 5

12. Uyğunluğu müəyyən edin.
1. Sözdəki cingiltili samitlərin sayı kar samitlərin sayına bərabərdir.
2. Sözdəki cingiltili samitlərin sayı kar samitlərin sayından çoxdur.
3. Sözdəki kar samitlərin sayı cingiltili samitlərin sayından çoxdur.

a. riqqətlə b. hüquqsuzluq c. potensial
d. asfaltlamaq e. balıqçılıq

A) 1-a,b; 2-c,d; 3-e B) 1-c,e; 2-a,d; 3-b
C) 1-c,d; 2-a,b; 3-e D) 1-a,c; 2-b,d; 3-e
E) 1-d,e; 2-a,c; 3-b

13. *"Düz"* sözü işlənə ***bilmir***:
A) ədat kimi B) zərf kimi C) isim kimi
D) feil kimi E) modal söz kimi

14. *"Qılınc yarası sağalar, dil yarası sağalmaz"* cümləsindəki *yara* sözünün omonim olduğunu hansı bənddəki *yara* sözü ilə əsaslandırmaq mümkündür?
A) Ona əl vurma, saqın!
Daha xoşdur yara bağlarsa qadın. (H.Cavid)
B) Yazıçı öz əsərində köhnə cəmiyyətin yaralarını açıb göstərmişdir.
C) Qardaşım, sözümü yara çatdır.
D) Çox da ki varın yoxdur, meylimə yaramısan. (B.Vahabzadə)
E) Qoca bu cavabdan çobanın yarasına toxunmuş olduğunu bildi. (M.Rzaquluzadə)

15. Biri nöqtələrin yerinə yazıla ***bilməz***:
Hər hansı bir sözdə qrammatik şəkilçinin başlanğıc formaya daxil olmasından söhbət gedirsə, o sözdə leksik şəkilçidən əvvəl ..... şəkilçisinin işləndiyini düşünmək mümkündür.
A) -ınız B) -imiz C) -m D) -lar E) -ası

16. *"Ürək yanğısı"* birləşməsindəki birinci sözün son səsi hansı cərgədə verilmiş sözlərdə işlənmişdir?
A) kombayn, təqsir B) döşəküzü, kəklikotu
C) çiçəklər, ərik D) türk, bərk
E) şərikli, çirkli

17. *"Nəciblər idarə, acizlər şikayət, bəsitlər isə iftira edərlər"* (Ş.Təbrizi) cümləsində hansı köməkçi nitq hissəsi işlənmişdir?
A) qoşma B) bağlayıcı C) ədat
D) modal söz E) nida

18. Zərfin məna və quruluşca növünü nəzərə alaraq cədvəli şaquli istiqamətdə (ardıcıllıqla) tamamlayın.

1. asta	1. inişil	1.
2.	2. gündə	2. dəfələrlə
3. addımbaşı	3.	3. birə-beş

A) yenidən, hərdənbir, xeyli
B) sərrast, yenə, çox
C) çəpəki, tamam, ara-sıra
D) az, daxilən, əvvəl-axır
E) irəli, yayda, sağa-sola

19. *"Çoxaldıram"* sözünün tərkibinə görə təhlilini müəyyən edin.
A) ⌐∧∧∧⌐ B) ⌐∧∧⌐
C) ⌐∧∧∧⌐ D) ⌐∧∧⌐
E) ⌐∧∧∧⌐

20. Cümlələrdən birində *-la²* leksik şəkilçisi ***işlənməmişdir***:
A) Abdullahın fərəhi artır, gözləri sevinclə parlayırdı.
B) Dostumla Ağabəy əllərini heyrətlə bir-birinə çırpdılar.
C) Asəf olanları təəssüflə xatırlayırdı.
D) Jurnalistlik Azərbaycanda, demək olar ki, "Əkinçi"nin redaktoru Həsən bəy Zərdabi ilə başlamışdır.
E) Özgə kisəsindən (cibindən) pul bağışlamazlar.

21. Tərkibinə görə təhlili ⌐∧∧⌐ sxeminə uyğun ***gəlməyən*** feil(lər)i müəyyən edin.
1. qabaqlaşmaq 2. qarşılaşmaq
3. salamlaşmaq 4. kitabçalarımız
5. qaraltıdan 6. ayaqlaşmaq
A) 1, 4, 5 B) yalnız 1, 6 C) 1, 4, 6
D) 2, 3, 5 E) yalnız 6

22. *-laş²* şəkilçisi hansı sözə artırıla ***bilməz***?
A) *sıx* sifətinə B) *yaxşı* sifətinə
C) *ayaq* isminə D) *sıx* feilinə
E) *vida* isminə

23. Verilmiş cümlə ilə bağlı cədvəldəki ***uyğunsuzluğu*** müəyyən edin.
O belə kəmər bağladı.

1.	Köməkçi nitq hissəsinin işlənmədiyini əminliklə demək mümkündür.	doğru
2.	Omonim söz işlənmişdir.	doğru
3.	Kökü və başlanğıc forması fərqli olan söz işlənmişdir.	yanlış
4.	Əvəzliyin müxtəlif məna növlərinə aid sözlərin işləndiyini düşünmək mümkündür.	doğru
5.	Adlıq halda olan isim işlənmişdir.	yanlış

24. Nümunədəki ***təsriflənməyən*** feillərlə bağlı ***yanlış*** fikirləri müəyyən edin.
Mən əzilən bir sinfin hayqıran,
Haqq bağıran səsasından yarandım.
(M.Müşfiq)
1. Üç təsriflənməyən feil işlənmişdir.
2. Təsriflənməyən feillərdən biri omonimdir.
3. Hamısı quruluşca sadədir.
4. Hamısı feilin eyni qrammatik məna növündədir.
5. Hər biri feillə yanaşı, ikinci bir nitq hissəsinin – ismin xüsusiyyətini də daşıyır.

25. Nümunəyə və cədvələ əsasən müəyyən edin.
Sevgi gərək ola sevgisilə düz,
Otura bir yerdə gecə və gündüz... (Q.Zakir)

Doğrudur	Yanlışdır
1. Bir-biri ilə münasibətdə antonim olan sözlər zaman zərfləridir. 2. Həm mürəkkəb, həm də düzəltmə zərflər işlənmişdir. 3. Qoşma adlıq halda olan ismə qoşulmuşdur.	4. Təsriflənən feillərin hər ikisi arzu şəklindədir. 5. Tərzi-hərəkət zərfi işlənmişdir. 6. Yalnız qrammatik mənaya malik olan sözlər də işlənmişdir.

26. Verilmiş cümlədə işlənmiş köməkçi nitq hissələrinin işlənmə ardıcıllığını müəyyən edin. (vergül işarələri buraxılmışdır).

Zənnimcə bu uşaq pis adamın əlinə düşərsə mütləq həyatını böyük bir faciə ilə qurtaracaq odur ki ehtiyatlı olmalıyıq.

1. bağlayıcı 2. modal söz 3. ədat 4. qoşma

27. Uyğunluğu müəyyən edin.

1. Adlıq halda işlənmiş isim olduğunu əminliklə demək mümkündür.
2. Yiyəlik halda işlənmiş isim olduğunu əminliklə demək mümkündür.
3. Həm adlıq, həm də yiyəlik halda olan isim kimi düşünülməsi mümkündür.

a. qocalar b. kitabın c. sənin
d. oğulun e. məktəblər

Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları Cavab vərəqində yerinə yetirin.

Nərgizgülünü sulamaq olmaz.

70 yaşlı iki qoca boşanmaq üçün məhkəməyə müraciət etmişdi. Qadın əllərinin titrəməsini nəzarət altında saxlamağa çalışır, digər tərəfdən də ərinə hirslə baxırdı.

Hakim yetmişlərinə nərdivan söykədikləri halda, boşanmaq üçün müraciət etmiş cütlükdən soruşdu:

– Bu qədər ildən sonra nə üçün ayrılmaq istəyirsiniz?

Yaşlı qadın söz alıb dedi:

– Hakim bəy, bir ay əvvələ qədər belə fikrim yox idi. Çiçəkləri çox sevdiyim üçün yoldaşım mənə nərgizgülü almışdı, çiçəkləri hər gün sulamaq lazım idi ki, qurumasın. Hər gecə durub çiçəyi sulayırdım. Məndə sümük xəstəliyi var, gecələr ağrım çox olduğu üçün bir dəfə dura bilmədim, nəticədə ***çiçək*** qurudu. Yoldaşım isə mənim ağrılarıma baxmayaraq, bir dəfə də olsun çiçəyə su tökmədi. İndi deyin, mən bu düşüncəsiz insanla ömrümün yerdə qalan illərini necə başa vurum?

Hakimdən söz istəyən ər dedi:

– Bəli, dedikləri doğrudur, lakin bir məsələ var. Yoldaşımın sümük xəstəliyi var və yaxşılaşması üçün o, nizamlı gəzməli idi, ancaq yoldaşım bunu etmədiyi üçün mən də bu yalanı uydurdum, əslində, nərgizgülü çox sulandıqda ölür. Yoldaşım çiçəyi suladıqdan sonra mən qalxıb çiçəyin suyunu boşaldır, torpağı salfetlə qurudurdum. Bir gecə yatıb qaldım nəticədə nərgizgülü qurudu.

Hakim də daxil olmaqla hamı göz yaşlarına boğulmuş-du. Göz yaşlarına boğulan qadın isə ərinin əlindən tutaraq ona məhəbbətlə baxırdı.

28. Mətnə əsasən cədvəli tamamlayın.

Hakimin cütlüklə bağlı verəcəyi hökmün üslubunun adı	Həmin üsluba aid iki xarakterik xüsusiyyət
	1.
	2.

29. Mətnə əsasən doğru fikri ✓ müəyyən edin və fikrinizi əsaslandırın.

Azacıq doğruya bənzəyən yalan
Yaxşıdır yalana bənzər doğrudan.
(N.Gəncəvi)

Beytində ifadə olunan fikir

1. mətndə təsdiq edilir. ☐
2. mətndə təkzib edilir. ☐

Əsaslandırma: .....
.....

30. Tünd hərflərlə verilmiş sözə əsasən cədvəli tamamlayın.


Mətndə işləndiyi funksiya (poetik, informativ və ya terminoloji)	Digər funksiyası (poetik, informativ və ya terminoloji)	Həmin funksiyada cümlədə işlədilməsi

TARİX

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

31. Nabur sazişinin imzalanmasında məqsəd:
A) Rus qoşunlarını Xəzərsahili vilayətlərdən tamamilə çıxarmaq
B) Şirvanı osmanlıların himayəsi altında yarımmüstəqil xanlığa çevirmək
C) Azərbaycanda Rusiya və Osmanlı dövlətləri arasında sərhədi müəyyən etmək
D) Osmanlıların son on ildə işğal etdiyi əraziləri Səfəvilər dövlətinə geri qaytarmaq
E) Rusiyanın Şimali Qafqazda möhkəmlənmək cəhdlərinin qarşısını almaq

32. 1920-ci ilin avqustunda Sovet Rusiyası və erməni daşnak hökumətinin elan etdiyi mübahisəli əraziləri müəyyən edin.



A) 1, 3, 5 B) 2, 3, 4 C) 2, 3, 5
D) 3, 4, 5 E) 1, 2, 4

33. Spartak üsyanı yatırıldıqdan sonra Romada daxili vəziyyət:
A) Plebeylər Romanın tamhüquqlu vətəndaşlarına çevrildilər
B) Qrakx qardaşları kəndlilərə torpaq paylanması uğrunda mübarizəyə qalxdı
C) İlk dəfə qladiator döyüşləri keçirilməyə başlandı
D) Senat ilə Sezar arasında hakimiyyət uğrunda mübarizə baş verdi
E) Vəzifələrə yalnız patrisilər seçilə bilərdilər

34. Uyğunluğu müəyyən edin.
1. Sərab (II İstanbul) sülhü
2. Qəsri-Şirin sülhü
3. Gəncə müqaviləsi
a. Səfəvilər Van, Qars və Axalsıx qalalarına hücum etməyəcəklərinə dair təminat verdilər
b. Rus qoşunları Xəzərsahili vilayətləri tamamilə tərk etdi
c. Ruslara məxsus Terek qalasının dağıdılması nəzərdə tutulmuşdu
A) 1-c; 2-a; 3-b B) 1-b; 2-a; 3-c
C) 1-c; 2-b; 3-a D) 1-a; 2-b; 3-c
E) 1-b; 2-c; 3-a

35. 1870-ci il sahibkar və 1900-cü il dövlət kəndliləri üçün keçirilmiş islahatların ümumi cəhəti:
A) Kəndlilər hərbi vergi adlanan əlavə mükəlləfiyyət yerinə yetirirdilər
B) Torpaqlar kəndlilərin mülkiyyətinə birbaşa keçmirdi
C) Neft quyularına təhkim edilmiş kəndlilərin məcburi əməyindən istifadə olunurdu
D) Kəndli ailələri bir nəfəri bəy təsərrüfatında biyara göndərmək məcburiyyətində idi
E) Kəndlilər pay torpaqlarını məcburi satın alırdılar

36. XVI əsrdə İngiltərədə Reformasiyanın nəticələri:
1. Parlamentin köməyi ilə kral kilsənin başçısı elan edildi
2. Reformasiya İngiltərənin Otuzillik müharibəyə qoşulmasına təsir göstərdi
3. Katoliklik və protestantlığın birləşməsi nəticəsində Anqlikan kilsəsi yarandı
4. Ölkədə kral hakimiyyətinin nüfuzu daha da zəiflədi
A) 1, 2 B) 2, 3 C) 3, 4 D) 2, 4 E) 1, 3

37. Səbəb-nəticə əlaqələrinin doğru verildiyi bəndləri müəyyən edin.

	Səbəb	Nəticə
1.	Monqolların Azərbaycana birinci yürüşü	Eldənizlər dövlətinin süquta uğraması
2.	Herat müqaviləsinin imzalanması	Əmir Teymurun I İbrahimi Şirvanın hakimi kimi tanıması
3.	Qazan xanın kəndliləri torpağa təhkim etməsi	Bəndərin başçılığı ilə əhalinin üsyana qalxması

4.	Toxtamışın Buxara və Səmərqəndə hücumu	Əmir Teymurun Azərbaycanı tərk etməyə məcbur qalması
5.	Didqori döyüşündə Səlcuq türklərinin məğlub olması	Tiflis müsəlman əmirliyinin ləğv edilməsi

A) 1, 3 B) 2, 3 C) 4, 5 D) 1, 2 E) 3, 5

38. XX əsrin 20-ci illəri Azərbaycan SSR-in mədəniyyət sahəsinə aid ***deyil:***
A) Savadsızlıqla Mübarizə Komitəsinin yaradılması
B) Ərəb əlifbasının latın əlifbası ilə əvəz olunması
C) Birinci Ümumittifaq Türkoloji Qurultayının keçirilməsi
D) "Koroğlu" operasının tamaşaya qoyulması
E) Azərbaycanı Öyrənən Cəmiyyətinin təşkil edilməsi

39. Xəritədə işarələnmiş dövlətin XVII əsrin ikinci yarısına aid hadisələri müəyyən edin.



1. "Uzunmüddətli parlament"in ləğv edilməsi
2. Yeddiillik müharibədə qələbə qazanılması
3. Parlamentli monarxiya idarəetmə formasının bərqərar olması
4. I Ceymsin "nikah diplomatiyası" ilə İspaniyaya yaxınlaşması
5. "Şanlı inqilab"ın baş verməsi

A) 2, 3, 4 B) 1, 3, 5 C) 2, 5
D) 3, 4, 5 E) 3, 4


40. XIV əsrin 90-cı illərində Əmir Teymurun Azərbaycana yürüşü nəticəsində:
A) Şimal sərhədlərinin mühafizəsi Şirvan hökmdarına tapşırıldı
B) Şirvanşahlar dövlətində Kəsranilər sülaləsinin hökmranlığına son qoyuldu
C) Miranşah zəbt olunmuş ərazilərin hakimi təyin edildi
D) Hakimiyyət uğrunda mübarizə aparan feodallar öz vilayətlərinə çəkildilər
E) Qaraqoyunlu dövləti Teymurilərin asılılığına düşdü

41. AXC-nin Sovet Rusiyasının işğalına məruz qaldığı ərəfədə Türkiyədən yardım ala ***bilməməsinin*** səbəbi:
A) Ə. Topçubaşovun Mudros barışığının AXC ilə bağlı maddəsinə görə Osmanlı dövlətinə etiraz
B) Borçalıda Osmanlı ordusunun alman-gürcü qoşunlarına məğlub olması
C) Antanta qüvvələrinə qarşı mübarizədə Mustafa Kamal paşanın Sovet Rusiyası ilə yaxınlaşması
D) Osmanlıların Qars, Batum və Ərdəhana iddia etməsi
E) Gəncədə Nuru paşanın başçılıq etdiyi qüvvələrin AXC hökumətinə qarşı çıxması

42. Daha əvvəl baş vermişdir:
A) İngiltərədə Kromvelin başçılığı ilə diktatura rejiminin qurulması
B) Osmanlı dövlətində geriləmə dövrünün başlanması
C) Sankt-Peterburq şəhərinin Rusiyanın paytaxtına çevrilməsi
D) Sultan II Səlimin Kipr adasını fəth etməsi
E) Saratoqa yaxınlığında ingilis ordusunun məğlub olması

43. Verilənlər arasında hansı hökmdara aid məlumat ***yoxdur?***
– Qəzvində "Moskva şirkəti"nin təmsilçisini qəbul etməsi
– Portuqalların Hörmüzdən çıxarılması
– Əfqanlar tərəfindən taxtdan salınması
– Peterburq müqaviləsini təsdiq etməməsi
A) Şah II Təhmasib B) Şah Sultan Hüseyn
C) Şah I Abbas D) Şah I Təhmasib
E) Şah Süleyman

44. Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin.




a. "Məğlubedilməz Armada" adlanan donanmasının İngiltərəyə məğlub olması
b. Reformasiya hərəkatının baş verməsi
c. III Xaçlı yürüşündə Konya şəhərini dağıntılara məruz qoyması
d. Otuzillik müharibədə iştirak etməsi
e. XIV əsrin 60-cı illərində İngiltərə ilə sülh imzalaması

A) 1-c; 2-d; 3-e; 4-a, b
B) 1-b, e; 2-a; 3-c; 4-d
C) 1-e; 2-a; 3-c; 4-b, d
D) 1-d; 2-e; 3-b; 4-a, c
E) 1-c; 2-a; 3-b; 4-d, e

45. Uyğunluq gözlənilmişdir:
1. Osmanlıların Trabzonu tutması ilə Qara dənizə birbaşa çıxışını itirdi – Ağqoyunlu dövləti
2. Bütün Azərbaycan torpaqlarını vahid dövlətin tərkibində birləşdirmişdi – Şah I Təhmasib
3. Qızılbaşlar ilk zərbəni Şirvanşah Fərrux Yasara vurmağı qərara almışdı – Ərzincan müşavirəsində
4. Amasiya müqaviləsinə əsasən Osmanlılar öz tabeliyində saxlamışdı – Ərəb İraqını
5. Şahdağın ətəyində baş vermiş döyüş nəticəsində öldürüldü – Şeyx Cüneyd

A) 1, 2, 3
B) 2, 3, 4
C) 2, 3, 5
D) 3, 4, 5
E) 1, 3, 5

46. Xəritədə paytaxtları rəqəmlə göstərilmiş dövlətlərə aid uyğunluğu müəyyən edin.



a. Sülaləsinin nümayəndələrinin Afşin titulu daşımaları
b. Alp Arslan tərəfindən süquta uğradılması
c. Slavyanların köməyindən istifadə olunması
d. Məhəmməd ibn Əbu Sac tərəfindən əsasının qoyulması
e. Şirvanşahlarla qohumluq əlaqəsinin saxlanılması

A) 1-a, b; 2-d; 3-c, e
B) 1-d, e; 2-a; 3-b, c
C) 1-c, e; 2-b; 3-a, d
D) 1-b, d; 2-c; 3-a, e
E) 1-c, d; 2-e; 3-a, b

47. Məntiqi ardıcıllığı müəyyən edin.
1. Ağ Hun dövlətinin süquta uğraması
2. Sasanilərlə göytürklər arasında münasibətlərin pozulması
3. .....

A) İstəmi xanın Sasanilərlə vuruşmada məğlub olması
B) Birinci Göytürk xaqanlığının iki hissəyə parçalanması
C) Kür Şadın Sasanilərə qarşı üsyana qalxması
D) Sasani şahı Firuzun hakimiyyətdən salınması
E) Göytürklərin Soqdiana vilayətinə sahib olması

48. 1919-cu ilin noyabrında AXC və Ermənistan arasında Tiflisdə imzalanmış sazişə əsasən:
A) İrəvan şəhəri Ermənistana paytaxt qismində verildi.
B) Hər iki tərəf qoşunlarını Zəngəzurdan çıxarmalı idi.
C) Denikin təhlükəsinə qarşı birgə mübarizə aparmaq qərara alındı.
D) Naxçıvanda erməni idarəçiliyi fəaliyyətə başladı.
E) Qarabağın erməni əhalisi AXC hakimiyyətinə tabe olduğunu elan etdi.

49. Səfəvi hökmdarı Süleyman şah:
A) Korsika adasının tutulmasında Fransaya kömək göstərmişdi
B) Terek çayı boyunca rus hərbi məskənlərini dağıtmışdı
C) Moxaç döyüşündə macar-çex qoşunlarını məğlubiyyətə uğratmışdı
D) "Müqəddəs birliy"in Osmanlılara qarşı birləşmək təklifini rədd etmişdi
E) Avropadan mətbəə avadanlığı gətirilməsinə təşəbbüs göstərmişdi

50. E.ə. III əsrin sonları və eramızın III əsrin əvvəllərində Atropatenanın tarixi üçün səciyyəvidir:
A) Arşakilər sülaləsi tərəfindən idarə edilməsi
B) Yadelli dövlətin işğalçı yürüşünə məruz qalması
C) Selevkilərin tabeliyindən xilas olması
D) Sasani canişinlərinin hökmranlıq etməsi
E) Parfiyanın işğalçılıq siyasətinə qarşı mübarizə aparması


51. XIII yüzilliyin əvvəllərindən Fransanın cənub ərazilərinin kral hakimiyyəti altında birləşdirilməsinə başlandı. Tezliklə Tuluza qrafliği birləşdirildi. Tuluza qrafliğının birləşdirilməsi yadelli işğalı altında olan Fransanın cənub-qərb hissəsinin azad edilməsinə şərait yarandı.
Haqqında bəhs olunan tarixi proses nəticəsində:
A) Tüdorlar sülaləsi Fransadakı mülklərinin çox hissəsini itirdi
B) Mərkəzləşdirmə siyasəti əvvəlcə Fransanın cənubundan başlandı
C) IV Filipp cənub-qərbi Fransa ərazilərini ingilislərdən təmizlədi
D) XIII yüzillikdə Fransanın vahid dövlət halında birləşməsi başa çatdı
E) Fransa ərazisinin kiçik hissəsi İngiltərə işğalı altında qaldı

52. XVIII əsrin 20-ci illərində Bakıda əhalinin üsyana qalx-masının səbəblərindəndir:
A) Yerli sahibkarların neft quyularının komendant tərəfindən müsadirə edilməsi
B) Vilayətlərdə hakimiyyətin Osmanlı sərkərdələrinə tapşırılması
C) Hacı Davudun hakimiyyətdən kənarlaşdırılması
D) Bəylik və ağalıq torpaqlarının yerli feodalların əllərindən alınması
E) İmamqulu bəyin Dərbənd qalasının açarını I Pyotra təqdim etməsi

53. Monqol imperiyasından ***fərqli*** olaraq, Dehli sultanlığı:
1. Xarəzmşahlara qarşı mübarizə aparmışdı
2. Çinin şimal ərazilərini tabe etmişdi
3. Abbasi xəlifəsi ilə dostluq əlaqələri saxlamışdı
4. XIV əsrdə ərazisində müstəqil dövlətlər yaranmışdı
5. Xarəzmşah Cəlaləddini himayə etmişdi

54. Xronoloji ardıcıllığı müəyyən edin.
1. "Bütün növ məhsul inhisarlarının ləğv edilməsi haqqında" dekretin verilməsi
2. Azərbaycan SSR-in ikinci Konstitusiyasının qəbul edilməsi
3. "21 Azər" hərəkatının baş verməsi
4. Şərur-Dərələyəzin daşnak hökumətinə verilməsi

55. Şxemi tamamlayın.



1. Dəbil şəhəri uğrunda mübarizə aparılması
2. Azərbaycanın cənubunda meydana gəlməsi
3. Gürcü qoşunları üzərində qələbə qazanılması
4. Səlcuq dövlətindən asılı halda olması

56. Qaraqoyunlu hökmdarı Cahanşahın xarici siyasəti üçün xarakterikdir:
1. Həsənəlinin və Pirbudağın başçılıq etdiyi qiyamların yatırılması
2. Osmanlı dövləti ilə dostluq münasibətlərinin saxlanılması
3. Muş döyüşündə Ağqoyunlu qoşunlarına məğlub olması
4. Şirvanşah I İbrahimin asılı hala salınması
5. Herat müqaviləsinin imzalanması

57. Uyğunluğu müəyyən edin.
1. Alp Arslan
2. Batı xan
3. Orxan Qazi
a. İdil bulqarlarını və rus knyazlarını asılı hala salmışdı
b. Maltəpə döyüşündə qələbə qazanmışdı
c. Qaraxanlı torpaqlarına yürüş etmişdi
d. Polşa-alman qoşunlarını məğlubiyyətə uğratmışdı
e. Tiflis, Ani və Qars şəhərlərini ələ keçirmişdi

Sizə təqdim olunmuş mənbəni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları cavab kağızında yerinə yetirin.

Səfəvi dövləti quruluş etibarıilə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin ənənələrini davam etdirirdi. Səfəvilər sülaləsinin hakimiyyəti dövründə güclü mərkəzləşdirilmiş dövlət qurulmuşdu. Dövlətin başında özündə ali dünyəvi və eləcə də Ərdəbil "Səfəviyyə" şiə ordeninin irsi başçısı kimi dini hakimiyyəti təcəssüm etdirən şah dururdu. Hakimiyyətin teokratik xüsusiyyəti şahın mövqeyini xeyli möhkəmləndirirdi.

Şahdan sonra dövlətdə ikinci nüfuzlu şəxs vəkil hesab olunurdu.

Səfəvi yığma qoşunlarının başçısı əmir-üllərinin inhisarında idi. Hərbi iş bütövlükdə Azərbaycan əyancan tayfalarından yığılan qızılbaş qoşunu təşkil edirdi. Şahın Azərbaycan tayfalarının döyüşçülərindən ibarət olan xüsusi hərbi dəstəsinə qorçubaşı başçılıq edirdi.

58. Mənbəyə əsasən, Səfəvi dövlətinin idarəetmə sisteminin Qaraqoyunlu və Ağqoyunlu dövlətlərindən üç fərqli cəhətini yazın.

59. Bəhs olunan dövrdə vəkil hansı səlahiyyətə sahib idi?

60. Səfəvi dövlətində Azərbaycan tayfalarından yığılan qızılbaş qoşunu necə adlanırdı?

ƏDƏBİYYAT

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

61. Hansı bənddə adı qeyd olunan əsərə aid məlumat ***verilməmişdir?***
- Fikirlər hökm şəklində ifadə olunmuşdur, lirik qəhrəmanın monoloqu təsiri bağışlayır.
- Lirik qəhrəman həsrətdən heyva kimi saralmış, qəmdən xəstə olub yatağa düşmüşdür.
- Yarına müraciət edən lirik qəhrəman onu "ölkə gözəli" adlandırır, günəşlə müqayisə edir.
- Bir çox nəsihətlərə yer verilən şeirdə vəfalı olmaq, təvazökarlıq kimi mövzulara toxunulur.

A) "Pəri" (M.P.Vaqif)
B) "Sığmazam" (İ.Nəsimi)
C) "Gənclərə nəsihət" (Ə.Xaqani)
D) "Qafqaz müsəlmanlarına xitab" (S.Ə.Şirvani)
E) "Badi-səba, mənim dərdi-dilimi..." (Q.Zakir)

62. "Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur" əsəri ilə bağlı sxemin hansı xanasında ***səhvə*** yol verilmişdir?

	Əsərdən seçilən cümlə	Cümlə ilə bağlı qeyd
A)	Xanım, bu cüzvi, yüngül iş deyilmiş, bəlkə, çox böyük və çətin iş imiş.	Məstəli şahın bu sözləri deməsi onun çox pul tələb etməyi üçün hazırlıq məqsədi daşıyır.
B)	Nə söyləyirsiniz, xanım, özüm başımı qoymağa yer tapmıram.	Müsyo Jordanın bu sözləri qadınları rahatladır, onlar məqsədlərinə çatdıqlarını düşünürlər.
C)	Əlbəttə, əmimdən izin almamış ki, gedə bilmənəm.	Şahbaz bəy bu cümlə ilə Şəhrəbanu xanımı sakitləşdirmək istəyir, amma məqsədinə çatmır.
D)	Məlum ki, Parisdə yaman adamlar var imiş.	Şəhrəbanu xanım bu sözləri deməklə Parisi dağıtmaq istəyinə haqq qazandırır.
E)	Əvvələn, bu, yalandır ki, deyirsən. Kim bizlərdən mərifət ilə, qulluq ilə xoşbəxt olubdur?	Şərəfnisə bu sözlərlə Şahbaz bəyin qulluq edib hörmət-izzət tapmaq arzusu ilə razılaşmır.

63. N.Gəncəvinin "Sultan Səncər və qarı" əsəri ilə bağlı **səhv** fikri müəyyənləşdirin.

(Şərhin fikrimcə...)

A) dərgahın qarıya haqsız divan tutması padşahın ədalətinin tapdanması deməkdir.
B) Sultan Səncər hakimiyyətinin ilk illərini yada salmalı, verdiyi ədalətli qərarları təkrarlamalıdır.
C) insan dünyada zülm etmək üçün yaranmamışdır, haraya yetişmək, kömək etmək lazımdır.
D) padşah daim rəiyyətin yanında olmalı, onlara kömək etməyə çalışmalıdır.
E) Sultan Səncər zalım və insafsızdır.

64. Nöqtələrin yerinə verilənlərdən hansılar yazıla bilər?

Əsər	Surətlərdən birinin niyyəti	Niyyəti boşa çıxarır
"Ağıllı uşaq"	.....	Əhmədin hünəri
"Dərzi şagirdi Əhməd"	.....	

1. Xanın sevimli heyvanının hansı olduğunu hamıya elan etdirmək istəyi
2. Pəri Soltanın yuxuda görüləni öyrənmək istəyi
3. Xanın kənddəki ağsaqqalların hamısını gətirtmək istəyi
4. Xanın kəndi talan etmək istəyi
5. Firəng padşahının Pəri Soltanı oğluna almaq istəyi

A) 4, 5 B) 1, 3 C) 3, 5 D) 1, 2 E) 2, 4

65. Nümunə ilə bağlı fikirlərdən hansılar ***səhvdir?***

Unutma yarını, ay şair Soltan,
Qəlbimin dərdini sil, soruş məni.
Salma səfərini uzaq ellərə,
Halım pərişandır, bil, soruş məni.

1. Şəkli xüsusiyyətlərinə əsasən qoşma janrında olduğunu söyləmək mümkündür.
2. Müraciətə yer verildiyi üçün şeirin son bəndi olduğunu söyləmək mümkündür.
3. Nümunədə rədifdən istifadə olunmuşdur.
4. Misradaxili bölgü bütün misralarda eynidir.
5. Misra sonlarında təkrar olunan hissə cinas sözlər hesab olunmalıdır.

A) 1, 5 B) 1, 3 C) 3, 4 D) 2, 4 E) 2, 5

66. Ş.İ.Xətayinin "Dəhnamə" məsnəvisindən seçilmiş misraların Bağban tərəfindən deyildiyini nəzərə alaraq, doğru fikirləri müəyyənləşdirin.

Bir qasidi-xəstəhali gördüm.
Yox gəlməgə heç məcali gördüm.
Gəlməz yavuğa, həzər qılur ol,
Dərgah saru nəzər qılur ol.

1. Pəriyə müraciətlə deyilmişdir.
2. Aşiqdən şikayət məzmunlu cümlələrdir.
3. *Qasidi-xəstəhal* ifadəsi ilə Səba nəzərdə tutulur.
4. Bağbanın Aşiqə tövsiyəsinə yer verilmişdir.
5. Səba məktubu vermək üçün cəsarət tapmadığına görə qınanır.

A) 1, 5 B) 2, 4 C) 1, 3 D) 3, 5 E) 1, 2

67. M.Hadinin "Türkün nəğməsi" şeirindən seçilmiş misralardan hansına əsasən şeirdəki "Türkün tökülən qanları bihudə gedərmi?" misrasında bədii sual ***işlənmədiyini*** söyləmək mümkündür?

A) Məfkurə yolunda tökülən qan hədər olmaz.
B) Xof eyləmədik atəşi-dəhhaşe-düvəldən.
C) Türkün üzü çevrilməyəcək səmti-əməldən
D) Bir zərrə belə qorxmayırız dəsti-əcəldən,
E) Türklər geriyə dönməyəcək müslih əməldən.

68. M.Füzulinin qəzəllərinə aid cədvəldəki ***səhvi*** müəyyənləşdirin.

"Söz"	"Məni candan usandırdı..."
A) Şeirdə söz gizli sirlərin qoruyucusu adlandırılır, yoxdan var olduğu vurğulanır. B) Dəyərli sözün ucuz tutulması məsələsi şeirdə başlıca problem kimi qoyulur.	C) Lirik qəhrəman qəmini gizli tutur, amma ona məsləhət görürlər ki, yara bildirsin. D) Yarın gül üzünə qarşı gözdən qanlı su axması fikri vurğulanır. E) Şeirdə ilahi məhəbbətin əlamətləri müşahidə olunur.

69. N.Vəzirovun "Müsibəti-Fəxrəddin" əsərindən seçilmiş cümlələrin məzmununa əsasən dialoqun hansı surətlər arasında baş verdiyini müəyyənləşdirin.

– *Mən ata bilmərəm, əlim qurur.*
– *Əstəğfürullah! Sən belə dur, gör mən onu necə yatırdıram!*
– *Olmaz, qoymaram heç vaxt! Əllərimi kəssən, dişlərimlə tutub qoymayacağam, vəssalam!*
– *Bəs nə üçün məni buraya gətirmisən?! Yəqin ki, mənlən düşmənçiliyin var?*

A) Fəxrəddin və Şahmar
B) Cahangir və Əhməd
C) Fərhad və Məhərrəm
D) Rüstəm bəy və Mahmud
E) Hacı Murad və Vəli

70. Nümunədə hansı bədii ifadə vasitələri ***işlənməmişdir?***

Qıfıl altındadır ürəklərimiz
Axı qıfıl hara, azadlıq hara?
Nədir əlacımız, bəs neyləyək biz?
Hardan açar tapaq bu qıfıllara?
(B.Vahabzadə)

1. bədii sual 2. bədii təzad 3. təkrir
4. kinayə 5. litota 6. inversiya

A) 1, 2 B) 4, 5 C) 2, 5 D) 3, 6 E) 4, 6

71. Aşıq Ələsgərin "Bir ay yarım nobahardan keçəndə..." misrası ilə başlayan şeiri haqqında cədvəlin hansı xanasında uyğunluq ***pozulmuşdur***?


	Fikir	Doğru/ Yanlış
A)	Dağları sevən aşıq insan və dağı vəhdətdə götürür.	doğru
B)	Dağların əzəmətinin önə çəkildiyi şeirin bütün bəndlərində tərənnüm qabarıq şəkildə müşahidə olunur.	yanlış
C)	Şeirdə bir neçə dağ adına yer verilmişdir.	doğru
D)	Aşıq özünü qınayır və şeirə əsasən bunun səbəbini aydınlaşdırmaq olur.	yanlış
E)	Şeirdə rədifdən istifadə olunmuşdur.	doğru

72. C.Məmmədquluzadənin "Qurbanəli bəy" əsəri haqcında fikirlərdən hansılar doğrudur?

1. Süjetin mərhələlərinin hər birində hadisələrin bir hissəsi pristavın evində baş verir.
2. Qurbanəli bəyin məclisə gəlməyinin əsas səbəbi oradakı qonaqları evinə dəvət etmək idi və istəyini həyata keçirir.
3. Musiqinin dayandırılması və ya davam etdirilməsi məsələsində Qurbanəli bəylə pristavın fikirləri üst-üstə düşmür.
4. Qurbanəli bəyin evinə qonaq getmək təklifi ilk dəfə naçalnik tərəfindən səsləndirilir.
5. Qurbanəli bəyin aşpaz Əliyə, qaravaş Gülpəriyə rəftarı Kərbəlayı Qasıma rəftarından fərqlənmirdi.

A) 3, 5 B) 1, 2 C) 4, 5 D) 1, 4 E) 2, 3

73. Sual işarəsinin yerinə hansı müəllifin adı qeyd oluna bilər?



A) M.F.Axundzadə B) N.Gəncəvi
C) M.Füzuli D) Q.Zakir
E) Ş.İ.Xətayi

74. "..... hadisə danışılmır, insanın hissləri: sevinci, kədəri, narahatlığı və s. ifadə olunur" cümləsində nöqtələrin yerinə yazıla ***bilməz:***

A) Qəzəldə B) Təmsildə C) Müxəmməsdə
D) Qoşmada E) Rübaidə

75. M.Füzulinin "Leyli və Məcnun" poemasında Məcnun – Novfəl xəttinə aid edilmiş fikirlərdən hansı ***səhvdir?***

A) Özü də eşq yolunda getdiyi üçün Məcnunun şeirindən təsirlənən Novfəl ona kömək etmək qərarına gəlir.
B) *Səndə bilirəm ki, lütf çoxdur,*
Nə sud, çü məndə bəxt yoxdur – deyən Məcnun bəxtindən şikayətlənərək Novfəlin kömək etmək istəyinin faydasız olacağını deyir.
C) Məcnuna müraciət edən Novfəl ona səhranı tərk etməyi, vəhşilərlə həmdəm olmamağı tövsiyə edir.
D) *Bir sınmışa mumiya dilərdim,*
Bir xəstə üçün şəfa dilərdim – sözləri ilə Novfəl Məcnunu nəzərdə tutur.
E) Leylinin atasının *"Məcnuna mənim qızım nə layiq?"* sözlərindən sonra Novfəl tutduğu işin doğru olmadığını düşünür və geri çəkilir.

76. Rəqəmlərin yerinə hansı variantda verilmiş adlar yazılsa, fikir doğru olar?

1..... surəti 2..... əsərində iştirak edən yumoristik surətdir.

A) 1 – Kərbəlayı Zal; 2 – "Bomba" (Ə.Haqverdiyev)
B) 1 – Dara; 2 – "İskəndərnamə" (N.Gəncəvi)
C) 1 – Mirzə Məhəmmədəli; 2 – "Anamın kitabı" (C.Məmmədquluzadə)
D) 1 – Şərəfnisə; 2 – "Hekayəti-müsyo Jordan və dərviş Məstəli şah" (M.F.Axundzadə)
E) 1 – Hürü nənə; 2 – "Müsibəti-Fəxrəddin" (N.Vəzirov)

77. Şifahi xalq ədəbiyyatı janrlarından lətifəyə aid olan xüsusiyyətlər və həmin xüsusiyyətin aid olduğu digər janr verilmişdir. Hansı sıralarda bu uyğunluğa əməl olunmuşdur?

	Xüsusiyyət	Aid olduğu digər janr
I	Nöqsanların tənqidi əsas yer tutur.	atalar sözü
II	Yumordan istifadə oluna bilər.	yanıltmac
III	Adətən, nəsrlə yazılır.	əfsanə
IV	Bir sıra nümunələri eyni qəhrəmanla bağlıdır.	nağıl

A) I, III B) II, IV C) III, IV
D) I, IV E) II, III

78. A.Bakıxanovun "Hikmətin fəziləti" əsərində Şah surəti ilə bağlı fikirlərdən hansı ***səhvdir?***
A) sözləri: insana ən lazım olan həqiqətdir
B) düşüncəsi: ölkəni idarə edənlər ağlı, tədbiri ilə seçilənlərin fikirlərindən istifadə etməlidir
C) görməli olduğu iş: müdrik şəxsin vəsiyyətini icra etmək
D) narahat olduğu məsələ: üzüyün layiq olmayan birinin əlinə keçməsi
E) seçdiyi çıxış yolu: suallar verməklə istəyinə çatmaq

79. S.Ə.Şirvaninin "Guş qıl" şeirində bəzi cəhətləri qeyd olunan şəxs və ya şəxslərə müəllifin münasibəti ilə bağlı fikirlər verilmişdir. ***Səhv*** fikirləri müəyyənləşdirin.
1. Musiqi məclisində iştirak edən – Əhli-bəsər olmalıdır.
2. Tarı qadağan edən – Dedikləri böhtandır.
3. Əsrari-nihana (gizli sirlərə) yiyələnmək istəyən – Tarı ağuşundan yerə qoymamalıdır.
4. Zövq əhli olmayan – musiqi ilə qəmi-dünyaya hasar çəkməlidir.

A) 1, 2 B) 2, 4 C) 3, 4 D) 1, 3 E) 2, 3

80. Yaradıcılığı Azərbaycan ədəbiyyatında maarifçi-realizm dövrünə aid olan bu sənətkar əruz vəznində "Xudahafiz", "Bənövşə" və s. şeirlər yazmışdır:
A) M.Ş.Vazeh B) S.Təbrizi C) Q.Zakir
D) X.Natəvan E) Qurbani

81. Fikirlərdən hansı "Həmzənin Qıratı qaçırması" qolunda Koroğlunun dəstəsinə qoşulanları "dələduz" adlandıran surətə aiddir?
A) Çənlibelə üç tərəfdən hücum etməyi təklif edir və iki qoşun başçısı axtarır.
B) Qəcər Alının və Mehtər Murtuzun onunla gəlməsini istəyir.
C) Qıratı ələ keçirməyi təklif edir.
D) Həmzəyə möhlət verir.
E) Hasan paşaya karvan düzəldib İstanbula gətirməyi tapşırır.

82. M.F.Axundzadənin "Aldanmış kəvakib" əsəri ilə bağlı fikirlərdən hansılar ***səhvdir?***
1. Axund Səmədin hökmdar üçün Yusif Sərracı təklif etməsi, Yusif Sərracın münəccimbaşı vəzifəsini ləğv etməsi həmin şəxslərə bəslənən ədavətdən irəli gəlirdi.
2. Sərrac işlədiyi dövrdə ölkədəki nöqsanları diqqətə alan Yusif Sərrac hakimiyyətdə olmasından istifadə edərək onları düzəltməyə çalışır.
3. Saray xadimlərini yaxşı tanıyan Şah Abbas əməllərini özlərinə danışdırmaqla çətin anda çıxış yolu tapa bilmədiklərini onlara göstərir.
4. Yusif Sərracın taxta çıxdıqdan sonra diqqət mərkəzində saxladığı məsələlərdən biri də xalqın maariflənməsi olur.
5. Xacə Mübarək baş verənləri, Yusif Sərracın niyə hökmdar seçilməsinin səbəbini olduğu kimi danışır.

A) 2, 5 B) 1, 3 C) 2, 4 D) 1, 4 E) 3, 5

83. C.Məmmədquluzadənin "Anamın kitabı" əsərində Zəhrabəyimin dilindən verilmiş hissə ilə bağlı fikirlərdən doğru olanları müəyyənləşdirin.
...Ürəyim (əlini qoyur ürəyinə) üç yerə bölünə, üç tikə ola, hər tikəsi də bir tərəfə çıxıb gedə (yenə baxır otağa), onda dəxi ürəyim parçalanar, ölərəm. Qızım, pəs mənim ürəyim üç parça olsa, sən nə edərsən?! Qızım, anasız qalarsan (dərin ah çəkir və huşa gedir).
1. Sözlərin hamısı səhnədə səsləndirilmək üçün deyil, bir hissəsi aktyora kömək məqsədi daşıyır.
2. Bu sözlərlə ananın övladları ilə bağlı narahatlığı dilə gətirilmişdir.
3. Məzmunundan məlum olur ki, cümlə süjetin ekspozisiya mərhələsinə aiddir.
4. Üç qardaşın evi tərk edib getmək ehtimalına işarə olunmuşdur.
5. Ananın xeyriyyə cəmiyyətinin yığıncağında oğlanlarının faydasız işlər gördüyünə şahid olması bu sözlərin deyilməsinə səbəb olmuşdur.

84. N.Vəzirovun "Müsibəti-Fəxrəddin" əsəri ilə bağlı cədvəldəki xanaları doldurmaq üçün hansı fikirlərdən istifadə etmək mümkündür?

Səbəb	Nəticə
Qisas hissi cəmiyyətdə özünə geniş yer tapır.	Rüstəm bəyin ailəsi ağır sınaqlara tuş gəlir, ard-arda bədbəxtliklər baş verir.

1. Övladlarda valideynə qarşı hörmətsizlik halları artır.
2. Başqa ölkədə təhsil alıb gələnlərin fikirləri cəmiyyətdə rəğbət görür, nadanlığa qarşı çıxılır.
3. Xudbinlik, mənəmlik hissləri insanın başqalarına baxışını öz təsiri altına alır.
4. Nökərlər intizamsızlıq göstərməyə başlayırlar.
5. Keçmişin qalığı olan bəzi zərərli adətlər hələ də bir çoxlarının üzərində təsirli olur.

85. Nümunədə hansı bədii təsvir və ifadə vasitələri işlənmişdir?

İllər keçir, qoca dünya boşalır, dolur,
Əvvəl-axır ulu göylər bizi çağırır.
İllər keçir, ağ vərəqlər qapqara olur,
İllər keçir, bəs bu saçlar niyə ağarır?
(R.Yusifoğlu)

1. epitet
2. təşbeh
3. bədii sual
4. bədii təzad
5. anafora
6. inversiya

86. S.S.Axundovun "Nurəddin" əsərində hansı xüsusiyyətləri daşıyan surətlər iştirak ***etmir?***

1. Yamanlıq qarşılığında yaxşılıq etməyi yaxşılığa yaxşılıqla cavab verməkdən üstün tutur.
2. Təsadüfən gördüyü uşağı diləndirmək məqsədilə götürür, amma kömək edəcəyinə dair ona vəd verir.
3. Vəziyyətin dəyişməsi ürəyincə olmur, amma kimisə qorumaq məqsədilə çətinliyə dözməyə razı olur.
4. Oxumaq arzusu yerinə yetirilmir, buna görə də fikirləri dəyişir və nəticədə quldurluq edir.
5. Niyyətini həyata keçirmək üçün xarakterində müvəqqəti dəyişiklik edir, mehriban davranır.
6. Nurəddinin mütləq onun yanında qalmasını istəyir, buna görə də Nurəddini kəndə çağırır.

87. N.Gəncəvinin "İskəndərnamə" əsərinin baş qəhrəmanı İskəndərlə bağlı uyğunluğu müəyyənləşdirin.

1. Şahzadə olduğu dövrə aiddir.
2. Hökmdar kimi atdığı addımlardandır.
3. Peyğəmbərliyə çatdıqdan sonra gördüyü işlərdəndir.

a. Tacirlərdən bac, dehqanlardan vergi almağı dayandırır.
b. Şimalda yaşayan tayfaya kömək edir, onları hücumlardan qoruyur.
c. Ərəstunu vəzir seçəcəyini bildirir.
d. Qüdsdə insanlara əziyyət verən zalımı cəzalandırır.
e. Misiri zəncilərdən qorumaq məqsədilə yola çıxır.

88-90-cı sualları mətnə əsasən cavablandırın.

Dağlar

Zimistan dolanıb bahar çatanda
Al, yaşıl geyinib bar olan dağlar!
Şaqayıq, nərgizli, gül bənövşəli,
Süsəni, sünbülü var olan dağlar!

Bəzənirsən, dağlar, nə gözəl, göyçək,
Çağırır bir-birin qərənfil, çiçək.
Sərində seyr edir topqara birçək
Bəzənib qumaşa car olan dağlar!

Baharda eylədin əhdinə vəfa,
İman da sinəndə sürdü zövq, səfa.
Zimistan gələndə çəkirsən cəfa,
Üç ay qışı başı qar olan dağlar!
(Növrəs İman)

88. Nümunənin və Aşıq Ələsgərin "Bahar fəsli, yaz ayları gələndə" misrası ilə başlayan "Dağlar" qoşmasının müqayisəsi əsasında cədvəli doldurun.


Forma xüsusiyyətləri ilə bağlı ortaq cəhətlər	Məzmun xüsusiyyətləri ilə bağlı ortaq cəhət
1. 2.	3.

89. Möhürbənd adlanan hissədə verilənlərdən hansına rast gəlmək mümkündür? Seçdiyiniz bədii ifadə vasitəsinin adını yazın və seçiminizi mətnə əsasən əsaslandırın.

– *təkrir* – *mübaliğə* – *bədii təzad*

Nümunədə işlənən bədii ifadə vasitəsi	Əsaslandırma

90. M.P.Vaqifin "Hayıf ki, yoxdur" şeiri Növrəs İmanın "Dağlar" şeiri ilə Eyler-Venn diaqramına əsasən müqayisə olunur. "Tərənnümdən daha geniş istifadə olunmuşdur" cümləsinin rəqəmlə göstərilən yerlərdən hansına uyğun gəldiyini müəyyənləşdirin və seçiminizi əsaslandırın.



Uyğun gəldiyi hissə: _____

Əsaslandırma: _____


_____

SINAQ 6

AZƏRBAYCAN DİLİ

Mövzular üçün | Video həllər üçün | Cavablar üçün

1. Klasteri tamamlayın.



A) 1. yalnız feili bağlama kimi işlənən sözlər; 2. dama-dama
B) 1. yalnız zərf kimi işlənən sözlər; 2. qaçaraq
C) 1. feili bağlama və zərf kimi işlənən sözlər; 2. tikə-tikə
D) 1. feili bağlama və zərf kimi işlənən sözlər; 2. yana-yana
E) 1. yalnız zərf kimi işlənən sözlər; 2. asta-asta

2. Hansı nümunədə təsriflənməyən feil ***işlənməmişdir***?

A) Gücsüzük, bir heçik sən də, mən də tək
Vətənə güvənib olduq Vətəndaş.
(B.Vahabzadə)

B) Çoxdan insan ayağı dəyməyən bir yerə çatdıqda Vüqar qorxuya düşdü.

C) Xəzər coşub zəncirini qırsa, oy!..
Hökm etsə, bu sərsəm gediş dursa, oy!..
(A.İldırım)

D) Yaxşılar yaman can versələr də,
Yamanlar yaxşını danıb həmişə.
(B.Vahabzadə)

E) Gündə neçə dəfə kənddə axtarış aparan bu adam dostu ilə danışanda səsini alçaldıb oraya-buraya baxırdı.

3. Nümunədə hansı sözün sinonimi ***işlənməmişdir***?

Qəm çəkmə bu qədər, divanə könül,
Həmişə ruzigar belə dar olmaz.
On bir ay çəkmisən zimistan qəhri,
Necə güldür çöhrəsində xar olmaz.
(Qurbani)

A) dəli
B) qəlb, ürək
C) surət, sima
D) qış, qış fəsli
E) məhrumiyyət, haqsızlıq

4. Hansı cümlədə yalnız qoşma kimi işlənə bilən söz işlənmişdir?
A) Həm də sən həmişə deməzdinmi ki, insan öz arzusuna qarşı durmamalıdır. (C.Cabbarlı)
B) Kaş mən də sənin kimi sərbəst olaydım. (C.Cabbarlı)
C) Mən sabah da söylərəm ki, sizin mənim üçün bir məna və əhəmiyyətiniz varsa, o da ancaq bir heç! (C.Cabbarlı)
D) Baxın, deyirəm sizə bundan sonra hər yetən gəlib bir ağa olacaqsa, mən əlimi ağdan qaraya vurmaram. (C.Cabbarlı)
E) Torpaq döşəmə üstündə bir həsir qırığından başqa heç nə yox idi. (Ə.Məmmədxanlı)

5. "*Sarı*" sözü işlənə ***bilməz***:
A) Əlamət bildirən sifət kimi
B) Məlum növdə olan feil kimi
C) Yönəlmə, istiqamət bildirən qoşma kimi
D) Səbəb bildirən qoşma kimi
E) Hərəkətin tərzini bildirən zərf kimi

6. Nümunəyə və cədvələ əsasən doğru fikirləri müəyyən edin.
Ey dan ulduzu! İzdiham çoxalır, qəhrəman şəhər Büsbütün ayağa qalxmışdır bu gün. (S.Vurğun)

Doğrudur	Yanlışdır
1. Bədii xitab işlənmişdir.	4. Həm adlıq, həm də yiyəlik halda olan söz işlənmişdir.
2. Həm təsriflənən, həm də təsriflənməyən feillər işlənmişdir.	5. Sabit söz birləşməsi işlənmişdir.
3. Zərfin iki müxtəlif məna növünə aid sözlər işlənmişdir.	6. Çoxaltma dərəcəsində olan sifət işlənmişdir.

A) 1, 3, 5 B) 2, 4, 6 C) 1, 3, 6
D) 2, 4, 5 E) 1, 2, 5

7. Verilmiş nümunələrlə bağlı ***uyğunsuzluğu*** müəyyən edin.
A) *Hünərlə fərasət bir olan yerdə*
Açılır taybatay bağlı qapılar. (O.Sarıvəlli) – zərf məchul növdə olan feilə aiddir.
B) *Gənc ömrümün bağında yazım sənsən, gülüm sən*
Xiffət edib sıxılıb qüssələnmə, gülüm, sən. (N.Xəzri) – həm əmr şəklində, həm də xəbər şəklində olan feillər işlənmişdir.
C) *Paşa bəy pristavı ağıldankəm, qorxaq insan saydığı kimi, onun qanacaq və mərifətinə də xor baxırdı.* (Ə.Vəliyev)
– həm düzəltmə sifət, həm də düzəltmə isim işlənmişdir.
D) *Hər kəndə, hər şəhərə zinətdir bayrağımız,*
Alnıaçıq hər kəsə şöhrətdir bayrağımız.
(S.Rüstəm) – mürəkkəb sifət mənsubiyyət şəkilçili ismin və düzəltmə sözün birləşməsindən yaranmışdır.
E) *Həqiqi şair, gərəkdir ki, öz səsini millətin səsinə qoşub onun qeyrət və təəssüb damarını hərəkətə gətirə* (F.Köçərli) – *işə salmaq* frazeoloji birləşməsinin sinonimi işlənmişdir.

8. Hansı cümlədə fərqləndirilmiş sözdə iki müxtəlif nitq hissəsi işlənmişdir?
A) Üzün şəfəqlənir mən ah çəkincə,
Çünki od qızarır rüzgar ***əsincə***. (M.Müşfiq)
B) Nə qəşəngdir yol ***boyunca*** söyüdlər,
Söyüdlərin kölgəsində igidlər. (S.Rüstəm)
C) Qoy ***doyunca*** baxsın, etsin tamaşa,
Heyrandı göz-gözə, qurban olduğum!
(M.P.Vaqif)
D) Uşaqların belə kədərli ağlamasını ***görüncə***
Gövhər qəhərləndi. (Ə.Vəliyev)
E) Baş-başa ***verməyincə*** daş yerindən qalxmaz. (Atalar sözü)

9. Verilmiş cümlədə hansı köməkçi nitq hissəsi ***işlənməmişdir***? (durğu işarələri buraxılmışdır)
Əlbəttə Salmanda bu xüsusiyyətlər olmasaydı şübhəsiz ki heç bir komandir Şirzad kimi cəsur və qoçaq bir adamı qoyub onu seçməzdi.
A) qoşma B) bağlayıcı C) ədat
D) modal söz E) nida


10. Müqayisə cədvəlinə əsasən doğru fikirləri müəyyən edin.

"*Gətirməyin*" sözü inkarlıq şəkilçisi qəbul edibsə, ...	"*Gətirməyin*" sözü inkarlıq şəkilçisi qəbul etməyibsə, ...
1. səs və hərf tərkibi fərqlənən sözdür. 2. şəxs (xəbərlik) şəkilçisi qəbul etməmişdir.	3. adlıq halda düşünülə bilər. 4. təsriflənən feildir.
5. məlum növdədir. 6. quruluşca düzəltmədir.	

A) 1, 4, 5 B) 2, 4, 6 C) 1, 3, 5
D) 2, 3, 6 E) 1, 2, 3

11. *"Məqsədə çatmaq üçün bir böyük addım atmaqdansa, yüz kiçik addım atmaq yaxşıdır"* (Helmut Kol) cümləsində ***işlənməmişdir***:
A) Qüvvətləndirici ədat
B) Sadə və düzəltmə sifətlər
C) Omonimlik xüsusiyyətinə malik olan say
D) Yönlük halda olan isim
E) Təsriflənməyən feil

12. Verilmiş sözlərin əmr şəklində olduğunu nəzərə alsaq, hansı fikir Eyler-Venn diaqramında sual işarəsinin yerinə yazıla ***bilməz***?



A) Feildən düzəlmişdir.
B) Kökü və başlanğıc forması fərqlidir.
C) Tərkibinə görə təhlili ⌐⋀⌐ sxeminə uyğundur.
D) İcbar növdədir.
E) İkinci şəxsin cəmindədir.

13. Bağlayıcı ilə omonimliyi olan ədatın işləndiyi cümləni müəyyən edin.
A) Otların hamısı, hətta tikanlı boz qanqallar da çiçək açmışdı. (İ.Əfəndiyev)
B) Mən özüm anadan olmuşam düz otuz il bundan irəli, yəni mənim düz otuz yaşım var. (C.Məmmədquluzadə)
C) Mən ki damdan, bacadan baxmaz idim,
Su kimi hər tərəfə axmaz idim. (M.Ə.Sabir)
D) Çatlayır, Xanbacı, qəmdən ürəyim,
Qovuşub lap acığımdan kürəyim! (M.Ə.Sabir)
E) Xalqa ağır gün bizə bayram idi,
Ax, necə kef çəkməli əyyam idi. (M.Ə.Sabir)

14. Bəndlərdən birində poetizm ***işlənməmişdir***:
A) Daş qəlbli insanları neylərdin, ilahi?!
Bizdə bu soyuq qanları neylərdin, ilahi?!
(M.Ə.Sabir)
B) Başımda tutmuşam bir bayraq kimi
Böyük bayrağını ədəbiyyətın. (S.Vurğun)
C) Məzlumların göz yaşı dərya olacaqmış,
Dəryaları, ümmanları neylərdin, ilahi?
(M.Ə.Sabir)
D) Qoy məndən dərs alsın qoca təbiət,
O da könlüm kimi gülsün həmişə. (S.Vurğun)
E) Əssəlam, ey əhaliyi Qafqaz,
Ey rəisani-sahibül-ezaz! (S.Ə.Şirvani)

15. *Tələskənlik* sözünün fonetik təhlili ilə bağlı ***yanlış*** fikri müəyyən edin.
A) Səs və hərf tərkibi arasında iki fərqli məqam var.
B) Ahəng qanununa tabedir.
C) Açıq saitlərin sayı kar samitlərin sayına bərabərdir.
D) Üç cingiltili samitin kar qarşılığı yoxdur.
E) Cingiltili *[y]* samitinin kar, *[k]* samitinin isə cingiltili qarşılığı işlənmişdir.

16. Uyğunluğu müəyyən edin.
1. *-la²* qoşma kimi işlənmişdir.
2. *-la²* bağlayıcı kimi işlənmişdir.
3. *-la²* zərf düzəldən şəkliçidir.
a. O heç kitabla, dəftərlə maraqlanmazdı..
b. Dostum Ağabəy əllərini heyrətlə bir-birinə çırpdı.
c. Səməd bu yollara həsrətlə baxardı.
d. Eyvazla Gülşən Xanpərinin yanına getdilər.
A) 1-a; 2-b,c; 3-d
B) 1-c; 2-d; 3-a,b
C) 1-b, c; 2-d; 3-a
D) 1-d; 2-a,b; 3-c
E) 1-a; 2-d; 3-b,c

17. Hansı cümlələrdə iki müxtəlif köməkçi nitq hissəsi işlənmişdir?
1. Elə uzaqdan-uzağa qonşu kənddə yaşayan qohumları ilə maraqlandı.
2. Onun üçün bu dünyada hər şeydən əziz təmiz adla yaşamaq idi.
3. Beləliklə, bütün həyətlərdə tonqalları yandırıb üstündən hoppanmağa başladılar.
4. Bundan sonra Babək düz bir həftə evdə qalıb təmirlə məşğul oldu.
A) 3, 4 B) 1, 4 C) 2, 4 D) 1, 2 E) 2, 3

18. Verilən nümunələrdən biri elmi üslubda ***deyil***:
A) Sifətlər isimdən əvvəl işləndiyi kimi, isimlərdən əvvəl başqa isimlər də işlənə bilir və bu məqamlarda onlarda atributivlik əmələ gəlir.
B) Kalsium və fosfor sümük toxumasının hüceyrəarası maddəsinin yaranmasında iştirak edərək sümüklərə möhkəmlik verir.
C) Boyunun, qida borusunun başı və nəfəs yollarının yerləşdiyi ön hissəsi boğaz adlanır.
D) Turşu hazırlayarkən öncə tərəvəzlərin ölçüsünə diqqət etmək lazımdır.
E) Turşu oksidləri ikiturşulu qələvilərlə mol nisbətindən asılı olaraq, müxtəlif cür reaksiyaya daxil olur və müxtəlif məhsullar alınır.

19. Verilənlərdən biri müqayisə cədvəlinin heç bir hissəsinə yazıla ***bilməz***:

"Kimi" sözü köməkçi nitq hissəsi kimi	*"Kimi" sözü quruluşca düzəltmə söz kimi*
.....	.....
.....	

A) Qoşulduğu feili sifətlə birlikdə zaman mənasını bildirə bilir.
B) Əvəzliyin iki məna növündə düşünülməsi mümkündür.
C) İsmi əvəz edə bilir.
D) Qrammatik mənaya malikdir.
E) İsmin üç halına qoşulub, müəyyən məna çalarları əmələ gətirə bilir.


20. Cədvələ əsasən doğru fikri müəyyən edin.

A)	*"Anasından **ayrı** düşən quzunu qurd yeyər"* cümləsindəki fərqləndirilmiş söz qoşmadır.	doğru
B)	*"Qapıdan **əvvəl** Əhməd daxil oldu"* cümləsindəki fərqləndirilmiş söz zərfdir.	yanlış
C)	*"**Artıq** kitabları yığışdırın"* cümləsindəki fərqləndirilmiş söz leksik mənaya malik söz kimi düşünülə bilməz.	doğru
D)	*"**Ancaq** bu iş alınmadı"* cümləsindəki fərqləndirilmiş söz iki müxtəlif nitq hissəsi kimi düşünülə bilər.	yanlış
E)	*"Dərslərini **məncə** oxu"* cümləsindəki fərqləndirilmiş sözdə həm əsas, həm də köməkçi nitq hissəsi işlənmişdir.	doğru

21. Eyler-Venn diaqramına və nümunələrə əsasən doğru fikirləri müəyyən edin.

a. *Başqalarının uğurlarına qibtə edirik, ancaq bu uğurların onlara nəyin bahasına başa gəlməsi barədə düşünmürük.* (S.Smayls)

b. *Hər məğlubiyyət gələcək nailiyyətlər yolunda qazanılan təcrübədir.* (D.Lourens)



1. Təsriflənən feil işlənmişdir.
2. Yiyəlik halda olan isim işlənmişdir.
3. İşarə əvəzliyi sifəti əvəz etmişdir.
4. *Müvəffəqiyyət* sözünün sinonimi işlənmişdir.
5. Mənsubiyyət şəkilçili isim adlıq halda deyil
6. Həm feilin, həm də sifətin xüsusiyyətlərini daşıyan söz işlənmişdir.

A) 1, 4, 6 B) 2, 3, 5 C) 1, 3, 5
D) 2, 4, 6 E) 1, 2, 6

22. Hansı sözün tərkibinə görə təhlili bütün hallarda *qorxutmaq* sözünün tərkibinə görə təhlili ilə eynidir?

A) itirdi B) aparar C) qabaqlaşmaq
D) yaxalamaq E) uçurum

23. Tələffüz şəkli verilmiş sözlər üçün ortaq ***olmayan*** fikirləri müəyyən edin.

[dərtdi], [böyüyə]

1. İki müxtəlif nitq hissəsinin sualına cavab verə bilər.
2. Bütün məqamlarda səs və hərf tərkibi dəyişir.
3. Kontekstə görə ismin sualına cavab verən sifət kimi düşünülə bilməz.
4. Yalnız düzəltmə söz kimi düşünülə bilməz.
5. Həm sadə, həm də düzəltmə söz kimi düşünülə bilər.

24. Fərqləndirilmiş sözlərdəki *-ın*[4] şəkilçilərinin funksiyasını ardıcıllıqla müəyyən edin.

– ***Əkin** işlərinə yenicə başlanılmışdı.*
– *Ağacların yaxşı inkişaf etməsi üçün onları vaxtında **əkin**.*
– ***Oğulun** yaxşısı düşmənə göz dağıdır.*
– *Sənin **oğlun** hamımızın fəxridir.*

1. Leksik şəkilçidir.
2. Mənsubiyyət şəkilçisidir.
3. Hal şəkilçisidir.
4. Şəxs şəkilçisidir.

25. Nümunə ilə bağlı doğru fikirləri müəyyən edin.

Adət budur, yar xəbərin yar alar,
Mənim yarım zəif canım yaralar,
Yerbəyerdən sızıldaşar yaralar,
Rəhm eylə Cüməyə, ay ağa, düşdüm.
(Molla Cümə)

1. Təsirlik halda olan söz işlənmişdir.
2. Düzəltmə feillər xəbər şəklindədir.
3. İkinci və üçüncü misralarda işlənmiş *"yaralar"* sözü bir-biri ilə münasibətdə omonimdir.
4. Mürəkkəb zərf və mürəkkəb feil işlənmişdir.
5. Yalnız qrammatik mənaya malik olan söz işlənməmişdir.

26. Hansı sözləri ismin iki müxtəlif halında olan söz kimi düşünmək mümkündür?

1. kitabı 2. ovcun 3. çaydan
4. sinfin 5. oğulun 6. qənddan

27. Sözlərin leksik mənaları ilə bağlı uyğunluğu müəyyən edin.

1. təhrif 2. təhqiq 3. təftiş

a. Ayırma, başqalarından ayrı saxlanma, təkləmə
b. Həqiqəti üzə çıxarmaq, bir şeyin düzgün olub-olmadığını müəyyən etmək məqsədilə araşdırma
c. Bir sözün, ifadənin hərflərini dəyişdirməklə mənasını, mahiyyətini pozma, yanlış şəkilsalma
d. Sözlə və ya başqa şirniklendirici vasitələrlə birini bir iş görməyə vadar etmə
e. İşlərin düzgünlüyünü və qanuni olub-olmadığını yoxlamaq məqsədilə hər hansı idarə və ya vəzifəli şəxsin fəaliyyətinin yoxlanması

Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları Cavab vərəqində yerinə yetirin.

Zəlzələ

Əgər biz Yer kürəsinin daha tez-tez zəlzələ baş verən yerlərini göstərən xəritəyə baxsaq, bütün yer üzünü əhatə edən, gah şimala, gah cənuba sarı meyillənən enli bir zolaq görərik. Həmin zolaq zəlzələlərin tez-tez baş verdiyi yerləri göstərir.

Yaponiya Yer kürəsinin tez-tez zəlzələ olan yerlərindəndir. Orada zəlzələ, az qala, hər gün baş verir. Əlbəttə, onların əksəriyyəti zəifdir deyə, insanlara heç bir ziyan gətirmir. Buna bənzər zəlzələsi bol olan başqa bir bölgə Aralıq dənizi ərazisidir. Bunun səbəbi həmin ərazilərdə Yer qabığının qalınlığının hər tərəfdə eyni olmamasındadır. Bəzi nahiyələrdə o elə də möhkəm deyil və həmin nahiyələrdə Yer qabığı çat verir. Bu çatlar qabığı təşkil edən qaya süxurlarının qırılmasından əmələ gəlir. Həmin qaya süxurlarının qırılmasından əmələ gələn çatların **qərar tutduğu** hissələrdə Yer qabığının müxtəlif nəhəng parçaları bir-birinə dəhşətli təzyiq edir. Həmin təzyiqin yaratdığı enerji o qədər güclü olur ki, qayaları titrədir və zəlzələ baş verir.

Zəlzələdə əmələ gələn titrəmə min kilometrlərlə məsafəyə yayıla bilər. Bu halda zəlzələ xüsusilə Yer qabığının qalxmasından yaranan çatlar boyunca daha güclü olur. Qırılma baş verən yerlər gəmi kimi qalxıb-enir və üfüqi istiqamətdə hərəkət edir.

Zəlzələdən sonra yer üzündə həmin o çatlar boyu müəyyən dəyişikliklərin şahidi olmaq mümkündür. Titrəmənin ən çox hiss olunduğu yerlərə zəlzələnin "episentr"i deyilir. Əgər həmin episentrin yaxınlığında şəhər varsa, oradakı dağıntılar dəhşətli ola bilər. Dağılan binalar, qaz kəmərinin partlamasından yaranan yanğınlar bəzən çox böyük insan **tələfatına** səbəb olur.

28. Mətnin ikinci abzasından hansı cümlə və ya cümlələr çıxarılsa, həmin abzasda cümlələr arasındakı əlaqə ***pozulmaz***?

29. Mətnin üçüncü abzasında onun üslubu üçün səciyyəvi ***olmayan*** cümlə var. Həmin cümləyə əsasən cədvəli doldurun.

Mətnin üslubu üçün səciyyəvi olmayan cümlə	Həmin cümlənin aid olduğu üslub	Həmin üsluba aid iki xüsusiyyət

30. Tünd hərflərlə verilmiş ifadələrə əsasən cədvəli doldurun.

Tünd hərflərlə verilmiş ifadələr	Həmin ifadələrin qarşılığı	Həmin ifadələrin qarşılığının başqa cümlədə işlədilməsi

TARİX

Mövzular üçün | Video həllər üçün | Cavablar üçün

31. Uyğunluq gözlənilmişdir:
A) ABŞ-də İstiqlaliyyət müharibəsinin taleyini həll etdi – Saratoqa döyüşü
B) Şimal ittifaqı təşkil edilmişdi – Osmanlı dövlətinə qarşı
C) ABŞ-nin ilk prezidenti seçilmişdi –Tomas Cefferson
D) Stüartlar sülaləsinin hakimiyyəti dövründə əsası qoyulmuşdu –Anqlikan kilsəsinin
E) Qazan və Həştərxan xanlıqlarını işğal etmişdi – Moskva knyazlığı

32. Cədvəldəki hansı hadisələrin yerləri dəyişdirilərsə, xronoloji ardıcıllıq düzgün müəyyən edilər?

1.	Əmir Teymurun Azərbaycana ilk yürüşünün başlanması
2.	Şah I İsmayılın Xorasanı ələ keçirməsi
3.	Şəməsi döyüşünün baş verməsi
4.	Əbhər sazişinin imzalanması
5.	Trabzonun osmanlılar tərəfindən tutulması


A) 2 və 5 B) 1 və 2 C) 2 və 3
D) 1 və 3 E) 3 və 4

33. 1846-cı il yeni inzibati bölgü barədə fərmana əsasən:
A) Bakıda məhdud formada şəhər özünüidarə orqanı yaradıldı
B) Cənubi Qafqaz əyalət, dairə və distansiyalara bölündü
C) Naxçıvan və İrəvan torpaqlarından ibarət "erməni vilayəti" təşkil edildi
D) Xəzər vilayəti və Gürcüstan-İmeretiya quberniyası ləğv edildi
E) Şamaxı quberniyasının mərkəzi Bakıya köçürüldü

34. Roma Respublikasının ilk dövrlərində demokratiyanın inkişafına mane olan amillərdəndir:
A) Xalq tribunlarının senatın göstərişlərini ləğv etmək hüququna sahib olmaları
B) Torpaqların kolonlara icarəyə verilməsi
C) Plebeylərin orduda xidmət göstərmələri
D) Ölkənin Qərb və Şərq hissələrə parçalanması
E) Vəzifələrə yalnız patrisilərin seçilə bilmələri

35. X əsrin ikinci onilliyində Xilafət qoşunlarının Azərbaycana hücum etməkdə məqsədi:
A) Əbu Sac Divdadı illik xərac ödəməyə məcbur etmək
B) Bərdə şəhərini slavyanların talanlarından xilas etmək
C) Xürrəmilər hərəkatını yatırmaq
D) Saci hökmdarının müstəqil siyasət yürütməsinin qarşısını almaq
E) Xəzərlərin Azərbaycana hücumlarına son qoymaq

36. Göstərilənlərin aid olduğu ərazini müəyyən edin.
1. Qaçaq Nəbinin başçılığı ilə qaçaqçılıq hərəkatı baş vermişdi
2. Tiflisdə AXC və Ermənistan tərəfi öz qoşunlarını bölgədən çıxarmaqla bağlı saziş imzalamışdı
3. 1921-ci ilin yayında bir hissəsi sovetləşmiş Ermənistana verilmişdi



A) 1 B) 2 C) 3 D) 4 E) 5

37. İngiltərənin tarixi ilə bağlı hadisələrin məntiqi ardıcıllığını tamamlayın.
1. "Uzunmüddətli parlament"in ləğv edilməsi
2. Oliver Kromvelin lord-protektor elan olunması
3. .....
A) "Şanlı inqilab"ın baş verməsi
B) Hərbi diktatura rejiminin qurulması
C) Stüartlar sülaləsinin hakimiyyətinin başa çatması
D) Katolik təriqətinin yayılmağa başlanması
E) Vətəndaş müharibəsində kral tərəfdarlarının qələbə qazanması


38. Səbəb-nəticə əlaqəsinin doğru verildiyi bəndi müəyyən edin.


	Səbəb	Nəticə
1.	Şirvanşah I İbrahimin Təbrizə daxil olması	Qaraqoyunlu dövlətinin süquta uğraması
2.	Qızılbaşların Çaldıran döyüşündə məğlub olması	Şeyx Heydərin öldürülməsi
3.	Uzun Həsənin Osmanlı əleyhinə Venesiya ilə hərbi ittifaqa daxil olması	Ağqoyunlu qoşunlarının Otluqbeli döyüşündə qələbə qazanması
4.	Şəki hakimliyinin müstəqilliyinə son qoyulması	Bütün Azərbaycan torpaqlarının vahid dövlətin tərkibində birləşdirilməsi
5.	Şirvanşahlar dövlətində əhalinin üsyana qalxması	Kəsranilər sülaləsinin hakimiyyətinin başa çatması

A) 4, 5 B) 1, 2 C) 3, 5 D) 1, 3 E) 2, 4

39. Daha əvvəl baş vermişdir:
A) Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının ləğv olunması
B) Azərbaycan SSR-in ilk Konstitusiyasının qəbul edilməsi
C) S.C. Pişəvərinin başçılığı ilə Milli hökumətin yaradılması
D) Şərur-Dərələyəzin erməni daşnak hökumətinə verilməsi
E) Mir Cəfər Bağırovun AK(b)P-nin Birinci katibi vəzifəsinə təyin edilməsi

40. Müasir xəritədə A və B ilə işarələnmiş dövlətlərin XVI əsr tarixinə aid xüsusiyyətlərinin Venn diaqramına əsasən uyğunluğunu müəyyən edin.





a. Tüdorlar sülaləsi tərəfindən idarə olunması
b. Reformasiya hərəkatının baş verməsi
c. Otuzillik müharibədə iştirak etməsi
d. Auqsburq sülhünün imzalanması
e. Feodal dağınıqlıq vəziyyətində olması

A) 1-c; 2-a, e; 3-d B) 1-a; 2-c, d; 3-b
C) 1-b; 2-a, c; 3-e D) 1-d; 2-b, e; 3-a
E) 1-a; 2-d, e; 3-b

41. Göstərilənlər səbəbidir:
1. Xəzərdə baş verən tufan nəticəsində rus gəmilərinin əksəriyyətinin dənizdə batması
2. İsveçin yenidən Rusiyaya qarşı müharibəyə başlamaq istəməsi
3. Osmanlı sarayının kəskin etirazı
A) Hacı Davudun Şamaxıda rus tacirlərini qarət etməsinə imkanın yaranmasının
B) I Pyotrun yürüşünü dayandırıb geri qayıtmasının
C) Rusiyanın bütün Xəzəryanı torpaqlarını Səfəvi dövlətinə qaytarmasının
D) Moskva çarının Şah II Abbasla münasibətləri dinc yolla həll etməyə məcbur qalmasının
E) Stepan Razinin başçılıq etdiyi rus kazaklarının Azərbaycanı tərk etməsinin

42. Uyğunluğu müəyyən edin.

Cənubi Azərbaycanda milli-demokratik hərəkat

1. Ş.M. Xiyabani	2. S.C. Pişəvəri
a. Azərbaycan adının "Azadıstan"la əvəz olunması b. Təbriz Universitetinin təsis edilməsi c. Möhtəkirlik və aclıqla mübarizə məqsədilə bəzi qurumların yaradılması	a. Qacarlar dövlətinin tərkibində Cənubi Azərbaycana muxtariyyət verilməsi uğrunda mübarizə aparması b. Milli hökumətin yaradılması c. Torpaqsız kəndlilərin torpaqla təmin edilməsi

A) 1-a, c; 2-b, c B) 1-a, b; 2-a, c
C) 1-b, c; 2-a, c D) 1-b, c; 2-a
E) 1-a, b; 2-b, c

GÜVƏN NƏŞRLƏRİ

43. Osmanlı sultanları üçün ortaq cəhəti müəyyən edin.
1. Sultan I Süleyman
2. Sultan III Əhməd
3. Sultan I Mahmud

A) Balkan yarımadasında bir sıra ərazilərin ələ keçirilməsi
B) Osmanlı dövlətində geriləmə dövrünün hökm sürməsi
C) Avstriyaya qarşı müharibə aparılması
D) Misir Məmlük sultanlığı ilə dostluq əlaqələrinin saxlanılması
E) Rus qoşunları üzərində qələbə qazanılması

44. .... Tezliklə gənc Səfəvi şeyxinin döyüşçülərinin sayı 7 minə çatdı. İsmayıl, bu qoşunla Şirvana yürüş etdi. 1500-cü ilin payızında Gülüstan qalası yaxınlığındakı Cabanı adlı yerdə baş verən döyüş zamanı Şirvan şahı Fərrux Yasarın qoşunu məğlubiyyətə uğradıldı. Şirvan şahı özü də döyüşdə həlak oldu.


*Haqqında bəhs edilən yürüşdən **fərqli** olaraq, Şah I Təhmasibin Şirvana yürüşü nəticəsində:*

1. Paytaxt Şamaxı şəhəri qızılbaşlar tərəfindən talan olundu
2. Dərbəndilər sülaləsinin hakimiyyətinə son qoyuldu
3. Şirvanşahlar dövləti qəti şəkildə Səfəvi imperatorluğuna birləşdirildi
4. Səfəvi hökmdarı qardaşı Əlqas Mirzəni Şirvan şahı təyin etdi

A) 1, 2 B) 2, 3 C) 3, 4 D) 2, 4 E) 1, 3

45. Boyalı qablar mədəniyyəti üçün səciyyəvidir:
A) Əhalinin oturaq həyata keçməsi
B) Qəbilənin həyatında qadının mühüm rol oynaması
C) İnsanların saxsı qablar hazırlamağa başlaması
D) Sənətkarlığın müstəqil sahəyə çevrilməsi
E) Toxa əkinçiliyin yaranması

46. Uyğunluğu müəyyən edin.




a. Kirmanşah sülhünə əsasən, Səfəvilərin hakimiyyəti altında qaldı
b. Çuxursəəd bəylərbəyliyinin mərkəzi hesab olunurdu
c. Rusiya ilə Səfəvi dövlətləri arasında müqavilə imzalanmışdı
d. Əhalisi Nadir xan tərəfindən Ağsu adlanan əraziyə köçürüldü
e. Osmanlıların himayəsi altında yarımmüstəqil xanlıq elan edilmişdi

A) 1-d; 2-b; 3-a, e
B) 1-c; 2-a, e; 3-d
C) 1-a; 2-e; 3-b, c
D) 1-e; 2-a; 3-b, d
E) 1-b; 2-c; 3-d, e

47. I Göytürk xaqanlığından ***fərqli*** olaraq, Ərəb xilafəti:
A) Bizans ərazilərinə uğrulu hücum təşkil etmişdi
B) Xəzər xaqanlığı ilə mübarizə aparmışdı
C) Çini asılı hala salmışdı
D) Sasaniləri məğlubiyyətə uğratmışdı
E) Mərkəzi Asiyanı ələ keçirmişdi

48. XX əsrin əvvəllərində Azərbaycanın mədəniyyət sahəsinə aiddir:
A) "Əkinçi" qəzetinin ilk nömrəsinin çap olunması
B) H.Z. Tağıyevin teatr binası inşa etdirməsi
C) İlk milli operanın əsasının qoyulması
D) Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsinin fəaliyyətə başlaması
E) Şuşada ilk qəza məktəbinin açılması

49. Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin.



a. Bayandurlu sülaləsinin hökmranlıq etməsi
b. Səfəvilərin məğlubiyyətə uğradılması
c. Cəlairilərdən asılılığın qəbul edilməsi
d. Teymuri qoşunları üzərində qələbə qazanılması
e. Herat müqaviləsinin imzalanması

A) 1-c; 2-a; 3-e; 4-b, d
B) 1-b; 2-c; 3-d; 4-a, e
C) 1-a; 2-d; 3-b, e; 4-c
D) 1-c; 2-e; 3-a; 4-b, d
E) 1-c; 2-a, e; 3-d; 4-b

50. Fələstin və Suriyanı fəth etmişdilər:
A) romalılar, qəznəlilər, yunanlar
B) səlcuqlar, hunlar, uyğurlar
C) misirlilər, makedoniyalılar, ərəblər
D) ərəblər, xəzərlər, şeybanilər
E) osmanlılar, çinlilər, monqollar

51. Çıldır gölü yaxınlığında baş vermiş döyüş nəticəsində:
1. Osmanlı-Krım qüvvələri məğlubiyyətə uğradı
2. Səfəvilər Şərqi Gürcüstanı itirdi
3. Osmanlı qoşunları Şirvana daxil oldu
4. Həmzə Mirzə osmanlılarla vuruşmada həlak oldu

A) 1, 2 B) 2, 3 C) 3, 4 D) 2, 4 E) 1, 3

52. Qədim Manna dövlətində:
1. Zikertu, daha sonra bir neçə vilayət Mannadan ayrıldı
2. Şuandahul və Durdukka şəhərləri üsyana başladı

Verilən hər iki cəhət göstərir:
A) Azanın Uauş döyüşündə öldürülməsini
B) İskit ağalığının hökm sürməsini
C) Əhalinin Ullusununun siyasətindən narazı qalmasını
D) Assur ilə ittifaqın tərəfdarlarının üsyana qalxmasını
E) Urartu meyilli qüvvələrin fəallaşmasını

53. Xronoloji ardıcıllığı müəyyən edin.
1. Vestfaliya sülhünün imzalanması
2. Xristian kilsəsinin Qərb və Şərq kilsələrinə parçalanması
3. Tomas Münserin başçılığı ilə kəndli müharibəsinin baş verməsi
4. Hindistana dəniz yolunun kəşf olunması

54. AXC-nin süqutunun səbəbləri:
1. Osmanlı qoşunlarının Azərbaycan torpaqlarını tərk etməsi
2. Qarabağda ermənilərin qiyam qaldırmaları
3. Ölkədə siyasi böhranın daha da dərinləşməsi
4. XI Qırmızı Ordunun Azərbaycan hüdudlarına daxil olması
5. Xəzərdə AXC-nin hərbi donanmasının yoxluğu

55. Terek çayı sahilində baş vermiş döyüşdən sonra yaranmış siyasi vəziyyətə aid ***deyil:***
1. Moskva knyazlığının yüksəlişinə şərait yarandı
2. Cuci nəslindən olan xanların hökmranlığına son qoyuldu
3. Moskva knyazlığı Əmir Teymurun hakimiyyətini qəbul etdi
4. Qızıl Ordu dövləti parçalanmağa başlamışdı

56. Səlcuq və Səfəvi dövlətləri arasında oxşar cəhət:
1. Mərv qurultayının keçirilməsi
2. Paytaxtın İsfahana köçürülməsi
3. Amudəryadan Fərat çayına qədər ərazilərin birləşdirilməsi
4. Xorasan uğrunda mübarizə aparılması
5. Azərbaycanın cənub torpaqlarında əsasının qoyulması

57. Uyğunluğu müəyyən edin.
1. Nabur müqaviləsi
2. Peterburq müqaviləsi
3. Rəşt müqaviləsi
a. Rusiya Səfəvilərə əfqanlarla müharibədə kömək edəcəyini vəd edirdi
b. Müqaviləni Osmanlı hökuməti təsdiq etmədi
c. Azərbaycanda Rusiya və Osmanlı dövlətləri arasında sərhədi müəyyən etmək üçün bağlanmışdı
d. Səfəvi elçisi şahın razılığı olmadan imzalamışdı
e. Rusiya Kür çayından cənubdakı Xəzərsahili vilayətlərdən geri çəkildi

ƏDƏBİYYAT

Mövzular üçün | Video həllər üçün | Cavablar üçün

Sizə təqdim olunmuş mənbəni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları cavab kağızında yerinə yetirin.

İngiltərəni bürümüş taun kənddəki ziddiyyətləri daha da kəskinləşdirdi. İnsanların xatirində "qara ölüm" kimi qalmış taun ölkə əhalisinin dörddə birindən çoxunu, başlıca olaraq zəhmətkeş təbəqələrdən olan adamları tələf etdi. İşçi qüvvəsinə tələbat artdı. Əmək haqqı da kəskin surətdə artdı. Hakimiyyət torpağı və başqa dolanışığı olmayan 12 yaşdan 60 yaşadək hər iki cinsdən olan bütün adamları aşağı əməkhaqqı ilə işləməyə məcbur edən qanun verdi. İşdən boyun qaçıranlar ağır cəzalara məhkum olunurdular. Nisbətən yuxarı əmək haqqı barədə razılığa gəlmiş sahibkarlar və işçilər cəzalandırılırdı..... Qanunların qadağan etməsinə baxmayaraq əhali əmək haqqının artırılması uğrunda mübarizə aparırdılar. XIV əsrin ikinci yarısında ingilis kəndliləri kortəbii çıxışlardan daha kütləvi və mütəşəkkil hərəkatlara keçdilər.

58. Mənbəyə əsasən, hakimiyyət ağır iqtisadi vəziyyətdən çıxmaq məqsədilə hansı tədbirlər həyata keçirilmişdir? (ən azı iki tədbir)

59. Mənbəyə və tarixi biliklərinizə əsasən, bəhs olunan dövrdə insan ölümünün ağır iqtisadi nəticələrindən üçünü qeyd edin.

60. Mənbənin sonunda haqqında bəhs olunan kəndli çıxışları içərisində ən məşhurunun adını yazın.

61. M.F.Axundzadənin "Aldanmış kəvakib" əsərindən seçilmiş hadisələrin ardıcıllığına uyğun gələn cümlələri müəyyənləşdirin.

Axund Səməd münəccimbaşı ilə ədavətə görə onu aradan götürməyə çalışır.
.....
Saray əyanları Yusif Sərracın dükanına gəlirlər.
.....
Vəzir, müstövfi, sərdar və mollabaşı həbs olunurlar.

1. Xacə Mübarək bildiklərini Yusif Sərraca danışır.
2. İşini yaxşı görməyən məmurlar işdən qovulurlar.
3. Vəzir dövlət üçün "xidmətlərini" sadalayır.
4. Şah Abbas inandığı adamları çağırtdırır.
5. Şah Abbas saraydakılarla vidalaşır.

A) 2, 4 B) 4, 1 C) 3, 5 D) 3, 2 E) 5, 1

62. C.Məmmədquluzadənin "Qurbanəli bəy" əsəri ilə bağlı cədvəldəki doğru fikirləri müəyyənləşdirin. (Tam cavabı seçin)

Məclisə gəlişi intizarla gözlənilir.	1. Qurbanəli bəy 2. Naçalnik
Qurbanəli bəy tərəfindən tərifləndir.	3. Əli 4. Əvvəlki pristavlardan biri
Bir epizodda Qurbanəli bəyi fikrindən daşındırmağa çalışır.	5. Qurbanəli bəyin xanımı 6. Pristavın xanımı

A) 2, 3, 4, 6 B) 1, 5, 6 C) 2, 4, 5, 6
D) 2, 3, 4 E) 1, 3, 5, 6

63. Hansı sənətkarın bədii irsinə aid əsər ***yoxdur?***
1. "Mişkatül-ənvar"
2. "Rəşid bəy və Səadət xanım"
3. "Badi-səba, mənim dərdi-dilimi"
4. "Xudahafiz"

A) X.Natəvan B) Q.Zakir C) A.Bakıxanov
D) İ.Qutqaşınlı E) S.Nigari

64. "Həmzənin Qıratı qaçırması" qolu ("Koroğlu" dastanı) ilə bağlı fikirlərdən hansılar doğrudur?

1. Koroğluya müraciətlə: "Təzə sövdəgər olubsan. Bu sövdan mübarək olsun", – deyən Eyvaz kinayə ilə onun dəyirmanda aldadılmasına işarə edirdi.

2. Koroğlu Qıratı xilas edib Çənlibelə qayıdandan sonra dəlilərlə barışa bilir.

3. Hasan paşa xotkarın məclisində Koroğlunu ələ keçirməyin çətinliyini etiraf edir.

4. Dona xanım Həmzənin Qıratı gətirməsini oğurluq kimi qiymətləndirir. Həmzəyə irad tutur.

5. Həmzənin təklifi ilə Koroğlu qoşun onun yolunu kəsmədən Toqatdan çıxa bilir.

A) 2, 5 B) 3, 4 C) 1, 4 D) 2, 3 E) 1, 5

65. Verilənlərdən biri Aşıq Ələsgərin "Dağlar" qoşmalarında müəllifin dağlara münasibətini göstərən fikir ola ***bilməz:***

A) Dağlar insanlardan fərqli deyil, onlarla vəhdətdədir.

B) Dağlar insanların arasında fərq qoymur, hamıya eyni yanaşır.

C) Fəsillərin dəyişməsi dağların fərqli görünməsinə səbəb olur.

D) İnsanların dağları sevməməsi onların əzəmətinə təsir etmir.

E) Dağlardan ayrı düşmək kədər hissinə səbəb olur.

66. Hansı fikir M.Füzulinin "Söz" qəzəli üçün doğru, "Məni candan usandırdı..." qəzəli üçün ***yanlışdır?***

A) Daxili qafiyədən istifadə yolu ilə şeirin təsir gücü artırılmışdır.

B) Hər beytin sonunda rədifə yer verilmişdir.

C) Lirik qəhrəmanın hiss və həyəcanları təsirli dillə diqqətə çatdırılmışdır.


D) Uzun və qısa hecaların növbələşməsinə yer verilmişdir.

E) *"Söz vaxtına çəkər"* atalar sözü əsərin ideyası kimi götürülmüşdür.

67. Adları çəkilən əsərlərin müqayisəsi ilə bağlı diaqramda hansı fikirlərin yeri doğrudur?

I – "Pəhləvanani-zəmanə" (N.Vəzirov)

II – "Mürafiə vəkillərinin hekayəti" (M.F.Axundzadə)



1. Neft mövzusunda yazılmışdır.
2. Aid olduğu ədəbi növdə müəllifinin ilk əsəridir.
3. Cadugərlik geriliyin əlaməti kimi tənqid olunmuşdur.
4. Dramatik növdə yazılmışdır.
5. Təhkiyədən istifadə olunmuşdur.
6. Mövzusu kənd həyatından götürülmüşdür.

A) 3, 6 B) 1, 4 C) 2, 5 D) 1, 3 E) 4, 5

68. Ə.Haqverdiyevin "Bomba" əsəri ilə bağlı doğru fikirləri müəyyənləşdirin.

1. Kərbalayı Zal – Həyat yoldaşının peşəsi ilə bağlı fikirlərini ciddi qəbul edir.
2. Pristav – Kərbəlayı Zalın bacarıqlı işçi olduğuna şübhə ilə yanaşır.
3. Usta Feyzulla – Təqsirinin üzə çıxacağından qorxub narahat olur.
4. Kərbalayı Zalın həyat yoldaşı – Kərbalayı Zala gecikmədən gecə qarovula çıxmağı təklif edir.

A) yalnız 2 B) 1 və 4 C) 2 və 3
D) yalnız 4 E) 1 və 3

69. Hansı fikir C.Məmmədquluzadənin "Anamın kitabı" əsəri əsasında hazırlanmış cədvəlin heç bir xanasına yazıla ***bilməz?***

Hadisənin səbəbi	?
Hadisə	Senzor qardaşları yoxlamaq üçün gəlir.
Hadisənin nəticəsi	?

A) Rüstəm bəy mənasız işlərlə məşğul olduqlarını etiraf edir.

B) Qardaşların xalqı oyatmaq üçün mətbuat vasitəsilə fəaliyyət göstərdikləri güman olunurdu.

C) Qardaşlara məxsus bütün kitablara baxış keçirilir.

D) Qardaşlar "Cəmiyyəti-xeyriyyə"nin fəaliyyətində iştirak edirdilər.

E) Hökumətə qardaşların ölkədə yaranan firqələrin amalı uğrunda çalışmaları barədə məlumat verilmişdi.

70. N.Vəzirovun "Müsibəti-Fəxrəddin" əsərindən seçilən hissənin məzmununa əsasən hansı hadisənin baş verəcəyini əvvəlcədən söyləmək mümkündür?

Qurtardın, ağa, dünyanın qiylü-qalından. ...Səndən sonra mən bu evə üz döndərmərəm, qanına əvəz eləyib baş götürüb gedərəm, and olsun sənin bu canına! ...(Üzündən öpüb) Özümü sənə qurban dedim, indi get qəbirdə rahat yat, qanına qan elərəm, qorxma! (Gedə-gedə) Ağa, mehriban ağa, rəhmli ağa, nakam ağa!..

1. Rüstəm bəyin yenə qanlı əməl planlaşdıracağını
2. Şahmar bəyin basqına gələnləri silahla qarşılayacağını
3. Qisas hissi ilə yenə qan axıdılacağını
4. Cahangir bəyin Fəxrəddinin evinə basqın edəcəyini

A) 1, 4 B) yalnız 2 C) 1, 3
D) 2, 4 E) yalnız 3

71. Nümunə ilə bağlı fikirlərdən hansı ***səhvdir?***

Ələsgər kəsilib səbrü aramdan,
Oxlayıbsan, qanlar axır yaramdan.
Sövdə qıl haqq ilə, əl çək haramdan,
Halaldan mətləbin al, qoca baxtım.
(Aşıq Ələsgər)

A) Hecaların sayına əsasən şeirin qoşma janrında olduğunu söyləmək mümkündür.
B) Müəllif adının çəkilməsi sonuncu bənd olduğunu göstərir.
C) Qafiyə quruluşu neçənci bənd olduğuna qərar verməyə kömək edir.
D) Nümunənin ölçüsü onun heca vəznində olduğunu demək üçün əsas verir.
E) İkinci və dördüncü misraların qafiyələnməməsi ilk bənd olmadığını göstərir.

72. M.F.Axundzadənin "Hekayəti-müsyö Jordan və dərviş Məstəli şah" əsərindən seçilmiş hansı surətlər Şahbazın Parisə getmək məsələsinə fikir ***bildirmirlər?***

1. Hatəmxan ağa 2. Şərəfnisə 3. Gülçöhrə
4. Müsyö Jordan 5. Xanpəri

A) 3, 5 B) 2, 4 C) 1, 4 D) 2, 5 E) 1, 3

73. Verilənlərdən biri Ə.Xaqaninin "Gənclərə nəsihət" əsərində toxunulan mövzular və əsərdə onlara aid edilmiş fikirlər sırasında göstərilə ***bilməz:***

A) Dostluq – Dostu qovanlarla dostluq qurmaq olmaz.
B) Uğur – İnsan uğur qazananda həyatı müsbətə doğru dəyişir.
C) Nəvaziş – Kiçik bir adama edilən nəvaziş insanın böyüklüyünə təsir etməz.
D) Pislik – Pis adamlar əqrəbtək kor, ilantək lal, kar olurlar.
E) Fitnə – Fitnə elləri dərdlərə salır.

74. Nümunədə hansı bədii təsvir və ifadə vasitələri işlənmişdir?

Daha kövrəlməyin yox ki mənası
Ömürlər rəngbərəng saplar yumağı.
Tale naxış vurub... hanı hanası?
Biz kimdən öyrənək bəxt toxumağı?
(T.Pənahqızı)

1. epitet 2. təşbeh 3. metafor
4. bədii sual 5. bədii təzad 6. inversiya

A) 1, 3, 5 B) 1, 3, 4, 6 C) 2, 5, 6
D) 2, 3, 4, 6 E) 2, 4, 5

75. Fikirlərdən hansı heç bir halda çarpaz qafiyələnən bir bəndə aid edilə ***bilməz?***

A) Daxili bölgü 6-5 şəklindədir.
B) İki misrada təkrarlanan rədifi var.
C) Həm bədii təsvir, həm də bədii ifadə vasitələrindən istifadə olunmuşdur.
D) Təbiət gözəllikləri tərənnüm olunmuşdur.
E) Alt-alta gələn, bir-biri ilə qafiyələnən misralar var.

76. C.Məmmədquluzadənin yaradıcılığı ilə bağlı fikirlərdən hansılar doğrudur?

1. Yaradıcılığa nəzmlə əsər yazmaqla başlasa da, sonrakı mərhələdə nəsrlə yazmışdır.
2. Məhəmmədhəsən əmi, Novruzəli, Zeynəb epik əsərlərində iştirak edən surətlərdir.
3. Əqidə, əməl, əxlaq dünyasının təhlilinə yer verdiyi "Ər" əsəri dramatik növdədir.
4. Dramatik əsərlərini, əsasən, nəzmlə yazmışdır.
5. Publisistik əsərlərində beynəlxalq məsələlərə toxunmuşdur.

A) 1, 3, 5 B) 2, 3, 4 C) 1, 2, 5
D) 3, 4, 5 E) 1, 2, 4

77. S.Ə.Şirvaninin "Guş qıl..." müxəmməsindən seçilmiş hissədə hansı fikirlər vurğulanmışdır?

Ziri-qəm olma, eşit nəğmeyi-zilü bəmini,
Çəkmə aqilsən əgər, dəhri-müxalif qəmini,
Şurə gəl, nəğmə ilə çək qəmi-dünyayə həsar.

1. Musiqini anlamayan insan daşa bərabərdir.
2. Ağıllı insan dünya qəmini çəkməməlidir.
3. Musiqi haqqında mənfi düşüncədə olanların sözləri böhtandır.
4. Musiqi ilə dünya dərdlərinin qarşısına hasar çəkmək lazımdır.
5. Musiqini duymaq üçün qəflət pambığını çıxarmaq lazımdır.

A) 1, 3 B) 2, 5 C) 1, 4 D) 3, 5 E) 2, 4

78. A.Şaiqin "Anabacı" əsərinin iştirakçısı Anabacı digər surətlərlə müqayisə olunmuşdur. Hansı bənddə verilmiş ortaq fikir doğrudur?
A) Rüstəm bəy (N.Vəzirov. "Müsibəti-Fəxrəddin") – Övladlarının qərara etiraz etməsinə görə hiddətlənirlər.
B) Zəhrabəyim (C.Məmmədquluzadə. "Anamın kitabı") – Daxili dünyalarının böyüklüyü, analıq hissi ilə diqqət çəkirlər.
C) Leylinin anası (M.Füzuli. "Leyli və Məcnun") – Övladının davranışlarına görə narahatlıq yaşamalarına yer verilmişdir.
D) Şah (A.Bakıxanov. "Hikmətin fəziləti") – Haqsız qərar vermək ehtimalına görə narahatdırlar.
E) Burla xatun ("Kitabi-Dədə Qorqud" eposu) – Oğul, yoxsa ləyaqət seçimi ilə üzləşirlər.

79. Verilənlərdən hansı Qazan xanla oğlu Uruzun ("Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy") söhbətində ***vurğulanmır?***
A) Oğul ata qeyrəti üçün qılınc qurşanar.
B) Oğul hünəri atadan öyrənər.
C) Çöllük yerdə yoldaşı qoyub qaçan cəzasız qalmamalıdır.
D) Ata oğul üçün ölsə, eyibdir.
E) Yağı ona deyilir ki, bizə yetsələr, öldürərlər.

80. Toponimik əfsanələrdə nədən bəhs olunur?
A) heyvan, quş adlarının yaranmasından
B) tarixi şəxsiyyətlərdən
C) yer adlarından, onların mənşəyindən
D) tayfa, nəsil adlarından
E) səma cisimlərinin adlarından

81. Hansı xüsusiyyəti daşıyan surət M.F.Axundzadənin "Hekayəti-müsyö Jordan və dərviş Məstəli şah" əsərinin iştirakçıları sırasında göstərilə ***bilməz?***
A) İnkişafa meyilli gənclərə dəstək olmağa çalışır.
B) Hadisənin digər tərəflərini düşünüb fikrini dəyişir.
C) Müsyö Jordanın yaxşı insan olduğunu deyib onu qorumağa çalışır.
D) Parisin cadunun gücü ilə yıxılacağına inanmaq istəmir.
E) Dil bilməklə ağlın artmadığını iddia edir.

82. Nöqtələrin yerinə hansı surətin adı yazılmalıdır?
Maarifçi realistlər yeni həyat tərzi uğrunda mübarizə aparır, elmi təbliğ edirlər. Maarifçi müəlliflər surətin xarakterində müşahidə olunan mənfi xüsusiyyətləri onun təhsil almaması, təhsildən uzaq düşməsi ilə əlaqələndirirlər. Bu yanaşmanı S.S.Axundovun "Nurəddin" əsərində ..... surətində müşahidə etmək mümkündür.
A) Əmiraslan B) Bahar C) İmamverdi
D) Cənnətəli E) Rəhim

83. Verilmiş ədəbi hadisələrin aid olduğu ədəbi dövrlərin ardıcıllığını müəyyənləşdirin.
İlk dəfə olaraq milli vəzn ədəbiyyatımızda aparıcı vəznə çevrilir.
Mətbuat orqanı ədəbi məktəb yaratmağa nail olur.
Ədəbiyyatımızda ilk povest qələmə alınır.
Həm heca, həm də əruz vəznində yazan ilk müəlliflər yetişir.
1. Erkən yeni dövr Azərbaycan ədəbiyyatı
2. Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm dövrü
3. Orta əsrlər Azərbaycan ədəbiyyatı
4. Azərbaycan ədəbiyyatında maarifçi-realizm dövrü

84. Q.Zakirin "Durnalar" qoşmasından seçilmiş bəndlə bağlı fikirlərdən hansılar doğrudur?
Mən sevmişəm onun ala gözünü,
Nəsib ola, bir də görəm üzünü,
Yoxsa danışırsız dilbər sözünü,
Veribsiniz nə baş-başa, durnalar?
1. Şeirdə vətən sevgisinə yer verilmiş yeganə bənddir.
2. Lirik qəhrəman durnalara haqlı irad bildirir, narazılığını bildirir.
3. Lirik qəhrəman ümid bəslədiyi bir məsələni dilə gətirir.
4. Müəllif yarının onu yada salmadığını deyib ondan gileylənir.
5. Lirik qəhrəmanın həsrət çəkdiyi müşahidə olunur.

85. Cədvəldəki ***səhvləri*** müəyyənləşdirin.

İrəli sürülən təklif	Təklifi edən surət / Əsər	Razılaşır	Qarşı çıxır
Ova çıxmaq	Qazan xan ("Salur Qazanın evinin yağmalandığı boy" boyu)	1. Dəli Dondaz	2. Aruz
Gülpəri ilə evlənmək	Əmiraslan (S.S.Axundov. "Nurəddin")	3. Nurəddin	4. İmamverdi
Müvəqqəti şah seçmək	Mövlana Cəmaləddin (M.F.Axundzadə. "Aldanmış kəvakib")	5. Şah Abbas	6. Axund Səməd

86. Nümunədə hansı bədii təsvir və ifadə vasitələri işlənmişdir?

Körpə yatır...
Yatır, bəlkə yer üzünün
ən üsyankar cahangiri,
ya da ən dinc bir körpəsi.
(S.Sərxanlı)

1. təkrir
2. metafor
3. metafor
4. simvol
5. bədii təzad
6. inversiya

87. C.Məmmədquluzadənin "Qurbanəli bəy" əsərindən seçilmiş hissələrlə bağlı uyğunluğu müəyyənləşdirin.

1. Mən ha deyirəm ki, bizim Əli bişirən plovu heç kəs bişirə bilməz, bunlar inanmırlar.
2. Qonaqlar da bir-bir gəlib bəyə diqqət ilə baxdılar və çəkilib durdular kənarda. Qurbanəli bəy yerindən heç tərpəşmədi.
3. Tulaların biri qaçıb gəldi Qurbanəli bəyin qabağına və başladı bəyin ayaqlarını yalamağa. Bəy əyilib itin başını tumarladı...

a. Əsərdəki əsas hadisələrə keçid almadan əvvəl baş verir.
b. Qarşı tərəf fikrin doğru olduğunu təsdiqləyir.
c. Bu hadisədən sonra Qurbanəli bəyin evinə getmək təklif olunur.
d. Hadisələrin inkişafında ciddi rol oynamayan epizoddur.
e. Süjetin sonuncu mərhələsində baş verən hadisədir.

88-90-cı sualları mətnə əsasən cavablandırın.

Təbiətin qoynunda

Dağlara, meşələrə, çəmənlərə, çöllərə ilk bahar gəlirdi. Hər şey qış libasını çıxarıb yaşıl don geyinmişdi. Ağaclar yaşıllaşır, düzənliklər çiçəklənir, dağların qarı əriyir, çaylar daşır, torpaqdan, havadan xoş, məstedici bahar iyi gəlirdi.


Budur, çox da hündür olmayan Talış dağlarının başından ağ duman üzüaşağı yayılır, zümrüd meşənin üstünə, düzənliyin üzərinə ağ örtük kimi sərilirdi. Hava elə xoş, elə təmiz idi ki, mən nəfəs aldığımı belə hiss etmirdim. Bayaqdan ürəyi bulud kimi dolmuş olan mən indi ətrafa baxdıqca hər şeyi unudurdum.

Bir azdan qalın duman təbəqəsi yox oldu. Günəş göründü. Otların, çiçəklərin üzərindəki şeh damcıları parıldamağa başladı.

Mən otların üzərində yeriyirdim. Nazik, tər yarpaqların üzərinə cərgə ilə düzülmüş bu şeh dənələrini öz kobud addımlarımla bir anda pozub dağıdacağıma, məhv edəcəyimə sanki hayıfım gəlirdi. Axı onsuz da onların ömrü azdır, bir az sonra günəş qızacaq, qızmar istisi ilə onları udacaq, çiçəklərin göz yaşlarını qurudacaqdı.

(Əlibala Hacızadə)

88. Diaqramın orta xanasında verilmiş məlumata əsasən müqayisə olunan əsəri müəyyənləşdirin və həmin əsərlə mətnin məzmunu üçün ortaq olan daha iki fikir qeyd edin.



Əsərin adı: _____
Əlavə ortaq xüsusiyyətlər:
1. _____
2. _____

89. Mətnə əsasən cədvəli doldurun. (İkinci abzasda fərqli təsvir vasitələri işlənmişdir)

Abzas	İşlənmiş bədii təsvir vasitələri	Mətndən seçilmiş nümunə
I		
II		

90. Doğru hesab etdiyiniz fikri seçin və əsaslandırın.

□ *Mətni povest janrından götürülmüş bir hissə kimi düşünmək mümkündür.*
□ *Süjetin mərhələləri, xüsusilə zavyazka və kulminasiya aydın seçilir.*
□ *Əsas və epizodik surətlərə yer verilmişdir.*

_____

SINAQ 7

AZƏRBAYCAN DİLİ

Mövzular üçün | Video həllər üçün | Cavablar üçün

1. Nümunələrə və müqayisə cədvəlinə əsasən uyğun fikirləri müəyyən edin.

I *İlk baharın yeni həyatverici günəşi özünün ilıq və munis şüasını ətrafa saçmaqla qışın soyuq havasına qələbə çalmaqda idi.*

II *Yenə də Əşrəf onu əhatə edən təhdidlərdən, arasıkəsilməyən təqiblərdən uçunurdu.*

Birinci nümunəyə aid doğru fikirdir.	İkinci nümunəyə aid doğru fikirdir.
1. Bir-biri ilə müqayisəbətdə antonim olan sözlər işlənmişdir. 2. Sözlərdən birində uzun tələffüz olunan sait işlənmişdir.	3. *Titrəmək, əsmək, çırpınmaq* sözlərinin sinonimi işlənmişdir. 4. Sözlərdən birində səsdüşümü baş vermişdir.
Hər iki nümunəyə aid doğru fikirdir.	
5. Sözlərdən birində səsartımı baş vermişdir. 6. Məcazi mənalı söz işlənmişdir.	

A) 1, 3, 6 B) 2, 4, 5 C) 1, 3, 5
D) 2, 4, 6 E) 1, 4, 6

2. Hansı cərgədə verilmiş sözlərin hamısı düzgün yazılmışdır?
A) tamoqrafiya, vestibül, separat
B) təxliyyə, yeknəsəq, sillagizm
C) təsginlik, yetərsay, sinə-dəftər
D) triqonometriya, uvertüra, üzükvari
E) təşgilat, vəsatət, solaxay

3. Müqayisə cədvəlinə əsasən hansı rəqəmlərin yeri dəyişilsə, uyğunluq bərpa olunar?

Publisistik üslub	Bədii üslub
1. Ədəbi dilin normalarına riayət olunması tələb olunur. 2. Aydınlığa, kütləvi anlaşıqlığa, təsirliliyə xüsusi diqqət yetirilir.	3. Obrazlı nitq forması olub, nəsr və nəzm şəklində təzahür edir. 4. Funksional üslublar sisteminə daxildir.
5. Mücərrəd obrazlılıqdan istifadə olunmur. 6. Ədəbi dil tarixində həmişə aparıcı üslub olmuşdur.	

A) 2-5; 4-6 B) 1-3; 2-5 C) 1-5; 4-6
D) 2-4; 1-5 E) 1-5; 2-3

4. Hansı bənddə həm ismin qeyri-müəyyən təsirlik halında, həm də müəyyən təsirlik halında olan sözlər işlənmişdir?
A) Zaman açılanı neçə soldurur,
Dolunu boşaldır, boşu doldurur. (B.Vahabzadə)
B) Baharı vermişəm, qış qazanmışam,
İlləri vermişəm, yaş qazanmışam. (B.Vahabzadə)
C) Zaman öz yerində dayanaydı kaş,
Özüm də bilmirəm, nədir bu tələş. (B.Vahabzadə)
D) Təklik qorxusunu ürək duydumu,
Hazır ol, qapını döyür qocalıq. (B.Vahabzadə)
E) Dil açanda ilk dəfə ana söyləyərik biz,
"Ana dili" adlanır bizim ilk dərsliyimiz. (B.Vahabzadə)

5. Bəndlərdən birində sifət ***işlənməmişdir***:
A) Qoy məndən dərs alsın qoca təbiət,
O da könlüm kimi gülsün həmişə. (S.Vurğun)
B) Onu ətirli çiçəklər, rayihəli güllər belə qorxudurdu.
C) Tuturlar onları qəfil atəşə,
Gözləyir dost arı qalın bir meşə. (M.Rahi r)
D) Əlimərdan atası kimi təkkəbbürlü, kinli, hörcət olsa da, qoçaq bir dəliqanlıdır.
E) Bu gülüş yamanca dəydi hədəfə,
Dala da baxmadı o, hikkəsindən. (B.Vahabzadə)

6. *"Köhnə paltar geyinmək təzəsini dilənməkdən yaxşıdır"* cümləsindəki sifətlərlə bağlı ortaq xüsusiyyəti müəyyən edin.
A) Hamısı ismə aiddir.
B) Hamısı quruluşca sadədir.
C) Hamısı keyfiyyət bildirir.
D) Hamısı azaltma dərəcəsindədir.
E) Hamısı ismin sualına cavab verir.

GÜVƏN NƏŞRLƏRİ

7. Verilmiş xüsusiyyətlərin hər üçünün aid olduğu cümləni müəyyən edin.
1. Mənsubiyyət şəkilçisi qəbul etdiyinə görə köndəki qapalı saiti düşmüş söz işlənmişdir.
2. Çıxışlıq halda olan sözün səs və hərf tərkibi dəyişir.
3. Həm qeyri-müəyyən yiyəlik halda, həm də müəyyən yiyəlik halda olan isimlər işlənmişdir.

A) Qadınların qışqırtısı bir-birinə qarışdığından ovdan qayıdan Cahandar ağanın həyətdə dayandığını heç kəs görmədi.
B) Rüstəm kişi otaqdan çıxan kimi Pərşan bir uşaq sevinci ilə Mayanın boynunu qucaqladı.
C) Şah qəzəbindən onun boynunu vurdurmaq istədi.
D) Evin səkisi çay daşından olduğu üçün sürüşkən idi.
E) Çexov müxtəsər və qısaca hekayələrdə rus millətinin hər bir sinfinə dair əhvalat yazıb.

8. Nümunələrə və müqayisə cədvəlinə əsasən uyğun fikirləri müəyyən edin.
I *Ceyran sürüsünü çəkdi uzağa,*
Uçuşub bağlara doldu turaclar. (S.Vurğun)
II *Gah olur ki, ovçu könlüm dağlar aşaraq*
Asta gedib, ağır gəzib, ellər dolanır. (S.Vurğun)

I	II
1. Qeyri-müəyyən yiyəlik halda olan isim işlənmişdir. 2. Mənsubiyyət şəkilçili söz eyni zamanda təsirlik hal şəkilçisi də qəbul etmişdir.	3. Qeyri-müəyyən təsirlik halda olan isim işlənmişdir. 4. Sifətin sualına cavab verən isim işlənmişdir.
5. Cəm şəkilçisi qəbul etmiş isimlərdən biri adlıq haldadır.	

A) 2, 3, 4 B) 2, 3, 5 C) 2, 4, 5
D) 1, 2, 3 E) 1, 4, 5

9. Bəndlərdən birində frazeoloji birləşmə ***işlənməmişdir***:
A) İnsan oğlu can verər pərvanətək atəşlərə,
Düz sözün, düz ilqarın, düz etibarın eşqinə. (S.Vurğun)
B) Onun gözəlliyi, incə varlığı
Duyan ürəklərə lərzə salırdı. (S.Vurğun)
C) Əhməd bu uzun müddət içində Bakıda nə kimi bir dəyişiklik vücuda gəldiyini görmək, bilmək istəyirdi.
D) Ailədəki bu qarşılıqlı ehtiram indi artıq ənənə və etiqad halında idi.
E) Ay dənizin üstündə titrəyib sanki gecəyə xəbər verirdi ki, səssizlik də danışa bilir.

10. Hansı cümlədəki fərqləndirilmiş söz numerativ söz ***deyil***?
A) Bir taxıl *dənəsi* itməsin deyə
Gündüzə qarışır gecələrimiz. (B.Vahabzadə)
B) İki *dəst* paltar sənin üçün, bir dəst isə özüm üçün gətirmişəm.
C) Binanın alt mərtəbəsi iki xırdaca gözdən, üstü isə yalnız bir *göz* otaqdan ibarət idi.
D) Bir *damcı* dürr tufanların yaratdığı coşqun sellərdən daha dəyərlidir.
E) Bu qışı çıxarmaq üçün bizə iki *maşın* odun lazımdır.

11. Cədvələ əsasən uyğun bəndi müəyyən edin.

A)	*Kitabı* sözü adlıq haldadırsa, xəbərlik şəkilçisini qəbul edə bilər.	yanlış
B)	*Babaya* sözünün tələffüzü zamanı yönlük hal şəkilçisi fərqli tələffüz olunur.	doğru
C)	*Boyaqçılıq* sözü feildən düzəlmiş düzəltmə isimdir.	doğru
D)	*Mənşə* sözünü mənsubiyyətə görə dəyişdirsək, *"y"* bitişdiricisindən istifadə olunacaq.	yanlış
E)	*[Xalıya]* sözünün yazılışını iki cür düşünmək mümkündür.	doğru

12. Sözlərdən biri mənsubiyyətə görə dəyişərkən bitişdirici samitin işlənməsi baxımından digərlərindən fərqlənir:
A) tale B) mənbə C) mövqe
D) dayı E) mənafe

13. Uyğunluğu müəyyən edin.
Cümlələrdən birindəki say .....
1. ismin xüsusiyyətini qəbul etmişdir.
2. ismin xüsusiyyətini qəbul etmiş sifətə aiddir.
3. öz sualı ilə yanaşı, sifətin *hansı?* sualına da cavab verir.
4. aid olduğu ismin hər zaman cəm şəkilçisi ilə işlənməsini tələb edir.

a. Şamaxı bir çox görkəmli şəxsiyyətlərin vətənidir.
b. Uşaqların çoxu yarışda uğur qazandı.
c. Yüzlərlə qoca həyatdan köçmüş, hekayələri isə yaddaşlarda yaşamışdı.
d. Birincilik uğrunda mübarizə aparan idmançılar əzmkarlıq göstərirdilər.
e. Günün axırıncı şəfəqi uca ağacların başını qızıl rənginə boyamışdı.

A) 1-a; 2-b; 3-c; 4-d B) 1-b,d; 2-c; 3-a; 4-e
C) 1-b; 2-c; 3-e; 4-a D) 1-d; 2-c; 3-b; 4-a
E) 1-b,d; 2-a; 3-e; 4-c

14. Hansı cərgədəki sözlərin tərkibindəki saitlərdən biri uzun tələffüz olunur?
A) zəfəran, bəyanat, dəfinə
B) azmut, bixəbər, fauna
C) bəraət, cürətli, bazarlıq
D) bisavad, cümhuriyyət, xəlifə
E) dəyanət, əriyyət, istiqamət

15. Verilmiş birləşmələrdəki birinci sözün son samitinin tələffüzünə əsasən məntiqi ardıcıllığı tamamlayın.
1. kəpənək uçuşu 2. ərik budağı
3. çürük alma 4. .....
A) ürək ağrısı B) çiçək ətri C) dirrik işi
D) çörək zavodu E) çiyələk almaq

16. Verilmiş nümunə ilə bağlı ***yanlış*** fikri müəyyən edin.
Əsir payız küləyi,
Gecə uzun, gün gödək.
Ağacdan yarpaq düşür
Bir ömrün günləritək. (B.Vahabzadə)
A) Ümumi qrammatik mənasına görə əlamət və ya keyfiyyət bildirən sözlər bir-biri ilə münasibətdə antonimdir.
B) Mənsubiyyət şəkilçisi qəbul etmiş sözlərdən biri ismin cəm şəkilçisini də qəbul etmişdir.
C) Çıxışlıq halda olan isim konkretdir.
D) Əşyanın konkret miqdarını bildirən söz işlənmişdir.
E) Mənsubiyyət şəkilçisi qəbul etdiyi üçün söz kökündəki saitini itirmiş söz işlənmişdir.

17. Özündən əvvəl işarə qoyulmuş sözlər əsasında uyğunluğu müəyyən edin.
İnsanların ▲ sirrini saxlamaq və susmaqla etibar qazanmaq ■ böyüklük əlamətidir. (Sokrat)


	Doğrudur	Yanlışdır
▲	1. Təsirlik hal şəkilçisi qəbul etmiş mücərrəd isimdir.	3. Mənsubiyyət şəkilçisi qəbul etmişdir.
■	2. Adlıq haldadır.	4. Feildən düzəlmiş isimdir. 5. Cəm şəkilçisi qəbul edə bilməyən toplu isimdir.

A) 1, 4, 5 B) 2, 3, 4 C) 1, 3, 5
D) 1, 2, 4 E) 2, 3, 5

18. Sifətlərlə bağlı ***yanlış*** fikri müəyyən edin.
A) Heç də bütün sifətləri müqayisə dərəcələrinə görə dəyişmək mümkün deyil.
B) *Böyük adam* birləşməsindəki sifəti həm əlamət, həm də keyfiyyət bildirən sifət kimi düşünmək mümkündür.
C) *Beşmərtəbəli* sözü say və düzəltmə sifətin birləşməsindən düzəlmiş mürəkkəb sifətdir.
D) *Babam çox qocadır* cümləsindəki sifət ismin sualına cavab verir.
E) *Kimyəvi, dünyəvi, əşyəvi* sözləri sadə sifətlərdir.

19. Bəndlərdən birində numerativ söz kəmiyyət fərqi yaratmışdır:
A) altı baş keçi B) beş maşın odun
C) dörd nəfər uşaq D) iki ədəd qələm
E) üç göz otaq

20. Eyler-Venn diaqramına əsasən düzgün fikirləri müəyyən edin.
I *Qoca bağban qollarını başının altında çarpazlayaraq güllü-çiçəkli dağları seyr etməyə başladı.*
II *Budur, maşın çətin, daşlı-kəsəkli, sürüşkən dağ yoxuşlarını zorla yuxarı qalxır.*



1. İsimdən düzəlmiş düzəltmə isim işlənmişdir.
2. Mənsubiyyət şəkilçisi qəbul etmiş isim adlıq halda deyil.
3. Quruluşca sadə və mürəkkəb sifət var.
4. Mürəkkəb sifətin səs və hərf tərkibi fərqlənir.
5. Feildən düzələn sifət işlənmişdir.
6. Say işlənməmişdir.
A) 1, 3, 4, 5 B) 2, 4, 5, 6 C) 1, 2, 4, 5
D) 1, 3, 5, 6 E) 2, 3, 4, 5

21. Uyğunluğu müəyyən edin.
1. Müəyyən miqdar sayı işlənmişdir.
2. Numerativ sözlərlə işlənə bilən qeyri-müəyyən miqdar sayı işlənmişdir.
3. Aid olduğu ismin həm təkdə, həm də cəmdə işlənə bildiyi say işlənmişdir.
a. Bir taleyin əllərində cütlənmiş zərik,
Yüz il qoşa atılsaq da, qoşa düşmərik.
(M.Araz)
b. On-on iki nəfərdən ibarət dəstə düz onlara sarı gəlirdi.
c. Kəndin qabağındakı meşədə elə bil minlərcə adam səs-səsə verib car çəkirdi.
d. Salman kişi Aqilə çoxlu dəftər, rəngli qələm alacağını vəd etdi.

A) 1-a; 2-b,c; 3-d
B) 1-b; 2-c,d; 3-a
C) 1-a; 2-b; 3-c,d
D) 1-a,d; 2-b; 3-c
E) 1-c; 2-b; 3-a,d

22. Hansı bənddə həm ismin sualına cavab verən sifət, həm də sifətin sualına cavab verən isim işlənmişdir?

A) Ay gümüş dalğalarda
Nazlanır gəmi kimi. (N.Rəfibəyli)

B) Yaralılara qızılı qablarda yemək aparırdılar, çünki onlar bu torpağın ən qiymətli oğulları idi.

C) Ziyafət başlanmamışdı, sanki ziyafətin başlanması üçün möhtərəm bir qonağın intizarı çəkilirdi.

D) Professor Kərimli bugünkü çıxışında çox önəmli məsələlərə toxundu.

E) İndi mühəndis Əsgər şirkətin banisi və böyüyü hesab olunur.

23. Verilmiş cümlələrdəki fərqləndirilmiş sözlərin sinonimlərini ardıcıllıqla düzün.

- Əhvalatı tamam *hərtərəfli* mənə nağıl ediblər.
- Səhəri gün bütün qəzetlər gənc müğənninin bu debütünü *ağızdolusu* tərifləyirdi.
- Cəbhələrdə vuruşan ordu və dənizçilər içərisində də *qarışıqlıq* var.
- Bizim eşqimizdən bir xatirətək
  Bu kiçik *töhfəni* alasan gərək. (B.Vahabzadə)
- Eyvanın tavanı üç böyük *qübbədən* ibarət idi ki, bunların hər birisi beş sütun üzərində qurulmuşdu.

1. xaos
2. ərməğan
3. həvəslə
4. günbəz
5. müfəssəl

24. *"Artıq Şuşa qalasında Zəfər bayrağı dalğalanır"* cümləsində ***işlənməmişdir***:

1. Yalnız qrammatik mənaya malik olan söz
2. Eyni anda həm mənsubiyyət, həm də hal şəkilçisi qəbul etmiş isim
3. Təkdə olan toplu isim
4. Keyfiyyət bildirən sadə sifət
5. Qeyri-müəyyən yiyəlik halda olan xüsusi isim
6. Təsirlik halda olan isim

25. Verilmiş nümunədə ***işlənməmişdir***:

Bürüyür dövrəmi saysız ulduzlar,
Başqa zövq alıram bu gün aləmdən.
Yox, ulduzlar deyil məni bürüyən
Sözlər məclisinin qonağıyam mən!
(S.Vurğun)

1. Frazeoloji birləşmə
2. Qeyri-müəyyən yiyəlik halda olan isim
3. Mürəkkəb isim
4. Səs və hərf tərkibi fərqlənən sifət
5. Çıxışlıq halda olan isim

26. Cədvələ əsasən doğru fikirləri müəyyən edin.

çaydan – döşəküzü		
Hər iki sözə aid xüsusiyyət	Yalnız bir sözə aid xüsusiyyət	Heç bir sözə aid olmayan xüsusiyyət
1. Ümumi qrammatik mənasına görə əşyanın adını bildirir.	3. Sadə, düzəltmə və ya mürəkkəb olduğunu əminliklə demək mümkündür.	5. Mücərrəd isimdir.
2. Mənsubiyyət şəkilçisi işlənmişdir.	4. Tərkibində leksik şəkilçinin işləndiyini əminliklə demək mümkündür.	6. Ümumi isimdir.

27. Uyğunluğu müəyyən edin.

1. elmi üslub
2. rəsmi-işgüzar üslub
3. bədii üslub

a. Nizami Rayon İcra Hakimiyyətinin və 190 saylı körpələr evi-uşaq bağçasının birgə təşkilatçılığı ilə 8 Noyabr – Zəfər Günü münasibətilə "Zəfərimiz Sizinlə!" adlı tədbir keçirilmişdir.

b. Azərbaycan Respublikası onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının hüquqi müdafiəsinə təminat verir və onlara hamilik edir.

c. Bir çox kəndlər qartal yuvası kimi sarp qayaların arasında dünyadan xəbərsiz yaşayırdılar.

d. Udub qızıl bayraq altda onun təmiz havasını, Ürəyimdə yaratmışam bəxtiyarlıq dünyasını. (S.Rüstəm)

e. Şimal istiqaməti ilə verilən istiqamət arasında qalan və saat əqrəbinin hərəkəti üzrə dəyişən bucaq azimut adlanır.

Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları Cavab vərəqində yerinə yetirin.

Aristotel

Aristotel qədim yunan filosofudur. Şərq ölkələrində və Azərbaycanda Ərəstun adı ilə də tanınır. Gənc yaşlarında ailəsini **itirən** Aristotel miras hesabına məşhur filosof Platonun akademiyasında təhsil alıb. O, Afinada öz **məktəbini** təsis etmiş və ona Likey adı vermişdir, çünki məktəb Likeyli Apollonun məbədinin yaxınlığında olmuşdur. Bununla yanaşı, məntiq, psixologiya, fizika, biologiya, tarix, siyasət kimi fundamental elmlərlə bağlı tədqiqat işləri aparıb.

Hələ Platondan elm öyrənərkən "o mənim dostumdur, amma həqiqət daha vacibdir" deyən filosof onun bəzi nəzəriyyələrini tənqid edib. Platondan fərqli olaraq, Aristotel maddi aləmin obyektiv varlığını qəbul edir, hisslərə, anlayışlara və təsəvvürlərə real aləmin törəmələri kimi baxırdı. O həmçinin müəllimindən fərqli olaraq, varlığın mahiyyətini varlığın özündə axtarır, maddədə yalnız passiv başlanğıc görürdü. Onun fikrincə, bu başlanğıc xüsusi aktiv başlanğıca – "formaya" tabe idi. Aristotelə görə, bütün "formaların forması"nın fövqündə – ən yüksəyində Allah dayanırdı.

O, təbiətdə və cəmiyyətdə hərəkəti qəbul edir, hərəkətin müxtəlif növlərinin (yaranış, məhv olma, inkişaf, azalma, keyfiyyətcə dəyişmə) mövcud olmasına inanırdı. Hərəkətin mənbəyinin Allah olduğunu göstərən Aristotel İlahi varlığın maddədən kənarda qaldığını və bütün dünyanı hərəkətə gətirdiyini təbliğ edirdi.

Aristotel canlıları insan, bitki və heyvanlar olaraq üç qrupa bölmüşdü. O, estetikanın tarixində incəsənətə gerçəkliyi əks etdirən sahə kimi yanaşmışdı. Müəllimi Platonun "İdeyalar ideyası" əsərini tənqid edən Aristotel etika məsələlərinə insanların ictimai vəziyyətləri ilə vəhdətdə baxılmalı olduğunu bildirirdi.

28. Tünd hərflərlə verilmiş sözlərə əsasən cədvəldəki boşluqları doldurun.

Tünd hərflərlə verilmiş sözlər	Tünd hərflərlə verilmiş sözlərin mətndəki funksiyası (poetik və ya informativ)	Həmin sözlərin mətndəki funksiyasından fərqli funksiyada cümlədə işlədilməsi

29. Mətnin birinci abzasına əsasən cədvəli doldurun.

Sözlər	**Həmin sözlərin kontekstə görə izahı**
1. Təsis etmək	*1. .....*
2.	*2. Ölən adamdan sonra varislərə qalan mal, mülk*
3. Tədqiqat	*3. .....*

30. Mətnin ikinci abzasına əsasən cədvəli doldurun.

Müddəa	**Fakt**
	1. Aristotel varlığın mahiyyətini varlığın özündə axtarır, maddədə yalnız passiv başlanğıc görürdü.
	2.


Mövzular üçün


Video həllər üçün

Cavablar üçün

31. XIX əsrin 30-cu illərində Quba üsyanı və XX əsrin əvvəllərində Məşrutə hərəkatı üçün ümumi cəhət:
A) Konstitusiyanın qəbul edilməsi uğrunda mübarizə aparılması
B) Çarizmin müstəmləkə siyasətinə qarşı çevrilməsi
C) Hərbi Şuranın təşkil olunması
D) İri feodalların taxıl möhtəkiriliyinə qarşı çevrilməsi
E) Əhalinin komendant idarə üsulundan narazı qalması

32. Eyler-Venn diaqramına əsasən, paytaxtları rəqəmlərlə verilmiş dövlətlərin XIII əsr tarixinə aid uyğunluğu müəyyən edin.





a. Teymuri dövlətinin müttəfiqinə çevrilməsi
b. Kəsranilər sülaləsinin hökmranlıq etməsi
c. Monqolların birinci yürüşünə məruz qalması
d. Xarəzmşah Cəlaləddin tərəfindən süquta uğradılması
e. İraq Səlcuq sultanı III Toğrulun məğlub edilməsi

A) 1-d; 2-a, b; 3-c
C) 1-b; 2-e; 3-c, d
E) 1-d; 2-b; 3-c
B) 1-c; 2-a; 3-e
D) 1-a; 2-c, d; 3-b


33. Bizans dövlətindən ***fərqli*** olaraq, Xəzər xaqanlığı:
1. Albaniya dövləti ilə müttəfiqlik münasibəti saxlamışdı
2. Peçeneqlərin hücumlarına məruz qalmışdı
3. Slavyanların bəzi ərazilərdə məskunlaşmasına imkan vermişdi
4. Erkən feodalizm dövründə süqut etmişdi
5. Ərəblərin Şərqi Avropada irəliləməsinin qarşısını almışdı

A) 3, 4 B) 1, 3 C) 4, 5 D) 1, 2 E) 2, 3

34. Daha sonra baş vermişdir:
A) Əlincə qalasının Teymurilərə təslim olması
B) Cahanşahın Heratda sülh sazişi imzalaması
C) Azərbaycanın Cəlairi dövlətinin tərkibinə daxil olması
D) Əsəd döyüşünün baş verməsi
E) Monqolların Azərbaycana ikinci yürüşünün başa çatması

35. Şimali Azərbaycanda milli-demokratik hərəkatın inkişafında milli burjuaziyanın həyata keçirdiyi tədbir:
A) "Vıborq bəyannaməsi"nin imzalanması
B) Müsəlmanların ehtiyaclarını özündə əks etdirən ərz-halların hazırlanması
C) Dördüncü Dövlət Dumasının çağırılması
D) "Nəşri-maarif" və "Nicat" cəmiyyətlərinin yaradılması
E) Tiflisdə ağaların şəxsi hüquqları ilə bağlı komitənin təşkil edilməsi

36. Uyğunluğu müəyyən edin.



A) 1-a, c; 2-b B) 1-a, b; 2-a, c C) 1-b, c; 2-a, c
D) 1-a; 2-b, c E) 1-b, c; 2-a, b

37. Göstərilənlər məqsədidir:
– Hindistanla Qara dəniz sahillərini birləşdirən ticarət yollarını ələ keçirmək
– Xəzər sahillərinə çıxış əldə etmək
A) Oroysun yürütdüyü xarici siyasətin
B) Maqneziya döyüşündə Atropatena hökmdarının
C) Pompeyin Albaniyaya hücumunun
D) Bariaksın başçılıq etdiyi xalq hərəkatının
E) Alan tayfalarının Azərbaycana basqınlarının

38. Xəritədə xüsusi işarələnmiş dövlətin Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı siyasətini müəyyən edin.



1. 1918-ci il	*2. 1919-cu il*
a. Qacarlar dövlətinin AXC ilə dostluq müqaviləsinin imzalanmasına nail olması	a. Naxçıvanda general-qubernatorluğun yaradılması
b. Bakını Azərbaycan-Osmanlı qoşunlarının hücumundan qorumaq üçün qoşun göndərməsi	b. Denikin təhlükəsinə qarşı AXC ilə hərbi müdafiə paktının bağlanması
c. General Tomsonun rəhbərliyi altında AXC hakimiyyəti ilə əməkdaşlığa başlaması	c. Xəzər dənizində Azərbaycanın hərbi donanmasının yaradılmasına köməklik göstərməsi

A) 1-b, c; 2-c B) 1-a, b; 2-b, c C) 1-c; 2-a, b
D) 1-b; 2-c E) 1-a, b; 2-a

39. Roma sərkərdəsi Antoni və Roma imperatoru Mark Trayan:
A) Albaniya ərazisinə hərbi yürüş təşkil etmişdilər
B) Parfiya dövləti ilə müharibə aparmışdılar
C) Xristianlara açıq ibadət etməyə icazə vermişdilər
D) Roma imperiyasının sərhədlərini genişləndirmişdilər
E) Hunların hücumlarına qarşı mübarizə aparmışdılar

40. Azərbaycanda Xilafət dövrünə aid ***deyil:***
1. Ərəblər Sasani dövlətinin vergi sistemini tamamilə dəyişdi
2. Vergi yığılmasına nəzarət edənlər amil adlanırdı
3. İlk vaxtlardan etibarən bütün önəmli vəzifələrə ərəblər təyin olunurdu
4. İşğal edilən ərazilər əmirliklərə bölünürdü
A) 1, 2 B) 2, 3 C) 3, 4 D) 1, 3 E) 2, 4

41. Şəddadilər dövlətinin Qaraxanlı dövləti ilə oxşar, Rəvvadilər dövlətindən ***fərqli*** cəhətini müəyyən edin.
A) Samanilərə qarşı mübarizə aparılması
B) Səlcuqlar tərəfindən süquta uğradılması
C) Əməvilər sülaləsinin asılılığından çıxaraq müstəqil siyasət yürütməsi
D) I Məlikşahın qoşunlarına məğlub olması
E) X yüzilliyin ikinci yarısında meydana gəlməsi

42. Şəmsəddin Eltutmuş Şimali Hindistanda bəzi əraziləri tutaraq mövqeyini möhkəmləndirdi və monqol təhülkəsinin qarşısını aldı. Eltutmuş monqol hücumlarından canlarını qurtarmaq istəyən xeyli sayda türk tayfalarını qəbul etmiş və Şimali Hindistanda türk mədəni həyatının davamlığını təmin etmişdir. Müsəlmanların dini başçısı olan Abbasi xəlifəsi tərəfindən Hindistanın sultanı kimi tanınması onun müstəqil sultan kimi qanuniliyini gücləndirmişdi.
Mətnə əsasən, fəaliyyətindən bəhs olunan Dehli sultanının Mahmud Qəznəli ilə ümumi cəhətlərini müəyyən edin.
1. Abbasi xəlifəsi tərəfindən sultan tituluna layiq görülməsi
2. Monqol hücumlarına qarşı mübarizə aparılması
3. Hindistanın şimalında bəzi ərazilərin ələ keçirilməsi
4. Öz ölkəsində türk mənşəli tayfaların yerləşməsinə icazə verməsi
5. Hindistanda əsası qoyulmuş dövlətə başçılıq etmələri
A) 1, 2, 3 B) 3, 4, 5 C) 1, 3, 4
D) 2, 4, 5 E) 2, 3, 4

43. XV əsr Azərbaycanın memarlıq abidələrinin sırasını tamamlayın.

Həşt-Behişt sarayı	?	Şirvanşahlar saray kompleksi	?

1. Naxçıvanda Gülüstan türbəsi
2. Mərdəkanda dairəvi qala
3. Həsən Padşah məscidi
4. Təbrizdə Qeysəriyyə bazarı
A) 1, 2 B) 2, 3 C) 3, 4 D) 1, 3 E) 2, 4

44. XIX yüzilliyin sonlarında Bakıda hərbi vəziyyətin elan olunması ilə nəticələndi:
A) Kəndlilərin hərbi vergi adlanan əlavə mükəlləfiyyətə etiraz etmələri
B) Fəhlələrin ilk mütəşəkkil tətil keçirmələri
C) Daşnaklar tərəfindən müsəlmanlara qarşı milli qırğın törədilməsi
D) Ərzaq məhsullarının süni şəkildə bahalaşdırılmasına qarşı qadınların çıxışları
E) Birinci burjua-demokratik inqilabının baş verməsi

45. Afinada "Drakon qanunları"nın qəbul edilməsində məqsəd:
A) Xalq yığıncağını ali hakimiyyət orqanına çevirmək
B) Kəndlilərin borclarını ləğv etmək
C) Aristokratların həyatını və əmlakını qorumaq
D) Hər bir vətəndaşın dövlət idarəçiliyində vəzifə tutmasına imkan yaratmaq
E) Yadellilərin Afinaya gəlməsinin qarşısını almaq

46. Səbəb-nəticə əlaqələrinin doğru verildiyi bəndi müəyyən edin.

	Səbəb	Nəticə
1.	Monqol canişinlərinin yerli feodalları sıxışdırması	Bəndərin başçılığı ilə əhalinin üsyana qalxması
2.	Teymuri hökmdarı Şahruxun ölümü	Teymurilərin Sərdrud döyüşündə məğlub olması
3.	Cəlairi Şeyx Üveysin Təbrizi ələ keçirməsi	Hülakülər dövlətinin süquta uğraması
4.	Qaraqoyunlu dövlətinin yaranması	Oğuzların Azərbaycanda siyasi hakimiyyətinin yenidən bərqərar olması
5.	Toxtamışın Buxara və Səmərqəndə hücumu	Əmir Teymurun Azərbaycanı tərk etməsi


A) 4, 5 B) 1, 3 C) 3, 4 D) 1, 2 E) 2, 3

47. Qazan xan tərəfindən qadağan ***edilməmişdir:***
A) Kəndlilərin bir yerdən başqa yerə keçməsi
B) Monqol qoşununda xidmət edənlərə torpaq sahəsinin verilməsi
C) Vilayət hakimlərinin vergi yığılması işinə qarışması
D) Müsafirlərin rəiyyətin evində qalmaları
E) Rabitə işçilərinin yerli əhalidən vəsait alması

48. Məntiqi ardıcıllığı tamamlayın.
1. Hlodviqin xristianlığı qəbul etməsi
2. Qalliya üzərində öz hakimiyyətini möhkəmləndirməsi
3. .....
A) Frank krallığının əsasının qoyulması
B) Roma imperiyasından sonra Qərbi Avropanın ilk dəfə birləşdirilməsi
C) Roma papasının Hlodviqi imperator elan etməsi
D) Avropada Roma-german mədəni birliyinin meydana gəlməsinə şərait yaranması
E) Kapetinqlər sülaləsinin nüfuzunun daha da artması

49. Həmişə tədbirli addımları ilə fərqlənən Şirvan hökmdarı Qaraqoyunluların siyasi gücünü düzgün qiymətləndirməmişdi. O, əvvəlcə Sultan Əhmədi müdafiə etdi. Bu məqsədlə Təbriz yaxınlığındakı döyüş ərəfəsində oğlu Kəyumərsi onun köməyinə göndərmişdi, sonra isə Qara Yusifin barışıq və itaət təklifini rədd etmişdi.
Şirvanşah I İbrahimin mətndə bəhs olunan xarici siyasəti nəticəsində:
A) Təbriz yaxınlığında Qara Yusif Sultan Əhmədə məğlub oldu
B) Şirvanşahlar dövləti qaraqoyunluların hücumuna məruz qaldı
C) Şirvanşah I İbrahim öz dövlətinin müstəqilliyini qorudu
D) Məzyədilər sülaləsinin hakimiyyəti daha da zəiflədi
E) Qara Yusif və I İbrahim arasında Alaşkert döyüşü baş verdi


50. Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin.



a. Terek çayı sahilində qələbə qazanılması
b. Cənubi Çinin ələ keçirilməsi
c. Mərkəzi Asiyanın işğal olunması
d. Sasani dövlətinin süquta uğradılması
e. Hindistana hərbi yürüşün təşkil edilməsi
A) 1-c; 2-a; 3-e; 4-b, d
B) 1-d; 2-a; 3-b; 4-c
C) 1-d; 2-b; 3-a; 4-c, e
D) 1-e; 2-a; 3-b; 4-d
E) 1-a; 2-c; 3-d; 4-b, e

51. Kaştaritinin rəhbərlik etdiyi müstəqillik uğrunda hərəkatın baş verməsinə təsir göstərmişdir:
A) Midiya qoşunlarının Uauş döyüşündə qələbə qazanması
B) Urartu hökmdarının xalq hərəkatını himayə etməsi
C) Assuriya hökmdarı II Sarqonun üsyançılarla vuruşmada həlak olması
D) Əhali arasında zərdüştilik dininin sürətlə yayılması
E) Assurların Manna dövləti və İskit şahlığının qoşunlarına məğlub olması

52. Verilən hər üç xüsusiyyətin aid olduğu ərazini müasir xəritədə müəyyən edin.
– *Ərəblər tərəfindən vestqotların məğlubiyyətə uğradılması*
– *Böyük Karlın hərbi yürüşünə məruz qalması*
– *Araqon və Kastiliya krallıqlarının vahid dövlətdə birləşməsi*



A) 1 B) 2 C) 3 D) 4 E) 5

53. XX əsrin əvvəllərində Şimali Azərbaycanda dövlət kəndlilərinə aiddir:
1. Dövlət kəndlilərinin bir yerdən başqa yerə köçmək hüququ ləğv edildi
2. Kəndlilərin nəsli istifadəsinə verilən torpaqların sahələri dəqiqləşdirildi
3. Dövlət kəndliləri xüsusi torpaq mülkiyyətçisinə çevrildilər
4. Kəndlilərə çəmən, otlaq və meşələrdən pay ayrıldı

54. İkinci Göytürk və Uyğur xaqanlıqlarının süqutunun əsas səbəbləri:
1. Tabe edilmiş türk tayfalarının üsyan qaldırması
2. Hakimiyyət uğrunda mübarizələrin baş verməsi
3. Çinlilərlə uzunsürən müharibələrin aparılması
4. Dini pərakəndəliyin hökm sürməsi

55. Erkən Tunc dövründə əkinçiliyin inkişafının səbəbləri:
1. İbtidai insanların oturaq həyata keçməsi
2. Torpağın toxa ilə şumlanması
3. Şumlama zamanı qoşqu heyvanlarından istifadə
4. Süni suvarma sisteminin yaranması

56. Xronoloji ardıcıllığı müəyyən edin.
1. Xələclər sülaləsinin hakimiyyətə gəlməsi
2. Papa II Urbanın Klermonda çıxışı etməsi
3. Əmir Teymurun Dehli sultanlığına hərbi yürüşü
4. Böyük Səlcuq imperiyasının süquta uğraması

57. Uyğunluğu müəyyən edin.
1. Qızıl Arslan
2. Şirvanşah II Axsitan
3. Qazan xan
a. Yerli oturaq feodal əyanlarının himayə olunması
b. Hülakülərin vassalı kimi hakimiyyətini qorunması
c. İraq Səlcuq sultanı III Toğrulun məğlubiyyətə uğradılması
d. Xəlifənin razılığı ilə özünü sultan elan etməsi
e. "Yam" adlanan rabitə dayanacaqlarının təşkili

Sizə təqdim olunmuş mənbəni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları cavab kağızında yerinə yetirin.

Teymurləng şahmat oynayan bir şəxsin yanında oturub dünyanın taleyindən danışırdı; taleyimiz bizi Ankaraya qədər gətirib türk səltənətini əlimizlə məhv elədi. O, bu qələbənin türk dövlətləri üçün ağır nəticələr gətirəcəyini hesab edirdi. Bu anda İldırım Bəyazid bir dəstə ilə birlikdə Teymurləngin hüzuruna daxil oldu. Teymurləng onun əlindən tutub mehriban, amma kəskin tonda bildirdi ki, sultanın cəbhədəki fəaliyyəti toz-torpaq içində qalmağından bəllidir, lakin bütün bu fəallıq boşuna gedibdir. Bəyazidin inadkarlığı türk hakimiyyətinin dağılmasına səbəb olmuşdur. Taleyiniz sizi bundan sonra müharibəyə deyil, daimi bir rahatlığa (əsirliyə) dəvət edir.

58. Mənbənin əvvəlində Əmir Teymur nəyə görə qələbə qazandığı döyüşü türk dünyasının gələcəyi üçün faciəli hesab edirdi? (ən azı iki fikir qeyd edin)

59. İldırım Bəyazidi Əmir Teymurla toqquşmaya gətirib çıxaran üç səbəb yazın.

60. Tarixi biliklərinizə əsasən, hansı amilin Ankara döyüşündə Əmir Teymurun qələbəsini təmin etdiyini yazın.

Mövzular üçün

Video həllər üçün

Cavablar üçün

61. Hansı surət və ya surətlər N.Gəncəvinin "İskəndərnamə" poemasında Nüşabə ilə bağlı epizodlarda iştirak edir?

1. İskəndər
2. Ərəstu
3. Dara

A) 2, 3 B) yalnız 1 C) 1, 2
D) yalnız 2 E) 1, 3

62. M.Füzulinin "Leyli və Məcnun" poemasında belə bir epizod ***yoxdur:***

A) Leylinin atası elçi gələn Məcnunun atasına onunla qohumluğun şərəf olduğunu bildirir.
B) İbn Səlamın öldüyünü eşidən Məcnun ağlamağa başlayır.
C) Dünyaya göz açan Qeys meydan oxuyur, qəmin hərifi olmaq üçün gəldiyini deyir.
D) Ölüm yatağında olan Leyli anasına sirrini açır, Məcnunu sevdiyini etiraf edir.
E) Novfəl kömək edəcəyini deyəndə Məcnun sevinir, sonun yaxşı olacağına inandığını deyir.

63. İ.Nəsiminin "Sığmazam" qəzəlindən seçilmiş beytlə bağlı cədvəldəki doğru fikirləri müəyyənləşdirin.

Gərçi bu gün Nəsimiyəm, haşimiyəm, qüreyşiyəm,
Bundan uludur ayətim, ayətü şanə sığmazam.

Məzmununa aiddir	Formasına aiddir
1. Müəllif özünü haşimi, qüreyşi adlandırmışdır.	4. Vəznin tələblərinə uyğun olaraq bölgü zamanı sözlərin bütövlüyü qorunmuşdur.
2. Ayətlərlə məhdudlaşdığını deyən müəllif əsas ayətlərini sadalamışdır.	5. Bədii təsvir vasitələrinin bir neçə növü işlənmişdir.
3. Sadaladıqlarından başqa da ayətlərinin olduğunu dilə gətirmişdir.	6. Aid olduğu şeirin sonuncu beyti olduğunu əsaslandırmaq mümkündür.

A) 2, 3, 4 B) 1, 5, 6 C) 1, 3, 6
D) 3, 4, 5 E) 1, 2, 6

64. "Həmzənin Qıratı qaçırması" qolunda Qıratın qaçırılması ilə bağlı fikirlərdən hansılar ***səhvdir?***

1. Hasan paşa Qıratı igid, qorxmaz bir adamın qaçıra biləcəyinə inandığı üçün bu işi Həmzəyə tapşırır.
2. Eyvaz Qıratı dəyirmanda Həmzəyə verib qayıdan Koroğlunu kinayəli sözlərlə qarşılayır.
3. Qıratın qaçırılması təklifi Mehtər Murtuz tərəfindən irəli sürülür.
4. Dona xatun atasının düşməni olan Koroğlunun atının Həmzə tərəfindən qaçırılmasına sevinir.
5. Koroğlunun Qıratsız qayıtdığını görəndə dəlilər onunla salamlaşmırlar, kefini soruşmurlar.

A) 2, 3, 4 B) 1, 4 C) 4, 5
D) 1, 5 E) 2, 3, 5

65. Verilmiş əsərlərdən hansı həyatı əksetdirmə üsuluna görə digərlərindən fərqlənir?

A) "Sultan Səncər və qarı" (N.Gəncəvi)
B) "Sığmazam" (İ.Nəsimi)
C) "Hayıf ki, yoxdur" (M.P.Vaqif)
D) "Məni candan usandırdı..." (M.Füzuli)
E) "Apardı könlümü..." (İ.Həsənoğlu)

66. Janr xüsusiyyətlərini nəzərə alaraq cümləni necə tamamlasaq, fikir bütün hallarda doğru olar?

Poema janrında olan bir əsərdə .....

A) lirik düşüncələr üstünlük təşkil edir.
B) məhəbbət mövzusuna toxunulur.
C) süjetin mərhələlərinin hər biri geniş şəkildə əks olunur.
D) müsbət surətlərə qarşı olan mənfi surətlərə yer verilir.
E) nəzmin xüsusiyyətləri müşahidə olunur.

67. "Düratın itməyi" qolundan ("Koroğlu" dastanı) seçilmiş hadisələrin ardıcıllığını müəyyənləşdirin.

1. Koroğlu tanınmamaq üçün geyimini dəyişir.
2. Nigara müraciət edən Koroğlu Düratın itməyinin onu yandırdığını deyir.
3. Koroğlu Ballıcaya boş yerə gəlmədiyinə arxayın olur.
4. Koroğlunun Ələmqulu xanın yanından gəldikdən sonra səfərə çıxmadığı deyilir.
5. Koroğlu Dəli Həsənə mehtərdən göz-qulaq olmağı tapşırır.

A) 4, 5, 2, 1, 3 B) 1, 2, 4, 3, 5 C) 3, 4, 5, 1, 2
D) 4, 2, 5, 1, 3 E) 3, 4, 1, 5, 2

68. Ş.İ.Xətayinin yaradıcılığı ilə bağlı fikirlərdən hansı ***səhvdir?***

A) "Divan", həmçinin "Dəhnamə" və "Nəsihətnamə" adlı məsnəvilərin müəllifidir.
B) Məhəbbətə dair şeirlərində həqiqi məhəbbət insanı kamilləşdirən hiss kimi təqdim olunmuşdur.
C) Səfəvi-qızılbaş görüşlərinin təbliğinə həsr olunmuş şeirlərdə birliyə və əqidə yolunda sadiqliyə çağırış var.
D) Təbiət mövzusunda şeirlərində daha çox baharın gəlişi öz əksini tapmışdır.
E) Sufi görüşlərinə yer verilmiş şeirləri mövzusuna görə şairin digər bütün şeirlərindən fərqlənir.

69. Qəsdən ***səhv*** verilmiş cümlədə hansı dəyişiklik edilsə, fikir doğru olar?

İ.Nəsiminin "Sığmazam" şeiri fars dilində yazılmışdır, qəzəl janrındadır, müəllifin hürufiliyə dair fikirlərini əks etdirir.

A) İ.Nəsiminin əvəzinə Ş.İ.Xətayinin yazılsa
B) hürufiliyə dair əvəzinə məhəbbətə dair yazılsa
C) fars dilində əvəzinə ana dilində yazılsa
D) qəzəl əvəzinə qitə yazılsa
E) "Sığmazam" əvəzinə "Yanaram" yazılsa

70. "Vərqa və Gülşa" əsəri haqqında fikirlərdən hansı doğrudur?

A) Sevgi və qəhrəmanlığın vəhdətdə verildiyi epik əsərdir.
B) Nəzm və nəsrin bir-birini izləməsinin müşahidə olunduğu əsərdir.
C) Müəllifin narahat düşüncələrini əks etdirən lirik əsərdir.
D) Realist düşüncələri əks etdirən ilk əsərlərdəndir.
E) XIV əsrdə N.Gəncəvinin poemalarının təsiri altında yazılmış əsərdir.

71. Hansı aforizm N.Gəncəvinin "Sultan Səncər və qarı" əsərinin ideyası kimi göstərilə bilər?

A) Zalıma rəhm etmək məzluma zülm etməkdir.
B) Torpağa mərhəmət xeyirdir inan,
Lütf etsən gül verər, zülm etsən tikan.
(N.Gəncəvi)
C) Zülm küləyi əsən dənizdən intiqam buxarı qalxar.
D) Haqlı olmayan güclü zalım, gücü olmayan haqlı isə çarəsizdir.
E) Ən böyük hakimiyyət özünə hakim olmaqdır.

72. Ş.İ.Xətayinin "Dəhnamə" əsəri ilə bağlı cədvəldəki doğru fikirləri seçin.

	SƏBƏB	NƏTİCƏ
1	Səba cəsarət etmədiyi üçün xahiş edir.	Bağban qərar verir ki, əvvəlcə özü gedib vəziyyəti öyrənsin.
2	Səbanın baş əyməyib qürurla danışması Pərini qəzəbləndirir.	O, məktubu cırıb atır.
3	Aşiq yuxuda gördüyü gözələ vurulur.	Onun gecəsi gündüzünə qarışır, harada olduğuna qərar verə bilmir.
4	Səbadan eşitdikləri Aşiqin xoşuna gəlmir.	O, fəryad edir, bəxtindən şikayətlənir.
5	Aşiq sözünü deyə bilmirdi.	Fikirlərini çatdırmaq üçün Səbanı qasid seçir.

A) 1, 2, 4 B) 3, 4, 5 C) 1, 3, 5
D) 2, 4, 5 E) 1, 2, 3

73. M.Füzulinin qəzəllərinə aid cədvəldəki ***səhvi*** müəyyənləşdirin.

"Söz"	"Məni candan usandırdı..."
A) "Söz hansı dəyərdə olsa, sahibini də o dəyərdə edər" fikri vurğulanır. B) Sözün sirlər xəzinəsinin qoruyucusu olduğu deyilir.	C) Lirik qəhrəman muradının şamı yandığı, ahı göylərə çatdığı üçün sevinir. D) Yarın gül üzünə qarşı gözdən qanlı su axması fikri vurğulanır. E) Lirik qəhrəman dərdini sevdiyinə deyib-deməmək barədə tərəddüd yaşayır.

74. Nümunədə işlənmiş bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirin.

Başqasından qorxduğumuz bəs deyilmiş...
Özümüzdən biz qorxuruq!
Qorxu, qorxu!
Bir qurd olub yeyir bizi içimizdən,
Nə gözləyir vətən bizdən?
(B.Vahabzadə)

1. epitet 2. təşbeh 3. təkrir
4. metonimiya 5. bədii təzad 6. bədii sual

A) 1, 2, 4, 5 B) 2, 3, 5 C) 2, 3, 4, 6
D) 1, 3, 6 E) 3, 4, 5, 6

75. N.Gəncəvinin "Yaralı bir uşağın dastanı" əsərindən seçilmiş beyt haqqında fikirlərdən hansı doğrudur?

Azadə böyümüşlər cərgəsindən bir uşaq
İki-üç həmyaş ilə çölə çıxdı kefi çağ...

A) Əsərin süjetini təşkil edən hadisələrə düyün vurulan epizod təsvir olunmuşdur.
B) Beytə əsasən əsərin ideyasını çıxarmaq mümkündür.
C) Əsərdəki uşaqların bir-biri ilə düşmən olması bu beytdə diqqətə çatdırılmışdır.
D) Hadisələrin final hissəsi diqqətə çatdırılmışdır.
E) Əsərdə bəhs olunan hadisələrin başlanğıcı təsvir olunur.

76. Cədvəldəki doğru bəndləri müəyyənləşdirin.

	İrəli sürülən fikir	"Kitabi-Dədə Qorqud"	"Koroğlu"
1	Baş qəhrəman səfərə çıxır.	+	+
2	Baş qəhrəman bəzi epizodlarda aşıq libasında olur.	–	+
3	Döyüşkən, cəsarətli qadın surətləri var.	+	–
4	Məsləhət, öyüd verən el ağsaqqalı var.	+	+
5	Surətlərin dilindən "Ana haqqı tanrı haqqıdır" fikri səsləndirilir.	+	-

A) 3, 4, 5 B) 1, 2, 4 C) 2, 3, 4
D) 1, 2, 5 E) 1, 3, 5

77. Orta əsrlər Azərbaycan ədəbiyyatına aid cədvəlin doğru olması üçün hansı fikirlərin yeri dəyişilməlidir?

Orta əsrlər Azərbaycan ədəbiyyatına aiddir	Orta əsrlər Azərbaycan ədəbiyyatına aid deyil
1. Ana dilində lirik şeirlərlə yanaşı, poemalar da yazılırdı. 2. Lirik növə aid janrlardan birinin ilk nümunəsi yazılır. 3. Nəsihət məzmunu daşıyan ilk lirik şeir yazılır.	4. N.Gəncəvinin poemalarının təsiri ilə ilk epik şeir nümunələri yazılır. 5. Azərbaycan ədəbiyyatında intibah dövrü yaşanır. 6. Heca vəzni ədəbiyyatımızın əsas vəzninə çevrilir.

A) 3 – 4 B) 1 – 6 C) 3 – 5
D) 2 – 4 E) 1 – 5

78. Hansılar yeni şeir qoşub dastan yaratmaq yolunu ***seçməyən***, daha çox mövcud əsərlərin ifası ilə məşğul olan aşıqlardır?

1. Xəstə Qasım
2. Aşıq Kamandar
3. Aşıq Hüseyn Cavan
4. Aşıq Şəmşir
5. Aşıq Hüseyn Saraclı

A) 1, 3 B) 2, 4 C) 2, 5 D) 3, 5 E) 1, 4

79. M.Füzulinin əsərlərində toxunulmuş mövzulardan hansılar ***səhvdir?***

Əsərləri	Toxunulan mövzular
Poemaları	1. Təkəbbürlü olmağın, lovğalığın tənqidi
	2. Tarixi şəxsiyyəti nümunə göstərməklə xeyirxahlığın təbliği
	3. Sevən gənclərin məhəbbət yolunda qarşılaşdıqları çətinliklər
Nəsr əsərləri	4. Səfər təəssüratlarının qeyd olunması
	5. Məşhur din xadimlərinin həyatı, fəaliyyəti, məhrumiyyətləri

A) 1, 3 B) 2, 4 C) 3, 5 D) 2, 5 E) 1, 4

80. "Koroğlu ilə Bolu bəy" qolunda ("Koroğlu" dastanı) iştirak edən surətlərdən hansı müsbət və ya mənfi olmasına görə digərlərindən fərqlənir?

A) Qaravaş B) İsabalı C) Aşıq Cünun
D) Mehtər Murtuz E) Xoca Əziz

81. Ş.İ.Xətayinin "Dəhnamə" peomasına aid hansı xüsusiyyətləri iştirak edən surətlərdən yalnız birinə aid etmək olar?

1. Aşiqə kömək etməyə çalışır.
2. Bağbanı danlayır.
3. Fikirlərini məktub göndərməklə bildirir.
4. Pərinin hüzuruna çıxır.

A) 1, 2 B) 2, 4 C) 1, 3 D) 1, 4 E) 2, 3

82. "Salur Qazanın evinin yağmalandığı boy"dan seçilmiş hadisələrin aid olduğu surətlərin ardıcıllığını müəyyənləşdirin.

- Düşmən bayrağını qılınclayıb yerə salır.
- Qazan xana müraciət edib onun atını, nizəsini, qalxanını istəyir.
- Qazan xanın yurdunu qoruyanda həlak olur.

A) Qaragünə, Qaraca çoban, Sarı Salmaş
B) Qaraca çoban, Burla xatun, Uruz
C) Uruz, Burla xatun, Şöklü Məlik
D) Qaragünə, Aruz, Qaraca çoban
E) Uruz, Qaraca çoban, Sarı Salmaş

83. Hansı hadisələrlə *"Müsbət qəhrəman nağılın sonunda çətinliklərin öhdəsindən gəlib qalib olur"* fikrini dəstəkləmək mümkündür?

1. Əhməd atların yaşını müəyyən edərək Firəng padşahının planını pozur. ("Dərzi şagirdi Əhməd" nağılı)
2. Əhməd kənddəki qocalarla birlikdə kəndə qayıdır. ("Ağıllı uşaq" nağılı)
3. Əhməd Pəri Soltanın diqqətini çəkib onun rəğbətini qazana bilir. ("Dərzi şagirdi Əhməd" nağılı)
4. Əhməd Pəri Soltanla evlənir, yuxusunu Şah Abbasa açır. ("Dərzi şagirdi Əhməd" nağılı)
5. Əhməd qeyri-adi üsul düşünərək xanın şəhərinə girə bilir. ("Ağıllı uşaq" nağılı)

84. N.Gəncəvinin "İskəndərnamə" poeması haqqında fikirlərdən hansılar doğrudur?

1. Daranın adamları İskəndərə xəzinə, var-dövlət müqabilində Daranı öldürməyi təklif edirlər.
2. Peyğəmbər olduqdan sonra səfərə çıxan İskəndər heç yerdə qan tökmür, məsələləri nəsihətlə yoluna qoyur.
3. Səfərdə ikən İskəndər və adamları yeri gümüşdən olan bir yerdən keçirlər.
4. İskəndər yaşıl təpəyə göndərdiyi adamlarının geri qayıtmamasının səbəbini heç cür öyrənə bilmir.
5. İskəndərin Bərdəyə gəlişi Dara ilə döyüşdən sonra, peyğəmbərlik səfərinə çıxmadan əvvəl baş verir.

85. Nümunə ilə bağlı fikirlərdən hansılar doğrudur?

Hər şeir ömürdən kəsir nə qədər.
Vaxtın uzun yolu bir az gödəlir.
Dörd divar içində yubanır səhər,
Axşamı yüyürə-yüyürə gəlir.
(R.Nəsiboğlu)

1. Hər bir misrada inversiya işlənmişdir.
2. İlk misrada fikrin şişirdilərək təqdim olunmasına yer verilmişdir.
3. Birdən çox misrada metafora rast gəlinir.
4. Son iki misradakı fikirlər əsasında bədii təzad yaradılmışdır.
5. Təkrirdən və epitetdən istifadə olunmamışdır.


86. Fikir necə tamamlansa, ***səhv*** olar?
M.P.Vaqifin "Pəri" qoşmasında lirik qəhrəman...

1. Ona cavab verməyən Pərini vəfasız adlandırır.
2. klassik ədəbiyyatdan bir çox aşiq surətləri ilə özünü müqayisə edir.
3. Pərinin ənliyə, kirşana ehtiyacı olmadığını vurğulayır.
4. Pərini dəstədən ayrı düşmüş yaşılbaş sonaya bənzədir.
5. real təsvirlərlə Pərinin gözəlliyini tərənnüm edir.

87. M.Füzulinin "Leyli və Məcnun" əsərindən seçilmiş beytlərlə bağlı uyğunluğu müəyyənləşdirin.

I – ... dedi: "Çün sənə şəkkim var,
Məcnun isən eylə halın izhar..."

II – Dün əxtəri-bəxtin oldu tirə,
Dövran sitəm etdi sən fəqirə...



a. Leylinin İbn Səlama verilməsinə işarə olunmuşdur.
b. Misralar Məcnunun atasının dilindəndir.
c. Məcnuna müraciətlə deyilmişdir.
d. Əsərin ekspozisiya mərhələsinə aiddir.
e. Cavabında Məcnun həmin günədək başına gələnləri qısaca danışır.

88-90-cı sualları mətnə əsasən cavablandırın.

Dəmirçioğlu

...Dəmirçioğlu oyanıb gördü ki, hər tərəfi duman bürüyüb, Ərəbatı da yoxdur. Götürdü görək nə dedi:

Ərəbatı getdi əlimnən,
Ərəbatı mən istərəm.
Ayrı düşmüşəm elimdən,
Ərəbatı mən istərəm...

Rastlaşdığı naxırçı atın getdiyi yeri Dəmirçioğluna nişan verdi. Bir az keçdi, yel qalxdı, dağlar başından duman çəkildi. Ətraf ayazıdı, hər yan göründü.

Dəmirçioğlu sevimli Ərəbatını tapıb mindi. Yola çıxdı, axşam çağı özünü yetirdi Ərzuruma. Bir qoca qarıya rast oldu. Dedi:

– Ay qarı nənə, qəribəm, məni bir gecəliyə qəbul eləyərsənmi?

Qarı dedi:

– Bizlər qonağı çox sevərik, niyə eləmirəm.

Dəmirçioğlu düşdü, atı tövləyə çəkdi. Özü də qarının evinə gəldi. Qarı nənə Dəmirçioğluna çörək gətirdi. Yeməkdən sonra qarı dedi:

– Oğul, buraya niyə gəlibsən?

Dəmirçioğlu dedi:

– Ay nənə, Cəfər paşanın qızı Telli xanımı aparmağa gəlmişəm. Söylə onu necə görə billəm?

Qarı dedi:

– Ay oğul, o qız çox aşıqpərəst qızdı. İmarətinin qabağı da pəhlivan meydanıdı. Sabah bir saz götür, o meydana çıx. Çal, oxu, onda Telli xanım külafirəngiyə çıxar, görərsən.

Dəmirçioğlu gecə qarının evində yatdı. Sabah açıldı. Atını qarının töyləsində qoydu. Özü aşıq paltarı geydi, altından yaraq bağlayıb çiyninə üstdən bir saz keçirib özünü pəhləvan meydanına saldı.

Pəhləvan meydanında Cəfər paşa başının adamları ilə əyləşmişdi...

(Hissə "Koroğlunun Ərzurum səfəri" qolundan götürülmüşdür)

88. Verilmiş hissə ilə "Həmzənin Qıratı qaçırması" qolu arasında ortaq cəhətlər verilmişdir. ***Səhv*** fikri seçərək niyə doğru olmadığını əsaslandırın.

□ "Həmzənin Qıratı qaçırması" qolunda da qarıya qonaq olma epizodu var. Amma başqa məkanda və başqa surət vasitəsilə olur. □ "Həmzənin Qıratı qaçırması" qolunda da paşanın adamları ilə məclisdə iştirak etməsi epizodu var. □ "Həmzənin Qıratı qaçırması" qolunda da bəhs olunan şəxsin sevdiyi atla uzaq səfərə çıxmasından bəhs olunur.	Əsaslandırma:

89. Mətnin və M.Füzulinin "Leyli və Məcnun" poemasının müqayisəsi ilə bağlı cədvəli doldurun.

Hadisələrin danışılmasında müşahidə olunan ortaq cəhətdir	**Əsərlərin forma xüsusiyyətində müşahidə olunan fərqli cəhətdir**
1. 2.	1.

90. Verilmiş bədii ifadə vasitələrindən birinə mətnin həm nəsr, həm də nəzm hissəsində rast gəlinir. Onu seçin və işləndiyi nümunələri yazaraq cədvəli doldurun.

□ inversiya □ bədii təzad □ mübaliğə

Nəzmlə olan hissədə işləndiyi cümlə	**Nəsrlə olan hissədə işləndiyi cümlə**

SINAQ 8

AZƏRBAYCAN DİLİ

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

1. Hansı cümlədəki təsriflənən feillərin hər ikisi verilmiş nümunədəki təsriflənən feillə eyni şəkildədir?

"Onların susmağını razılıq əlaməti kimi qəbul etdik".

A) Göy guruldasa da, yağış yağmadı.
B) Biz həm oxumalı, həm də işləməliyik.
C) Dağ dağa qovuşmaz, insan insan qovuşar.
D) Bu yolu özün seçmisən, odur ki dözməlisən.
E) Qardaşım belə tez gəlib ki, halımızdan agah olsun.

2. Nümunəyə və cədvələ əsasən uyğun fikirləri müəyyən edin.

"Günəş qızıl saçlarını dərələrdən, meşələrdən yavaş-yavaş toplayaraq qərbə doğru uzanmağa başlamışdı". (A.Şaiq)

Doğrudur.	**Yanlışdır.**
1. Sifətin sualına cavab verən isim işlənsə də, ismin sualına cavab verən sifət işlənməmişdir. 2. Əlamət bildirən sifət işlənmişdir. 3. Mənsubiyyət şəkilçili söz ismin təsirlik halındadır.	4. Təsriflənən feil əmr şəklində, məlum növdədir. 5. Cəm şəkilçisi qəbul etmiş isimlərin hamısı ümumi isimlərdir. 6. Yönlük halda olan isim işlənmişdir.

A) 1, 3, 4 B) 2, 4, 6 C) 1, 2, 5
D) 2, 3, 5 E) 1, 3, 6

3. Tələffüz formasında verilmiş sözlərdən hansını həm isim, həm də feil kimi düşünmək olar?

A) [təmizdəməx`] B) [daşdıx]
C) [kölgüyə] D) [başdıyar]
E) [mələyə]

4. Hansı cümlədə fərqləndirilmiş söz numerativ söz ***deyil***?

A) Qışda dağlar ağ geyinər, yaz qara. Sağ *dəstinlə* ağ kağıza yaz qara. (Aşıq Ələsgər)

B) İclasa qırx *nəfər* valideynin çağırılması nəzərdə tutulmuşdu.

C) Qoca zənbilinə iyirmi *ədəd* yumurta qoyub bazara yollandı.

D) Hər axşam yeməkdən əvvəl bir *qaşıq* dərman içməlisən.

E) Uşaq üçün mağazadan iki *cüt* corab almışam.

5. Cədvəli tamamlayın.

Həm omonim, həm də çoxmənalı sözdür.	**Yalnız çoxmənalı sözdür, omonim deyil.**	**Yalnız omonimdir, çoxmənalı deyil.**
1.	ayaq	şam
dolu	2.	fokus
kök	lövhə	3. .....

A) 1 – say, 2 – qaş, 3 – kürək
B) 1 – rəng, 2 – oxşamaq, 3 – aşıq
C) 1 – boğaz, 2 – kitab, 3 – top
D) 1 – nəticə, 2 – mürəkkəb, 3 – çaxmaq
E) 1 – doğru, 2 – tut, 3 – bənd

6. *"Çoxaldılmışdı"* feilindəki şəkilçilər haqqında deyilənlərdən biri ***yanlışdır***:

A) *-al* saydan feil düzəltmiş leksik şəkilçidir.
B) *-ıl* qayıdış növün şəkilçisidir.
C) *-mış* nəqli keçmiş zaman şəkilçisidir.
D) *-dı idi* köməkçi sözünün şəkilçiləşmiş formasıdır.
E) *-d* feildən feil düzəldən *t* şəkilçisidir.

7. İşarə əvəzliyinin ismi əvəz etdiyi cümləni müəyyən edin.

A) O, ad-san, mənsəb arxasınca qaçan adamlardan deyildi.
B) Hər şeyə diqqətlə yanaşan adam nadir hallarda səhv edir.
C) O sevincli uşaqlıq illərindən bəri çox zaman keçibdir.
D) Hərə bir sap versə, çılpağa köynək olar.
E) Bələləri ilə ehtiyatlı davranmaq lazımdır, çünki niyyətləri aydın olmur.

8. Nümunələrlə bağlı uyğun fikri müəyyən edin.

A) *"Həqiqətin alovu onu aparanın əlini tez-tez yandırır"* cümləsində mənsubiyyət şəkilçili isimlərin hər ikisi adlıq haldadır – doğru
B) *"Səmimi adamlar həqiqət görüntüsünə aldanırlar"* cümləsində mənsubiyyət şəkilçisi qəbul etmiş isim quruluşca düzəltmədir – yanlış
C) *"Platon mənim üçün əzizdir, amma həqiqət ondan da əzizdir"* cümləsində əvəzliklərin hər ikisi ismi əvəz etmişdir – yanlış
D) *"Cəmiyyətin gələcək tərəqqisi indi gəncləri-mizə nəyi və necə öyrətməyimizdən asılıdır"* cümləsində ismin xüsusiyyətlərini qəbul etmiş sifət işlənmişdir – doğru
E) *"Ən təhlükəli yanlışlıq həqiqətə oxşayan yanlışlıqdır"* cümləsində çoxaltma dərəcəsində olan sifət işlənmişdir – yanlış

9. *"Xəyanətkarlıq"* sözünün fonetik təhlili ilə bağlı ***yanlış*** fikri müəyyən edin.

A) Ahəng qanununa tabe deyil.
B) Saitlərdən biri uzun tələffüz olunur.
C) Səs və hərf tərkibi arasında üç fərqli məqam var.
D) Dodaqlanan sait işlənməmişdir.
E) Üç cingiltili samitin kar qarşılığı yoxdur.

10. Verilmiş nümunələrə və cədvələ əsasən uyğunluğu müəyyən edin.

Haram çörək axtarma ki, bu, baha başa gələr. (X.Şirvani)	*Vuruldum o gün ki şeirə, sənətə, Dağlar öz donunu lalədən biçdi.* (S.Vurğun)
1.	2.
3.	

a. Feillərdən birində iş görən işi öz üzərində icra edir.
b. İsmi əvəz edən işarə əvəzliyi işlənmişdir.
c. Əmr şəklində olan feil işlənmişdir.
d. Yönlük halda olan isim işlənmişdir.
e. Təsirlik halda olan isim işlənmişdir.

A) 1-b,c; 2-a,d; 3-e
B) 1-a,d; 2-b,c; 3-e
C) 1-a,b; 2-c,d ; 3-e
D) 1-d,e; 2-a,c; 3-b
E) 1-c,e; 2-a,b; 3-d

11. Verilmiş nümunədəki feillərin şəkillərini ardıcıllıqla müəyyən edin.

Ey könül, bu acı hisslərdən əl çək,
İnsan bir gün gəlmiş, bir gün gedəcək.
(M.Müşfiq)

A) əmr, xəbər, xəbər
B) əmr, vacib, xəbər
C) xəbər, əmr, xəbər
D) lazım, şərt, xəbər
E) əmr, şərt, arzu

12. Feillərdən biri icbar növdədir:
A) bildirmək B) yazdırmaq C) güldürmək
D) inandırmaq E) danışdırmaq

13. Hansı cərgədə bütün feillər *isə* hissəciyi ilə işlənmişdir?
A) təmizlədinsə, aparsa, itirmişsən
B) pozulacaqsa, gedəcəkdinsə, qorunmalıdırsa
C) oxusa, aparırsa, saxlayacaqsa
D) yazılsa, öyrənmişsə, öyrənəcəksə
E) düzəldilsə, yazmalıdırsa, işləsə

14. Cümlələrdən birində miqdar sayının iki müxtəlif məna növünə aid olan sözlər işlənmişdir:
A) Axırıncı sözləri eşidəndən sonra Mahmud daha bir neçə insanla görüşə biləcəyini yəqin etdi.
B) Qoca kişi sonuncu daşı da yonub hazır etmişdi.
C) Yüzlərlə insan birincilik uğrunda mübarizə aparırdı.
D) Altı ədədi otuz ədədinin beşdə bir hissəsidir.
E) O hər kimə nəsib olsa, yəqin bil ki, dünya üzündə əvvəlinci xoşbəxt olar.

15. ***Yanlış*** bəndi müəyyən edin.

	Frazeoloji birləşmə	Frazeoloji sinonimi	Frazeoloji antonimi
A)	qəlbinə dəymək	könlünü almaq	ürəyini qırmaq
B)	hirsindən qovrulmaq	özündən çıxmaq	hirsi yatmaq
C)	əli soyumaq	ruhdan düşmək	cuşa gəlmək
D)	canını oda yaxmaq	dəridən-qabıqdan çıxmaq	əlini ağdan qaraya vurmamaq
E)	ağız büzmək	üzünü turşutmaq	xoşuna gəlmək

16. Hansı sözün yazılışı doğrudur?
A) həfdəlik B) heyrannıq C) həmsöbət
D) hərdəmbir E) humanizm

17. Hansı cümlədə bir-biri ilə münasibətdə antonim olan sözlər ***işlənməmişdir***?
A) Büronun qərarı haqlıdır, sizin təklifiniz isə çox ədalətsizdir.
B) Mən tələb edirəm, möhtərəm hakim,
Cəzasız qalmasın onun təhqiri. (B.Vahabzadə)
C) Əziz stolun üstünə salınmış üstü butalı göy süfrənin saçaqlarını gah qız teli kimi hörür, gah da açırdı.
D) Mən öz daxili varlığımla xarici təbiətdəki gözəllik arasında bir uyğunsuzluq hiss etdim.
E) O, yad deyil, mənə doğma baladan artıqdır.

18. Biri sayla sifətin ortaq cəhəti ola ***bilməz***:
A) İsmin xüsusiyyətlərini qəbul edərək isimləşmək
B) İsmə aid olmaq
C) Quruluşca sadə, düzəltmə və mürəkkəb olmaq
D) Leksik mənaya malik olmaq
E) Müqayisə dərəcələrinə görə dəyişmək

19. Verilmiş nümunədəki sifətlərin hər üçünə aid olan fikri müəyyən edin.
Qəzəbi tufandır, sevinci dəniz.
Vicdanı boyasız, eşqi ləkəsiz.
Günəşlə yaşıddır, gündüzlə əkiz
Həyat simfoniyası Azərbaycanın.
(H.Arif)
A) Hər üçü isimdən düzəlmiş düzəltmə sifətdir.
B) Hər üçü əlamət bildirir.
C) Hər üçü ismin sualına cavab verir.
D) Hər üçünün səs və hərf tərkibi fərqlənir.
E) Hər üçü adi dərəcədədir.

20. Hansı cümlədə sifət azaltma dərəcəsindədir və düzgün yazılmışdır?
A) Gün batanda səmanın üzü qırmızımtıl bir rəng aldı.
B) Mənimlə açıq-aşkar danış ki, bilim, nə olub.
C) Mən kəmsavad adamam, nə danışım a bala, heç özüm də bilmirəm.
D) Uşağın saçları açıqsarı olduğuna görə günəşdə daha parlaq görünürdü.
E) Qıpqırmızı don geyindi ellərim,
Qaranlığı boğazlayıb doğdu gün. (S.Rüstəm)

21. ***Yanlış*** fikri müəyyən edin.
A) *İdi, imiş, isə* köməkçi sözlərinin heç biri əmr şəklində olan feillə işlənə bilmir.
B) *"Daşlaşmaq"* sözünü feilin iki müxtəlif qrammatik məna növündə düşünmək mümkündür.
C) Şərt şəklində olan feil III şəxsin təkində şəxs sonluğunu qəbul etmir.
D) *"Oxuyasınız"* feilinin inkarını yalnız *deyil* sözü ilə düzəltmək mümkündür.
E) *"Getməz"* sözü inkarlıq şəkilçisini və qeyri-qəti gələcək zamanın şəkilçisini qəbul etmişdir.

22. Biri bədii üsluba aid nümunə ***deyil***:

A) Qoy məndən dərs alsın qoca təbiət,
O da könlüm kimi gülsün həmişə. (S.Vurğun)

B) Gələn adam ümidi puça çıxmış adamlar kimi əllərini yanına saldı.

C) Jurnalistikanın ictimailəşməsində "Füyuzat" jurnalı və onun redaksiya heyətinin xidmətləri diqqətəlayiqdir.

D) Dağlarımın başından qalxıb bir qartal kimi,
Gəzdim ana yurdumu canlı bir xəyal kimi. (R.Rza)

E) Çərkəz yorğana bürünən kimi xoruldadı, Şamxalın isə gözünə yuxu getmədi ki, getmədi.

23. Cədvələ əsasən uyğun fikirləri müəyyən edin.

1.	*O, çox yaxşı insandır* cümləsində əvəzlikdən sonra vergülün qoyulması doğrudur.	yanlış
2.	*Oxutmuram* feili inkarlıq şəkilçisini və indiki zaman şəkilçisini qəbul etmişdir.	doğru
3.	*Deməli, sən bunu bilirmişsən* cümləsindəki feil *isə* hissəciyi ilə işlənmişdir.	doğru
4.	*Bakı şəhəri gözəl şəhərdir* cümləsindəki qeyri-müəyyən yiyəlik halda olan ismi müəyyən yiyəlik hala çevirmək mümkündür.	yanlış
5.	*Onun yerinə yoldaşı qol çəkdi* cümləsində işarə əvəzliyi ismi əvəz etmişdir.	doğru

24. *"O, doğma vətənin müstəqilliyi uğrunda rus qoşunları ilə döyüşdə qəhrəmancasına həlak oldu"* cümləsində ***işlənməmişdir***:

1. Mürəkkəb feil
2. Qeyri-müəyyən yiyəlik halda olan isim
3. İşarə əvəzliyi
4. Mücərrəd isim
5. Azaltma dərəcəsində olan sifət
6. Səs və hərf tərkibi fərqlənən isim

25. Verilmiş nümunənin təhlili ilə bağlı doğru fikirləri müəyyən edin.

Azmı göydən yerə od ələnibdir.
Şadlıq sükut edib, kədər dinibdir.
Bir dövrün hökmüylə bəstələnibdir
Bir ana laylası Azərbaycanın. (H.Arif)

1. Məchul növdə olan feil işlənmişdir.
2. Mənsubiyyət şəkilçili sözlər adlıq haldadır.
3. Feillərin hamısı xəbər şəklindədir.
4. Mənsubiyyət şəkilçisi qəbul etdiyi üçün söz kökündəki qapalı saiti düşmüş söz işlənmişdir.
5. Xüsusi isimlərdən biri yönlük halda, digəri isə yiyəlik haldadır.

26. Sxemdəki hansı sözlərin yeri dəyişdirilsə, sxemdəki uyğunluq bərpa olunar?

Feilin iki müxtəlif şəklində başa düşülən sözlər	Feilin yalnız bir şəklində başa düşülən sözlər
1. işlədin 2. ötürdü 3. başlayaq	4. köçürdü 5. bişirdi 6. itir

27. Uyğunluğu müəyyən edin.

1. İş görən işi öz üzərində icra edir.
2. İş görən işi başqasına icra etdirir.
3. İş qarşı-qarşıya icra olunur.

a. Tərəflər bir neçə gündür ki, atışırlar.
b. Dağın başında bir dağkeçisi göründü.
c. Güllərin qoxusu indi daha yaxından duyulurdu.
d. Atam məni peşə məktəbinə yazdırdı.
e. Mən bir neçə ildir ki, xaricdəki dostumla yazışıram.

Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları Cavab vərəqində yerinə yetirin.

Fridrix Mişer

DNT tarixdə ilk dəfə isveçrəli həkim Fridrix Mişer tərəfindən 1869-cu ildə kəşf edilib. Zülallar üzərində tədqiqat aparan Mişer onlardan çox fərqli özəlliklərə sahib olan və sadəcə hüceyrə nüvəsində tapılan bir maddə ilə qarşılaşır. Mişer bu yeni maddəyə nüvə mənasına gələn "nuklein" adını verir.

İnsan bədənində 50 mindən artıq gen var. Hər bir genin nukleotid ardıcıllığında minlərlə, on minlərlə nukleotid var. Bu həm bitki, həm də heyvanat aləminə aiddir, yəni eyni qanunauyğunluğa demək olar ki, bütün canlılarda rast gəlinir. DNT-dəki bu məlumatlar sadəcə fiziki xüsusiyyətləri müəyyənləşdirmir. Eyni zamanda hüceyrə və orqanizmdəki minlərlə müxtəlif hadisə və sistemə də nəzarət edir. *O cümlədən irsi xəstəliklərin meydana çıxması nukleotidlərdə baş verən dəyişikliklərlə əlaqədardır.*

Bu dəyişikliklərin yaranma səbəbləri və nəticələrini belə izah edə bilərik: İnsanda 6 mindən artıq irsi xəstəlik mövcuddur. Bu xəstəliklərin yaranma səbəblərindən biri də bir nukleotidin digəri ilə əvəzlənməsi, yaxud bir nukleotidin çatışmazlığı və ya əksinə, artıqlığı ilə yaranır. Bunlar mutasiyalar olub xarici mühitin orqanizmə təsirindən əmələ gəlir. Bu təsirlər kimyəvi, fiziki və bioloji ola bilər. Kimyəvi təsirlər deyəndə əsasən dərmanlar, fiziki təsirlər dedikdə ultrabənövşəyi şüalar, radiasiya, elektromaqnit dalğaları, bioloji təsirlər dedikdə isə ən sadə halda, qrip xəstəliyi və ya məxmərək nəzərdə tutulur.

Talassemiya xəstəliyinin yaranma səbəbləri də nukleotidlərdəki dəyişikliklərlə bağlıdır; belə ki, nukleotidin digəri ilə əvəzlənməsi irsi qan xəstəliyi olan talassemiyanın ortaya çıxmasına səbəb ola bilər.

28. Mətnə əsasən cədvəli doldurun.

Nukleotidlərdə baş verən dəyişikliyin insanlara təsiri	
Bitki və heyvanat aləminin DNT-sindəki oxşarlıq	

29. Kursivlə verilmiş cümlələrdə bir-biri ilə qarşılıq təşkil edən ifadələrdən hər hansı bir cütünü müəyyən edərək yazın.

30. Verilmiş nümunə ilə mətn əsasında cədvəli doldurun.

Ana dedim, ürəyimə yanar odlar saçıldı,
Ana dedim, bir ürpəriş hasil oldu canımda,
Ana dedim, qarşımda bir gözəl səhnə açıldı,
Ana dedim, fəqət onu görməz oldum yanımda.

(M.Müşfiq)


Mətnin aid olduğu üslub	**Həmin üsluba aid iki səciyyəvi xüsusiyyət**
.....	*1.* *2.*
Nümunənin aid olduğu üslub	**Həmin üsluba aid iki səciyyəvi xüsusiyyət**
.....	*1.* *2.*

TARİX

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

31. Şəddadi hökmdarı Fəzl ibn Məhəmməd və Ağqoyunlu hökmdarı Sultan Yaqub:
A) Osmanlı qoşunları ilə vuruşmada məğlub olmuşdular
B) Şirvanşahlar dövləti ilə qohumluq münasibəti saxlamışdılar
C) Oğuz turkman boylarına mənsub idilər
D) Mərkəzləşmiş dövlətə başçılıq etmişdilər
E) Səlcuqların hücumlarına qarşı mübarizə aparmışdılar

32. Verilən hər üç xüsusiyyətin aid olduğu ərazini müəyyən edin.
– *Araz-Türk Respublikasının yaradılması*
– *Erməni idarəçiliyinin fəaliyyət göstərməsi*
– *Səməd bəy Cəmilinskinin başçılığı ilə general-qubernatorluğun təşkil edilməsi*




A) 1 B) 2 C) 3 D) 4 E) 5

33. Qəznəli dövlətinin süquta uğradığı ildə xaçlı ordusu:
A) Şərqə doğru ilk yürüşə başladı
B) Müsəlmanları Pireney yarımadasından çıxarmağa nail oldu
C) Təbəriyyə gölü yaxınlığında məğlub oldu
D) Konstantinopolu ələ keçirdi
E) Qüds şəhərində Xaçlı dövlətinin əsasını qoydu

34. XIV əsrdə Azərbaycan-Gürcüstan münasibətlərinin daha da möhkəmlənməsinə səbəb oldu:
A) Qara Yusifə qarşı Kür çayı sahilindəki vuruşmada gürcülərin I İbrahimlə müttəfiq olması
B) Gürcü çarı IV Davidin Şirvan şahı ilə qohumluq əlaqəsi saxlaması
C) Şirvan qoşunlarının mərkəzi hakimiyyətə qarşı qiyamı yatırmaqda gürcü çarı III Georgiyə kömək etməsi
D) I İbrahimin vasitəçiliyi ilə gürcü çarının Əmir Teymurla sülh müqaviləsi imzalaması
E) Gürcü qüvvələrinin Şirvanı slavyanların basqınlarından xilas etməsi

35. Uyğunluğu müəyyən edin.



A) 1, 2 B) 2, 3 C) 2, 4 D) 1, 3 E) 3, 4

36. Göstərilənlər nəticəsidir:
– *Bizans imperatoru hər il vergi ödəməyi öhdəsinə götürdü*
– *Anadolunun böyük bir hissəsi həmişəlik türk torpağına çevrildi*
A) Latın imperiyasının varlığına son qoyulmasının
B) Attilanın Bizans üzərinə yürüşünün
C) İmperator Yustinianın Sasani şahı ilə imzaladığı müqavilənin
D) Konstantinopolun osmanlılar tərəfindən fəthinin
E) Bizansın Malazgird döyüşündə məğlub olmasının


37. Atabəy Əbu Bəkrin Monqol xanı Çingiz xan ilə oxşar, Dehli sultanı Eltutmuş xandan ***fərqli*** cəhətini müəyyən edin.
A) Çin üzərinə hərbi yürüş təşkil olunması
B) Xarəzmşahların məğlubiyyətə uğradılması
C) Abbasi xəlifəsi ilə dostluq əlaqələrinin qurulması
D) Şərqi Gürcüstanın ələ keçirilməsi
E) Xarəzmşah Cəlaləddinin himayə edilməsi

38. Məzdəkilər və Xürrəmilər hərəkatları arasında ortaq xüsusiyyətləri müəyyən edin.
1. İnsanlar arasında əmlak bərabərliyinə nail olmağa çalışırdılar
2. Azərbaycanın istiqlaliyyəti uğrunda mübarizə aparırdılar
3. Feodal zülmünə qarşı üsyana qalxmışdılar
4. Bizans imperiyasının köməyindən istifadə etmişdilər
A) 1, 3 B) 2, 3 C) 3, 4 D) 1, 2 E) 2, 4

39. *Xaçlı yürüşləri və Şərq ölkələri ilə ticarət əlaqələri üçün əlverişli mövqedə yerləşməsi, Cənubi Fransada şəhərlərin inkişafına təsir göstərmişdi. Həmçinin Şərq ölkələri ilə geniş ticarət əlaqələri olan İtaliya və İspaniya ilə yaxınlıq da buna şərait yaratmışdı. Məhz ticarət əlaqələri Fransanın cənub şəhərlərində sənətkarlığın inkişafını sürətləndirirdi.*
Mətnə əsasən, hansı nəticəyə gəlmək olar?
A) Fransa Xaçlı yürüşlərinə məruz qalmışdı
B) İqtisadi inkişaf nəticəsində mərkəzləşmə əvvəlcə cənubda başlamışdı
C) Paris Cənubi Fransanın iqtisadi mərkəzinə çevrilmişdi
D) Fransanın cənubunda feodal münasibətlər zəif inkişaf etmişdi
E) Daha çox kral torpaqlarında yerləşmiş şəhərlər tərəqqi tapmışdı

40. XIX yüzilliyin birinci yarısında Şimali Azərbaycanda yaradılmış müstəmləkə rejimi üçün xarakterik ***deyil:***
1. Xanlıqlar və sultanlıqların əyalət, dairə və distansiyalara çevrilməsi
2. Mülkədarların kəndlilər üzərində polis və məhkəmə hakimiyyətinin ləğv edilməsi
3. Şamaxı quberniyasının mərkəzinin Bakıya köçürülməsi
4. İşğal rejiminin hərbi-feodal səciyyə daşıması
5. Mülki cinayətlərə hərbiçilər üçün yaradılmış səhra məhkəmələrində baxılması
A) 1, 2, 3 B) 3, 4, 5 C) yalnız 2, 3
D) yanız 4, 5 E) 1, 3, 4


41. Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin.



a. Azərbaycanda yeni dövlətin əsasını qoyması
b. Teymurilər üzərində qələbə qazanması
c. Azərbaycanı öz hakimiyyəti altında vahid halda birləşdirməsi
d. Osmanlı sultanı II Mehmetlə dostluq münasibəti saxlaması
e. Samur çayı sahilində Səfəvilərin məğlub edilməsi

A) 1-c; 2-d; 3-a, e; 4-b
B) 1-a; 2-d; 3-b; 4-c
C) 1-b; 2-a, c; 3-d; 4-e
D) 1-e; 2-a; 3-b; 4-d
E) 1-c; 2-d, e; 3-a; 4-b

42. Müasir xəritədə rəqəmlərlə verilmiş dövlətlərin XV əsrə aid tarixi hadisələr arasındakı uyğunluğu müəyyən edin.



a. Jaklar üsyanının baş verməsi
b. Tüdorlar sülaləsinin hakimiyyətə gəlməsi
c. Azenkur döyüşündə məğlubiyyətə uğraması
d. Qranada əmirliyinə son qoyulması
e. IV Filippin Baş ştatlar adlanan məclis çağırması

A) 1-b; 2-a; 3-d, e
B) 1-d; 2-b; 3-c
C) 1-a; 2-d; 3-b
D) 1-e; 2-c; 3-b
E) 1-d; 2-b; 3-a, c

43. Məntiqi ardıcıllığı tamamlayın.

1. *Monqolların Azərbaycana üçüncü yürüşünün baş verməsi*
2. *Hülakülər (İlxanilər) dövlətinin meydana gəlməsi*
3. .....

A) Xəzər dənizində Azərbaycanın ticarət donanmasının yaradılması
B) Abbasilər xilafətinin asılı hala salınması
C) Təbrizin ilk dəfə paytaxt şəhər elan olunması
D) Azərbaycanda köçəri monqol feodallarının hökmranlıq etməsi
E) Xarəzmşah Cəlaləddinin öz qoşunlarını Azərbaycandan çıxarmağa məcbur qalması

44. 1918-ci ilin iyununda AXC hökuməti ölkənin ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə ərzaq və bəzi xammal məhsullarının xaricə çıxarılmasına müvəqqəti qadağa qoydu. 1919-cu ildə Dövlət Bankı fəaliyyətə başladı. Milli pul vahidlərinin möhkəmləndirilməsi və onların alıcılıq qabiliyyətinin qorunub saxlanılması hökumətlərin başlıca vəzifələrindən biri idi.

Mətnə əsasən, AXC-nin iqtisadi tədbirlərinin Solon islahatları ilə ümumi cəhətini müəyyən edin.

A) Kəndlilərə torpaqların paylanılması
B) Dövlət Bankının fəaliyyət göstərməsi
C) Bütün vətəndaşların siyasi vəzifəyə seçilmələri
D) Ərzaq məhsullarının ixracının qadağan edilməsi
E) Milli pul vahidlərinin möhkəmləndirilməsi

45. Firon III Tutmos və Makedoniyalı İsgəndər arasında oxşar cəhət:

A) Het dövləti ilə mübarizə aparılması
B) Suriya və Fələstinin tabe edilməsi
C) Əhəmənilər üzərində qələbə qazanılması
D) Hindistana hərbi yürüş təşkil olunması
E) Yunanların müstəqilliyinə son qoyulması

46. Səbəb-nəticə əlaqələrinin doğru verildiyi bəndi müəyyən edin.

	Səbəb	Nəticə
1.	Zaqatalada Hacı Murtuzun rəhbərliyi ilə kəndlilərin üsyan qaldırması	Çarizmin komdendant idarə üsulunu ləğv etməyə məcbur qalması
2.	"Mazut konstitusiyası"nın qəbul edilməsi	Bakı Ağ Neft Zavod Sahibləri İttifaqının yaradılması

3.	Seçkili orqan olan vahid Kənd İdarəsinin yaradılması	Müxtəlif kəndli qruplarının vahid adla mülkədar tabelisi adlanması
4.	Mədənlərdə buxar mühərriklərinin tətbiq edilməsi	Neft sənayesinin fabrik-zavod mərhələsinə keçməsi
5.	Çar hökumətinin məhkəmə və şəhər islahatlarını həyata keçirməsi	Burjua təbəqəsinin cəmiyyət həyatının idarə olunmasında iştirakına şərait yaranması


A) 4, 5 B) 1, 3 C) 3, 4 D) 1, 2 E) 2, 3

47. Neolit dövrünün ən böyük nailiyyətlərindəndir:
A) Süni suvarma sisteminin yaranması
B) Ox və kamanın ixtira edilməsi
C) Saxsı qabların hazırlanması
D) İnsanların süni yolla od əldə etməyi öyrənmələri
E) Torpağın xış ilə şumlanması

48. Səlcuq dövlətində paytaxtın Rey şəhərinə köçürülməsində məqsəd:
A) Xaçlıların basqınlarının qarşısını almaq
B) Xorasanı tamamilə asılı vəziyyətə salmaq
C) Ölkənin Şərq sərhədlərinə nəzarəti artırmaq
D) Anadoluda Səlcuq dövlətinin mövqeyini qorumaq
E) Hərbi yürüşləri daha yaxın məsafədən idarə etmək

49. Atropatena hökmdarı Artabazanın hakimiyyət dövrü üçün səciyyəvidir:
A) Alan tayfalarının basqınlarına qarşı mübarizə aparılması
B) Selevki dövlətindən asılılığın qəbul edilməsi
C) Fraaspa şəhərinin romalıların mühasirəsindən xilas edilməsi
D) Midiyalı Bariaksın üsyan qaldırması
E) Karra döyüşündə Roma ordusuna məğlub olması

50. Sxemi tamamlayın.



A) Bütün əhali kral məmurlarının hədsiz cəri-mələrindən qorunmalı idi
B) Kral özünü Papanın vassalı elan etdi
C) Roma dövründən bəri Avropada ilk siyahıyaalınma aparıldı
D) Parlament qanunların verilməsində də iştirak etmək hüququ qazandı
E) Kral vassallarından müəyyən ediləndən artıq vergi ala bilməzdi

51. Qara Yusif və Uzun Həsənin mərkəzləşmiş dövlət qurmasına mane olan amillər:
1. Qanunverici orqan sayılan Ali divanın fəaliyyət göstərməsi
2. Osmanlı dövləti ilə aparılan aramsız müharibələr
3. Elatlara nəzarətin tam mümkün olmaması
4. Soyurqal sisteminin mövcudluğu
A) 1, 3 B) 2, 3 C) 3, 4 D) 1, 2 E) 2, 4

52. Daha əvvəl baş vermişdir:
A) Osmanlıların Niqbolu döyüşündə qələbə qazanması
B) Yüzillik müharibənin başa çatması
C) Əmir Teymurun Dehli sultanlığını tabe etməsi
D) İngiltərədə ilk dəfə olaraq parlamentin çağırılması
E) Xaçlıların Konstantinopolu qarət etməsi

53. XIV əsrin 50-ci və 80-ci illərində Azərbaycan tarixi üçün xarakterikdir:
1. Təbrizin Qızıl Ordu xanı tərəfindən tutulması
2. Azərbaycanın teymurilərin hücumlarına məruz qalması
3. Şirvanın Dərbəndilər tərəfindən idarə olunması
4. Cəlairilər sülaləsinin Azərbaycanda hökmranlıq etməsi

54. Ağ Hun dövlətindən ***fərqli*** olaraq, Ərəb xilafəti:
1. Sasanilərə qarşı mübarizə aparmışdı
2. Xəzər xaqanlığının orduları ilə toqquşmuşdu
3. Şimal-qərbi Hindistanın bir sıra ərazilərini ələ keçirmişdi
4. Bizans torpaqlarını fəth etmişdi

GÜVƏN NƏŞRLƏRİ

55. Xəritədə işarələnmiş dövlətin Qaraqoyunlu dövləti ilə bağlı münasibətlərinə aiddir:



1. Kür çayı sahilində hərbi toqquşmanın baş verməsi
2. Qara Yusif ilə birlikdə Əmir Teymura qarşı mübarizə aparılması
3. Cahanşahın dövründə tərəflər arasında gərginliyin aradan qaldırılması
4. Qaraqoyunlu dövlətinin asılı vəziyyətə salınması

56. Xronoloji ardıcıllığı müəyyən edin.
1. Cənubi Azərbaycanda Məşrutə hərəkatının baş verməsi
2. Bakı-Tiflis dəmir yolu xəttinin işə salınması
3. Ərzincanda Cənubi Qafqaz komissarlığı ilə Osmanlı dövləti arasında müqavilə imzalanması
4. Yelizavetpol quberniyasının yaradılması

57. Uyğunluğu müəyyən edin.
1. Dehli sultanlığı
2. Osmanlı dövləti
3. Qızıl Ordu dövləti

a. İri məmurlara ziyamət adlanan torpaqların verilməsi
b. Kulikovo döyüşündə məğlubiyyətə uğraması
c. Cuci nəslindən olan xanların hökmranlıq etməsi
d. Xələclər sülaləsi tərəfindən idarə olunması
e. Bizansın Anadolu toraqlarından qovulması

Sizə təqdim olunmuş mənbəni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları cavab kağızında yerinə yetirin.

Bolqar dağının ətəyində sükut vardı. Osmanlı ordusunun çadırları səhərin işığında gümüş kimi parıldayırdı. .... Sara Xatun Sultan Mehmetin çadırına daxil olanda hər kəs ayağa qalxdı. Fateh, ağ libaslı bu qadına baxaraq başını bir qədər qabağa əydi – onun qarşısında bir elçi yox, bir ana dayanmışdı.

Fateh: "Xatun ana, uzaq yoldan gəlmisən. Sözünü açıq de."

Sara Xatun: "Sözüm uzaqdan gəlmir, sultanım – qonşu torpaqdan, amma qohum ürəyindən gəlir. Trabzon sarayı bizimlə qan bağındadır. Mən səndən mərhəmət istəyirəm, sülh istəyirəm."

Fateh sükuta büründü. O, bir anlıq bu qadının səsində anasının səsini eşitdi. Qarşısındakı qadının hər kəlməsi bir nəslin məsuliyyətini daşıyırdı.

Fateh: "Ana, mən Trabzona ədalətlə girəcəyəm, sizə isə qılınc deyil, dostluq göndərəcəyəm."

Sara Xatunun baxışlarında nə qorxu, nə də zəiflik vardı. O bilirdi ki, bu görüşdən sonra Ağqoyunlu torpaqlarına Osmanlı qılıncı toxunmayacaq. Bir qadının sözü bir ordunun yolunu dəyişmişdi.

58. Mənbədə bəhs olunan dialoq əsasında Sara Xatunun iki məqsədini qeyd edin.

59. Sülh danışıqlarında Trabzon ilə qohumluq əlaqələrini əsas gətirən Sara Xatun nəyə oldu?

60. Ağqoyunlular üçün Trabzonun əhəmiyyətini göstərən mənbədə ***verilməyən*** fikri qeyd edin.

ƏDƏBİYYAT

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

61. Ş.İ.Xətayinin "Dəhnamə" əsərindən seçilmiş beytlərdən hansının izahı ***səhvdir***?

	Beyt	Qeyd
A)	Məşuq ilə eşqi tanımazdım, Heç kimə könül verim deməzdim.	Əsərin qəhrəmanın eşqə inanmadığı deyilir.
B)	Yırtdı əlidən alıb kitabın, Saydı yüzinə üyubi babın.	Məşuqəyə aiddir, Səbaya sərt rəftarı təsvir olunur.
C)	Qayıtdı Səba zi dərgəhi-şah, Ğəmnakü məlul düşdü bər rah.	Aşiqin xoş əhvalla gələn Səbanı sevinclə qarşılamasından bəhs olunur.
D)	Sordu ana kim, Səbamısan sən? Eşq əhlinə aşinamısan sən?	Bağbanın Səbanı görüb onunla danışdığı hissədəndir.
E)	Sürdü qatı atın ol vəfadar, Ol bağə irişdi qandadır yar.	Səbanın Məşuqənin olduğu bağa gəldiyi epizoda aiddir.

62. Q.Zakirin yaradıcılığı ilə bağlı fikirlərdən hansı doğrudur?
A) Ədəbi növlərdən yalnız birinə aid əsərləri var.
B) Nəzmlə əsərlərinin hamısı tərənnüm əsasında yazılmışdır.
C) Həm təmsil, həm də mənzum hekayə müəllifidir.
D) Heca vəznində ilk dəfə şeir yazan sənətkardır.
E) Yaradıcığı qəzəl və qəsidə janrları ilə məhdudlaşır.

63. Nöqtələrin yerinə İ.Nəsiminin hansı şeiri yazılsa, mövzu baxımından digər əsərlərlə eyni olar?

"Xosrov və Şirin" (N.Gəncəvi)
"Məni candan usandırdı..." (M.Füzuli)
.....

A) "Etməgil"
B) "Sığmazam"
C) "Daim ənəlhəq söylərəm, həqdən çü Mənsur olmuşam"
D) "Mənəm, mən"
E) "Mərhəba, insani-kamil, canımın cananəsi"

64. Hansı fikir "Basatın Təpəgözü öldürdüyü boy"a aid cədvəlin heç bir xanasına yazıla ***bilməz***?

Səbəbi	Hadisə	Nəticəsi
?	Dədə Qorqud Salaxanaya gedib Təpəgözlə danışır.	?

A) Bunlu qoca ilə Yapaqlı qoca Salaxanaya göndərilir.
B) Oğuz eli Dədə Qorquda müraciət edib kömək istəyir.
C) Oğuzlar hər gün Təpəgözə qənimət göndərirlər.
D) Basat qardaşının ölüm xəbərini öyrənir.
E) Oğuz yurdu Təpəgözün əlində əsir-yesir olub qalmışdı.

65. Hansı xüsusiyyəti daşıyan nümunənin əruz vəznində olduğunu əminliklə demək mümkündür?
A) Ardıcıl iki misrada qafiyələnən sözlər işlənmişdir.
B) Nümunənin bütün misralarında inversiyadan istifadə olunmuşdur.
C) Hər biri dörd misradan ibarət olan bəndlərdən istifadə olunmuşdur.
D) İfası zamanı ahəngdarlıq müşahidə olunur.
E) Misradaxili bölgü zamanı sözün bütövlüyü pozulur.

66. N.Gəncəvinin "İskəndərnamə" əsərinə aid cədvəldəki doğru fikirləri seçin.

Dara haqqında yanlış fikirdir	Nüşabə haqqında doğru fikirdir
1. Təkəbbürlü, zalım və ədalətsizdir. 2. Əsərin "İqbalnamə" hissəsində iştirak edir. 3. Xalqla maraqlanmır, xalqın taleyini şərəfsiz adamlara tapşırır.	4. Torpaqlarına gələn İskəndəri sarayına dəvət edir. 5. Ölkəsinin abadlığına, xalqının firavan yaşamasına nail olur. 6. Onun dilindən "Aslanın dişisi, erkəyi olmaz" fikri səsləndirilir.

A) 1, 2, 5 B) 2, 4, 5 C) 1, 3, 4
D) 3, 4, 6 E) 2, 5, 6

67. Azərbaycan ədəbiyyatında maarifçi-realizm dövrü ilə bağlı fikirlərdən hansılar doğrudur?
1. M.Ş.Vazeh, S.Ə.Nəbati, Heyran xanım kimi sənətkarlar klassik şeir janrlarında yazırlar.
2. S.H.Nigari həm əruz, həm də heca vəznində şeirlər yazır.
3. Mövcud janrlara müraciət olunmuş, eyni zamanda yeni janrlar yaradılmışdır.
4. İ.Qutqaşınlı, N.Vəzirov, Ə.Haqverdiyev dramatik növdə yazılmış əsərləri ilə tanınıblar.
5. A.Bakıxanovun yaradıcılığı ilə Azərbaycan-Qərb mədəni əlaqələri yaranıb inkişaf etmişdir.

A) 2, 4, 5 B) 1, 2, 3 C) 1, 3, 5
D) 2, 3, 4 E) 1, 4, 5

68. Hansı şifahi xalq ədəbiyyatı nümunəsində ananın övladının gələcəyi ilə bağlı ümid və arzuları əksini tapmışdır?
A) məişət nəğmələrində
B) yanıtmaclarda
C) bayatılarda
D) mərasim nəğmələrində
E) mahnılarda

69. Nümunə işlənmiş bədii təsvir və ifadə vasitələri haqqında fikirlərdən hansı doğrudur?
Bakının nə dərdi, nə də qəmi var,
Bu böyük şəhərin öz aləmi var.
(M.Tahir)
A) Şeirin hər iki misrasında söz sırasının pozulması müşahidə olunur.
B) Sakinləri nəzərdə tutularaq *Bakı* sözünün işlənməsi metonimiyaya aid nümunədir.
C) İkinci misrada sözə məcazi mənalı söz artırılaraq epitet yaradılmışdır.
D) Şəhərin dərdinin, qəminin olmadığı dilə gətirilərək kinayə edilmişdir.
E) Qafiyə təşkil etməyən sözlərdən sonra işləndiyi üçün var sözünü epiforaya aid nümunə göstərmək olar.

70. "Durna teli" qolundan ("Koroğlu" dastanı) seçilmiş hissədə Koroğlunun məqsədi hansı bənddə göstərilmişir?
...Elə ki dəlilər Çənlibelə tərəf yol başladılar, Koroğlu üzünü Kosa Səfərə tutub dedi:
– Kosa Səfər, buradan Çənlibelə neçə yol var?..
A) Bağdada girmədən əvvəl gördüyü qocanı mükafatlandırmaq istəyirdi.
B) Çənlibelin yerini dəqiq öyrənmək istəyirdi.
C) Dəlilərdən ayrı gedib Giziroğlu ilə qarşılaşmaq istəyirdi.
D) Kosa Səfərin ona sədaqətini öyrənmək istəyirdi.
E) Bağdadda dincəlib sonra təkbaşına Çənlibelə getmək istəyirdi.

71. Q.Zakirin "Badi-səba, mənim dərdi-dilimi..." qoşmasından seçilmiş hansı hissədə lirik qəhrəmanın özünü xəstə adlandırması və sevdiyindən dərman axtarması diqqətə çatdırılır?
A) Düşüb ayağına sən o zalımın,
Söylədinmi necəliyin halımın?
B) Zakirin əhvalın xublar şahına
Ağlaya-ağlaya dedin, nə dedi?
C) Ahü naləm asimanə yetdiyin
Gərdəni minayə dedin, nə dedi?
D) Badi-səba, mənim dərdi-dilimi
Ol büti-zibaya dedin, nə dedi?
E) Görsə idin,varmı məni bimarə,
Nüsxeyi-hüsnündə onun bir çarə...

72. M.Füzulinin "Leyli və Məcnun" poemasında Zeyd surətinə aid fikirləri müəyyənləşdirin.
1. *"Həm eşq yolunda çox yügürmüş, Həm çox sitəmi-zəmanə görmüş"* misraları onun haqqındadır.
2. Məcnunu anlayır, ona kömək etməyə çalışır.
3. Bütün epizodlarda Məcnunun yanındadır.
4. Məcnun Leylinin ölüm xəbərini ondan eşidir.
5. Bu surətin adı daha çox İbn Səlamla bağlı epizodlarda çəkilir.
A) 1, 3 B) 2, 5 C) 1, 4 D) 3, 5 E) 2, 4

73. X.Natəvanla bağlı fikirlərdən hansılar ***səhvdir?***
1. Zərif duyğuları əks etdirən şeirlər müəllifidir.
2. "Dilbəra, dərdi-dilimdən..." qəzəlində vüsala çatan aşiqin düşüncələrinə yer verilmişdir.
3. Ədəbiyyatımızda təbiət mövzusunda şeirlər yazan ilk sənətkardır.
4. "Ey dust" şeirində lirik qəhrəmanın daxili dünyasına yer verilmişdir.
5. Qəzəl janrında əsər yazan müəlliflərdəndir.
A) 1, 5 B) 2, 4 C) 3, 5 D) 2, 3 E) 1, 4

74. Nümunə ilə bağlı fikirlərdən hansı ***səhvdir?***
Valeh ağlar görüb belə divanı,
Kimsələrə gəlmir daha gümanı.
Kama çatıb şənlik edən zamanı
Döndərdin şənliyi qan-yaşa, dünya.
(Aşıq Valeh)
A) Hecaların sayının bərabər olması nümunənin heca vəznində olduğunu deməyə əsas verir.
B) Qafiyə quruluşu *aaab* şəklindədir.
C) Tərənnüm əsasında yazılmış nümunədir.
D) İnversiyadan istifadə olunmuşdur.
E) Misraların hamısı 4-4-3 bölgü sxeminə uyğun gəlmir.

75. Nümunədə işlənmiş bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirin.
Qəfəsdən qurtulmuş yaralı şirəm,
Zəncir vura bilməz cəlladlar mənə.
Yox, yox... vura bilməz bir də yaralar,
Həm düşmənlər mənə, həm yadlar mənə.
(S.Rüstəm)
A) epitet, kinayə, inversiya
B) təşbeh, anafora, inversiya
C) metafor, kinayə, anafora
D) metafor, anafora, bədii təzad
E) təşbeh, inversiya, bədii təzad

76. Verilmiş xüsusiyyətlər maarifçi-realizm dövrünün hansı sənətkarına aid edilə bilər?
– *Satirik poeziyanın təşəkkül tapmasında rolu olmuşdur.*
– *Aşıq şeiri janrlarına müraciət etmişdir.*
A) Q.Zakir B) Ə.Qaracadağı
C) S.Ə.Şirvani D) A.Bakıxanov
E) M.Ş.Vazeh

77. "Kitabi-Dədə Qorqud" eposu haqqında cədvəldəki ***səhvləri*** müəyyənləşdirin.

	Surət	Haqqında məlumat
1.	Qaraca çoban	Qazan xanın sürüsünü qoruyarkən iki qardaşı həlak olur.
2.	Bayandır xan	Boyların bir çoxunda iştirak edir.
3.	Aruz qoca	Oğlu Basatı Təpəgözün üstünə getmək üçün məcbur edir.
4.	Burla xatun	Düşmən əsirliyində olarkən oğlu ilə sınağa çəkilir.
5.	Şöklü Məlik	Düşmən surət olsa da, mərd olması ilə diqqət çəkir.

A) 1, 2, 4 B) 2, 3, 5 C) 3, 4, 5
D) 1, 2, 5 E) 1, 3, 4

78. Doğru fikri seçin.
A.Bakıxanovun "Hikmətin fəziləti" əsərində şahın suallara cavab tapan qocaya münasibəti göstərir ki, ...
A) paxıllıq, həsəd kimi mənfi hisslər insanların ədalətli qərar verməsinə mane olur.
B) tələsik qərar verən şəxs çox vaxt onun peşmanlığını yaşayır.
C) başqalarının sözlərinə əsasən mühakimə edənin şəxsi fikirləri olmaz.
D) hikməti ilə seçilən insanlardan faydalanmağa cəhd etmək lazımdır.
E) fürsət verildikdə gənclərin qeyri-adi istedad nümayiş etdirməsi mümkündür.

79. Hansı fikir yalnız epik növdə əsərlər yazan bir sənətkara aid edilsə, fikrin doğru olduğunu əminliklə söyləmək olar?
A) Yaradıcılığı ancaq hekayə janrında olan əsərlərdən ibarətdir.
B) Süjet xəttinə malik olan əsəri yoxdur.
C) Komediya janrında əsər yazmamışdır.
D) Tərənnümə geniş yer vermişdir.
E) Nəsrlə yazılmış əsəri yoxdur.

80. Hansı əsər haqqında verilmiş fikir ***səhvdir?***
A) "Rəşid bəy və Səadət xanım" (İ.Qutqaşınlı) – Hekayə janrındadır, yeni tipli bədii nəsr nümunəsidir.
B) "Dastani-Əhməd Hərami" (naməlum müəllif) – Ədəbiyyatımızda ana dilində yazılan ilk poemadır.
C) "Mehr və Müştəri" (Ə.Təbrizi) – N.Gəncəyi mövzuları əsasında farsca yazılan poemalardan biridir.
D) "Mişkatül-ənvar" (A.Bakıxanov) – Vətənpərvərlik, hökmdar və xalq mövzularına toxunulan epik əsərdir.
E) "Səhhət və Mərəz" (M.Füzuli) – Ana dilində yazılmış alleqorik poemadır.

81. Nümunə ilə bağlı fikirlərdən hansılar ***səhvdir?***
Bir də geri dönmür gənclik çağları,
Xatirələr ürəklərdə yurd salır.
Qoşun çəkib çən bürüyür dağları,
Bahar payız qapısına qısılır.
(M.Nicat)
1. Hər misrada inversiya işlənmişdir.
2. Hər misrada metafor işlənmişdir.
3. Təşbehdən istifadə olunmamışdır.
4. Mübaliğə vasitəsilə fikrin təsir gücü artırılmışdır.
5. Yalnız bir misrada epitetə yer verilmişdir.
A) 2, 3, 5 B) 1, 2, 3 C) 2, 4, 5
D) 1, 4, 5 E) 1, 3, 4

82. M.P.Vaqifin "Hayıf ki, yoxdur" əsərinin forma xüsusiyyətləri ilə bağlı doğru fikirləri müəyyənləşdirin.
1. Rədifdən istifadə olunmamışdır.
2. Müəllifin Kür qərağındakı obalarla bağlı fikirləri əks etdirilib.
3. Hər biri dörd misradan ibarət bəndlər şəklindədir.
4. İnsanların geyimi ilə bağlı fikirlərə yer verilib.
5. Heca vəznindədir.
A) 3, 5 B) 1, 3 C) 2, 4 D) 4, 5 E) 1, 2

83. M.Füzulinin "Leyli və Məcnun" poemasına aid cümləyə əsasən doğru fikirləri seçin.
Məcnuna aid şeir...
1. atasının səhraya gəlib oğlunu axtarmasına səbəb olur.
2. Leylinin anası tərəfindən danlanmasına və məktəbə buraxılmamasına səbəb olur.
3. Novfəlin onu axtarıb-tapmasına və kömək etmək istəməsinə səbəb olur.
4. Leylinin mindiyi dəvənin karvandan ayrılıb ona tərəf gəlməsinə səbəb olur.
5. Leylinin onu tanımasına səbəb olur.

84. "Koroğlu ilə Bolu bəy" qolundan seçilmiş hadisələrdən hansılar Xoca Əzizin Çənlibelə gəlməsindən əvvəl baş verir?
1. Ərəb Reyhan Toqata yollanır.
2. Koroğlu özünü qoruqçu kimi təqdim edir.
3. Koroğlu oxuduğu şeirdə "Aparırlar pünhan məni" deyir.
4. Dünya xanım Ərzincana gəlir.
5. Nigar xanım Dəli Həsənin səfərə çıxmasına razı olmur.

85. N.Gəncəvinin "Sultan Səncər və qarı" əsərindən seçilmiş hissə ilə bağlı fikirlərdən hansılar doğrudur?

Rəiyyətə hər zaman kömək etməli padşah,
Səndən xarlıqdır gələn bizə, ol bundan agah.
Bir hünər deyil almaq yetimlərin malını,
Buna mərdlik deməzlər, düşün işin dalını.

1. Sultan Səncərin bəhanə kimi səsləndirdiyi fikrə cavab olaraq deyilir.
2. Padşahın xalqla xoş rəftar etməli olduğu deyilir.
3. Sultan Səncər əməlləri barədə düşünməyə dəvət olunur.
4. Sultan Səncərin əməllərinin xalqa xeyir gətirmədiyi bildirilir.
5. Mərdliyin nə olduğu izah olunur.

86. Müxtəlif əsərlərdən seçilmiş hansı epizodlarda adı çəkilən surət həqiqəti ***demir***, başqa cavab verir:
1. Qaraca çoban – Qazan xan ondan yurdunu xəbər aldıqda ("Salur Qazanın evinin yağmalandığı boy")
2. Koroğlu – Toqatda olarkən Həmzədən qaladan çıxmaq üçün neçə yol olduğunu soruşduqda ("Həmzənin Qıratı qaçırması")
3. Səba – Pərinin yanından qayıdarkən Aşiq ona suallar verdikdə (Ş.İ.Xətayi. "Dəhnamə")
4. Leyli – anası onu sevməkdə ittiham edib günahlandırdıqda (M.Füzuli. "Leyli və Məcnun")
5. Koroğlu – Bağdada girmədən əvvəl rastlaşdığı qoca onların kim olduqlarını soruşduqda ("Durna teli" qolu)

87. Uyğunluğu müəyyənləşdirin.
1. Yalnız "İskəndərnamə" (N.Gəncəvi) poemasına aiddir.
2. Yalnız "Dəhnamə" (Ş.İ.Xətayi) poemasına aiddir.
3. Yalnız "Leyli və Məcnun" (M.Füzuli) poemasına aiddir.

a. Ədəbiyyatımızda bu mövzuda, eyni adda yazılmış ilk poema deyil.
b. Məhəbbət mövzusundadır.
c. Mifik surətlərə də yer verilmişdir.
d. Cəmiyyəti qəbul etməyib üz döndərən, səhraya üz tutan surət əsərin baş qəhrəmanıdır.
e. İki hissədən ibarət poemadır.

88-90-cı sualları mətnə əsasən cavablandırın.

Durnalar

Nə olar uçunuz mən deyən yerə,
Sizə əhsən deyim gündə min kərə.
Dolsun səsinizlə bütün dağ, dərə.
Sizindir çəmənim, çölüm, durnalar
Şəlaləm, dənizim, gölüm, durnalar.

Gülməyin gözümdən axan yaşıma,
Baharda qar yağıb mənim başıma.
Neyləyim, bacıma, qan qardaşıma
Çoxdandır çatmayır əlim, durnalar.
Bunu yaxşı bilir elim, durnalar.

Arazdan o taya ötürün məni,
Arzuma-kamıma yetirin məni.
Paylayım sevinci, şeiri, nəğməni,
Dəysin dost əlinə əlim, durnalar,
İkiqat olmamış belim, durnalar.

Doğma Arazımın qırağındayam,
Bir qaragözlünün fərağındayam
Həm bacı, həm qardaş sorağındayam,
Məni qorxutmayır ölüm, durnalar!
El gülsün, mən də bir gülüm, durnalar.
(S.Rüstəm)

88. Nümunənin və Q.Zakirin "Durnalar" şeirinin müqayisəsi əsasında hazırlanmış cədvəli doldurun.

FORMA		MƏZMUN (ortaq cəhət)
Fərqli cəhətdir	Ortaq cəhətdir	

89. Kursivlə verilmiş bənddə işlənmiş bədii ifadə vasitələrini müəyyənləşdirin və bənddən nümunə seçərək cədvəli doldurun.

Bədii ifadə vasitəsi	Nümunə

90. Şeirin mövzusu ilə bağlı cədvəldəki doğru fikri seçin və fikrinizi əsaslandırın.

□ Məhəbbət mövzusundadır. □ İctimai lirika nümunəsidir. □ Peyzaj lirikasına aiddir.	Əsaslandırma:

SINAQ 9

AZƏRBAYCAN DİLİ

Mövzular üçün | Video həllər üçün | Cavablar üçün

1. Hansı cümlədə altından xətt çəkilmiş söz cümlə daxilində müxtəlif nitq hissələri kimi düşünülə ***bilməz***?
   A) Məmməd belə evdə qalanda qorxur.
   B) Evə sarı taksi ilə gəlirdi.
   C) Ancaq bu iş baş tutmadı.
   D) Vağzala kimi ötürdün?
   E) Bir dön bizim Bakıya bax!

2. Cümlələrdən birində əlavə ismi birləşmənin asılı tərəfinə aiddir:
   A) Aynuru – sinif yoldaşımı qalib gəldiyi üçün təbrik etdim.
   B) Yuxarıya – dağın başına qalxmaq çətin idi.
   C) Akifin – beşinci sinif şagirdinin uğur qazanmağı hamımızı sevindirirdi.
   D) Elşadın – direktorun dedikləri hamını sevindirdi.
   E) Axşam – hər kəs evə gələndə körpənin sevinci daha da artırdı.

3. Nümunəyə və cədvələ əsasən müəyyən edin.

   Eləmi, şüşə barı,
   Çəkilib şüşə barı,
   Sən dərdli, mən yaralı,
   Gəl gəzək qoşa barı.

1.	Altından xətt çəkilmiş sözlər bir-biri ilə münasibətdə omonim deyil.	doğru
2.	Dördüncü misradakı təsriflənən feil nümunə daxilində feilin iki müxtəlif şəklində düşünülə bilməz.	yanlış
3.	İsmi xəbər işlənməmişdir.	doğru
4.	Tərzi-hərəkət zərfliyi tərzi-hərəkət zərfi ilə ifadə olunmuşdur.	yanlış
5.	Sifətlərin hamısı quruluşca düzəltmədir.	doğru

A) 1, 2, 5 B) 3, 4, 5 C) 1, 3, 5
D) 1, 2, 4 E) 2, 3, 4

4. *Diaqonal* sözünün fonetik xüsusiyyətləri ilə bağlı ***yanlış*** fikri müəyyən edin.
   A) Dodaqlanan sait işlənməmişdir.
   B) Vurğusu sonuncu hecadadır.
   C) Səs və hərf tərkibində bir fərqli məqam var.
   D) *[x`]* samitinin cingiltili qarşılığı işlənmişdir.
   E) Ahəng qanununa tabe deyil.

5. *"Təqribən XIV əsrin sonu XV əsrin əvvəllərində Şirvanşahların hakimi Dərbəndilər sülaləsi paytaxtı bol nemətli Şamaxıdan Bakı şəhərinə köçürməyi qərara almışdı"* cümləsi ilə bağlı ***yanlış*** fikri müəyyən edin.
   A) Xəbər frazeoloji birləşmə ilə ifadə olunmuşdur.
   B) Mübtəda ismi birləşmə ilə ifadə olunmuşdur.
   C) Tamamlıq feili birləşmə ilə ifadə olunmuşdur.
   D) Zaman zərfliyi söz birləşməsi ilə ifadə olunmuşdur.
   E) Təyinlərdən biri mübtəda, digəri isə yer zərfliyi ilə sintaktik əlaqəyə girmişdir.

6. Hansı cümlədə ismi birləşmə müstəqil şəkildə cümlə üzvü kimi işlənmişdir?
   A) İnsanın biliyi artdıqca narahatlığı da artır.
   B) Elm ancaq ağlın süzgəcindən keçəndə qiymətli olur.
   C) Böyük sözünə qulaq asmayan peşman olar.
   D) Özünə yeni dostlar taparkən köhnələri unutma.
   E) Almadığın heyvanın noxtasından yapışma.

7. Tərkibinə görə təhlili *salamlaşmışdır* sözü ilə eyni olan sözü müəyyən edin.
   A) qanadlanmışdır B) gözlətmişdir
   C) azaltdırmışam D) düzəltdirərsən
   E) düyünlətmişəm

8. Hansı cümlədə zərflik əlamətin miqdarını bildirir?
   A) Qorxuram o qədər bekar qalam ki, dəlləklik də yadımdan çıxa.
   B) Qələm qılınc kimi itidir.
   C) Mən onun bu sözlərindən hədsiz dərəcədə narazı idim.
   D) Mən Azərlə uşaqlıqdan dost idim.
   E) Hər cür yalançılıq və ikiüzlülük bu qüdrət qarşısında son dərəcə kiçik görünürdü.

9. Şəxsə görə sadə cümlənin növlərini nəzər alaraq məntiqi ardıcıllığı tamamlayın.

1. Sözünün yerini bilməyənin gərək dərsini verəsən.
2. Yaxşı igidin adını eşit, üzünü görmə.
3. Oyaq olasan, günəşin necə çıxdığına tamaşa edəsən.
4. .....

A) Nərimanın həyəcandan rəngi qaçmışdı.
B) Sözün düzünü zarafatla deyərlər.
C) Sanki Cəfərin üstündən ağır bir yük götürdülər.
D) O zaman bahar idi.
E) Qızım, dərslərini yaxşı oxuyarsan.

10. Tabeli mürəkkəb cümləni müəyyən edin.

A) Hökmdar gülümsədi, bu təbəssüm dərhal bütün əyanların üzündə əks olundu. (Ə.Nicat)
B) Sənətin qayəsi gözəllik, əxlaqın qayəsi isə yaxşılıqdır. (M.Kaplan)
C) Bilikli olmaq azdır, gərək bu bilikdən istifadə etməyi də bacarasan. (Siseron)
D) İnsan bu dünyada daimi yaşar,
Yurdunda bir övlad qalsa, yadigar. (N.Gəncəvi)
E) Bu gün hər şey həll olundu, ana qəlbi sakitləşdi. (İ.Şıxlı)

11. Verilmiş nümunə ilə bağlı ***yanlış*** fikri müəyyən edin.

Ya ümidsizsiniz, ya da ümid sizsiniz,
Ya çarəsizsiniz, ya da çarə sizsiniz.
(Behcat Necatigil)

A) Tabesiz mürəkkəb cümlədir, eyni zamanda baş verən hadisələr sadalanır.
B) Düzəltmə sifətlər ismi xəbər vəzifəsindədir.
C) İkinci dərəcəli üzv işlənməmişdir.
D) Mübtədalar adlıq halda olan isimlə ifadə olunmuşdur.
E) Həm sadə, həm də mürəkkəb bağlayıcılar işlənmişdir.

12. Nöqtələrin yerinə yazıla biləcək köməkçi nitq hissələrinin ardıcıllığını müəyyən edin.

....., sən ..... o biri yoldaşın ..... ağac altında döyülmək istəyirsən .....? (Makulu)

A) modal söz, qoşma, ədat, nida
B) bağlayıcı, qoşma, modal söz, ədat
C) bağlayıcı, qoşma, ədat, nida
D) qoşma, ədat, modal söz, nida
E) modal söz, bağlayıcı, qoşma, ədat

13. Sxemə əsasən doğru bəndi müəyyən edin.

	Söz	Sinonimi	Antonimi
A)	nanəcib	ləyaqətli	bədəsil
B)	mütilik	asudəlik	tabesizlik
C)	müşkül	ziyanlı	asan
D)	təkəbbürlü	lovğalıq	təvazökar
E)	mütərəqqi	qabaqcıl	mühafizəkar

14. Biri *[yazallar]* sözü ilə *[yazarrar]* sözü üçün ortaq xüsusiyyət sayıla bilər:

A) Quruluşca düzəltmə olması
B) Səs və hərf tərkibi arasında bir fərqli məqamın olması
C) Vurğunun eyni hecada olması
D) Eyni qrammatik mənaya malik olması
E) *Yazdırmaq* sözü ilə eyniköklü olması

15. Bəndlərdən birində zərfliyin söz birləşməsi ilə ifadə olunmasına rast ***gəlinmir***:

A) Bir gün bar götürər ağac əkənlər.
Xəznə apararlar əmək çəkənlər. (N.Gəncəvi)
B) Əlliyə çatınca dəyişər əhval,
Dəyişər yaşayış, dəyişər hər hal. (N.Gəncəvi)
C) Meyvə kal olduqda böyüyər, artar,
Yetişən zamanda yerə düşər bar. (N.Gəncəvi)
D) Ay ariflər, qanlı fələk cəbrindən
Qohumdan, qardaşdan, eldən ayrıldım.
(A.Tufarqanlı)
E) Baxdıqca hüsnünə doymayır gözüm,
Təbrizim, Təbrizim, gözəl Təbrizim!
(S.Rüstəm)

16. Uyğunluğu müəyyən edin.

1. Yüksəlmək üçün yalnız öz gücünüzdən istifadə edin.
2. Biz yalnız başqaları üçün yaşayan zaman özümüz üçün yaşayırıq.
3. Vətən üçün ölən insan xoşbəxt insandır.
4. Oğlundan xəbər tuta bilmədiyi üçün ana var-gəl edir, bir çıxış yolu axtarırdı.

a. Qoşma qoşulduğu sözlə birlikdə cümlənin məqsəd zərfliyidir.
b. Qoşma qoşulduğu sözlə birlikdə cümlənin tamamlığıdır.
c. Qoşma feili birləşmə daxilində cümlənin səbəb zərfliyidir.
d. Qoşma təyin olan feili birləşmə daxilindədir.

A) 1-a, 2-b, 3-d, 4-c
B) 1-b, 2-c, 3-a, 4-d
C) 1-a, 2-c, 3-d, 4-b
D) 1-c, 2-a, 3-b, 4-d
E) 1-b, 2-d, 3-c, 4-a

17. Nümunəyə və cədvələ əsasən müəyyən edin.

Mənim kimliyimi, mənim adımı
Təəmimdən soruş, elimdən soruş
Bu coşqun, bu qaynar hissiyyatımı
O dağlardan enən selimdən soruş

(M.Gülgün)

Doğrudur	Yanlışdır
1. Düzəltmə sifətlərin hamısı cümlənin təyinidir. 2. İkinci misradakı mənsubiyyət və hal şəkilçili sözlər cümlənin tamamlığıdır. 3. Təsriflənən feillər quruluşca düzəltmədir.	4. Həm təsriflənən, həm də təsriflənməyən feil işlənmişdir. 5. Həm ismi, həm də feili xəbər işlənmişdir. 6. Həm tabelilik, həm də tabesizlik əlaqəsi işlənmişdir.

A) 1, 3, 5 B) 1, 2, 5 C) 2, 3, 6
D) 1, 4, 6 E) 3, 4, 6

18. Hansı cümlədə *"tutmaq"* sözü *toxunmaq, bərk təsir etmək* mənasında işlənmişdir?

A) Ağca dünyagörmüş xanımların məsləhətilə bir dayə tutub, uşağı ona tapşırdı.
B) Adəmlə Mədədin söhbəti Xanpərini bərk tutmuşdu.
C) Bəs Yaqut sənə demirdi ki, bu papaq məni tutmur?
D) Gün əyilən zaman döyüşçülər yeni bir kəndi tutdular.
E) Pristav Əliağa bəy Cavanşirov Nəbini tutub qazamata göndərir.

19. Hansı cümlədə ədəbi dilin iki müxtəlif norması ***pozulmuşdur***?

A) Ağıllı o adamdı ki, başqasının müdrüklüyündən və təcrübəsindən öyrənir.
B) Ağıl köhnəlməyən geyimdi, bilik tükənməyən mədən.
C) Valideynləri ev-eşiklərini zəhmli, tünd-mixəyi rəngli mebellərlə doldurmuşdular.
D) Keçmişdir onlara qəzəbin niyə?
Düşmüşlərdir səndən aralı, Göygöl! (Ə.Cavad)
E) Təcrübə tələbkar müəllim kimidir, əvvəlcə sınağa çəkir, sonra öyrətməyə başdıyır.

20. Tabesiz mürəkkəb cümlələrdən birində birinci cümlə səbəbi, ikinci cümlə nəticəni bildirir:

A) Elşad imtahanda yüksək nəticə topladı, çünki imtahana ciddi hazırlaşmışdı.
B) Güclü qar yağmış, yolları keçilməz etmişdi.
C) Pəncərədən baxanda gözəl mənzərə açıldı; günəşin şüaları Xəzərin mavi sularında bərq vurur, ləpələr sanki rəqs edirdi.
D) Gecə yağış yağmış, orada-burada gölməçələr əmələ gəlmişdi.
E) Bir neçə evin qapısını döydüm, amma otaq kirayə verən olmadı.

21. Verilmiş cümlədə altından xətt çəkilmiş sözü hansı sözlə əvəz etmək mümkündür?

*S.Aşurbəylinin yorulmaz fəaliyyəti nəticəsində qüdrətli Şirvanşahlar dövlətinin sosial-siyasi, iqtisadi, mədəni həyatı VI əsrdən XVI əsrə kimi zəngin **mənbələr** əsasında araşdırılmışdır.*

A) başlanğıc B) kök C) mənşə
D) qaynaq E) kitab


22. Verilmiş cümlədə buraxılmış durğu işarələrini müəyyən edin.

Şah yerdə ilan kimi qıvrılan oğluna baxıb
Qarı dedi heç olmasa oğluma bir çarə elə.

A) qoşa nöqtə, üç vergül, üç tire
B) qoşa nöqtə, dırnaqlar, üç vergül, bir tire
C) qoşa nöqtə, üç vergül, iki tire
D) qoşa nöqtə, iki vergül, üç tire
E) nöqtəli vergül, üç tire, üç vergül

23. Eyler-Venn diaqramına əsasən doğru fikirləri müəyyən edin.

a. qızdırmalı b. deyilməli



1. Şəxs sonluğu qəbul etdikdə ismi xəbər kimi işlənə bilər.
2. Kökü və başlanğıc forması fərqlidir.
3. Feildən düzəlmiş feil olduğunu əminliklə demək olar.
4. Feil kimi ancaq bir qrammatik məna növündə düşünülə bilər.
5. Müxtəlif nitq hissələri kimi düşünülə bilər.
6. Həm təsriflənən, həm də təsriflənməyən feil kimi düşünülə bilər.

24. Yazının tarixi inkişaf mərhələlərini nəzərə alaraq ardıcıllığı müəyyən edin.
* Nəqliyyatın axınını tənzimləmək üçün istifadə olunan işıqfor
* Ət dükanının şüşə arakəsməsində çəkilmiş inək kəlləsi şəkli
* "Koroğlu" eposunun mətni
* İskitlərin İran padşahı Daraya göndərdiyi canlı quş, siçan, qurbağa və beş dənə ox

1. fonoqrafik yazı
2. əşyəvi yazı
3. ideoqrafik yazı
4. piktoqrafik yazı

25. Hansı sözlər feilin iki müxtəlif şəklində düşünülə bilər?

1. başladın
2. ötürdü
3. oxuyaq
4. oxuyasınız
5. yazasısan

26. Doğru fikirləri müəyyən edin.
1. Xalq danışıq dilinin normalara tabe olan forması – məişət üslubu
2. Mürəkkəb cümlələr, modallıq bildirən söz və ifadələrdən daha çox istifadə olunur – publisistik üslub
3. Dialektizmlərdən, vulqarizmlərdən isitfadə oluna bilər – bədii üslub
4. Aydınlığa, kütləvi anlaşıqlığa xüsusi fikir verilir – rəsmi-işgüzar üslub
5. Məntiqilik, ardıcıllıq, konkretlik, dəqiqlik kimi xüsusiyyətlərə malikdir – elmi üslub

27. *Ayrı* sözünün hansı nitq hissəsinə aidliyini nəzərə alaraq uyğunluğu müəyyən edin.

1. qoşma
2. zərf
3. sifət

a. Vətəndən ayrı düşüb indi laməkan ölürəm. (X.Natəvan)
b. Gördü bir ayrı arı bu halı,
Arılardan soruşdu əhvalı. (S.Ə.Şirvani)
c. Qərar etməz könül zülfündən ayrı. (Nəsimi)
d. O, ata-anasından ayrı yaşayır.
e. Mən ki doymamışdım heç vüsalından,
Mənə zülm elədi yaman ayrılıq. (N.Rəfibəyli)

Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları Cavab vərəqində yerinə yetirin.

Qarabağ xalçaçılıq məktəbinin Şuşa qrupuna aid edilən Malıbəyli xalçaları öz adını Şuşa şəhərindən 15 km şimalda yerləşən Malıbəyli kəndinin adından götürmüşdür.

Malıbəyli xalçasının orta sahəsinin kompozisiyasını şaquli istiqamətdə yerləşmiş qellər təşkil edir. Bu qellər orijinal bədii xüsusiyyətlərə malikdir: onlar orta sahənin hansı hissəsində yerləşməsinə və kəmiyyətinə baxmayaraq, **formalarına** görə eynidir. Hər bir qelin mərkəzində ho-vuz təsviri yaradan kvadrat formalı element yerləşir, onun üzərində isə əks tərəflərə baxan iki ördək təsvir edilir. Ördəklər həyat əhəmiyyətli ünsürlərdən biri olan suyu simvolizə edən 5 formalı naxışlarla əhatə olunur. Kvadratlar özləri isə bulud təsviri yaradan naxışların forması olan ilanabənzər elementlərlə əhatə olunur. Məlum olduğu kimi, dekor elementi və bulud təsviri kimi Şərq dekorativ incəsənətinin bütün sahələrində istifadə olunan ördək təsvirləri suyu simvolizə edən rəmzi mənaya malikdir. IX əsrdən etibarən, bulud təsviri və uyğur-çin incəsənətinin, xüsusilə miniatür və saxsı məmulatlarının digər dekorativ **elementləri** Azərbaycan xalq incəsənətinə daxil olur. Azərbaycan incəsənətinin bu elementləri belə asanlıqla qəbul etməsinin səbəbi yerli ictimai şərtlərlə, dini inanclarla və əhalinin həyat tərzi ilə **bağlıdır**. Yaxın Şərq ölkələrində və Azərbaycanda suyu balıq, ördək, düz və dalğalı xətlər və ya onların hissələri şəklində təsvir etmişlər.

28. Tünd hərflərlə verilmiş sözlərə əsasən cədvəli doldurun.

Sözlər	Kontekstə görə mənası	Üslubi funksiyası (poetik, informativ və ya terminoloji)

29. Verilmiş məlumat əsasında uyğun bəndi qeyd edin ✓ və fikrinizi əsaslandırın.

"Qarabağ" "qara" və "bağ" türk-Azərbaycan sözlərinin birləşməsindən əmələ gəlmişdir. Tədqiqatçılar "Qarabağ"ın "böyük bağ", "səfalı bağ" mənasında işlədildiyini bildirirlər. Bəzi mənbələrdə Qarabağın dağlıq hissəsi "Arsax" adlandırılır. Etimoloji araşdırmalar göstərir ki, "Arsax" sözü də Qarabağın qədim türk etnoslarından biri olan saklarla bağlıdır. "Arsax" "ər" və "sak" sözlərinin birləşməsi ("sak əri") kimi də izah olunur.

☐ Mətni məzmun baxımından genişləndirə bilər.

_____

_____

☐ Mətni məzmun baxımından genişləndirə bilməz.

_____

_____

30. Mətnə əsasən cədvəli doldurun.

Müddəa	Fakt
Azərbaycan incəsənətində suyu simvolizə edən təsvirlərdən istifadə edilmişdir.	1.
	2.

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

31. Monqol işğalı dövründə tətbiq edilən vergilərdən biri də qopçur idi. İlk monqol işğalı dövründə köçəri maldarlardan alınan bu vergi sonralar oturaq əhalinin ödədiyi can vergisinə çevrildi. Qazan xanın dini islahatından sonra bu vergi tədricən aradan qalxdı.

Verilənlərə əsasən, Qazan xan....

1. yerli oturaq əhalini öz tərəfinə çəkməyə çalışırdı
2. şəriətdə olmayan 20-dən artıq vergini ləğv etmişdi
3. islam dinini Hülakülərin dövlət dininə çevirmişdi
4. oturaq əhalinin köçəri monqol əyanlarından asılılığını gücləndirdi

A) 1, 3 B) 2, 4 C) 3, 4 D) 2, 3 E) 1, 2

32. ABŞ konqresinin "Azadlıq Müdafiə Aktı"na qəbul etdiyi 907-ci düzəlişə əsasən:

A) Azərbaycan hərbi hissələri sülhməramlı qüvvələrin Kosovodakı və Əfqanıstandakı əməliyyatlarında iştirak etdi
B) Kəlbəcər rayonunun ermənilər tərəfindən işğalından narahatlıq ifadə olunurdu
C) Azərbaycanla Ermənistan arasında atəşkəs elan edildi
D) Azərbaycana hər cür yardımın göstərilməsinə məhdudiyyətlər qoyulurdu
E) ABŞ Minsk qrupunun həmsədr ölkələrindən birinə çevrildi

33. Qəznəli dövləti və Ərəb xilafəti üçün ümumi cəhət:

1. Sasani dövlətinin ərazilərinin işğal olunması
2. Hindistana hərbi yürüşlərin təşkil edilməsi
3. Bizans qoşunları üzərində qələbə qazanılması
4. Səlcuqlara qarşı mübarizə aparılması


A) 1, 2 B) 2, 3 C) 3, 4 D) 1, 3 E) 2, 4

34. Göstərilənlər nəticələridir:
1. Şirvan hökmdarı Şahrux Təbrizdə edam edildi
2. Şirvanşahlar dövlətinin varlığına son qoyuldu
3. Əlqas Mirzə Şirvan bəylərbəyi təyin edildi

A) Cabanı döyüşündə Şirvan qoşunlarının məğlub olmasının
B) Kəsranilər sülaləsinin hakimiyyətinin ləğv edilməsinin
C) Şah I Təhmasibin Şirvana yürüşünün
D) Səfəvilərin paytaxt Təbrizi ələ keçirməsinin
E) Şah I İsmayılın Şirvanşahlar dövlətinin tabe etməsinin

35. X əsrin əvvəllərində xəlifənin Azərbaycana qoşun göndər-məsinin səbəbi:
A) Ərəblərə qarşı Müsafir üsyanının baş verməsi
B) Yusif ibn Əbu Sacın müstəqil siyasət yürütməsi
C) Bərdədə yarımmüstəqil feodal əmirliyin yaradılması
D) Şəddadilərin Səlcuqların müttəfiqinə çevrilməsi
E) I Fəribürzün Dərbənd əmirliyini ələ keçirməsi

36. Göstərilənlərin aid olduğu dövlətləri müəyyən edin.
– *Antanta ittifaqına üzv olmuşdular*
– *Osmanlı dövlətinin ərazisinin bölüşdürülməsində iştirak etmişdilər*
– *Streza konfransında Avstriyanın ərazi bütövlüyünü təminat altına almışdılar*



A) 1, 2, 4 B) 2, 3, 5 C) 2, 3, 4
D) 3, 4, 5 E) 1, 3, 5

37. Qaraqoyunlu bəyliyindən ***fərqli*** olaraq, Ağqoyunlu bəyliyi:
A) Osmanlılarla dostluq münasibəti saxlamışdı
B) Van şəhərini feodal hakimliyinin mərkəzinə çevirmişdi
C) Teymurilərin Azərbaycan torpaqlarındakı hakimiyyətinə son qoymuşdu
D) Osmanlı sultanı İldırım Bəyazidlə mübarizə aparmışdı
E) Baharlı sülaləsi tərəfindən idarə olunurdu

38. Məntiqi ardıcıllığı tamamlayın.
1. 1920-ci ilin noyabrında Azərbaycan ali partiya rəhbərliyinin qərar qəbul etməsi
2. Sovet Azərbaycanı və Sovet Ermənistanı arasında heç bir sərhədin olmadığının vurğulanması
3. .....

A) Naxçıvan, Zəngəzur və Qarabağın dağlıq hissəsinin "mübahisəli ərazilər" elan olunması
B) Azərbaycanın Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının tərkibinə daxil olması
C) Zəngəzurun bir hissəsinin Ermənistana verilməsi
D) Naxçıvanın ərazi baxımından Azərbaycanın əsas hissəsindən ayrı salınması
E) Ermənistanda, Gürcüstanda və Dağıstanda yerləşən tarixi Azərbaycan torpaqlarının Azərbaycana qaytarılması

39. Cədvəli tamamlayın.

Türk xalqlarının adı	Mədəniyyət nümunələri	
1. Səlcuqlar	"Nizamiyyə" mədrəsəsi	?
2. Teymurilər	?	Şahi-Zində məqbərə ansamblı
3. Osmanlılar	Topqapı sarayı	?

a. Çinili köşk
b. "Cəlali təqvimi"
c. "Qütb minar" minarəsi
d. Gur Əmir türbəsi
e. Qüvvətül-islam məscidi

A) 1-a; 2-d; 3-c B) 1-e; 2-a; 3-c
C) 1-e; 2-b; 3-d D) 1-d; 2-c; 3-a
E) 1-b; 2-d; 3-a


40. XVII əsrin 60-cı illərində Moskva çarının İsfahana elçilərini göndərməkdə məqsədi:
A) Hacı Davudun Şamaxıda qarət etdiyi rus tacirlərini himayəyə almaq
B) Səfəvi dövləti ilə baş vermiş münaqişəni dinc yolla həll etmək
C) Şah Sultan Hüseyn ilə "dostluq və ticarət müqaviləsi" bağlamaq
D) Xəzərsahili ərazilərin Rusiyaya ilhaq edilməsi barədə Səfəvi şahı ilə danışıqlar aparmaq
E) Əfqanlara qarşı mübarizədə Şah II Təhmasibə yardım göstərmək

41. 1920-ci ildə AXC-də yaranmış hökumət böhranının səbəbləri:
1. Sosialist nazirlərin hökuməti tərk etməsi ilə N. Yusifbəyli hökumətinin istefa verməsi
2. Mühafizəkar-ilhaqçı qüvvələrin F. Xoyskinin başçılıq etdiyi hökumətə qarşı çıxması
3. Hakimiyyətin İrəvanı ermənilərə güzəştə getməsi
4. Kommunistlərin M.H.Hacınskinin təşkil edəcəyi yeni hökumətdə təmsil olmaqdan imtina etmələri
A) 1, 2 B) 2, 4 C) 3, 4 D) 1, 4 E) 2, 3

42. Qədim Romada respublika dövrünün əvvəllərində plebeylərin patrisilərə qarşı mübarizə fomalarındandır:
A) Spartakın başçılıq etdiyi üsyançıları dəstəkləmələri
B) Orduda xidmət etməkdən imtina etmələri
C) Respublikanın monarxiya ilə əvəz olunmasını tələb etmələri
D) Qladiator döyüşlərinin keçirilməsinə mane olmaları
E) Xalq tribununa qarşı sui-qəsd həyata keçirmələri

43. XV əsrin 70-ci illərində Ağqoyunlu-Osmanlı müharibələrinin nəticəsi:
A) II Mehmetin Azərbaycanı ələ keçirmək planı iflasa uğradı
B) Trabzon krallığı Osmanlı dövlətinə birləşdirildi
C) Qoyluhisar döyüşündə Uzun Həsənin qoşunları qələbə qazandı
D) Ağqoyunlu tacirləri Qara dənizə birbaşa çıxış əldə etdi
E) Tiflis daxil olmaqla Şərqi Gürcüstan Ağqoyunlu dövlətinin tərkibinə daxil oldu

44. Uyğunluğu müəyyən edin.




a. "Qarabağın hava qapısı" adlanan Beynəlxalq Hava limanı istifadəyə verilmişdi
b. Böyük İpək yolunun mənzil qərargahı yerləşir
c. Məcburi köçkünlər "Ağıllı kənd" kimi yenidən qurulmuş Ağalı kəndinə qayıtmışdı
d. Güləbird Su Elektrik Stansiyası inşa edilmişdi
e. "Xarıbülbül" beynəlxalq folklor festivalı keçirilmişdi
A) 1-a; 2-d; 3-c, e B) 1-e; 2-b; 3-a, d
C) 1-e; 2-b; 3-d D) 1-b, d; 2-c, e; 3-a
E) 1-c; 2-a; 3-b

45. Verilənlər arasında hansı konfransa aid məlumat ***yoxdur?***
– Çinin müstəqilliyi və ərazi bütövlüyü tanındı
– Sovet Rusiyası və Almaniya iqtisadi blokadadan çıxmaq yolunda ilk addım atdı
– Sudet vilayətinin Almaniyaya verilməsini nəzərdə tutan saziş mzalandı
– Qara dəniz boğazları məsələsinə dair çağırılmışdı
A) Vaşinqton konfransı B) Genuya konfransı
C) Münhen konfransı D) Montre konfransı
E) Lokarno konfransı

46. Anaxaqanlığı dövrü üçün xarakterikdir:
A) Boyalı qablar mədəniyyətinin formalaşması
B) Sənətkarların içərisindən tacirlər qrupunun ayrılması
C) Saxsı qabların hazırlanması
D) Ölülərin yaşayış məskənlərindən kənarda dəfn olunması
E) Süni suvarma sisteminin yaranması

GÜVƏN NƏŞRLƏRİ

47. Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin.



a. Sərkarlar sülaləsinin hakimiyyətdə olması
b. "Bayat savaşı"nda qələbə qazanması
c. Xristian-alban məliklərini tabe etməsi
d. Qazax, Şəmşəddil, Borçalı mahallarının azad olunması
e. Quba xanlığı ilə mübarizə aparılması

A) 1-a; 2-d; 3-c, e; 4-b B) 1-c; 2-b; 3-a, d; 4-e
C) 1-e; 2-c; 3-a, b; 4-d D) 1-b; 2-a; 3-d, e; 4-c
E) 1-d; 2-a; 3-b, c; 4-e

48. Uyğunluq gözlənilmişdir:
1. Korsika adasının tutulmasında Fransaya yaxından kömək göstərmişdi – Müqəddəs Roma imperiyası
2. Şimal müharibəsinin gedişində əsaslı dönüş yaratdı – Poltava döyüşü
3. Babur şahın dövründə ləğv edilmişdi – cizyə vergisi
4. Osmanlı dövlətində dağılma dövrünün başlanğıcı hesab edilir – Kiçik Qaynarca sülhünün imzalanması
5. XVII əsrin əvvəllərində İngiltərənin İspaniya ilə yaxınlaşmasına kömək etmişdi – I Ceymsin "nikah diplomatiyası"

A) 1, 2, 4 B) 2, 3, 5 C) 2, 4, 5
D) 3, 4, 5 E) 1, 3, 4

49. XIX əsrin sonunda Bakı şəhərində hərbi vəziyyətin elan olunması ilə nəticələndi:
A) Ağqvardiyaçı general Denikinin ordusunun Cənubi Qafqaza doğru irəliləməsi
B) İlk dəfə "Qadınların qiyamı"nın baş verməsi
C) Bakı Sovetinin türk-müsəlman əhaliyə qarşı soyqırıma başlaması
D) Tütün fabrikinin fəhlələrinin ilk mütəşəkkil tətil keçirməsi
E) Denstervilin başçılığı altında ingilis qoşunlarının Bakıya daxil olması

50. Daha ***gec*** baş vermişdir:
A) Kürəkçay müqaviləsinin imzalanması
B) Cavanbulaq döyüşünün baş verməsi
C) Qubalı Fətəli xanın Ərdəbili və Meşkini ələ keçirməsi
D) Gəncədə ikihakimiyyətliliyə son qoyulması
E) Lənkəran xanlığının Rusiya tərəfindən işğal olunması


51. Səbəb-nəticə əlaqəsinin doğru verildiyi bəndi müəyyən edin.
A) "Taypinlər hərəkatı"nın baş verməsi – Çində prezident üsulunun yaradılması
B) Rusiyanın Krım müharibəsində məğlub olması – çar I Nikolaya qarşı "Dekabristlər üsyanı"nın baş verməsi
C) Napoleon Bonapartın Avropada apardığı müharibələrdə böyük vəsaitə ehtiyac duyması – Fransanın Luiziananı ABŞ-yə satması
D) Osmanlı dövlətində "İttihad və Tərəqqi" adlı gizli cəmiyyətin yaradılması – Sultan II Mahmudun taxtdan salınması
E) "Monro doktrinası"nın irəli sürülməsi – Kanadaya dominion hüququnun verilməsi

52. Rəşt müqaviləsinə aid ***deyil:***
A) Kürdən cənubda olan Xəzərsahili torpaqlar Səfəvi dövlətinə qaytarıldı
B) Səfəvi tacirlərinə Rusiyadan gömrük vermədən mal gətirməyə icazə verildi
C) Osmanlı dövləti Kürdən cənubdakı Xəzərsahili vilayətlərə buraxılmamalı idi
D) Rusiya hökuməti Nadir şahın tələblərini nəzərə alaraq müqaviləni imzalamağa məcbur qalmışdı
E) Rus tacirləri gömrük vermədən Səfəvi ərazisindən keçərək Hindistana gedə bilərdilər

53. Yadelli dövlətlərə qarşı mübarizədə ABŞ və Səfəvi dövlətləri:
1. "Yandırılmış torpaq" taktikasından istifadə etmişdi
2. Ordunu tayfa prinsipi əsasında formalaşdırmışdı
3. Avropa dövlətləri ilə diplomatik əlaqələr saxlamışdı
4. Vahid komandanlığa əsaslanan hərbi donanma təşkil etmişdi

54. Xronoloji ardıcıllığı müəyyən edin.
1. Fransızların Kresi döyüşündə məğlubiyyətə uğraması
2. Otuzillik müharibənin başlanması
3. Araqon və Kastiliya krallıqlarının vahid dövlətdə birləşməsi
4. İngiltərədə Tüdorlar sülaləsinin hakimiyyətə gəlməsi

55. Xəritədə işarələnmiş xanlıqlara aid oxşar xüsusiyyətləri müəyyən edin.



1. İkihakimiyyətliliyin mövcud olması
2. Qarabağ xanlığından asılılığın qəbul edilməsi
3. Şəki xanına qarşı yaradılmış ittifaqa daxil olması
4. Qacar tayfasından olan sülalənin hökmranlıq etməsi

56. Batı xanın yürüşləri üçün səciyyəvidir:
1. Kiyevin ələ keçirilməsi
2. Çinin şimal ərazilərinin fəth olunması
3. Polşa-alman qoşunlarının məğlubiyyətə uğradılması
4. Şərqi Türküstan və Cənubi Sibirin tabe edilməsi

57. Uyğunluğu müəyyən edin.
1. "Hərbi kommunizm" siyasəti
2. "21 Azər" hərəkatı
3. Milli Azərbaycan Qərargahı
a. Xırda kəndli təsərrüfatı məcburi ləğv edildi.
b. Azərbaycan İnqilab Komitəsi "taxıl ticarətinin dövlət inhisarına alınması haqqında" dekret qəbul etdi
c. Ərzaq sapalağı tətbiq olunmuşdu
d. S.C.Pişəvəri başda olmaqla Milli hökumət yaradılmışdı
e. Başlıca məqsədi rəhbər vəzifələrə azərbaycanlıların gətirilməsi idi

Sizə təqdim olunmuş mənbəni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları cavab kağızında yerinə yetirin.

Yüzillik müharibənin yenidən qızışması ilə əlaqədar olaraq kral II Riçardın zamanında yeni vergilər alınması kəndliləri hiddətləndirdi. 1381-ci ilin yazında ölkənin cənub-şərqində üsyan başlandı. Kəndlilər böyük dəstə ilə Londona yaxınlaşdılar. Onların məqsədi kralla görüşüb vəziyyəti yüngülləşdirməyi xahiş etmək idi. Kəndlilər kütləvi surətdə "xeyirxah kral"a inanır və özlərinin bütün bədbəxtliklərinin səbəbini onun müşavirlərində görürdülər. Kəndlilərlə görüşən kral onların tələbləri ilə razılaşmalı oldu. Kəndlilərin bir hissəsi kral sözünə inanıb Londonu tərk etdi. Lakin bir çox üsyançılar Londonda qaldılar. Feodallar üsyanın öhdəsindən hiylə və xəyanətlə gələ bildilər. Üsyan yatırılsa da, hakim sinif və feodal dövləti güzəştə getməyə məcbur qaldı. Ağır vergilər bir qədər yüngülləşdirildi.

58. Mənbədə haqqında bəhs olunan üsyanın adını qeyd edin.

59. Haqqında bəhs olunan üsyanda kəndlilərin irəli sürdükləri tələbləri yazın. (ən azı iki tələb yazın)

60. Mənbədə qeyd edilən üsyan nəticəsində kəndlilər hansı güzəştləri əldə etdi? (ən azı iki güzəşt yazın)

Mövzular üçün



Video həllər üçün



Cavablar üçün



61. Ə.Cavadın "Səsli qız" poeması ilə bağlı fikirlərdən hansı doğrudur?

A) Şah ölkədən qaçdıqdan sonra xalq mübarizəni dayandırıb qəsbkarlara təslim olmaq qərarına gəlir.

B) İntiqam almaq fikrinə düşən Sara saraya gələrək padşahı görmək istədiyini deyir.

C) Yadelli hökmdarın ölümündən sonra xalq əsarətdən qurtulur, amma çətin güzəran yenə davam edir.

D) Məğlub ölkənin bütün sakinlərində yadelli hökmdara qarşı nifrət var.

E) Müəyyən epizodlarda nəzərə çarpan ədalətli vəzir obrazına yer verilmişdir.

62. Fikirlərdən biri ***səhvdir:***

Q.Zakirin "Durnalar" şeirində lirik qəhrəman...

A) ...durnaları da özü kimi qərib adlandırır.

B) ...düşdüyü qürbət yerdə gecə-gündüz ağladığını deyir.

C) ...sevdiyini yenidən görmək istəyini dilə gətirir.

D) ...durnalara müraciət etməsinin həsrətini az da olsa, azaltmadığını ifadə edir.

E) ...durnaların laçın yatağı olan məkandan yavaş-yavaş uçaraq keçmələrini istəyir.

63. Nümunədə işlənmişdir:

Dönər bu dünyaya, o elə baxar,
Kövrələr qayalar, daşlar əriyər.
Elə qəzəblənər, yandırar, yaxar,
Dağlar dik atılar, qalxar, yeriyər.

(F.Qoca)

1. epitet 2. metafor 3. inversiya
4. kinayə 5. mübaliğə 6. təşbeh

A) 1, 4, 6 B) 2, 3, 6 C) 3, 4, 5
D) 1, 2, 6 E) 2, 3, 5

64. S.S.Axundovun "Nurəddin" əsərində Bahar evdə yaranan şəraitə görə getmək istəyir, amma çox sevdiyi Nurəddindən ayrılmamaq üçün qalmağa qərar verir. Hansı bənddə adı çəkilən surətdə eyni yanaşmanı görmək mümkündür?

A) C.Cabbarlı. "Oqtay Eloğlu" – Nadya Firəngizi tək qoymamaq üçün sevmədiyi yerdə qalmalı olur.

B) C.Məmmədquluzadə. "Anamın kitabı" – Zəhrabəyim ana Gülbahara görə oğullarının mübahisəsinə dözməli olur.

C) M.İbrahimov. "Azad" – Fərda kəndə getmək fikrindən Azada görə əl çəkir.

D) M.F.Axundzadə. "Aldanmış kəvakib" – Xacə Mübarək sarayı tanımayan Yusif Sərraca görə vəzifəsindən getmir.

E) N.Vəzirov. "Müsibəti-Fəxrəddin" – Hürü nənə Səadətə görə evdən getmir.

65. R.Rzanın "Qızılgül olmayaydı" poeması ilə bağlı cədvəlin doğru olması üçün hansı fikirlərin yeri dəyişilməlidir?

Doğrudur	Yanlışdır
1. Müşfiqlə bağlı xatirələrin böyük bir qismi müəllifin, az hissəsi gələn qonağın dili ilə çatdırılır. 2. Poemanın müəllifi təhkiyəçidir, o, düşüncələrini Dilbər xanıma danışır. 3. Əsərdə M.Müşfiqin şeirindən misraya yer verilmişdir.	4. Repressiyanın sərt üzündən bəhs olunur, amma adlar çəkilmir. 5. Dilbər əsərdəki əsas surətlərdən biridir, bir çox epizodlarda iştirak edir. 6. "Dostluq sevinci ikiqat edir, dərdi isə yarıya bölür" aforizmi mətndən çıxan ideyalardan biri kimi göstərilə bilər.

A) 2 – 5 B) 1 – 6 C) 2 – 4 D) 3 – 6 E) 1 – 4

66. M.F.Axundzadənin "Aldanmış kəvakib" əsərindən seçilmiş hadisələrin ardıcıllığı hansı bənddə göstərilmişdir?

1. Şah Abbasın yanında Yusif Sərracın adı çəkilir.
2. Yusif Sərrac Şah Abbasın məsləhətləşdiyi adamları həbs etməyi əmr edir.
3. Mövlana Cəmaləddin Şah Abbasın sarayına gəlir.
4. Yusif Sərracın əmri ilə Qəzvin şəhərinə su çıxarmaq üçün təkliflər hazırlanır.
5. Axund Səməd və sərdar Zaman xan dükana gəlib Yusif Sərracı saraya aparırlar.

A) 3, 1, 5, 2, 4 B) 1, 4, 2, 3, 5
C) 4, 3, 1, 5, 2 D) 3, 5, 2, 1, 4
E) 1, 3, 2, 4, 5

67. S.Vurğunun "Azərbaycan" şeirindən seçilmiş hansı misraların izahı ***səhv*** verilmişdir?

	Misralar	İzahı
A)	Havalansın Xanın səsi. Qarabağın şikəstəsi.	Xanəndə Xan Şuşinskinin ifasında «Qarabağ şikəstəsi»nin ifa olunmasına işarə edilmişdir.
B)	Nə çoxdur oylağın sənin! Aranın, yaylağın sənin.	Azərbaycan təbiətinin müxtəlif lövhələrinin olması diqqətə çatdırılmışdır.
C)	De gəlsin, hər nəyin vardır, Deyilən söz yadigardır.	Sözün, sənətin unudulmadığı, gələcək nəsillərə ötürüldüyü vurğulanmışdır.
D)	Bilinməyir yaşın sənin, Nələr çəkmiş başın sənin.	Tarixin müxtəlif dövrlərində baş verən hadisələr nəzərdə tutulmuşdur.
E)	Hankı səmtə, hankı yana Hey uçsam da, yuvam sənsən.	Müəllifin vətən həsrəti yaşaması diqqətə çatdırılmışdır.

68. Cümlə verilənlərdən hansı ilə davam etdirilsə, ***səhv*** fikir yaranar?
Süjet xəttinin mərhələləri müşahidə olunan bir əsərdə...
A) ... kompozisiyanın ünsürlərinə yer verilə bilməz.
B) ... uzun və qısa hecaların bir-birini izləməsi prinsipinə əməl etmək mümkündür.
C) ... müsbət və mənfi, əsas və epizodik surətlər iştirak edə bilər.
D) ... təbiət təsvirləri də yer tuta bilər.
E) ... nəzmlə yazılan monoloq və dialoqlara yer verilə bilər.

69. A.İldırımın "Əsir Azərbaycanım" şeiri ilə bağlı fikirlərdən hansı doğrudur?
A) Müəllif özünü bir uşaq, vətəni isə ana adlandırmış, məhəbbətini dilə gətirmişdir.
B) Vətən həsrətini azaltmaq istəyən lirik qəhrəman küləklə vətəninə salam göndərmək istəyir.
C) Ana vətəndən ayrı düşən lirik qəhrəman başqa bir vətənin ona qucaq açması ilə təsəlli tapır.
D) Mil, Muğan, Bakı kimi adların çəkilməsi vətənsizlik yaşayan müəllifi sarsıdır, unudulmuş xatirələrin canlanmasına səbəb olur.
E) Lirik qəhrəmanın vətənə qovuşacağını hökm şəklində ifadə etməsi şeirdə nikbinliyi artırır.

70. C.Cabbarlının "Oqtay Eloğlu" əsərinin qəhrəmanı Oqtaya aid cədvəldəki ***səhvi*** müəyyən edin.

A)	nitqi	Mən bu yola gəlirkən xalqımdan altun taclar gözləmirdim.
B)	xarakteri	Mübarizdir, teatr yaratmaq üçün apardığı mübarizədə tək olması onu həvəsdən salmır.
C)	əməli	Teatra baxmaq üçün qadın tamaşaçıların gəldiyini eşidəndə onların yanına gedərək təşəkkür edir.
D)	başqalarına münasibəti	Zahiri ziyalı olanları cansız, duyğusuz, varatnikli odun parçaları hesab edir.
E)	sarsılma səbəbi	Firəngizin dəyişməsi, dediyi sözləri danması

71. *".....dramatik növdə olan əsərlər yazmaqla bərabər, lirik şeirlər və poemalar da yazmışdır"* cümləsində nöqtələrin yerinə hansı müəlliflərin adı yazıla bilər?
1. C.Məmmədquluzadə
2. H.Cavid
3. Ə.Cavad
4. S.Vurğun
5. N.Vəzirov
A) 1, 3 B) 3, 5 C) 2, 5 D) 2, 4 E) 1, 4

72. "Koroğlu" dastanında Koroğlunun getdiyi məkanlarla bağlı fikirlərdən hansı ***səhvdir?***
A) Ballıcaya Düratı və ilxını geri qaytarmaq məqsədilə gedir.
B) Ərzincana getməyi düşünmürdü, amma Bolu bəyin məqsədinə çatması üçün bu səfərə razı olur.
C) Bağdada Qıratsız gedir, çünki Eyvazı səfərə Qıratla göndərmişdi.
D) Toqata Qıratsız gedir, çünki Qıratı Həmzə aparmışdı.
E) Qırx Dəyirmanlar adlanan yerdə məqsədinə çatmağa yaxın olur, amma fürsəti əldən verərək daha çətin vəziyyətə düşür.

73. Verilənlərdən biri Mir Cəlalın "Açıq kitab" romanında baş ***vermir:***
A) Vahidin məsələsinin müzakirəsi uzun çəkmir, bütün üzvlərin razılığı ilə Vahid institutdan qovulur.
B) Seçilən layihələrin müəllifləri arasında Vahidin olmaması Vəzirbəylini narahat edir.
C) Rübabə adlı tələbə Gəldiyevin məsuliyyətsiz olduğunu diqqətə çatdırır, onun dərsindən imtina edir.
D) Sadıq kişi oğlunun işi ilə bağlı olaraq Bakıya gəlir.
E) Səttarzadə qızına və Vahidə kitab hədiyyə verir, Füzuli kimi sevməyi tövsiyə edir.

74. Şifahi xalq ədəbiyyatının janrlarına aid xüsusiyyətlər verilmişdir. Hansı xüsusiyyəti daşıyan janr aid olduğu ədəbi növə görə digərlərindən fərqlənir?
A) İfadə etdiyi dərin mənanı dövrdən-dövrə keçdikcə qoruyan yığcam, bitkin ifadələrdir.
B) Əksər hallarda baş qəhrəman ideallaşdırılır.
C) Eyni və ya oxşar səslənən sözlərin, söz birləşmələrinin əvəzlənməsinə əsaslanır.
D) Əşyanın məcazi təsviri, onun səciyyəvi əlamətlərinin təqdimi əsas yer tutur.
E) Musiqi, rəqs, şeir, aktyorluq bacarıqlarını özündə birləşdirir.

75. M.Füzulinin "Leyli və Məcnun" əsərinə əsasən uyğunluğu müəyyənləşdirin.
1. Atasının Məcnunu səhrada görməsi epizodu
2. Leylinin Məcnunu səhrada görməsi epizodu
a. Həmin yerə təsadüfən gəlib çıxır.
b. Məcnun qarşısındakının onu tanıması üçün şeir oxumalı olur.
c. Alov şölələrini görüb yaxınlaşdıqda Məcnunla qarşılaşır.
d. Həmin görüşdə Məcnunun qolundan axan qan qarşısındakının diqqətini çəkir.
A) 1 – b,c; 2 – a,d
B) 1 – c,d; 2 – a,b
C) 1 – b,d; 2 – a,c
D) 1 – a,d; 2 – b,c
E) 1 – a,c; 2 – b,d

76. H.Cavidin "Ana" əsərinin məzmununa əsasən hansı cümlənin kinayə ilə deyildiyini müəyyənləşdirin.
A) Səlimin Qanpoladı nəzərdə tutaraq bacısından soruşduğu "Nə xoş xəbər var?" cümləsinin
B) İsmətin Orxanı tanıtmaq üçün Səlimə dediyi "Qonşumuz xanzadə, zəngin bir cavan" cümləsinin
C) Qanpoladın düşmənlərini nəzərdə tutaraq dediyi "Bən kəndim intiqam aldım onlardan" cümləsinin
D) İsmətin ona xəncər uzadan Orxana dediyi "Sən xislətdə bir qəhrəman görmədim" cümləsinin
E) Səlimin Səlma haqqında dediyi "Alicənablıq boyuna biçilmiş" cümləsinin

77. S.Vurğunun "Vaqif" əsərinə əsasən uyğunluğu müəyyənləşdirin.

Səbəb	Nəticə
a. Vəzir Vaqifin yurdunu "çoban torpağı" adlandırır. b. Qacar Vaqifə fars dilində yazmağı təklif edir.	1. Vaqif qəzəblənir.
2. Vaqifin insanların tərəfində olması ona xalq sevgisi qazandırmışdı.	c. İbrahim xan xalqın yaxşı yaşaması üçün bütün məsələlərdə ondan məsləhət alırdı. d. Xalqın onun ətrafında birləşməsi nəticəsində Qacar Qarabağı ala bilmədən qayıdır. e. Murad və Qasım şairə kömək etmək istəyirlər.

A) 1 – b; 2 – e
B) 1 – a; 2 – c
C) 1 – b; 2 – d
D) 1 – b; 2 – c
E) 1 – a; 2 – e


78. Əsərlər üçün ortaq xüsusiyyətləri müəyyənləşdirin.
A – Ə.Cavad. "Azərbaycan bayrağına"
B – H.Ziya. "Qarabağda"
1. dövlətçiliklə bağlı fikirlərin ön plana çıxarılması
2. ölkəmizlə bağlı mənəvi dəyərin tərənnüm olunması
3. ölkəmizin başını alan qara dumanlara işarə olunması
4. müəllifi narahat edən konkret məsələ ətrafında yazılması
5. müəllifin iftixar hissinin qabarıq şəkildə ifadə olunması
A) 1, 4
B) 3, 4
C) 2, 5
D) 1, 2
E) 3, 5

79. M.Ə.Sabirin "Neylərdin, ilahi?!" şeirində xüsusiyyətləri verilən şəxslərlə bağlı fikirlərdən hansı ***səhvdir?***
A) dehqanlar – Əməkləri istismar olunur, bağlarının, əkin-lərinin xeyrini bəylər görür.
B) surtuqlu müsəlmanlar – Hər tərəfdə hökm sürən cəhalətin tərəfdarlarıdır.
C) danosbazlar – Onların mənfi əməllərinə görə şeytana ehtiyac qalmır.
D) məzlumlar – Onların göz yaşının dərya olduğu dövrdə başqa dəryalara, ümmanlara ehtiyac yoxdur.
E) bəyzadələr – Rəncbər surətinə qarşı qoyulmuşdur.

80. Verilmiş xüsusiyyətlərdən yalnız ikisini daşıyan əsəri müəyyənləşdirin.
– *Təhkiyə əsasında yazılmışdır.*
– *Əsərin əsas xəttini valideyn-övlad münasibətləri təşkil edir.*
– *Əsərdə tarixi şəxsiyyətin obrazı canlandırılmışdır.*
– *İştirak edən surətlərin sayı məhduddur, hadisələr şaxələndirilmir.*

A) C.Məmmədquluzadə. "Anamın kitabı"
B) S.Vurğun. "Vaqif"
C) C.Novruz. "Mən bizim anaları günəşlə tay tuturam"
D) M.F.Axundzadə. "Aldanmış kəvakib"
E) Mir Cəlal. "Açıq kitab"

81. Verilmiş məlumata əsasən klasteri tamamlaya bilən fikirləri müəyyənləşdirin.



A) 1. M.Şəhriyar. "Heydərbabaya salam"; 2. Heca vəznində, bəndlər şəklindədir.
B) 1. Mir Cəlal. "Vətən yaraları"; 2. İnsan-təbiət xətti üzərində qurulmuş əsərdir.
C) 1. Ə.Haqverdiyev. "Bomba"; 2. Əsərin baş qəhrəmanı pristavın razılığını qazanmaq üçün başqalarını qurban verməyə razıdır.
D) 1. A.Şaiq. "Anabacı"; 2. Remarka, dialoq kimi bədii vasitələrdən istifadə olunmuşdur.
E) 1. Ə.Məmmədxanlı. "Qızıl qönçələr"; 2. Bədbin sonluqla bitir.

82. N.Gəncəvinin "İskəndərnamə" əsərindən seçilmiş misralarda hansı fikir diqqətə çatdırılır?

Ona uca bəxti köməklik etdi,
Tikilib qurtardı İskəndər səddi.

A) İskəndərin ölümün əlində aciz qalması
B) İskəndərin aylardır yol getdiyi səhradan çıxış yolunu tapması
C) İskəndərin qapıların qıfılsız, sürülərin çobansız olduğu yerdəki qayda-qanunlar qarşısında heyrətə düşməsi
D) İskəndərin şimalda yaşayan tayfanı yəcuclardan xilas etməsi
E) İskəndərin Dara ilə müharibəyə gördüyü hazırlığın tamamlanması

83. M.Şəhriyarın "Heydərbabaya salam" poemasından seçilmiş bəndlə bağlı fikirlərdən hansılar doğrudur?

Heydərbaba, səni vətən bilmişdim,
Vətən deyib, baş götürüb gəlmişdim,
Səni görüb göz yaşımı silmişdim,
Halbuki lap qəmli qürbət səndəymiş,
Qara zindan, acı şərbət səndəymiş.

1. Müəllif dağla görüşünün sonuncu görüş olmadığına bəslədiyi inamı dilə gətirmişdir.
2. Qürbətin sona çatdığı fikri vurğulanmışdır.
3. Dağla görüşə gələn müəllif həsrətinin sona çatmadığını ifadə edir.
4. Dağı görən müəllifin yaşadığı nikbin hisslərin tərənnümünə yer verilmişdir.
5. Müəllifin dağa bəslədiyi inam və məhəbbət göstərilmişdir.

84. Bəndlərdə əsərlər və həmin əsərlərə aid suallar verilmişdir. Hansı əsərlərə aid suala həmin əsərdə iştirak edən ən az 2 surətin adını çəkməklə cavab tapmaq mümkündür?

1. M.İbrahimov. "Gələcək gün" – Hikmət İsfahaninin qarşısında fikirlərini sona kimi cəsarətlə söyləyən kimdir?
2. M.Füzuli. "Leyli və Məcnun" – Cəmiyyətdə hökm sürən normalara ürəkdən bağlı olan kimdir?
3. Mir Cəlal. "Vətən yaraları" – İnsana səhvlərini düzəldərək yaşaya bilməsi üçün ikinci ömür arzulayan kimdir?
4. C.Cabbarlı. "Oqtay Eloğlu" – Oqtayın səhnəyə qayıdışına mane olmağa çalışan kimdir?
5. N.Gəncəvi. "İskəndərnamə" – Peyğəmbərliyə çatdıqdan sonra İskəndər üçün nəsihətnamə yazan kim idi?

85. *"Sonrakı peşmançılıq fayda verməz"* atalar sözü H.Cavidin "İblis" əsərindən seçilən hansı surətlərin qeyd olunan situasiyada yaşadığı hisslərlə əlaqələndirilə bilər?

1. Arif – Öldürdüyü insanın qardaşı olduğunu öyrənir.
2. İbn Yəmin – Bir yığın insanın onun uğrunda qurban getdiyini yada salır.
3. Rəna – İbn Yəminin atasının qatilini tapmaq haqqında vədlərinə inanır.
4. Elxan – İbn Yəmin də aralarında olmaqla bir neçə nəfəri güllələdir.
5. İxtiyar şeyx – Xavərin qatilindən intiqam alınmalı olunduğunu düşünür.

86. Fikirlərin aid olduğu surətlərin ardıcıllığını müəyyənləşdirin.

Cəmiyyəti dəyişmək üçün təkbaşına çalışdığını görəndə "Bir güllə bahar olmaz" məsəlini çəkir.
Qardaşını sakitləşdirmək üçün "Uşağa uşaq deyərlər, böyüyə də böyük deyərlər" məsəlini çəkir.
Yoldaşının düşünmədən addım atmasının təhlükəli ola biləcəyini diqqətə çatdırmaq üçün "Daldan atılan daş topuğa dəyər" atalar sözünü söyləyir.
Müsbət əməlləri ilə seçilən qızın qoçaqlığını alqışlamaq üçün "Aslanın erkəyi, dişisi olmaz" atalar sözünü söyləyir.

1. İzzət (H.Cavid. "Ana")
2. Fəxrəddin (N.Vəzirov. "Müsibəti-Fəxrəddin")
3. Vaqif (S.Vurğun. "Vaqif")
4. Rüstəm bəy (C.Məmmədquluzadə. "Anamın kitabı")

87. Uyğunluğu müəyyənləşdirin.

1. Nümunədə yalnız bədii təsvir vasitəsi işlənmişdir.
2. Nümunədə yalnız bədii ifadə vasitəsi işlənmişdir.
3. Nümunədə həm bədii təsvir, həm də bədii ifadə vasitəsi işlənmişdir.

a. Yummadı bu gecə gözünü Bakı! (İ.Sadıq)
b. Qəlbimdə şaxta var, çöldə bahardır. (İ.Səfərli)
c. Bir dağam, başımdan qar əskik olmaz. (Ə.Veysəlli)
d. Yenə də göylərdən ay baxanda gəl. (H.Billuri)
e. Hər yol ayrıcında, bəlkə, işıq var? (Ə.Kərim)

88-90-cı sualları mətnə əsasən cavablandırın.

Tələb

General – Mayor de Sent-Ekzüperi, bir daha təkrar edirəm. Yaşınıza və səhhətinizə görə həkimlər sizə təyyarə sürməyi qəti qadağan ediblər.

Ekzüperi – Mən hələ qoca deyiləm, general, səhhətimdən də narahat olmayın. Fransanın taleyi həll olunan bir zamanda mən fəaliyyətsiz qala bilmərəm, başa düşün. İşıqla zülmət arasında, insan ləyaqəti ilə azğınlıq arasında dava gedir. Mən bu davada müşahidəçi yox, iştirakçı olmaq istəyirəm.

General – Mən sizinlə tabeliyimdə olan bir zabit kimi yox, bir dost kimi danışıram. Bizim təyyarəçilərimiz çoxdur, amma de Sent-Ekzüperi bircə nəfərdir. Biz sizin həyatınızı təhlükəyə ata bilmərik. Siz təyyarəçi olmaqdan daha çox artıq bizim milli iftixarımızsınız, Fransanın böyük yazıçısısınız.

Ekzüperi – Mən yazıçı və təyyarəçi olmaqdan daha qabaq fransızam. Fransa yaralıdır. Mən onun yaralarını yalnız havada sarıya bilərəm. İndi mənim yazı masam da göydədir, səngərim də. General, siz mənə dost kimi müraciət etdiniz, mən də sizdən dost kimi xahiş edirəm. İzin verin, uçum.

General *(təmkinlə)* – Mən qanunsuz hərəkət edirəm, ancaq sizdən də keçə bilmirəm. Mən sizə beş uçuşa icazə verirəm. Beş uçuş! Vəssəlam!

Ekzüperi – Çox sağ olun, general!

88. Kursivlə verilmiş hissəyə əsasən cədvəlin doğru hesab etdiyiniz xanasını işarələyin və seçiminizi əsaslandırın.

Mətnin aid olduğu ədəbi növün tələblərinə uyğun olaraq müəllif hadisələrin davamında yazıçı öz dili ilə də Sent-Ekzüperinin yaradıcılığı haqqında məlumat verə bilər, əsərlərinin adını çəkə bilər.

☐ Doğrudur	☐ Yanlışdır

89. Generalın fikirlərini nəzərə alaraq cədvəli doldurun.

Problem hesab edir	Problemin həlli üçün seçdiyi yol

90. Mətndən xüsusiyyətləri göstərilən bədii təsvir və ifadə vasitələri üçün nümunələr seçməklə cədvəli doldurun.

Bədii təsvir və ya ifadə vasitəsinə aid xüsusiyyət	Mətndən nümunə
Nəzərdə tutulan söz və ya ifadə başqa bir sözlə əvəz olunmuşdur.	
Məzmunca bir-birinə zidd iki söz və ya anlayış eyni cümlədə verilmişdir.	

SINAQ 10

AZƏRBAYCAN DİLİ

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*





1. Verilmiş xüsusiyyətlər hansı cümləyə aiddir?
   1. Mürəkkəb cümlədir, tərkib hissələri bərabərhüquqludur.
   2. Bir hadisə digəri ilə qarşılaşdırılır.
   3. Tərkib hissələri ismi xəbərli müəyyən şəxsli cümlələrdir.

   A) Kədərin ən yaxşı dərmanı səbirdir, ona görə də mən həmişə səbir köynəyini geyinirəm. (L.V.Bethoven)
   B) Ona görə öyrətdim əlimi bu sənətə,
   Bir gün sənə əl açıb düşməyim xəcalətə. (N.Gəncəvi)
   C) Məhəbbət kamillikdir, kamilliyin isə hüdudu olmur. (Uilyam Şekspir)
   D) Xatirələr həyatı gözəlləşdirə bilərlər, amma həyatda ayaq üstə dura bilməyimizin səbəbi unutqanlığımızdır. (Onore de Balzak)
   E) Yaxşı olmaq asandır, çətin olan ədalətli olmaqdır. (Viktor Hüqo)

2. Hansı rəqəmlərin yerini dəyişməklə cədvəldəki uyğunluğu bərpa etmək olar?

Doğrudur	Yanlışdır
1. Tərkibində küçə və meydan adları olan mürəkkəb adlarda hər iki söz böyük hərflə yazılır. 2. Xüsusi isimlər cəm şəkilçisi qəbul etdikdə də böyük hərflə yazılır.	3. Fəxri adların özək hissəsini təşkil edən ilk söz böyük hərflə, sonrakı sözlər kiçik hərflə yazılır. 4. Bədii əsərlərdə heyvanlara və cansız əşyalara verilən adlar kiçik hərflə yazılır.

A) 2, 4 B) 1, 3 C) 1, 4 D) 2, 3 E) 1, 2

3. Köməkçi nitq hissələrinə aid cədvəli tamamlayın.

Bağlayıcı və ədat kimi işlənən sözdür.	İsmin ən azı iki halına qoşula bilən qoşmadır.	Modal söz və feil kimi işlənən sözdür.
ancaq	üçün	görünür
1	qədər	deyəsən
yəni	2	3 .....

A) 1 – da, 2 – savayı, 3 – nəhayət
B) 1 – ki, 2 – dək, 3 – demə
C) 1 – amma, 2 – başqa, 3 – müxtəsər
D) 1 – da, 2 – ötrü, 3 – görəsən
E) 1 – hətta, 2 – kimi, 3 – olmaya

4. Hansı cümlədəki sifət çoxaltma dərəcəsindədir və düzgün yazılmışdır?
   A) Çovğun gecə düm-düz edir yer üzün,
   Qar işığı gündüz edir yer üzün. (A.Səhhət)
   B) Mənimlə açıq-aşkar danış ki, bilim, nə olub.
   C) Uşaq balaca əllərini irəli uzatdı.
   D) Dostum əyninə açıq-qırmızı köynək geyinmişdi.
   E) Qıpqırmızı don geyindi ellərim,
   Qaranlığı boğazlayıb doğdu gün. (S.Rüstəm)

5. Hansı cümlədə ədəbi dilin heç bir norması ***pozulmamışdır***?
   A) Ağıl köhnəlmiyən geyimdir, bilik tükənmiyən mədən.
   B) Ağıllı o adamdır ki, başqasının müdrüklüyündən və təcrübəsindən öyrənir.
   C) Qayığın gənc kapitanı hərdən ətrafa nəzər salırdı.
   D) İstəyə gənclikdə mümkündür çatmaq
   Qocalıq gəldimi, axtar bir bucaq. (N.Gəncəvi)
   E) Balaca körpələr beşikdə yan-yana uzanıb səs-səsə verərək qığıldaşırdı.

6. *"Azadlığı müdafiə edənlərin müqavimət göstərmə gücü zülm edənlərin gücündən daha çoxdur"* cümləsinin sintaktik təhlili ilə bağlı doğru fikri müəyyən edin.
   A) Cümlə üzvlərindən biri feili birləşmə ilə ifadə olunmuşdur.
   B) Bütün cümlə üzvləri söz birləşməsi ilə ifadə olunmuşdur.
   C) Kəmiyyət zərfliyi işlənmişdir.
   D) Mübtəda, tamamlıq və xəbərdən ibarətdir.
   E) Bərabərhüquqlu cümlə üzvləri işlənmişdir.

7. Hansı cümlədə altından xətt çəkilmiş sözü iki müxtəlif nitq hissəsi kimi düşünmək mümkün ***deyil***?
   A) Bu insanda <u>belə</u> qəribə xasiyyət var.
   B) Şəhərə <u>sarı</u> maşınla getdik.
   C) <u>Ancaq</u> bu işin necə olacağını bilmirdik.
   D) <u>O</u> məktəbin direktorudur.
   E) <u>Artıq</u> vəsaitləri kitab rəfinə yığmalıyıq.

GÜVƏN NƏŞRLƏRİ

8. ***Yanlış*** bəndi müəyyən edin.

	Frazeoloji birləşmə	Frazeoloji sinonimi	Frazeoloji antonimi
A)	qəlbinə dəymək	ürəyini qırmaq	könlünü almaq
B)	od götürmək	özündən çıxmaq	hirsi yatmaq
C)	əli soyumaq	ruhdan düşmək	cuşa gəlmək
D)	tədbir görmək	ağlına batmaq	əlini ağdan qaraya vurmamaq
E)	yola getmək	dil tapmaq	kölgəsini qılınclamaq

9. *"Müraciət"* sözünün fonetik təhlili ilə bağlı doğru fikri müəyyən edin.
A) Səs və hərf tərkibi fərqlənmir.
B) Cingiltili samitlərin sayı saitlərin sayına bərabərdir.
C) Ahəng qanununa tabe olmayan bu söz üçhecalıdır.
D) Qalın, qapalı, dodaqlanan sait işlənmişdir.
E) *[y]* samitinin kar qarşılığı işlənmişdir.

10. Hansı bənddə bağlayıcı söz müstəqil cümlə üzvü ***deyil***?
A) Ədalət mülkündən kim üz çevirsə,
Ona aqil deməz ağıllı kimsə. (N.Gəncəvi)
B) Hər kəs ki lovğadır, onda olmaz hünərdən əsər.
C) Kimin ki ixtiyarı sədaqətə bağlıdır,
Taleyinin axırı səadətə bağlıdır. (N.Gəncəvi)
D) Nə qədər yaşayırsan, öyrən, qocalığın sənə kamal gətirəcəyini gözləmə. (Solon)
E) Aşiq oldur kim, qılır canın fəda cananına,
Meyli-canan etməsin hər kim ki, qıymaz canına.
(M.Füzuli)


11. Hansı cümlədə danışanın ifadə etdiyi fikrə münasibət modal sözlə ifadə olunmuşdur?
A) Bilirsən, Vidadi, sözün doğrusu,
Olmaq istəmirəm vicdan oğrusu. (S.Vurğun)
B) El-oba ağsaqqallarının, şeirsevərlərin dediyinə görə, Hacı Kərimə bədahətən şeir demək qabiliyyəti nənəsi Şəhrabanıdan keçib.
C) Mən bilən, bu problemi həll etmək üçün ən yaxşı üsul düzgün planlaşdırma və əməkdaşlıqdır.
D) Bu, necə deyərlər, gəmidə oturub gəmiçi ilə dava edir.
E) Əsası çox möhkəm olmayan evin.
Bütün dörd divarı tez uçar, yəqin. (N. Gəncəvi)

12. Hansı cümlədə həm həmcins üzvlər, həm də söz birləşməsinin asılı tərəfinin əlavəsi işlənmişdir? (durğu işarələri buraxılmışdır)
A) Ölməz bu gözəl aləmə idrakla gələnlər
Məna evinin sirrini vicdanla bilənlər.
(S.Vurğun)
B) Əvvəllər aktyorlar ya varlıların evlərində ya da onların evlərinin qarşısında açıq havada çıxış edərdilər.
C) Əjdər bəy Aşurbəyov Yaponiyaya səfər etmiş oradan qayıtdıqdan sonra yapon memarlıq üslubunda "Mikado" adlı teatrın indiki Rus Dram Teatrının binasını tikdirmişdi.
D) Şeir mədəniyyət incəsənətdir
İncə ruh incə zövq incə sənətdir. (M.Şəhriyar)
E) Muğamı dinlədikcə onun sözlərini beynimdə canlandırdıqca bir sözlə musiqiyə qulaq asdıqca sanki ruhum təzələnirdi.

13. Hansı fikir nöqtələrin yerinə yazıla ***bilməz***?
Hər hansı bir cümlənin xəbəri feilin əmr şəklində olan sözlə ifadə olunubsa, o cümlə .....
A) sual cümləsi ola bilər.
B) nəqli cümlə ola bilməz.
C) müəyyən şəxsli cümlə ola bilməz.
D) adlıq cümlə ola bilməz.
E) ismi xəbərli ola bilməz.

14. *"Yəni"* bağlayıcısı cümlənin ortasında işlənmiş özündən əvvəl vergül, özündən sonra isə qoşa nöqtə işarəsi qoyulmuşdur. Bu məlumata əsasən, *yəni* bağlayıcısının işləndiyi yeri müəyyən edin.
A) "Yəni" bağlayıcısı əlavədən əvvəl işlənmişdir.
B) "Yəni" bağlayıcısı ümumiləşdirici sözlə həmcins üzvlər arasında işlənmişdir.
C) "Yəni" bağlayıcısı tabesiz mürəkkəb cümlənin tərkib hissələrini bir-birinə bağlamışdır.
D) "Yəni" bağlayıcısı sual cümləsinin yaranmasında iştirak etmişdir.
E) "Yəni" bağlayıcısı tabeli mürəkkəb cümlənin tərkib hissələrini bir-birinə bağlamışdır.

15. Sxemə əsasən üzərində rəqəm yazılmış hansı cümlə üzvlərinin bir-biri ilə sintaktik əlaqəyə girdiyini müəyyən edin.



A) 2, 4; 5, 6 B) 1, 2; 4, 5 C) 2, 3; 5, 6
D) 3, 4; 2, 6 E) 3, 5; 4, 6

16. Nümunədə buraxılmış durğu işarələrinin ardıcıllığını müəyyən edin.
Şah kasanı alıb burnuna tutdu
Bu müşkdür ənbərdir nədir qarı Ətri insanı bihuş edir
A) qoşa nöqtə, tire, vergül, vergül, vergül, vergül, sual, nöqtə
B) qoşa nöqtə, tire, vergül, vergül, vergül, sual, nöqtə
C) qoşa nöqtə, dırnaq, vergül, vergül, vergül, dırnaq, nöqtə
D) qoşa nöqtə, tire, vergül, vergül, sual, nöqtə
E) qoşa nöqtə, tire, vergül, vergül, vergül, nöqtə

17. Hansı cümlədə bütün cümlə üzvləri iştirak etmişdir?
A) Ayaqyalın kənd uşaqları ora-bura qaçışaraq şehli otun üstündə səs-küylə oynayırdılar.
B) Ağamehdinin vəziyyəti suda boğulan insanın saman çöpünə əl atmasına bənzəyirdi.
C) Bu təklif tədbirə hazırlaşan insanları, şübhəsiz ki, qane etmədi.
D) Qızxanımın bayram fərəhi ifadə edən çöhrəsi sanki ərinin iltifatından ürkərək dəyişildi.
E) Mən yanı üstə sərilmiş maralın sonuncu ürək döyüntülərini aşkar şəkildə görürdüm.


18. *"O, doğma vətənin müstəqilliyi uğrunda rus qoşunları ilə döyüşdə qəhrəmancasına həlak oldu"* cümləsində zərfliyin hansı məna növləri işlənmişdir?
A) səbəb və tərzi-hərəkət zərfləri
B) məqsəd, zaman və tərzi-hərəkət zərfləri
C) səbəb, zaman və tərzi-hərəkət zərfləri
D) yalnız zaman və tərzi-hərəkət zərfləri
E) yalnız səbəb və zaman zərfləri

19. Tələffüz formasında verilmiş sözlərdən hansını həm isim, həm də feil kimi düşünmək ***olmaz***?
A) [başdar] B) [dayanacaxlar]
C) [güləşdi] D) [almadı]
E) [mələyə]

20. *"Qopardılmışdı"* feilindəki şəkilçilər haqqında deyilənlərdən biri ***yanlışdır***:
A) *-ar* leksik şəkilçidir.
B) *-ıl* qayıdış növün şəkilçisidir.
C) *-mış* nəqli keçmiş zaman şəkilçisidir.
D) *-dı idi* hissəciyinin şəkilçiləşmiş formasıdır.
E) *-d* feildən feil düzəldən *t* şəkilçisdir.

21. *"Günəş qızıl saçlarını dərələrdən, meşələrdən yavaş-yavaş toplayaraq qərbə doğru uzanmağa başlamışdı"* (A.Şaiq) cümləsinin morfoloji təhlili ilə bağlı ***yanlış*** fikri müəyyən edin.
A) Sifətin sualına cavab verən isim işlənsə də, isimin sualına cavab verən sifət işlənməmişdir.
B) Mənsubiyyət şəkilçili söz ismin təsirlik halında dadır.
C) *Sarı, tərəf* qoşmalarının sinonimi işlənmişdir.
D) Zərfin iki məna növünə aid sözlər işlənmişdir.
E) Təsriflənən feil xəbər şəklində, məlum növdədir.

22. Eyler-Venn diaqramına və nümunələrə əsasən doğru fikirləri müəyyən edin.
I *Həqiqətin bəzənməyə ehtiyacı yoxdur, onun öz çöhrəsi hər cür bəzəkdən daha gözəldir.* (Əbu Turxan)
II *Yaddaş ona görə lazımdır ki, işıqda gördüklərin qaranlıqda sənə yol göstərsin.* (Əbu Turxan)



1. Həm tabeli, həm də tabesiz mürəkkəb cümlə kimi düşünülə bilər.
2. Təsriflənməyən feillə ifadə olunmuş tamamlıq işlənmişdir.
3. Həm ismi, həm də feili xəbər işlənmişdir.
4. Mürəkkəb cümlədir, tərkib hissələri müəyyən şəxsli cümlədir.
5. Feili xəbər frazeoloji birləşmə ilə ifadə olunmuşdur.
6. Tabelilik bağlayıcısının iki müxtəlif məna növü işlənmişdir.

A) 2, 3, 6 B) 1, 3, 5 C) 2, 4, 6
D) 1, 4, 5 E) 1, 3, 6

23. Nümunəyə və cədvələ əsasən uyğun fikirləri müəyyən edin.
Vaxtdan düzgün istifadə edə bilməyən adam həmişə onun yel kimi uçmasından danışır. (J.Labrüer)

Doğrudur.	Yanlışdır.
1. Həm tabelilik, həm də tabesizlik əlaqəsi işlənmişdir. 2. Həm təsriflənən, həm də təsriflənməyən feil işlənmişdir. 3. Təyin mübtəda ilə sintaktik əlaqəyə girmişdir.	4. İkinci dərəcəli üzvlərin hamısı söz birləşməsi ilə ifadə olunmuşdur. 5. Müəyyən şəxsli cümlədir. 6. Zaman zərfliyi sadə zaman zərfi ilə ifadə olunmuşdur.

24. *"Azaldılmışdır"* və *"azğınlaşmışdır"* feilləri üçün ortaq olan fikirləri müəyyən edin.
1. İki qrammatik şəkilçi işlənmişdir.
2. Kökü və başlanğıc forması eyni nitq hissəsidir.
3. Feildən düzəlmiş feildir.
4. Leksik və qrammatik şəkilçilərin sayı bərabərdir.
5. Tərkibində feil düzəldən şəkilçi işlənmişdir.

25. Verilmiş nümunə ilə bağlı doğru fikirləri müəyyən edin.
Zəfər! Zəfər! Məncə, bu söz yaşamağın mənasıdır,
Tarix deyir, ölməmişdir, ölməyəcək qəhrəmanlar.
(S.Vurğun)
1. Feilin iki müxtəlif təsriflənməyən formasının işləndiyini əminliklə demək mümkündür.
2. Həm ismi, həm də feili xəbər işlənmişdir.
3. İkinci misrada söz sırası pozulmuşdur.
4. Tabelilik əlaqəsi yalnız cümlə üzvləri arasında işlənmişdir.
5. Təsdiq bildirən ara söz işlənmişdir.
6. Zərflik işlənməmişdir.

26. Yazının mərhələlərini nəzərə alaraq ardıcıllığı müəyyən edin.
* Aptekin şüşəsində qaba dolanmış ilan şəkli
* Zoomağazanın şüşəsində çəkilmiş heyvan şəkli
* Orxon-Yenisey kitabələrindəki yazı
* "Qara vəzir" nağılında Hind padşahının Mələk xanıma göndərdiyi qarpız və bıçaq

1. piktoqrafik yazı
2. əşyəvi yazı
3. ideoqrafik yazı
4. fonoqrafik yazı

27. Verilmiş nümunələrə və cədvələ əsasən uyğunluğu müəyyən edin.

Haram çörək axtarma ki, bu, baha başa gələr. (X.Şirvani)	*Vuruldum o gün ki şeirə, sənətə, Dağlar öz donunu lalədən biçdi.* (S.Vurğun)
1.	2.
3.	

a. ○→□ sxeminə uyğundur.
b. □←○ sxeminə uyğundur.
c. Tərkib hissələrindən biri ümumi şəxsli, digəri müəyyən şəxsli cümlədir.
d. Budaq cümləsi müəyyən şəxsli cümlədir.
e. Tərkib hissələri bir-birinə bağlayıcı sözlə bağlanmışdır.

Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları Cavab vərəqində yerinə yetirin.

Mussonlar

Mussonlar dənizlərə, xüsusilə də Hind okeanına məxsus fəsillərlə olan küləklərdir. Yayda okeandan, qışda materikdən əsir.

Musson külәkləri quru və su hövzələri arasında ildə iki dəfə istiqamətini dəyişir. Əsasən, Cənubi, Cənub-Şərqi və Şərqi Asiyada müşahidə olunur.

Yayda Asiyanın mərkəzi və cənub sahilləri tez qızır və hava yüngülləşərək yuxarı qalxır. Materiki əhatə edən Sakit və Hind okeanlarında su sahələri yavaş qızdığına, onların üzərində hava hələlik soyuq və ağır olduğuna görə aşağı enir. Bu halda hava axınlarının hərəkəti okeanlardan quruya doğru **yönəlir**. Avrasiyada yay mussonları iyulun ortalarından başlayır və oktyabr ayına qədər davam edir. Bu zaman quru sahələrinə çoxlu rütubət gəlir. Bu materikdə axan Amur, Xuanxe, Yantszı, Mekonq, Qanq və Brahmaputra çaylarında suyun səviyyəsinin qalxmasına, daşqınların baş verməsinə səbəb olur.

Qışda Avrasiyanın mərkəzi hissələrində soyuq hava şəraiti **yaranır**. Ona görə bu ərazilərdə aşağı enən havanın yüksək sıxlığı əmələ gəlir. Bu vaxt Sakit və Hind okeanlarının səthində havanın temperaturu nisbətən yüksək olur. Hava yay dövründə aldığı istiliyin hamısını itirmir. Nəticədə qışda musson külәkləri Avrasiyadan Sakit və Hind okeanlarına doğru yönəlir. Bu zaman materikin mərkəzi sahələrində formalaşan soyuq və quru hava Sakit okeana doğru istiqamət alır.

28. Mətnə əsasən cədvəli doldurun.

İsti havanın musson küləklərinin istiqamətinə təsiri	
Soyuq havanın musson küləklərinin istiqamətinə təsiri	

29. Mətnə əsasən cədvəli doldurun.

Tünd hərflərlə verilmiş sözlər	Həmin sözlərin qarşılığı	Həmin sözlərin qarşılığının başqa cümlədə işlədilməsi

RİYAZİYYAT

30. Verilmiş nümunə ilə mətn əsasında cədvəli doldurun.

Hər səhər, hər axşam, hər axşam, hər səhər
Çox zaman sərsəri küləklər bixəbər
Bir yaxın dost kimi qapımı döyərlər,
Küləklər, küləklər, bəstəkar küləklər,
Dünyanı dolaşan bəxtiyar küləklər! (M.Müşfiq)

Mətnin aid olduğu üslub	Həmin üsluba aid iki səciyyəvi xüsusiyyət
.....	*1.* *2.*
Nümunənin aid olduğu üslub	Həmin üsluba aid iki səciyyəvi xüsusiyyət
.....	*1.* *2.*

TARİX


Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

31. Uyğunluq gözlənilmişdir:
1. Monqol dövlətinin paytaxtını Pekinə köçürmüşdü – Çingiz xan
2. Dehli sultanlığında hakimiyyətdə olmuşdu – Məmlüklər sülaləsi
3. Səfəvilər tərəfindən himayə edilmişdi – Teymuri hökmdarı
4. Monqolların Şərqi Avropaya yürüşləri qərara alındı – Onon qurultayında
5. III Xaçlı yürüşündə alman ordusu tərəfindən dağıdılmışdı – Konya şəhəri

A) 2, 4, 5 B) 1, 3, 4 C) 2, 3, 5
D) 1, 2, 3 E) 3, 4, 5

32. Azərbaycan ordusunun "Qisas" adlı antiterror əməliyyatı nəticəsində:
A) Hadrut qəsəbəsi düşməndən tamamilə təmizləndi
B) Xankəndidəki separatçı rejim təslim olduğunu elan etdi
C) Cocuq Mərcanlı kəndinin təhlükəsizliyi təmin olundu
D) Qırxqız və Sarıbaba yüksəklikləri hərbiçilərimizin nəzarətinə keçdi
E) Düşmən qüvvələri Cəbrayıl-Füzuli istiqamətində məğlubiyyətə uğradıldı

33. Xəritədə işarələnmiş hər üç xanlığa aid oxşar xüsusiyyəti müəyyən edin.



A) Əfşar tayfasından olan sülalə tərəfindən idarə olunması
B) Qubalı Fətəli xanın hücumuna məruz qalması
C) Qarabağ xanlığından asılılığın qəbul edilməsi
D) Hacı Çələbi xana qarşı birgə ittifaqa daxil olması
E) XIX əsrin ilk onilliyində ləğv edilməsi

34. Daha sonra baş vermişdir:
A) Otuzillik müharibənin başlanması
B) Auqsburq sülhünün imzalanması
C) Qranada əmirliyinin süqut etməsi
D) Tüdorlar sülaləsinin hakimiyyətə gəlməsi
E) Kresi döyüşünün baş verməsi

35. Nadir şahın daxili siyasəti ilə bağlı uyğun fikirləri müəyyən edin.

Doğrudur	***Yanlışdır***
1. Hərbi dəniz donanma-sının təşkili	4. Rəiyyətin hərbi qulluğa çağırılması
2. Azərbaycan əyalətinin yaradılması	5. Şamaxı əhalisinin Ağsuya köçürülməsi
3. Baş vəzir və sədr-əzəm vəzifələrinin ləğv edilməsi	6. Vəqf torpaqlarının müsadirə olunması

A) 2, 5 B) 1, 6 C) 2, 3, 5 D) 1, 4 E) 3, 4, 6

36. XIX əsrin ikinci yarısında Cənubi Qafqazda Andlılar məhkəməsinin tətbiq ***edilməməsinin*** səbəbi:
A) Məhkəmələrdə verilən qərarlar komendantların iradəsindən asılı idi
B) Çar Rusiyasının yerli əhalinin məhkəmədə iştirakına imkan vermək istəmirdi
C) Azərbaycanlıların vəkil kimi çıxışlarına qadağa qoyulmuşdu
D) Mülki cinayətlərə hərbiçilər üçün yaradılmış səhra məhkəmələrində baxılırdı
E) Əyalət və şəhər məhkəmələrinə geniş səlahiyyətlər verilmişdi

37. Göstərilənlər nəticəsidir:
1. Kapitalist iqtisadi sisteminin əsası qoyuldu
2. Milli dövlətlərin yaranmasında əlverişli zəmin formalaşdı
A) Rekonkista hərəkatının
B) Xaçlı yürüşlərinin
C) Uot Tayler üsyanın
D) Al qızılgül və Ağ qızılgül müharibəsinin
E) Reformasiya hərəkatının

38. Şah I İsmayıl Şah I Təhmasibdən ***fərqli*** olaraq:
A) Özbəklərlə müharibə aparmışdı
B) Şirvanşahlar dövlətinin varlığına son qoymuşdu
C) Osmanlıların hücumuna məruz qalmışdı
D) Ərəb İraqını Səfəvi dövlətinə birləşdirmişdi
E) Portuqalları Hörmüzdən çıxarmağa nail olmuşdu

39. Səbəb-nəticə əlaqəsinin doğru verildiyi bəndi müəyyən edin.

	Səbəb	Nəticə
1.	Münhendə faşistlərin qiyam qaldırması	Almaniyada Veymar respublikasının yaradılması
2.	Daues planının qəbul edilməsi	Fransa və Belçikanın Rur bölgəsini işğal etməsi
3.	İngiltərə və Fransanın sakitləşdirmə siyasəti yürütməsi	Sudet vilayətinin Almaniyaya ilhaq edilməsi
4.	Montre konfransının keçirilməsi	Türkiyənin Millətlər Cəmiyyətinə daxil olması
5.	Marna çayı sahilində almanların hücumunun dayandırılması	Şliffen planının uğursuzluqla nəticələnməsi

A) 3, 5 B) 1, 2 C) 4, 5 D) 1, 3 E) 2, 4

40. Məntiqi ardıcıllığı tamamlayın.
1. Ağqoyunlu qoşununun Beyşehir döyüşündə məğlub olması
2. 1461-ci il sülhünün pozulması
3. .....
A) Sultan II Mehmetin Azərbaycanı ələ keçirməsi
B) Ağqoyunlu bəyliyinin Qara dənizə çıxış yolunun bağlanması
C) Venesiyanın Ağqoyunlu qoşunlarını odlu silahla təmin etməsi
D) Ağqoyunlu-Osmanlı müharibələrinin növbəti mərhələsinin başlanması
E) Trabzon xəzinəsinin bir hissəsinin Bayandurluların əlinə keçməsi

41. Fransanın cənubu və şimalındakı şəhərlərin inkişafı fərqli idi. Ölkənin cənubunda şəhərlərin yaranması və inkişafı xarici ticarət əlaqələrinin genişlənməsi ilə bağlı idi. Şimalında isə vilayətlər arasında iqtisadi əlaqələrin yaranması buna səbəb olmuşdu. Xaçlı yürüşləri və Şərq ölkələri ilə ticarət əlaqələri üçün əlverişli mövqedə yerləşməsi, Cənubi Fransada şəhərlərin inkişafına təsir göstərmişdi.
Bəhs olunan dövrdə Fransanın cənubunda feodal münasibətlərin zəif inkişaf etməsinin səbəbini mətnə əsasən müəyyən edin.
A) Xaçlı yürüşləri nəticəsində feodal mülklərinin dağıdılması
B) Sənətkarlıq və ticarət mərkəzləri olan şəhərlərin inkişaf etməsi
C) Şimalda vilayətlər arasında iqtisadi əlaqələrin daha tez yaranması
D) Güclü kral hakimiyyətinin mövcud olması
E) Xarici ticarət əlaqələrinin zəifləməsi

42. Dulusçuluq sənətinin mövcud olduğu dövrə aid ***deyil:***
A) Dairəvi yaşayış evlərinin inşa edilməsi
B) İnsanların qan qohumluğu əsasında ana xətti ilə birləşməsi
C) Daş alətlərdən istifadə olunması
D) Axirət dünyasına inamın yaranmağa başlanması
E) İnsanların ovçuluq və balıqçılıqla məşğul olması

43. Uyğunluğu müəyyən edin.



a. AXC-nin elan olunmasından sonra ilk siyasi böhran baş vermişdi
b. Sovet Rusiyası tərəfindən erməni daşnak hökumətinə verilmişdi
c. Azərbaycanın müstəqilliyini elan edən "İstiqlal Bəyannaməsi" qəbul edilmişdi
d. Xosrov bəy Sultanovun rəhbərliyi ilə general-qubernatorluq təsis olunmuşdu
e. AXC Parlamenti fəaliyyətə başlamışdı
A) 1-e; 2-c; 3-b, d
B) 1-c; 2-a; 3-d
C) 1-b; 2-c; 3-e
D) 1-a, d; 2-e; 3-b
E) 1-e; 2-a; 3-b


44. I və XI əsrlər Azərbaycan tarixi üçün səciyyəvi dir:
A) Roma ilə diplomatik əlaqələrin saxlanılması
B) Müstəqil dövlətlərin meydana gəlməsi
C) Alan tayfalarının qarətçilik yürüşlərinə məruz qalması
D) Feodal münasibətlərinin mövcud olması
E) Azərbaycan torpaqlarının vahid dövlətdə birləşdirilməsi

45. ABŞ-nin "Monro doktrinası"nı irəli sürməkdə məqsədi:
A) Latın Amerikası ölkələrinə qarşı "mehriban qonşuluq" siyasətini həyata keçirmək
B) Luiziananı Fransadan satın almaq
C) Filippin və Havay adalarında ABŞ-nin hərbi-strateji mövqelərini möhkəmləndirmək
D) Yaponiyanın Sakit okeanda fəaliyyətini məhdudlaşdırmaq
E) Avropa dövlətlərinin Latın Amerikasında öz ağalıqlarını bərpa etməsinin qarşısını almaq

46. Birinci Dünya müharibəsi illərində Cənubi Azərbaycanda:
A) Məşrutə hərəkatı baş verdi
B) Urmiya şəhərində soyqırım törədildi
C) Sovet ordusu Cənubi Azərbaycanı tərk etdi
D) Rza şahın hərbi-polis rejimi iflasa uğradı
E) Türk qoşunları Sarıqamış döyüşündə qələbə qazandı

47. VII əsrin 30-cu illərində Albaniyanın müstəqil dövlətə çevrilməsinə təsir göstərmişdir:
1. Arşakilər sülaləsinin nüfuzunun daha da artması
2. Varaz Qriqorun özünü Roma imperatorunun vassalı elan etməsi
3. Bizansla Sasanilərin öz aralarında müharibə apararaq zəifləmələri
4. Xəzərlərin Albaniyanı tərk etməsi
A) 3, 4 B) 1, 2 C) 2, 3 D) 1, 3 E) 2, 4

48. Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin.



a. Xəzər xaqanı ilə qohumluq münasibətinin qurulması
b. Avarlara qarşı uğurlu mübarizə aparılması
c. Ağ Hun dövlətinin ərazilərinin bölüşdürülməsi
d. Bizans dövləti ilə diplomatik əlaqələrin saxlanılması
e. Ərəb qoşunlarının məğlub edilməsi

A) 1-c; 2-e; 3-a; 4-b; 5-d
B) 1-b; 2-c; 3-d; 4-a; 5-e
C) 1-a; 2-d; 3-b; 4-c; 5-e
D) 1-c; 2-a; 3-e; 4-b; 5-d
E) 1-c; 2-e; 3-d; 4-b; 5-a

49. 1920-ci illərin sonlarına doğru dövlətin tətbiq etdiyi sərt iqtisadi metodlar kənddə iri təsərrüfat sahiblərinin iqtisadi marağının azalması ilə müşayiət olundu. Onların mülkiyyətlərinin sovet dövləti tərəfindən müsadirə edilməsi qolçomaq təsərrüfatlarına böyük ziyan verdi. Bu da, öz növbəsir də, kənddə məhsuldarlığın azalmasına, istehsalın zəifləməsinə gətirib çıxartdı.

Mətndə haqqında bəhs olunan iqtisadi tədbirlərin "Hərbi kommunizm" siyasəti ilə ümumi cəhətlərini müəyyən edin.

1. SSRİ-nin sərt iqtisadi metodlardan istifadə etməsi
2. Kənddə istehsalçının iqtisadi marağının azalması
3. Bütün ölkənin ərzaq böhranı ilə qarşı-qarşıya qalması
4. Kənd təsərrüfatının kollektivləşməsinin həyata keçirilməsi

A) 1, 2 B) 2, 3 C) 3, 4 D) 1, 3 E) 2, 4

50. Solon islahatları və AXC-nin iqtisadi tədbirlərinə əsasən:

A) Kənd təsərrüfatında muzdlu əməkdən istifadəyə icazə verilməsi
B) Hər bir vətəndaşın dövlət idarəçiliyində vəzifə tutmaq hüququ qazanması
C) Bütün torpaqların dövlət mülkiyyəti elan edilməsi
D) Xırda kəndli təsərrüfatlarının ümumi təsərrüfatlarda birləşdirilməsi
E) Ərzaq məhsullarının ixracına qadağan qoyulması

51. Şəddadilər və Qaraxanlı dövlətlərinə aiddir:

A) Xəzər xaqanlığına qarşı mübarizə aparmaları
B) I Məlikşah tərəfindən süquta uğradılmaları
C) Samani dövlətinin ərazilərini ələ keçirmələri
D) Səlcuqların hücumuna məruz qalmaları
E) Klassik feodalizm dövründə meydana gəlmələri

52. Azərbaycanın XX əsrin 40-80-ci illərində fəaliyyət göstərmiş bəstəkarlarını cədvəldə müvafiq olaraq müəyyən edin.

1.	Nəsibə Zeynalova	Səttar Bəhlulzadə	Fərman Salmanov
2.	Yusif Məmmədəliyev	İsak Cəfərzadə	Şövkət Ələkbərova
3.	Fikrət Əmirov	Qara Qarayev	Şəfiqə Axundova
4.	Ziba Qəniyeva	İmam Mustafayev	Nadir İbrahimov
5.	Üzeyir Hacıbəyli	Maral Rəhmanzadə	Ömər Eldarov

A) 1 B) 2 C) 3 D) 4 E) 5


53. Xronoloji ardıcıllığı müəyyən edin.

1. Şirvanşahlar dövlətinin Cəlairilərdən asılı hala düşməsi
2. Sultan I Süleymanın Azərbaycana hücuma başlaması
3. Şəməsi döyüşünün baş verməsi
4. Əlincə qalasının Əmir Teymura təslim olması

54. Teymuri Şahruxun Azərbaycana yürüşü üçün xarakterikdir:

1. Şirvanşah I Xəlilullah ilə hərbi ittifaqa daxil olması
2. Teymurilərin Alaşkert döyüşündə məğlubiyyətə uğraması
3. Ağqoyunlularla müttəfiqlik münasibətinin saxlanılması
4. Qara Yusifin məğlubiyyətə uğradılması
5. Heratda Qaraqoyunlu dövləti ilə müqavilə imzalanması

55. Göstərilənlərin aid olduğu dövlətləri müəyyən edin.
- *Çində Taypinlər üsyanına qarşı mübarizə aparmaları*
- *Krım müharibəsində Osmanlı dövlətini müdafiə etmələri*
- *Antanta ittifaqının üzvü olmaları*



56. XIX əsrin əvvəllərində Rusiya tərəfindən Azərbaycanın şimal torpaqlarının işğalına şərait yaratmışdı:
1. Çar I Nikolayın Şərqi Gürcüstanın daxili müstəqilliyini ləğvi haqqında fərman verməsi
2. Bakı yaxınlığında rus qoşunlarının komandanı Sisianovun öldürülməsi
3. Yassı müqaviləsi ilə Osmanlı dövlətinin Cənubi Qafqazda fəal siyasət yürütmək imkanından məhrum qalması
4. Qacarlar dövlətində siyasi qeyri-sabitliyin hökm sürməsi
5. Azərbaycanın parçalanmış vəziyyətdə olması

57. İlk əlavə və düzəlişlərin qəbul olunmasına qədər fəaliyyət göstərmiş ABŞ konstitusiyasına aid uyğunluğu müəyyən edin.
1. Müsbət cəhətlər
2. Mənfi cəhətlər
a. Məhkəmənin hökmü olmadan həbslərin qadağan edilməsi
b. Köləliyin ləğvi
c. Hakimiyyət bölgüsünün təsbit olunması
d. Seçki hüququnun göstərilməməsi
e. Qaradərililərin mülki və siyasi hüquqlar əldə etmələri

Sizə təqdim olunmuş mənbəni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları cavab kağızında yerinə yetirin.

Yüzillik müharibədən sonra İngiltərə krallığı daxildə böyük sarsıntılarla üzləşdi. Taxt-taca gələn ingilis krallarından əksəriyyəti qiyamlar və ya sui-qəsdlər nəticəsində zorakılıqla öldürülürdü. Çünki müharibələrdə zərər çəkmiş krallıq çox vaxt əhali üzərinə ağır vergilər qoyur və ya feodallara siyasi güzəştlər getməyə məcbur qalırdı. Hərbi qarətlərdən varlanan feodalları isə idarə etmək çətinləşir və onlar arasında müharibələr baş verirdi. Belə bir dövrdə Lankaster və York sülalələri arasında hakimiyyət uğrunda müharibə baş vermişdi. 30 il davam edən müharibədə VII Henrix qalib gəldi. O, ara müharibələrə son qoydu.

58. Mənbədə bəhs olunan, VII Henrixin qələbəsi ilə başa çatmış müharibənin adını qeyd edin.

59. İki feodal qrupunun hakimiyyət uğrunda apardığı müharibə nəticəsində İngiltərədə hansı sülalə hakimiyyətə gəldi?

60. Mənbəyə və tarixi biliklərinizə əsasən, VII Henrixin kral hakimiyyətini gücləndirmək üçün həyata keçirdiyi 2 tədbiri yazın.

ƏDƏBİYYAT

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

61. S.Vurğunun "Vaqif" əsərində Vaqiflə Əli bəyin salındığı zindan səhnəsi ilə bağlı doğru fikirləri müəyyənləşdirin.
1. Vaqif Xuramanın xəyanətindən burada xəbər tutur.
2. Vidadinin yaxşı dost olduğu vurğulanır.
3. Gülnar nəzərdə tutularaq "Aslanın erkəyi, dişisi olmaz" atalar sözü deyilir.
4. Vaqif Eldara məktub yazaraq kömək istəyir.
5. Vidadi Qacara müraciət edərək Vaqifin bağışlanmasını istəyir.


A) 1, 3, 5 B) 2, 3, 5 C) 1, 2, 4
D) 2, 3, 4 E) 1, 4, 5

62. Hansılar iştirak etdiyi əsərdə müsbət surət hesab oluna ***bilməz?***
1. Tutduğu ölkənin hökmdarını öldürməyib canını bağışlayan xaqan (Ə.Cavad. "Səsli qız")
2. Dostu ilə məşq edərkən məğlub olduğunu qəbul etmək istəməyən Urmuz (M.Hüseyn. "Odlu qılınc")
3. Nurəddini sona kimi qoruya bilməyən Bahar (S.S.Axundov. "Nurəddin")
4. Qardaşlarla bağlı şikayət olduğunu deyib onların kitablarını yoxlayan senzor (C.Məmmədquluzadə. "Anamın kitabı")
5. Sadıq kişi ilə görüşdükdən sonra Vahidin yenidən ali məktəbə qayıtmasına icazə verən Verdiyev (Mir Cəlal. "Açıq kitab")

A) 1, 2, 3 B) 1, 4, 5 C) 2, 4, 5
D) 1, 3, 4 E) 2, 3, 5

63. Verilənlərdən hansı M.Ə.Sabirin "Neylərdin, ilahi?!" satirasında əks etdirilən problemlərin sırasında göstərilə ***bilməz:***
A) sədaqət və saflığın yoxa çıxması
B) insanlara, eləcə də digər bəzi canlılara qarşı mərhəmətsizlik etmək
C) hüquqlarını tələb edən insanların haqq səsinin boğulması
D) insan əməyinin istismar olunması
E) cəhalətin güclü olması, hər tərəfə yayılması

64. Klasteri tamamlaya bilən fikirləri müəyyənləşdirin.



1. *"Vətənə gəldim, imana gəldim"* atalar sözü əsərin ideyası ilə tam səsləşir.
2. Müəllif M.Füzulinin "Məni candan usandırdı..." qəzəlinin lirik qəhrəmanı kimi, bəxtinin oyanmamasını bədii sual şəklində ifadə edir.
3. *"Xəmirimi göz yaşıyla yoğuran", "beşiyimdə layla balam çağıran"* ifadələri ilə Azərbaycan nəzərdə tutulmuşdur.
4. Şair salamını vətənə çatdırmayan küləkdən, zəncirini qırmayan Xəzərdən gileylənir.
5. *"Kim demiş ki, düşmüş adı dilimdən"* misrası ilə müəllif vətənini unutmadığını ifadə etmişdir.

A) 1, 2, 4 B) 1, 4, 5 C) 2, 3, 5
D) 2, 3, 4 E) 1, 3, 5

65. Verilmiş hissə M.Füzulinin "Leyli və Məcnun" poemasında hansı surətlərin söhbətindən götürülmüşdür?

... dedi: "Çün sənə şəkim var,
Məcnun isən eylə halın izhar;
Leyliyi sevərsən eylə bünyad
Bir şeir, keçən zamanın et yad!"

A) Məcnun və Leylinin B) Məcnun və atasının
C) Məcnun və Novfəlin D) Məcnun və Zeydin
E) Məcnun və yoldaşlarının

66. Ə.Cavadın "Səsli qız" poeması haqqında fikirlərdən hansılar ***səhvdir?***
1. Saranın başına gələnlər müəllif tərəfindən Səsli qıza danışılır.
2. Saranın "ölkənin ulduzu" kimi xaqana təqdim olunduğu hissə əsərin proloqu hesab oluna bilər.
3. Həmrəylik, milli təəssübkeşlik motivi əsərin bütün epizodlarında müşahidə olunur.
4. Saranın qaniçən hökmdarı zəhərlədiyi hissə əsərin kulminasiyası hesab oluna bilər.
5. Poemada, əslində, müəllifin eşitdiyi əhvalatlardan yox, 1920-ci ildə şahid olduğu hadisələrdən bəhs olunur.

A) 2, 3, 5 B) yalnız 3, 5 C) 1, 2
D) yalnız 2, 3 E) 1, 4, 5

67. C.Cabbarlının "Oqtay Eloğlu" əsərinə əsasən uyğunluğu müəyyənləşdirin.

SƏBƏB	NƏTİCƏ
1. Aslan bəy müasir düşüncəli olduğunu göstərməyə çalışırdı.	a. Valideynlərinin geyim və düşüncə tərzini dəyişib öz istəyinə uyğunlaşdırmışdı. b. Bacısını özü ilə teatra aparırdı.
2. Oqtay səhnəyə qayıtmağa razılıq verir.	c. Sevər üçün sığınacaq tapılır. d. Firəngizlə Qalaçıxanovun münasibətlərində soyuqluq yaranır. e. Şəkinski teatrdakı mövqeyini itirəcəyindən narahat olur.

A) 1–a; 2–c,e B) 1–b; 2–c,d C) 1–a; 2–e
D) 1–b; 2–d,e E) 1–b; 2–c,e

68. S.Rüstəmin "Təbrizim" şeiri ilə bağlı fikirlərdən hansılar doğrudur?
1. Gül-çiçəklə qarşılanan lirik qəhrəman qardaş elinə gəldiyini deyir.
2. Çətin dövrdən çıxan Təbrizin dağınıq görkəmi, ətrafdakı pərişanlıq lirik qəhrəmanı narahat edir.
3. Lirik qəhrəman Təbrizə müraciət edərək məlul-məlul baxmamağı istəyir.
4. "Yox olsun başından duman, Təbrizim!" misrası ilə Təbrizin lirik qəhrəmanı soyuq qarşılamasına işarə olunmuşdur.
5. Lirik qəhrəman sevincinin, kədərinin, hətta yaşamağının Təbrizlə bağlı olduğunu dilə gətirir.

A) 2, 3, 4 B) 1, 2, 5 C) 2, 4, 5
D) 1, 3, 5 E) 1, 3, 4

69. *"Qəzəbin alovu əvvəlcə öz sahibini yandırar, sonrakı qığılcımı düşmənə ya çatar, ya çatmaz" (A.Linkoln)* aforizmi hansı surətin aqibəti ilə əlaqələndirilə bilər?
A) Orxan (H.Cavid. "Ana")
B) Mahmud bəy (N.Vəzirov. "Müsibəti-Fəxrəddin")
C) Gülbahar (C.Məmmədquluzadə. "Anamın kitabı")
D) Məşədi Abbas (Mir Cəlal. "Bahar")
E) Teymur (S.Vurğun. "Vaqif")

70. Hansı bənddə verilmiş janrların hər ikisi romanla eyni ədəbi növdədir?
A) hekayə, komediya B) müxəmməs, povest
C) faciə, hekayə D) dram, qitə
E) təmsil, povest

71. Ə.Cavadın yaradıcılığı ilə bağlı fikirlərdən hansılar doğrudur?
1. Əsərlərini nəzmlə, lirik və epik növlərdə yazmışdır.
2. "Nə yazım?", "Unudulmuş sevda" müəllifin ilk şeirləri sırasındadır, nikbinliyi ilə seçilən şeirlərdir.
3. "Quşlara" şeirində Vətənin "məzarlıq aləminə dönməsi"nə etiraz motivi var.
4. "Pambıq dastanı", "Kür" əsərləri ilə istedadı bədii dairələr tərəfindən qəbul edilmiş, alqışlanmışdır.
5. "Qoşma", "Dalğa" adlı kitabları var.

A) 2, 4, 5 B) 1, 3, 5 C) 2, 3, 5
D) 1, 2, 4 E) 1, 3, 4

72. Mir Cəlalın "Vətən yaraları" hekayəsində hadisələri danışan şəxsə aid ***bilməz:***
A) İki ömür arzulayır, çünki müharibə birinci ömrün dincliyini pozmuşdur.
B) Düşünür ki, xatirələr cəbhədə daha şirin olur.
C) Dostlarından ayrı düşməmək üçün vəzifədən imtina edir.
D) Evlərinə getdikdə anasının onun məktublarını, onun üçün gələn qəzet və jurnalları saxladığının şahidi olur.
E) Dostları ilə birlikdə təcavüzkarları məhv etməyə, anaları sevindirməyə söz verir.

73. H.Cavidin "İblis" əsəri ilə bağlı cədvəldəki fikirlərin uyğunluğunu müəyyənləşdirin.

	Fikir	Doğru / Yanlış
1	Arif və Vasif ilk dəfə sonuncu pərdədə, Elxanın yanında rastlaşırlar.	Doğru
2	Elxan haqsız qan tökməmək barədə adamlarına xəbərdarlıq edir.	Yanlış
3	Müdrikliyi İxtiyar şeyxin intiqam hissi ilə yaşamasının qarşısını kəsir.	Yanlış
4	Mələk kimi, İxtiyar şeyx də insanların İblisə uyduğunu vurğulayır.	Doğru
5	İbn Yəmin həm yanlarındakı əsgəri, həm də Rənanı tanıyan Arifi təhlükə hesab edirdi.	Yanlış

A) 1, 2, 4 B) 2, 4, 5 C) 3, 4, 5
D) 1, 2, 3 E) 1, 3, 5

74. "Koroğlu ilə Bolu bəy" qolunun məzmununa əsasən *"Sən bizi aldadırmışsan. Bu, Koroğlu deyilmiş"* cümləsinin kim tərəfindən kimə deyildiyini müəyyənləşdirin.
A) Dünya xanım tərəfindən Bolu bəyə
B) Bolu bəy tərəfindən Mehtər Murtuza
C) Hasan paşa tərəfindən Bolu bəyə
D) İsabalı tərəfindən Mehtər Murtuza
E) Xotkar tərəfindən Hasan paşaya

75. Verilmiş xüsusiyyətlərdən biri həm M.Müşfiqin "Yağış yağarkən", həm də Ə.Kürçaylının "Qaranquş" əsərinin məzmununa aid edilə bilər?
A) Dünyanın bütün canlılar üçün məskən, sığınacaq yeri olduğu fikri vurğulanır.
B) Sözlər nəzmin tələblərinə əsasən sıralanmışdır, ahəngdarlıq müşahidə olunur.
C) Narahat ana surətinə də yer verilmişdir.
D) Hadisələr təhkiyə yolu ilə diqqətə çatdırılmışdır.
E) Təbiət hadisəsini müşahidə edən müəllifin təəssüratlarını bölüşməsi müşahidə olunur.

76. *"M.Şəhriyarın "Türkün dili" şeirindən seçilmiş beytdə 1..... təbliğ, 2..... isə tənqid olunur"* cümləsinin doğru olması üçün nöqtələrin yerinə hansı bənddə verilmiş fikirlər seçilməlidir?
Ötməz, oxumaz bülbülü salsan qəfəs içrə,
Dağ-daşda doğulmuş dəli ceyran həmil olmaz.
A) 1 – uğur üçün cəhd etmək; 2 – həvəssizlik
B) 1 – istedad; 2 – bacarığın qarşısını kəsmək
C) 1– ətraf aləmi duymaq; 2 – etinazsızlıq
D) 1 – digər canlılara qayğı göstərmək; 2 – qəddarlıq
E) 1 – sərbəstlik; 2 – azadlığın məhdudlaşdırılması

77. A.Şaiqin "Anabacı" hekayəsində belə bir epizod ***yoxdur:***
A) Anabacının çarəsizliyi üzündə əks olunur və bu hadisə onunla danışanın diqqətini çəkir.
B) Təhkiyəçi Anabacını yenidən görmək istəyir, küçələrdən keçərkən gözləri onu axtarır.
C) Anabacı ona kömək edən şəxsin yazdığı ərizəni götürərək evinə yollanır.
D) Hədiyyəyə görə pul təklif edilməsi Anabacının sərt qarşılıq verməsinə səbəb olur.
E) Təhkiyəçi xəstə oğluna xərcləmək üçün Anabacıya pul verir.

78. Nümunədə işlənmiş bədii təsvir və ifadə vasitələri ilə bağlı fikirlərdən hansılar doğrudur?
İnsan dözür... damarında axır qanı həmişə,
İnsan dözür... od kimidir həyəcanı həmişə.
Ürək dözür... dözə bilmir, paralanır sərt qaya,
Ürək dözür... yerdə qalan təslim olur şaxtaya.
(Qabil)
1. Həm anafora, həm də epifora işlənmişdir.
2. Bənzətmədən istifadə olunmuşdur.
3. İnsana məxsus əlamət başqa varlığın üzərinə köçürülmüşdür.
4. Epitet vasitəsilə fikrin təsir gücü artırılmışdır.
5. İnversiya və bədii təzad işlənmişdir.
A) 2, 3, 5 B) 1, 3, 4 C) 1, 2, 5
D) 1, 2, 4 E) 3, 4, 5

79. Ə.Məmmədxanlının "Qızıl qönçələr" əsərinə aid cədvəldəki ***səhv*** fikirləri müəyyənləşdirin.

Firuz babanın Sürəyyaya münasibəti	Xalça karxanasında olanların Sürəyyaya münasibəti
1. Sürəyyanın qazancı ilə yemək alanda xəcalət hissi yaşayır. 2. Pulu olmadığı üçün Sürəyyanın üşüməsinə biganə qalmağa məcbur olur. 3. Nəvəsinə nağıllar danışır.	4. Onunla işdən çıxan yoldaşları Sürəyyanı gözləmək istəməyib gedirlər. 5. Qoca nəqqaş onun bacarıqlı olduğunu qəbul edirdi. 6. Sürəyyanın ölümü karxanada işləyənlər tərəfindən adi qarşılanır, iş həmişəki axarda davam edir.

A) 1, 2, 5 B) 2, 4, 6 C) 3, 5, 6
D) 1, 3, 5 E) 2, 3, 4

80. Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm dövrü ilə bağlı doğru fikirləri müəyyənləşdirin.
1. Ədəbiyyat tariximizdə satirik şeir özünün ən yüksək zirvəsinə bu mərhələdə çatmışdır.
2. Hekayə ədəbiyyatın janrları sırasında ön mövqeyə çıxmışdır.
3. H.Cavid bu mərhələdə romantik şeirin inkişafında xüsusi rolu olan sənətkarlardandır.
4. Əvvəlki mərhələdə tənqidi-satirik səpkili olan bədii gülüş bu mərhələdə satirik-didaktik xarakter almışdır.
5. Satirik poeziya "Molla Nəsrəddin", satirik publisistika isə "Füyuzat" jurnalı vasitəsilə yayılmışdır.
A) 2, 4, 5 B) yalnız 1, 2 C) 1, 4, 5
D) yalnız 3, 4 E) 1, 2, 3

81. C.Cabbarlının "Ana" şeirindən seçilmiş hansı misralar müəllifin şeirdə çatdırmaq istədiyi əsas fikri vurğulayır?

A) Gurulda, taqi-səmavi, gurulda, çatla, dağıl!
Sən, ey günəş, yağışın yağdır, ey bulud, ağla!

B) Yatar, ölər bədənim, nitqdən düşər bir söz:
– Ana... Ana... Sənə mən rəhibəm itaətdə!..

C) Əgər bütün bəşəriyyət ədüvvi-canım ola,
Ürək süqut eləməz aldığı mətanətdən.

D) Əyilmərəm yenə, haşa! Ölüm nədir ki, onun
Gücüylə xalqa həqiranə eyləyim təzim?!

E) Bütün vücudum əsər, ruhum eyləyər pərvaz,
Uçar səmalara o, aləmi-xəyalətdə.

82. Mir Cəlalın yaradıcılığına aid əsərlərdən hansı ***səhv*** təqdim olunmuşdur?

A) "Yaşıdlarım" – Avtobioqrafik romandır, milli ziyalılığın problemlərinə toxunulmuşdur.

B) "Bostan oğrusu" – Əsasını sadəlik, təbiilik təşkil edən hekayədir.

C) "Bir gəncin manifesti" – Əsərdə bütövlükdə insanlığın manifesti canlandırılmışdır.

D) "Yolumuz hayanadır" – Cəmiyyətdə dayaq tapa bilməyən insanların keşməkeşli taleyindən bəhs olunur.

E) "Açıq kitab" – Tutduğu doğru yoldan dönməyən yeni nəslin uğurlarının labüdlüyü göstərilmişdir.

83. Nöqtələrin yerinə uyğun gələn fikirlərin ardıcıllığını müəyyənləşdirin.

S.Ə.Şirvaninin "Qafqaz müsəlmanlarına xitab" əsərində	təbliğ olunan cəhətdir:	.....
	tənqid olunan cəhətdir:	.....
Mirmehdi Seyidzadənin "Əqrəb və Çanaqlı bağa" təmsilində	təbliğ olunan cəhətdir:	.....
	tənqid olunan cəhətdir:	.....

1. Edilən yaxşılığı dəyərləndirməmək
2. Elm öyrənmək, cəhalətlə mübarizə aparmaq
3. İnsanları istismar etmək
4. Dostluqda etibarlı olmaq

84. M.İbrahimovun "Gələcək gün" əsərindən seçilmiş cümlələrdən hansılar haqqında verilmiş məlumat ***səhvdir?***

1. *"Ağa, on sənin kimi ərbab yola salmışıq, heç biri də bizdən xəyanət görməyib!"* – Ərbabın fikri bu cümlədən sonra tamamilə dəyişir.
2. *"Ay rəhmətlik oğlu, bu xarabada həkimin nə işi var!"* – Cümlə kənddəki səhiyyə xidmətinin vəziyyətini surətin dili ilə ifadə edir.
3. *"Deməli, beşdə üçü sizin, beşdə ikisi bizimdir"* – Məhsul bölgüsü ilə bağlı son qərar bu cümlədə göstərilib.
4. *"Bir sakit olun, qoyun sürüsü kimi bir-birinizə dəyməyin!"* – Bu cümlədə Mübaşir Məmmədin kəndlilərə münasibəti diqqətə çatdırılır.
5. *"Sən Allaha inansan, gecə dəcənmiş buğdanı xırmandan oğurlayıb evinə daşımazsan"* – Musa kişiyə müraciətlə deyilən cümlədə haqqı təmsil edənlərin haqsızlığı təmsil edənlərə etirazına yer verilmişdir.

85. "Kitabi-Dədə Qorqud" eposundan seçilmiş surətlər üçün verilən ortaq fikirlərdən hansılar ***səhv dir?***

1. Qazan xan və Qaragünə – Oğuzların Təpəgözlə vuruşub məğlub olduqları döyüşdə iştirak edirlər.
2. Burla xatun və Qarabudaq – Döyüşdə düşmən bayrağını qılınclayıb yerə salırlar.
3. Aruz və Qazan xan – Basatın Təpəgözlə döyüşmək üçün getməsinə mane olmağa çalışırlar.
4. Burla xatun və Qapaqqan kişinin arvadı – Övladını qorumaq üçün başqa birindən xahiş etməli olurlar.
5. Uruz və Beyrək – Qazan xan bu surətlərlə bağlı narahatlığını dilə gətirir, onları tənqid edir.

86. Əsərlərin müqayisəsi ilə bağlı cədvəldəki ***səhv*** fikirləri müəyyənləşdirin.

"Vaqif" (S.Vurğun)	**"Qızıl gül olmayaydı" (R.Rza)**
1. İki şairin dostluğundan da bəhs olunur. 2. Xalqı sevən, dəstəkləyən saray xadimi surəti var.	3. Əsərdə oxucunun inamını qazanan, onunla səmimi ünsiyyət yaradan müəllif obrazı da var. 4. Xalq nümayəndəsinin şairə sevgisindən bəhs olunmuşdur.
5. Nəzmlə yazılmış əsərdir. 6. Doğma dilinə, mənsub olduğu xalqa nifrət edən surət dialoqlarda iştirak edir.	

87. M.F.Axundzadənin "Aldanmış kəvakib" əsərinə aid uyğunluğu müəyyənləşdirin.

1. Yalnız Şah Abbas hakimiyyətdə olanda baş verir.
2. Yalnız Yusif Sərrac hakimiyyətdə olanda baş verir.
3. Hər ikisinin dövründə baş verir.
a. Vilayətlərdə olan baxıcılar baş verən hadisələr barədə hökmdarı məlumatlandırırdılar.

b. Xacə Mübarəkin xidmətindən istifadə olunurdu.
c. İnsanlar vergi ödəyirdilər.
d. Münəccimbaşı sarayda xüsusi vəzifə tuturdu, şaha xəbərlər verə bilirdi.
e. Əhalinin vəziyyətini çətinləşdirən məmurlar vəzifələrində qala bilirdilər.

88-90-cı sualları mətnə əsasən cavablandırın.

Avey dağla söhbət

Avey dağım, çox sözüm var sorası,
Ürəyimin yanmamışdır harası?
Orda göynər neçə dərdin yarası.
Yox dərmanım, öldürüblər loğmanı,
Qanla yazdım bu yazdığım dastanı.

Avey dağım, indi kövşən yeriyəm,
Əzab çəkmiş insanlardan biriyəm.
Nə ölüyəm, nə diritək diriyəm.
Bir kitabam, sinəm sözlə doludur,
Getdiyim yol uluların yoludur.

Heç bilmirəm bu yol harda bitəcək,
İzim harda tapdanacaq, itəcək.
Qəbrim üstə gül, ya tikan bitəcək?!
Məni xalqım rəhmətləmi anacaq?
Ya sönəcək yandırdığım bu ocaq?

Ah, o günlər, ah, o aylar, o illər!
O nəğməli, o həvəsli könüllər,
O yağışlar, o selablar, o sellər.
İndi onlar xəyalıma qonaqdır,
Özüm yaşlı, könlüm, vallah, uşaqdır.

(M.Dilbazi)

88. Nümunənin və M.Şəhriyarın "Heydərbabaya salam" poemasının müqayisəsi ilə bağlı cədvəli doldurun.

Forma ilə bağlı oxşar xüsusiyyətlər	Məzmunla bağlı oxşar xüsusiyyətlər
1.	1.
2.	2.

89. *"Nümunədə özünə aid müxtəlif fikirlər səsləndirən surət həmçinin mövcud ənənənin davamçısı olduğunu diqqətə çatdırır"* fikrini hansı bəndə əsasən iddia etmək mümkündür? Fikrinizi əsaslandırın.

Bənd: _____

Əsaslandırma: _____

90. Fikirlərin qarşısına "Doğru" və ya "Yanlış" yazaraq seçimlərinizi əsaslandırın.

	Fikir	Doğru / Yanlış	Əsaslandırma
1	Bütün bəndlərdə inversiya işlənmişdir.		
2	Birinci və ikinci bəndlərdə işlənmiş ifadə vasitələri eynidir.		
3	Kursivlə verilmiş hər üç misrada bədii sual işlənmişdir.		
4	Bəndlərdən birində birdən çox təşbeh yer verilmişdir.		

SINAQ 11


AZƏRBAYCAN DİLİ

Mövzular üçün | Video həllər üçün | Cavablar üçün

1. Eyler-Venn diaqramına əsasən düzgün fikirləri müəyyən edin.

I *Başqalarının qüsurlarını ölçərkən barmağı ilə tərəzinin gözünü basmayan adam çox azdır.* (Fransua de Laroşfuko)

II *Hamımız yaltaqlığı pisləyib yamanlayırıq, ancaq özümüz bizə yaltaqlananlara, bizi öyənlərə nəinki dözür, hətta onlara rəğbət bəsləyirik.* (Fransua de Laroşfuko)



1. İsmin sualına cavab verən sifət işlənmişdir.
2. Yalnız qrammatik mənaya malik olan söz də işlənmişdir.
3. Feilin iki müxtəlif təsriflənməyən formasına aid nümunə işlənmişdir.
4. Eyni zamanda ismin həm mənsubiyyət, həm də hal şəkilçisini qəbul etmiş isim işlənmişdir.
5. Leksik mənası *"meyil etmək, bəyənmək"* olan ifadə işlənmişdir.
6. Əvəzliklərin hamısı ismi əvəz etmişdir.

A) 1, 3, 4, 5 B) 2, 4, 5, 6 C) 1, 2, 4, 5
D) 1, 3, 5, 6 E) 2, 3, 4, 5

2. Cədvələ əsasən uyğun bəndi müəyyən edin.

A)	*-asɪ²* şəkilçisini qəbul etmiş hər hansı bir söz eyni zamanda inkarlıq şəkilçisini də qəbul edibsə, bu söz təsriflənən feil ola bilməz.	doğru
B)	*Oxutmuram əl çəkin* cümləsindəki feillərin hər ikisi məlum növdədir.	yanlış
C)	*Deməli, sən bunu çoxdan bilirmişsən* cümləsində həm feil, həm də köməkçi nitq hissəsi kimi işlənə bilən söz işlənmişdir.	yanlış
D)	*Ancaq bu işin hansı nəticəni verəcəyini bilmirdik* cümləsindəki köməkçi nitq hissəsinin qrammatik mənası bütün hallarda eynidir.	doğru
E)	*Əvvəl fikirləş, sonra danış* ha cümləsindəki köməkçi nitq hissəsi həm də zərf kimi işlənə bilir.	doğru

3. Cümlələrdəki sözlərin morfoloji xüsusiyyətləri ilə bağlı cədvəldəki uyğun fikirləri müəyyən edin.

♦ Həkim qızdırmalı xəstəni dərhal müayinə etdi.
● Dəmiri istədiyin formaya salmaq üçün onu bərk qızdırmalısan.

	Doğrudur.	Yanlışdır.
♦	1. Təsriflənməyən feil ismin xüsusiyyətini qəbul etmiş sifətə aiddir.	4. Tərzi-hərəkət zərfi işlənmişdir. 5. Xəbər şəklində olan mürəkkəb feil işlənmişdir.
●	2. Qoşma təsriflənməyən feilə aiddir. 3. Təsriflənən feil vacib şəklində və icbar növdədir.	6. Təsirlik halın şəkilçisini qəbul etmiş sifət işlənmişdir.

A) 1, 3, 5 B) 2, 4, 5 C) 2, 4, 6
D) 1, 2, 6 E) 1, 3, 4

4. Yazılışı düzgün olan sözün fonetik təhlili ilə bağlı ***yanlış*** fikri müəyyən edin.
marfemika, multimediya, maqnitofon, maniken

A) Səs və hərf tərkibi arasında bir fərqli məqam var.
B) Eyni səs müxtəlif hərflərlə ifadə olunmuşdur.
C) Kar qarşılığı olmayan üç cingiltili samit işlənmişdir.
D) Samitlərdən heç biri fərqli tələffüz olunmur.
E) Kar samitlərin sayı dodaqlanan saitlərin sayına bərabərdir.

5. Verilmiş nümunədə işlənmiş köməkçi nitq hissələrinin ardıcıllığını müəyyən edin.
Vallah, ürək sevən dünyalardan yaxşıdır. Sanki yoxsullarla yaşamaq olmaz. Altunsuz, üzüksüz... Olsa, yaxşıdır, fəqət olmayanda qiyamət olmaz ki...

1. bağlayıcı 2. ədat 3. nida
4. modal söz 5. qoşma

A) 3, 4, 5, 2, 1 B) 3, 4, 5, 1, 2
C) 3, 4, 1, 5, 2 D) 3, 2, 4, 5, 1
E) 5, 4, 3, 2, 1

6. Orfoqrafik cəhətdən biri məntiqi ardıcıllığı tamamlaya bilər:
kinematoqrafiya, limonad, mentalitet, ...
A) qübar B) töyşümək C) repartyor
D) mahiyət E) marketinq

7. Nümunə ilə bağlı doğru fikirləri müəyyən edin.
Səs salma, yatanlar ayılar, qoy hələ yatsın,
Yatmışları razı deyiləm, kimsə oyatsın,
Tək-tək ayılan varsa da, həq dadıma çatsın,
Mən salim olum, cümlə cahan batsa da, batsın.
(M.Ə.Sabir)
1. Bütün misralarda isimləşməyə aid nümunə var.
2. Eyni söz feilin iki müxtəlif şəklində işlənmişdir.
3. *Heç kim* əvəzliyinin sinonimi işlənmişdir.
4. Təsirlik halda olan söz ümumi qrammatik mənasına görə hərəkət bildirir.
5. Təsriflənməyən feillərin hamısı məlum növdədir.
A) 2, 4, 5 B) 1, 3, 5 C) 1, 2, 4
D) 3, 4, 5 E) 1, 2, 3

8. Hansı sözün tərkibinə görə təhlili verilmiş sxemlərdən heç birinə uyğun ***gəlmir***:
1. 
2. 
3. 
4. 
A) yüksəklikdədir B) bərkidilmişdir
C) qorxudulmuşdur D) yaşantımız
E) sarsılmışdır

9. Cədvələ əsasən doğru fikirləri müəyyən edin.

Suburbanizasiya əhalinin şəhər mərkəzlərindən, başqa yaşayış məntəqələrindən şəhər ətrafına köçməsi prosesidir. Adətən, şəhər aqlomerasiyalarının yaranması ilə nəticələnir.	1. Tərkibində informativ funksiya daşıyan ifadə yoxdur. 2. Konkretlik və dəqiqlik əsas xüsusiyyətlərindəndir. 3. Terminoloji funksiya daşıyan sözdən isitifadə edilmişdir.
Küləklər, küləklər, bəstəkar küləklər, Dünyanı dolaşan bəxtiyar küləklər!	4. Modallıq bildirən söz və ifadələrdən istifadə edilmişdir. 5. Nəzm formasında təzahür etmişdir. 6. Poetik funksiya daşıyan sözdən isifadə edilmişdir.

A) yalnız 3, 5, 6 B) yalnız 1, 2, 4
C) 3, 4, 5, 6 D) 1, 2, 4, 6
E) 2, 3, 5, 6

10. Hansı cümlədə müəyyən miqdar sayı ismin xüsusiyyətini qəbul etmişdir?
A) Araz çoxdan bilirdi ki, onun qonşuluğunda Cəfər adlı məharətli bənna var.
B) Doqquzuncuların yaxşı oxuması hamını sevindirir.
C) Birisinin dediyini o birisi təsdiq edirdi.
D) Yarışda iştirak edən şagirlərin beşinə mükafat verildi.
E) Məşədi Əsgər getmək istəyəndə, Həsənəli bəyin sözü birdən yadına düşdü.

11. Uyğunluğu müəyyən edin.
1. Cümlədəki təsriflənən feildə subyekt hərəkəti öz üzərində icra edir.
2. Cümlədəki təsriflənən feildə hərəkətin subyekti məlum deyil.
3. Cümlədəki təsriflənən feildə iş görən işi başqasına icra etdirir.
a. Xanım qulluqçunu bazara göndərərək ət aldırdı.
b. Hər kəsin kollektivdəki yerinin müəyyənləşdirilməsi bizə tapşırıldı.
c. Şeirim, bu hikməti aləmə bildir,
Xəyal ölənləri bəzən dirildir. (M.Rahim)
d. Qarabağ atlarının şöhrəti dünyanın hər tərəfinə yayılmışdır.
e. O gecənin sabahı Sarıköynəyin əri yenə kənddə göründü.
A) 1-e; 2-b,d; 3-c B) 1-a,b; 2-c,d; 3-e
C) 1-e; 2-b,d; 3-a D) 1-b,d; 2-a,c; 3-e
E) 1-d,e; 2-c; 3-b

12. Verilmiş nümunədə ***işlənməmişdir***:
Ömrüm səfalətlərin dərin çuxurlarında
Solğun vərəqlər kimi sürünən bir zamanda,
Dərs alıb bir çırpınan qartal qanadlı quşdan,
Çəkdin, çıxartdın məni yıxıldığım yoxuşdan!
(M.Müşfiq)
A) Leksik mənası *"son dərəcə ehtiyac içərisində yaşama, sıxıntı çəkmə"* olan söz
B) *"İbrət almaq"* frazeoloji birləşməsinin sinonimi
C) Bənzətmə bildirən qoşma
D) Yiyəlik hal şəkilçisi qəbul etdiyi üçün kökündəki qapalı saiti düşmüş söz
E) Qayıdış növdə olan təsriflənməyən feil

13. Hansı cümlədə əvəzlikdən sonra vergülün qoyulmasının əvəzliklə əlaqəsi ***yoxdur***?
A) O, ağıllı, bilikli, vətənini ürəkdən sevən bir insandır.
B) O, güman ki, bunun nə demək olduğunu indi anlayırdı.
C) O, ulduzlara baxanda ürəyində gizli bir arzu tutmuşdu.
D) Bu, ürəyimdə açılan yaraların adıdır.
E) Bu, gecələrin susqunluğunda gizlənən bir sirr idi.

14. Cədvələ əsasən sözlərlə bağlı doğru fikirləri müəyyən edin.

düzdürülmüşdür	*boyaqçılıqdan*
1. Kökü sifət olsa da, feildən düzəlmişdir.	3. Kökü *"boyatmaq"* və *"boyasız"* sözlərinin kökü ilə eyni nitq hissəsinə aiddir.
2. İki leksik şəkilçi işlənmişdir, kökü feildir.	4. Kökü isimlə ominimdir, isimdən düzəlmiş sözdür.

A) 1, 4 B) 2, 3 C) 1, 3 D) 2, 4 E) 1, 2

15. Məna tayları müxtəlif nitq hissələrinə aid olan omonimlərin cərgəsini müəyyən edin.
A) qarşı, əqrəb, sarı B) şam, sonra, divan
C) oxu, tala, yara D) kimi, bürc, oxşamaq
E) buruq, qitə, oynaq

16. *"Namuslu adam hər yerdə ləyaqəti təmsil edir"* cümləsindəki nitq hissələrinin işlənmə ardıcıllığını müəyyən edin.
A) zərf+isim+təsriflənməyən feil+təsriflənən feil
B) sifət+isim+əvəzlik+isim+isim+təsriflənən feil
C) zərf+isim+əvəzlik+isim+təsriflənən feil
D) isim+zərf+ təsriflənməyən feil+təsriflənən feil
E) sifət+isim+əvəzlik+isim+isim+isim+təsriflənən feil

17. Ədatlarla omonimliyi olan bağlayıcıların işləndiyi cümlələri müəyyən edin.
1. Ay Rüstəm, od olub məni yandırmayacaqsan ki!
2. Deyə bilməyəcəyəm, yəni deməyə ixtiyarım yoxdur.
3. Qarı obaya yaxınlaşıb dincini almaq istədi, ancaq üfüqdə qızartı işarəsi görüb fikrini dəyişdi.
4. Sənə yaraşmaz ki, onun-bunun haqqında pis danışasan.
5. Mən dünənki yığıncağa on dəqiqə gecikmişdim, çünki dərsim var idi.
A) 1, 3, 5 B) 2, 3, 5 C) 1, 2, 3
D) 2, 3, 4 E) 1, 4, 5

18. *İdi, imiş, isə* hissəciklərinin heç biri ilə işlənə ***bilməyən*** feillərin cərgəsini müəyyən edin.
A) bildi, bilsə, bilməlidir
B) baxım, yaşasın, gəlin
C) gələsi, gəlsə, gələ
D) alır, silsə, gülümsə
E) deyə, oxumalı, otursa

19. Zərfə aid cədvəli tamamlayın.

Quruluşca düzəltmə tərzi-hərəkət zərfidir.	Quruluşca düzəltmə zaman zərfidir.	Quruluşca düzəltmə miqdar zərfidir.
sürətlə	onda	tamamilə
.....	hərdən	.....
türkcə	.....	bütünlüklə

A) indicə, çoxdan, büsbütün
B) dahiyanə, hələlik, dəfələrlə
C) addımbaşı, arabir, birə-beş
D) çəpəki, bildir, tamam
E) daxilən, tənəffüsdə, xeyli

20. Verilmiş nümunə ilə bağlı ***yanlış*** fikri müəyyən edin.
Qanadların qayaya çırparaq uçar qartal,
Dikib yerə gözünü ov üçün baxar dərhal. (A.Şaiq)
A) Mənsubiyyət şəkilçisi qəbul etmiş isimlərdən biri adlıq, digəri təsirlik haldadır.
B) Xüsusi isim işlənməmişdir.
C) Bir-biri ilə sinonim olan feili bağlama şəkilçiləri işlənmişdir.
D) Qoşma adlıq halda olan ismə qoşulmuşdur.
E) Təsriflənən feillərin hər ikisi eyni şəkildədir.

21. Hansı sifət müqayisə dərəcələrinə görə dəyişə ***bilmir***?
A) gödək B) maraqlı C) inqilabi
D) qəhvəyi E) yoxsul

22. *"Qardaşım əsgərlik yoldaşlarıyla, dəvət etdiyi qonaqlarla görüşüb onları mehribanlıqla qarşıladı"* cümləsində fərqləndirilmiş hissələr nədir? (ardıcıllıqla müəyyən edin)
A) bağlayıcı, qoşma, zərf düzəldən leksik şəkilçi
B) bağlayıcı, bağlayıcı, zərf düzəldən leksik şəkilçi,
C) qoşma, qoşma, zərf düzəldən leksik şəkilçi
D) zərf düzəldən leksik şəkilçi, qoşma, bağlayıcı
E) qoşma, bağlayıcı, zərf düzəldən leksik şəkilçi

23. Cədvələ əsasən uyğun fikirləri müəyyən edin.

1.	*"Qarşı"* qoşmasının məzmununda ziddiyyət, əkslik mənası da vardır.	doğru
2.	*"Sinoptiklərin məlumatına görə, yağış yağacaq"* cümləsindəki altından xətt çəkilmiş söz səbəb bildirən qoşmadır.	doğru
3.	*"Sən, əsasən, doğru danışırsan"* cümləsindəki köməkçi nitq hissəsi *əksərən* mənasını ifadə edən modal sözdür.	doğru
4.	*"Kimi"* qoşması *-an*² şəkilçili feili sifətə qoşulanda zaman mənasını ifadə edir.	yanlış
5.	*"Sənin üçün kitab aldım"* cümləsindəki köməkçi nitq hissəsi *ötəri* sözü ilə sinonimdir.	yanlış

24. Cədvələ əsasən verilmiş cümlələrlə bağlı ***yanlış*** fikirləri müəyyən edin.

I Mənəvi dünyaya qalxıb ucalmaq
Qanadlı duyğuya qismətdir ancaq.
(B.Vahabzadə)

II Ayaqlar altında yer oldu tapdaq,
Sirrini, məğzini bilmədik ancaq.
(B.Vahabzadə)

I	II
1. Xəbər şəklində olan təsriflənən feil işlənmişdir. 2. *Lakin* bağlayıcısının sinonimi işlənmişdir. 3. Düzəltmə feilin səs və hərf tərkibi fərqlənir.	4. *Təkcə* ədatının sinonimi işlənmişdir. 5. Qeyri-müəyyən yiyəlik halda olan isim işlənmişdir. 6. Təsirlik halda olan isimlər konkretdir.

25. Verilmiş cümlələrdəki fərqləndirilmiş sözlərin sinonimlərini ardıcıllıqla düzün.

- Faşizmin gözünə sancıldı bir ox,
Sarsıtdı zərbəniz *lovğa* düşməni. (R.Rza)
- Onun ehtiyacı yox idi həsb-hala,
Nifrəti var əski ulduz, *hilala*. (S.Vurğun)
- Kədərli bir qəlbin yanıq *fəğanı*
Yandırar ürəyi daşdan olanı. (Ə.Cavad)
- O zamanlar çocuq idim, təbiətin qoynunda,
Tam asudə yaşar idim, tanımazdım *istibdad*.
(A.İldırım)
- Onun saf qəlbində nə qəzəb, nə kin,
Nə *həsəd*, nə də ki, bir xəyanət var. (S.Vurğun)

1. despotizm 2. nalə 3. paxıllıq
4. təkəbbürlü 5. aypara

26. Cədvələ əsasən uyğun fikirləri müəyyən edin.

Cümlədə zaman zərfi işlənmişdir.	**Cümlədə feili bağlama işlənmişdir.**
1. Külək şiddətlə əsir, dəniz dalğalanırdı. 2. Mənim qapım dostlarımın üzünə həmişə açıqdır. 3. Nurəddinin özü də şad oldu və dərhal heybəsini yerdən götürdü.	4. Bağ-bağça sulandıqca ətraf yaşıllığa qərq olurdu. 5. Yarımçıq qoyduğum işi indi bitirməliyəm. 6. İş kəsdilər, ömürlük göndərdilər gedərgəlməzə.

27. Uyğunluğu müəyyən edin.

1. Bağlayıcı, ədat və qoşma işlənmişdir.
2. Bağlayıcı və modal söz işlənmişdir.
3. Modal söz və ədat işlənmişdir.

a. Güman ki, Vasili səhər gəzintisindən belə məhrum ediləcəkdi.
b. Onun oğlu Mehman qoçaq oğlandır, ancaq onun avara gəzməyi, doğrusu, mənə toxunur.
c. Doğrusu, yazıq arvada lap ürəkdən acıyıram.
d. İndi ki bura qədər gəlmisən, gərək yarışın iştirakçılarından olasan, hətta yer tutasan.
e. Uşaqlar dağılışdılar və xanım da ancaq bundan sonra eyvandan otağa çəkildi.

Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları Cavab vərəqində yerinə yetirin.

Kalori

Bu gün az qala bütün dünya özünün kalorisini "izləmək"lə məşğuldur. Kalorinin nə olduğunu, onun orqanizmdə oynadığı rolu başa düşmək üçün əvvəlcə yeməkdən *danışmalıyıq*.

Bu gün elm hüceyrənin qidanı enerjiyə necə çevirməsini hələ də dəqiq izah edə bilmir. Biz sadəcə olaraq, bunu bir fakt kimi qəbul etmişik. Biz həm də izah edə bilmirik ki, bədən hüceyrələrinin normal fəaliyyəti üçün niyə bütün yeməklərə deyil, yalnız bəzi qidalara ehtiyac duyulur. Biz bilirik ki, orqanizmə düşən qida oksigenlə birləşir. Demək olar ki, qida da yanacaq kimi "yanır". Yanacağın gördüyü işi biz bu gün kalori ilə ölçürük.

Qidanın hər qramı "yanarkən" müəyyən miqdarda kalori əmələ gətirir. Məsələn, bir qram zülal dörd kalori verir, bir qram piy doqquz. Orqanizm nə qədər ki yaşamanı təmin edə bilir, onun üçün enerjinin alınmasında hansı yanacaqdan istifadə olunmasının elə bir

fərqi yoxdur. Məsələn, təxminən 68 kiloqram çəkisi olan insanın tam sakit, hərəkətsiz vəziyyətdə gündə cəmi 1680 kaloriya ehtiyacı olur. Əgər o dəftərxana işi kimi sakit bir iş görürsə, bu rəqəm gündə 3360 kaloriyə yüksəlir. Əgər həmin insan *ağır* fiziki əməklə məşğul-dursa, gündə ona artıq 6720 kalori lazım olur ki, orqa-nizm normal fəaliyyət göstərə bilsin.

Uşaqların kaloriyə böyüklərdən daha çox ehtiyacı olur, çünki yaşlı adamlar toplanan yanacağı elə asan yandıra bilmirlər. Soruşa bilərsiniz ki, biz mənimsəyə bildiyimizdən artıq yanacaq qəbul etsək, necə olar? Bu halda orqanizm yanacağın özünə lazım olan hissəsini işlədəcək və bir hissəsini də sonradan istifadə etmək üçün yığacaq. Bizim orqanizmimiz nəhayətsiz ehti-yat yarada bilmir. Onun ehtiyat üçün yığa bildiyi öz gündəlik normasının yalnız üçdən biri həcmində ola bilər. Yanacağın qalan hissəsi isə səhhətimizə zərər ola biləcək piyə çevrilir! Bax elə ona görə də biz çox vaxt pəhriz saxlamalı oluruq.

28. Mətnə əsasən fikirləri cədvəlin uyğun xanalarına yazın və fikrinizi əsaslandırın.
    1. İnsan mənimsəyə bildiyindən artıq kalori qəbul edib pəhriz saxlamazsa, müxtəlif sağlamlıq problemləri ilə üzləşə bilər.
    2. Elm hüceyrənin fəaliyyətini hələ də tam izah edə bilməmişdir.
    3. Oturaq işlə məşğul olan bir insanın xərclədiyi kalorinin onun çəkisi ilə heç bir əlaqəsi yox-dur.

Faktdır.	Ehtimaldır.	Yanlışdır.
Fikrin əsaslandırılması		

29. Mətnin məzmununu və üslubunu nəzərə almaq-la verilmiş cümlələrlə bağlı uyğun bəndləri qeyd edin və seçiminizi əsaslandırın.

"Kalori" latın sözüdür. Adətən, 1 kalori 1 qram suyun temperaturunu 1°C artırmaq üçün lazım olan istilik miqdarıdır, lakin qida kontek-sində istifadə edilən vahid, əsasən, kilokalori-dir ki, bu da 1000 kaloriyə bərabərdir.

Məzmun cəhətdən uyğundur. ☐

Məzmun cəhətdən uyğun ***deyil***. ☐

Əsaslandırma:

Üslub cəhətdən uyğundur. ☐

Üslub cəhətdən uyğun ***deyil***. ☐

Əsaslandırma:

30. Altından xətt çəkilmiş sözlərlə bağlı cədvəli doldurun.


Birinci sözü kontekstə görə əvəz edə bilən ifadə	İkinci sözün mətndə-kindən fərqli mənada cümlədə işlədilməsi

TARİX

Mövzular üçün | Video həllər üçün | Cavablar üçün

31. XIV əsrin ortaları və XV əsrin əvvələrində Şirvanşahlar dövlətinin tarixi üçün xarakterikdir:
A) Xarəzmşahlar ilə dostluq münasibətinin saxlanılması
B) Təbriz üzərinə hərbi yürüşlərin təşkil olunması
C) Dərbəndilər sülaləsinin hökmranlıq etməsi
D) Monqolların basqınlarına qarşı mübarizə aparılması
E) Teymurilər dövlətindən asılılığın qəbul edilməsi

32. Uyğunluğu müəyyən edin.



a. Tiflisdə imzalanmış sazişə əsasən, AXC və Ermənistan öz qoşunlarını bölgədən çıxarmalı idi
b. Sovet Rusiyası tərəfindən erməni daşnak hökumətinə verilmişdi
c. Bolşeviklər tərəfindən Muğan Sovet Respublikası yaradılmışdı
d. Əkin və otlaq sahələri Gürcüstanın Sığnaq qəzasına birləşdirilmişdi
e. Sovet Azərbaycanı və sovet Ermənistanı arasında mübahisəli ərazi elan olunmuşdu

A) 1-d; 2-b; 3-c
B) 1-b; 2-d; 3-c
C) 1-a; 2-d; 3-b
D) 1-d; 2-b; 3-a
E) 1-e; 2-c; 3-b

33. Qızıl Ordu dövlətindən ***fərqli*** olaraq, Xəzər xaqanlığı:
A) Rus knyazlarına qarşı mübarizə aparmışdı
B) Azərbaycan torpaqlarına hərbi yürüş təşkil etmişdi
C) Ərəblərin Şərqi Avropaya yürüşlərinin qarşısını almışdı
D) İslam dinini rəsmi dövlət dini elan etmişdi
E) Əhalisinin böyük hissəsi türk xalqlarından ibarət idi

34. Səlcuq sultanı I Toğrul və Səfəvi şahı I İsmayıl:
1. Şirvanşahlar dövlətini asılı hala salmışdılar
2. Azərbaycanın cənub torpaqlarında yeni dövlətin əsasını qoymuşdular
3. Xorasanı ələ keçirmişdilər
4. Amudəryadan Fərat çayına qədər əraziləri tabe etmişdilər

A) 2, 3 B) 1, 3 C) 2, 4 D) 1, 2 E) 3, 4


35. Stalinqrad uğrunda döyüşlərdə faşist Almaniyasının əsas məqsədi:
A) "Qəhrəman şəhər" adlanan Bakının neft mərkəzlərini ələ keçirmək
B) Finlandiyanı işğal edib Baltik sahillərinə çıxış əldə etmək
C) Moskvaya daxil olaraq Sovet hökumətinin təslim olmasına nail olmaq
D) Sovet ordusunun Qafqazın neft mərkəzləri ilə əlaqəsini kəsmək
E) Polşa və Çexoslovakiyanın işğalını başa çatdırmaq

36. Tarixi proseslərin məntiqi ardıcıllığını tamamlayın.
1. Saratoqa döyüşünün baş verməsi
2. .....
3. ABŞ-nin beynəlxalq nüfuzunun artması
4. .....
a. Cor Vaşinqtonun Avropaya göndərilməsi
b. İstiqlaliyyət müharibəsinin taleyinin həll olması
c. İngilis ordusunun məğlubiyyətə uğraması
d. Bostonun amerikalılar tərəfindən azad olunması
e. Fransanın ABŞ-nin müstəqilliyini tanıması

A) 2-d; 4-b B) 2 -a; 4-e C) 2-c; 4-e
D) 2-b; 4-c E) 2-e; 4-a

37. Manna əhalisinin e.ə. VII əsrin ortalarında üsyan qaldırmasının əsas səbəbi:
A) II Sarqonun Manna ərazisinə dağıdıcı yürüşü
B) Türk mənşəli tayfaların Manna ərazisində məskunlaşması
C) İranzunun mərkəzləşdirmə siyasəti yürütməsi
D) Manna hökmdarının Urartu meyilli qüvvələrin tərəfinə keçməsi
E) Ahşerinin siyasətindən narazılıq

38. Mədəniyyət nümunələrinin aid olduğu dövlətləri sxemə müvafiq olaraq müəyyən edin.




A) Ağ Hun dövləti, Uyğur dövləti, Teymuri dövləti
B) Qəznəli dövləti, Qızıl Ordu dövləti, Monqol dövləti
C) Ərəb xilafəti, Qaraxanlı dövləti, Osmanlı dövləti
D) Səlcuq dövləti, Dehli sultanlığı, Teymuri dövləti
E) Dehli sultanlığı, Xəzər xaqanlığı, Səlcuq dövləti

39. Daha sonra baş vermişdir:
A) Niyazabad döyüşündə Səfəvilərin qələbə qazanması
B) Şirvanşahlar dövlətinin varlığına son qoyulması
C) Uzun Həsənin Osmanlı əleyhinə Venesiya ilə hərbi ittifaqa daxil olması
D) Cəlairilərin Azərbaycanda hakimiyyətinin başa çatması
E) Əlincə qalasının Əmir Teymura təslim olması

40. Hərbi kommunizm siyasətinin kollektivləşdirmə siyasəti ilə oxşar, Yeni İqtsadi Siyasətdən ***fərqli*** cəhətini müəyyən edin.
1. Əhalinin istehsal etdiyi məhsulun zorla müsadirə olunması
2. Təsərrüfatda planlı sosialist sisteminin hökmranlıq etməsi
3. Xırda kəndli təsərrüfatlarının ləğv edilərək zorla ümumi təsərrüfatlarda birləşdirilməsi
4. Təsərrüfat sahiblərinin iqtisadi marağının azalması

A) 2, 3 B) 1, 4 C) 3, 4 D) 1, 2 E) 2, 4

41. Müasir xəritədə A və B ilə işarələnmiş dövlətlərin XVI əsr tarixinə aid hadisələrinin Venn diaqramına əsasən uyğunluğunu müəyyən edin.



a. Misir uğrunda Fransa ilə mübarizə aparılması
b. İspaniya donanmasının məğlubiyyətə uğradılması
c. Tüdorlar sülaləsinin hökmranlıq etməsi
d. Korsika adasının tutulmasında Fransaya yardım göstərməsi
e. "Müqəddəs birliy"ə üzv olması

A) 1-c; 2-d; 3-b B) 1-b; 2-c; 3-d
C) 1-a; 2-d, e; 3-c D) 1-d; 2-b, e; 3-a
E) 1-c; 2-a, e; 3-b

42. Rəşt və Gəncə müqavilələrinə əsasən:
A) Ermənilər Xəzərsahili ərazilərə kütləvi şəkildə köçürüldü
B) Osmanlılar işğal etdikləri Azərbaycan ərazilərini Səfəvilərə qaytardı
C) Nadir şah rus qoşunlarını Xəzərsahili vilayətlərdən çıxarmağa nail oldu
D) Araz çayından şimalda olan Azərbaycan əraziləri üzərində Osmanlı hakimiyyəti saxlanıldı
E) Rus tacirlərinin Səfəvi ərazisində sərbəst və gömrüksüz ticarət imtiyazları təsdiq edildi

43. Cədvəldəki hansı hadisələrin yerləri dəyişdirilərsə, xronoloji ardıcıllıq düzgün müəyyən edilər?

1.	Xaçın məlikliyi ərazisində yerləşən alban katolikosluğunun ləğv olunması
2.	Hacı Murtuzun başçılığı ilə Zaqatala üsyanının baş verməsi
3.	Ümum-Rusiya Müsəlmanlarının birinci Qurultayının keçirilməsi
4.	İlk mərkəzləşdirilmiş telefon stansiyasının işə salınması
5.	Şollar su kəmərinin istifadəyə verilməsi

A) 2 və 5 B) 1 və 2 C) 2 və 3
D) 3 və 4 E) 1 və 3

44. E.ə. VII yüzillikdə Afina və Sparta dövlətlərinin idarə üsulları arasında oxşar cəhətlər:
1. Vətəndaşlardan ibarət xalq yığıncağının mövcud olması
2. Ordu və donanmaya başçılıq edən strateqlərin seçilməsi
3. Dövlətin başında konsulların dayanması
4. Ağsaqqallar şurasının fəaliyyət göstərməsi
5. Hakimiyyətin oliqarxiyaya əsaslanması

A) 2, 3, 4 B) 3, 4, 5 C) 1, 4, 5
D) 1, 2, 3 E) 2, 4, 5


45. Şirvanşah I Fəribürz:
1. hər il 40 min dinar xərac verməli idi
2. şirvanşah titulu daşımaqdan məhrum edildi

Verilən hər iki cəhət göstərir:
A) Səlcuqlar tərəfindən Şirvanşahlar dövlətinin daxili müstəqilliyinin ləğvini
B) Məzyədilər sülaləsinin Səlcuqlardan asılılığı qəbul etməsini
C) Şirvanın Səlcuq sultanı I Toğrulun hücumuna məruz qalmasını
D) Azərbaycanın bütövlükdə Səlcuq imperiyasının tərkibinə qatılmasını
E) Dəndənəkan döyüşündə Şirvan qoşunlarının Səlcuqlara məğlub olmasını

46. Şah hökuməti sovet qoşunlarının İran ərazisindən çıxarılması üçün SSRİ ilə danışıqlara başladı. Aparılan danışıqlar nəticəsində İranın şimalında neft kəşfiyyatı və hasilatı barədə Sovet İttifaqı ilə müqavilə imzalandı. M. Bağırovun etirazlarına baxmayaraq, Stalin sovet qoşunlarının İrandan çıxarılmasına razılıq verdi.

Mətndə bəhs olunan tarixi proses nəticəsində:
A) Denstrevilinin komandanlığı altında ingilis qoşunları İranda yerləşdi
B) Şeyx Məhəmməd Xiyabaninin başçılıq etdiyi milli-demokratik hərəkat məğlub oldu
C) İranda Qacarlar sülaləsinin hakimiyyəti yenidən möhkəmləndi
D) İran qoşunlarının Cənubi Azərbaycana daxil olmasına imkan yarandı
E) Rza şah hökuməti İranın şimalındakı neft istehsalına olan nəzarətini itirdi


47. Uyğunluğu müəyyən edin.



A) 1-a, b; 2-c B) 1-b; 2-a, c C) 1-a; 2-b, c
D) 1-a, c; 2-a, b E) 1-b, c; 2-b

48. Mərənd müqaviləsinin pozulmasına səbəb oldu:
A) Stepan Razinin quldur dəstələrinin Volqa-Xəzər ticarət yoluna basqınları
B) Şah I Abbasın İraq torpaqlarına hücum etməsi
C) Səfəvilərin ruslara məxsus Terek qalasını dağıtması
D) Xorasanın Şeybanilər tərəfindən ələ keçirilməsi
E) Osmanlı hərbi qüvvələrinin Xoy ərazisinə daxil olması

49. Verilən hər iki xüsusiyyətin aid olduğu şəhərləri müəyyən edin.
– *Səlcuq canişinliyinin mərkəzi idi*
– *Monqollar tərəfindən dağıdılmışdı*



A) 2, 5 B) 1, 3 C) 3, 4 D) 1, 5 E) 2, 4

50. Səbəb-nəticə əlaqələrinin doğru verildiyi bəndi müəyyən edin.


	Səbəb	*Nəticə*
1.	Auqsburq sülhünün imzalanması	Avropada dini müharibələr dövrünə son qoyulması
2.	Flandriya uğrunda rəqabət	Yüzillik müharibənin baş verməsi
3.	Qranada əmirliyinin süqut etməsi	Pireney yarımadasının böyük hissəsinin ispan krallarının əlinə keçməsi
4.	İngiltərədə parlamentin qanunların verilməsində iştirak etmək hüququnu qazanması	Böyük azadlıqlar xartiyasının qəbul edilməsi
5.	Tomas Münserin başçılığı ilə kəndlilərin üsyan qaldırması	Parisdə protestantlara qarşı kütləvi qətliamın törədilməsi

A) 1, 3 B) 4, 5 C) 2, 3 D) 1, 2 E) 3, 4

51. Sasani şahı I Xosrov və Elxani Qazan xanın islahatları nəticəsində:
1. Sahibsiz torpaqlar hərbçilərə paylandı
2. Vergi yığan məmurların özbaşınalıqlarına son qoyuldu
3. Uşaqlar, qadınlar, qocalar ciziyə vergisindən azad olundular
4. Köçəri feodalların mövqeyi daha da möhkəmləndi

A) 2, 3 B) 1, 2 C) 3, 4 D) 1, 3 E) 2, 4

52. Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin.



a. Kalka döyüşündə qələbə qazanılması
b. Hindistan ərazisinə hücum edilməsi
c. Şeybanilərə qarşı mübarizə aparılması
d. Mərkəzi Asiyanın ələ keçirilməsi
e. Sasani dövlətinin süquta uğradılması

A) 1-e; 2-b; 3-c, d; 4-a B) 1-a; 2-d; 3-b; 4-c
C) 1-b; 2-a, c; 3-d; 4-e D) 1-e; 2-a; 3-b; 4-d
E) 1-e; 2-a; 3-c; 4-b, d

53. Qaraqoyunlu və Ağqoyunlu dövlətləri arasında ümumi cəhətlər:
1. Teymuri Əbu Səidlə siyasi-hərbi mübarizə aparılması
2. Osmanlı dövləti ilə dostluq münasibətinin saxlanılması
3. Cəlairilərin məğlubiyyətə uğradılması
4. Hökmdarın qeyri-məhdud hakimiyyətinə əsaslanan mərkəzləşmiş dövlət hesab olunması
5. Səfəvilər üzərində qələbə qazanılması

54. Xronoloji ardıcıllığı müəyyən edin.
1. Parisdə protestantlara qarşı kütləvi qətliamın törədilməsi
2. Vestfaliya sülhünün imzalanması
3. Hindistana dəniz yolunun kəşf olunması
4. Almaniyada reformasiya hərəkatının başlaması

55. Azərbaycanda ibtidai icma quruluşunun dağılması ilə nəticələndi:
1. Ata nəslinin mövqeyinin zəifləməyə başlaması
2. İri tayfa ittifaqlarının yaranması
3. İnsanların ibtidai kollektiv əməyinə üstünlük verməsi
4. İdarəetmənin adlı-sanlı adamların əlində toplanması
5. Cəmiyyətin varlı və yoxsullara bölünməsi

56. I Mahmud Nadir şah Əfşarla sülh müqaviləsi imzaladıqdan sonra əsas gücünü Avstriyaya qarşı yönəltdi. Balkanlarda ağır məğlubiyyətə uğrayan Avstriya sülh istəməyə məcbur oldu. İmzalanan müqavilə əsasında Osmanlı dövləti Balkanlarda itirdiyi ərazilərin xeyli hissəsini geri qaytara bildi.
Mətndə bəhs olunan Osmanlı sultanını III Əhmədden fərqləndirən cəhətlərini müəyyən edin.
1. Avstriyaya qarşı müharibə aparılması
2. Nadir şah ilə müqavilə imzalanması
3. Balkanlarda itirilmiş ərazilərin xeyli hissəsinin geri qaytarılması
4. Geriləmə dövründə hakimiyyətdə olmaları

57. Uyğunluğu müəyyən edin.
1. Trabzon sülh konfransı
2. Batum sülh konfransı
a. Osmanlı dövləti Seymin başlatdığı müharibə səbəbindən üzləşdiyi itkilərə görə yeni ərazilər tələb edirdi
b. Cənubi Qafqaz Seymi Qars, Ərdəhan, Batuma olan iddialarından əl çəkməli idi
c. Rus ordusunun Qafqaz cəbhəsindən çıxarılmasına başlanıldı
d. Osmanlı dövləti Cənubi Qafqaz Seymini müstəqil dövlət kimi görməyə çalışırdı
e. Almaniya danışıqlarda öz vasitəçiliyini təklif etmişdi

Sizə təqdim olunmuş mənbəni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları cavab kağızında yerinə yetirin.

.... Bir azdan sarayın qapıları açıldı. Uzaq Avropa torpaqlarından gələn elçilər ehtiramla içəri daxil oldular.

Elçilərdən biri başını əyərək dedi:

– Əzəmətli şah! Roma papası və Avropa hökmdarları Osmanlıya qarşı "Müqəddəs birlik" yaratmışlar. Biz sizin ədalətinizi və qüdrətinizi bilirik. Əgər siz də bu birliyə qoşulsanız, qələbə tezliklə bizim olacaq. Biz sizə yeni torpaqlar, böyük dostluq və sərvət vəd edirik.

Süleyman şah məktubu açıb oxudu, sonra baxışlarını qonaqlara dikdi:

– Dostluq qan üzərində qurularsa, o dostluq deyil, xəyanətdir. Biz çətin günündə din və qan qardaşlarımızı arxadan vurmayacağıq.

Bir neçə il sonra Osmanlı dövləti Avropada torpaqlar itirsə də, Şərqdə Süleyman şahın adı sədaqətin rəmzi olaraq qalmaqda idi.

"The Cambridge History of Iran, Volume 6"
(Cambridge University Press, 1986)

58. Tarixi biliklərinizə əsasən, "Müqəddəs birliy"ə daxil olmuş dövlətlərdən ikisinin adını qeyd edin.

59. Mənbəyə əsasən, haqqında bəhs olunan Səfəvi şahının Osmanlı dövləti ilə münasibətdə Şah I Abbasdan ***fərqli*** cəhətini yazın.

60. Mənbəyə və tarixi biliklərinizə əsasən, Osmanlı dövlətinin "Müqəddəs birlik" ilə mübarizəsinin iki nəticəsini qeyd edin.

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

61. N.Vəzirovun "Müsibəti-Fəxrəddin" əsərinə aid fikirlərdən hansılar ***səhvdir?***

Mahmud bəyin ölməsindən sonra	1. Rüstəm bəy intiqam almaq üçün yeni plan qurur.
	2. Əhməd onun qanını yerdə qoymayacağına and içir.
	3. Fəxrəddin onu kədərlə xatırlayır.
Fəxrəddinin vurulmasından sonra	4. Şahmar Rüstəm bəyi öldürəcəyinə söz verir.
	5. Səadət son nəfəsində onu görməyə gəlir.

A) 2, 5 B) 1, 4 C) 3, 5 D) 1, 3 E) 2, 4

62. M.F.Axundzadənin yaradıcılığı ilə bağlı fikirlərdən hansı doğrudur?
A) "Mürafiə vəkillərinin hekayəti" adlı əsəri janrına görə digər dram əsərlərindən fərqlənir.
B) Çap olunmuş ilk əsəri "Zəmanədən şikayət" şeiridir.
C) Dram əsərlərini "Səbuhi" təxəllüsü ilə yazmışdır.
D) "Hekayəti-Seyyid Molla Ələm Səlyani", "Həcvi-Əbdürrəsul xan" şeirləri təbiətin tərənnümünə həsr olunmuşdur.
E) Həm epik, həm də dramatik növdə yeni bir janrın ilk nümunəsini qələmə alan sənətkardır.

63. N.Gəncəvinin "İskəndərnamə" poemasında belə bir surət ***yoxdur:***
A) Ədalətlidir, bu xüsusiyyətinə görə ona rəqib çıxan da olmuşdur.
B) Bilik və bacarığını əsirgəmədən ona tapşırılan şəxsin təlimi ilə məşğul olur.
C) Gecə vaxtı düşmənə hücum etmək təklifini rədd edir.
D) Vəzirdir, İskəndərə elçi libası geyinərək saraya getməyi təklif edir.
E) Hökmdardır, ağlı, bacarığı, fərasəti ilə başqa bir hökmdarı heyran edir.

64. "Molla Nəsrəddin" ədəbi məktəbinə aid sənətkarları müəyyənləşdirin.
1. M.Hadi 2. M.Ə.Sabir 3. A.Səhhət
4. H.Cavid 5. Ə.Qəmküsar 6. Ə.Haqverdiyev
A) 1, 2, 4 B) 1, 3, 5 C) 3, 4, 6
D) 1, 2, 5 E) 2, 5, 6

65. "Düratın itməyi" ("Koroğlu" dastanı) qolu ilə bağlı fikirlərdən hansı doğrudur?
A) Ələmqulu xanın adı çəkilir, amma hadisələrdə iştirak etmir.
B) Xoca Əzizin gətirdiyi xəbər Koroğlunu narahatlıqdan xilas edir.
C) Digər qollardan fərqli olaraq, Koroğlu bu qolda səfərə çıxmır.
D) Koroğlu bu qolda yaxın adamlarının biganəliyinə şahid olur.
E) Qara xan tutduğu işin doğru olmadığını görüb səhvini düzəldir.

66. C.Məmmədquluzadənin "Qurbanəli bəy" əsərindən seçilmiş hadisələrin ardıcıllığı hansı bənddə göstərilmişdir?
1. Qurbanəli bəyin atı naçalnikin diqqətini cəlb edir.
2. Qurbanəli bəy hamını evinə dəvət edir.
3. Qurbanəli bəy Kəblə Qasımı çaxır içməyə məcbur edir.
4. Pristavın xanımı qonaq gələn Qurbanəli bəylə görüşür.
A) 1, 2, 4, 3 B) 4, 2, 3, 1 C) 4, 1, 3, 2
D) 1, 4, 3, 2 E) 4, 1, 2, 3

67. Verilmiş fikirlərdən hansı M.Hadinin "Türkün nəğməsi" şeirində əksini ***tapmamışdır?***
A) Dövlətlərin ləhşət saçan atəşləri türkləri qorxutmaz.
B) Təkcə qəhrəmanlıq etməklə, qan tökməklə zəfərlər qazanmaq mümkün deyil.
C) Heç bir qüvvə, hətta ölüm belə türkləri yolundan döndərə bilməz.
D) Məfkurə yolunda axıdıldığı üçün türkün qanı hədər getməz.
E) Şəhid qanı qiymətlidir, hədər getməyəcəkdir.

68. Hansı bənddəki əsər verilmiş xüsusiyyətlərdən yalnız ikisini daşıyır?
- *Nəzmlə yazılmışdır.*
- *Beytlər şəklindədir.*
- *Rəməl bəhrindədir.*
- *Məhəbbət mövzusundadır.*

A) "Dağlar" (Aşıq Ələsgər)
B) "Söz" (M.Füzuli)
C) "Dəhnamə" (Ş.İ.Xətayi)
D) "Sığmazam" (İ.Nəsimi)
E) "Rəşid bəy və Səadət xanım" (İ.Qutqaşınlı)

GÜVƏN NƏŞRLƏRİ

69. Aşıq Ələsgərin "Dağlar" qoşmalarına aid cədvəldəki doğru fikirləri müəyyənləşdirin.

Hər iki qoşmaya aid edilə bilər	Qoşmaların heç birinə aid edilə bilməz
1. Kəpəzin, Murovun və başqa dağların adları çəkilir. 2. Rədifdən istifadə olunmuşdur. 3. Lirik qəhrəman elsiz yaşadığı üçün özünü qınayır.	4. Dağların insana şeir yazmaq üçün ilham verdiyi vurğulanır. 5. Dağların şahdan qorxmadığı, sərdara baş əymədiyi deyilir. 6. Cinas sözlərdən istifadə olunmuşdur.

A) 2, 4, 6 B) 1, 2 5 C) 3, 4, 5
D) 2, 3, 6 E) 1, 3, 6

70. Bir şifahi xalq ədəbiyyatı nümunəsində qeyri-adi qüvvələrin iştirakına şahid olunur, baş qəhrəman sonda qalib gəlir. Bu nümunə hansı janrdadır?
A) rəvayət B) dastan C) lətifə
D) yanıltmac E) nağıl

71. Fikir necə tamamlansa, ***səhv*** olar?
Həm qoşma, həm də gəraylı janrında olan şeirlərin...
A) müəllifinin adı və ya təxəllüsü şeirin son bəndində göstərilir.
B) bir neçə bəndində çarpaz qafiyənin işlənməsi müşahidə olunur.
C) ilk bəndi qafiyə quruluşuna görə digərlərindən fərqlənir.
D) bütün misralarında hecaların sayı eyni olur.
E) son bəndinin qafiyə quruluşu orta bəndlərlə eyni olur.


72. M.F.Axundzadənin "Aldanmış kəvakib" əsərində Yusif Sərracın islahatlarına aid fikirlərdən hansılar doğrudur?
1. Vergi miqdarı orta məbləğədək azaldılır.
2. Yolların çəkilməsi, karvansaralar, xəstəxanalar tikilməsi üçün yeni vergilər təyin olunur.
3. Dullara, yetimlərə, şillərə, korlara yardım göstərilir.
4. Dini vergilər vilayətin kasıblarına sərf olunur.
5. Məhkəmə işləri ruhanilərə həvalə olunur.
A) 1, 3, 4 B) 2, 3, 5 C) 1, 2, 4
D) 3, 4, 5 E) 1, 2, 5

73. Nümunədə işlənmiş bədii təsvir və ifadə vasitələri haqqında fikirlərdən hansı ***səhvdir?***
Yeri qanlı-qanlı döydü yağışlar,
Keçib damarımda axdılar mənim.
Dəli arzularım *döndü yağışa,*
Qayıdıb üstümə yağdılar mənim.
(Ə.Qoşalı)
A) İlk misrada metafor işləndiyini demək mümkündür.
B) Fərqləndirilmiş hissədə epitet işlənmişdir.
C) Kinayəyə yer verilməmişdir.
D) Nümunədə təşbehdən istifadə olunmamışdır.
E) Bir neçə misrada inversiya var.

74. S.Ə.Şirvaninin yaradıcılığına aid edilmiş fikirlərdən hansılar ***səhvdir?***
1. Qoşma, qəzəl, qəsidə ən çox müraciət etdiyi janrlardır.
2. Lirik şeirlərində və poemalarında ictimai məsələlərə toxunmuşdur.
3. Lirikasında əsas yeri məhəbbətin tərənnümü tutur.
4. "Eşşək və arılar" əsəri təmsildir, cahil insanlar tənqid olunmuşdur.
5. Satirik şeirlərinin hamısı heca vəznindədir.
A) 2, 3, 5 B) 1, 3, 4 C) 1, 2, 5
D) 3, 4, 5 E) 1, 2, 4

75. Q.Zakirin "Durnalar" şeirində lirik qəhrəman durnalardan istəyir:
1. geriyə qayıdıb salam aparmağı
2. şairin məktubunu ellərə çatdırmağı
3. olduqları yerdən ehtiyatla keçməyi
4. bir daha bu yerlərə qayıtmamağı
5. havada bir müddət qanad saxlamağı
A) 1, 4 B) 3, 5 C) 2, 4 D) 1, 5 E) 2, 3

76. Hansı bənddəki fikir əsərlərin müqayisə olunduğu Eyler-Venn diaqramının heç bir xanasına yazıla ***bilməz?***



A) Beytlər şəklindədir.
B) Tərənnüm əsasında yazılmış lirik əsərdir.
C) Cəhalət xalqın inkişafını ləngidən bəla hesab olunaraq pislənmişdir.
D) *"İnsanın bəzəyi elmdir"* fikri səsləndirilmişdir.
E) Bir xətt üzrə davam edən hadisələrə yer verilmişdir.

77. Verilənlərdən biri C.Məmmədquluzadənin "Anamın kitabı" əsərində xeyriyyə cəmiyyətində müzakirəyə çıxarılan mövzulardan ***deyil:***
A) acların ərizəsi B) elmi-ilahi dərsləri
C) məktəb proqramları D) qəzet və jurnal nəşri
E) il hesabının təsdiqi

78. Ş.İ.Xətayinin "Bahariyyə" əsəri ilə bağlı fikirlərdən hansılar doğrudur?
1. Təbiətin bahar və payızdakı halları müqayisə olunur.
2. Bədii ifadə vasitələrinə geniş yer verilmiş, təsvir vasitələri işlənməmişdir.
3. Baharın gəlişinin güllərin bitməsinə, hər yerin laləzar olmasına səbəb olduğu deyilir.
4. Bülbülün oxumasından, durnanın uçmasından bəhs olunur.
5. Budaq üstündə oxuyan bülbül minbərdəki xətibə bənzədilir.
A) 1, 2, 3 B) 2, 4, 5 C) 1, 3, 5
D) 1, 2, 4 E) 3, 4, 5

79. N.Vəzirovun "Müsibəti-Fəxrəddin" əsərində iştirak edən surətlərdən hansı daha çox Cahangir bəylə bağlı epizodlarda iştirakı ilə yadda qalır?
A) Hürü nənə B) Şahmar C) Fərhad
D) Gülbahar E) Mahmid

80. S.S.Axundovun "Nurəddin" əsərində Nurəddinə aid edilmiş fikirlərdən hansılar doğrudur?
1. Gülpərinin ailəyə gəlişi onun həyatına mənfi təsir edir, dərslərindən geri qalır, danlanır.
2. Bahara qarşı münasibəti onun vəfalı olduğunu göstərir.
3. Cənnətəli ilə rastlaşması onun dilənçiliyə məcbur edilməsi ilə nəticələnir.
4. Əmiraslanın onunla bağlı planını öyrənəndə təhlükədə olduğunu başa düşüb evdən qaçır.
A) 2, 4 B) 1, 3 C) 2, 3 D) 1, 2 E) 1, 4

81. M.F.Axundzadənin "Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur" komediyasının iştirakçısı müsyö Jordan haqqında fikirlərdən hansı ***səhvdir?***
A) Müəllifin elm, yenilik, maarif, inkişaf idealının təmsilçisidir.
B) Hatəmxan ağanı inandırıb Şahbazı Parisə aparmaq üçün icazə ala bilir.
C) Dərviş Məstəli şahla qarşılaşdığı səhnədə maarifçi fikirləri qabarıq şəkildə üzə çıxır.
D) Əsərin sonunda Londona getmək üçün yola çıxır.
E) Müəllif onun nitqi ilə Qarabağın təbii sərvətlərinin zənginliyinə diqqət çəkir.

82. Nümunənin məzmununa əsasən müəyyənləşdirin. "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy"dan seçilmiş hissə kimin dilindəndir və hansı epizodda deyilir?
Uca dağımı yıxan Qazan!
İri kölgəli ağacımı kəsən Qazan!
... Xan qızını – halalını tanımayır gözün sənin!
Nə olmuşdur sənə belə, huşunumu itirmisən?
A) Burla xatunun; Qazan xan ovdan tək qayıtdıqda
B) Uruzun; Dərbənddə atasından döyüşməyib qayıtmağı xahiş etdikdə
C) Qaragünənin; Qazan xan igidlik göstərmədiyinə görə Uruzu qınayanda
D) Burla xatunun; Dərbənddə Qazan xan onu tanımadıqda
E) Uruzun; Atası ilə birlikdə iştirak etdiyi ov səhnəsində

83. C.Məmmədquluzadənin yaradıcılığına aid fikirlərin aid olduğu əsərlərin ardıcıllığını müəyyənləşdirin.
– *Dramatik növdədir, nəzmlə yazılmışdır.*
– *Dil mövzusuna həsr olunmuş hekayədir.*
– *Əsərdəki Xudayar bəy surəti milli-mənəvi dəyərləri itirmişdir.*
– *Müəllifin çap olunmuş ilk dram əsəridir.*
1. "Şeir bülbülləri"
2. "Ölülər"
3. "Çay dəsgahı"
4. "Danabaş kəndinin əhvalatları"

84. A.Şaiqin "Anabacı" əsərinə aid səbəb-nəticə cədvəlindəki doğru fikirləri tapın.

	SƏBƏB	NƏTİCƏ
1	Anabacı çətin, acı həyat tərzi yaşamışdı.	Onun səsindəki nisgil müəllifin diqqətini cəlb edir.
2	Anabacı müəllifin corab istədiyini bilirdi.	Corab toxuyub ona hədiyyə gətirir.
3	Atababa xəstələnib yatırdı.	Anabacı onun vəziyyətini bildirmək üçün kağız yazdırmaq istəyirdi.
4	Anabacının yazdırdığı ilk kağızı idarədə bəyənməyib geri qaytarmışdılar.	O, ikinci dəfə kağız yazdırmağa məcbur olmuşdu.
5	Müəllif Anabacıya kömək etmək istəyirdi.	Onu evinə dəvət edir.

85. Verilmiş nümunə ilə bağlı fikirlərdən hansılar doğrudur?

Səndən ayrı şad olmuram, gülmürəm,
Canımdan bezmişəm, ölə bilmirəm,
Nə müddətdi qulluğuna gəlmirəm;
Bağışla təqsirim, səf eyləmişəm.

(Aşıq Ələsgər)

1. Misralardakı hecaların sayına əsasən qoşma olduğunu demək mümkündür.
2. Aid olduğu şeirin orta bəndlərindən biridir.
3. Şeirə xoş ovqat hakimdir, tərənnüm əsasında yazılmışdır.
4. Misraların daxili bölgü sxemi eyni deyil.
5. Qafiyə quruluşu bəndin gəraylıya aid olmadığını deməyə əsas verir.

86. Nümunədə hansı bədii təsvir və ifadə vasitələri işlənmişdir?

Hər gün bir səhifə, hər gün bir varaq...
İçində isidir soyuq suları.
Varaqlar içində bir sarı yarpaq
yadıma salır
payızı, yağışı, bir də yolları.

(M.Tahir)

1. epitet
2. təşbeh
3. inversiya
4. metafor
5. mübaliğə
6. təkrir

87. S.Ə.Şirvaninin "Guş qıl..." şeirindən seçilmiş hissələrlə bağlı uyğunluğu müəyyənləşdirin.

1. Zahida, tanrıya bax, məclisi-irfandır bu,
Tarı əsbabi-mənahi demə, böhtandır bu...
2. Guş qıl, ey ki, bilirsən özüvi vaqifi-kar,
Agah ol, gör ki, nədir naleyi-ney, nəğmeyi-tar...
3. Kim ki zövq əhli degil, anı hesab eylə həcər,
Ləhni-Davud eləməz növi-cəmadatə əsər...

a. Tarın, neyin səsindən xəbərdar olmağa çağırış var.
b. Musiqi alətlərini qadağan edənlərin sözlərinin həqiqət olmadığı vurğulanmışdır.
c. Müğənninin səsi İsa peyğəmbərin səsinə bərabər tutulmuşdur.
d. Musiqidən zövq ala bilməyənlər daşa bənzədilmişdir.
e. Davudun gözəl səsinin belə cansızlara təsir etmədiyi deyilmişdir.

88-90-cı sualları mətnə əsasən cavablandırın.

Atamın kitabı

Məmmədəli – Srağagün ürəyini İranda müalicə elətdirən birisilə görüşdüm. Deyir, İranda təbabət Amerikanı keçib.

Vahid – İranda? Məmmədəli, sən axı duaya inanan adamsan, get, ağlına dua yazdır. Mən təklif edirəm ki, Ankaraya aparaq...

Rüstəm – Ves mir bilir ki, dünyada ürək xəstəliklərinin sentri Rusiyadır. Köməkləşək, aparaq Moskvaya.

İxtiyar – Yəni bizim öz həkimlərimizə nə gəlib? Əvvəl öz həkimlərimizi çağıraq, sonrasına baxarıq.

Gülbahar – Mən də İxtiyar deyəni deyirəm.

Rüstəm – Bunu siz niyə qanmaq istəmirsiniz ki, bizim ən yaxşı spesialistlərimiz Moskva şkolasından çıxıb.

Məmmədəli – Əvvəla, qanmaz özünsən, saniyən "spesialist" və "şkola" rus sözləridir. Salisən, dəqiqə başı soxma gözümüzə Rusiyanı. Spesialist yerinə mütəxəssis desən, dilin quruyar?

Rüstəm – Diskussiyanı buraxaq. Anamızı Rusiyaya aparaq.

Vahid – Sən öl, bu, Rusyadan əl çəkən deyil.

Rüstəm – Balam, niyə bu Rusiyanı gözümçıxdıya salmısınız?

Gülbahar – A mənim savadlı, bilikli qardaşlarım. Hər biriniz özünü o birisindən ağıllı hesab edirsiniz. Amma ağıllı o adamdır ki. başqasının da fikrinə hörmət qoymağı bacara. Sizin birinizin sözü o birinin boğazından keçmir. Əgər sizin davanız, həqiqətən, vətəni və bu zavallı xalqı xoşbəxt etmək olsaydı, bir-birinizi səbirlə dinlər, bir məxrəcə gələ bilərdiniz. Gələ bilmirsiniz...

(B.Vahabzadənin "Atamın kitabı" əsərindən bir hissə əsasında hazırlanmışdır)

88. Mətn C.Məmmədquluzadənin "Anamın kitabı" əsəri ilə müqayisə olunsa, məzmun, yoxsa forma baxımından fərqlilik müşahidə olunar? Seçiminizi edin və əsaslandırın.

Fərqlilik müşahidə olunur	Əsaslandırma
□ Əsərlərin məzmununda □ Əsərlərin formasında	

89. "Atamın kitabı" (B.Vahabzadə) və "Anamın kitabı" (C.Məmmədquluzadə) əsərləri üçün ortaq olan üç fikir müəyyən edərək yazın.

1	
2	
3	

90. *"Qonşuya ümid olan şamsız yatar"* atalar sözü ilə hansı surətin nitqini qüvvətləndirmək olar? Seçimizi əsaslandırın.

Surət	Əsaslandırma

SINAQ 12

AZƏRBAYCAN DİLİ

Müvəzilər üçün | Ünlü hərflər üçün | Cavablar üçün

1. Müqayisə cədvəlinə əsasən doğru fikirləri müəyyən edin.

Qorxudulmuşdu	Bərkidilmişdi
1. *Qorxunc* sifəti ilə eyniköklüdür. 2. Üç leksik, iki qrammatik şəkilçi işlənmişdir.	3. *Bərkdən* zərfi ilə eyniköklüdür. 4. İki leksik, iki qrammatik şəkilçi işlənmişdir.
5. Köməkçi söz (hissəcik) ilə işlənmişdir. 6. Xəbər şəklində, qayıdış növdədir.	

A) 2, 3, 6 B) 2, 4, 6 C) 1, 4, 5
D) 1, 3, 5 E) 1, 2, 3

2. Nümunədə buraxılmış durğu işarələrinin ardıcıllığını müəyyən edin.
Alp Aruz dedi
Ağam Qazan kafər ölkəsinə Gürcüstan sərhədinə gedirsən ev-eşiyinin üstündə kimi qoyursan
A) nöqtəli vergül, tire, vergül, tire, vergül, sual
B) qoşa nöqtə, dırnaq, tire, vergül, tire, vergül, nöqtə
C) qoşa nöqtə, tire, vergül, tire, vergül, sual
D) qoşa nöqtə, tire, vergül, vergül, tire, vergül, nöqtə
E) qoşa nöqtə, tire, vergül, tire, vergül, nöqtə

3. *"Həqiqətdən uzaq şəxsdə, yəni beyni qapalı, kar, kor insanda kin, ədavət hissi güclü olur"* cümləsi ilə bağlı ***yanlış*** fikirləri müəyyən edin.
1. Bağlayıcı tabesiz mürəkkəb cümlənin tərkib hissələrini bağlamağa xidmət edir.
2. Baş üzvlər söz birləşməsi ilə ifadə olunmuşdur.
3. Zərflik işlənməmişdir.
4. Tamamlığın əlavəsi işlənmişdir.
5. Həm tabelilik, həm də tabesizlik əlaqəsi işlənmişdir.
A) yalnız 1, 2 B) 1, 2, 4 C) 3, 4, 5
D) yalnız 4, 5 E) 1, 3, 5

4. Uyğunluğu müəyyən edin.
1. Yazılışı ilə deyilişi fərqlənmir.
2. Yazılışı ilə deyilişi fərqlənir.
a. epistolyar b. etnoqraf
c. ərimən d. xilaskar
A) 1-a,b; 2-c,d B) 1-a,d; 2-b,c
C) 1-a,c; 2-b,d D) 1-c,d; 2-a,b
E) 1-b,d; 2-a,c

5. Verilmiş nümunə hansı üsluba aiddir?
Maddə 21. Dövlət dili
I. Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir.
II. Azərbaycan Respublikası əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir.
A) elmi üslub B) publisistik üslub
C) məişət üslubu D) bədii üslub
E) rəsmi-işgüzar üslub

6. Bəndlərdən birində *aləm* sözünün mənası ilə cümlədə işlənməsi arasında ***uyğunsuzluq*** var:

	Sözün mənası	Nümunə
A)	Kainat, dünya, yer üzü	Qış günü qurtarmaqda idi, üfüqlərdən qatı bir qaranlıq aləmə yayılırdı. (M.İbrahimov)
B)	Xalq, camaat, el, bütün adamlar, insanlar	Bu gün bir süngüdür əlimdə qələm; Mənim bayrağıma göz dikir aləm. (S.Vurğun)
C)	Çox maraqlı, cazibəli, diqqəti cəlb edən	Gecə yarı dənizin bir özgə aləmi var. (Ə.Cəmil)
D)	Çoxlu, küllü miqdarda, saysız-hesabsız	Qayınana deyinirdi: – Oğlum yazıq oldu! Bir aləmcə xərc tökdük. (Mir Cəlal)
E)	Hisslər, təəssürat, təsəvvürlər, həyəcanlar mühiti	Şeirim, bu hikməti aləmə bildir; Xəyal ölənləri bəzən dirildir. (M.Rahim)

7. Verilmiş xüsusiyyətlərin hər üçünün aid olduğu cümləni müəyyən edin.
1. Feili xəbərlidir, xəbəri frazeoloji birləşmə ilə ifadə olunmuşdur.
2. Həmcins zərfliklər işlənmişdir.
3. Ümumi şəxsli cümlədir.
A) O, soyuqdan və həyəcandan əsirdi.
B) Xoşbəxtliyə nail olmaq üçün xalqa xidmət etmək və insanlara məhəbbətlə yanaşmaq lazımdır.
C) Düşmənini öldürmək əvəzinə, onu şəfqət və məhəbbətlə yola gətir.
D) İndi bütün bunları xatırlayır, hıçqıra-hıçqıra ağlayırdı.
E) Xalq dramlarının yaranmasında aşıq sənəti və mərasimlər böyük rol oynamışdır.

8. Hansı cümlədə ədəbi dilin qrammatik norması pozulmuşdur?
A) Onun addımlarında əsryarımlıq bir səbir və iradə səslənirdi.
B) Uzaqda – yolun qalın meşəylə birləşdiyi yerdə toz buludu qalxırdı.
C) Cahandar ağa tüfəngini çiyinindən alıb çaxmağı hərlədi.
D) Alimlərin fikrincə, bu heroqliflər tam oxunduqdan sonra çox mətləblər aydınlaşacaqlar.
E) Qulağıma hardansa bir səs toxundu.

9. Uyğunluğu müəyyən edin.
1. *-la²* qoşma kimi işlənmişdir.
2. *-la²* bağlayıcı kimi işlənmişdir.
3. *-la²* zərf düzəldən şəkliçidir.
a. Dostu çətinliklə əldə edib asanlıqla əldən vermək nadanlıqdır.
b. Namusla yaşamaq üçün əməyi sevməlisən.
c. Sən çıxdın qarşıma duzla, çörəklə (S.Rüstəm)
d. Elmlə əxlaq insanın bəzəyidir.
A) 1-a; 2-b,c; 3-d B) 1-c; 2-d; 3-a,b
C) 1-b, c; 2-d; 3-a D) 1-d; 2-a,b; 3-c
E) 1-c; 2-a,d; 3-b

10. Biri *çəkim* sözünə aid edilə ***bilməz***:
A) Təsriflənən feil kimi işlənə bilir.
B) Tərkibinə görə təhlili ⌐¬∧ sxeminə uyğun söz kimi düşünülə bilir.
C) Mənsubiyyət şəkilçili isim kimi işlənə bilir.
D) Tərkibinə görə təhlili ⌐¬∧ sxeminə uyğun söz kimi düşünülə bilir.
E) Həm sadə, həm də düzəltmə isim kimi işlənə bilir.

11. Verilmiş nümunə ilə bağlı ***yanlış*** fikirləri müəyyən edin.

Nə təmiz, nə böyük təbiəti var,
Ona bənzəsəydi bütün insanlar.

1. Altından xətt çəkilmiş sözlər yalnız bir köməkçi nitq hissəsi kimi düşünülə bilər.
2. Mənsubiyyət şəkilçili isim adlıq haldadır.
3. İkinci misrada söz sırası pozulmuşdur.
4. Əvəzliyin üç müxtəlif məna növünə aid nümunələr var.
5. Həm ismi, həm də feili xəbər işlənmişdir.
A) 1, 3, 5 B) yalnız 1, 4 C) yalnız 4
D) 2, 3, 5 E) yalnız 3, 5

12. *"Aydının vəzifəsinə olan sevgisi onu yeni nailiyyətlərə ruhlandırırdı"* cümləsindən hansı ifadə çıxarılsa, ikinci dərəcəli üzvlərin sayı artar?
A) vəzifəsinə olan B) onu C) Aydının
D) yeni E) nailiyyətlərə




13. *"II Qarabağ müharibəsində əsgərlər, zabitlərlə yanaşı, müəllimlər, həkimlər, sıravi vətəndaşlar ♦ qısası • bütün xalq səfərbər olmuşdu"* cümləsində bərpa olunmalı durğu işarələri haqqında doğru fikirləri müəyyən edin.

	Doğrudur:	Yanlışdır:
♦	1. Qoşa nöqtə işarəsi qoyula bilməz.	3. Tire işarəsi qoyulmalıdır.
•	2. Tire işarəsi qoyulmalıdır.	4. Vergül işarəsi qoyula bilməz.

A) 1, 4 B) 2, 3 C) 1, 3 D) 2, 4 E) 1, 2

14. Hansı cümlə(lər)də tabesizlik bağlayıcısı tabesiz mürəkkəb cümlədə tərkib hissələrin bir-birinə bağlanmasına xidmət edir?
1. İnsanların sirrini saxlamaq və susmaqla etibar qazanmaq böyüklük əlamətidir. (Sokrat)
2. Hərçənd ki Azərbaycan mülayim qurşaqda yerləşir, ancaq qışı soyuq keçir.
3. Çox yaşamaq əlimizdə deyil, lakin adımızı çox yaşatmaq əlimizdədir. (Şəhabəddin)
4. Bu dünya bir qızıl kuzəyə bənzər
Suyu gah şirindir, gah da ki zəhər. (M.Gəncəvi)
5. Elə saxla dilini,
Nə dil səndən utansın
Nə sən dilindən utan. (R.Rza)
A) 3, 4, 5 B) yalnız 3, 5 C) 1, 2, 4
D) yalnız 1, 2 E) yalnız 3

15. *"Köləlikdən azad olmaq üçün həqiqəti həmişə yanınızda gəzdirin"* (B.Paskal) cümləsinin sintaktik təhlili hansı sxemə uyğun gəlir?

A) 
B) 
C) 
D)
E) 

16. Əlavə hansı cümlədə söz birləşməsi ilə ifadə olunmuş ismi xəbərə aiddir?

A) Yaşasın səadət – o yaz səhəri! (S.Vurğun)
B) Kimsən, haralısan, danış, ay çoban!
Dağıstan əhliyəm – ləzgiyəm, qardaş. (S.Vurğun)
C) Şikayət etmərəm öz taleyimdən
Ölüm ayağında – ən böyük darda. (S.Vurğun)
D) Gül, ey nazlı vətən! – Odlar torpağı!
Duz-çörək hazırla qəhrəmanlara! (S.Vurğun)
E) Ana, on dörd gündən sonra bayramdır – martın 21-dir.

17. Hansı cümlədə tamamlıq söz birləşməsi ilə ifadə ***olunmamışdır***?

A) Biz onlardan nizam-intizam yaratmağı xahiş etmişik.
B) Vətən yolunda şəhid olanları xalq əbədi yaşadır.
C) Onların başına gül-çiçək dəstələri səpirdilər.
D) Şəhər əhalisi qoşunun qabağında gedən atlılardan birini şah hesab edib ona gül atırdılar.
E) Onunla bir yerdə olmağa çox ehtiyac duyurdum.

18. Cümlələrdən birində həmcins xəbər işlənmişdir:

A) İgid qayalarda yaşamağı, ot kökü ilə qidalanmağı və yağış suyu ilə dolanmağı bacarmalıdır.
B) Yağış yağdı, yollar keçilməz oldu.
C) İnsan ruhuna silahla deyil, məhəbbət və alicənablıqla qalib gəlmək olar. (Spinoza)
D) Sevgi nə qədər böyük olsa, kədəri də bir o qədər böyük olacaq. (Spinoza)
E) İclasa mən də getmişdim, ancaq çıxış üçün söz vermədilər.

19. Biri şəxsə görə sadə cümlənin növləri baxımından digərlərindən fərqlənir:

A) Məsələnin bütün incəliklərinə diqqət yetiriləcək.
B) Burada bütün məntəqələrdən gələn məlumatlara baxılacaq.
C) Nazirlikdən cinayət işinə xitam verilməsinə göstəriş verildi.
D) İşin gedişinə nəzarət edilir.
E) Getdikcə havalar isinir.

20. *"Maddi dünyanın "sifarişlərinə" həddindən artıq aludə olanda insan öz ruhani başlanğıcını unudur"* (Əbu Turxan) cümləsində ***işlənməmişdir***:

A) qüvvətləndirici ədat
B) təsriflənən feil
C) təsriflənməyən mürəkkəb feil
D) təyini əvəzlik
E) düzəltmə isim


21. Verilmiş fikirlərin hər üçünə uyğun gələn sözü müəyyən edin.

1. İki müxtəlif nitq hissəsi kimi işlənə bilsə də, omonim deyil.
2. Sifət kimi işlənə bilir.
3. Bütün hallarda quruluşca sadədir.

A) nəhayət B) müxtəsər C) xülasə
D) sözsüz E) şübhəsiz

22. Nümunəyə əsasən Eyler-Venn diaqramındakı ***uyğunsuzluqları*** müəyyən edin.

"Mən bir susmaz duyğuyam ki, ürəkləri bəzərəm." (M.Müşfiq)



1. Müəyyən şəxsli cümlədir.
2. İkinci dərəcəli üzv işlənmişdir.
3. Feili xəbər işlənmişdir.
4. Ədat işlənmişdir.
5. Düzəltmə söz işlənmişdir.
6. Tabelilik əlaqəsi işlənmişdir.

A) 1, 4, 5, 6 B) 1, 2, 4, 5 C) yalnız 1, 4, 6
D) yalnız 1, 2, 4 E) 2, 3, 5, 6

23. Verilmiş cümlələrdə zərfliyin ifadə vasitələrinə görə ardıcıllığını müəyyən edin.

* O, skamyada oturmuş qocaya mərhəmətlə baxır, ona necə yardım edəcəyini düşünürdü.
* Xoşbəxtliyə nail olmaq üçün xalqa xidmət etmək və insanlara məhəbbətlə yanaşmaq lazımdır.
* 1937-ci ilin qanlı repressiyası bir çox ziyalıları canı qədər sevdikləri vətəndən uzaqlaşdırdı.
* Həyat bir dastana bənzər əzəldən.
* Nar ağacı o vaxt bu sözlərin mənasını başa düşməmişdi.

1. isim 2. tərzi-hərəkət zərfi
3. ismi birləşmə 4. feili birləşmə
5. zaman zərfi

24. Klasteri tamamlayın.

	əmr şəklindədir.
"Ütülədin" sözü	

1. zaman şəkilçisi ilə işlənib.
2. icbar növdədir.
3. vurğusu üçüncü hecadadır.
4. kök, üç leksik və bir qrammatik şəkilçidən ibarətdir.
5. kök, iki leksik və bir qrammatik şəkilçidən ibarətdir.

25. *"Düşüncələrimizi zorla başqalarına qəbul etdirmək həm faydasız, həm də günah işdir"* (A.Klauber) cümləsindəki cəm şəkilçisi qəbul etmiş sözlərin hər ikisinə aid olan fikri müəyyən edin.
1. Quruluşca düzəltmə olmaq
2. Söz birləşməsinin əsas tərəfi olmaq
3. Sintaktik əlaqənin asılı tərəfi olmaq
4. Eyni qrammatik mənaya malik olmaq
5. Mənsubiyyət şəkilçisi ilə işlənmək

26. Cədvələ əsasən doğru fikirləri müəyyən edin.

kütlə – dolu		
Hər iki sözə aid xüsusiyyət	**Yalnız bir sözə aid xüsusiyyət**	**Heç bir sözə aid olmayan xüsusiyyət**
1. Omonimdir.	3. Çoxmənalı sözdür.	5. İki müxtəlif nitq hissəsi kimi işlənə bilir.
2. Termin kimi işlənə bilir.	4. Antonimi yoxdur.	6. Səs və hərf tərkibi fərqlənmir.

27. Sözlərin leksik mənası ilə bağlı uyğunluğu müəyyən edin.
1. Boğaz 2. Qitə 3. Körfəz
a. Okeanın, dənizin və ya gölün qurunun içinə soxulmuş hissəsi
b. Yer kürəsinin okean və dənizlərlə əhatə olunmuş böyük hissələrindən hər biri
c. Hər tərəfi su ilə əhatə olunmuş quru
d. Dənizin iki quru arasındakı dar hissəsi
e. Sıldırımlı dar dərə

Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları Cavab vərəqində yerinə yetirin.

Siluet

Hüdudları aydın nəzərə çarpan insanın, obyektin və ya səhnənin təkrəngli, adətən, qara şəklinə siluet deyilir. Bu sözün bu mənada işlədilməsi 1759-cu ildə Fransanın maliyyə naziri olmuş Etyen Siluetin soyadı ilə bağlıdır. Belə ki, həmin ərəfədə Avropanı qana bulamış yeddillik müharibə zamanı Fransa maliyyə böhranı yaşayırdı və nazir Siluet vəziyyətdən çıxış yolunu müxtəlif islahatların həyata keçirilməsində gördü. Bu islahatlara kral ailəsinin və sarayın xərclərinin və təqaüdlərin azaldılması daxil idi. İslahatlar hakim və zəngin təbəqə tərəfindən xoş qarşılanmamışdı və nazirin nüfuzuna mənfi təsir göstərmişdi. Həmin dövrdə qara kağızdan kəsilmiş şəkillərin bəyaz kağız üzərinə yapışdırılmasından ibarət olan yeni incəsənət növü meydana gəldi. Bu qayda ilə yaradılmış əsərlər bahalı və bəzəkli rəsmlərlə müqayisədə ucuz və sadə idilər. **Maliyyə naziri Etyen Siluetin islahatları da Fransada "ucuz" və bəsit hesab edildiyindən** .....

28. Mətnə əsasən cədvəli tamamlayın.

Səbəb	**Hadisə**	**Nəticə**
	Siluet islahat həyata keçirərək kral ailəsinin və sarayın xərclərini azaldır.	

29. Altından xətt çəkilmiş sözlərə əsasən cədvəli doldurun.

Sözlər	**Mətndə işləndiyi məna (həqiqi və ya məcazi)**	**Fərqli mənada (həqiqi və ya məcazi) cümlədə işlədilməsi**

30. Mətnin məzmununa əsasən tünd hərflərlə verilmiş cümləni tamamlayın.


TARİX

Mövzular üçün | Video həllər üçün | Cavablar üçün

31. Verilən xüsusiyyətlərin hamısı hansı döyüşlərin ümumi cəhətidir?
1. Rusiya ilə Qacarlar arasında baş vermişdir
2. Rus qoşunlarının qələbəsi ilə başa çatmışdı
3. İrəvan xanlığının taleyini həll etmişdi
A) Gilgilçay və Sultanbud
B) Gəncə və Gümrü
C) Cavanbulaq və Sərdarabad
D) Qəmərli və Şəmkir
E) Aslandüz və Qarababa

32. Uyğunluq gözlənilmişdir:
A) "Kənd cəmiyyətlərinin ictimai idarəsi haqqında" Əsasnamənin qəbul edilməsi – Dövlət kəndlilərinə icma torpaqlarından nəsli istifadə hüququnun verilməsi
B) Kəndlilər üzərinə hərbi vergi adlanan əlavə mükəlləfiyyətin qoyulması – Hacı Murtuzun rəhbərliyi ilə Zaqatala üsyanının başlanması
C) "Cənubi Qafqaz quberniyalarında torpaqların məcburi satın alınması haqqında" Qanunun imzalanması – Xəzər vilayəti mülkədarlarının torpaqlarının müsadirə edilməsi
D) Çar I Nikolayın inzibati məhkəmə islahatı layihəsini təsdiq etməsi – Cənubi Qafqazın Gürcü İmereti quberniyası və Xəzər vilayətinə bölünməsi
E) "Kəndli Əsasnamələri"nin qəbul edilməsi – Bəy və ağalarla kəndlilər arasında asılılıq münasibətlərinin qanuni şəklə salınması


33. Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin.



a. Hindistanın talan edilməsi
b. Mete tanhu tərəfindən əsasının qoyulması
c. Maniçiliyin təbliğ edilməsi
d. Çin üzərinə uğurlu yürüşün təşkil olunması
e. Pinçen sazişinin imzalanması
A) 1-b, e; 2-c; 3-a; 4-d
B) 1-b; 2-e; 3-d; 4-c
C) 1-a; 2-d; 3-b; 4-c
D) 1-e; 2-c; 3-a; 4-d
E) 1-c, d; 2-a; 3-b; 4-e

34. XI əsrin 30-cu illərində slavyanların Azərbaycana yürüşü nəticəsində:
A) Şəddadi hökmdarına qarşı Beyləqanda baş vermiş qiyam yatırıldı
B) Salarilər dövlətinin süqutu daha da sürətləndi
C) I Fəribürz "şirvanşah" titulundan məhrum oldu
D) Azərbaycan xalqı tarixdə ilk dəfə Xəzər dənizindən hücuma məruz qaldı
E) Əbüləsvar Şavur Gəncənin ətrafına qala divarları çəkdirdi

35. Göstərilənlərin aid olduğu ərazini müəyyən edin.
– *Sovet işğal rejiminə qarşı ilk üsyan baş vermişdi*
– *Üsyanda AXC-nin Milli Ordu hissələri iştirak edirdilər*



A) 1 B) 2 C) 3 D) 4 E) 5

36. Səlcuq sultanı Alp Arslanın xarici siyasətdə əsas məqsədi:
A) Xaçlı yürüşlərinə qarşı uğurlu mübarizə aparmaq
B) Anadolunu türk torpağına çevirmək
C) Balkan yarımadasının fəthini başa çatdırmaq
D) Xorasanı bütünlüklə ələ keçirmək
E) Abbasilər xilafətini asılı hala salmaq

37. Albaniyada Arşaki sülaləsinin hakimiyyəti dövrünə aiddir:
A) Antoninin başçılığı ilə romalıların hücumuna məruz qalması
B) Xəlifə Müaviyə ilə diplomatik danışıqlar aparması
C) Dzirav döyüşü nəticəsində bir sıra vilayətlərini itirməsi
D) III əsrin 20-ci illərində Sasanilərdən asılı hala düşməsi
E) Hökmdar Oroysun dövründə ölkənin daha da güclənməsi

38. Şah II Abbasdan ***fərqli*** olaraq, Şah Süleyman:
A) Osmanlılara qarşı mübarizədə "Müqəddəs birliy"ə qoşulmuşdu
B) Terek çayı boyunca yaradılan rus hərbi məskənlərinin dağıdılmasına nail olmuşdu
C) "Moskva şirkəti"nin təmsilçisini Qəzvində qəbul etmişdi
D) Osmanlı dövləti ilə sülh və mehriban qonşuluq münasibəti saxlayırdı
E) Rus tacirlərinin mənafeyinə uyğun müqavilə imzalamışdı

39. Uyğunluğu müəyyən edin.

ABŞ XIX yüzilliyin birinci yarısında


1. Daxili siyasət	2. Xarici siyasət
a. Qaradərililərin mülki və siyasi hüquqlar alması b. Qərbə doğru məskunlaşmağa icazə verilməsi c. Seçki senzinin ləğv edilməsi	a. Luizianannın dinc yolla ABŞ-yə birləşdirilməsi b. "Monro doktrinası"-nın qəbul edilməsi c. Latın Amerikası ölkələrinə qarşı "mehriban qonşuluq" siyasətinin irəli sürülməsi

A) 1-a, c; 2-b
B) 1-a, b; 2-a, c
C) 1-b, c; 2-a, b
D) 1-b, c; 2-c
E) 1-a, b; 2-b, c

40. Məntiqi ardıcıllığı tamamlayın.
1. Teymurilərin Bağdad döyüşündə qələbə qazanması
2. Qara Yusif və Sultan Əhmədin I İldırım Bəyazidə sığınması
3. .....
A) Cəlairilərin Azərbaycanda hakimiyyətinə son qoyulması
B) Əmir Teymurun Osmanlı dövlətinə yürüş etməsi
C) Osmanlı sultanının Qara Yusif və Sultan Əhmədi Teymurilərə təslim etməsi
D) Alaşkert döyüşünün baş verməsi
E) Qaraqoyunlu dövlətinin Osmanlılardan asılı hala düşməsi

41. İkinci Qarabağ müharibəsi (Vətən müharibəsi) dövrünə aid ***deyil:***
A) Azərbaycan ordusunun əsas hücumu Kəlbəcər istiqamətində baş vermişdi
B) "Turan taktikası"ndan istifadə edilmişdi
C) Hadrut qəsəbəsinin azad olunması ilə ordumuzun Şuşa üzərinə sürətli hücumuna əlverişli şərait yaranmışdı
D) Düşmənin hava hücumundan müdafiə sistemlərini aşkara çıxarmaq üçün yalançı hədəf kimi köhnə təyyarələrdən istifadə olunurdu
E) Zəngilanın Ağbənd kəndinin azad edilməsi nəticəsində Azərbaycan-İran sərhədi tamamilə ordumuzun nəzarətinə keçmişdi

42. Uyğunluğu müəyyən edin.



a. San-Fransisko konfransında ABŞ ilə təhlükəsizlik müqaviləsinin imzalanması
b. "Mədəni inqilab" hərəkatının baş verməsi
c. Bloklara qoşulmayanlar hərəkatının yaradılmasında iştirak etməsi
d. Uyğur türklərinə qarşı assimilyasiya siyasəti həyata keçirməsi
e. İngiltərə nümunəsində parlamentli monarxiyaya çevrilməsi

A) 1-e; 2-b, d; 3-a, c
B) 1-d; 2-a, e; 3-b, c
C) 1-b; 2-c, d; 3-a, e
D) 1-a; 2-c, d; 3-b, e
E) 1-c; 2-a, e; 3-b, d

43. E.ə. III minilliyin sonlarında Azərbaycanda:
A) Saxsı qabların hazırlanmasına başlandı
B) Ox və kaman ixtira edildi
C) İlkin şəhər mərkəzləri meydana gəldi
D) Əhali oturaq həyata keçdi
E) Dairəvi yaşayış evlərinin inşasına başlandı

44. Cədvəldəki hansı hadisələrin yerləri dəyişdirilərsə, xronoloji ardıcıllıq düzgün müəyyən edilər?


1.	Hastinqs döyüşünün baş verməsi
2.	Səlcuqların Tiflis müsəlman əmirliyini tabe etməsi
3.	Dehli sultanlığının əsasının qoyulması
4.	Serblərin Kosovo döyüşündə məğlubiyyətə uğradılması
5.	İngiltərədə Tüdorlar sülaləsinin hakimiyyətə gəlməsi

A) 2 və 5 B) 1 və 2 C) 2 və 3
D) 1 və 3 E) 3 və 4

45. *E.ə. I minilliyin əvvəllərində Qədim Misirin siyasi vəziyyəti:*
1. Makedoniyalı İsgəndərə tabe olması
2. Hakimiyyət uğrunda mübarizələrin baş verməsi
3. Roma dövlətinin əyalətinə çevrilməsi
4. Ərazilərinin bir qismini itirməsi
A) 1, 2 B) 2, 3 C) 3, 4 D) 1, 3 E) 2, 4

46. *Çar hökumətinin 1821-ci ildə tətbiq olunmuş güzəştli ticarət tarifini ləğv etməsinə səbəb oldu:*
A) Neft yataqlarının hərrac yolu ilə xüsusi adamlara satılması
B) Hacı Məhəmmədin başçılığı ilə Qubada üsyanın baş verməsi
C) Şimali Azərbaycanda daxili gömrük rüsumu – rəhdarın tətbiq edilməsi
D) Cənubi Qafqazda Qərbi Avropa toxuculuq məhsullarının Rusiya məhsullarını sıxışdırması
E) Satınalma nəticəsində sahibkar kəndlisinin torpaq mülkiyyətçisinə çevrilməsi

47. Xəritədə qeyd edilmiş xanlıqların ümumi cəhətlərinin düzgün verildiyi bəndi müəyyən edin.



	Xanlıqlar	*Ümumi cəhətlər*
I	1, 3	İkihakimiyyətlilik mövcud olmuşdu
II	2, 5	Əfşar tayfasından olan xan tərəfindən əsası qoyulmuşdu
III	1, 3, 5	Qazax, Şəmşəddil, Borçalı mahallarını gürcülərdən azad etmişdi
IV	2, 4	Urmiya xanlığından asılı hala düşmüşdü

A) II, III B) I, IV C) I, II
D) I, III E) III, IV


48. XVIII əsrin 80-ci illərində Rusiya-Osmanlı müharibəsinin başlanmasının səbəblərindəndir:
A) Rusların Prut müqaviləsinin şərtlərini yerinə yetirməməsi
B) II Yekaterinanın Cənubi Qafqaza qoşun yeritməsi
C) Rusiyanın Osmanlı əleyhinə "Şimal ittifaqı"na qoşulması
D) Osmanlı sultanının İsveç kralını himayə etməsi
E) Krım xanlığının Rusiya tərəfindən işğal olunması

49. Hadisə-nəticə əlaqələrinin doğru verildiyi bəndi müəyyən edin.

	Hadisə	Nəticə
A)	Yeni İqtisadi Siyasətin elan edilməsi	Azərbaycan SSR-də fərdi kəndli təsərrüfatların tamamilə ləğv olunması
B)	Milli Azərbaycan Qərargahının yaradılması	Azərbaycanlı əhalinin Kür-Araz ovalığına köçürülməsi
C)	Qars müqaviləsinin imzalanması	Naxçıvanın Azərbaycana məxsusluğunun bir daha təsdiq edilməsi
D)	Bakıda Birinci Ümumazərbaycan Sovetlər Qurultayının keçirilməsi	Azərbaycan SSR-in birbaşa Sovet İttifaqının tərkibində müttəfiq respublika elan edilməsi
E)	S. C. Pişəvərinin başçılığı ilə milli hərəkatın başlanması	Rza şah diktaturasının süqut etməsi

50. VIII yüzilliyin birinci yarısında kral sarayının baş məmuru olan Karl Martel orduya rəhbərliklə yanaşı, həm də dövləti kralın adından idarə edirdi. O, 732-ci ildə Puatye döyüşündə ərəb qoşunlarını məğlub etdi. Karl Martel müşahidə etmişdi ki, müsəlman süvariləri döyüşlərin gedişatını dəyişdirir. Nəticədə o, zirehli atlılardan və ya cəngavərlərdən ibarət Frank qoşunlarını təşkil etdi. Bu döyüş Avropa xristianları üçün çox əhəmiyyətli idi.
Əgər ərəblər qələbə qazansa idilər, hansı nəticə əldə edərdilər?
A) Ərəb qoşunları Şərqi Avropanın içərilərinə doğru irəliləyə bilərdilər
B) Kordova xilafətinin ərazisi daha da genişlənərdi
C) Frank imperatorunun hakimiyyətinə son qoyulardı
D) Qərbi Avropa müsəlman imperiyasının bir hissəsi ola bilərdi
E) Şərq ölkələri frankların basqınlarından xilas olardı

51. Uyğunluğu müəyyən edin.



A) 2, 4 B) 1, 3 C) 3, 4 D) 1, 2 E) 2, 3

52. Daha əvvəl baş vermişdir:
A) Fransa və Belçikanın Rur bölgəsini işğal etməsi
B) Lend-liz qanununun qəbul olunması
C) Türkiyənin Millətlər Cəmiyyətinə daxil olması
D) SSRİ-nin "Brian-Kelloq Paktı"na qoşulması
E) Montre konfransının keçirilməsi

53. XIX əsrin 70-ci illərində Şimali Azərbaycanda təhsil sahəsində baş vermiş yeniliklər:
1. Kənd əhalisi üçün məktəblərin yaradılması
2. Şuşada ilk qəza məktəbinin təşkil olunması
3. Bakıda ilk qız gimnaziyasının fəaliyyətə başlaması
4. İrəvan Müəllimlər seminariyasının açılması
5. Ruhani şəxslərin hazırlanması üçün müsəlman məktəblərinin əsasının qoyulması

54. Teymuri və Səfəvi dövlətləri arasında ümumi cəhət:
1. Ağqoyunlular tərəfindən məğlubiyyətə uğradılması
2. Xorasan uğrunda Şeybanilərlə mübarizə aparılması
3. Osmanlılarla normal münasibətlərin qurulması
4. Hindistana hərbi yürüşlərin təşkil olunması
5. Şirvanşahlar dövlətinin itaət altına alınması

55. Sparta dövlətinin idarə üsulu üçün xarakterikdir:
1. 12 lövhə qanunları əsasında idarə olunurdu
2. Ordu və donanmaya strateqlər rəhbərlik edirdi
3. Qərarları Ağsaqqallar şurası hazırlayırdı
4. Dövlətə iki hökmdar başçılıq edirdi
5. Xalq yığıncağı fəaliyyət göstərirdi

56. Xronoloji ardıcıllığı müəyyən edin.
1. Qızılbaşların Şəməxi döyüşündə məğlubiyyətə uğraması
2. Moskva knyazı III İvanın öz elçisini Bayandur-lu sarayına göndərməsi
3. Qızıl Arslanın xəlifənin razılığı ilə özünü sultan elan etməsi
4. Monqolların Azərbaycana birinci yürüşünün baş verməsi

57. Uyğunluğu müəyyən edin.
Avropada mərkəzləşdirilmiş dövlətlərin yaranması
1. İngiltərə 2. Fransa 3. İspaniya
a. VII Henrixin feodalların ara müharibələrinə son qoyması
b. Araqon və Kastiliya krallıqların birləşməsi
c. XIX yüzilliyə qədər siyasi dağınıqlığın davam etməsi
d. XI Lüdovikin rəqiblərinə qarşı mübarizədə qələbə qazanması
e. Al qızılgül və Ağ qızılgül müharibəsinin baş verməsi

Sizə təqdim olunmuş mənbəni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları cavab kağızında yerinə yetirin.

ABŞ prezidenti Franklin Ruzvelt və Böyük Britaniyanın Baş naziri Uinston Çörçill 1941-ci il avqustun 14-də İkinci Dünya Müharibəsi üçün müvafiq müharibə məqsədlərini müzakirə etmək və müharibədən sonrakı beynəlxalq sistemin prinsiplərini müəyyən etmək üçün görüşdülər.

Çörçillin konfransda iştirak etməkdə əsas məqsədi "amerikalıları müharibəyə cəlb etmək" idi. Lakin Ruzvelt ABŞ-nin müharibəyə girməsini müzakirə etməkdən imtina etdi. Buna baxmayaraq, hər iki dövlət başçısı birgə bəyannamə qəbul etdilər.

Çörçill Xartiyanın bütün xalqların öz hökumətlərini seçmək hüquqlarından bəhs edən üçüncü bəndindən də narahat olmuşdu. Çünki bu bənd müstəmləkələrdə müstəqillik meyillərinin güclənməsinə səbəb ola bilərdi.

58. Mənbədə haqqında bəhs olunan ABŞ və Böyük Britaniya dövlət başçılarının imzaladıqları tarixi sənədin adını qeyd edin.

59. Mənbədə bəhs olunan görüşdə Franklin Ruzvelt və Uinston Çörçillin birgə qəbul etdikləri iki prinsipi yazın.

60. Mənbəyə əsasən, Böyük Britaniya Baş nazirini narazı salan iki məsələni qeyd edin.

ƏDƏBİYYAT

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

61. Hansı nümunədə bədii təzad işlənmişdir?
A) Torpağın nəfəsi dəyir üzümə,
Yarpaq tumurcuqdan qışqırır, baxır. (F.Qoca)
B) Mənim nəğməm, mənim şeirim,
mənim dilim – ilkinliyim. (C.Novruz)
C) Kimdən öz gücünü alardı nəğməm,
Vətən olmasaydı, el olmasaydı? (M.Gülgün)
D) Lalələr ovcunda yandıranda şam,
O dağlanan çiçək, bil, mənəm, mənəm!
(M.Aslan)
E) Deyirsən baharam, onda bəs niyə
Üzündə qırov var, baxışında çən? (H.Razi)

62. Əsərlərin müqayisə olunduğu cədvəldə ***səhv*** fikirləri müəyyənləşdirin.

"Vaqif" (S.Vurğun)	**"Xurşidbanu Natəvan" (İ.Əfəndiyev)**
1. Kənar təsirlər baş qəhrəmanın ailəsinə təsirsiz ötüşmür. 2. Vəfalı dost, düşüncəli övlad baş qəhrəmanı tək qoymur.	3. Baş qəhrəman başqa dövləti təmsil edən surəti heyrətləndirə bilir. 4. Baş qəhrəman Azərbaycanın cənubu ilə bağlı narahatlığını dəfələrlə dilə gətirir.
5. Xeyriyyəçi şair obrazına yer verilmişdir. 6. Şəxsiyyətin xalqın taleyində oynadığı rolun əhəmiyyəti göstərilmişdir.	

A) 1, 3, 5 B) 2, 4, 6 C) 2, 4, 5
D) 1, 4, 5 E) 1, 3, 6

63. Oxucunun S.S.Axundovun "Nurəddin" əsərindəki surətlərdən hansı ilə tanışlığı digərləri ilə müqayisədə daha gec baş verir?
A) Hacı Nəsir B) Bahar C) Cənnətəli
D) İmamverdi E) Gülpəri

64. Satira və yumorun fərqi hansı bənddə göstərilmişdir?
A) Birindən epik, digərindən dramatik növdə olan əsərlərdə istifadə olunur.
B) Biri əsərin süjeti, digəri kompozisiyası ilə bağlı olur.
C) Biri əsərin forması, digəri isə məzmunu ilə bağlıdır.
D) Biri ifşaedici, digəri islahedici olması ilə seçilir.
E) Biri nəzmlə, digəri nəsrlə olan əsərlər üçün səciyyəvidir.

65. Hansı bənddə nöqtələrin yerinə *"Həm "Molla Nəsrəddin", həm də "Füyuzat" jurnalı"* ifadəsi yazılsa, fikir doğru olar?
A) ... tənqidi-realist ədəbiyyatın inkişafına töhfə vermişdir.
B) ... ədəbi məktəb yaratmağa nail olmuşdur.
C) ... türkçülük və turançılıq ideyasını yaymışdır.
D) ... satirik publisistikanın inkişafı üçün çalışmışdır.
E) ... "ümumi məhəbbət" ideyasını təbliğ etmişdir.

66. Adları qeyd olunan əsərləri yazılma ardıcıllığına görə sıralayın.
1. S.Vurğun. "Vaqif"
2. H.Cavid. "Ana"
3. B.Vahabzadə. "Şəhidlər"
4. M.Şəhriyar. "Heydərbabaya salam"
5. C.Məmmədquluzadə. "Anamın kitabı"
A) 2, 5, 1, 4, 3 B) 5, 2, 1, 3, 4
C) 4, 5, 3, 2, 1 D) 5, 4, 3, 1, 2
E) 2, 1, 5, 4, 3

67. R.Rzanın "Çinar ömrü" şeiri ilə bağlı fikirlərdən hansılar ***səhvdir?***
1. Çinar ömrü həm illərin sayına, həm də dolu keçməsinə görə qiymətlidir.
2. Müəllif düşünür ki, çinar az və ya çox ömür sürməsindən asılı olmayaraq, eyni ömrü yaşayacaqdı.
3. Çinarın quruması insanlarda onunla bağlı arzuların yaranmasına, xatirələrin canlanmasına səbəb olur.
4. İnsanların biganəliyinin çinarı qurudan əsas səbəb olduğu şeirdə üstüörtülü şəkildə deyilir.
5. Çinarın quruması yazda yaşıllaşmamasından məlum olur.
A) 1, 3 B) 2, 5 C) 2, 4 D) 3, 5 E) 1, 4

68. Elçinin "Talvar" əsərindən seçilmiş hadisələrdən hansı Əliabbas kişinin alətlərini satmaq istəməsi ilə bağlı epizodlarla əlaqələndirilə ***bilməz?***
A) Əliabbas kişi bir neçə gün parka getməli olur.
B) Övladları Əliabbas kişiyə etiraz etməyə cəhd göstərirlər.
C) Əliabbas kişi istedadın yaxşı usta olmaq üçün kifayət etmədiyini başa düşür.
D) Molla Fərzəli əsasını döyəcləyə-döyəcləyə Əliabbas kişinin qapısına gəlir.
E) Əliabbas kişi alətlərinin "yaşamasını" istəyir.

69. İ.Şıxlının "Namərd gülləsi" hekayəsindən seçilmiş cümlələrlə bağlı fikirlərdən hansılar doğrudur?

	CÜMLƏ	İZAH
1	Di get, qurban ol evdəkilərə.	Niftalı koxanın rəhmli olduğunu göstərir.
2	Yaxşı, a koxa, bu hayıfı səndən almasam, kişi deyiləm.	Mənfi surət olmasına baxmayaraq, Mürşidin haqsızlığa qarşı dözümsüz olduğunu göstərir.
3	Bizi gülləyə də bassalar, əl-ayaq tərpətməyin. Kəndə gedəcəyik.	Kərəmin qaçaqlıqla vidalaşıb kəndə qayıtdığını göstərir.
4	Yoxsa o dünyaya nisgilli gedəcəkdim.	Niftalı koxanın Kərəm haqqında düşüncələrində yanılmadığını göstərir.

A) 3, 5 B) 1, 4 C) 2, 3 D) 1, 5 E) 2, 4

70. Nümunədə hansı bədii təsvir və ifadə vasitələri işlənmişdir?
Əngəldən-əngələ düşüb də çıxdıq,
Xalı ömrümüzə hana düzəltdik.
Yeridik, yürüdük, yıxıldıq, qalxdıq,
Qala həvəsliydik, koma düzəltdik.
(F.Məmmədli)
1. epitet 2. metafor 3. mübaliğə
4. inversiya 5. bədii təzad
A) 2, 3 B) 1, 4 C) 2, 4 D) 3, 5 E) 1, 5

71. B.Vahabzadənin "Şəhidlər" poeması ilə bağlı fikirlərdən hansı ***səhvdir?***
A) Vətənin şərəflə şəhid olan övladları üçün yas saxlamadığı ifadə olunur.
B) Rusiya üçün can verənlərlə rus ordusu tərəfindən öldürülənlər müəllif tərəfindən müqayisə olunur.

C) *On səkkizdə ölən köhnə şəhidlər.*
Təzə şəhidləri bağrına basdı – misralarında Şəhidlər xiyabanının yerində əvvəllər də şəhidlərin dəfn olunduğu deyilir.
D) Şəhidlərin dəfninə gələn insanlar dənizin dalğalarına, tabutlar isə qayıqlara bənzədilir.
E) Şəhid rütbəsinə qalxanların Nəsiminin və Babəkin xeyir-duasını aldığı vurğulanır.

72. Mir Cəlalın "Açıq kitab" romanında iştirak edən surətlərlə bağlı fikirlərdən hansında ***səhvə*** yol verilmişdir?
A) Vahid – İnkişafa, tərəqqiyə mane olan insanlarla mübarizədə şəxsi intiqam hissindən uzaqdır.
B) Səttarzadə – Məktəbə yenidən bərpa olunana qədər Vahidə dəstək olur, onu zəmanətə götürür.
C) Gəldiyev – İkiüzlü rəyasət düşkünlüyü əsərdə məhz bu surətin vasitəsilə tənqid edilmişdir.
D) Vəzirbəyli – Xudbin qüvvələrlə mübarizə aparan gənclərlə yanaşı duran surətlərdəndir.
E) Sadıq kişi – Bədxahlardan çox çəkmişdi, ona görə də qərara alır ki, Vahidə özü kömək etsin.

73. Verilmiş bənzətmələrdən hansına Ş.İ.Xətayinin "Bahariyyə" əsərində rast gəlmək mümkündür?
A) Yağışdan sonra yaranan gölməçələr dənizə bənzədilir.
B) Quş yuvasından gələn səslər məktəbdən gələn səslərə bənzədilir.
C) Dağdakı qarlar ağ örpəyə bənzədilir.
D) Sərv ağacı dağa bənzədilir.
E) Bülbülün səsi dünyanın ən gözəl nəğməsinə bənzədilir.

74. C.Cabbarlının "Oqtay Eloğlu" əsərindən seçilmiş hadisələrin düzgün ardıcıllığı hansı bənddə göstərilmişdir?
1. Sevər küçədən keçən insanlardan kömək istəyir.
2. Oqtay pulları Aslan bəyin üzünə çırpır.
3. Oqtay qaraçı qızın oxuduğu mahnıya etiraz edir.
4. Firəngiz Oqtayın səhnəyə qayıtmasına mane olmaq istəyənlərin planlarından xəbər tutur.
5. Aslan bəy Hacı Zamanla söhbətdə teatrı tərifləyir.

A) 5, 3, 1, 2, 4 B) 2, 5, 1, 3, 4
C) 3, 1, 4, 2, 5 D) 5, 2, 1, 3, 4
E) 2, 3, 5, 4, 1

75. S.Ə.Şirvaninin "Qafqaz müsəlmanlarına xitab" şeirindən seçilmiş misralardan hansı əsərə aid cədvəli tamamlaya bilər?

SƏBƏB	NƏTİCƏ
	Çünki onlar inkişafa nail olublar.

A) Hər vilayətdə var beş-on kəsəbə...
B) Hamının fikri xalqı soymaqdır...
C) Axtarır bir təbibi-danadil...
D) Bizə qeyrilər eyləyir töhmət...
E) Millətin qeyrətin çəkən kəslər!..

76. *"Dost dosta tən gərək, tən olmasa gen gərək"* atalar sözü M.Seyidzadənin "Əqrəb və Çanaqlı bağa" təmsili ilə əlaqələndirilməli olsa, bunu əsərdəki hansı məqamı vurğulamaqla etmək daha məqsədəuyğun olardı?
A) dostların ayrı xarakterdə olmaları ilə
B) tufan qopması ilə
C) Bağanın Əqrəbə kömək etmək istəməsi ilə
D) dostluğun təsadüfən başlaması ilə
E) məkan dəyişikliyi ilə

77. Həyatı əksetdirmə baxımından ardıcıllığı hansı əsərlə davam etdirmək mümkündür?
1. "Pəri" (M.P.Vaqif)
2. "Sığmazam" (İ.Nəsimi)
3. .....
A) "Dəhnamə" (Ş.İ.Xətayi)
B) "Vərqa və Gülşa" (Məsihi)
C) "Apardı könlümü..." (İ.Həsənoğlu)
D) "Rəşid bəy və Səadət xanım" (İ.Qutqaşınlı)
E) "Sultan Səncər və qarı" (N.Gəncəvi)

78. İskəndər (N.Gəncəvi. "İskəndərnamə") bir sıra yerləri gəzir, müxtəlif hadisələrə şahid olur. Verilənlərdən hansı əsərdən seçilmiş hissənin baş verdiyi epizoda aid edilə bilər?
İskəndər: "Bax, bunlar ibrətdir", deyə,
Əlini vurmadı orda heç nəyə.
A) Əhalini zəncilərin hücumundan xilas etmək üçün getdiyi Misirə çatanda deyilir.
B) Daranın sayca çox qoşunu ilə üz-üzə gəldikdə deyilir.
C) Əhalisi düzlüklə yaşayan, insanlarda əyrilik olmayan yerə çatdıqda şahid olunan qəribəliklərdən sonra deyilir.
D) Şimalda yaşayan, heç bir peyğəmbərə beyət etməyib yaşayan tayfanın sakinləri ilə görüşdən sonra deyilir.
E) Səhrada yaşayan, mağaralara sığınan insanlar haqqında deyilir.

79. C.Məmmədquluzadənin yaradıcılığı ilə bağlı fikirlərdən doğru olanları seçin.
1. Bədii yaradıcılığa dramatik növdə olan əsərlə başlamışdır.
2. Həm hekayə, həm də povest müəllifi olmuşdur.
3. Qadın azadlığı məsələsinə həsr olunmuş epik əsərləri var.
4. Bədii yaradıcılığa "Molla Nəsrəddin" jurnalının nəşrindən sonra başlamışdır.
5. Məhəmmədhəsən əmi, Şeyx Nəsrullah, İskəndər dramatik əsərlərində yer alan surətlərdəndir.

A) 2, 3, 5 B) 1, 3, 4 C) 1, 4, 5
D) 2, 4, 5 E) 1, 2, 3

80. Verilmiş əsərlərin hansında qanlı əməlləri olan mənfi surətin öz cəzasını alması epizoduna rast gəlinir?
1. H.Cavid. "İblis"
2. B.Vahabzadə. "Şəhidlər"
3. Ə.Cavad. "Səsli qız"
4. S.Əhmədli. "Dərs"
5. M.İbrahimov. "Azad"

A) 2, 5 B) 1, 3 C) 2, 4 D) 1, 5 E) 3, 4

81. Anarın "Keçən ilin son gecəsi" əsərində Qəzənfərin səs yazısından seçilən hansı hissə Eynəkli kişinin səsləndirdiyi bəzi fikirlərə cavab kimi düşünülə bilər?

A) Necə ki biz də bir-birimizlə görüşəndə hərəmiz öz ata-babalarımızdan nə isə bir şey gətirmişdik.
B) Özümə görə adım-sanım da var. Beş kişinin içində hörmətim də olub. Həyatda təcrübəm çox olub. Dünyanın, necə deyərlər, hər üzünü görmüşəm .
C) Biz, mən biləni, yaxşı yaşamışıq, əlimizin zəhmətilə çörək qazanmışıq.
D) ... bir gün gələcək, hamısı böyüyəcək, boya-başa çatacaq və yuvasını tərk eləyən quşlar kimi bir-bir uçub gedəcəklər. Bax onda onlara vəfasız demə ha!
E) Yaxşı, yaxşı, uşaqlar, susun. Qoyun sözümü qurtarım. Yaxşı, ay arvad, 40 il, 50 il sonra. Axır, bir gün mən olmayacam. Qulaq as.


82. İ.Şıxlının "Dəli Kür" romanından seçilmiş surətlərdən hansı A.Çernyayevski surətinin təmsil etdiyi qrupun nümayəndəsi hesab oluna bilər?

A) Əhməd B) Cahandar ağa C) Molla Sadıq
D) Pristav E) Şamxal

83. Əsərlərdən seçilmiş surətlərin intiqam almaqla bağlı fikirləri verilmişdir. Hansı fikirlər ***səhvdir?***

1.	Oqtay Eloğlu (C.Cabbarlı. "Oqtay Eloğlu")	Pul gücünə insanları əzən, şəxsi mənfəətlərini güdən insanlardan intiqam alacağını deyir.
2.	Rəna (H.Cavid. "İblis")	Atasının intiqamını almaq istəyir, bu mövzuda güzəştə getmək fikri yoxdur.
3.	Rüstəm bəy (N.Vəzirov. "Müsibəti-Fəxrəddin")	Oğlu Mahmudun ölümündən sonra onun intiqamını alacağına söz verir.
4.	Qanpolad (H.Cavid. "Ana")	İntiqamını özünün aldığını deyir, daha qan tökməməyi istəyir.
5.	Sara (Ə.Cavad. "Səsli qız")	Qaniçən xaqanı öldürüb nişanlısının intiqamını almaq istəyir.

84. Əsərlərin müqayisəsində ***səhv*** fikirləri müəyyənləşdirin.



Ə.Kürçaylı. "Qaranquş"

1. Nəzmin tələbləri nəzərə alınaraq yazılmışdır.
2. İnsandakı mənfi cəhətlərdən biri geniş şəkildə tənqid olunmuşdur.
3. İnsan və təbiət motivinə yer verilmişdir.
4. Süjet xəttinə malik bitkin əsərdir.
5. Müəllifin müşahidələrinə əsasən qələmə alınmışdır.
6. Bədbin sonluqla tamamlanır.

85. Nümunə ilə bağlı fikirlərdən hansılar doğrudur?

Lal qayalar doluxsunub kirisin,
Sal qayalar qətrə-qətrə ərisin,
Kar qayalar üstümüzə yerisin,
Köklə görüm, köklə görüm sazını.

(İ.İsmayılzadə)

1. 1-ci və 3-cü misralarda metafor işlənmişdir.
2. İlk üç misrada epitet işlənmişdir.
3. Təşbehdən yalnız bir misrada istifadə olunmuşdur.

4. Yalnız bir misrada inversiya işlənmişdir.
5. Təkrirlə yanaşı, təzaddan və litotadan da istifadə olunmuşdur.

86. Qarabağla bağlı məqamları əks etdirən əsərlərin ardıcıllığını müəyyənləşdirin.
– *Qarabağ təbiətinin gözəlliyi yadelli surətin dili ilə diqqətə çatdırılır.*
– *Qarabağın təbiəti tərənnüm edilir, ölkəmizə bəxş etdiyi simaların adları çəkilir.*
– *Xocalıda baş vermiş qanlı hadisələr, Daşaltı əməliyyatı xatırlanır.*
– *Dinc sakinlərin öz torpaqlarında erməni vəhşiliyi ilə üzləşməsindən bəhs olunur.*
1. H.Ziya. "Qarabağda"
2. Q.İlkin. "İntiqam"
3. M.F.Axundzadə. "Hekayəti-müsyö Jordan və dərviş Məstəli şah"
4. X.R.Ulutürk. "Qaytar mənim qüdrətimi, Azərbaycan!"

87. S.Vurğunun "Vaqif" əsərinə əsasən uyğunluğu müəyyənləşdirin.
1. İki müsbət surətin dialoqunda səsləndirilən fikirdir.
2. İki mənfi surətin dialoqunda səsləndirilən fikirdir.
3. Müsbət və mənfi surətlərin dialoqunda səsləndirilən fikirdir.
a. Vidadinin böyük insan olduğu deyilir, hamının ona bənzəməsi arzulanır.
b. Bu torpaqların Koroğlunun oylağı olduğu deyilir.
c. Vaqifin qanunları tənqid etdiyi, amma xalq tərəfindən sevildiyi deyilir.
d. Eldar kəndə qarışıqlıq salanlardan biri kimi təqdim olunur.
e. Fars xalqının böyük sənətkarlar yetişdirdiyi diqqətə çatdırılır.

88-90-cı sualları mətnə əsasən cavablandırın.

Yeni qəzəl

Seyid Əzim əlini qoltuq cibinə uzatdı, bayazını çıxaran kimi elə bil sehrkarın işarəti ilə əlinin altında qələmqabı hazır oldu. Şair məclisə çökən qəfil sükutdan bixəbər idi. O, maraq və həvəslə baxan gözləri, sükut işarəsilə dodaqlara qoyulan barmaqları, ehtiyatla stəkan-nəlbəki yığışdıran nökərləri görmürdü.

Şair *əruzun*[1] tələblərinə uyğun yazdığı *şeirin*[2] sonunu, *məqtə*[3] *bəndini*[4] də yazıya alan kimi yuxudan ayılanlara məxsus bir xumarlıqla gözlərini ətrafına dolandırdı...

– Hə, mübarəkdir, şair, verin görək nə yazdınız?

Mahmud ağa Rza bəyin bu xahişinə qarşı əlini havaya qaldırdı:

– Yox, yox, bu qəzəli şair bizim şuşalı qonağın – cavan xanəndəmizin səsindən ruhlanaraq yazıbdır. Mən belə bilirəm ki, həmin qəzəli birinci dəfə oxumaq şərəfi də ona verilməlidir.

Hamı: "Doğrudur, doğrudur", – deyə təsdiq elədikdə cavan xanəndə yerindən qalxdı, Mahmud ağanın işarəsi ilə Seyid Əzimə yaxınlaşdı. Uzaq ellərdə qəzəllərini eşidib əzbərlədiyi, məftunu olduğu şairi birinci dəfə görürdü. Seyid Əzim haqqında o, şəhərinin şair və musiqişünaslarından nələr eşitməmişdi? Qəlbindəki titrəyişlə sevdiyi şairin qarşısında diz çökdü, əyilib qəzəli ona uzadan əlindən öpdü və qalxıb yerinə keçdi.

Gənc xanəndə musiqinin müşayiəti ilə şairin ona təqdim elədiyi yeni qəzəli oxumağa başladı.

88. Mətndə üzərində rəqəm yazılmış sözlərdən birində ədəbiyyat nəzəriyyəsi ilə bağlı səhvə yol verilmişdir. Bu ***səhvi*** müəyyənləşdirərək cədvəli doldurun.

Səhv yazılmış söz	Hansı sözlə əvəz olunmalıdır	Əsaslandırma

89. Mətnin və mətndə adı çəkilən janrın aid olduqları ədəbi növləri müəyyənləşdirin və ədəbi növlərin hər birinə aid iki xüsusiyyət yazın.

	Aid olduğu ədəbi növ	Həmin ədəbi növə aid xüsusiyyət
Mətn		1.
		2.
Adı çəkilən janr		1.
		2.

90. Qəzələ aid edilmiş fikirlərdən ikisini mətnə əsasən söyləmək mümkündür. Həmin cümlələri seçin və fikrinizi əsaslandırın.
1. Qəzəlin sonunda müəllifin adı və ya təxəllüsü mütləq qeyd olunur.
2. Qəzəlin əhatə dairəsi ədəbiyyatla məhdudlaşmır, incəsənətin digər sahələrində də qəzələ müraciət olunur.
3. Qəzəl ani və qüvvətli hisslərin nəticəsində yarana bilər.
4. Qəzəllərdə tarixi şəxsiyyətlərin, bədii qəhrəmanların adlarına rast gəlmək mümkündür.
5. Qəzəllərdə alınma söz və ifadələrə geniş yer verilə bilər.

Cümlələr: _____

Əsaslandırma _____

SINAQ 13

AZƏRBAYCAN DİLİ

Mövzular üçün



Video həllər üçün



Cavablar üçün



1. Verilmiş sözlərin orfoqrafiyasını nəzərə alaraq ardıcıllığı müəyyən edin.
illustrasiya, impravizasiya, inqubator,
1. səhmanlamaq 2. separatizm 3. kəhrəba
4. kallegiya 5. qövsi-qüzey 6. lokomotiv
A) 3, 5, 6 B) 1, 2, 4 C) 1, 3, 5
D) 2, 4, 6 E) 1, 4, 5

2. Hansı cümlədə ismi birləşməni həm təyin, həm də mübtəda kimi düşünmək mümkündür?
A) Bizim Əhmədin oğlu Kamal Həmidov yarışda birincilik qazandılar.
B) Gürcüstan valisi İrakli ilə dostluq edirdi.
C) O, xurmayı saçlı, göy gözlü bir oğlan idi.
D) Bu gəlişi gözəl sözlərdən o birtəhər görünürdü.
E) Mərmər sütunlu sarayın qabağındakı meydançada orkestr vals çalırdı.

3. Hansı cümlədə mürəkkəb feil ***işlənməmişdir***?
A) Qiymətli olan hər şey ölçülə bilməz, ölçülə bilən hər şey qiymətli deyil. (Albert Eynşteyn)
B) Qəbahətləri boynuna almamaq, səhvləri etiraf etməmək yeni qəbahətlərlə yüklənmək deməkdir. (Blez Paskal)
C) Qüdrətli olmaq zəifi öz səviyyənə qaldıra bilməkdir. (Rabindranat Taqor)
D) Qərb dünyanı dəyişib özünə uyğunlaşdırmaq, Şərq özünü dəyişib dünyaya uyğunlaşmaq yolunu seçmişdir. (Əbu Turxan)
E) Qədim fəlsəfələr bu gün də elmin yoluna çıraq tutmaqda davam edir. (Əbu Turxan)

4. Nümunəyə və cədvələ əsasən uyğunluğu müəyyən edin.
O gün ki parladı şahların tacı,
Sən oldun bir çörək, bir haqq möhtacı.
(S.Vurğun)

Doğrudur:	Yanlışdır:
1. ◯→□ sxeminə uyğun gələn tabeli mürəkkəb cümlədir. 2. Baş və budaq cümlə şəxsə görə sadə cümlənin eyni növündədir. 3. Baş və budaq cümlədə mübtədanın ifadə vasitəsi eynidir.	4. Budaq cümlədə ikinci dərəcəli cümlə üzvü işlənmişdir. 5. Budaq cümlə baş cümləyə bağlayıcı sözlə bağlanmışdır. 6. Yalnız budaq cümlədə söz sırası pozulmuşdur.

A) 1, 3, 5 B) 2, 4, 6 C) 1, 3, 6
D) 2, 4, 5 E) 1, 2, 6

5. Uyğunluğu müəyyən edin.
1. Feili bağlama tərkibi cümlənin kəmiyyət zərfliyidir.
2. Feili sifət tərkibi cümlənin təyinidir.
3. Məsdər tərkibi cümlənin mübtədasıdır.
a. Hamı uşaqların qorxduğu film barədə danışırdı.
b. Qurddan qorxan qoyun saxlamaz.
c. Vətəni sevmək hər birimizin borcudur.
d. Görüləcək işlərimizi unutmamalıyıq.
e. Uşaqlar əlləri ağrıyınca Elşadı alqışladılar.
A) 1-e; 2-a; 3-c B) 1-e; 2-a,b; 3-c,d
C) 1-a; 2-e; 3-c D) 1-e; 2-a,d; 3-b,c
E) 1-c; 2-a,d; 3-b,e

6. Verilmiş nümunədəki hansı söz və ya sözlər heç bir cümlə üzvü ilə sintaktik əlaqəyə ***girməmişdir***?
Meşələr! Meşələr! Doğrudan da, siz
Yayda da, qışda da ilk baharsınız. (S.Vurğun)
A) yalnız meşələr B) yalnız doğrudan da
C) meşələr, doğrudan da D) baharsınız
E) siz, yayda

7. *"Dialektüstü"* sözünün fonetik təhlili ilə bağlı ***yanlış*** fikri müəyyən edin.
A) Sözdə bir-biri ilə qarşılıq təşkil edən samitlər işlənmişdir.
B) Sözün səs və hərf tərkibi arasında üç fərqli məqam var.
C) Cingiltili samitlərin sayı dodaqlanmayan saitlərin sayından çoxdur.
D) *[q]* samitinin kar, *[x`]* samitinin cingiltili qarşılığı işlənmişdir.
E) Beşhecalı sözdür, ahəng qanununa tabe deyil.

8. Hansı cümlədə budaq cümlə baş cümləyə bağlayıcı sözlə bağlanmışdır?
A) Hər kəs ki bəşəriyyəti dəyişdirmək istəyir, o özünü dəyişdirmək istəmir.
B) O şəxs xoşbəxtliyə çata bilər ki, səhvlərindən nəticə çıxarmağı bacarır.
C) Xəyal ona görə gerçəklikdən qüdrətlidir ki, hər şeyi canlandıra bilir.
D) İnsan çox şeydən həya etdimi, şərəf və qürur sahibi olur.
E) Həqiqəti həmişə yanınızda gəzdirin ki, köləlikdən azad ola biləsiniz.

9. Uyğunluğu müəyyən edin.
1. Şəxssiz cümlədir.
2. Ümumi şəxsli cümlədir.
3. Qeyri-müəyyən şəxsli cümlədir.
a. Əhmədi maarif şöbəsində yaxşı qarşıladılar.
b. Daldan atılan daş topuğa dəyər.
c. Bizlərdə qonağa çox hörmət edirlər, qulluğunda dururlar.
d. Onun məktəbdən xaric edilməsinə qərar verildi.
e. Nə əkərsən, onu biçərsən.
A) 1-d; 2-c,e; 3-a, B) 1-a,b; 2-c,d; 3-e
C) 1-d; 2-b,e; 3-a,c D) 1-c; 2-b,e; 3-a,d
E) 1-d; 2-e; 3-a,c

10. Hansı cümlədə fərqləndirilmiş hissə uzlaşma əlaqəsinin göstəricisi ola ***bilməz***?
A) Ürək kövrəkləşir sən oxuyanda,
Sən də dinləsəydi***n*** mən oxuyanda! (M.Müşfiq)
B) Zərər yox, onu mən sağ qoy***sam*** əgər,
Dünyada yox məndən alçaq bir nəfər.
(H.Cavid)
C) Hərgah mən səhv etməsəydi***m***, çox az iş görə bilərdim.
D) Əgər adamsansa, sev adamları,
Demə, bu, dostum***dur***, o, düşmənimdir.
(B.Vahabzadə)
E) Biz qoca qafqazlı igid ərlər***ik***. (M.Ə.Sabir)

11. Tabesiz mürəkkəb cümlələrdən birində eyni zamanda baş verən hadisələr sadalanır:
A) Zənnim doğru çıxdı: yarım saat sonra bütün ətrafı od və qurşun tufanları bürüdü. (H.Nəzirli)
B) Üç ildir, su pulunu vermirsən, bir söz demirəm. (M.İbrahimov)
C) Ocaq çatıldadıqca qığılcımlar ətrafa sıçrəşır, yavaş-yavaş köz düşürdü. (İ.Şıxlı)
D) Kənd itləri səs-səsə verib hürüşür, at kişnəməsi və mal-qara səsi ətrafa yayılırdı. (İ.Şıxlı)
E) Şaxta şiddətlənir, küçələr şüşəyə dönürdü. (B.Bayramov)

12. Hansı üsluba aid xüsusiyyət ***verilməmişdir***?
1. Təbiilik və sərbəstlik bu üslubun əsas əlamətidir.
2. Bu üslubda işlədilən feillər, adətən, əmr, xəbər, vacib və şərt şəkillərində olur.
3. Mürəkkəb cümlələrdən geniş istifadə olunur.
4. Təsviri və analitik şərhlərə yer verilir.
A) publisistik üslub B) bədii üslub
C) elmi üslub D) rəsmi-işgüzar üslub
E) məişət üslubu

13. Müqayisə cədvəlinə əsasən verilmiş cümlələrlə bağlı hansı fikirlərin yeri dəyişilsə, uyğunluq bərpa olunar?

Soruşun ki, bu necə oyundur?	**Məncə, oxusan, məqsədinə çatarsan.**
1. Baş cümlənin xəbəri əmr şəklində olan feillə ifadə olunmuşdur. 2. Köməkçi nitq hissəsi işlənmişdir.	3. Düzəltmə söz işlənməmişdir. 4. Həm hal, həm də mənsubiyyət şəkilçisi qəbul etmiş söz işlənmişdir.
5. Həm feili, həm də ismi xəbər işlənmişdir. 6. Qrammatik cəhətdən cümlə üzvü ilə bağlı olmayan söz işlənmişdir.	

A) 1 ↔ 5; 2 ↔ 3 B) 1 ↔ 5; 2 ↔ 4
C) 1 ↔ 4; 2 ↔ 5 D) 2 ↔ 5; 3 ↔ 6
E) 2 ↔ 4; 1 ↔ 6

14. Nümunədəki təsriflənən feillərin hamısı üçün ortaq olan xüsusiyyətləri müəyyən edin.
Yaltaqlıq, satqınlıq sayılır hünər,
Düzlüyə dolanmır fələyin çarxı.
İndiki iblislər, indiki divlər
Enişdən yoxuşa axıdır arxı. (B.Vahabzadə)
1. Quruluşca düzəltmədir.
2. İndiki zamandadır.
3. Xəbər şəklindədir.
4. Şəxs sonluğu qəbul etmişdir.
5. Köməkçi sözdən (hissəcikdən) istifadə edilmişdir.
A) 1, 3, 5 B) 2, 3, 4 C) 2, 4, 5
D) 1, 2, 3 E) 1, 4, 5

15. Hansı cümlədə əlavə söz birləşməsi ilə ifadə ***olunmamışdır***?
A) Əsmər xala İlkini burada – Vüqarın evində gördükdə təəccübləndi.
B) O, kəndə yazda – sular bulananda gəlmişdi.
C) Hacı Əhmədin evi kəndin ayağında – çay qıraığında idi.
D) Kiçik oğlumda – Zəfərdə riyaziyyata böyük maraq var.
E) Gün ağaranda – atam evə çatanda hər şey unudulmuşdu.

16. Hansı bənddə *-la²* funksiyasına görə verilmiş nümunələrdəki fərqləndirilmiş hissələrin heç biri ilə uyğun ***deyil***?
* Sən çıxdın qarşıma duz***la***, çörəklə. (S.Rüstəm)
* Bağlanıb xalqa məhəbbətlə ürək tellərin**iz**,
Ağ qızıl yığdı məharət***lə*** qızıl əllərin**iz**.
(S.Rüstəm)

A) Səriyyə və Gülnaz soyuğu duymadan cığırla gedirdilər.
B) O, filmdən aldığı zəngin və xoş hisslər haqqında Sevinclə danışacaqdı.
C) Sahildə vurnuxan şoferlə briqadir başlarını itirmişdilər.
D) Səadət kamalla yetişər başa,
Xalqa hörmət elə, ədəblə yaşa. (N.Gəncəvi)
E) Oğlan titrək əllərilə qapını açıb içəri girdi və oradaca dayandı.

17. Yalnız qrammatik normanın pozulduğu cümləni müəyyən edin.
A) Alma hələ göy idi, yeməli deyildi.
B) Hər bir xalqlar yaxşı yaşamağa məhkumdurlar.
C) Quşlar uçub ağaca qondu.
D) İnsanların çoxu çətin vəziyyətdən çıxmağı bacarmırlar.
E) Min baharın ətridi bir insanın baharı.

18. Verilmiş cümlədə buraxılmış durğu işarələrini müəyyən edin.
Səhəri vəzir qayıdıb
Qibleyi-aləm dedi şəhərdə ancaq tək-tək qocalar uşaqlar qalıb qırılan qırılıb sağ qalan da gecə ikən meşəyə qaçıb
A) qoşa nöqtə, üç tire, beş vergül, nöqtə
B) qoşa nöqtə, iki tire, beş vergül, nida
C) qoşa nöqtə, üç tire, dörd vergül, nöqtə
D) dırnaqlar, üç tire, dörd vergül, nöqtə
E) dırnaqlar, iki tire, beş vergül, nida

19. Verilmiş nümunədə ***işlənməmişdir***:
Dünyanın əvvəli, sonu müəmma,
Cövhəri müəmma, donu müəmma.
Dünyanı anlayan qəmini çəkdi,
Anlaya bilməyən dəmini çəkdi.
(B.Vahabzadə)

A) Frazeoloji birləşmə
B) Bir-biri ilə münasibətdə antonim olan sözlər
C) Həmcins mübtədalar
D) Səs və hərf tərkibi fərqlənən təsriflənən feil
E) İsimlə ifadə olunmuş ismi xəbər

20. Hansı bənddə uyğunluq pozulmuşdur?
A) Təqvimdə 28 May gününün qırmızı haşiyədə verilməsi ideoqrafik yazıya misal ola bilər – doğru
B) Mebel təmiri sexinin qabağındakı mebel şəkli piktoqrafik yazıya misal ola bilər – doğru
C) Elektrik qutusunun üstündə çəkilən kəllə şəkli piktoqrafik yazıya misal ola bilər – yanlış
D) Orxon-Yenisey hövzələrində tapılmış qədim türk yazı nümunələri fonoqrafik yazıya misal ola bilər – doğru
E) Qara parçanın yas, səmənin bahar rəmzini ifadə etməsi əşyəvi yazıya misal ola bilər – doğru

21. Nümunələrdə altından xətt çəkilmiş hər iki ifadə ilə bağlı doğru fikirləri müəyyən edin.
O bulağa <u>su gətirməyə</u> getdim.
<u>Qonşuluq üzündən</u> görəndə ötəri bir salam verirdim.
1. Tabelilik əlaqəsindədir.
2. Feili birləşmədir.
3. İkinci dərəcəli cümlə üzvüdür.
4. Səbəb zərfliyidir.
5. İki cümlə üzvü ilə sintaktik əlaqəyə girmişdir.
A) yalnız 1, 3 B) 1, 3, 5 C) 2, 4, 5
D) yalnız 3, 5 E) 1, 2, 4

22. Nümunə ilə bağlı doğru fikirləri müəyyən edin.
Qoy qırılsın artıq cəllad bıçağı,
Qoy uçulsun ölüm və qan ocağı,
Dünya olsun azad ana qucağı,
Qalx, qalx, qalx, düşkün dünya!
(C.Cabbarlı)
1. Bütün misralarda söz sırası pozulmuşdur.
2. İkinci və dördüncü misralarda həmcins üzvlər işlənmişdir.
3. Üçüncü misrada təyin işlənmişdir.
4. Nümunədəki xitab söz birləşməsi ilə ifadə olunmuşdur.
5. Təsriflənən feillərin hamısı əmr şəklindədir.
A) 1, 2, 3 B) 1, 3, 5 C) 2, 4, 5
D) 2, 3, 4 E) 3, 4, 5


23. Ardıcıllığı müəyyən edin.
* *Təzə döşəküzü gətirib bu dəm*
Anam çarpayıda yer açdı mənə. (Z.Xəlil)
* *Gözəllər çiçək dərib, tər buxağa düzərlər.*
(Q.Zakir)
* *Uşaq qələm, mürəkkəb və vərəq hazırlayıb nə yazacağını gözlədi.*
* *Tanklardan açılan pulemyot atəşi dərələrə səs saldı.*

1. Cümlədəki sözlərdən birində "k" hərfi [x`] səsini ifadə edir.
2. Cümlədəki sözlərdən birində "k" hərfi [k`] səsini ifadə edir.
3. Cümlədəki sözlərdən birində "k" hərfi [y] səsini ifadə edir.
4. Cümlədəki sözlərdən birində "k" hərfi [g] səsini ifadə edir.

24. Cədvələ əsasən müəyyən edin.

Doğrudur	Yanlışdır
1. "Oy" sözü yerinə görə əsas, yerinə görə köməkçi nitq hissəsi kimi işlənə bilir. 2. Qeyri-müəyyən yiyəlik halda olan söz müstəqil şəkildə cümlə üzvü ola bilər. 3. "Yara" sözü həm omonim, həm də çoxmənalı söz kimi işlənə bilər.	4. "Düzgünlük" və "düzülmək" sözlərinin kökü eyni nitq hissəsidir. 5. Köməkçi nitq hissəsi nidanın işləndiyi bütün cümlələr heç də nida cümləsi deyil. 6. "Baxıldı" sözü kontekstə görə həm məchul, həm də qayıdış növ feil kimi işlənə bilər.

25. Klasteri tamamlayın.



1. köməkçi sözlə (hissəciklə) işlənmiş sözdür.
2. kökü və başlanğıc forması fərqli olan sözdür.
3. hərəkət bildirən sözdür.
4. təsriflənən feildir və xəbər şəklindədir.
5. zaman şəkilçisi qəbul etmiş sözdür.

26. Hansı cümlələrdə xitab isimlə ifadə ***olunmamışdır***?

1. Gözəl bir süfrə açmışdır çəməndə ilk bahar, bülbül!
   Nədəndir qüssədən, qəmdən vurursan dəm, nə var, bülbül?
   (S.Rüstəm)
2. Axı oyun gedir, əzizim, nə bağırırsan!
   (C.Cabbarlı)
3. Ah, düşünən başlar, yaradan əllər!
   Qanad verirsiniz düşüncələrə. (S.Vurğun)
4. Yazın novbarısan bizim diyarda,
   Qıvrım tellərini sana, bənövşə! (S.Vurğun)
5. Qızarmış, sevgilim, al yanaqların. (S.Vurğun)

27. Sözlərin leksik mənaları ilə bağlı uyğunluğu müəyyən edin.

1. nəsihət 2. məsləhət 3. marşrut

a. bir işin görülməsi üçün verilən hökm, göstəriş
b. adamların, nəqliyyat vasitələrinin dayandığı yer
c. öyüd vermə, yol göstərmə
d. necə hərəkət etmək, bir işi necə görmək haqqında göstəriş
e. adamların, ordunun, nəqliyyatın qabaqcadan müəyyən olunmuş yolu

Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları Cavab vərəqində yerinə yetirin.

Determinizm

Determinizm termini təxminən 1846-cı ildə İrlandiya filosofu Uilyam Hamilton tərəfindən müəyyən bir səbəb zəncirindən təsirlənən hərəkətləri **təsvir etmək** üçün istifadə edilməyə başlanıb. Determinizm fiziki olaraq baş verən hadisələrin insanın nəzarətindən kənarda olmasına əsaslanan bir **anlayış** və ya doktrinadır. Deterministlər hesab edirlər ki, müəyyən sayda əvvəlcədən müəyyən edilmiş şərtlər bütün hərəkətləri və hadisələri formalaşdırır və bununla da, fərdin başına gələnlərə səbəb olur. Bütün hərəkətlərin bir səbəbi var və buna görə də proqnozlaşdırıla bilər. Determi-nizm fəlsəfə, psixologiya və hətta davranış terapiyası da daxil olmaqla bir çox fərqli sahələrdə istifadə olunur.

Həmçinin deyə bilərik ki, determinizm hər bir hadisənin, qərarın və hərəkətin əvvəllər baş vermiş qırılmamış hadisələr zənciri ilə səbəbli olaraq təyin olunduğu fəlsəfi **müddəadır**. Bu o demək deyil ki, insanların gələcək hadisələrə heç bir təsiri yoxdur. *İnsanların öz gələcəyinə təsir dərəcəsi keçmişdən və gələcəkdən asılıdır.* Məntiqi ifrata götürülən determinizm orijinal böyük partlayışın səbəb-nəticə sistemi vasitəsilə hər bir hərəkəti və bəlkə də, zehni düşüncəni oyatdığını iddia edir.

28. Kursivlə verilmiş cümlədən məna pozuntusu yaradan sözü müəyyən edin.

29. Mətnə əsasən cədvəli doldurun.

Tünd hərflərlə verilmiş ifadələr	Həmin ifadələrin kontekstə uyğun izahı

30. Mətnin məzmunu ilə uyğunluq təşkil edən ən uyğun fikri müəyyən edin və fikrinizi əsaslandırın.

1. C.Kelli hesab edir ki, insan öz azadlığının sərhədlərini özü müstəqil olaraq müəyyənləşdirərək bu ölçünü şəxsi mühakimələrinə görə təyin edir.

Əsaslandırma .....

2. Hər bir hadisə, hər bir davranış və hətta insanın seçimləri belə, əvvəlki səbəblərin qaçınılmaz nəticələridir.

Əsaslandırma: .....


TARİX

Mövzular üçün | *Video həllər üçün* | *Cavablar üçün*

31. Qəmərli və Qarababa döyüşləri nəticəsində:
A) İrəvan qalası rus qoşunlarına təslim oldu
B) II Rusiya-Qacarlar müharibəsinin müqəddəratı həll oldu
C) Osmanlı dövləti Cənubi Qafqazdakı rus işğallarını tanımağa məcbur qaldı
D) Rus qoşunlarının İrəvanı ələ keçirmək cəhdi baş tutmadı
E) Car-Balakən camaatlığı Rusiyanın himayəsinə keçdi

32. XIX əsrin sonlarında Cənubi Azərbaycan və XX əsrin ikinci onilliyində Şimali Azərbaycanın tarixi üçün oxşar cəhət:
A) "Üsuli-cədid" məktəblərinin əsasının qoyulması
B) Qadınların möhtəkirliyə qarşı çıxışlara baş verməsi
C) Sovet Rusiyasının işğalına məruz qalması
C) Ərazi muxtariyyəti əldə edilməsi uğrunda mübarizə aparılması
E) Xalisə torpaqlarının kəndlilər arasında bölüşdürülməsi

33. Xəritədə işarələnmiş dövlətə aid doğru bəndləri müəyyən edin.




1. Avropa İqtisadi Birliyinin üzvlərindən idi
2. Villi Brandt ilk federal kansleri seçilmişdi
3. İngilis, fransız və amerikan işğal zonalarının birləşdirilməsi nəticəsində yaranmışdı
4. Berlin şəhəri paytaxt elan olunmuşdu

A) 1, 2 B) 2, 3 C) 3, 4 D) 1, 3 E) 2, 4

34. İstehsal təsərrüfatının mövcud olduğu dövrə aid ***deyil:***

A) Bəzi qəbirlərin üzərində kurqanların qurulması
B) Süni yolla əldə olunan oddan istifadə olunması
C) Quruçay mədəniyyətinin formalaşması
D) Əhalinin oturaq həyata keçməsi
E) İri tayfa birliklərinin yaranması

35. Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin.



a. İkihakimiyyətliliyin mövcud olması
b. Heydərqulu xan tərəfindən əsasının qoyulması
c. Şəki xanına qarşı gürcülərlə müttəfiq olması
d. Qarabağ xanlığından asılılığın qəbul edilməsi
e. Əfşar sülaləsindən olan xan tərəfindən idarə olunması

A) 1-c; 2-e; 3-a; 4-b, d B) 1-b; 2-c; 3-d; 4-a, e
C) 1-a; 2-d; 3-b, e; 4-c D) 1-e; 2-b; 3-a; 4-c, d
E) 1-c; 2-a, e; 3-d; 4-b

36. Məntiqi ardıcıllığı tamamlayın.

1. Əhməd xanın Moskva knyazlığına yürüşü
2. "Uqra görüşü"nün baş verməsi
3. .....

A) Qızıl Ordu dövlətinin itirilmiş qüdrətinin bərpa olunması
B) Moskva knyazlığının Qızıl Ordudan vassal asılılığına son qoyulması
C) Rus qüvvələrinin Kulikovo döyüşündə qələbə qazanması
D) Mərkəzi Asiyanın Qızıl Ordu dövlətinə birləşdirilməsi
E) Qızıl Ordu dövlətinin Moskva knyazlığını tabe etməsi

37. Hadisə-nəticə əlaqəsinin doğru verildiyi bəndi müəyyən edin.

A) Qarabağda Xüsusi İdarə Komitəsinin yaradılması – Kəlbəcərin yaylaq kimi respublikalar arasında bölüşdürülməsi haqqında məsələnin qaldırılması
B) "Edelveys" planının hazırlanması – Bakı neftinin Almaniyaya göndərilməsinin qarşısının alınması
C) Zəngəzurun bir parçasının itirilməsi – Naxçıvanın ərazi baxımından Azərbaycanın əsas hissəsindən ayrı salınması
D) S.C. Pişəvərinin başçılığı ilə Milli hökumətin təşkili – Rza şahın hərbi-polis rejiminin iflasa uğraması
E) İmam Mustafayevin Sov.İKP MK-nın Birinci katibi seçilməsi – İrandan gəlmiş azərbaycanlıların deportasiya edilməsi


38. Həsən padşahın Şeyx Heydəri Ərdəbil hakimliyində taxta çıxarmasına təsir göstərmişdi:


A) Şeyx Heydərin Malatya döyüşündə qəhrəmanlıq göstərməsi
B) Osmanlılarla müharibədə zəifləmiş Ağqoyunlu dövlətinin Səfəvilərə güzəştə getməyə məcbur qalması
C) Tərəflər arasında Əbhər sazişinin imzalanması
D) Qızılbaşların Uğurlu Məhəmmədin qiyamına son qoyması
E) Qızılbaşların teymurilərə qarşı mübarizədə Həsən padşaha yardım göstərməsi

39. E.ə. VI yüzilliyin sonlarında afinalıların üsyanına səbəb oldu:

A) "Drakon qanunları"nın qəbul olunması
B) Tiranlığın hökmranlıq etməsi
C) Vəzifələrə yalnız patrisilərin seçilməsi
D) Dori tayfalarının basqınları
E) Əhəmənilərin zülmü

40. Müasir xəritədə A və B ilə işarələnmiş şəhərlərin XI əsr tarixinə aid xüsusiyyətləri Venn diaqramına əsasən uyğunluğunu müəyyən edin.






a. Əhalisinə slavyanlar tərəfindən divan tutulması
b. Səlcuq canişinliyinin mərkəzinə çevrilməsi
c. Monqol yürüşləri nəticəsində dağıdılması
d. Şəddadilər dövlətinin paytaxtı olması
e. Müsafirin başçılığı ilə xalq hərəkatının baş verməsi

A) 1-d; 2-a; 3-b, c
B) 1-a; 2-c; 3-d
C) 1-b; 2-a; 3-e
D) 1-d; 2-a; 3-b
E) 1-a; 2-e; 3-b, d

41. Azərbaycan ordusunun Laçın və Qırmızı Bazar istiqamətində düşmən qüvvələrini aldadıcı döyüşlərə cəlb etməkdə məqsədi:
A) Ağbulaq və Qızılqaya yüksəkliklərini ələ keçirmək
B) Azərbaycan-İran sərhədini nəzarət altına almaq
C) Hadrut qəsəbəsini düşmən qüvvələrindən təmizləmək
D) Cocuq Mərcanlı kəndinin təhlükəsizliyini təmin etmək
E) Şuşanı işğaldan azad etmək

42. Uyğunluğu müəyyən edin.



A) 1, 4, 5
B) 2, 3, 4
C) 2, 4, 5
D) 1, 2, 3
E) 3, 4, 5

43. Xan sülaləsinin hökmranlığı dövründə Çinin xarici siyasəti üçün xarakterikdir:
1. Qərbi Hun dövlətinin süquta uğradılması
2. "Qırmızıqaşlılar" üsyanının yatırılması
3. Hunlarla Pinçen sazişinin imzalanması
4. Koreyanın işğal edilməsi
5. Talas vadisində ərəblərə məğlub olması

A) 2, 4, 5
B) 1, 3, 4
C) 2, 3, 5
D) 1, 2, 3
E) 3, 4, 5


44. Daha əvvəl baş vermişdir:
A) Bakı-Supsa "Qərb" neft kəmərinin istifadəyə verilməsi
B) Azərbaycanın NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramına qəbul edilməsi
C) TANAP-ın açılış mərasiminin keçirilməsi
D) Azərbaycanın Milli Qəhrəmanı adının müəyyən olunması
E) Füzulinin Horadiz qəsəbəsinin erməni işğalından azad edilməsi

45. XII yüzillikdə Müqəddəs Roma imperiyasının İtaliyanın şimalını işğal etmək cəhdinin uğursuz olmasının səbəbi:
A) Franklar tərəfindən İtaliyanın şimalının ələ keçirilməsi
B) Xalqın işğalçılara qarşı Flandriyada üsyana qalxması
C) Müqəddəs Roma imperatoru ilə protestant knyazlar arasında dini müharibənin baş verməsi
D) Təbəriyyə döyüşündə alman imperatorunun həlak olması
E) İtaliyanın şimal şəhərlərinin Papa ilə müttəfiq olması

46. Şimali Azərbaycanda mülkədarların kəndlilər üzərində polis və məhkəmə hakimiyyətinə sahib olduğu dövrdə:
A) Neft quyularına təhkim edilmiş kəndlilərin məcburi əməyi ləğv olundu
B) Sahibkar kəndliləri "müvəqqəti mükəlləfiyyətli" vəziyyətindən azad oldular
C) Mülki işlərə hərbi məhkəmələrdə baxılması qaydası aradan qaldırıldı
D) Ağa və bəylər "ali müsəlman silki" adlandırılmağa başlandı
E) Kəndlilər üzərinə hərbi vergi adlanan əlavə mükəlləfiyyət qoyuldu

47. Ərəblərin Şərqi Avropaya yürüşlərinin qarşısı alındı:
A) Ərəblərin franklara məğlub olması nəticəsində
B) Müsəlmanlara qarşı rekonkista hərəkatının baş verməsi ilə
C) Xəzərlərin ərəblərə qarşı mübarizəsi nəticəsində
D) Tariqin Pireney yarımadasına uğursuz hücumu ilə
E) Səlcuqların Abbasi xəlifəsini asılı hala salması nəticəsində

48. Göstərilənlərin aid olduğu ərazini müəyyən edin.
– XIX əsrin 40-cı illərində quberniyaya çevrilmişdi
– Şəhər özünüidarə orqanı təşkil edilmişdi
– XIX əsrin 80-ci illərində Müəllimlər Seminariyası fəaliyyətə başlamışdı



A) 1 B) 2 C) 3 D) 4 E) 5

49. Rəşt və Gəncə müqavilələrinə əsasən:
A) Şah II Təhmasib Səfəvi ərazilərini rusların işğalından xilas etdi
B) Səfəvi torpaqları Rusiya və Osmanlı dövlətləri arasında bölüşdürüldü
C) Ermənilər Xəzərsahili vilayətlərə köçürüldü
D) Rus tacirləri Səfəvi ərazisində gömrüksüz ticarət imtiyazlarına sahib oldular
E) Kür çayından şimaldakı ərazilər Səfəvi dövlətinin tərkibində saxlanıldı

50. Göstərilənlər nəticəsidir:
– III Antioxun qoşunları məğlub oldu
– Seleviklər dövləti parçalandı
– Atropatena öz müstəqilliyini bərpa etdi
A) Pompeyin Şərqə hərbi yürüşlərinin
B) Maqneziya döyüşünün
C) Atropatın müstəqil dövlət yaratmaq uğrunda mübarizəsinin
D) Məzdəkilər hərəkatının
E) Fraaspa döyüşünün

51. ABŞ-də çiçəklənmə illərində istehsala yeni texnologiya və konveyer sistemi tətbiq edildi. Əhalinin həyat səviyyəsi yaxşılaşdı. Bütün bunlar ölkəyə mühacir axınını son dərəcə artırdı. Artıq ABŞ-nin əsas probleminə çevrilən bu məsələni həll etmək üçün yeni mühacirət qanunu qəbul edildi.
Mətndə bəhs olunan dövrlə ABŞ prezidenti Lindon Consonun hakimiyyəti dövrünü fərqləndirən cəhət:
A) Afroamerikalılara seçki hüququnun verilməsi məsələsinin konqresdə qaldırılması
B) Ölkənin "Böyük böhran"dan çıxarılmasına nail olunması
C) Təqaüd və sosial müavinət sisteminin yaradılması ilə əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması
D) "Yeni iqtisadi siyasət" haqqında proqramın irəli sürülməsi
E) Ölkəyə mühacir axınlarının qarşısının alınması

52. Şəmsəddin Eldəniz Yusif ibn Əbu Sacdan ***fərqli*** olaraq:
A) Azərbaycanda yeni dövlətin əsasını qoymuşdu
B) Dəbil şəhəri uğrunda mübarizə aparmışdı
C) Gürcülərlə vuruşmada qələbə qazanmışdı
D) Dərbəndi öz hakimiyyəti altına birləşdirmişdi
E) Şirvanşahlar dövlətini asılı hala salmışdı

53. Uyğunluq ***pozulmuşdur.***
1. Korsika adasının tutulmasında Fransaya yaxından kömək göstərmişdi – Osmanlı dövləti
2. Çar məmurlarının əhali hesabına saxlanılması qaydasını ləğv etmişdi –IV İvan Qroznu
3. İngiltərənin respublika elan olunması ilə nəticələnmişdi – "Şanlı inqilab"
4. Yeddiillik müharibə dövründə baş vermişdi – Saratoqa döyüşü

54. XIV və XV əsrlərdə Şirvanşahlar dövlətinin tarixi üçün səciyyəvidir:
1. Təbriz üzərinə hərbi yürüşlərin təşkil edilməsi
2. Əmir Teymur ilə müttəfiqlik münasibətinin saxlanılması
3. Qonşu dövlətlər tərəfindən asılı hala salınması
4. Monqolların basqınlarına qarşı mübarizə aparılması
5. Kəsranilər sülaləsi tərəfindən idarə olunması

55. "Müqəddəs Birlik" ilə aparılan müharibə nəticəsində Osmanlı dövləti:
1. Rusiyaya Bosfor və Dardanel boğazlarından sərbəst keçmək hüququ verdi
2. Mərkəzi Avropadakı ərazilərinin xeyli hissəsini itirdi
3. Krım xanlığının müstəqilliyini tanıdı
4. "Durğunluq" dövründən "geriləmə" dövrünə qədəm qoydu

56. Xronoloji ardıcıllığı müəyyən edin.
1. Almaniya imperiyasının yaradılması
2. Vyana konqresinin çağırılması
3. Kutül-Amarədə türk qoşunlarının qələbə qazanması
4. San-Stefano sülhünün imzalanması

57. XIX əsrin ikinci yarısında Azərbaycanın iqtisadi vəziyyəti ilə bağlı uyğunluğu müəyyən edin.
1. Kənd təsərrüfatı
2. Sənaye
a. Xanabad manufakturasının fəaliyyətə başlaması
b. Sahibkar kəndlilərinin "müvəqqəti mükəlləfiyyətli" vəziyyətindən azad olmaları
c. Yelizavetpol quberniyasının əsas taxılçılıq mərkəzi olması
d. Qalakənddə su-elektrik stansiyasının inşa edilməsi
e. "Simenslər"ə məxsus misəritmə zavodunun işə salınması

Sizə təqdim olunmuş mənbəni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları cavab kağızında yerinə yetirin.

....Sakinlərə bu gündən başlayaraq öz ailəsi ilə birlikdə Şahənşahın vilayətindən Rusiyaya sərbəst keçmək, hökumət və yerli rəisliyin heç bir maneçiliyi olmadan onların satılıq malına və ya əmlakına və əşiyalarına hər hansı gömrük və vergi qoyulmadan tərpənən mülkiyyətini aparmaq və satmaq üçün bir il vaxt verilir. Tərpənməz mülkə gəldikdə isə onun satılması və ya onun haqqında öz xoşuna sərəncam üçün beş-
illik müddət müəyyən edilir.

58. Mənbədə hansı müqavilədən bəhs olunduğunu qeyd edin.

59. Köçənlərin hüquqlarını müdafiə edən maddənin müqaviləyə əlavə etməkdə Rusiyanın hansı məqsədləri vardı? (ən azı iki məqsəd yazın)

60. Mənbədə bəhs olunan müqavilənin şərtlərinin Azərbaycan üçün iki mənfi cəhətini yazın.

ƏDƏBİYYAT

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

61. İ.Əfəndiyevin "Xurşidbanu Natəvan" əsərinə əsasən uyğunluğu müəyyənləşdirin.
I – Canişin və Xurşidbanunun Tiflisdəki görüşünə aiddir.
II – Canişin və Xurşidbanunun Şuşadakı görüşünə aiddir.
a. Knyaz Xasay görüş haqqında məlumatlı olur.
b. Xurşidbanunun özünün də şübhəlilər sırasında olduğu qeyd olunur.
c. Cənubdakı soydaşlarımızın İran zülmündən azad olması arzusu dilə gətirilir.
d. M.F.Axundzadənin adı çəkilir.
A) 1 – b,c; 2 – ad B) 1 – a,d; 2 – b,c
C) 1 – b,d; 2 –ac D) 1 – a,b; 2 – c,d
E) 1 – a,c; 2 – bd

62. Ə.Cavadın "Azərbaycan bayrağına" şeiri ilə bağlı ***səhv*** fikri müəyyənləşdirin.
A) Şeirin tərənnüm obyekti üçrəngli bayrağımızdır.
B) Türküstan ellərinin bayrağı öpüb dərdini ona danışması fikri vurğulanır.
C) Müəllif küləyə müraciət edərək üçrəngli bayrağı dalğalandırmasını istəyir.
D) Lirik qəhrəman bayrağın kölgəsi düşən yeri öpmək istəyini dilə gətirir.
E) Şeirdə *Qayi xan soyu, Elxanın övladı* kimi adlara yer verilmişdir.

63. *"Ani və qüvvətli həyəcanların məhsuludur, obyektə subyektiv münasibət müşahidə olunur"* fikri hansı bənddə verilmiş əsərə aid edilə ***bilməz?***
A) "Vətən" (Ə.Kürçaylı)
B) "Qarabağda" (H.Ziya)
C) "Həyat sevgisi" (M.Müşfiq)
D) "Səsli qız" (Ə.Cavad)
E) "Azərbaycan – dünyam mənim" (M.Araz)

64. B.Vahabzadənin yaradıcılığı ilə bağlı fikirlərdən hansılar doğrudur?
1. "Mənim dostlarım", "Əbədi heykəl", "Sadə adamlar" adlı kitabların müəllifidir.
2. Dram əsərlərindən birini "Kitabi-Dədə Qorqud" dastanının motivləri əsasında yazmışdır.
3. "Kəpənək", "Latın dili" şeirləri müstəqilliyin möhkəmləndirilməsi uğrunda gedən mübarizə günlərində yazılmışdır.
4. "Ləyaqət" poemasında Cənubi Azərbaycandakı soydaşlarımızın mənəvi dünyası və problemləri ifadəsini tapmışdır.
5. "Xəzan bülbülü" poeması M.Hadiyə, "Ağlar-güləyən" poeması M.Ə.Sabirə həsr olunmuşdur.
A) 2, 3, 4 B) 1, 3, 5 C) 1, 3, 4
D) 2, 4, 5 E) 1, 2, 5

65. R.Rzanın "Çinar ömrü" şeirində insanlara çinar ömrü arzulanır. Bu ömür hansı xüsusiyyəti ilə səciyyələnir?
A) kimsəyə əziyyəti dəyməyən
B) illərinin çox olması ilə seçilən
C) diqqət mərkəzində olan
D) insanlardan uzaq olan
E) yoxuşu, enişi olmayan

66. Nümunədə işlənmiş *bədii təsvir vasitəsinin* şərhi hansı bənddə verilmişdir?
Pas atıb ən iti səsin titrəsin,
Bir kitab sözüm var sənə deyəsi...
(T.Nurəli)
A) Nəzmin tələbinə uyğun olaraq cümlədə söz sırası dəyişdirilmişdir.
B) Diqqətə çatdırılmaq istənən fikir şişirdilərək, olduğundan daha artıq şəkildə təqdim olunmuşdur.
C) Nəzərdə tutulan söz və ya ifadənin yerinə başqa bir söz və ya ifadə işlədilmişdir.
D) Bir əşya özündən daha qüvvətli başqa bir əşyaya bənzədilmişdir.
E) Mənanı qüvvətləndirmək məqsədilə həmin fikri ifadə edən sözün qarşısına qüvvətləndirici söz artırılmışdır.

67. Verilənlərdən biri İ.Şıxlının "Namərd gülləsi" əsərinin qəhrəmanı Niftalı koxaya aid edilə ***bilməz***:
A) Kərəmin silahsız adama əl qaldırmayacağından əmindir.
B) Mürşüdə yaxşılıq etdiyi üçün peşman olduğunu dilə gətirir.
C) Haqsızlıqla barışmır, ona görə Mürşüdün etdiklərini cəzasız qoymaq istəmir.
D) Namərd əli ilə ölmək ona ağır gəldiyindən mərd bildiyi adamdan onu öldürməyi xahiş edir.
E) Yaxşılıq etməyə çalışır, Mürşüdə torpaq verir, ev tikməyə kömək edir.

68. Hansı fikir adları qeyd olunan əsərlərdən yalnız birinə aid edilə bilər?
1. "Əsgər məktubu" (M.Araz)
2. "Ananın öyüdü" (S.Vurğun)
3. "Türkün nəğməsi" (M.Hadi)
A) Sözlər nəzmin tələblərinə əsasən sıralanmışdır.
B) Müharibə mövzusuna toxunulmuşdur.
C) Cavabsız qalıb geri qayıdan məktublardan söz açılmışdır.
D) Surətlərdən birinin digərinə tövsiyələrinə yer verilmişdir.
E) Əsər bədii suallar üzərində qurulmuşdur.

69. Sillogizmi tamamlayan fikri müəyyənləşdirin.
I hökm: *Şifahi xalq ədəbiyyatının janrlarından yalnız dastan nəzmlə nəsrin növbələşməsi prinsipi əsasında yaranır.*
II hökm: *Nağıl şifahi xalq ədəbiyyatının janrıdır.*
Nəticə: .....
A) Dastanın nəzm hissəsi qoşma və gəraylılardan ibarət olur.
B) Şifahi xalq ədəbiyyatının bəzi janrlarının nəzmlə və nəsrlə nümunələri olur.
C) Nağıl janrında həm nəzm, həm də nəsrə rast gəlinə bilməz.
D) Dastanların hamısı eyni mövzuda olmur.
E) Dastan qəhrəmanlarının hiss və həyəcanları nəzmlə verilən hissədə əksini tapır.

70. İ.Hüseynovun "Zəhər" hekayəsinə aid cədvəldəki uyğunluğu müəyyənləşdirin.

Surət	Doğrudur	Yanlışdır
Daşdəmir	1. Xarakeri dialoqda, başqasının nitqi vasitəsilə açılır. 2. Göy ürgənin vəziyyətinə acıyır.	3. Meşə ilə vidalaşdığına görə təəssüfünü bildirir.
Mirqasım	4. Yeni meşələrin salınacağını deyərək təsəlli tapır.	5. Daşdəmirin onu rüşvət niyyəti ilə qonaq etdiyindən xəbərsiz idi. 6. Südə görə Daşdəmirə pul təklif edir.

A) 3, 4, 6 B) 1, 3, 4 C) 2, 4, 6
D) 1, 2, 5 E) 1, 5, 6

71. Hansı fikirlər S.Əhmədlinin "Dərs" hekayəsindəki direktor obrazına aid edilə bilər?
I – "Heç bir hadisə təhsilə mane olmamalıdır" düşüncəsini rəhbər tutaraq hamını məktəbə çağırır.
II – Faciənin izlərini yaşatmaq üçün məktəbdə guşə yaradıb uşaqları hadisənin izlərini yaşadan sübutları məktəbə gətirməyə təşviq edirdi.
III – Müəllimləri təhlükəli vəziyyətdə işə çağırması rəhbərliyin əmrini yerinə yetirərək istəyindən irəli gəlirdi.
A) yalnız III B) I və II C) II və III
D) yalnız II E) I və III

72. Q.Zakirin "Badi-səba, mənim dərdi-dilimi..." misrası ilə başlayan qoşmasına aid cümlə hansı bənddə verilən fikirlə tamamlana ***bilməz?***
Lirik qəhrəman badi-səbaya müraciət edərək ..... soruşur.
A) xəstələnib qəm yatağına düşdüyü xəbərini yarına çatdırıb-çatdırmadığını
B) ah-naləsinin asimana yetdiyini yarına deyib-demədiyini
C) sevdiyinin xəstəliyi haqqında xəbərlərin doğru olub-olmadığını
D) sevdiyinin həsrətindən rənginin saraldığını ona deyib-demədiyini
E) gözləri şəhlanın onun halının pərişan, şikəstə dil olmasından xəbərdar olub-olmadığını

73. İ.Şıxlının "Dəli Kür" əsərinə aid fikirlərdən hansılar doğrudur?

1. Əsər xalqın tarixi taleyini əks etdirir, kəskin konflikti var.
2. Cahandar ağa ilə pristav arasında başlayan konflikt sonrakı mərhələdə digər surətləri də əhatə edir.
3. Əsərdəki hadisələr Cahandar ağanın təmsil etdiyi həyat tərzinin yüksəlişdə olduğu mərhələdə baş verir.
4. Əhməd maarifçi fikirli gənclərin, Molla Sadıq mövhumat tərəfdarı olan din xadimlərinin ümumiləşdirilmiş surətidir.
5. Cahandar ağanın övladları Şamxal və Əşrəfin seçdikləri yollar tamamilə fərqlənir.
6. Əsərdə halal əməyə bağlı olmaları, safniyyətli olmaları ilə seçilən kəndli obrazlarına da yer verilmişdir.

A) 1, 3, 5 B) 1, 5, 6 C) 2, 4, 6
D) 2, 3, 4 E) 1, 2, 5

74. *Şah Abbasın göstərişi ilə bir neçə saray xadimi məsləhətləşmək üçün çağırılır, sonradan Mövlana Cəmaləddin də həmin məclisə qoşulur.*
M.F.Axundzadənin "Aldanmış kəvakib" əsərindən seçilmiş hissədən sonra baş verən hadisələrin surətlərin həyatına təsiri ilə bağlı fikirlərdən hansı ***səhvdir?***

A) Mirzə Sədrəddin – Əvvəlcə ölümdən xilas olduğuna görə sevinir, sonra vəzifəsini itirir.
B) Mirzə Cəlil – Sarayda vəzifəyə təyin olunur.
C) Yusif Sərrac – Gözləmədiyi xəbərlə üzləşir, dükanı ilə vidalaşır.
D) Molla Rəsul – Şah Abbasın boşanıb yenidən yenidən nikah oxunması hadisəsinə şahid olur.
E) Axund Səməd – Əvvəlcə zindana salınır, sonra yenidən vəzifəsinə qaytarılır.

75. M.Şəhriyarın yaradıcılığına aid "Qardaşım oğlu Huşəngə", "Nişapurda günəş batarkən", "Gecənin əfsanəsi" əsərlərini birləşdirən cəhət hansı bənddə verilmişdir?

A) Nakam məhəbbət mövzusunda şeirlərdir.
B) İnsanları qardaşlığa, xeyirxah əməllərə çağıran poemalardır.
C) Şimali Azərbaycanla ünsiyyət rolunu oynayan şeirlərdir.
D) Tərcümeyi-hal səciyyəli poemalardır.
E) Ədalətsizliyə, haqsızlığa etiraz motivinə yer verilmiş şeirlərdir.

76. "Koroğlu" dastanının "Düratın itməyi" qolundan seçilmiş bəndlə bağlı fikirlərdən hansı ***səhvdir?***

Meydana girəndə pələng pəncəli,
Dağıdar elini gəlsə, Qara xan!
Qıratın üstündə qılınc oynadar,
Lal elər dilini gəlsə, Qara xan!

A) Koroğlunun dilindən deyilir.
B) Müraciət obyektinə və məzmununa əsasən Ballıcada söyləndiyini demək mümkündür.
C) Şeirdə bəhs olunan xüsusiyyətlər Koroğluya aid edilmişdir.
D) Bəndi söyləyən şəxsin ilxıçı olduğu güman olunur.
E) Bəndin qolun final mərhələsinə aid epizodda söyləndiyini düşünmək mümkündür.

77. Anarın "Keçən ilin son gecəsi" əsəri ilə bağlı cədvəldəki ***səhvləri*** müəyənləşdirin.

	Səbəb	Nəticə
1	Gülarə anasının tək qaldığını bilirdi.	Qısa müddətlik də olsa, ona baş çəkir.
2	Həmidə musiqi təhsili almışdı.	Uşaqlarından birinin onun yolunu davam etdirməsini istəmişdi.
3	Dilarə müsamirədə iştirak etmək istəmirdi.	İmtina edib evdə oturmağa qərar vermişdi.
4	Həmidənin uşaqlarının heç biri yeni il axşamı evdə deyildi.	Eynəkli kişi bunu övladların vəfasızlığı kimi qymətləndirir.
5	Həmidə, Qəzənfərin səsinin eşidilməsini istəmirdi.	"Sənsiz" mahnısının yazıldığı kaseti uşaqlardan alıb gizlədir.

A) 2, 4, 5 B) 1, 3, 5 C) 1, 2, 4
D) 3, 4, 5 E) 1, 2, 3

78. H.Cavidin "Ana" əsərində İsmətin qardaşı Səlimə müraciətlə dediyi misralarda fərqləndirilmiş hissədə verilənlərdən hansı nəzərdə tutulmuşdur?

Faş edilsə ***bu sirr,***
İnan ki, pək böyük fəlakət verir.

A) Səlma ananın Muradı qoruyub öz evində yer verməsi
B) Orxanın İsməti sevdiyini deyib ona qaçmaq təklif etməsi
C) bağda gizlənmiş Orxanın Qanpoladın gəlmək xəbərini öyrənməsi
D) Qanpoladın xaincəsinə pusquya salınması
E) Qanpoladın neçə vaxtdan bəri məktub göndərməməyi

79. Verilənlərdən biri erkən yeni dövrdə yazılmış poemadır:
A) "Mişkatül-ənvar" (A.Bakıxanov)
B) "Vərqa və Gülşa" (Məsihi)
C) "Dəhnamə" (Ş.İ.Xətayi)
D) "Könlümü" (M.V.Vidadi)
E) "Yusif və Züleyxa" (M.Zərir)

80. Nümunədə hansı bədii təsvir və ifadə vasitələri işlənmişdir?

Kordu gecənin yuxusu,
Laldı gecənin qorxusu.
O kar gecənin qorxusu
Üztək gülüncdü köksümdə.
(T.Əbilov)

1. epitet 2. təşbeh 3. bədii təzad
4. litota 5. metafor 6. təkrir
A) 2, 3, 4, 5 B) 1, 3, 4 C) 1, 2, 5, 6
D) 2, 4, 6 E) 1, 3, 5, 6

81. Fikirlər hansı sənətkarın yaradıcılığına aid edilə bilər?
- *Üç ədəbi növdə əsərlər yazmışdır.*
- *Həm nəzmlə, həm də nəsrlə yazmışdır.*
- *Ədəbiyyatımızı yeni mövzularla zənginləşdirmişdir.*

A) C.Cabbarlı B) N.Vəzirov C) İ.Əfəndiyev
D) Ə.Cavad E) M.Şəhriyar

82. B.Vahabzadənin "İstiqlal" poemasından seçilmiş hissələrdən hansı ***səhv*** izah olunmuşdur?

	Misralar	İzahı
A)	Salaq yadımıza bu gün cahanın Rəngləri dəyişən beş qitəsini.	Yeni dövlətlər yarandıqca dünyanın xəritəsi dəyişir.
B)	Eşidib qəlbimin üsyan səsini, Yazdım "Şəhidlər"in faciəsini	"Şəhidlər" poeması qəlbin üsyan səsinin nəticəsində yazılmışdır.
C)	Bizim aramızda o gündən bəri "Gülüstan" tikanlı məftilə döndü.	"Gülüstan" müqaviləsi xalqı iki yerə ayırmışdır.
D)	İki əsrdir ki, o daş körpünün Bu tayında mənəm, o tayında sən.	Xudafərin iki əsr əvvəl salınsa da, xalqı birləşdirə bilməmişdir.
E)	Məftil çəpərləri qıra bilən xalq Bir il gec, bir il tez – qıracaq yenə.	Gec və ya tez xalq çəpərləri qıraraq birləşəcəkdir.

83. Mir Cəlalın "Açıq kitab" romanından seçilmiş hadisələrin məzmun ardıcıllığını müəyyənləşdirin.
1. Vəzirbəyli "Ürək" layihəsini tənqid edir.
2. Muxtar Vahidi müdafiə etməyə çalışır.
3. Müsabiqə heyətinin yığıncağında Vahidin "Açıq kitab" layihəsinin adı çəkilir.
4. Sadıq kişi Verdiyevlə görüşür.

84. M.Şəhriyarın "Heydərbabaya salam" poemasından seçilmiş bəndlə bağlı fikirlərdən hansılar doğrudur?


Heydərbaba, gəldim səni yoxluyam,
Bir də yatam, qucağında yuxluyam,
Ömrü qovam, bəlkə, burda haxlıyam,
Uşaqlığa deyəm: bizə gəlsən bir,
Aydın günlər, ağlar üzə gülsən bir!

1. Məzmununa əsasən, müəllifin yenidən Heydərbaba dağının ətəklərinə gəldiyini demək olar.
2. Müəllif uşaqlıq illərini yada salır, yenidən arzulayır.
3. Müəllifin nikbin əhvali-ruhiyyəsi qabarıq şəkildə duyulur.
4. Müəllif aydın günlər arzulayır.
5. Müəllifin uşaqlıq illəri ilə bağlı xatirələrinə geniş yer verilmişdir.

85. S.S.Axundovun "Nurəddin" əsərindən seçilmiş hansı hadisələr Nurəddinin həyatına mənfi yöndə təsir edir?
1. faytonun onu vurması
2. Gülpərinin evə gəlişi
3. Cənnətəli ilə rastlaşma
4. Rəhimin onu tanıması
5. Əmiraslanın evinə köçməsi

86. Nömrələnmiş hissələrə hansı bəndlərdəki əsərlərin adları yazılsa, fikir doğru olar?
A..... əsərindən fərqli olaraq B..... əsərində təhkiyədən istifadə olunmamışdır.
1. A – "Kərgədan və Qarışqa" (H.Ziya); B – "Vətən" (Ə.Kürçaylı)
2. A – "Azərbaycan – dünyam mənim" (M.Araz); B – "Həyat sevgisi" (M.Müşfiq)
3. A – "Bahar" (Mir Cəlal); B – "Keçən ilin son gecəsi" (Anar)
4. A – "Namərd gülləsi" (İ.Şıxlı); B – "Əkinçi" (M.Ə.Sabir)
5. A – "Dərs" (S.Əhmədli); B – "Qanlı bənövşə" (Ə.Səmədli)

87. Əsərlərin Eyler-Venn diaqramına əsasən müqayisəsində uyğunluğu müəyyənləşdirin.



a. Erməni vəhşiliyinə toxunulmuşdur.
b. Övladının öldürülməsinə şahid olan valideyn surəti var.
c. Əsər konkret tarixi hadisəyə həsr olunmuşdur.
d. Hadisələr bir xətt üzrə inkişaf etdirilmişdir.
e. Əsərin baş qəhrəmanı özündən asılı olmayan səbəblərə görə düşməndən qaça bilmir.

88-90-cı sualları mətnə əsasən cavablandırın.

Basqın

Oba yuxuya getmişdi. Birdən gecənin sükutunu atlıların tappıltısı pozdu. Bu gözlənilməz səslər get-gedə vahiməli gurultuya çevrildi. Atlılar yaxınlaşanda qısa nizələrinin ucunda fitillər göründü. Bu nizələri üstü saman olan çadırlara atırdılar. Çadırlar bir anda nəhəng tonqala çevrilirdi.

İrəlidə at belində beş-altı əsgər əllərində qamçı bir sürü mal-qaranı qabaqlarına qatdılar. Çapqınçılar evlərə soxulub əllərinə keçəni: içi dolu sandıqları, xalıları, qiymətli əşyaları götürüb gedirdilər.

Sərkərdə Baqidarın qorxunc üzü bu qiyamətin alovunda gülürdü. Baqidarın atı yanan çadırların yanı ilə çapırdı. Beş-altı əsgər onu müşayiət edirdi. Onun qarşısını bir nurani qoca kəsdi. Qocanın səsində dərd qarışıq bir qəzəb və iztehza vardı:

– Ey cəngavər, mən bu yanan obaların ağsaqqalıyam. Varımızı, yoxumuz alın. Dağılan tifaqlar, yanan xanimanlar sənə sevinc verirsə, dağıt, yandır, kül elə! Təki balalarımıza qıyma. Onlara rəhm elə.

Bunu deyib irəli gəldi, Baqidarın ayağından tutdu. Baqidar qocaya kinli-kinli baxıb cilovları buraxdı. At yerindən götürüldü, qoca, atın üzəngisindən asıldı.

– Rəhm elə! – deyə qoca fəryad elədi.

Qocanın kürəklərində qamçı şaqqıldadı. O, üzü üstə yerə sərildi.

(O.Altunbayın "Tomris" əsərindən götürülmüş bir hissə əsasında işlənmişdir)

88. Cədvəli doldurun.

"Basqın" mətninin və S.Vurğunun "Vaqif" əsərinin məzmununda ortaq cəhətdir	*"Basqın" mətninin və S.Vurğunun "Vaqif" əsərinin formasında müşahidə olunan fərqli cəhətdir*
1. 2.	3.

89. Mətndə işlənmiş ilk bədii təsvir vasitəsini müəyyənləşdirin və həmin təsvir vasitəsinin işləndiyi cümləni müvafiq xanaya köçürün.

Bədii təsvir vasitəsi	İşləndiyi cümlə

90. Hansı cümlə mətnə artırılsa, hadisələrin ardıcıllığını pozar? Seçiminizi əsaslandırın.

☐ Atların kişnərtiləri, qoyunların mələşməsi, körpələrin ağlaşması, anaların fəryadı bir-birinə qarışmışdı.
☐ Mal-qaranı, evlərimizdəki əşyaları aparsanız, onsuz da çətin olan dolanışığımız daha da pisləşəcək.
☐ Əllərinə balta, qılınc götürüb evlərdən həyətə çıxan gənclərin sinəsinə ox sancılırdı.

SINAQ 14

AZƏRBAYCAN DİLİ

Mövzular üçün | Video həllər üçün | Cavablar üçün

1. Verilmiş nümunə ilə bağlı doğru fikirləri müəyyən edin.

Ah! Nə deyim, nə ad verim bu aləmdə mən sana!
Al, bu, qələm, bu da kağız, öz hüsnünü yazsana!
(S.Vurğun)

1. Eyni söz həm əsas, həm də köməkçi nitq hissəsi kimi işlənmişdir.
2. İki şəxs əvəzliyi işlənmişdir.
3. Tabeli mürəkkəb cümlə işlənmişdir.
4. *Camal* və *dünya* sözlərinin sinonimi işlənmişdir.
5. Feili birləşmə işlənmişdir.

A) yalnız 2, 4 B) 2, 4, 5 C) 1, 3, 5
D) yalnız 4, 5 E) 1, 2, 3

2. *Oğru qalana <u>yanar</u>, mal sahibi gedənə yanar* cümləsində altından xətt çəkilmiş sözü feili bağlama formasında işlətsək, aşağıdakılardan hansı müşahidə ***edilməz***?

A) Cümlədəki qrammatik əsasın sayı dəyişər.
B) *Oğru* sözü feili birləşmənin asılı tərəfinə çevrilər.
C) Cümlə üzvlərinin sayı dəyişər.
D) Zaman zərfliyi söz birləşməsi ilə ifadə olunar.
E) Cümlədə tamamlıq işlənməz.

3. Verilənlərdən biri müqayisə cədvəlinin heç bir hissəsinə yazıla ***bilməz***:

"Artıq" sözü köməkçi nitq hissəsi kimi	*"Artıq" sözü quruluşca düzəltmə ifadə kimi*
.....	.....
.....	

A) Cümlənin təsir gücünü artırır.
B) Yalnız əşyanın əlamət və ya keyfiyyətini bildirən söz olduğunu əminliklə demək mümkündür.
C) Sözün kökü feildir.
D) Qrammatik mənaya malikdir.
E) *Artırılmaq* sözü ilə eynikökludür.

4. *Periodik* sözünün fonetik xüsusiyyətləri ilə bağlı ***yanlış*** fikri müəyyən edin.

A) Yazılışı ilə deyilişi arasında bir fərqli məqam var.
B) Vurğusu sonuncu hecadadır.
C) Cingiltili samitlərin sayı incə saitlərin sayına bərabərdir.
D) Eynicinsli saitlərin bir-birini izləməsi prinsipi pozulmuşdur.
E) Cingiltili *[q]* samitinin kar qarşılığı işlənmişdir.

5. Verilmiş nümunə ilə bağlı ***yanlış*** fikri müəyyən edin.

Ey mələksima ki səndən özgə heyrandır sana,
Həq bilir, insan deməz, hər kim ki insandır, sana.
(M.Füzuli)

A) İkinci misrada tabeli mürəkkəb cümlə işlənmişdir.
B) *Başqa* qoşmasının sinonimi işlənmişdir.
C) Söz sırası pozulmuşdur.
D) Həm ismi, həm də feili xəbər işlənmişdir.
E) Bağlayıcı söz işlənməmişdir.

6. Verilmiş cümlədə nöqtələrin yerinə hansı bağlayıcı yazıla ***bilməz***?

Səməd Vurğun bir sıra rus və gürcü yazıçılarının əsərlərini, ... Nizami Gəncəvinin «Leyli və Məcnun» poemasını Azərbaycan dilinə tərcümə etmişdir.

A) eləcə də B) həmçinin C) o cümlədən
D) habelə E) həm də

7. Şəxsə görə sadə cümlənin növlərini nəzərə alaraq məntiqi ardıcıllığı tamamlaya bilən cümləni müəyyən edin.

1. Hər bir günahkarın cəzasını vermək üçün gərək günahkarı tapasan. (M.İbrahimov)
2. Onun düzlüyü və sədaqəti barədə indi də danışırlar. (M.İbrahimov)
3. Elşad, gərək dərslərini yaxşı oxuyaydın.
4. .....

A) Ürək ağrısını ovmazlar. (M.İbrahimov)
B) Nərimanın həyəcandan rəngi qaçmışdı. (M.İbrahimov)
C) Adamı belə tələyə salarlar. (Ə.Haqverdiyev)
D) Soyuqdan uşağın burnunun ucu göynəyirdi.
E) Maraqla tamaşaya baxırdı.

8. Hansı sual cümləsinə söz cümlə ilə cavab vermək olar?
A) Onun kimə acığı tutub?
B) Atlı haradan gəlib hara gedirdi?
C) Biz yazırıq, ya bizə yazırlar?
D) Səlim heç kəndə məktub yazırmı?
E) Kəndə nə vaxt qayıdacaqsan?

9. Hansı sözün tərkibinə görə təhlili yalnız bir cür olur?
A) qorxaq B) açıqcasına C) qorxutmaq
D) yaxalamaq E) uçurum

10. Hansı cümlədə kökü omonim olan feil söz birləşməsinin əsas tərəfidir?
A) Ali məktəbi yenicə bitirmiş Sərvər uzaq bir kənddə müəllimdir.
B) Qurddan qorxan qoyun saxlamaz.
C) Dərsin başlanmasına çox az qalırdı.
D) Növbəti dayanacaq elan edildi.
E) Qaçaqlar yerə döşənmiş keçələrin üstündə əyləşmişdilər.

11. Vasitəsiz nitqli cümlənin sxemini müəyyən edin. (Durğu işarələri buraxılmışdır).
Güldəstə şəklə zənlə baxa-baxa
Gəlinimizi görmək bizə qismət olmadı dedi sonra da əlavə elədi maşallah yaxşı uşaqların var
A) M: "V, – m!" B) – V, – m, – v.
C) M: "V! – m". D) M: – V, – m, – v.
E) M: – V!

12. Bəndlərdən birində hər iki sözün yazılışı ***yanlışdır***:
A) qübar, quşqonmaz B) lokomativ, legianer
C) kəhgəşan, kəşfiyyat D) original, operator
E) silindr, səhmdar

13. Hansı cümlədə söz birləşməsi ilə ifadə olunmuş yer zərfliyinin əlavəsi işlənmişdir?
A) Külək çöllərdən qalxan tüstü və dumanı cənuba – Səlyan və Lənkəran tərəfə qovub aparırdı. (M.İbrahimov)
B) Qışın oğlan çağında – yanvarın 11-də Nəriman xəstəxanadan vidalaşıb hissələrinə yola düşdü. (Mir Cəlal)
C) Pilləkənlərlə yuxarı dırmaşan adam düz buraya – Səltənətin evinə gəlirdi. (Mir Cəlal)
D) Firidun xırmanın qırağında – hələ də döyülməmiş buğda tayasının yanında dayandı. (M.İbrahimov)
E) Hacı İbrahimxəlilin evi kəndin ayağında – göl başında idi. (Mir Cəlal)

14. Bəndlərdən birində xitab söz birləşməsi ilə ifadə ***olunmamışdır***:
A) Ah, düşünən başlar, yaradan əllər!
Qanad verirsiniz düşüncələrə. (S.Vurğun)
B) Gəl ana yurdumun qızı, gəlini!
İndi hünər vaxtı, qeyrət dəmidir. (S.Vurğun)
C) Sən elə bilmə ki, ömrün qocalır,
Biz sənin arxanıq, dostunuq, ey Kür! (S.Vurğun)
D) Ey böyük sənətkar, ey böyük insan,
Nə olar başını yerdən qaldırsan! (S.Vurğun)
E) Amandır örtməsin, ey nazlı nigar,
O ay camalını qara buludlar! (S.Vurğun)

15. Həm zaman, həm də yer zərfinin işləndiyi cümləni müəyyən edin.
A) Rüstəm kişinin siması yavaş-yavaş dəyişir, orada dərin bir fikrin və iztirabın əlamətləri görünürdü.
B) Çoxdan insan ayağı dəyməyən bir yerə çatdıqda, Elvin qorxuya düşdü.
C) Yəqin ki, bu saat Bakıda da məni axtarırlar.
D) Gecədən xeyli keçdiyi üçün Nəcəfin gözləri qeyri-ixtiyari örtülməyə başladı.
E) Gündə neçə dəfə kənddə axtarış aparan bu adam dostu ilə danışanda səsini alçaldıb oraya-buraya baxırdı.

16. Verilmiş nümunədə işlənmişdir:
Hər alın tərilə yazılmış əsər
Bizim qəlbimizdə qalır yadigar.
(S.Vurğun)
A) Məchul növdə olan təsriflənməyən feil
B) Müəyyən yiyəlik halda olan isim
C) Düzəltmə tərzi-hərəkət zərfi
D) Qeyri-qəti gələcək zamanda olan feil
E) Mənsubiyyət şəkilçisi qəbul etmiş əvəzlik

17. *Düzgünlük* sözü ilə eyniköklü olan sözü müəyyən edin.
A) düzlənmək B) düzəlmək C) düzmək
D) düzülmək E) düzlük

18. Üzərində rəqəm yazılmış hansı sözlər arasında sintaktik əlaqə ***yoxdur***?
İndi[1] o, insan[2] həyatını[3] xilas etməyin[4] böyük[5] sevincini[6] və nəcib qürurunu[7] dərk etmişdi[8].
A) 1 – 8 B) 2 – 3 C) 5 – 6
D) 6 – 7 E) 4 – 8

19. Cədvələ əsasən uyğun fikirləri müəyyən edin.

Doğrudur	Yanlışdır
1. *Doğrudur* sözü həm əsas, həm də köməkçi nitq hissəsi kimi işlənə bilir. 2. Mənsubiyyət şəkilçili söz ismin yiyəlik hal şəkilçisini qəbul edə bilməz. 3. *Balaca* və *bübütün* sözləri adi dərəcədə olan sifətlərdir.	4. *Həyət-baca* sözü müxtəlifmənalı sözlərin birləşməsindən yaranmışdır. 5. Mübtəda adlıq halda olan yer zərfi ilə ifadə oluna bilər. 6. *Daşlaşmaq* sözünü həm sadə, həm də düzəltmə söz kimi düşünmək olar.

A) yalnız 1, 4, 6 B) 2, 3, 5, 6 C) 1, 3, 4, 6
D) yalnız 2, 3, 5 E) 1, 3, 4, 5

20. Hansı nümunədə həm həmcins xəbərlər, həm də həmcins tamamlıqlar işlənmişdir?
A) Yazığın, fağırın başından basan, zalımın döşündən ordenlər asan "nökərlər" görmüşəm.
B) Əsası M.F.Axundov tərəfindən qoyulmuş demokratik ideyaları N.Vəzirov, Ə.Haqverdiyev daha da inkişaf etdirdilər.
C) Sürəyya bu sözləri dilinə gətirmədən fikirləşir, balkonda dayanıb həyətə baxır, ağaclara nəzər salırdı.
D) Mənsurənin görkəmində, danışığında, hərəkətlərində uşaqlıq əlamətləri hələ də qalırdı.
E) Tərbiyəçi onu gözdən qoymur, arabir yanına gəlib ağacları, quşları, çiçəkləri göstərir, başını sığallayırdı.

21. Verilmiş nümunə hansı üslubdadır?
Ellərə car çəkən payızın səsi
Düzlərdə sərt əsən küləklərdədir.
(N.Xəzri)
A) elmi üslub B) məişət üslubu
C) bədii üslub D) publisistik üslub
E) rəsmi-işgüzar üslub


22. Verilmiş nümunədəki təsriflənən feillərin qrammatik məna növlərinin ardıcıllığı hansı bənddə verilmişdir?
Səslənir yamaclar, dağlar, dərələr,
İnsanı güldürür bu mənzərələr.
Oğru qarğalara tüfəng atılır,
Qocalmış torpağa dərman qatılır.
(S.Vurğun)
A) məchul növ, məlum növ, qayıdış növ, məchul növ
B) qayıdış növ, məlum növ, qayıdış növ, məchul növ
C) qayıdış növ, icbar növ, məchul növ, məchul növ
D) məchul növ, icbar növ, qayıdış növ, məlum növ
E) qayıdış növ, məlum növ, məchul növ, məchul növ

23. Düzgün ardıcıllığı müəyyən edin.
* Mübtəda ilə xəbər arasında kəmiyyətə görə uzlaşma pozulmuş, qrammatik norma pozulmamışdır.
* Həm mübtəda ilə xəbər arasında kəmiyyətə görə uzlaşma, həm də qrammatik norma pozulmamışdır.
* Mübtəda ilə xəbər arasında kəmiyyətə görə uzlaşma pozulmamış, qrammatik norma pozulmuşdur.
* Həm mübtəda ilə xəbər arasında kəmiyyətə görə uzlaşma, həm də qrammatik norma pozulmuşdur.
1. Dünyalar titrədi, aləmlər mayallaq aşdı, fələklər bir-birinə qarışdı. (C.Məmmədquluzadə)
2. İnsanların bir çoxu reallıqları dərk etmək istəmirlər.
3. Ağaclar bar gətirəndə başını aşağı dikərlər.
4. Müəllimlər Qurban bayramı münasibətilə şagirdləri təbrik etdilər.

24. *"İbrahim institutda işləyən yeganə adam idi ki, həmişə hər yerə dostu ilə gedərdi"* cümləsində baş cümlə ilə bağlı doğru fikirləri müəyyən edin.
1. İsmi xəbər işlənmişdir.
2. Feili xəbər işlənmişdir.
3. Tamamlıq qoşmalı isimlə ifadə olunmuşdur.
4. Feili birləşmə ikinci dərəcəli cümlə üzvü vəzifəsindədir.
5. Xüsusi isim feili birləşmənin asılı tərəfidir.

25. *"Onu öldürməyin, sizə heç bir faydası yoxdur"* cümləsində vergül işarəsi atılsa, cümlədə hansı dəyişikliklər baş verər?
1. Cümlə üzvlərinin sayı artar.
2. Cümlədə inkar şəkilçisi qəbul etmiş söz işlənməz.
3. Cümlənin quruluşca növü dəyişər.
4. Cümlə yalnız baş üzvlərdən ibarət olar.
5. Təsriflənən feillərin sayı artar.

26. Nümunələrə əsasən Eyler-Venn diaqramındakı ***uyğunsuzluqları*** müəyyən edin.
I Mən kəndə çatanda külək davam edir və küçələrdən sel axırdı.
II Bayırda yağan qar ağarır, xoş mənzərə yaranırdı.



1. Tabesiz mürəkkəb cümlədir.
2. Həm tabelilik, həm də tabesizlik əlaqəsi işlənmişdir.
3. Cümlələrdən biri səbəb, digəri isə nəticə bildirir.
4. Eyni zamanda baş verən hadisələr sadalanır.
5. Təyin işlənmişdir.
6. Tabeli mürəkkəb cümlədir.

27. Sözlərin leksik mənası ilə bağlı uyğunluğu müəyyən edin.

1. Təxəyyül 2. Təcəssüm 3. Təəssüb

a. Bir adamı və ya bir şeyi zehnində, xəyalında canlandırma
b. Bir şeyin maddi, cismani ifadəsi, təzahürü
c. Bir fikrə, əqidəyə, məsləkə kor-koranə bağlanıb, başqalarına kin və ədavət bəsləmə
d. Birisinə acıma, ona canı yanma, yazığı gəlmə
e. İnsanın fikirləşmək, düşünmək, nəticə çıxarmaq bacarığı

Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları Cavab vərəqində yerinə yetirin.

Xalqın milli dirçəliş dövrünə qədəm qoyması, dövlət və dövlətçilik dəyərlərinin formalaşması, milli şüurun oyanışı və özünüdərk prosesində milli mətbuatın rolu böyük və əvəzolunmazdır. Bunu H.Zərdabi **duymamış deyildi**. O, ana dilində qəzet nəşr etmək fikrinə hələ Qubada mahal məhkəməsinin katibi işlədiyi dövrdə gəlmişdi. Böyük Azərbaycan maarifçisi Abbasqulu ağa Bakıxanovun qardaşı tələb olunan maliyyə xərclərini öz üzərinə götürmüşdür. Zərdabi "Həyat" qəzetinin 28 dekabr 1905-ci il tarixli sayında "Rusiyada əvvəlinci türk qəzeti" məqaləsində yazır: *"Hər kəsi çağırıram ....., göstərirəm ....., deyirəm .....* Axırda gördüm ki, onları haraylayıb çağırmaqdan, onlara deməkdən başqa bir qeyri-əlac yoxdur. Olmaz ki, mənim sözümü eşidənlərdən heç biri qanan olmasın. Necə ki bir bulağın suyunun altına nə qədər bərk daş qoysan, bir neçə ildən sonra su tökülməkdən o bərk daş mürur ilə əriyib deşilir, habelə söz də, ələlxüsus da, doğru söz. Belədə qəzet çıxarmaqdan savayı bir qeyri-əlac yoxdur".

"Əkinçi" qəzetinin nəşri ilə Azərbaycanda jurnalistika sistemi və nəsli formalaşdı, peşə prinsipləri yarandı. Qəzet Azərbaycan dilini rəsmi statusda öz fəaliyyətinin əsasına çevirdi. Maarifçilik ideyasının daşıyıcısı olan bu qəzet milli təfəkkürlü ziyalılar nəslinin **yetişməsində** böyük tarixi xidmətlər göstərdi. Milli mətbuat tariximizin "Əkinçi"nin nəşri ilə bağlanması tarixi reallıqları özündə əks etdirir. "Əkinçi" özündən sonra bir sıra milli mətbu nümunələrinin nəşrinə **cığır açdı**.

28. Mətnə əsasən ***yanlış*** fikri və ya fikirləri müəyyən edib fikrinizi əsaslandırın.

1. A.Bakıxanovun qardaşı mesenat olmuşdur.
Əsaslandırma .....

2. "Əkinçi" qəzeti sayəsində Azərbaycan dili Azərbaycan Respublikasının Dövlət Dili kimi qəbul olunmuşdur.
Əsaslandırma .....

3. H.Zərdabi düşüncələrinin həmvətənlərinin heç biri tərəfindən dərk edilə bilməyəcəyi qənaətinə gəlir. Bu isə onun mübarizə əzmini qırır.
Əsaslandırma .....

29. Kursivlə verilmiş cümlədə məzmuna əsasən nöqtələrin yerinə ardıcıllıqla ifadələr yazın.

30. Tünd hərflərlə verilmiş ifadələrə əsasən cədvəli doldurun.

Tünd hərflərlə verilmiş sözlər	Sözün kontekstə uyğun mənası	Mətndəkindən fərqli mənada cümlədə işlədilməsi

TARİX

Mövzular üçün | Video həllər üçün | Cavablar üçün

31. Uyğunluq gözlənilmişdir:
A) XV əsrdə Azərbaycanda müharibə ərəfəsində vilayətlərdən qoşun toplayan məmur adlanırdı – kənqaş
B) Hülakülər dövlətində mərkəzi hakimiyyəti daha da qüvvətləndirmişdi – Məhəmməd Olcaytu
C) Həmədan uğrunda vuruşmada Eldənizlərə məğlub olmuşdu – Cəlairilər
D) Cənub sərhədlərinin pozulmaması haqqında Bayandurlu hökmdarından təminat almışdı - Moskva knyazı
E) Azərbaycanda ilk dəfə sənətkarlardan tamğa vergisi almağa başlamışdı – Səfəvi hökmdarları

32. Vətən müharibəsinin gedişində Azərbaycanın apardığı uğurlu xarici siyasətin nəticələri:
1. BMT-nin Təhlükəsizlik Şurasının ermənilərin işğal olunmuş Azərbaycan torpaqlarından çıxarılması ilə bağlı qətnamə qəbul etməsi
2. Qoşulmama ərəkatı təşkilatının üzv ölkələrinin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmələri
3. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının müharibəyə müdaxilə etməməsi
4. ABŞ-nin Azərbaycana birbaşa dövlət yardımını qadağan edən maddənin ləğv edilməsi
A) 1, 3 B) 3, 4 C) 2, 3 D) 1, 2 E) 2, 4

33. XV-XVI əsrlərə aid xəritədə qeyd edilmiş dövlətlərin ümumi cəhətlərinin düzgün verildiyi bəndi müəyyən edin.



	Şəhərlər	Ümumi cəhətlər
I	1, 3	Habsburqlar sülaləsinin hökmranlıq etməsi
II	4, 5	Katolik kilsəsinin reformasiya-ya qarşı mübarizəsinin uğurlu olması
III	1, 2, 4	Mərkəzləşdirilmiş feodal dövlətin yaranması
IV	2, 3, 5	Flandriya uğrunda rəqabət aparması

A) I, II B) III, IV C) yalnız II
D) II, III E) I, III

34. VII əsrin 40-cı illərində ərəblərin Azərbaycana hücum etmək imkanı yarandı:
A) Sasanilər dövlətinin süqutu nəticəsində
B) "Məzdəkilər hərəkatı"nın baş verməsi ilə
C) Cavanşirin xəzərlərə məğlub olması nəticəsində
D) Slavyanların Bərdəni qarət etməsi ilə
E) Nəhavənd və Həmədanın ələ keçirilməsi nəticəsində

35. Cədvəldəki hansı hadisələrin yerləri dəyişdirilərsə, xronoloji ardıcıllıq düzgün müəyyən edilər?

1.	Şərur-Dərələyəzin erməni daşnak hökumətinə verilməsi
2.	Bakıda Birinci Ümum-Azərbaycan Sovetlər Qurultayının keçirilməsi
3.	Moskvada ilk dəfə birinci katib vəzifəsinin təsis olunması
4.	"Dağlıq Qarabağ Muxtar Vilayətinin təşkili haqqında" dekretin verilməsi
5.	Azərbaycan SSR-də Yeni İqtisadi Siyasətə keçidin başa çatması

A) 2 və 4 B) 1 və 2 C) 2 və 3
D) 1 və 3 E) 3 və 5


36. İngiltərədə:
1. Feodallar "qalxan pulu" adlı xüsusi vergi verməli idilər
2. Həmin ödənişin hesabına kral orduya muzdlu cəngavərlər cəlb edirdi
Verilən hər iki cəhət göstərir:
A) Mütləq monarxiyanın yaranmasını
B) Kralın baron qoşunlarından asılılığın azaltmasını istəməsi
C) I Vilhelmin hərbi islahat keçirməsini
D) Cəngavər süvari qoşunlarının əhəmiyyətini itirməsini
E) Parlamentin vergi təyin etmək hüququna sahib olmasını

37. Atabəy Özbəyin güclü çarı ilə birlikdə hərbi ittifaqa daxil olmaqda məqsədi:
A) Slavyan talanlarının qarşısını almaq
B) Bəndərin başçılığı ilə baş vermiş üsyanı yatırmaq
C) Monqollara qarşı mübarizə aparmaq
D) Tiflis müsəlman əmirliyini ələ keçirmək
E) Səlcuqların tabeliyindən xilas olmaq

38. Sirdakka müqaviləsinin imzalanmasından sonra və Assuriya dövlətinin süquta uğramasından əvvəl baş vermişdir:
A) Manna hökmdarı Ahşerinin hakimiyyətdən salınması
B) Şuandahul və Durdukka şəhərlərində üsyanların başlanması
C) Mannada canişinlik sisteminin meydana gəlməsi
D) Ullusunumun Urartu meyilli qüvvələrin tərəfinə keçməsi
E) Mannalıların Uauş dağında məğlub olması

39. XIX əsrin əvvəllərində ABŞ-Fransa münasibətlərinin gər-ginləşməsinə səbəb oldu:
A) ABŞ-nin Fransada respublika rejimini dəstəkləməsi
B) Fransanın İngiltərəyə qarşı "Qitə blokadası" tətbiq etməsi
C) İstiqlaliyyət müharibəsi dövründə Fransanın ABŞ ilə müttəfiqlik əlaqələrindən imtina etməsi
D) Fransanın İspaniyadan Luiziananı alması
E) Napoleon Bonapartın Rusiya ilə yaxınlaşması

40. Göstərilənlərin aid olduğu xanlıqları müəyyən edin.
– Ağa Məhəmməd xan Qacara qarşı birgə ittifaqa daxil olmuşdular
– 1826-cı ildə danışıqlar zamanı ərazilərinin bir hissəsi Rusiya tərəfindən Qacarlara güzəştə gedilməsi nəzərdə tutmuşdu
– XIX əsrin 20-ci illərində ləğv edilmişdilər



A) 3, 5 B) 2, 4 C) 1, 2 D) 2, 3 E) 1, 3

41. "Uzunmüddətli parlament"in fəaliyyəti dövrünə aid ***deyil:***
A) Vestfaliya sülhünün imzalanması
B) Şimali Amerikada ilk ingilis koloniyasının salınması
C) Neyzbi döyüşünün baş verməsi
D) İngiltərənin İrlandiya və Şotlandiyanı tabe etməsi
E) Stüartlar sülaləsinin birinci dövrünün başa çatması

42. Məntiqi ardıcıllığı tamamlayın.
1. Əlvənd Mirzənin Təbrizdən şimala doğru yürüşə başlaması
2. İsmayılın Gülüstan qalasının mühasirəsini dayandırması
3. .....
A) Baharlı sülaləsinin hakimiyyətinə qəti son qoyulması
B) Cəbani düzündə Səfəvilərin Ağqoyunlularla toqquşması
C) Ərzincanda qızılbaşların müşavirəsinin çağırılması
D) Gülüstan qalasının Əlvənd Mirzənin əlinə keçməsi
E) Ağqoyunluların Şərur döyüşündə məğlubiyyətə uğradılması

43. San-Remo konfransında AXC nümayəndələri:
A) Mudros barışığının AXC ilə bağlı maddələrinə etiraz etmişdi
B) İtaliyanın AXC üzərində himayəçiliyinə nail olmuşdu
C) Ölkənin müstəqilliyinin bərpasına yardım üçün müraciət etmişdi
D) Naxçıvanda ABŞ general-qubernatorluğunun yaradılmasına razılıq vermişdi
E) Denikinə qarşı Gürcüstanla hərbi-müdafiə sazişi imzalamışdı

44. Böyük azadlıqlar xartiyasına aid buraxılmış fikirləri müəyyən edin.

İri feodallara geniş hüquqlar verilirdi	?	Şəhərlərin mövcud azadlıqları təsdiq edildi	?

1. İngiltərənin bütün əhalisi kral məmurlarının özbaşınalığından qorunmalı idi
2. Kral vassallarından müəyyən ediləndən artıq vergi ala bilməzdi
3. Cəngavərlərə məhdud hüquqlar verilirdi
4. Kral yalnız parlamentin razılığı ilə ordudan istifadə edə bilərdi


A) 1, 3 B) 2, 4 C) 1, 2 D) 2, 3 E) 3, 4

45. Son Tunc-İlk Dəmir dövründə Azərbaycan tayfalarının ticarət əlaqələrini göstərir:
1. Xocalıdan tapılmış üzərində Assur padşahının adının yazıldığı muncuq
2. Alanlara məxsus katakomba qəbirləri
3. Qobustan qayaları üzərində həkk edilmiş gəmi təsvirləri
4. Şamaxıda və Qəbələdə tapılmış gümüş pul dəfinələri

A) 1, 2 B) 2, 4 C) 1, 3 D) 2, 3 E) 3, 4

46. Daha ***gec*** baş vermişdir:
A) Daşkənddə SSRİ-nin hərbi əmlakının bölüşdürülməsini nəzərdə tutan müqavilə imzalanması
B) Böyük Britaniyanın "Brexit" planı ilə Avropa birliyindən ayrılması
C) Tunisdə diktatura rejiminə qarşı hərəkatın baş verməsi
D) ABŞ-nin Panamaya müdaxilə etməsi
E) Rusiya tərəfindən Ukraynanın Krım yarımadasının ilhaq edilməsi

47. Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin.



a. Əbhər sazişinin imzalanması
b. Cəlairilərdən asılı hala düşməsi
c. Teymurilərin məğlubiyyətə uğradılması
d. Baharlı sülaləsinə mənsub olması
e. Səfəvilərə qarşı mübarizə aparılması

A) 1-a; 2-d; 3-c; 4-b, e B) 1-b; 2-c; 3-e; 4-a, d
C) 1-e; 2-b; 3-a; 4-c, d D) 1-d; 2-e; 3-a; 4-b, c
E) 1-b; 2-d; 3-a; 4-c, e

48. XIX əsrin 80-ci illərində Şimali Azərbaycanda təhsil sahəsində baş vermiş yenilik:
1. Gəncədə və Bakıda Müəllimlər Seminariyasının fəaliyyətə başlaması
2. Şəhər məktəblərinin ibtidai və yuxarı sinifli məktəblərə çevrilməsi
3. İlk rus-tatar (Azərbaycan) məktəbinin fəaliyyətə başlaması
4. İrəvan Müəllimlər Seminariyasının açılması
5. İlk mərkəzləşdirilmiş telefon stansiyasının istifadəyə verilməsi

A) 1, 2 B) 3, 4 C) 2, 3, 5 D) 2, 4 E) 1, 4, 5

49. Solon islahatları və Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi tədbirləri nəticəsində qadağan olunmuşdu:
A) Qadınların sağlamlığa ziyan vuran işlərdə çalışması
B) Əhalinin xarici ölkələrə səfərə çıxması
C) Torpaqların kəndlilərə pulsuz paylanılması
D) Ərzaq məhsullarının ixrac edilməsi
E) Yoxsul vətəndaşların siyasi vəzifəyə seçilməsi

50. Ərəb xilafəti, Monqol və Teymuri dövlətləri arasında oxşar cəhətlər:
1. Mərkəzi Asiyanın ələ keçirilməsi
2. Ərazisinin inzibati cəhətdən uluslara bölünməsi
3. Çinlilərin məğlubiyyətə uğradılması
4. Hindistan ərazisinə hərbi yürüş təşkil olunması

A) 1, 2 B) 2, 4 C) 1, 4 D) 2, 3 E) 3, 4

51. 1903-cü il Əsasnaməsindən sonra Azərbaycanda kəndlilərin vəziyyətinin daha da pisləşməsinə səbəblərindəndir:
A) Kəndlilərlə bağlı cinayət işlərinin hərbi-dairə məhkəmələrinə verilməsi
B) Biyar günlərinin əvəzinə hər desyatin pay torpağına görə pul ödənişinin tətbiq edilməsi
C) Kəndlilərin üzərinə hərbi vergi adlanan əlavə mükəlləfiyyətin qoyulması
D) Əkinə yararlı olmayan torpaqların pay torpaqlarına əlavə edilməsi ilə vergilərin artırılması
E) Dövlət kəndlilərinin köçmək hüququnun ləğv edilməsi

52. Hacı Davud özünə arxa tapmaq məqsədilə Rusiyanın rəqibi olan Osmanlı imperiyasına müraciət etdi. O, hərbi kömək istəməklə bərabər, Osmanlı dövlətinin himayəsini də qəbul etmək istədiyini bildirdi. Osmanlı sultanı müraciəti müsbət cavablandırdı. Sultan fərman göndərib Hacı Davuda xan titulu verdi və onu Şirvanın hakimi kimi tanıdı.

Mətnə əsasən, hansı nəticəyə gəlmək olar?

1. Şirvan Osmanlı himayəsi altında yarımmüstəqil xanlıq kimi tanındı
2. Hacı Davud Şirvanı Rusiyanın tabeliyindən xilas etməyə çalışırdı
3. Rusiya ilk dəfə Azərbaycan uğrunda rəqabətə qoşuldu
4. Sultan III Murad I Pyotrun Xəzərsahili bölgələrə yürüşündən narahat idi

A) 2, 4 B) 1, 2 C) 3, 4 D) 2, 3 E) 1, 3

53. Səbəb-nəticə əlaqəsinin doğru verildiyi bəndləri müəyyən edin.

1. Münhendə faşistlərin qiyam qaldırması – Almaniya tari-xində ilk dəfə respublika elan edilməsi
2. Sovet qoşunlarının Finlandiyaya hücum etməsi – SSRİ-nin Millətlər Cəmiyyətindən çıxarılması
3. Vudro Vilsonun qadınlara seçki hüququnun verilməsi ilə bağlı konstitusiyaya düzəliş təklif etməsi – ABŞ-də protestantların kütləvi narazılıqlarının baş verməsi
4. Berlin konqresinin çağırılması – Osmanlı dövlətinin ilk dəfə xarici dövlətlərdən borc alması
5. General Kornilovun qiyam qaldırması – Rusiyada müvəqqəti hökumətin devrilməsi

54. Səlcuq hökmdarı I Toğrul və Səfəvi hökmdarı Şah I İsmayılın fəaliyyəti üçün ümumi cəhət:

1. Xorasan bütünlüklə tabe edilmişdi
2. Şərqi Anadolu işğal olunmuşdu
3. Amudəryadan Fərat çayına qədər ərazilər ələ keçirilmişdi
4. Şirvanşahlar dövləti asılı hala salınmışdı

55. Xronoloji ardıcıllığı müəyyən edin.

1. Ərəş sultanlığının ləğv edilməsi
2. Sultanbud yaxınlığında rus qoşununun məğlubiyyətə uğraması
3. Gəncə xanlığında ikihakimiyyətliliyin yaranması
4. Fətəli xan Əfşarın Qarabağa hücum etməsi

56. Birinci Xaçlı yürüşü nəticəsində Yaxın Şərqdə baş vermiş siyasi dəyişikliklər:

1. Aralıq dənizinin şərq sahillərində xaçlı dövlətləri yaradıldı
2. Kordova xilafəti bir sıra əmirliklərə parçalandı
3. Bəzi ərazilər Səlcuqların nəzarətindən çıxdı
4. Xaçlılar tərəfindən Latın imperiyasının əsası qoyuldu

57. Uyğunluğu müəyyən edin.

1. Şeyx Məhəmməd Xiyabani
2. Seyid Cəfər Pişəvəri

a. Təbriz Universitetinin təsis edilməsi
b. İctimai İdarə Heyətinin yaradılması
c. Azərbaycan adının "Azadıstan"la əvəz edilməsi
d. Varlıların üzərinə "Müharibə xərci" adlanan verginin qoyulması
e. Sovet İttifaqına mühacirət etməsi

Sizə təqdim olunmuş mənbəni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları cavab kağızında yerinə yetirin.

1870-ci il islahatına görə kəndlilərə verilən torpaqlar onun mülkiyyətinə keçmirdi. Doğrudur, kəndliyə öz pay torpağını satın alıb öz mülkiyyətinə keçirmək hüququ verilmişdi, lakin kəndlilərin böyük əksəriyyəti zəruri olan məbləği toplamaq iqtidarında deyildi. Rusiyada təhkimçilik hüququ ləğv ediləndə, dövlət kəndliyə öz torpağını satın almaq hüququ ilə bərabər, bu torpağı almaq üçün ona borc pul da vermişdi. Amma Azərbaycan kəndlisinə borc pul verilməmişdi və onun torpağı satın alması məcburi deyildi. Azərbaycan kəndlisinə verilmiş torpaqlar yenə də onun sahibinin mülkiyyəti olaraq qalırdı. Kəndli torpaqdan istifadə müqabilində yenə də sahibkara vergi verirdi. Onun hüquqi cəhətdən ancaq bir üstünlüyü var idi: sərbəst başqa yerə köçə bilərdi.

58. Mənbədə haqqında bəhs olunan islahat hansı kəndlilər üçün nəzərdə tutulmuşdur?

59. Mənbəyə əsasən, 1870-ci il kəndli islahatında hansı məsələlərə toxunulduğunu qeyd edin. (ən azı iki məsələ)

60. Mənbəyə və tarixi biliklərinizə əsasən, Azərbaycan kəndlisinin öz pay torpağını satın almasına mane olan iki səbəbi yazın.

ƏDƏBİYYAT

Mövzular üçün | Video həllər üçün | Cavablar üçün

61. Ə.Cavadın "Səsli qız" əsərindən seçilmiş misralarda ifadə olunan fikir bəndlərdə göstərilən misralardan hansı ilə məzmun baxımından səsləşir?

Parlayan aləmləri
Anlarmı qan içənlər?!
Nə bilir çiçək nədir,
Kor gəlib, kor keçənlər?!

A) Arının qəhrin çəkməyən
Balın qədrin nə bilir? ("Koroğlu" dastanı)
B) Bir yanda bülbüllər, çiçəkli bağlar,
Mən bu tamaşadan necə əl çəkim? (M.Müşfiq)
C) Mən qayıdıb bir də uşaq olaydım,
Bir gül açıb ondan sonra solaydım.
(M.Şəhriyar)
D) Ver sözə ehya ki, tutduqca səni xabi-əcəl,
Edə hər saət səni ol uyqudan bidar söz.
(M.Füzuli)
E) İllər olub – kürrələrdə dəmir olmuşuq.
Sərhədlərdə dayanmışıq küləkdən ayıq.
(M.Araz)

62. M.P.Vaqifin "Pəri" qoşmasının lirik qəhrəmanına aid edilə bilər:

1. insandakı təbii gözəlliyi alqışlamaq
2. sevdiyi insanı günəşə bənzətmək
3. hər bənddə şişirtmədən istifadə etməklə gözəlliyi tərənnüm etmək
4. şeir sevgisini ən təbii sevgi hesab etmək
5. sevdiyini "yer üzünün qibləgahı" adlandırmaq

A) 3, 4 B) 2, 5 C) 1, 3 D) 1, 2 E) 4, 5

63. Ç.Aytmatovun "Gün var əsrə bərabər" əsəri ilə bağlı fikirlərdən hansı ***səhvdir?***

A) Əsərin mərkəzində qloballaşma dövrünün ağrılı məsələsi – milli yaddaşın itirilməsi problemi durur.
B) "Sənin atan Donenbaydır" cümləsi kimliyə qayıdış çağırışı kimi səsləndirilir.
C) Nayman-Anaya məhəbbət Sarı-Özək, Malakumdıçap kimi yerlərin insanların nəzərində xüsusi yer tutmasına səbəb olur.
D) Sarı-Özəyə girişin qadağan olunmasının Yedigeyə və Sabitcana təsiri tamamilə fərqlənir.
E) Manqurtlaşma tarixin müəyyən bir mərhələsində özünü göstərən, müasir dövrdə aktual olmayan problem kimi təqdim olunur.

64. Nöqtələrin yerinə hansı əsərin adı yazılsa, B.Vahabzadənin müraciət etdiyi ədəbi növlərin hər birinə aid əsər olar?

"Yazı taxtası", "Dar ağacı", "Yollara iz düşür", ...

A) "Fəryad" B) "İnsan göydə ay kimidir"
C) "Şəbi-hicran" D) "Özümüzü kəsən qılınc"
E) "İlk cığır"

65. Hansı sırada verilmiş şifahi xalq ədəbiyyatı janrlarına aid nümunələri formasına görə deyil, yalnız məzmununa görə fərqləndirmək mümkündür?

I – lətifə və dastan
II – toy nəğmələri və ağılar
III – mahnı və yanıltmac

A) I və II B) I və III C) yalnız II
D) II və III E) yalnız III

66. S.Vurğunun "Vaqif" əsəri ilə bağlı cədvəlin doğru olması üçün hansı fikirlərin yeri dəyişilməlidir?

DOĞRUDUR	YANLIŞDIR
1. Misri qılıncı Eldara dünyagörmüş bir qoca verir. 2. Vaqif edam olunmaq üçün aparıldığı səhnədə özünü günəşlə müqayisə edir. 3. İbrahim xan – Xuraman dialoqundan Vaqifə xəyanət hazırlandığı məlum olur.	4. İbrahim xan epizodlardan birində Vaqifə həmişə dəstək olacağını deyir. 5. Qacarın Azərbaycanı *"ayağı çarıqlı kiçik ölkə"* adlandırması Vaqifi qəzəbləndirir. 6. Qacar *"Artıq əl çəkirəm ölüm fikrindən"* cümləsi ilə Vaqifi azad etdirdiyini bildirir.

A) 3 – 4 B) 1 – 6 C) 1 – 4
D) 3 – 5 E) 2 – 5

67. M.Füzulinin "Leyli və Məcnun" əsərindən seçilmiş hissə ilə bağlı fikirlərdən hansılar doğrudur?

Key xəstə, nədir bu çəkdiyin rənc,
Viranədə zaye etdiyin gənc?!
Vəhşi nə bilir sənin məqamın?
Həmcinslərindən istə kamın!

1. Atasının Məcnuna müraciətlə dediyi cümlələrdir.
2. Məcnunun insanlardan uzaqlaşmasına işarə olunmuşdur.
3. Müraciət edən şəxsin Məcnunun kömək etmək istəyi nəzərə çarpır.
4. "Novfəlin Məcnunla söhbəti" adlı hissədən götürülmüş misralardır.
5. Leylini sevdiyinə görə Məcnuna məzəmmət olunmuşdur.

A) 1, 2, 5 B) 2, 3, 4 C) 3, 4, 5
D) 1, 3, 5 E) 1, 2, 4

68. C.Məmmədquluzadənin "Anamın kitabı" əsərindən seçilmiş fikirlərdən hansı daha çox surətə aid edilə bilər?
A) Ananın qarşısında səhvini etiraf edib üzr istəyir.
B) Fəaliyyəti senzor tərəfindən şübhəli hesab olunur.
C) Lüğət yazılmasını faydalı iş hesab edir.
D) Cəmiyyəti-xeyriyyənin yığıncağında hamının rəğbətini qazanan çıxış edir.
E) Adı Əbdüləzimin yazısında qeyd olunur.

69. M.Ə.Sabirin "Neylərdin, ilahi?!" əsəri ilə bağlı ***səhv*** fikirləri müəyyənləşdirin.
1. Şeirdə müəllifin şahidi olduğu konkret bir hadisənin şərhi ilə bağlı məqamlar əks etdirilmişdir.
2. İnsan taleyi ilə bağlı amansız rəftar məsələsinə toxunulmuşdur.
3. İnsanların arasında haqqını müdafiə etməyi bacaranların olması müəllifin sabaha ümidlə baxmasına səbəb olmuşdur.
4. Şeirdə toxunulan mövzulardan biri də insan əməyinin istismarıdır.
5. Müəllif bu əsərdə bəşəri dəyərlərin müdafiəçisi kimi çıxış etmişdir.
A) 1, 4, 5 B) 2, 4 C) yalnız 1, 3
D) 2, 3 E) 1, 3, 5

70. M.F.Axundzadənin "Aldanmış kəvakib" əsərindən seçilmiş hansı epizodlarda adı çəkilən şəxs başqasının məsləhətindən sonra bu qərara gəlir?
1. Şah Abbas inandığı adamları yığıb fikirlərini soruşmaq qərarına gəlir.
2. Şah Abbas hökmdarlığa Yusif Sərracı təyin edir.
3. Mövlana Cəmaləddin saraya gəlir.
4. Şah Abbas hakimiyyətdən müvəqqəti uzaqlaşmalı olur.
5. Yusif Sərrac bəzi saray xadimlərini həbs etdirir.
A) 2, 4 B) 1, 3 C) 3, 5 D) 1, 4 E) 2, 5

71. Nümunədə hansı bədii ifadə vasitələri işlənmişdir?
(tam cavabı seçin)
Nəfəsim od olur, ürəyim kürə
Eşqindən bir gilə qatanda şeirə.
Az-az görüşsəm də, gündə yüz kərə
Səni xatırlayan bir oğulam mən.
(H.Razi)
A) bədii təzad, mübaliğə
B) bədii təzad, kinayə, inversiya
C) kinayə, inversiya
D) bədii təzad, mübaliğə, inversiya
E) litota, inversiya

72. Mir Cəlalın "Açıq kitab" romanından seçilmiş hadisələrin ardıcıllığını nəzərə alaraq nöqtələrin yerinə uyğun gələn hadisələri müəyyənləşdirin.

Sadıq kişi Bakıya gəlməyə qərar verir.
.....
Vəzirbəyli "Ürək" layihəsini tənqid edir.

1. Vahidin adı qaliblərin sırasında olmur.
2. Səttarzadə Vahidi zəmanətə götürür.
3. Vahidin gəlişi atasını təəccübləndirir.
4. Ağca proyekt-büroda evlərinə gələnlərin olduğunu deyir.
5. Şəhərin plan layihəsi üçün üç mükafat təsis olunur.
A) 1, 3 B) 2, 5 C) 2, 4 D) 3, 5 E) 1, 4

73. Verilmiş əsərlərdən hansı A.Bakıxanovun "Hikmətin fəziləti" əsəri ilə eyni ədəbi növdədir, amma nəzm və ya nəsrlə yazılmasına görə ondan fərqlənir?
A) "Anamın kitabı" (C.Məmmədquluzadə)
B) "Həyat sevgisi" (M.Müşfiq)
C) "Sultan Səncər və qarı" (N.Gəncəvi)
D) "Ana" (H.Cavid)
E) "Anabacı" (A.Şaiq)

74. Anarın "Keçən ilin son gecəsi" əsərindən seçilmiş hansı iki epizod hadisələrin gedişində bir-birinə təsir ***etmir?***
A) Eynəkli kişinin fikirləri Həmidəni düşündürür – Həmidə ilk dəfə kaseti maqnitofona qoyaraq qulaq asır.
B) Rüstəm evdə qalmaq fikrində idi – Tofiq və dostları başqa yerə getməyə qərar verirlər.
C) Leyla evə gəlir – Həmidənin övladlarından biri də getməli olur.
D) Süleyman tələskən xarakterə malikdir – Eynəkli kişi cavanlardan şikayətlənir.
E) Gülarə həyat yoldaşı ilə qonaq getməli idi – Vaqif Həmidənin yanında qalır.

75. H.Cavidin "İblis" əsərində iştirak edən surətlər mənfi və müsbət surətlər olaraq iki yerə bölünsə, verilənlərdən hansı aşağıdakı misraların aid olduğu şəxslə eyni qrupda ola ***bilməz?***
Bir əsir iştə, düşman olsa belə,
Yenə lazım müavinət edilə.
A) Vasif B) Xavər C) Çavuş
D) Rəna E) İxtiyar

76. R.Rzanın "Qızılgül olmayaydı" poemasının məzmunu ilə bağlı fikirlərdən hansı doğrudur?
A) Müəllif Dilbərin susub dayanmasının dözülməz olduğunu dilə gətirir.
B) Müəlliflə Müşfiqin tanışlıq səhnəsi üçüncü şəxsin dili ilə danışılır.
C) Müəllif – Dilbər, şairə – Dilbər, Müşfiq – Dilbər surətlərinin dialoqlarına yer verilmişdir.
D) Müşfiqin daim kədərli, tutqun olan çöhrəsi xatırlanır.
E) Müəllif dostu gəlmədikdə onu axtarması, hər yerdə soraqlaması ilə təskinlik tapır.

77. M.Hüseynin "Odlu qılınc" əsəri ilə bağlı cədvəldəki ***səhvi*** müəyyənləşdirin.

	SƏBƏB	NƏTİCƏ
A)	Cavanşir qalib gəlir.	Qızlar onun başına çiçək səpirlər.
B)	Varaz ox atıb qılınc çalmaq istəyir, amma bacarmır.	Yerinə sərkərdə seçmək qərarına gəlir.
C)	Cavanşirdən heç bir xəbər gəlmir.	Varaz qoşunun əsir düşməsi ehtimalını dilə gətirir.
D)	Urmuz heç bir döyüşdə yenilməmişdi.	Qoşuna başçılıq etmək istəyini dilə gətirir.
E)	Birinci elçi sevindirici xəbərlə gəlməmişdi.	Varaz hamının bu xəbəri eşitməsini istəmir.

78. "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy"la ("Kitabi-Dədə Qorqud" eposu) bağlı uyğunluğu müəyyənləşdirin.
1. Qazan xan 2. Uruz 3. Aruz
a. Surətlərdən birinə nümunə göstərilir.
b. Kimə yağı deyildiyini öyrənir.
c. Qazan xandan evi kimin qoruyacağını soruşur.
d. Öz yaxınını cəzalandırmaq qərarına gəlir.
e. Eyni düşmənlə iki fərqli yerdə vuruşmalı olur.
A) 1-a,d; 2-e; 3-c B) 1-d,e; 2-b; 3-a
C) 1-b; 2-a; 3-e D) 1-b,c; 2-e; 3-a
E) 1-d; 2-b; 3-a,c

79. İ.Şıxlının "Dəli Kür" əsəri ilə bağlı fikirlərdən hansı doğrudur?
A) Əsərin konflikti Cahandar ağanın ailəsində başlayır və sona kimi belə davam edir.
B) Maneələri dəf etmək üçün mübarizə aparan Cahandar ağa əyilməzliyini sona kimi davam etdirə bilmir.
C) Pristav çar hökumətinin maraqlarını müdafiə edən surət kimi göstərilsə də, müəyyən məqamlarda kəndlilərin tərəfində durur.
D) Güclü düşməni olan Cahandar ağa ilə açıq mübarizə aparması Allahyar surətini səciyyələndirən cəhətdir.
E) Cahandar ağa ilə əks mövqedə dayanan Molla Sadıq din xadimlərinin ümumiləşdirilmiş surəti deyil, fərdi xüsusiyyətlər daşıyır.

80. S.Ə.Şirvaninin "Guş qıl..." müxəmməsi ilə bağlı cədvəli tamamlayan fikirlərin verildiyi bəndi müəyyənləşdirin.

Müraciət obyekti	***Ona münasibət***	***Səbəb***
Zahid	1	2

A) 1. Tənqid hədəfidir; 2. Musiqi məclisinə gedənləri istiğfar etməyə çağırmışdır.
B) 1. Misal göstərilir; 2. Musiqinin insana müsbət təsirindən bəhs etmişdir.
C) 1. Tənqid hədəfidir; 2. Tarı qadağan olunmuş alət adlandırmışdır.
D) 1. Tənqid hədəfidir; 2. Müəllifin musiqiyə sevgisini tənqid etmişdir.
E) 1. Misal göstərilir; 2. Musiqini gizli sirlərin bələdçisi hesab etmişdir.

81. "Şəhidlər" (B.Vahabzadə) poemasından seçilmiş misralarda ifadə olunan mövzuya verilmiş əsərlərdən hansında ***fərqli*** şəkildə toxunulmuşdur?
Qırx gün yas saxlamaq: işə çıxmamaq
Oldu üsyanımız, intiqamımız...
A) "Gələcək gün" (M.İbrahimov)
B) "Dərs" (S.Əhmədli)
C) "Qaytar mənim qüdrətimi, Azərbaycan" (X.R.Ulutürk)
D) "Qanlı bənövşə" (Ə.Səmədli)
E) "Azərbaycan – dünyam mənim" (M.Araz)

82. N.Gəncəvinin "İskəndərnamə" əsəri ilə bağlı fikirlərdən hansılar doğrudur?
1. İskəndərin apardığı müharibələrin məqsədi pomanın hər iki hissəsində eynidir.
2. İskəndər ilk döyüşünü zəncilərlə keçirir və qalib gəlir.
3. Əsərdə hökmdar surətləri sayca çoxdur.
4. Peyğəmbərliyə çatdıqdan sonra ölkələrdən aldığı bac və xərac almamağa qərar verir.
5. Yəcuclarla döyüşməyə qərar verən İskəndəri fikrindən Ərəstu döndərir.
6. Əsər İskəndərin ölümü ilə başa çatır.
A) 2, 3, 6 B) 1, 2, 5 C) 1, 3, 5
D) 3, 4, 6 E) 1, 2, 4

83. Nümunədə işlənmişdir:

Külək məni xəyalımdan ayırdı,
Elə bildim pəncərənin şüşələri titrəyir.
Dərdli bir sızıltı vardı havada:
Küləkmi, şüşəmi, yoxsa kədərmi
Belə yazıq-yazıq sızıldayırdı?
(İ.İsmayılzadə)

1. təşbeh 2. epitet 3. bədii sual
4. bədii təzad 5. metafor 6. mübaliğə

84. "Həmzənin Qıratı qaçırması" qolundan seçilmiş hissə ilə bağlı fikirlərdən hansılar doğrudur?


Paşa, indi siz bir az aralı durun, mən atı çıxardım, gəzdirim, bir az hava-zad dəysin. Sonra tapşırım özünüzə. Amma paşa, bilmirəm, gərək məni razı salasan.

1. Koroğlu ilə Hasan paşanın dialoqundan götürülmüşdür.
2. Mehtərin nitqinə aid cümlədir.
3. Maddi ehtiyaca görə çətin işi yerinə yetirməyə məcbur qalan şəxsin nitqindəndir.
4. Atı ələ keçirmək üçün şərait yaratmaq niyyəti hiss olunur.
5. Həmzənin atı aparmaq istəyini büruzə verən cümlədir.

85. İ.Əfəndiyevin "Xurşidbanu Natəvan" əsərində hansı surətlər başqa xalqın dili və ya mədəniyyəti ilə yaxınlaşmanı fəxr hesab edir?

1. Şahzadə 2. Qala rəisi 3. Məliküldövlə
4. Zahir bəy 5. Qoca knyaz

86. Əsərlərin müqayisəsi ilə bağlı diaqramdakı doğru fikirləri müəyyənləşdirin.



1. İradəsi ilə ona inanmayanları heyrətləndirməyi bacaran surət əsərin baş qəhrəmanıdır.
2. Əsas surətin ətraf aləmə olan sevgisi əks etdirilmişdir.
3. Epik əsərdir, süjet xəttinə malikdir.
4. Əsərdə qeyri-insani surətə yer verilmişdir.
5. İnsanın əzmini, gücünü, məğlubedilməz olduğunu göstərən əsərdir.
6. Paxıl insan əsərin mənfi surətlərindən biri kimi göstərilmişdir.

87. C.Cabbarlının "Oqtay Eloğlu" əsərinə aid uyğunluğu müəyyənləşdirin.

1. Əsərdə iştirak edən surətlərdən yalnız Xaspolada aiddir.
2. Əsərdə iştirak edən surətlərdən yalnız Firəngizə aiddir.
3. Əsərdə iştirak edən surətlərdən yalnız Aslan bəyə aiddir.

a. Həm ailə üzvləri, həm də başqa biri ilə söhbətdə teatrı tərifləyir.
b. Oqtayı qorumaq məqsədilə ona yalan danışmağa məcbur olur.
c. Oqtayı sevmir, onun uğur qazanmasını istəmir.
d. Oqtayın səhnəyə qayıtması üçün çalışır.
e. Oqtayın yenidən səhnəyə qayıdışı üçün "Qaçaqlar" əsərini seçir.

88-90-cı sualları mətnə əsasən cavablandırın.

Səpin vaxtı

Kənddə bu gün adam qalmamışdı. Uşaqlı-böyüklü hamı çöldə idi. Hamı öküzünü, kəlini cütə qoşub əkirdi. Qızlar, gəlinlər kölgəlikdə süfrə açmışdılar.

Nəbi cüt tutur, Mehdi hodax sürürdü. Ataları Alo kişi isə çiynində xurcun cütün qabağınca asta-asta addımlayır, ovcunu toxumla doldurub yerə səpirdi.

Alo oğlanlarına deyirdi:

– Oğul, heyvanlar xamdı, çox darıxdırmayın, arabir ..... oxuyun.

Nəbi ağ saçaqlı papağının dalını qaldıraraq oxuyurdu. Mehdi də səsini qardaşının səsinə qatırdı. ***Nəbi kotanı torpağa sancdıqca yerdə dərin izlər qalırdı.*** Alo arabir geri çevrilib oğlanlarına fərəhlə baxırdı.

– Uşaqlar, hələ dədə-babadan belə əkinimiz olmayıb, – deyərək o əyilib şumdan bir ovuc götürdü, – pəh-pəh, torpaq belə olar. Hələ dünya yaranandan bura cüt dəyməyib. Sağlıq olsun, Zeyvə kəndindən biçinçi çağırmasaq, buranın taxılını yığıb-yığışdıra bilməyəcəyik...

88. Mətndə bəhs olunan iş prosesini nəzərə alaraq nöqtələrin yerinə uyğun gələn şifahi xalq ədəbiyyatı nümunəsini müəyyənləşdirin və ona aid cədvəli doldurun.

Janrın adı	
Aid olduğu ədəbi növ	
Janra aid xüsusiyyətlər	1. 2.

89. Qara hərflərlə verilmiş cümləyə elə bir söz və ya ifadə əlavə edin ki, bədii təsvir vasitəsinin işlənməsinə rast gəlinsin.

_____

90. Mətndəki Alo kişi surəti ilə M.İbrahimovun "Gələcək gün" əsərinin hansı surəti arasında oxşarlıq var? Onlar üçün ortaq olan iki xüsusiyyət yazın.

Surətin adı: _____

1. _____
2. _____

SINAQ 15

AZƏRBAYCAN DİLİ

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

1. Nümunədə buraxılmış durğu işarələrini müəyyən edin.

Onun səsindəki günahkar ahəngi hiss edən xanım mehribanca gülümsərdi

Salam Güləbətin yatıb yuxuya qalmısan hə deyər və dərhal əlavə edərdi Eybi yoxdur səhər yuxusu şirin olur bu gün mən tez durmuşam.

A) qoşa nöqtə, beş vergül, üç tire, bir nida
B) qoşa nöqtə, altı vergül, üç tire, bir sual
C) qoşa nöqtə, üç vergül, iki tire, bir sual
D) qoşa nöqtə, dörd vergül, üç tire, bir sual
E) qoşa nöqtə, altı vergül, iki tire, bir nida

2. Cümlələrdən birində *"soyuq"* sözü məcazi mənada işlənməklə yanaşı, cümlənin təyinidir:

A) Bu soyuq, qara daş nə günəş şüası ilə qızır, nə də insan hənirtisi ilə isinirdi. (F.Kərimzadə)
B) Atasının otağında babası ilə rastlaşan Seyid Əzim onunla soyuq davrandı. (Ə.Cəfərzadə)
C) Məclisi soyuq görən Məryəm qayıdıb getdi. (B.Talıblı)
D) Qız professora iti və soyuq bir nəzər salaraq heç bir cavab vermədi. (İ.Əfəndiyev)
E) Şahinlə Gülyanaq arasındakı soyuq münasibət Dədə Bəhmənin gözündən yayınmadı. (Əfqan)

3. Nümunələrlə bağlı ***uyğunsuzluğu*** müəyyən edin.

A) Demək olar ki, bütün işlərin ən çətini onu başlamaqdır. (Jan Jak Russo) – tabeli mürəkkəb cümlədir.
B) Zirvəyə gedən yol insan qəlbinin dərinliyindən keçir. (Əbu Turxan) – təyin feili birləşmə ilə ifadə olunmuşdur.
C) İnsan zəkanın qarşısında hörmətlə əyilər, amma gözəl rəftar və mərhəmətin qabağında diz çökər. (Deyl Karnegi) – mürəkkəb cümlədir, anlayışlar qarşılaşdırılır.
D) Həqiqətin bəzənməyə ehtiyacı yoxdur: onun öz çöhrəsi hər cür bəzəkdən daha gözəldir. (Əbu Turxan) – tabesiz mürəkkəb cümlədir, cümlələrdən biri digərində ifadə olunan fikri aydınlaşdırır.

E) Yaradanın əlindən çıxan nə varsa, gözəldir, hər şey insanın əlində pozulur. (Jan Jak Russo) – əvəzliyin iki müxtəlif məna növü işlənmişdir.

4. Hansı sıralardakı sözlərin yerini dəyişdirməklə cədvəldəki uyğunluğu bərpa etmək olar?

	ü	u
1.	k...barlıq	q...barlanmaq
2.	n...rani	m...vafiq
3.	l...zum	p...lemyot
4.	m...şavirə	r...hani
5.	s...veren	n...mayiş

A) 1, 3, 5 B) yalnız 2, 5 C) 2, 4, 5
D) 1, 2, 3 E) yalnız 1, 3

5. Nümunəyə və cədvələ əsasən uyğunluğu müəyyən edin.

Elm təkcə bilik deyil, həm də şüurdur, yəni bilikdən necə istifadə etməyi öyrədəndir. (Klyuçevski)

Doğrudur	Yanlışdır
1.Tabesiz mürəkkəb cümlədir, cümlələrdən biri digərini izah edib, aydınlaşdırır. 2. Həmcins xəbərlər işlənmişdir. 3. Tamamlıq ismi birləşmə ilə ifadə olunmuşdur.	4. Xəbərlər müxtəlif şəxslərdədir. 5. Aydınlaşdırma bağlayıcısı mürəkkəb cümlənin komponentlərini bir-birinə bağlamışdır. 6. Həm ədat, həm də bağlayıcı işlənmişdir.

A) 3, 4, 5 B) 2, 4, 6 C) 1, 3, 6
D) 2, 4, 5 E) 1, 2, 6

6. Tərkib hissələri müəyyən şəxsli cümlələrdən ibarət olan mürəkkəb cümlələrdən birində eyni zamanda baş verən hadisələr sadalanır:
A) Uşaq filmə baxmaq istəyir, qardaşı isə ona mane olurdu.
B) Heydər həmişə fikirlidir, heç qaş-qabağı açılmır.
C) Gecələr yer-yurd soyuyur, gölməçələrdəki qurbağalar tənbəl-tənbəl quruldayırdılar.
D) Birdən motor susdu, çarxlar dayandı.
E) Elə bil başına qaynar su tökdülər, bədəni gizildəməyə başladı.

7. *"Nəqqaşlıq"* sözünün fonetik təhlili ilə bağlı ***yanlış*** fikri müəyyən edin.
A) Səs və hərf tərkibi fərqlənir.
B) Bir-biri ilə qarşılıq təşkil edən samitlər işlənmişdir.
C) İki samitin kar qarşılığı yoxdur.
D) Cingiltili samitlərlə saitlərin sayı bərabərdir.
E) Üçhecalıdır, dodaqlanan sait işlənməmişdir.

8. Nümunənin aid olduğu üslub üçün səciyyəvi ***olmayan*** xüsusiyyətləri müəyyən edin.

Eşqsiz yaşayan donuq bir insan
İçini qurd yemiş boş bir ağacdır.
Əsrlər dolanır, dəyişir zaman,
Məhəbbət əbədi bir ehtiyacdır. (S.Vurğun)

1. Bu üslubda işlədilən feillər, adətən, əmr, xəbər, vacib və şərt şəkillərində olur.
2. Aydınlığa, anlaşıqlığa xüsusi diqqət yetirilir.
3. Obrazlı nitq forması olub, nəsr və nəzm şəklində təzahür edir.
4. Ədəbi dil tarixində həmişə aparıcı üslub olmuşdur.
5. Mürəkkəb cümlələrdən geniş istifadə olunur.

A) yalnız 3, 4 B) 3, 4, 5 C) 1, 3, 4
D) yalnız 2, 5 E) 1, 2, 5

9. *"Vatikana son ezamiyyətim müddətində Azərbaycan tarixinə aid orta əsr Avropa və Şərq xəritələrini aşkar etdik"* cümləsi ilə bağlı ***yanlış*** fikri müəyyən edin.
A) Mübtədası buraxılmış müəyyən şəxsli cümlədir.
B) Xəbər xəbər şəklində olan feillə ifadə olunmuşdur.
C) Cümlə üzvləri arasında tabesizlik əlaqəsi işlənmişdir.
D) Tamamlıq ismi birləşmə ilə ifadə olunmuşdur.
E) Qoşma söz birləşməsi daxilində cümlənin təyinidir.

10. *"Oğul"* sözünə əsasən cədvəldəki düzgün fikirləri müəyyən edin.

Adlıq halda olan isimdirsə, ...	Təsirlik halda olan isimdirsə, ...
1. qoşma ilə işlənərək cümlənin tamamlığı ola bilər. 2. söz birləşməsinin əsas tərəfi ola bilər. 3. bütün hallarda yiyəlik halda olan sözdən sonra işlənməlidir.	4. ikihecalıdır, cümlədə tamamlığın ifadə vasitəsi ola bilər. 5. xəbərin ifadə vasitəsi ola bilməz. 6. feili birləşmənin asılı tərəfi ola bilməz.

A) 1, 2, 5 B) 1, 3, 5 C) 2, 4, 6
D) 1, 4, 5 E) 2, 3, 6

11. Hansı cərgədəki feillərin hamısında *"idi"* köməkçi sözü işlənmişdir?
A) insandı, oxumuşdu, gəlmişdinsə
B) yerləşmişdi, yazacaqdınsa, bilirdinsə
C) oxuyurdu, alacaqdı, apardı
D) getdisə, oturacaqdısa, baxmışdı
E) eşidirdi, yazılmışdı, bildim

12. Müqayisə cədvəlinə əsasən verilmiş cümlələrlə bağlı hansı fikirlərin yeri dəyişilsə, uyğunluq bərpa olunar?

A. *Nə qədər ki yaşayırsan, öyrən, düşünmə ki, qocalıq gələndə sənə müdriklik gətirəcək.* (Solon)

B. *Həm güclü, həm də zəif cəhətlərimi bilirəmsə, deməli, mübarizəyə hazıram.* (K.Parker)

A	B
1. Bağlayıcı söz işlənmişdir. 2. Tabeli mürəkkəb cümlədir.	3. Tamamlıq işlənmişdir. 4. Həm feili, həm də ismi xəbər işlənmişdir.
5. Mübtəda düzəltmə isimlə ifadə olunmuşdur. 6. Qrammatik cəhətdən cümlə üzvü ilə bağlı olmayan söz işlənmişdir.	

A) 1 ↔ 5; 2 ↔ 3 B) 1 ↔ 5; 2 ↔ 4
C) 1 ↔ 4; 2 ↔ 5 D) 2 ↔ 5; 3 ↔ 6
E) 2 ↔ 4; 1 ↔ 6

13. Bəndlərdən birində *"uçurum"* sözü *fəlakət, dəhşət, faciə* mənasında işlənmişdir:

A) Sağımız dağ, solumuz qorxunc uçurum, meşəlik, dağlıqdır.

B) Kəşfiyyatçılar iri gövdəli qalın meşədən birdən uçurum bir dərəyə düşdülər.

C) Mübariz dostlar arasındakı uçurumu dərinləşdirirdi.

D) Qudurğan qasırğa, çarpaşıq yollar,
Yolumda zülmət var, uçurumlar var. (Ə.Cavad)

E) Uçurumun dibi böyük tikan kolları ilə örtülmüşdü.

14. Hansı cümlədə ədəbi dilin iki müxtəlif norması pozulmuşdur?

A) Deyirlər ki, adınız hər yanda məhşurdur sizin.

B) O, başqalarınnan çox işləyir, ailəsini çörəyə möhtac qoymurdu.

C) Emosional danışdıqca gözləri önündə bir sıra xatirə canlanırdı.


D) Nə zindandan çəkinmirik, nə də qanlı dar ağacından.

E) Hətta onlar eyni ildə, eyni ayda anadan olmuşdu.

15. Eyler-Venn diaqramına və nümunələrə əsasən doğru fikirləri müəyyən edin.

a. *Azərbaycanın hər guşəsində əsrarəngiz gözəlliyə rast gəlirsən.*

b. *Qüdrət kişi bazara gedəndə arvadı bəzən darvazanın xırda gözünü bağlayardı.*



1. Xəbəri frazeoloji birləşmə ilə ifadə olunmuş şəxssiz cümlədir.
2. Əvəzlik müstəqil cümlə üzvü deyil.
3. Həmcins üzv işlənməmişdir.
4. Təyin sifətlə ifadə olunmuşdur.
5. Həm ismi, həm də feili birləşmə işlənmişdir.
6. Mübtədası mürəkkəb adla ifadə olunmuşdur.

A) 1, 3, 5 B) 2, 3, 5 C) 2, 4, 6
D) 1, 4, 6 E) 2, 3, 4

16. Uyğun bəndi müəyyən edin.

	Frazeoloji birləşmə	Sinonimi	Antonimi
A)	gözü su içməmək	ürəyinə xal düşmək	bel bağlamaq
B)	əldə saxlamaq	əldən verməmək	ram etmək
C)	zəhləsi getmək	xoşu gəlmək	acığı tutmaq
D)	dilə gəlmək	ağız açmaq	ağzına su almaq
E)	əti ürpəşmək	diksinmək	zövq almaq

17. Budaq cümləsi baş cümləyə bağlayıcı sözlə bağlanmış tabeli mürəkkəb cümləni müəyyən edin.

A) Dörd ay vardı, ananın gözləri yol çəkirdi. (S.Rüstəm)

B) O elə bir müəllimdir ki, uşaqlara qayğı ilə yanaşır.

C) Məktub olmasa, bir də sən bu həyətə gəlmə. (S.Rüstəm)

D) Mən insan o adama deyərəm ki, ömrü fırtınalar içində keçsin. (M.İbrahimov)

E) Nə qədər ki valideynlərim sağ idi, mən belə lətifələri qələmə almaqdan, hətta onlara qulaq asmaqdan çəkinərdim. (Mir Cəlal)

18. Hansı cümlədəki sifəti azaltma və ya çoxaltma dərəcəsində işlətmək mümkün ***deyil***?

A) Burada bihuş yatarkən nurani bir qoca – mənə meydanda ad verən o qoca ozan gözümə göründü.

B) Muzdurun nitqi kəsildi, ay aman, olmaya, dünənki çamadan əhvalatıdır. (S.M.Qənizadə)

C) Mehriban sevgilim qarşımda durdu,
Yenə şairliyim başıma vurdu. (M.Müşfiq)

D) Elşən uğura çatmaq üçün çətin yollardan keçmişdi.

E) İsmayılzadə deyir ki, bu il böyük bir saray tikəcəyik.

19. Nümunədəki tünd qara sözlərlə bağlı fikirlərin ardıcıllığını müəyyən edin.

*Həyat, sevincin qədər **əzabın** da **şirindir**.*
*Səni **mənalandıran** o keşməkeşlərindir.*
İki yüz il yaşadı ləzzət içində Loğman,
*Yenə möhlət istədi **ölərkən** Allahından.*
***Yatırdı** göy çəməndə, çatdı ona Əzrail,*
Söylədi – İki yüz il ömür sənə bəs deyil?!
(B.Vahabzadə)

1. Cümlənin feili xəbəridir.
2. Təsriflənməyən feildir, cümlənin zaman zərfliyidir.
3. Feili birləşmənin əsas tərəfi olmaqla yanaşı, sintaktik əlaqədə də əsas tərəfidir.
4. Mənsubiyyət şəkilçisi qəbul etmiş isimdir, cümlənin mübtədasıdır.
5. Cümlənin ismi xəbəridir.

A) 1, 2, 3, 4, 5 B) 4, 5, 3, 2, 1
C) 4, 5, 2, 3, 1 D) 5, 4, 3, 2, 1
E) 4, 5, 2, 1, 3

20. Doğru fikri müəyyən edin.

A) *"Məktəbli"* sözü isimdən düzəlmiş sifətdir.
B) *"Hər işin başlanğıcı və **nəhayəti** var"* cümləsindəki fərqləndirilmiş söz yalnız qrammatik mənaya malikdir.
C) Tabesizlik bağlayıcısı tabeli mürəkkəb cümlənin tərkibində işlənə bilməz.
D) *"Dərslərini məncə oxu"* cümləsində dörd müxtəlif nitq hissəsi işlənmişdir.
E) *"Başladın"* sözü bütün hallarda xəbər şəklində olan feildir.

21. Cümlələrdən birində yol verilmiş orfoqrafik ***səhv*** ismin hal şəkilçisinin işlənməsi ilə bağlıdır:

A) Başım, beyinim tüstülənir, varlığımda kədər, təlaş.
Gözlərimdə ildırımdır damla-damla axan qanyaş.
B) Mirzə səfərin iki oğlu ədliyə məktəbinin beşinci sinfində oxuyurdular.
C) XIX-cu əsrdə sənaye inqilabından sonra işçi və sahibkar təbəqələri arasında sinfi mübarizə daha da kəsginləşdi.
D) Hər ilin dörd fəsli və hər fəsilin də öz gözəlliyi var.
E) Birdən uşaqlardan birisi bərxdən qışqırdı.

22. *"Mən ona demişdim ki, hamını öz arşını ilə ölçməsin"* cümləsindəki *ki* sözünü *mən* sözündən sonra işlətsək, cümlədə hansı dəyişikliklər baş verər?

1. Cümlənin quruluşca növü dəyişər.
2. Cümlədəki köməkçi nitq hissələrinin sayı dəyişər.
3. *Ki* sözünün qrammatik mənası dəyişər.
4. Budaq cümləni baş cümləyə bağlayan vasitə dəyişər.
5. Mübtədanın ifadə vasitəsi dəyişər.

A) 3, 4 B) 1, 2 C) 1, 5 D) 2, 3 E) 4, 5

23. Bağlayıcı ilə omonimliyi olan ədatın işləndiyi cümlələri müəyyən edin.

1. Qəhrəman, doğrudan da, evdə artıq bəzək-düzək olmağının əleyhinə idi.
2. Qərar yekdildir, yəni heç kim etiraz etməyib.
3. Bunlar ancaq tərbiyə və istedadın nəticəsində incəsənətin bu qədər ali dərəcəsinə çıxa bilmişlər.
4. Bağrım çartladı, qardaş, danış da!
5. Deyilənləri anlamaq yəni bu qədər çətindir?
6. Bizdə şeir də var, sənət də vardır,
Şairə, sənətə hörmət də vardır. (S.Vurğun)

24. Zərfliyin məna növlərinə görə işlənmə ardıcıllığını müəyyən edin.

* Bahar əlini atıb gözünü örtən ağır yorğanı qaldırmaq istədi.
* Biz kəndə çatanda günəş buludların arxasında idi.
* Türbənin içi getdikcə qaranlıqlaşdığından çiçəklər görünmürdü.
* Mübariz İbrahimov vətən uğrunda canından keçdi.

1. səbəb zərfliyi 2. məqsəd zərfliyi
3. zaman zərfliyi 4. tərzi-hərəkət zərfliyi

25. Verilmiş cümlə ilə bağlı cədvəldəki uyğun fikirləri müəyyən edin.

Təbiətlə insan qəlbi arasında körpü rolunu oynayan birləşdirici bir aləm də var ki, bu, ədəbiyyat və incəsənətdir. (Əbu Turxan)

1.	Baş cümləsi budaq cümləsindən əvvəl işlənmiş tabeli mürəkkəb cümlədir.	doğru
2.	Həm baş, həm də budaq cümlənin mübtədası isimlə ifadə olunmuşdur.	yanlış
3.	Tabesizlik əlaqəsi yalnız baş cümlədə işlənmişdir.	doğru
4.	Baş cümlədə həm tabelilik, həm də tabesizlik bağlayıcısı işlənmişdir.	doğru
5.	Budaq cümlənin xəbəri söz birləşməsi ilə ifadə olunmuşdur.	doğru
6.	Baş cümlədə həm söz, həm də söz birləşməsi ilə ifadə olunmuş təyin işlənmişdir.	yanlış

Əlavələrlə bağlı düzgün ardıcıllığı müəyyən edin.

* Qarşıda – Şahdağın ətəyində əsrarəngiz bir mənzərə canlanırdı.
* Uzaqlara – heç kimin əlinin çatmadığı bir yerə getmək onun çoxdankı arzusu idi.
* Məktəbin həyətinə toplaşanların – doqquzuncuların çoxu buraxılış imtahanında yüksək bal toplayan şagirdlərdir.
* Yaşasın səadət – o yaz səhəri.
* Evimiz orada – çayın qırağında idi.

1. İsmi birləşmənin asılı tərəfinin əlavəsi işlənmişdir.
2. Feili birləşmənin asılı tərəfinin əlavəsi işlənmişdir.
3. Mübtədanın əlavəsi işlənmişdir.
4. Yer zərfliyinin əlavəsi işlənmişdir.
5. Xəbərin əlavəsi işlənmişdir.

27. Uyğunluğu müəyyən edin.

* Öldürücü zərbə
* Böyüklüyün göstəricisi
* Unutqanlığın sonu

1. Verilmiş ifadələrin hər üçünə aid xüsusiyyətdir.
2. Verilmiş ifadələrin ikisinə aid xüsusiyyətdir.
3. Verilmiş ifadələrdən yalnız birinə aid xüsusiyyətdir.

a. Asılı tərəfi sifətdən düzəlmiş isimlə ifadə olunmuşdur.
b. Nə asılı, nə də əsas tərəfdə qrammatik şəkilçi işlənmişdir.
c. Əsas tərəfi üçüncü şəxsin mənsubiyyət şəkilçisini qəbul etmişdir.
d. Həm əsas, həm də asılı tərəfi düzəltmə sözlə ifadə olunmuşdur.
e. Kökü feil olan düzəltmə söz işlənmişdir.

Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları Cavab vərəqində yerinə yetirin.

Çernobıl faciəsi

1986-cı il aprelin 26-da Ukrayna Sovet Sosialist Respublikasının paytaxtı Kiyev şəhəri yaxınlığında yerləşən Çernobıl Atom Elektrik Stansiyasının 4 nömrəli enerji blokunun reaktorunda qəza **baş verir**. Güclü partlayış reaktoru əhatə edən qoruyucu örtüyü dağıdır və yanğına səbəb olur.

Yanğını söndürmək və şüalanmanın qarşısını almaq məqsədilə stansiyaya dərhal ordu qüvvələri və helikopterlər cəlb olunub. Eyni zamanda, SSRİ-nin hər yerindən on minlərlə "könüllü" də bu əməliyyatlara qoşulur. Qəzanın nəticələrinin aradan qaldırılması işləri 9 gün davam edir və partlayış baş verən 4-cü blokun üzərinə 5 min tondan çox qum, çınqıl tökülür. Qəzalı blok dəmir-beton hissələri ilə örtülür.

Radioaktiv şüalanma partlayış baş verən anda minlərlə kilometr məsafəyə yayılır. Qəza zonasına yaxın ərazilərdə yaşayan insanlar şüalanmaya məruz qalan ərazidən uzaqlaşdırılır və stansiya ətrafında Pripyat və Çernobıl şəhərlərinin də daxil olduğu 30-kilometrlik radiusda "təcrid zonası" yaradılır.

I Xilasetmə işlərində iştirak edən digər insanlar da ağır şüalanmaya məruz qalıblar. II Rəsmi məlumatlara görə, onların 15 mindən artığı bir neçə ildən sonra şüalanma nəticəsində **dünyasını dəyişib**. III Qeyri-rəsmi məlumatlara görə isə bu rəqəm 95-100 min arasındadır. IV Çernobıl AES-də qəzanın nəticələrinin aradan qaldırılması əməliyyatlarına ümumilikdə 650 min insan cəlb edilib.

Partlayışdan sonra yaranmış radioaktiv buludun böyük hissəsi Şərqi Avropaya doğru hərəkət edib və bu ərazilərin ekoloji vəziyyətinə ciddi təsir göstərib. AES-in partlamış bloklarının təhlükəsizliyini təmin etmək üçün keçirilən əməliyyatlarda 15 mindən çox azərbaycanlı da iştirak edib ki, onların da böyük əksəriyyəti 1-ci qrup əlildir.

Həmin bölgədə və qonşu ərazilərdə yaşayan təxminən 6-8 milyon insan da müxtəlif dərəcədə şüalanmaya **məruz qalmışdır**.

28. Mətnə əsasən cədvəli doldurun.

Tünd hərflərlə verilmiş ifadələr	Həmin ifadələrin kontekstə uyğun qarşılığı	Həmin qarşılığın başqa cümlədə işlədilməsi

29. Mətnə əsasən ***yanlış*** fikri və ya fikirləri müəyyən edin və seçiminizi əsaslandırın.

1. Bəzən işçilərin səhlənkarlığı minlərlə insanın faciəsinə səbəb olur.

Əsaslandırma .....

2. Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəza nəticəsində yaranan şüalanmanın insanlara mümkün təsirinin aradan qaldırılması üçün doqquz gün kifayət etmişdir.

Əsaslandırma .....

3. Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın təhlükəsizliyini təmin etmək üçün keçirilən əməliyyatlarda iştirak edən insanların bir çoxu ya dünyasını dəyişib, ya da əlil olub.

Əsaslandırma .....

30. Qarşısında roma rəqəmi yazılmış hansı cümlələrin yeri dəyişdirilsə, cümlələr arasında pozulmuş məna əlaqəsi bərpa olunar?

TARİX


Mövzular üçün | Video həllər üçün | Cavablar üçün

31. Hərbi kommunizm və kollektivləşdirmə siyasətinin tətbiq olunduğu illərdə Şimali Azərbaycanda:
1. Əhalinin istehsal etdiyi məhsulun artığı zorla müsadirə olunurdu
2. İstehsalçının iqtisadi marağı azalmışdı
3. Xırda kolxozlar iri təsərrüfatlarda birləşdirilmişdi
4. Bir sıra ərazilərdə kəndli çıxışları baş vermişdi
5. Kəndlilərdən ərzaq vergisi yığılırdı

A) 1, 2, 4 B) 3, 4, 5 C) 2, 3
D) 1, 4 E) 2, 3, 4

32. E.ə. VII əsrin birinci yarısında Midiyada müstəqillik uğrunda hərəkatın baş verməsinə təsir göstərdi:
A) Midiya ərazisində yeni dini təlimin yayılmağa başlaması
B) Assurların Manna və İskitlərin birləşmiş qoşunlarına məğlub olması
C) İskit hökmdarı İşpakayın ölümü
D) Əhəmənilərin vergi və mükəlləfiyyətləri artırması
E) Midiyada İskitlərin ağalığının hökm sürməsi

33. Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin.




a. Mərkəzi Asiyanın tabe edilməsi
b. Franklarla diplomatik əlaqələrin saxlanılması
c. Hindistana hərbi yürüş təşkil olunması
d. Xələclər sülaləsinin qoşunlarına məğlub olmaları
e. Şeybanilərə qarşı mübarizə aparılması

A) 1-c; 2-a; 3-e; 4-b, d B) 1-b; 2-c; 3-d; 4-a, e
C) 1-a; 2-d; 3-b, e; 4-c D) 1-e; 2-b; 3-a; 4-c, d
E) 1-b; 2-d; 3-e; 4-a, c

34. XX əsrin əvvəllərində Şimali Azərbaycanda dövlət kəndliləri üçün keçirilən islahata əsasən:
A) Kəndlilərin üzərinə hərbi vergi adlanan əlavə mükəlləfiyyət qoyuldu
B) Neft quyularına təhkim edilmiş kəndlilərin məcburi əməyi ləğv olundu
C) Kəndlilərin nəsli istifadəsinə verilən torpaqların sahələri dəqiqləşdirildi
D) Seçkili orqan olan vahid Kənd İdarəsi yaradıldı
E) Dövlət kəndliləri xüsusi torpaq mülkiyyətçisinə çevrildi

35. Xəritə və cədvələ əsasən düzgün bəndləri müəyyən edin.



	Xanlıqlar	*Oxşarlıqlar*
I	1, 2, 5	Əfşar tayfasından olan xan tərəfindən əsası qoyulmuşdu
II	1, 3	Şəki xanına qarşı gürcü çarı ilə birgə ittifaqa daxil olmuşdu
III	2, 3, 4	Təbriz xanlığını özündən asılı hala salmışdı

IV	3, 4	Şamaxı xanlığı ilə mübarizə aparmışdı
V	2, 3	Qaradağ xanlığının bölüşdürülməsində iştirak etmişdi

A) I, II, III B) III, IV C) II, V
D) I, II, IV E) I, III

36. 1939-cu ilin noyabrında sovet qoşunları Finlandiyaya hücum etdi. Qış müharibəsi adlanan və 1940-cı ilin martında başa çatan bu müharibə nəticəsində SSRİ Baltik sahillərindəki bəzi əraziləri işğal etdi. 1940-cı ildə SSRİ Baltik ölkələrini: Estoniya, Latviya və Litvanı ələ keçirdi. Bessarabiya Rumıniyadan alındı.

Mətnə əsasən, hansı nəticələrə gəlmək olar?

1. Avropa dövlətləri SSRİ-nin qərb sərhədlərini tanıdı
2. SSRİ Millətlər Cəmiyyətindən çıxarıldı
3. Keçmiş Rusiya imperiyasının qərb sərhədləri bərpa olundu
4. Finlandiya sovet qoşunları tərəfindən işğal edildi

A) 1, 3 B) 2, 3 C) 3, 4 D) 1, 2 E) 2, 4

37. Göstərilənlər aiddir:

– *Azərbaycanın cənubunda yeni dövlətin əsasını qoymuşdu*
– *Şərqi Gürcüstanı tabe etmişdi*
– *"Qanunnamə" hazırlamışdı*

A) Yusif ibn Əbu Sac və Qara Yusifə
B) Mərzban ibn Məhəmməd və Uzun Həsənə
C) Heysam ibn Xalid və Cahanşaha
D) Məhəmməd ibn Şəddad və Sultan Əhmədə
E) Əbülhica və Əbüləsvar Şavura

38. Müqayisə cədvəlindəki Cənubi Azərbaycanda milli-demokratik hərəkata aid doğru fikirləri müəyyən edin.


Şeyx Məhəmməd Xiyabani	***Seyid Cəfər Pişəvəri***
1. Varlıların üzərinə" müharibə xərci" adlanan verginin qoyulması 2. Kəndlilərin hesabına milli qvardiyanın yaradılması	3. "Təcəddüd" qəzetinin nəşr olunması 4. "Əmək haqqında" Qanunun qəbul edilməsi
5. Cənubi Azərbaycana muxtariyyət verilməsi uğrunda mübarizə aparılması 6. Qacarlar sülaləsinə qarşı milli-azadlıq hərəkatına başçılıq etməsi	

A) 2, 4, 5 B) 1, 2 C) 1, 4, 5 D) 3, 5 E) 2, 3, 6

39. Birinci Göytürk, Qaraxanlı və Səlcuq dövlətləri üçün ümumi cəhət:

A) Bizans üzərinə uğurlu hücum təşkil etmələri
B) İslam dinini rəsmi şəkildə qəbul etmələri
C) Aşina nəslinə mənsub olmaları
D) Abbasi xəlifəsi ilə dostluq əlaqələri saxlamaları
E) Ərazi bütövlüyü pozularaq iki hissəyə parçalanmaları

40. Uyğunluğu müəyyən edin.



a. İlk milli sərhəd qoşunlarının yaradılması
b. Surət Hüseynovun başçılığı ilə hərbi qiyamın baş verməsi
c. "Böyük İpək yolu" Beynəlxalq konfransın keçirilməsi
d. Xüsusi İdarə Komitəsinin fəaliyyət göstərməsi
e. TANAP-ın açılış mərasiminin keçirilməsi

A) 1-a; 2-d; 3-c B) 1-c, e; 2-a; 3-b
C) 1-c; 2-a; 3-b D) 1-a; 2-c; 3-b
E) 1-b, c; 2-a; 3-d

41. Daha sonra baş vermişdir:

A) Şah I Təhmasibin Şərqi Anadoluya yürüş təşkil etməsi
B) Əbhər sazişinin imzalanması
C) Səfəvilərin Şəməsi döyüşündə məğlubiyyətə uğradılması
D) Cahanşahın Heratda Teymurilərlə barışıq imzalaması
E) Əlqas Mirzənin Şirvanda qiyam qaldırması

42. Hadisə-nəticə əlaqəsinin doğru verildiyi bəndləri müəyyən edin.

1. Berlin konqresinin çağırılması – Osmanlı dövlətinin ilk dəfə xarici dövlətlərdən borc alması
2. Taypinlər üsyanının baş verməsi – Çində Mancur sülaləsinin devrilməsi
3. Almaniyanın birləşdirilməsi – Avropada yaranmış "güc tarazlığı"nın dəyişməsi
4. Stolıpinin siyasi islahatlar həyata keçirməsi – İcma torpaqlarının kəndlilər arasında bölüşdürülməsi

5. Yaponiyanın təcrid siyasətinin ləğv olunmasına çalışılması – ABŞ-nin Simoda və Hakodate limanlarına girmək hüququ əldə etməsi

A) 1, 2 B) 3, 5 C) 2, 4 D) 4, 5 E) 1, 3

43. Neolit dövründə müxtəlif sənət sahələrinin meydana gəlməsinə şərait yaratmışdı:

A) Qəbilənin həyatında qadının mühüm rol oynaması
B) Metalla ilk tanışlıq
C) Əkinçiliyin maldarlıqdan ayrılması
D) Əhalinin oturaq həyata keçməsi
E) İstehsal təsərrüfatına keçidin əsasının qoyulması

44. Qubalı Fətəli xanın Hacı Çələbi xan ilə oxşar, Fətəli xan Əfşardan ***fərqli*** cəhətini müəyyən edin.

A) Şamaxı xanlığının bölüşdürülməsi
B) Səfəvi dövlətinin sərhədlərinin bərpa olunması
C) Osmanlı dövləti ilə müttəfiqlik münasibətinin saxlanılması
D) Azərbaycanın cənub xanlıqlarının tabe edilməsi
E) Qarabağ xanlığına uğursuz hərbi yürüş təşkil olunması

45. Uyğunluğu müəyyən edin.

	Müqavilə	Nəticə
1.	?	Rusiya Baltik dəniz sahillərinə çıxış əldə etdi
2.	?	Osmanlı dövləti Krım xanlığının müstəqilliyini tanıdı
3.	?	Kanada İngiltərənin müstəmləkəsi olaraq qaldı

A) 1-Peterburq, 2-Prut, 3-Paris
B) 1-Yassı, 2-Versal, 3-İstanbul
C) 1-Niştadt, 2-Kiçik Qaynarca, 3-Paris
D) 1-Vestfaliya, 2-Ədirnə, 3-Prut
E) 1-Buxarest, 2-Yassı, 3-San-Stefano

46. I Rus inqilabı dövrünə aid ***deyil:***

A) Çar hökumətinin Azərbaycanda milli qırğın siyasətinə əl atması
B) Ə.Topçubaşovun rəhbərliyi ilə ərz-hallar hazırlanması
C) Peterburqda Müsəlmanların II Qurultayının keçirilməsi
D) Məmmədyusif Cəfərovun IV Dövlət Duması-na deputat seçilməsi
E) "Nəşri-maarif" və "Nicat" cəmiyyətlərinin yaradılması

47. Məntiqi ardıcıllığı müəyyən edin.

1. Vestfaliya sülhünün imzalanması
2. Otuzillik müharibənin başa çatması
3. .....


A) Yalnız Kale limanının ingilislərdə qalması
B) Almaniyanın siyasi dağınıqlığının rəsmiləşdirilməsi
C) İspaniyanın Qərbi Avropada üstünlüyü ələ alması
D) Katolik kilsəsinin rəsmi olaraq bölünməsi
E) Avropada rekonkista hərəkatına son qoyulması

48. Tarixi şəxsiyyətlər üçün ortaq cəhəti müəyyən edin.

– *İstəmi xan*
– *Cavanşir*
– *Fəzl ibn Məhəmməd*

A) Ərəb xilafətindən asılılığın qəbul edilməsi
B) Bizans ilə diplomatik əlaqələrin saxlanılması
C) Sasanilər üzərində qələbə qazanılması
D) Xəzərlərə qarşı uğurlu mübarizə aparılması
E) Slavyanların basqınlarına qarşı tədbirlərin görülməsi

49. Xəritədə işarələnmiş dövlətin ABŞ ilə bağlı siyasətinə uyğun olan hadisələri müəyyən edin.



1. XIX əsr	2. XX əsr
a. Brian-Kelloq paktının imzalanması	a. Marşall planına əsasən, ABŞ-dən iqtisadi yardım əldə etməsi
b. Luiziananı ABŞ-yə satması	b. ABŞ-nin İraqda apardığı "Səhrada tufan" adlı əməliyyatlarında iştirak etməsi
c. ABŞ-nin müstəqilliyini tanıması	c. Şarl de Qollun ABŞ ilə əməkdaşlığı daha da artırması

A) 1-a, c; 2-a, b
B) 1-a, b; 2-a
C) 1-a; 2-c
D) 1-b, c; 2-b
E) 1-b; 2-a, b

50. XIX əsrin əvvəlində Şəki ətrafında ermənilərdən ibarət bir neçə kəndin salınması ilə nəticələndi:
A) Hüseyn xanın sui-qəsd nəticəsində öldürülməsi
B) Türkmənçay müqaviləsinə əsasən, ermənilərin Azərbaycanda məskunlaşması
C) Xoylu Cəfərqulu xanın köçürmə siyasəti
D) Şəkidə yerli bəylərdən ibarət Əyalət şurasının yaradılması
E) Fətəli xan Əfşarın Şəki xanlığını asılı hala salması

51. Böyük Hun dövləti və Uyğur xaqanlığı:
1. Tibet tayfaları ilə mübarizə aparmışdı
2. Çinin ticarət yollarına nəzarəti ələ keçirmişdi
3. Göytürk dövlətinin yaradılmasında mühüm rol oynamışdı
4. Xan sülaləsinin hökmdarından hər il xərac alırdı
A) 1, 3 B) 3, 4 C) 2, 3 D) 1, 2 E) 2, 4

52. XIX əsrin 70-80-ci illərində Azərbaycanın təhsil sahəsi ilə bağlı buraxılmış fikirləri müəyyən edin.

Bakıda ilk qız gimnaziyasının fəaliyyətə başlaması	?	Bakıda ilk rus-tatar məktəbinin açılması	?

1. Avropa tipli dünyəvi məktəblərin əsasının qoyulması
2. İrəvanda Müəllimlər seminariyasının açılması
3. Şamaxıda ilk dəfə "üsuli-cədid" məktəbinin təşkil olunması
4. Kənd əhalisi üçün məktəblərin yaradılması
A) 1, 2 B) 2, 3 C) 3, 4 D) 1, 3 E) 2, 4

53. Doğru ***olmayan*** bəndləri müəyyən edin.
1. Səfəvi şahının yanında qanunverici orqan – Ali məclis fəaliyyət göstərirdi.
2. XVII əsrdə bəylərbəyiliyə daxil olan mahalları naib idarə edirdi.
3. Vəkil şahın dini və dünyəvi işlər üzrə tamhüquqlu müavini idi.
4. Səfəvi ordusunun əsasını çərik adlanan dəstələr təşkil edirdi.

54. Xronoloji ardıcıllığı müəyyən edin.
1. Hastinqs döyüşünün baş verməsi
2. Qurlu tayfasının Qəznəli dövlətinə son qoyması
3. Papa II Urbanın Klermonda çıxış etməsi
4. Xorasanın tamamilə səlcuqların hakimiyyəti altına düşməsi

55. Sasani şahı I Xosrov və Elxani Qazan xanın fəaliyyəti üçün ümumi cəhət:
1. Xristianların cizyə vergisindən azad edilməsi
2. Vergiyığan məmurların özbaşınalığına son qoyulması
3. Müsəlman din xadimlərinin himayə olunması
4. İstifadəsiz torpaqların hərbiçilərə paylanılması

56. Vətən müharibəsi dövründə Azərbaycanın apardığı uğurlu xarici siyasəti nəticəsində:
1. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı müharibəyə müdaxilə etməməyi bəyan etdi.
2. "Valday" Beynəlxalq Diskussiya Klubunun sessiyasında Qarabağ ərazisi Azərbaycanın tərkib hissəsi olaraq tanındı.
3. BMT-nin Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə qətnamə layihəsinin qəbul edilməsinin qarşısı alındı.
4. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yaradılmış ATƏT-in Minsk qrupu ləğv edildi.

57. Uyğunluğu müəyyən edin.
Avropada Reformasiya:
1. Almaniya 2. İngiltərə 3. Fransa
a. V Karl katolikliyi müdafiə edirdi
b. Kalvinizm rəsmiləşdirildi
c. Katoliklik və protestantlığın birləşməsi nəticəsində yeni kilsənin əsası qoyuldu
d. Kral kilsənin başçısı elan edildi
e. Ölkənin siyasi parçalanması gücləndi

Sizə təqdim olunmuş mənbəni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları cavab kağızında yerinə yetirin.

ABŞ hökuməti qarşısında təxirəsalınmaz və vacib bir xarici siyasət məsələsi dayanır. Bu məsələ Yunanıstan və Türkiyəyə yardım göstərilməsi ilə bağlıdır. Bu iki ölkə, hal-hazırda ciddi təhdidlər və daxili qarışıqlıqlarla üz-üzədir. Hər iki ölkə öz suverenliklərini qorumaqda çətinlik çəkir. ABŞ bu ölkələrə yardım göstərməsə, bu, onların siyasi və iqtisadi sistemlərinə, nəticə etibarilə isə dünya sülhünə və ABŞ-ın təhlükəsizliyinə zərər verə bilər. .... Dünya indi iki fərqli həyat tərzi arasında seçim qarşısındadır: Birincisi azadlıq, demokratik quruluş və fərdi haqların qorunması üzərində qurulmuşdur. İkincisi isə azad iradənin zorla əzildiyi, azad söz və fikrin boğulduğu totalitar sistemlərdir. .... Amerika xalqı bu seçimdə tərəfsiz qala bilməz.

58. Mənbədə bəhs edilən dövrdə hansı amillər Yunanıstan və Türkiyənin siyasi vəziyyətini çətinləşdirmişdi? (ən azı iki amil yazın)

59. H.Trumen dünya xalqlarının iki müxtəlif həyat tərzindən bəhs edərkən hansı ideoloji qarşıdurmaya işarə edirdi?

60. H.Trumenin Konqresə etdiyi müraciət XX əsrin 30-cu illərindən ***fərqli*** olaraq, ABŞ xarici siyasətində hansı dəyişikliyin baş verdiyini göstərirdi?

ƏDƏBİYYAT

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

61. C.Cabbarlının "Oqtay Eloğlu" əsərindən seçilmiş hissələrin müqayisəsi ilə bağlı fikirlərdən hansılar doğrudur?

I – F i r ə n g i z. Gəldim, artıq arxam bir uçurumdur, geri dönə bilmərəm, çəkilin! Zəhərli gülüşlər altında yüngül bir yaramaz kimi geri qayıtmaqdansa...

II – O q t a y. Müztərib yavru! Ona yer verin, sabah axşam oynayıram.

1. Hər iki fikir çarəsizlikdən verilən qərarı əks etdirir.
2. Birinci fikir tərəddüd, ikinci fikir təzyiq nəticəsində yaranır.
3. Hər iki fikir Xaspoladın planlarına uyğun gəlir.
4. Aslan bəy hər iki qərarın verildiyi səhnədə iştirak edir.

A) 1, 4 B) 2, 3 C) 1, 2 D) 1, 3 E) 2, 4

62. S.Vurğunun "Vaqif" əsərində iştirak edən surətlərdən hansına aid məlumat ***verilməmişdir?***

- Xalqına xəyanət edib işğalçılara kömək edən şəxsi cəzalandırır.
- Vaqifin məktubunu Eldara çatdırır.
- Xidmət etdiyi şəxsə nifrəti ilə yadda qalır.
- Bacarıqsızlığı, öz fikrinin olmaması ilə diqqət çəkir.

A) Vidadi B) Gülnar C) Əli bəy
D) Zülfüqar E) Qacarın vəziri

63. İ.Əfəndiyevin "Xurşidbanu Natəvan" əsəri ilə bağlı cədvəldəki ***səhv*** fikri müəyyənləşdirin.

SƏBƏB	NƏTİCƏ
İran şahzadəsi öldürülür.	A) Mixaylov tutduğu vəzifədən çıxarılır, Azərbaycandan getməli olur.
	B) Məliküldövlə arxasız, dayaqsız qalır.
	C) Baş verənlərə görə Canışin Qarabağa gəlir.
	D) Muradalının, Seyid Hüseynin bu işdə əli olduğu şübhəsi yaranır.
	E) "Məclisi-üns"ün üzvləri sorğu-suala tutulur.

64. N.Vəzirovun "Müsibəti-Fəxrəddin" əsərindən seçilmiş surətlərdən hansının gəldiyi qərara sona kimi sadiq qalmadığı, fikrini dəyişdiyi müşahidə olunur?
A) Əhməd B) Səadət C) Məhərrəm
D) Rüstəm bəy E) Vəli

65. R.Rzanın yaradıcılığına aid edilmiş əsərlərdən hansı **səhv** təqdim olunmuşdur?
A) "Vəfa" – Dramatik növdədir, müharibə mövzusundadır.
B) "Bolşevik yazı" – Bu şeir fərqli üslubu ilə seçilir, ədəbiyyata yeni nəfəsli müəllifin gəldiyindən xəbər verir.
C) "Xalq şairi" – Poemadır, M.Ö.Sabirə həsr olunmuşdur.
D) "Mən torpağam" – İnsana bəslənən dərin hörmət ifadə olunmuşdur.
E) "Bəxtiyar" – Müharibə mövzusunda yazılmış epik əsərdir.

66. Cədvəldəki doğru fikri müəyyənləşdirin.

	Hadisə	*Dəstəkləyir*	*Qarşı çıxır*
A)	Nurəddinin Əmiraslanın evinə aparılmaması (S.S.Axundov. "Nurəddin")	İmamverdi baba	Gülpəri
B)	Aşiqin fikrini məktub vasitəsilə bildirməsi (Ş.İ.Xətayi. "Dəhnamə")	Səba	Bağban
C)	Oqtayın yenidən səhnəyə qayıtmaq istəyi (C.Cabbarlı. "Oqtay Eloğlu")	Firəngiz	Şəkinski
D)	Pristavın kənd torpaqlarını qoruq etmək istəməsi (İ.Şıxlı. "Dəli Kür")	Molla Sadıq	Cahandar ağa
E)	Koroğlunun Toqata tək getmək istəməsi ("Həmzənin Qıratı qaçırması" qolu)	Nigar xanım	dəlilər

67. H.Cavidin "Ana" əsərindən seçilmiş hadisələrin ardıcıllığını müəyyənləşdirin.
1. İzzət düşmənə xor baxmamaq lazım gəldiyini deyir.
2. Səlim xəncərlə bağlı hadisələri öyrənir.
3. İntiqam almağın lazım olmadığı vurğulanır.
4. Səlma ana Qanpoladı görür.
A) 2, 1, 4, 3 B) 3, 2, 1, 4 C) 2, 4, 3, 1
D) 1, 2, 4, 3 E) 1, 4, 3, 2

68. ***Səhv*** fikri müəyyənləşdirin.
A) M.Ö.Sabirin "Əkinçi" şeirində həm mülkədarın, həm də əkinçinin fikirləri eyni surətin dili ilə çatdırılmışdır.
B) M.Müşfiqin "Həyat sevgisi" şeirində təbiətin müəllifə yaşamaq üçün ilham verdiyi müşahidə olunur.
C) A.Şaiqin "Anabacı" əsərində təsvir olunan hadisələr obrazın təhkiyəsi ilə verilmişdir.
D) E.Heminqueyin "Qoca və dəniz" əsərində insanın məğlubiyyətinə təsir göstərən səbəblərə toxunulmuşdur.
E) Aşıq Ələsgərin "Dağlar" rədifli hər iki şeirində təbiət gözəlliklərinə toxunulmuşdur.

69. Mir Cəlalın "Açıq kitab" romanı ilə bağlı fikirlərdən hansı doğrudur?
A) Yalnız mənfi surətlər soyadla təqdim olunmuş, bununla diqqət onlara yönəldilmişdir.
B) Romanda tənqid, ifşa, satirik ruhla yanaşı, lirik motivlər və məqamlar da vardır.
C) Vahidin şəxsi intiqam hissi Gəldiyev kimilərin məğlubiyyətinə səbəb olur.
D) Əsərin ideya-bədii keyfiyyəti əsas götürülmüş, surətlərin mənəvi dünyasının təsvirinə yer verilməmişdir.
E) "Mənsəb cəhənnəmin təkində də olsa, enməyi bacar" cümləsi ilə mübarizlik aşılanmışdır.

70. Doğru fikirləri müəyyənləşdirin.
N.Gəncəvinin "İskəndərnamə" poemasında İskəndər...
1. yanındakılara tapşırır ki, Daraya hücum üçün əlverişli məqam tapıb ona xəbər versinlər.
2. hakimiyyətə gələn kimi üç alimdən onun üçün nəsihətnamə yazmağı istəyir.
3. ilk döyüşünü Misirdə zənciləra, son döyüşünü şimal torpağında yəcuclara qarşı keçirir.
4. peyğəmbərlik səfərinə çıxarkən anasına xalqla yaxşı rəftar etməyi tapşırır.
5. ölüm anının yaxınlaşdığını hiss edəndə dostlarına müraciət edib keçmişdə etdiklərindən bəhs edir.
A) 1, 2, 3 B) 2, 4 C) 2, 3, 5
D) 1, 4 E) 4, 5

71. Elçinin "Talvar" əsəri ilə bağlı fikirlərdən hansılar ***səhvdir?***

1. Öz əli ilə əkdiyi üçün tut ağacı Əliabbas kişi üçün qiymətli idi.
2. Tut ağacının ikiyə bölünməsindən sonra Molla Fərzəlinin xəbəri eşidib gəlməsi əsərin kulminasiyası hesab oluna bilər.
3. Əliabbas kişi həyatlərinin qarşısında düzəltmək istədiyi skamyanın onun son dülgərlik işi olacağını düşünürdü, amma elə olmur.
4. Əliabbas kişinin ailəsi ağır sınaqlardan keçmişdi, oğulları müharibəyə yollanıb sağ-salamat qayıtmışdılar.
5. Oğullarının etirazı Əliabbas kişini alətləri satmaq fikrindən daşındırır.

A) 1, 2, 5 B) 1, 4, 5 C) 3, 4, 5
D) 1, 2, 3 E) 2, 3, 4

72. M.P.Vaqifin "Pəri" qoşması ilə bağlı fikirlərdən doğru olanları seçin.

1. Şeirin konkret tərənnüm obyekti yoxdur, Azərbaycan gözəllərinə həsr olunmuşdur.
2. Haqqında danışılan gözəlin görünməsi günəşin çıxmasına bənzədilmişdir.
3. Şeirdəki gözəlin daxili aləmi və görünüşü arasında təzad yaradılmışdır.
4. Lirik qəhrəman gözəlliyini, gülüşünü tərənnüm etdiyi gözəli unutmadığını deyir.
5. Şeir müəllifin təəssüf ifadə edən fikirləri ilə tamamlanır.

A) 1, 5 B) 3, 4 C) 2, 4 D) 1, 3 E) 2, 5

73. M.Şəhriyarın əsərlərinin müqayisəsi ilə bağlı cədvəlin doğru olması üçün hansı fikirlərin yeri dəyişilməlidir?

"Türkün dili"	**"Heydərbabaya salam"**
1. Janrının tələbinə uyğun olaraq müəllifin adına yer verilmişdir. 2. Müəllifin tanıdığı bir sıra şəxslərin adları çəkilmişdir. 3. Rədifli şeirdir.	4. Eyni qafiyə quruluşuna malik bəndlər şəklindədir. 5. Müraciət şəklində yazılmışdır. 6. Ana dilimizin digər dillərə təsir etməsindən bəhs olunur.

A) 2 – 5 B) 1 – 4 C) 3 – 6
D) 2 – 4 E) 2 – 6

74. C.Məmmədquluzadənin "Anamın kitabı" əsəri ilə bağlı uyğunluğu müəyyənləşdirin.

	Fikir	Doğru / Yanlış
1.	Cəmiyyəti-xeyriyyənin yığıncağında dil məsələsi ilə bağlı mübahisədə Mirzə Məhəmmədəli və Zivər xanımın fikirləri üst-üstə düşür.	Doğru
2.	Senzorun axtarışdan sonra səsləndirdiyi fikirlər Rüstəm bəyin özləri haqqında düşünməsinə səbəb olur.	Doğru
3.	Yazdığı lüğətin Avropa mənbələrinə əsaslanmasını istəyən Rüstəm bəy başqa mənşəli fikirlərin ora düşməsini istəmir.	Yanlış
4.	Anasını incitdiyinə görə üzrxahlıq edən Rüstəm bəy həm də mübahisələrinin kitablar üstündə olduğunu etiraf edir.	Yanlış
5.	Senzorun yoxlaması zamanı qardaşlar özlərini fərqli soyadlarla təqdim edirlər.	Doğru

A) 1, 2, 5 B) 2, 3, 5 C) 1, 3, 4
D) 1, 2, 4 E) 3, 4, 5

75. Nümunədə hansı bədii təsvir və ifadə vasitələri işlənmişdir?

Mənim körpə dənizim...
Dolaşır ayağıma dalğalar uşaq kimi.
Mənim dəli dənizim...
Sənə küsəm, inciyəm
Sən bilmirsən, bəlkə də,
anlamırsan sevgimi.
(Gülsadə)

1. epitet 2. inversiya 3. təşbeh
4. metafor 5. mübaliğə 6. metonimiya

A) 2, 4, 5, 6 B) 1, 2, 5 C) 1, 2, 3, 6
D) 1, 2, 3, 4 E) 3, 4, 5

76. Nümunə ilə bağlı fikirlərdən hansılar doğrudur?

Fürsət əldə ikən yaxşılıq elə,
Həmişə əlində ixtiyar olmaz.
Gəl güvənmə dövlətinə, malına,
Mala, mülkə, ömrə etibar olmaz.

1. Qoşma janrındadır, şeirin ilk bəndidir.
2. Bəndin bütün misralarında inversiya işlənmişdir.
3. Şeirdə rədifdən istifadə olunmuşdur.
4. Üçüncü misranın daxili bölgüsü digərlərindən fərqlənir.

GÜVƏN NƏŞRLƏRİ

5. Hecaların sayına görə bəndin təcnisə aid olmadığını demək mümkündür.
A) 2, 3, 5 B) 1, 3, 4 C) 1, 4, 5
D) 2, 3, 4 E) 1, 2, 5

77. Verilənlərdən biri M.F.Axundzadənin "Hekayəti-müsyö Jordan və dərviş Məstəli şah" komediyasından seçilmiş "*Arvad, dəxi nə eləyək, qoy gətsin. Papağın çevirərsən, il gələr keçər*" cümləsinin baş verdiyi epizoddan sonra yaşananların nəticəsi hesab oluna ***bilməz:***
A) Şəhrəbanu xanım Xanpəri ilə məsləhətləşməyə qərar verir.
B) Əsərin qadın surətləri aldadılırlar.
C) Məstəli şahın "köməy"inə ehtiyac duyulur.
D) Şəhrəbanu xanım Hatəmxan ağaya etirazını bildirir.
E) Şahbaz bəy qayıdanda Şərəfnisə üçün hədiyyə almaq fikrinə düşür.

78. Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm dövrü ilə bağlı fikirlərdən hansı ***səhvdir?***
A) İlk dəfə olaraq mətbuat orqanının adı ilə bağlı ədəbi məktəb yaranmışdır.
B) Realist bədii nəsrin əsası bu dövrdə qoyulmuşdur.
C) Satirik şeir özünün ən yüksək inkişaf mərhələsində çatmışdır.
D) Tragikomediyanın ilk nümunələri yazılmışdır.
E) Satirik və yumoristik hekayələr yazılmış, hekayə dövrün əsas janrı olmuşdur.

79. İ.Nəsiminin yaradıcılığı ilə bağlı fikirlərdən hansılar ***səhvdir?***
1. Ədəbi növlərdən yalnız birinə müraciət etmişdir.
2. Hürufilik mövzusuna heca vəznində şeirlərində də toxunmuşdur.
3. "Mənəm, mən" şeiri qəzəl janrındadır, təriqət şeirlərindən biridir.
4. "Sığmazam" qəzəli lirik qəhrəmanın monoloqu kimi səslənir.
5. Müraciət etdiyi mövzular N.Gəncəvi yaradıcılığında yer tutan mövzularla eynilik təşkil edir.
A) 1, 2 B) 4, 5 C) 2, 5 D) 1, 3 E) 3, 4

80. İ.Şıxlının "Dəli Kür" əsərindən seçilmiş hissə ilə bağlı cədvəldəki uyğunluğu müəyyənləşdirin.
– *Bağışlayın, Siz Çernyayevski deyilsiniz ki, Aleksey Ostpoviç?*
– *Bəli, düz tapmısınız. Bəs Siz mənim adımı hardan bilirsiniz?*

Hissə ilə bağlı doğru fikirdir	Hissə ilə bağlı yanlış fikirdir
1. Cahandar ağanın gəlişi ilə dialoq yarıda qalır. 2. Dialoqun gedişində Əşrəfin adı çəkilir. 3. Hadisə Göytəpədə, "Zayej" adlanan yerdə baş verir.	4. Bu dialoqdan sonra kəndbəkənd gəzib uşaq yığmaq qərara alınır. 5. Dialoq Çernyayevskinin ümidsizliyə düşməsi ilə nəticələnir. 6. Dialoqda iştirak edən tərəflər ilk dəfə görüşürlər.

A) 1, 2, 5, 6 B) 2, 4, 6 C) 1, 3, 4, 6
D) 2, 3, 4, 5 E) 1, 3, 5

81. Ə.Cavadın "Azərbaycan bayrağına" şeirindən seçilmiş bəndlə bağlı fikirlərdən hansılar doğrudur?
Köksümdə tufanlar gəldim irəli,
Öpüm kölgən düşən mübarək yeri!
Allahın yıldızı, o gözəl pəri,
Sığınmış qoynunda aya, bayrağım!
1. Bayraq müstəqilliyin rəmzi kimi təqdim olunmuşdur.
2. Bayrağın dalğalandığı konkret yerə işarə olunmuşdur.
3. Bayrağımızdakı ay və ulduza işarə olunmuşdur.
4. Bayrağın kölgəsinin düşdüyü yerə belə rəğbət ifadə olunmuşdur.
A) 1, 2 B) 1, 4 C) 2, 3 D) 1, 3 E) 3, 4

82. Şifahi xalq ədəbiyyatı nümunələrinə aid cədvəldəki uyğunluğu müəyyənləşdirin.
- "Dərzi şagirdi Əhməd"
- "Ağıllı uşaq"
- "Çahargah əfsanəsi"

Yalnız birinə aiddir	İkisinə aiddir	Hər üçünə aiddir
1. Hökmdar ailəsinin üzvü əsas surətə kömək edir. 2. "Yıxılanın dostu olmaz" atalar sözü əsərin əsas ideyası kimi götürülə bilər.	3. Suallara cavab tapmaq epizoduna yer verilmişdir. 4. Almaların yaşını tapmaq tələb olunur.	5. Əsas surətin qələbəsi ilə başa çatır. 6. Xalqın dəstəyini alan surətə yer verilmişdir.

A) 2, 3, 6 B) 1, 4, 5 C) 1, 3, 6
D) 1, 2, 5 E) 2, 4, 5

83. Anarın "Keçən ilin son gecəsi" əsəri ilə bağlı doğru fikirləri müəyyənləşdirin.
1. Həmidə ilə Səkinənin dialoqundan Həmidənin yeni ili evdə qarşılamağı üstün tutduğu məlum olur.
2. Süleymanın fikrini dəyişməsi Gülarənin anasını qoyub getməyə məcbur olması ilə nəticələnir.
3. Rüstəmin evdə olması Tofiq və dostlarının başqa yer axtarmalarına səbəb olur.
4. Eynəkli kişinin sözlərindən sarsılan Həmidə şübhələrinə son qoymaq üçün zəng edib məsləhətləşmək ehtiyacı duyur.
5. Həmidə qısa müddət də olsa, övladlarının hamısının eyni anda evdə olmasının sevincini yaşayır.

84. Hansı fikirlər "Koroğlu" dastanından seçilmiş surətlər arasındakı münasibəti doğru göstərir?
1. Koroğlu – Ələmqulu xan: Xalq nümayəndəsi və yuxarı təbəqə nümayəndəsi arasındakı dostluğu göstərir, bəzi qüvvələr üçün narahatlıq mənbəyidir.
2. Xotkar – Hasan paşa: Bir-birinə inanmayan surətlərin əməkdaşlığını əks etdirir.
3. Koroğlu – Mehtər Murtuz: Bu surətlərin birinin timsalında xəyanət, digərində bağışlama müşahidə olunur.
4. Koroğlu – Giziroğlu Mustafa bəy: Getdikcə artan və güclənən rəqabətdə təsvir olunurlar.
5. Qara xanın mehtəri – Aslan paşanın qoruqçusu: Koroğluya münasibətdə fərqlənən surətlərdir.

85. Ç.Aytmatovun "Gün var əsrə bərabər" romanı ilə bağlı doğru fikirləri müəyyənləşdirin.
Dostu Qazanqapın vəsiyyətini yerinə yetirmək üçün çalışan Yedigey...
1. müasir manqurtların ona mane olması halı ilə qarşılaşır.
2. mənəvi dəyəri olan Ana-Beyitin hazırkı vəziyyətinə görə narahat olur.
3. Malakumdıçap adlanan yerin Nayman-Ananın oğluna ağı dediyi yer olduğunu öyrənir.
4. insandakı biganəlikdən dəhşətə gəlir, hətta belə insanla söhbətdə nifrətini büruzə verir.
5. müasirləşmənin tarixin izlərinə toxunmadan mümkünlüyünə şahid olub sevinir.

86. Hansı surətlərin hadisələrin gedişində verdiyi qərar sonradan onun peşman olması ilə nəticələnir?
1. Səba (Ş.İ.Xətayi. "Dəhnamə")
2. Ağac (İ.Krılov. "Ağac")
3. Firuz (Ə.Məmmədxanlı. "Qızıl qönçələr")
4. Daşdəmir (İ.Hüseynov. "Zəhər")
5. Rüstəm bəy (N.Vəzirov. "Müsibəti-Fəxrəddin")

87. M.Füzulinin "Leyli və Məcnun" peomasına əsasən uyğunluğu müəyyənləşdirin.
1. Məcnunun Leyliyə müraciətindəndir.
2. Zeydin Məcnuna müraciətindəndir.
3. Məcnunun atasına müraciətindəndir.
a. Faş oldu çü aləmə fəsanəm,
Tədbirimə düşdü atəm, anəm.
b. Qəm çəkmə ki, mən olunca qəmxar,
Yarın sənə ənqərib olur yar.
c. Əğyar ilə oldu yar Leyli,
Var indi sən ondan ol təsəlli.
d. Leyli sənə verdi zindəgani,
Sən ol baqi, ol oldu fani!
e. Bizdə ikilik nişanı yoxdur,
Hər birinin özgə canı yoxdur.

88-90-cı sualları mətnə əsasən cavablandırın.

Gülsabah

G ü l s a b a h. Yoldaşlar, mən nə müdirəm, nə də rejissor. Bu gündən bu kollektivin yeni bir üzvüyəm. Sənətdə ilk addımlarımı atıram. Şüarım: sökmək, dağıtmaq, tikmək, yaratmaq... Mən bilirəm ki, açıq söz acı olar. Ancaq biz böyük bir yarışa girişərkən tək-tək adamlardan utanıb susmaq səhnəmizə qarşı xəyanət olar.

M i r z ə C a m a l. Kişinin qızı doğru deyir də. Hələ sən, Xurşid, həftə səkkiz, mən doqquz gah hamama gedirsən, gah kooperativə. O da deyir işinə dürüst bax da.

H a m ı. Doğrudur, doğrudur.

G ü l s a b a h. Bir də, yoldaşlar, bizdə bir konservatizm var: yenilikdən qorxmaq, köhnəliyə pərəstiş. Mən o gün gördüm, gənc rejissordur, başında yeni fikirlər vardır. Aktyora deyir, aktyor isə öyrənmək əvəzinə ona acıqlanır, uşaq və daha bilməm nələr deyir.

M i r z ə C a m a l. Rejissorun canı çıxsın, danışığını bilsin. Qundaqdan dünən çıxıb, mən bu səhnədə neçə ildir, can çürüdürəm, xüsusi məktəb yaratmışam, indi gəlib nə deyir: belə dayanma, belə dayan, bunu götür, bunu qoy.

G ü l s a b a h. O, doğru deyirdi. Sizin oynadığınız rolda ictimai bir sifət yox idi. Əsla yeni quruluşda elə rollar sizə verilməməlidir.

M i r z ə C a m a l. Mən sənətkaram. Mən Yaqo oynayanda, Frans oynayanda, Otello oynayanda siz harada idiniz? Mən göz açmışam, Əmrəstan bəyi o cür oynayıram. Tip yaratmışam. Mən razı olmaram ki, dünənki bir uşaq gəlib, mənim tipimi dəyişdirib hindi-rabadı bir şəklə salsın...

X o s m ə m m ə d. Sabahdan mən heç teatra gəl-məyəcəyəm. Gedib ticarətlə məşğul olacağam.

A s y a. Sabahdan mən də gəlməyəcəyəm. Ya onun dilini kəssinlər, ya da...

(C.Cabbarlının "Dönüş" əsəri əsasında hazırlanmışdır)

88. Gülsabah surətinin müəllif ideyasını dəstəkləyən mütərəqqi, Mirzə Camal surətinin isə bacarıqsız olduğunu nəzərə alaraq doğru hesab etdiyiniz iki bəndi seçin və fikrinizi əsaslandırın.

"Sən qocaman sənətkarsan" cümləsi			
Mirzə Camal tərəfindən Gülsabaha deyilsə...		Gülsabah tərəfindən Mirzə Camala deyilsə...	
□ Mətnin məzmununa uyğun gələr	□ Mətnin məzmununa uyğun gəlməz	□ Bədii təsvir vasitəsi yaranar	□ Bədii ifadə vasitəsi yaranar

89. Mətnin və C.Cabbarlının "Oqtay Eloğlu" əsərinin müqayisəsi əsasında cədvəli tamamlayın.

Əsas surətlər: Oqtay və Gülsabah üçün ortaq cəhətdir	Digər aktyorlar üçün ortaq cəhətdir	Əsərlərin forması üçün ortaq cəhətdir

90. Gülsabah surətinin xarakterində müşahidə olunan iki cəhət yazın və mətnə əsasən əsaslandırın.

	Xarakterik xüsusiyyət	Əsaslandırma
1		
2		

SINAQLAR TOPLUSU

3-cü qrup

Çapa imzalanıb 06.03.2026.

Kağız formatı 60x84 $^{1}/_{8}$.

Fiziki çap vərəqi 26.

Tiraj 1000.

META BOOK

META BOOK MMC-nin mətbəəsində çap olunmuşdur.

e-mail: metabook.print@gmail.com

Sınaq	1
Bölmə	Azərbaycan
Sinif	11
Qrup	III

1	D	**11**	C	**21**	C
2	B	**12**	B	**22**	A
3	E	**13**	A	**23**	234
4	C	**14**	E	**24**	246
5	A	**15**	B	**25**	34
6	E	**16**	C	**26**	345
7	D	**17**	E	**27**	1BC2D3AE
8	B	**18**	E		
9	C	**19**	A		
10	B	**20**	C		

Sınaq	2
Bölmə	Azərbaycan
Sinif	11
Qrup	III

1	E	**11**	E	**21**	B
2	B	**12**	D	**22**	C
3	E	**13**	C	**23**	1346
4	E	**14**	A	**24**	3412
5	A	**15**	C	**25**	3412
6	B	**16**	B	**26**	245
7	C	**17**	D	**27**	1DE2AB3C
8	D	**18**	A		
9	E	**19**	A		
10	D	**20**	C		

Sınaq	3
Bölmə	Azərbaycan
Sinif	11
Qrup	III

1	A	**11**	B	**21**	B
2	E	**12**	B	**22**	C
3	D	**13**	A	**23**	135
4	D	**14**	B	**24**	13
5	E	**15**	C	**25**	12
6	C	**16**	C	**26**	123
7	E	**17**	E	**27**	1C2E3B
8	B	**18**	C		
9	A	**19**	E		
10	E	**20**	A		

Sınaq	4					
Bölmə	Azərbaycan					
Sinif	11					
Qrup	III					
1	B	**11**	A	**21**	E	
2	E	**12**	E	**22**	B	
3	E	**13**	D	**23**	14	
4	C	**14**	C	**24**	31524	
5	A	**15**	B	**25**	146	
6	E	**16**	A	**26**	456	
7	B	**17**	D	**27**	1CE2AB3D	
8	E	**18**	B			
9	B	**19**	B			
10	D	**20**	B			

Sınaq	5
Bölmə	Azərbaycan
Sinif	11
Qrup	III

1	C	**11**	A	**21**	B
2	A	**12**	E	**22**	D
3	E	**13**	E	**23**	13
4	A	**14**	D	**24**	345
5	B	**15**	E	**25**	135
6	D	**16**	C	**26**	2341
7	C	**17**	B	**27**	1E2D3B
8	A	**18**	A		
9	D	**19**	C		
10	B	**20**	E		

Sınaq	6
Bölmə	Azərbaycan
Sinif	11
Qrup	III

1	C	**11**	A	**21**	A
2	D	**12**	D	**22**	C
3	E	**13**	C	**23**	23
4	C	**14**	E	**24**	1432
5	E	**15**	A	**25**	124
6	C	**16**	E	**26**	134
7	B	**17**	B	**27**	1C2B3E
8	B	**18**	D		
9	E	**19**	B		
10	C	**20**	E		

Sınaq	7
Bölmə	Azərbaycan
Sinif	11
Qrup	III

1	A	**11**	E	**21**	C
2	D	**12**	D	**22**	E
3	C	**13**	C	**23**	53124
4	B	**14**	*	**24**	346
5	E	**15**	D	**25**	34
6	B	**16**	E	**26**	1345
7	B	**17**	A	**27**	1E2B3CD
8	A	**18**	D		
9	D	**19**	B		
10	A	**20**	A		

Sınaq	8
Bölmə	Azərbaycan
Sinif	11
Qrup	III

1	C	**11**	A	**21**	D
2	A	**12**	B	**22**	C
3	B	**13**	B	**23**	124
4	A	**14**	D	**24**	35
5	C	**15**	A	**25**	123
6	B	**16**	E	**26**	26
7	E	**17**	B	**27**	1B2D3AE
8	D	**18**	E		
9	C	**19**	E		
10	A	**20**	A		

Sınaq	9
Bölmə	Azərbaycan
Sinif	11
Qrup	III

1	E		**11**	A		**21**	D
2	C		**12**	E		**22**	A
3	A		**13**	E		**23**	1236
4	C		**14**	B		**24**	3412
5	E		**15**	A		**25**	13
6	E		**16**	A		**26**	135
7	B		**17**	B		**27**	1C2AD3B
8	C		**18**	B			
9	B		**19**	C			
10	D		**20**	D			

Sınaq	10
Bölmə	Azərbaycan
Sinif	11
Qrup	III

1	E	**11**	E	**21**	D
2	B	**12**	C	**22**	D
3	E	**13**	C	**23**	234
4	E	**14**	B	**24**	15
5	C	**15**	D	**25**	236
6	D	**16**	A	**26**	3142
7	D	**17**	E	**27**	1BC2AE3D
8	D	**18**	B		
9	B	**19**	E		
10	C	**20**	B		

Sınaq	1							
Bölmə	Azərbaycan							
Sinif	11							
Qrup	III							
1	A		**11**	E		**21**	D	
2	C		**12**	A		**22**	B	
3	E		**13**	C		**23**	1245	
4	D		**14**	D		**24**	256	
5	D		**15**	A		**25**	1236	
6	B		**16**	B		**26**	245	
7	C		**17**	D		**27**	1D2AE3C	
8	B		**18**	C				
9	E		**19**	E				
10	A		**20**	A				

Sınaq	2
Bölmə	Azərbaycan
Sinif	11
Qrup	III

1	E	**11**	C	**21**	C
2	D	**12**	B	**22**	A
3	D	**13**	D	**23**	124
4	B	**14**	A	**24**	235
5	A	**15**	C	**25**	2314
6	E	**16**	B	**26**	1236
7	C	**17**	E	**27**	1D2CE3B
8	C	**18**	A		
9	D	**19**	E		
10	B	**20**	B		

Sınaq	3
Bölmə	Azərbaycan
Sinif	11
Qrup	III

1	E	**11**	C	**21**	C
2	A	**12**	B	**22**	B
3	C	**13**	A	**23**	145
4	D	**14**	D	**24**	2345
5	B	**15**	D	**25**	13
6	D	**16**	E	**26**	24
7	E	**17**	C	**27**	1BE2A3D
8	C	**18**	A		
9	A	**19**	D		
10	B	**20**	E		

Sınaq	4
Bölmə	Azərbaycan
Sinif	11
Qrup	III

1	E	**11**	E	**21**	E
2	B	**12**	C	**22**	A
3	B	**13**	A	**23**	34
4	E	**14**	B	**24**	125
5	A	**15**	D	**25**	145
6	C	**16**	D	**26**	34
7	D	**17**	C	**27**	1C2B3AD
8	C	**18**	C		
9	D	**19**	A		
10	E	**20**	B		

Sınaq	5
Bölmə	Azərbaycan
Sinif	11
Qrup	III

1	D	**11**	D	**21**	E
2	E	**12**	A	**22**	B
3	B	**13**	C	**23**	124
4	A	**14**	B	**24**	35
5	E	**15**	E	**25**	1345
6	C	**16**	D	**26**	246
7	A	**17**	E	**27**	1C2AE3BD
8	B	**18**	A		
9	C	**19**	C		
10	B	**20**	D		

Sınaq	6							
Bölmə	Azərbaycan							
Sinif	11							
Qrup	III							
1	E		**11**	C		**21**	D	
2	A		**12**	A		**22**	A	
3	E		**13**	B		**23**	1243	
4	C		**14**	D		**24**	35	
5	D		**15**	E		**25**	236	
6	B		**16**	C		**26**	156	
7	B		**17**	E		**27**	1B2E3AD	
8	A		**18**	B				
9	D		**19**	C				
10	E		**20**	C				

Sınaq	7
Bölmə	Azərbaycan
Sinif	11
Qrup	III

1	B	**11**	D	**21**	E
2	E	**12**	B	**22**	A
3	C	**13**	C	**23**	24
4	B	**14**	C	**24**	135
5	A	**15**	E	**25**	345
6	E	**16**	D	**26**	12
7	D	**17**	A	**27**	1E2A3C
8	E	**18**	C		
9	C	**19**	B		
10	A	**20**	D		

Sınaq	8							
Bölmə	Azərbaycan							
Sinif	11							
Qrup	III							
1	C		**11**	E		**21**	D	
2	C		**12**	E		**22**	A	
3	A		**13**	D		**23**	35	
4	D		**14**	C		**24**	123	
5	E		**15**	B		**25**	234	
6	E		**16**	A		**26**	45	
7	B		**17**	B		**27**	1E2C3D	
8	A		**18**	D				
9	B		**19**	C				
10	C		**20**	E				

Sınaq	9
Bölmə	Azərbaycan
Sinif	11
Qrup	III

1	C	**11**	D	**21**	A
2	D	**12**	C	**22**	D
3	E	**13**	A	**23**	35
4	E	**14**	E	**24**	245
5	B	**15**	B	**25**	13
6	A	**16**	D	**26**	2413
7	E	**17**	E	**27**	1CD2BE3A
8	A	**18**	C		
9	B	**19**	B		
10	C	**20**	D		

Sınaq	10
Bölmə	Azərbaycan
Sinif	11
Qrup	III

1	D	**11**	B	**21**	B
2	B	**12**	A	**22**	D
3	C	**13**	C	**23**	2341
4	C	**14**	B	**24**	135
5	A	**15**	E	**25**	245
6	D	**16**	E	**26**	146
7	E	**17**	C	**27**	1DE2A3BC
8	D	**18**	A		
9	A	**19**	B		
10	E	**20**	E		